**Ağarəhim**

# Əsərlər

# Romanlar

# XI

**Bakı - 2015**

**Redaktor: Dilsuz**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. XI cild (romanlar). Bakı, BQU nəşriyyatı, 2015, 558 s.

“Qasırğa” romanında Qərbi Azərbaycanda və Qarabağda, erməni-azərbaycanlı münaqişəsindən, Xocalı soyqırımından, xalqın öz yurd-yuvasından didərgin salınmasından, azərbaycanlı didərginlərdən bəhs olunur. “Nişan üzüyü”ndə səhlənkarlıqları nəticəsində gənclərin cəmiyyətdə törətdikləri fəsadlardan, məşəqqətlərdən, pul eşqiylə törədilən fitnə fəsadlardan danışılır. “Qisas”da isə cəmiyyətin mənəvi-əxlaqi eroziyasından, yetişən nəsillərin qarşılaşdıqları faciələrdən söz açılır.

*BQU - 2015*



# Qasırğa

***(Roman)***

***Mübarizə sona yetəndə***
***ikinci həyat başlanır.***
**Müəllif**

## Proloq əvəzi

Qət elədiyi yolun məşəqqətləri barədə düşünəndə, o, danışmağa söz tapa bilmirdi. Ruhu sarsılır, hərdən öz-özünə suallar verirdi: Necə oldu ki, Allah bizi bu dəhşətli fəlakətlərlə qarşılaşdırdı? Bunun səbəbkarı kimdi? Axı, hamı kimi bizim də xoşbəxt olmağa haqqımız vardı. Yox idisə, niyə? Zeynəb qarının bir qəribə deyimi var: “Allah əvvəl adamın ağlını alır, sonra canını”. Ağılsız fəlakətləri törədənlərdi, yoxsa, günahsızların taleləriylə oynayanlar, zavallıları dərdi-sərə salanlar? Hansısa mafioz qrup, yoxsa, elələrinin arxasında tülkü kimi, ac yalquzaq təki dayananlar?.. Nə vəlvələdən, nə də zəlzələdən, heç fərq eləməz. Olan olub. Onlara da, elə düşmənə də. Yenə Zeynəb qarının sözüdü: “Ağlın, zəkanın parıltısı sezilməyən yerdə şeytan at oynadar”. Vətəndən, valideyndən, ailədən savayı adam hər şeydən keçər. Bunlardan ona görə keçməz ki, bunların hər biri qeyrətdi, namusdu, ləyaqətdi, şərəfdi... Bunlar mənvi-əxlaqi keyfiyyətlərin zənciridi. Həlqələrdən birinin itməsi insanın ölümüdü, məh-

vidi deyənlər, bəlkə də, səhv eləmirlər. Etiraf edilməlidir ki, o və onun tay-tuşları gözlərini açıb, "solğun, gözləri yaşlı çiçəklər" görüblər. Onların ətrini heç zaman duymayıblar və əmindilər ki, heç zaman da duya bilməyəcəklər. Rüzgarın min bir qovğasında Ərəbistan səhralarında istidən, susuzluqdan təngə gələn ilanlartək qıvrılırdılar. Nəsibləri aclıq, zülm, əzab, iztirab... olub. Alçalmalara, təhqirlərə, cinayətlərə dözməyərək, neçə dəfələrlə affekt vəziyyətinə düşəndə, bəzən Yaradana da asi düşürdülər. Günahsız olduqları üçün yəqin ki, Allahları da onları bağışlar.

Hər şeyləri itib. Niyə açıq danışmasınlar: bəzən onlar daha əxlaqi dəyərlərə layiq deyillər qənaətlərinə gələnlərtək idrakı korlar da olublar... Bütün bunları düşünəndə, o özünü "həyatın dibində" sanırdı. Qırğının ona vurduğu yaralar bütün həyatını alt-üst eləmişdi. Ailəsi istisna olmaqla ətrafı boş idi. İçi vahimə doğuran qəbiristanlığı xatırladırdı. Axtarsan, ordan da heç nə tapa bilməzsən. Olsa-olsa, yandırıcı xatirələr, bir də ağrı-acılı təəssüratların soyuq izləri... Keçdiyi kələ-kötür yolları gözləri önünə gətirəndə, heç nədən əriyən taleyini fikirləşəndə, onu yeganə sual düşündürürdü: nə axtarıb, nə tapıb? Onun tale yolu hardan başlanıb, harda sona yetəcək?!.

## İstanbulla tanışlıq

Otuz ilə yaxın ailə quran, birgə yaşayışlarını təmin eləyən, bu illər ərzində iki övlad dünyaya gətirib tərbiyələndirən Rəşidlə Nişanə özləriylə gətirdikləri ağır-yüngülləri hoteldə yerbəyer edib, axşama yaxın şəhər gəzintisinə çıxdılar. Barəsində xoş sözlər eşitsələr də, kinofilmlərdən, televiziya verlişlərindən tanısalar da, sovet dövlətinin yetmiş ildən artıq sürən yasaqları nəticəsində bu şəhərlə canlı təmasda ola bilmədikləri üçün çox





təəssüflənə-təəssüflənə Mustafa Kamal Atatürk prospektiylə "Gəzinti" parkına doğru getdilər. Dükan-bazarlara girir, xoşlarına gələnlərə baxır, qiymətlərini, ölçülərini... öyrənirdilər. Rəşid dil boğaza qoymur, hey danışırdı. Hərdənbir "hə"ləri olmasaydı, demək olardı, Nişanə susurdu. Onlar qarşıdakı qədim, misilsiz Şərq heykəltəraşlıq ənənələrini özündə yaşadan möhtəşəm məhəlləyə çatanda sola döndülər. Yerə döşənmiş çay daşları üzərində gəzməyə alışmadığından, Nişanə Rəşidin qoluna girdi. Ayaqları ağrıdığından bir neçə addım atıb dayandı. Dərindən nəfəs aldı.

— Nə qədər sənətkarlıqla döşənib, — dedi. — İnsan hər şeyə qadirdi, Rəşid. İstanbulun dünya durduqca yaşamağa haqqı var. Heyrətləndirici gözəlliyinə vurulmaya bilmirsən... Qaş qaraldıqca, elə bil, İlahi səyyarələr aləmindən, kəhkəşanlar dünyasından onun başına tac qoyur. Bu şəhərdə yaşamağa da, ölməyə də dəyər.

— Necə? Necə? — Bu qəribə fikir sənin ağlına hardan gəldi, əzizim? — Rəşid gülümsündü: — Əcəb romantiksən. Duyumuna, həssaslığına söz ola bilməz.

Nişanə təəssüf hissiylə: — Eh... Hər şey müvəqqətidi, — deyib, ah çəkdi. — Nə qədər ki, İstanbulu görməmişdim... İnsan axını... Ecazkar yaradılmışlar, zövq oxşayan təbiət... Gördüklərim yuxudumu?

— Yox... Hər şey realdı, əzizim, — deyə Rəşid səssiz-səmirsiz Nişanəylə yerişini davam etdirməyə cəhd edirmiş kimi qabağa dartındı. Park tərəfdən yüngülcə əsməkdə olan külək özüylə rəngarəng, əlvan güllərin, çiçəklərin bir-birinə qovuşan ətrini onların nəfəsinə qatır, ciyərlərinə hopdurur, ruhlarına xoşhallıq gətirirdi.

Rəşid cibindən siqaret çıxarıb yandırdı və dərindən bir qüllab vurdu. Handan-hana tüstünü ağzından və burnundan eyni vaxtda çölə buraxdı...

Nişanə gülümsünərək: — Hə... Bircə gül kimi havanı zəhərləyən siqaretin çatmırdı, — deyib, küləyin təsiriylə özü tərəfə yönələn tüstüsünü kənara üfürdü. Rəşid: — Hə... Bu zəhrimara lap yeniyetməlik yaşlarımdan öyrəncəliyəm — dedi. — Nə qədər çalışıramsa, tərgidə bilmirəm. Görünür, iradəm zəifdi...

— Yox... Mən elə deməzdim. Sadəcə, qəsd qoymursan. Yanında çəkirlər, tüstü, üst-başına hopur, ciyərlərinə dolur. Əvvəllər çəkib öyrənişdiyin üçün səndə də ona ehtiyac oyanır...

Ər-arvad söhbət eləyə-eləyə keçidə çatırdılar ki, Rəşid: — Əzizim, üz-gözündən görürəm ki, yorulmusan. Bir az da gəzsək, sənin üçün çətin olacaq. Bu yolu qayıtmaq da var, — deyib, arvadının fikrini öyrənməyə çalışdı.

Nişanə: — Bu ruh dincəldən gecədən, hissləri sakitləşdirən gəzintidən bir də olacaqmı? — deyib gülümsündü, sonra da gözqaşını yüngülcə oynadıb ərinin qolunu sıxdı. Arvadının dediklərindən məmnun qalan Rəşid bir söz demədi və sadəcə çiyinlərini çəkib yoluna davam elədi. Onlar parka çatanda axşamdan xeyli keçmişdi. Rəşid: — Yaman susuzlamışam. Su, meyvə şirəsi, çay, yoxsa, qəhvə? — deyib arvadının üzünə baxdı və əlavə elədi: — Bəlkə türk qəhvəsi içək, bütün günü ayaq üstəyik... Bir də ki, qalır yatmaq, məncə özümüzü nə qədər çox yorsaq, o qədər yaxşı yatarıq... Düzmü fikirləşirəm?

— Düzdü-əyridi, deyə bilmərəm... Qəti əminəm ki, polkovnik, səndən əla fizioloq çıxar... Bu şərtlə ki, siqaret çəkməyi tərgidəsən. Belə olsa, gecələr yuxudan qalxıb tüstüyə olan tələbatını ödəməzsən. Məni də dumana, çənə bürüməzsən...

— Əzizim, o Bakıda qaldı.

— Adətkara nə Bakı, nə İstanbul? Hər ikisi birdi. Ancaq çalışıb bu adətini tərgidə bilərsən.

Rəşid ani fikrə getdi:

— Deyəsən, səni bezdirmişəm. Söz verirəm, Bakıya qayıdan kimi siqaret çəkməməyə cəhd göstərəcəm. Tərgidəcəm, yox





ha...

— Cəhd edəcəyinə inanıram. Ancaq zəhlətökən ehtiyacın öhdəsindən gələ biləcəyinə inanmıram. Adət çox piş şeydi. Ona möhkəm iradə lazımdı.

Ər-arvad gəzə-gəzə şüşəli kafeyə gəldilər. Kənarda qoyulmuş stolun ətrafında əyləşdilər. Südlü qəhvə sifariş verdilər. Çox çəkmədi ki, xidmətçi qəhvələri gətirdi. Hiss olunurdu ki, kafedə əyləşənlərin böyük əksəriyyəti gəlmələrdi. Türkcə danışan çox az idi. Əksəriyyət ingilis, rus, ərəb, fars dili vasitəsiylə ünsiyyətdəydilər.

Nişanə qəhvədən bir qurtum içərək əlini Rəşidin əlinin üstə qoydu və yüngülcə sıxdı: — İstanbul əsl Avropa şəhəridi, — dedi. Bir dön, içəridəkilərə bax. Hamı öz işində, öz dərd-sərindədi. Rəşid arvadının sözünü təsdiqlədi. Sonra əlavə elədi: — Yaradanın hökmüylə peyda olub daim çalxalanan Qara dəniz... Fəth olunmaz kəhkəşanlar dünyası İstanbul... Əsrarəngiz ulduzlardan qəhrəmanlıq dastanı yazan, böyük türkə günəşdən zərrin saçan Qibləgah... Sirli-sehirli səyyarələr aləmiylə bəhsə girən və türk xalqlarının ümidini nurlandıran, nicat yolunu işıqlandıran, qəlbləri rövnəqləndirən, ruhları isindirən bir ümmandı “Turan hotel”... Türklər olduqca vətənpərvərdilər. Onlar üçün vətən canlarından əzizdi. Bu çox möhtəşəm keyfiyyətdi. Bütün xalqlara nümunə olunasıdı, — səsinə ara verdi, — bununla belə, Türkiyə Cümhuriyyətinin milli tərkibi müxtəlifdir. Türkləri istəməyən, ölkədə ayrı-seçkilik salan, hərc-mərclik yaradan kiçik qruplar da var... Bu ölkəyə xarici təsirlər də tarixən çox olub, indi də var. Terrora məruz qoyurlar... Bu yolla ölkənin sabitliyini pozurlar. Sadə xalq, hətta, gəlmələr ondan çox əziyyət çəkirlər. Düşmənlərinin ağıllarına gəlsə, lap burda da təxribat törədə bilərlər.

— Məni qorxudursan?..

— Əşi, nə qorxutmaq?.. Gündə eşitmirsən, filan yeri partlat-

dılar, bəhmən yeri dağıtdılar. Beş nəfər orda, üç nəfər burda günahsız adam qətlə yetirildi. Neçəsi də yaralandı... Türkün qanı coşdusa, heç nəyə baxmaz. Axıracan gedəcək... Böyük rəşadət dastanına çevrilən misilsiz qəhrəmanlıq eposu Çanaqqala davasını xatırla...

Ər-arvad bir fincan qəhvə içib ayağa qalxdılar. Gəzə-gəzə, söhbət eləyə-eləyə parkdan çıxdılar. Şəhərdə adamların azalmadığını hiss edən Nişanə dedi:

— Qəribədi, İstanbulda sanki gecəylə gündüz qarışır.

— Necə bəyəm? — Rəşid soruşdu.

Nişanə dərhal cavab verdi:

— Küçə-bacalardan, parklardan adamlar azalmır ki. Dükan-bazar da öz iş-gücündə... Bir də ki, açıq-saçıqlıq. Bakı kimi burda da var.

— Türk ölkəsiyik də... Burdakıların çoxu bayaq dedim axı, gəlmələrdi... Türkiyə turizm ölkəsidi...

— Turizm ölkəsidi deyə, polkovnik, özlərini çöldə qoymalıdılar?

— Əşi, bizim dərdi-sərimiz bəyəm budu? Kimlər nə eləyirlər, özləri bilərlər.

Nişanə başını yırğaladı. Susdu. Bir anlığa Bakı barədə düşündü. Anasının yanında qoyub gəldiyi oğlu Fərid, qızı Fəridə gözləri önündə dayandılar.

Nişanənin ürəyi yumşaldı:

— Turistlər kimi biz də şəhəri ayaq-baş eləyirik. Ancaq...

— Nə ancaq?

— Görəsən, uşaqlar nə yeyib-içiblər?.. Yatıblarmı?

— Biz bura kefə gəlməmişik ki, sən elə düşünürsən.. Hiss eləyirəm, çox kövrəlmişəm... Belə getsə, ağlaya da bilərsən... Anana etibar eləmirsən?.. Bu gün gəlmişik. Səni müayinə elətdirək. Xəstəliyinin səbəblərini bilək... Başımıza çarə qılaq. Uşaqlara nə olandı ki? Hər gün nənələrinin yanında qalmırdılar?.. Bir də ki, böyük uşaqlardı.





Nişanə astadan:

— Mən anayam, polkovnik, — dedi.

— Bəs mən nəyəm? Ata deyiləm?

Hər ikisi güldü. Polkovnik sözünə davam elədi:

— Yorulub əldən düşmüsən. Danışmağa söz tapmırsan. Gəl oturaq taksiyə, gedək hotelə. Dincələk. Ağrın-acın çıxsın. Qalanını da orda söhbət elərik. İstəsən, Bakıya telefon açıb ananla, uşaqlarla da danışarsan. Sakitləşərsən...

Qadın ərinin sözünə etiraz etmədi:

— Hə... Ayaqqabı ayağımı sıxır, belə getsə...

Rəşid yanlarına çatmaqda olan taksiyə əliylə "Saxla" işarəsini verdi. Maşın dayandı. Ər-arvad arxa oturacağa əyləşdilər. Rəşid sürücüyə: — "Turan hotel"ə — dedi. Maşın yerindən sürət götürdü. Gah sağa, gah da sola burulur, enişli-yoxuşlu küçələrlə üzü yuxarı hərəkət eləyirdi. Memarlıq sənətinin gözəl inciləriylə adamı özünə heyran qoyan çil-çıraqlı hər küçə ər-arvada möcüzələr adasını xatırladırdı. Onlar "ona bax", "buna bax", "necə də heyranedicidi", "əhsən bu gözəllikləri yaradan memarlara"... deyirdilər. Rəşid handan-hana dedi: "Bu gözəlliyi olmasaydı, dünyanın gözləri İstanbula dikilərdimi?".

Sürücü: — Xocam, İstanbulun hər tərəfi beləcə gözəldi. Muzeyləri, məscidləri, mədəniyyət sarayları lap aləmdi. Onlara tamaşa eləməmək, "İstanbulda oldum" — demək deyil. Böyüklüyünə görə dünyanın beşinci şəhəri olan İstanbulun 8500 il tarixi var. O, Avropa və Asiyanın qovşağında özünə məskən salıb. Qədimliklə müasirliyi özündə birləşdirən bu şəhər Şərqlə Qərbin memarlıq, şəhərsalma nümunələrini özündə qoruyub yaşadır. Mən istərdim, xocam, gəlmişkən, Sultan Əhməd camisinə tamaşa eləyəsiz. Bitib-tükənməyən təəssüratlar məskəni Ayasofiyaya baxasız. Əfsanəvi və nağılabənzər məkan olan Yerəbatan Sərincə gedəsiz... Avropa və Asiyanı birləşdirən körpü, Bosfor

boğazının gözəlliyi misilsizdi. Onların heç birini təsvir eləməyə gücüm çatmır. Gedin, görün. Bakıya qayıdanda da təəssüratlarınızı dost-tanışlarınıza danışarsız. Bir sözlə, İstanbulla tanış olmaq üçün illər lazımdı.

Sürətlə hərəkət eləyən maşın tini burulub, "Turan Hotel"in qarşısında dayandı. Rəşid sürücüylə hesablaşdı, sonra onlar özlərinə ayrılan otağa getdilər.

Rəşid telefonun dəstəyini götürüb gecə restoranının nömrələrini yığdı. Yüngül şam yeməyi sifariş verdi və özü də yuyunmaq üçün vanna otağına keçdi. Nişanə isə mobil telefonuyla anası Firuzə xanımla danışdı: uşaqlarından hal-əhval tutdu; onların özlərini necə aparmalarını soruşdu; İstanbulda rahatlanmaları barədə məlumat verdi... Xeyli sakitləşdi, telefonu söndürüb Rəşidin vanna otağından qayıtmasını gözlədi. Rəşid gələndə Nişanə dedi:

— Hə... İndi ürəyim düşdü yerinə. Valideynsiz övlad, övladsız valideyn necə xoşbəxt ola bilər? Hərdən övladından imtina eləyən analar barədə düşünəndə məni əcəl təri basır. Az qalıram, gedib elə valideynləri dişimlə-dırnağımla didəm. Yadındamı, bizimlə qonşuluqda yaşayan Zülalə? Üç yaşlı oğlunu öldürüb zibil quyusuna atmışdı... İstintaqa verdiyi cavabda: "Uşağı mən öldürdüm. O mənə artıq yük idi. Mən sərbəst yaşamaq istəyirəm..." demişdi. Aman Allah... Hər cür insan var... Görəsən, beləlɘri nə düşünürlər?..

— Hə... Səni sarsıdan, sinirlərini korlayan, belə vəziyyətə salan elə düşüncələrindi, Nişanə.

— Neyləyim?.. İnsan olasan... belənçiklərinə də biganə qalasan?

Elə bu vaxt qapı döyüldü. Xidmətçi əlində yeyib-içmək podnosu içəri girdi. Podnosu stolun üstə qoyub: — Nuş olsun, — deyib, qapıdan çıxdı. Nişanə stolun üstünü qaydaya salıb yeməkləri yerbəyer elədi. Xoş ətirli xörəyin iyi otağı bürüdü. Ər-arvad





süfrəyə əl atdılar. Yedilər-içdilər. Sonra da Nişanə stolun üstündənki qab-qacaqları podnosa yığdı. Aparıb bayırdan qapının arxasına qoydu. Gecə-gecədən keçirdi. Rəşid: — İndi nə fikirləşirsən, yatmaq istəmirsən? — deyib, arvadının üzünə baxdı.

— Şəxsən mən yorulmuşam. Səhər erkən qalxmalıyıq. Bəlkə sən də gözlərinin acısını alasan?..

Nişanə astadan: — Deyirəm, ay Rəşid, səhər Bakıda, axşam İstanbulda. Səhər doğma ev-eşiyində, axşam hoteldə...

— İnsan belədi də.

— Necə?

— Quş kimi... — Gülərək: — Bilirəm, bir azdan deyəcəksən, səhər evində, toyda-bayramda, ziyafətdə, axşam gorda, inkir-minkirlərlə sorğu-sualda... Sən canın, yat... Səhər üzümüzə xoş açılsın, qalanını sonra danışarıq.

Nişanə ağız-burnunu büzüşdürdü:

— Yatan vaxtı gör nə danışırsan? Polkovnik, həyatın o qədər dolanbacları var, gəl görəsən. Mənə elə gəlir ki, insanın yaşamını içi, əhvalı müəyyən eləyir. Onun iç rahatlığı yoxdusa, qəlbi gülmürsə, ömrü ahu-zar içində keçər, fiziki sağlamlığı əlindən gedər.

Rəşid astadan:

— İndi üzünü çevir divara, yat. Sabahımız xeyirə açılsın...

## Hoteldə ilk gecə

Yuxusunu qarışdırdığından, gecəyarısı bərk ürək döyüntüsü və əsməcə içərisində dili-dodağı təpiyən, qan-tərə batan Rəşid yuxudan dik atıldı, yorğanını üstündən kənara sıyırıb ayağa qalxdı. Nişanə astadan: — Hə... Yenə nə baş verdi? — deyib, yorğanın arasında o biri böyrü üstə çevrildi. Rəşid arvadının nə dediyini düz-əməlli anlamadığından, əvvəl fərqinə varmadı. O,

yarıyuxulu halda paltarlarını geyinəndə hiss elədi ki, qamətini düzəldə bilmir, az qalır beli ağrı-acıdan çatlasın. Dözə bilməyib: — Ana! — dedi və əlinə götürdüyü paltarı çarpayının baş tərəfinə ataraq "of", "uf" eləyə-eləyə yenidən yatağına uzandı: — Bircə bu çatmırdı, nəyə gəlmişdik, gör başımıza nə gəldi? İndi də gəl ayaq üstə dur, görüm necə durursan? — O: — Nişanə!.. Nişanə!.. — deyə arvadını səslədi.

Arvadı yenə mızıltıyla dedi:

— Rəhmətliyin oğlu, başını yastığa atanda əvvəl xorultundan, sonra da zarıltından yuxumu doyunca almağa qoymadın... Hə, sözünü de.

— Ağız, belim qırıldı... Gəldim kabab iyinə...

Ərinin dedikləri deyəsən, Nişanəyə indi çatdı. O, yataqdan qalxıb tələm-tələsik işığı yandırdı. Ərinin üz-gözünə baxanda, əməlli-başlı çaşdı. Gözləri kiçilən, sir-sifəti gərilən, ah-ufu otağı bürüyən Rəşid çarpayının ortasında kürəyi üstə dümdüz uzanmışdı. Əlinin birini belinin altına qoymuşdu, o birisini yumruqlamışdı. Nişanə dərhal hiss elədi ki, ərinin vəziyyəti ciddi və ağırdı. O təəccübləndi: — A kişi, sənə nə oldu bu gecə? Yoxsa, dünən çox gəzmişik, soyuqlamısan. Bir özünə gəl, sabah açılsın...

Nişanə başını qaldırıb divardan asılan ürək şəkilli saata baxdı. Saat heç bir şeyin fərqinə varmadan öz işindəydi: aramsız çaqçuk eləyirdi. Əqrəbləri dördə beş dəqiqə işlədiyini göstərirdi. Arvadı fikir götürdü: "Mən neyləyim? Gecənin bu vaxtında həkim çağırtdırımmı? Bu nə qəziyyədi, evdən-eşikdən, yad diyarda başımıza gəldi? Əşi, özümü idarə eləyə bilmirəm, kişi də bu günə düşdü. Əcəb işdi. Sən saydığını say, gör fələk nə sayır — buna deyiblər də..."

Nişanə yazıq görkəm alıb ərinin gözlərinin içinə baxdı. Kişinin gözlərindəki işıq ağrı-acıdanmı, yuxusuzluqdanmı, — hər nədəndi, demək olar ki, parlaqlığını itirirdi. Nişanənin gözləri





doldu:

— Rəşid, ay Rəşid, sənə nə oldu? Olmaya belin bərk ağrıyır?

— Nə olduğunu bilmirəm, ay Nişanə, ölürəm. Nəfəsimi çətinliklə alıram. Ürəyim sancır.

— Əşi, bellə nəfəs arasında nə əlaqə-səlaqə?

— Elə sual verirsən... Mən hardan bilim? Nəfəsi buraxanda ağrı-acı bir balaca belciyəzimə ara verir, alanda, qarnım, elə bil, şişir... Nəfəs zəhirmar belə də rezonans verər?

— Rezonans nədi?..

— Əşi, mən nə bilim... Ananın çaldığı halva. Mən burda ölürəm, sən gör məndən nə soruşursan? Çarpayıda, ağrı-acı içərisində oturub sənə fiziki-kimyəvi elementlərdən mühazirəmi oxumalıyam? Deyirəm, ölürəm, deməli, ölürəm. İnanırsan, inan, inanmırsan, özümü öldürə bilmərəm ki?

— Yaxşı, əsəbiləşmə... Sözdü, sən dedin, mən də başa düşmədiyimdən soruşdum da. Mənasını qanmadığım sözü mən necə anlaya bilərəm? Ağrı heç ara vermir? Bəlkə çevriləsən, bir balaca belinə əl gəzdirim, sürtələyim, qızışsın. Qızışsa, çox güman ki, ağrı buraxar.

— Çevrilə bilirəm ki.

— Bu yaxınlarda, Rəşid, ağır yük altına-zada girməmisən ki?

Rəşid ağız-burnunu əyişdirdi:

— Ey... Sən kefdən danışırsan. Ölüb öz günümə qalmışam. Nə yük? Onun da ağır-yüngülü ola.

Əlacsız qalan Nişanə dodaqaltı dedi:

— Bircə səhər açılsaydı... Həkimə müraciət edərdik. Zeynəb qarı deyərdi: "Dərd varsa, dərmanı da var". Bir az özünə toxtaqlıq ver. Bir azdan xoruz banı olacaq.

— Hə... Düz deyirsən, səhər açılan kimi arkadaşlara deyərəm, onlar həkim əfəndiyə müraciət eləyərlər. Həkimin baxması labüddür. Dava-dərmana ehtiyacı var.

— A kişi, ay evin tikilsin... Sənə nə olub? Bir yandan ağrıla-

rın, ah-ufların, o yandan da qəliz sözlərin: “faktdı”, “labüddü”, “arkadaş”, “əfəndi”, “mütləqdi”, “ehtiyacım var”. Ay evi tikilmişin oğlu, belə xəstə dili olar? Bakıdan bu gün gəlmədikmi? Nə tez dilini dəyişdin? Neçə illərdi bir yastığa baş qoyuruq, səndə belə dil görməmişəm. Bəlkə də İstanbulda, bu hoteldə sənə vergi verilib, belindəki zırhazır, nırhanır da ondandı.

— Hə... Nə hırhıradan, nə zırzıradan, arvad, hər nədəndi, ölürəm.

— Ayə, çarpayımda qoy ölüm. Dedim axı, hələ gəldiyimiz gün tamam olmayıb... Yığışdır özünü. Mənim dilim var. Ruhum var. O, mənə ata-babamdan qalıb... Çaşma... Özünü itirmə. Sən xəstə olanda.... Canına and olsun, səni peşman eləyərəm. Bu yaşa gəlmisən, hələ də bilmirsən dil nə deməkdi? Adam ölər, dilinə xəyanət eləməz... Dil həm də xalqdı, millətdi, vətəndi.

— Xox... Qorxdum ha... Mənə də istefada olan polkovnik Rəşid deyərlər. Özü də xarici kəşfiyyatda baş ağardan, ömür çürüdən bir şəxs. Qandın?.. Məni beli ağrıyan görüb, yolunu azma. Yüz əsgərə dəyərəm.

— A kişi, yavaş danış, əlli dərənin suyunu bir yerə qatma. Qapı arxasından danışdıqlarını eşidən olar. Ya bu otağa dinləmə aparatı qoyarlar. Sonra da gəl vurhavurundan qurtar. Yerləşdirərlər sosial şəbəkələrdə. Rüsvay olarıq. Onda da gəl Allahdan imdad gözlə. Bir səmavi kitabəyə yox, lap dördünə də birdən əl bas, and iç. İnanan olacaqmı? Biz heç Fəridlə Fəridəni inandıra bilmərik.

Rəşid qəflətən qıçlarını yığdı: — Ah, ana, öldüm, — deyib, ağız-burnunu burcutdu. Sancması ötüşəndə Nişanəyə cavab verdi:

— Kimə deyirsən? Mənə? Mənə sənin ağlın lazım deyil, ağılsız olsaydım, məni bir gün də xarici kəşfiyyatda işləməyə qoymazdılar.

— Ona görə də vaxtından əvvəl təqaüdə çıxartdılar.





— Əvvəla, gec-tez təqaüdə çıxmalıydım. Nə qələt eləmişəm? Oturmuşam dizlərinin dibində. Axşamacan ləbbeh eləyirəm sənə. İstefanı da başıma qaxma. Gecənin bu vədəsində, onsuz da, ağlım qarışıb, Nişanə. Mən ömrü boyu, gəncəlilər demişkən, zibidi subay qalmalı adamıydım...

Qəfil tutan ağrıdan polkovnik yenə atıldı:

— Vay!.. Vay!.. Ayə, bu bel ağrısı nə zibil şeymiş...

Nişanə qəsdən ərini qıcıqlandırdı:

— Zibil olar da... Cavanlığını əritdin finti-firuşlarla...

— Boş-boş danışma... Mən xalq, dövlətçilik naminə fəaliyyət göstərmişəm. Əqidəm düz və sağlamdı. Hərbidə hamı məni yaxşı tanıyır, başıma and içirdilər.

Rəşidin halı get-gedə ağırlaşırdı. Hər gün, xüsusiylə axşamlar şahidi olduğu deyib-gülməsindən, şirin zarafatlarından onda əsər-əlamət yox idi. Nişanə düşündü ki, kişinin gözlərində həyat əlaməti yavaş-yavaş qəhətə çıxır. O, ərindəki bu dəyişmələri görcək həm bərk qorxdu, həm ona, həm də balalarına yazığı gəldi:

— Kişi, bayaqdan sənə zarafat eləyirəm. Ömrüm-günüm, sənsiz mən kiməm? Heç kim. Elə bil, hər gün deyib-gülən, hisslərimi ovsunlayan, nəvazişlə məni dindirən, başımı qatan Rəşid deyilsən.

O, əlinin dalını ərinin alnına, yanaqlarına vurdu və bir az saxladı. Hərarətin olduğunu anlamadığından astadan sözünə davam elədi: — Hərarətin yoxdu. Görünür, sinir problemin var. Dünən çox gəzdik... İstanbulun havası sənə təsir eləyib. Axı, bu ağrılar səndə olmayıb... Hamısı əsəbdəndi.. Dünya dağılır... İnsanlıq itir. Axşamkı tarap-turup kimə gərəkdi? Avtomat, tapança səslərindən dünyadan xəbərsiz uşaqlar ağciyər olublar. Bunları fikirləşəndə... Son vaxtlar, şükür ki, Bakıda silahlar şaqqıldamır.

— Dünya çox kiçilib. Sosial şəbəkələr beş-üç dəqiqəyə dünyada baş verən hadisələrin xəritəsini, mahiyyət və mənzərəsini

açıb adamlara çatdırır. İndi gizlin heç nə yoxdu... Hər şey itib. Bu itkilər insanlığın məhvidi, əzizim.

Nişanə gülümsündü:

— Zeynəb qarı necə deyərdi: "Palaza bürün, ellə sürün".

Rəşid başını yellədi:

— O, insanın özünün özünü sakitləşdirməsidi. Əlac kəsiləndə, əl hər tərəfdən üzüləndə, insan çıxış yolunu təskinlikdə tapır. Bir də ki, cəmiyyəti məqsədyönlü şəkildə, qəsdən pozurlar. Fikir ver, kütləvi informasiya şəbəkələrinə. Televizorda gün axşamacan tullan-düş, radioda vaxt-bivaxt hırhahır, qəzetlərdən də danışma... Hamı ağzı yumuludu. Əslində ağızlarını yummayıb neyləyəcəklər? Hissiyatımız korlaşıb. Bircə yolumuz qalıb, çalınanlara oynayanmasaq da atılıb-düşmək.

— Onu düz deyirsən, kişi. Yemək-içməklə iş bitməz. Ali məktəbdə bizim fəlsəfə müəllimimiz vardı. O deyərdi: "Yaşam üçün doğru-düzgün informasiya lazımdı".

Balıq sudan kənarda yaşamadığı kimi, insan da informasiyasız dolana bilmir. İnformasiya yeyib-içməklə yarıdı.

— Dünya qarışıb. — Araya sükut çökdü. Nişanə ayağa qalxıb ərinə bir stəkan su verdi.

Kişi suyu içib dərindən nəfəs aldı. O, sözünə astadan davam elədi:

— Az yaşım yoxdu. Dünyanın hər üzünü görmüşəm. Saxta cəmiyyətdə yaşamaq çətindi.

Nişanə ərinin qollarından tutaraq: — Ayağa qalx, addım at, görək nə olur? — dedi. Rəşid bədənini qaldırmaq istədi, belinin ağrısı beyninə vurdu. Qışqırıb təzədən çarpayıya uzandı. Əlacsız qalan Nişanə dan yeri söküləndə təcili tibbi yardıma telefon açdı. Hoteli, mərtəbəni, otaq nömrəsini və xəstənin halını növbətçiyə bildirdi. İncə, məlahətli səsi olan türk qızı qeydləri götürüb: — Gözləyin — dedi və dəstəyi yerinə qoydu. Çox çəkmədi ki, hotelin iki işçisi, həkim Şəmsiyə və tibbi bacısı həyəcan içərisində otağa daxil oldular. Həkim dərhal müayinəyə başladı. Xəstənin nəbzinin, hərarətinin, qan təzyiqinin vəziyyətini yoxladı. Şəfqət bacısına: — İynəni hazırla, — dedi və üzünü Rəşidə tutdu:





— Müvəqqəti də olsa, ağrınızı kəsəcək, özünüzü qorxutmayın, əfəndim. Ancaq müalicə olunmalısız.

Nişanə dərhal:

— Ciddidi?..

— Kəskin ağrısı var. Heç olmasa, iki gün yataqda uzanıqlı qalmalıdı. Xəstəxanada yatmasına ehtiyac yoxdu. Belini isti saxlasın... Tibb bacısı verən dərmanları da qəbul eləsin... Narahatçılığı olsa, bizə yenə müraciət eləyə bilərsiz.

Həkim Şəmsiyə, tibb bacısı və xidmətçilər xudahafizləşib otaqdan çıxdılar. Çox çəkmədi ki, Rəşid özündə yüngüllük duydu. Arvadının yardımıyla yataqdan ehtiyatla qalxdı.

Nişanə ərinin çarpayısını qaydaya salmağa başladı. Rəşidsə çətinliklə də olsa, əl-üz yuyulan otağa keçdi. Yuyundu, üzünü təraş elədi. Qurulanıb yan otağa keçdi. Geyinib-keçinib səhər yeməyi üçün restorana düşdülər. Ərinin gözlənilməz bel ağrısı Nişanənin xəstəliyini də yadından çıxartdı. O, ərinə ürək-dirək verməyə başladı:

— Özünü çaşdırma. İndi xəstə olmayan adam var ki? Qonşumuz Musa özü endikrinoloqdu. Şəkər xəstələrini müalicə eləyir. Onlara məsləhətlər verir. Yazığın özü də, arvadı da şəkər xəstəsidi.

— Hə... Elə şeylər çox olur. Nadir onkoloqdu. Arvadı xərçəngdi. Qəribə deyim var. "Xalq dəli olanda molla yanına qaçır, molla dəli olanda kimin yanına qaçsın?"

— Ona görə də, Rəşid, xəstəlikdən qorxub-hürkmək lazım deyil. Ona güc gəlmək barədə düşünməliyik. Öz aramızdı, polkovnik, sən ölümdən çox qorxursan. Xəstəlikdən hələ heç kim suğortalanmayıb. Ölüm bütün canlılar üçün var. Qismətimizdə

nə var, onu da görəcəyik.

— Dünya əzəldən belədi, Nişanə xanım. Nədən qaçırsan, ona da ilişirsən. Mən bura sənə xidmətə gəlmişəm. Halını korlamağa yox... Hazırlaş, gedək yeməkxanaya. Bir loxma çörək kəsək.

— Təbim çəkmir... O sözdən zəhləm gedir.

— Necə yəni təbim çəkmir? Təbi özün tərbiyə eləməlisən.

Ər-arvad yeməkxanaya getdilər. Onlar özləri üçün yağ, pendir, qaymaq, bal götürdülər. Yeməyə başladılar.

Nişanə bıçağı götürüb bir dilim çörəyin üstə kərə yağı çəkdi, bir dişdəm çörəkdən götürdü, bir qurtum da çay içdi. Çeynəyib udmaq istədikdə tikə boğazındaca ilişdi. Udqundu.

Rəşid dərhal dedi:

— Çay iç, bilirəm, indi də mənimçün narahatsan. Məndə elə qorxulu şey yoxdu. Gedək görək, bu gün nələrdən analiz verə bilərik...

Ər-arvad bu fikirlə yeyib-içib yeməkxanadan çıxdılar. Nişanə dedi:

— Həkim sənə məsləhət gördü ki, üç gün yatıb dincələsən. Heç hara getməyəcəyik. Hələ sən özünə gəl, sonrasına baxarıq.

Onlar belə də etdilər... Üç gün oteldə qaldılar. Dördüncü gün Rəşiddə ağrı-acıdan, fiziki narahatlıqdan əsər-əlamət yox idi. O, üzünü arvadına tutdu:

— Əzizim, biz bura yatmağa gəlməmişik. Yaxşıyam. Hazırlaş gedək, həkimlə görüşək, analizlərini verək. Görək dərdimiz nədi?

— Bu gün hamısını verə bilmərik. Elə analiz var ki, onu acqarına verməliyəm.

— Onları sabaha saxlarıq.

Nişanə bir söz deməsə də, çiyinlərini çəkdi.

— Nə deyirəm. Gedək. Bəlkə sən də analiz verəsən? Gəlmişkən nəyin var, nəyin yoxdu, öyrənək. Uzaqbaşı, Bakıda müalicəni davam etdirərik.





## Xeyirxah

Ər-arvad hotelin qarşısında taksiyə oturdular. Süleymaniyə xəstəxanasına — deyə Rəşid sürücünün üzünə baxdı. Qarayanız, girdəsifət, donqarburun, gonbul sürücü əyninə geydiyi kostyumun yaxasını açdı. Maşını işə sala-sala güzgüdən müştəriləri-ni seyr elədi. Maşın sürət götürüb yola düzəldi. Axşamdan yağan gur yağış küçə-meydanları sel-suya döndərdiyindən asfaltı yuyub təmizləmişdi. Maşın tez-tez sağa-sola dönürdü. Gözlənilmədən sol tərəfdən qara rəngli xarici markalı maşın çıxdı və Rəşid tərəfdən taksiyə sürtündü. Sanki Nişanənin ürəyi qopdu. Rəşid: — Bu başı xarab neyləyir, əə, qırıb batıracaqdı bizi, — deyə əsəbi halda dilləndi. Nişanə əlini ərinin dizi üstə qoydu: — Əsəbiləşmə, yaxşı qurtardıq, — dedi. Bu hadisəyə küçəni keçənlər də şahid oldular. Çoxları düşündülər ki, hadisənin baş verməsi şəksiziydi. Çıxış yolu yox idi. Xəsarətsiz ötüşməyəcəkdi. Sürücülər nə yaxşı ki, eyni anda əyləci basdılar. Əks halda, azacıq geciksəydilər, heç bir şübhə-filan yox idi ki, maşınlar toqquşacaq, ən azı, sərnişinlər xəsarət alacaqdılar. Taksi sürücüsü başını pəncərədən çıxartdı və həmkarına dedi:

— Əfəndim, belə olmaz. Sən tək özünün, mənsə özümlə müştərilərin taleyinə, salamatlığına cavabdehəm. Məsuliyyət daşıyıram. Evdə arvad-uşaq məni gözləyirlər.

Xarici markalı maşının sürücüsü bağırdı:

— Çox danışma. Qabağa bax...

— Hə... Gəl bunu başa sal ki, bala, günahkar sənsən. Gözlərin kor, ağlın dürəkdi. Bu da cavan oğlan. Belə dəliqanlıya fikir verməsək yaxşıdı. Özü kimisi çıxar qarşısına, nə lazımdı yedizdirər ona. Təki xata-baladan uzaq olaq. Soruşsaq kimliyini, təkcə atasının vəzifəsini deyəcək.

Rəşid:

— Gəldik saqqal qırxdırmağa, bığımızı da qoyub gedəcəkdik.
Nişanə:
— Qaş düzəldən yerdə göz çıxartmaq — buna deyiblər də. Xatamız var. Axşam elə, indi belə.
Sürücü üzünü Rəşidə tutdu:
— Hardansız?
Rəşid:
— Bakıdan.
— Sizdə belələri var?
— Var... Çoxdu.
— Belələrinə nə deyəsən?
— Heç nə. Çıxar dişini, vur kəlləsinə.
— Günahsız adam yoxdu. Gərək mən də tələsməyəydim.
Sonra sürücü söhbətin yönümünü tamam başqa səmtə dəyişdi:
— Əfəndim, siz sünnisiz?
Rəşid tutuldu. Sonra astadan dedi: — Sünni-şiə, məssəbin bura nə dəxli var?
Bu sual Nişanəyə də təsir elədi. Qadın astadan soruşdu:
— Əfəndim, sünni-şiə? O ayrılıq nəyə xidmət eləyir? Hər ikisi müsəlman deyil?
Rəşid sakit tərzdə:
— Xristian da, müsəlman da insandı. Allahları eynidi. Eyni olan Allahın dərgahında insanların dəyəri ağıllarına görədi.
Sürücü:
— Bacı, sözündən belə çıxır ki, Allahın insanlara münasibəti fərqlidi?
— İrqinə, rənginə görə yox, əfəndim, ancaq Allah yaratdığı mərdimazarlara, yerini, sözünü bilməyənlərə birmənalı baxmır. Onlara başqa-başqa münasibət bəsləyir. Qeybətçilərə, böhtançılara qarşı həmişə əsəbi olur. Yüngül-dingillərə gülür. Ağlı olub çətinliyini aradan qaldıranmayanlara ağlayır...





Sürücü qəşş elədi:
— Ha... ha... ha...
Handan-hana gülməyini saxladı və bir qədər də dərinə getdi:
— Aha... Bəs müdriklərə?
Rəşid dərhal:
— Müdriklərin başını sığallayır.
Sürücü:
— Bəs, mənimlə indicə toqquşma həddinə çatan sürücüyə münasibəti necə olur?
Nişanə:
— Necə olacaq?.. Yazığı gəlir. Gəlməsəydi...
Sürücü güzgüdən Nişanəyə baxdı. Sözünü zarafat və ciddiyyətlə dediyini öyrənməyə çalışdı. Deyəsən, anladı da. Yenə qəhqəhə çəkdi:
— Ha... Ha... Ha... Birinci dəfədi, Allahın insanlara belə münasibətini eşidirəm.
Rəşid:
— Əfəndim, işdi, Bakıya gəlsən, kimdən Zeynəb qarını soruşsan, səninlə tanış eləyərlər. Ondan xoruz səsi eşitməmiş sözlər eşidərsən. Onda anlarsan, bu yaşadığımız hoqqabaz dünyanın nəyi var, nəyi yoxdu?
Sürücü:
— Xocam, sizdə həkim-məkim yoxdu ki, özünüzü müalicə elətdirəsiz? Bu boyda yolu basa-basa, balanızın boğazından kəsərək xərc çəkib gəlməyəsiz?
Bu söz Nişanənin qüruruna toxundu. İstədi desin, əfəndim, biz bura gəzməyə-görməyə gəlmişik, istəyirik Zeynəb qarı demişkən, bir gülləylə iki dovşanı vuraq, özümüzü də yoxlatdıraq. Sonra da düşündü ki, deyəsən, sürücü də içi boş qoza oxşamır. Hər deyilən sözə inanan deyil. Ona görə də yüngülcə siyasi gediş elədi:
— Əşi, ay pir olmuş, nə fərqi var: Bakı, İstanbul? Bizim üçün

ikisi də birdi. Hər ikisi sizindi də, bizimdi də. Ayrı-seçkilik nəyə lazımdı?

Sürücü ayıq adam idi. Sözdən söz çəkməyi bacarırdı. O, salondakı güzgüdən Nişanənin üzünə baxdı. Sonra gülümsündü:

— Bu sözün çox xoşuma gəldi, xanım. Sən lap ulu türk xaqanları, fatehləri kimi danışırsan... Eşitdiyimə görə, sizin xəstələnənlərinizin bir çoxu İrana, hətta, Almaniyaya qaçır. Xüsusilə pullular. Ora qaçmaqda xeyir ola?

— Xeyir olmamış nə olacaq? Təbrizin hamısı, Tehranın yarısı bizimdi. Qaldı Almaniyaya. Hə, onu düz deyirsən... Bir də ki, kasıb varlıdan seçilməlidi, ya yox? Bizim həkimlərin arasında yaxşı çiban deşənlər var.

Bu "çiban deşənlər" ifadəsi Rəşidin xoşuna gəlmədi. Üz-gözünü turşutdu.

Sürücü güzgüdən ər-arvada baxıb gülümsündü:

— Hə, xanım, görürəm dolu adamsan.

Bu söz Rəşidin xoşuna gəlmədi. Əvvəl, istədi desin, saxla maşını, sən çənəgir, incimə məndən, həm də çərənçi adamsan, sözündən qan iyi gəlir, başqa taksiylə gedəsi olduq. Sonra nədənsə fikrini dəyişdi. Qürrələnməyə başladı:

— Bizdə də tibb çox inkişaf eləyib. Sizdə olan aparatlardan bizdə quraşdırıblar. Hamısı da düşmən gözü çıxarandı. Beş-on arvada da tozunu sildiririk. Par-par parıldayırlar. Elə cihazlarımız da var, gətiriləndən salafandan çıxarılmayıb, üzünə baxmaqdan doya bilmirik. Heyfdi elə aparatlar. Onları qanmaz-qummazların əllərinə versək, zibili çıxacaq.

Sürücü dərhal:

— Niyə?

Nişanə:

— Niyəsi budur ki, onlarla işləyə biləcək kadrlarımız yoxdu.

Sürücü gülməyə başladı:

— He... He... He... Siz də qəribə adamsız. Əslində, biz müsəlmanların canındadı tərsinə iş görmək... Əşi, əvvəl kadrı yetişdirəydiniz, sonra aparatları alaydınız.





Rəşid kinayəylə:

— Əlimizə pul düşmüşdü. Qorxduq xərcliyək, ya da pulumuz infliasiyaya gedə. Hər şeyimiz əlimizdən çıxa... Aldıq ki, onlardan istifadə bizim nəsilə qismət olmasa da, gələcək nəsil istifadə eləyər. Onlar da qaramıza ağızlarına gələni danışmazlar. Bəyəm pis eləmişik?

— Xocam, düz eləmisiz. Görürəm, siz çox qənaətçil və ehtiyatlısız. Həm də qənirsiz humanistsiz. Sizcə, aldığınız aparatlar köhnəlməz ki? "Humanistsiz" sözünü eşidən Nişanənin ürəyi atlandı:

— Hə, "humanistsiz" sözünü düz dediz. Bu yaxınlarda yiyəsiz küçə itləri, pişikləri üçün dünyada analoqu olmayan hotel tikdirmişik. Doğrudur, hələlik ulduz verilməyib. Çox güman ki, inşallah, tezliklə onu da həll elərik.

Rəşid arvadının sözünü kəsdi:

— Ora dovşanlar da qəbul olunur. Onlar ən keyfiyyətli yemək-içmək, əla yatacaqla təmin olunurlar. Yüksək müalicələri də öz yerində. Açığını deyim, onların yemək-içməklərinə, yataqlarına baxanda adam öz-özünə deyir: kaş yiyəsiz, sahibsiz itlərdən, pişiklərdən olaydım. Mən də kaş olaydım dovşan.

Sürücü dərin fikrə daldı. Yavaş-yavaş üzünün ifadəsi dəyişdi. Sonra dedi:

— Xocam, bizdə də dolaşıq adamlar çoxdu. Ehtiyat igidin yaraşığıdı. Meşə çaqqalsız olmur.

Nişanə:

— Elə bizdə də elədi.

Sürücü:

— Bilirəm... Sizin bu xəstəxanada bir eloğlunuz var. Adı da Elxan Azəridi, əfəndim. Tanışımdı... Vaxtilə qonşu olmuşuq. Bacarıqlı həkimdi. Şəfalı əlləri var. Özü də düz adamdı. Əlləm-

qəlləmliklə arası yoxdu. İstəsəniz, sizi onunla tanış edərəm. Ağıllı adamdı. O sizə kömək eləyə bilər.

Rəşid gülümsünərək:

— O bizdənsə...

Nişanə ərinin üzünə baxdı:

— Yaxşı, zarafat eləmə, polkovnik, o bizə kömək eləyə bilər. Əl-ayağımızı pişik yeyib? Eləyə bilməz, tutub bizi yanında saxlamayacaq ki?

Polkovnik:

— Pulsuz kişidən hamı bezardı. Nicat yolumuz puldadı.

— Nə qədər olmasa...

Rəşid sürücünün üzünə baxıb çiyinlərini çəkdi. Elə bu vaxt maşın iki tini burulub on altı mərtəbəli xəstəxana binasının qənşərində dayandı.

Sürücü, Rəşid və Nişanə liftlə altıncı mərtəbəyə qalxıb Elxan Azərinin kabinetinə girdilər. Baş tərəfdəki masanın arxasında bəstəboy, dolubədənli, yumrusifət, xurmayı gözlü həkim sürücünü görcək ayağa qalxdı. Onlar əl verib görüşdülər. Hal-əhvaldan sonra həkim Elxan Azəri soruşdu:

— Nə yaxşı gəlmisən?

Sürücü Rəşidlə Nişanəni göstərərək: — Ellilərini gətirmişəm. İstərdim, xocam, onlara yardım göstərəsən.

Elxan Azəri Rəşidgilə stul göstərərək: — Buyurun, əyləşin, — dedi. — Şikayətiniz nədəndi?

Rəşid dərhal:

— Mədə-bağırsaqdan.

— Aha. Əfəndim, özün, yoxsa...

— Xanımım, həkim.

— Yaxşı, mənim ixtisasımdı... Ancaq, xəstə qadın olduğu üçün onu qadın həkiminə həvalə eləyək. Xahişimlə professor da onu nəzarətində saxlar.

— Çox yaxşı.





— Əvvəlcə analizləri verin, Rəşid bəy. Paranız varmı?

— Var...

— Sizə deyəcəklər: analizlər bir neçə gün çəkəcək. Ona kimi gecələməyə yeriniz varmı?

— Bəli! Mehmanxanada qalırıq.

— Mehmanxanada, lap yaxşı.

Analizlərin nələrdən götürüləcəyinin siyahısını həkim Elxan Azəri Rəşidə verdi:

— Ləngitməyin... Sabahdan analizlərin cavablarını alaq. Sonra qərarımızı verək. Olarmı?

— Olar, həkim.

Sürücü qabaqda, Rəşidlə Nişanə də onun arxasınca kabinetdən çıxdılar. Nişanə dərhal sürücüyə: — Səni bizə Allah yetirib. — dedi. — Allahı olan nagüman qalmaz...

Onlar sözsüz-söhbətsiz liftlə aşağı düşdülər. Sürücü:

— İndi gecdi, Rəşid əfəndi. Səhər saat səkkizdə gələrəm, birlikdə gedərik. Alın, bu da mənim telefon nömrəm. Nə lazım olsa, telefon açın, gələrəm. Sizdən para da almaram.

Rəşid ünvanı aldı.

Sürücü:

— Oturun, sizi aparım hotelə...

Onlar səssiz-səmirsiz maşına əyləşdilər və birbaşa hotelə getdilər.

## Analizlərin vahiməsi

Üç gün idi ki, sərasər ər-arvad şəhərin mərkəzindəki laborator mərkəzə gedib-gəlir, mühüm qan və digər analizləri verirdilər. Sonuncu analiz bədənin imaləsiydi. Nişanə çox fikirləşdi, çox götür-qoy elədi və belə qərara gəldi ki, analiz məsələsini saxlasın, səhər təyyarəyə bilet götürüb Bakıya dönsünlər. O, niyyətini ərinə bildirəndə polkovnik tapança kimi açıldı:

— Sən nə danışırsan?

— Ayə, səsin aləmi götürməsin. Adamlardan ayıbdı. Üzünün suyunu tökmə. Bakıdan bu uzaqlığa yolu basa-basa bunun üçünmü gəlmişəm?

— Başıma oyun açma. Gəlmişik, tam müayinə olunasan. Mədə-bağırsaq xəstəliyi insan həyatına zəhər qatır. Ömrü boyu adamı ahı-zar içində saxlayır.

— Yaxşı... Yaxşı. Bir canım var. Elədiyimi eləmişəm, gördüyümü görmüşəm.

— Bəs uşaqlar necə olsunlar? Bəs anan? Onlara yazığın gəlmir? Onların keçirdiyi həyəcanı duymursan? Ağzımı açdırma.

Nişanə qərarsız və tərəddüdlə dedi:

— Xəcalət...

— Çox danışma. Bu təkcə bizim başımıza gələn iş deyil.

— Onda həkimlə danışaq. Məni qadın həkimi müayinə eləsin.

— Əvvəl, biz analizlərin hamısını verək. Nəticəni əldə eləyək. Sonrasına baxarıq.

Qaş qaralanda polkovnik hazırlıq işlərini gördü və Nişanəni də məcbür elədi ki, dərmanları içsin... Nişanə bütün gecəni yatmayıb tələb olunanları elədi. Polkovnik çarpayısına uzanıb analizlərin cavabları haqda düşündü. Gah “yaxşı olacaq” deyə özünə təskinlik verir, gah da başında qara-qura fikirlər oynaşırdı. Bu ziddiyyətli düşüncələri arvadına deməsə də, özü haldan-hala düşürdü. Hərdən uşaqları da gəlib dururdu gözləri önündə.

Gecə yarıdan keçmişdi. Nişanə bərk yorulmuşdu. Qəfildən ərinə: — Polkovnik, bu analiz vermək lap bezdirdi məni, — dedi. — Belə bilsəydim, heç Bakıdan kənara ayaq basmazdım. Ölərdim-ölərdim, qalardım-qalardım. Əşi, onsuz da hərə bir cana borcludu. Gec-tez onu mən də verməliyəm.

— Böyük-böyük danışma, Nişanə, — deyib, o, üzünü yana tutdu. Səsi gərilmiş halda fikrini tamamladı:





— Başına bir iş gəlsə, uşaqlara kim baxacaq? Elə bilirsən, məndən — ehtiyatda olan polkovnikdən uşaq saxlayan olar? Uşaqlar bir, iki, üç... əsəbiləşdirərlər, dözmərəm, onlara əl qaldıraram. Xəsarət alsalar, anana nə cavab verərəm? O da həbsə atdırar məni. Onda, gəl, polkovnik, gününə ağla...

— Anam səni çox, istəyir, polkovnik.

— Anan çox istəyir, qızına görə. Qızı olmasaydın, anan məni qapıdan baxmağa da qoymazdı. Evi tikilmişin qızı hirslənməsin, elə ki, hirsləndi, nəinki kürəkən, heç ata-anasını da tanımır.

— Anam sən deyənləri eşitsə... Bir də ki, anamın hirsləndiyini harda, nə vaxt görmüsən?

— Mən elə-belə havaya güllə atanlardan deyiləm. Bir dəfə televizorda fransız filmi nümayiş etdirirdilər. Filmin adını unutmuşam. Orda aşiqlə məşuq bir-birilərinə sarılıb şəhvani öpüşürdülər. Mən də heç nəyin fərqinə varmadan kinoya baxırdım. Bir də ayıldım ki, anan kinoya yox, hirslə, qəzəblə mənə baxır. Diksindim. Başladım and-misaf eləməyə: — Ay qayınana, kinoya baxıram, sən mənə niyə tərs-tərs tamaşa eləyirsən? Nə desə yaxşıdı?

— Hə, nə dedi?

— Eh, uzun söhbətdi. Bəlkə sənə də deyib.

— Yox, polkovnik, nəyə deyirsən, and içim. Mənə bu barədə heç nə deməyib.

— Onda mən də demirəm. Bəs deyirlər, arvadların hulqumu yoxdu, ağızlarında söz durmur. Nə olsa, danışırlar?.. Qeybətsiz yaşaya bilmirlər.

— Sənin qayınanan elələrindən deyil, polkovnik... İndi biz İstanbuldayıq. Analizləri veririk. O, Bakıda ölüb-dirilir: “Nişanə neyləyir? Polkovnik ac qalmadı ki?”

— Əşi, ananı az təriflə.

— Olanını deyirəm. Hə... Sözünü yarımçıq saxlama. Sən aşiq-məşuq epizoduna baxanda, o nə dedi? Qorxma, sən canın,

aç de...

— Ay qız, nə deyəcək? Bir mənə baxdı, bir də stolun üstündəki bıçağa, qab-qaşığa... Qorxdum, dərhal da uzun tiyəli çörək bıçağını götürdüm stolun üstündən. Deyəsən, niyə götürdüyümü anan da anladı. Ancaq hirsi, qəzəbi soyumadı. Dedi: canın üçün o qab-qacağı, boşqabları başında sındıraram. Bıçağı əlindən alıb soxaram... Dur, dəyyus, rədd ol burdan, gözlərim səni görməsin.

Mənim də əlacım kəsildi. Ayağa qalxıb suyu süzülə-süzülə qapıdan çıxdım...

— Vay o günə ki, Allah eləməsin, başına bir iş gələ, məni o qapıya qoysa... Anan belə anadı...

Nişanə güldü:

— Heç yadımdan çıxmaz... Nə olmuşdusa, dəqiq deyə bilmərəm, böyük xalamın qızı Məsmə ərindən acıq eləyib evlərinə gəlmişdi. Məsmə dedi: "Ölərəm, bir də ər evinə qayıtmaram". Bəhanəsi də boş şey idi. Anam ona bir törpü gəldi, gəl görəsən.

— Nə törpü?

— Dedi: ər arvadın başının tacıdı. Koruydun, ya kar? Əvvəldən düşünməliydin. Səni gecəykən boğub öldürərəm. Kişi kişidi. Nə eləyirsə, fikirləş ki, elədikldəri onun hüququdu. Hara gedər, kimlə nə danışar, özü bilər. Axşam ki, balalarına çörək gətirir, evinə gəlir, yanında yatır, bəsindi.

— Yaxşı, bəs mənə o münasibətinə nə deyirsən?

— Əşi, nə deyəcəm? Nə olar polkovnik olanda, sənə də qandırır ki, ayağını yorğanına tən uzat. Yolunu azma. Azsan...

— Sağ ol səni, qayınana... Əşi, Zeynəb qarı demişkən, söhbət dananı qurda verər. Qalx, hazırlaş, gedək, analizlərin cavabını alaq.

Nişanə ayağa qalxdı. Güzgünün qənşərinə keçib üz-gözünə yüngülcə  əl gəzdirdi. Sonra ərinə dedi:

— Mən hazır, polkovnik... Əməliyyatdan yamanca qorxuram. Allah eləsin, analizlərim yaxşı çıxsın.





— Qorxmaq nədi? Əcəli çatanlar ölürlər. Hər yüngül əməliyyatdan ölən nə görmüşəm, nə də eşitmişəm. Bir də, qəribə adamsan, analizlərin nəticələrini hələ ələ almamışıq. Dərəcəsini-filanı bilmirik. İndi də az qala, həkimin əvəzinə xəstəliyinə diaqnoz qoyasan. Burda nə var ki?

— Nə var ki, demə. Başıma iş gəlsə, anam o yana dursun, Fəridlə Fəridəyə cavab verməli olacaqsan...

Sürücüylə vədələşdikləri vaxt ər-arvad maşına əyləşib birbaşa laborator mərkəzə getdilər. Onlar həkimdən analizlərin cavablarını soruşdular. Cavan türk qızı onlardan ad-familiyalarını öyrəndi. Sonra xəstəyə iki vərəq və bir kasset verdi.

Analizlərin cavabından heç nə anlamayan polkovnik və sürücü Nişanənin üzünə baxdılar. Nişanə cavabları verən laborant qıza yaxınlaşdı:

— Burada yazılanları bizə izah edərsiz?

Laborant dərhal:

— Xanım, onu həkiminizdən soruşarsız. Biz sizə heç nə deyə bilmərik.

Ərlə arvadın neçə gündə keçirdikləri həyəcanları bir qədər də artdı. Hər ikisi yumurtası tərs gələn toyuğa döndü. Bir anlığa hara gedəcəkələrini unutdular. Ayaqlarını sürüyə-sürüyə laborator mərkəzdən çıxdılar.

## Əməliyyata hazırlıq

Rəşidlə arvadı səhər analizlərin cavablarıyla xəstəxanaya gələndə dəhlizdə Elxan Azəriylə qarşılaşdılar. Onlar: — Sabahınız xeyir, — deyib görüşdülər. Rəşid: — Analizlərin cavablarını gətirmişik, Elxan əfəndi — dedi. Elxan Azəri öz kabinetinə qayıtdı. Analizləri alıb xeyli fikrə getdi. Handan-hana dedi: — Qorxulu şey yoxdu. İyirmi-iyirmi beş dəqiqəlik açıq əməliyyat

işi var. Sadədi.

Elxan Azəri Nişanənin üzünə baxmadan: — Qorxmursunuz ki? — deyə soruşdu.

— Qorxuram, həkim.

— Niyə, xanım. Bu gün diqqət yetirmədiyimiz, kiçik sandığımız məsələ sabah böyük fəsadlara yol açar. Taleyimizi həll eləyər. Həkimdən uzaqda dayanmaq bizim milli mentalitetimizdi. Mən İsveçdə tibbi təhsil almışam. İsveçlilər, almanlar, ingilislər... Göyün üzünə bulud gələndə dərhal qalxanlarını başlarına çəkirlər. Buludun gəlməsinin səbəblərini araşdırırlar. — Axı niyə? — sualına cavablar axtarırlar. Biz türklər, azərilər başımıza qar, yağış yağır, çətir götürmək əvəzinə, "İndi ötər" — deyirik.

Rəşid dərhal arvadından gileyləndi:

— Düz sözə nə deyəsən? Əşi, neçə gündü zəhmət çəkmişik, vaxt itirmişik, uşaqları atıb gəlmişik, balaca əziyyətə düşən kimi analizlərin verilməsini yarımçıq saxlamaq istəyirdi.

Nişanə:

— Deyəsən, məni susdurmaq üçün əlinə fürsət düşdü. Həkimə az qır məndən.

Həkim güldü. Sonra astadan dilləndi:

— Xanım, bizdə bacarıqlı qadın həkimlər var. Mən onlarla danışmışam. Sənin müalicəni Çiçək həkim aparacaq. Professor Səfa xanım da müalicəyə nəzarət eləyəcək. Burda utanıb-qızarmağa ehtiyac yoxdu. Özün də qorxub çəkinmə. Təsəvvür elə, mən də sənin qardaşın...

Bunu eşitcək Nişanə xanımın üzündə təbəssüm, gözlərində parıltı yarandı. Bundan Rəşid də məmnun oldu və astadan təşəkkürünü bildirdi:

— Həkim, siz Azərbaycanın hansı bölgəsindənsiz?

— Əslən Qərbindənəm. İndi xəstələr məni gözləyir. Sizi Çiçəklə, Səfa xanımla tanış eləyim. Sonra görüşüb yerli-yataqlı





söhbət eləyərik.

Elxan Azəri ayağa qalxmaq istəyirdi ki, qapı açıldı, boy-buxunlu, dolubədənli, sarıbəniz, uzunsifət, mavigözlü türk qızı içəri girdi. Salam verdi. Dərhal Elxan Azəri dedi:

— Çiçək xanım, elə indicə yanınıza gəlirdik. Sizə dediyim eloğlumla elqızım bunlardılar. Xocamın ismi Rəşid, xanımınınkı isə Nişanədir. Bu da analizlərinin cavabları. Arada mən varam...

Çiçək: — Oldu, mən kabinetimdəyəm, söhbətiniz qurtaranda gələrlər, — deyib geri qayıtdı. Söhbət yekunlaşdığından, Rəşidlə Nişanə də Çiçək xanımın ardınca getdilər. Günün birinci yarısında Nişanə xəstəxana qeydiyyatına alındı. O, xəstəxanada, Rəşidsə hoteldə qalası oldular. Çiçək professor Səfa xanımla analizləri dönə-dönə nəzərdən keçirdilər. Nişanə xanımı əməliyyata hazırlamaq üçün cərrahiyyəni iki gün sonraya saxlamaq qərarına gəldilər... Nişanə tək adamlıq palataya göndərildi. Otaq işıqlı və səliqəliydi. Otağın təmiz havası vardı. Düz ortada çarpayı, divara söykənikli şkaf, stol, stul, qapıdan girəcəkdə isə əl-üz yumaq üçün otaq vardı. Nişanə kostyumunu soyunub stulda əyləşdi. Nəzarətçi tibb bacısı ona yemək talonu verdi:

— Xanım, yeməkxana ikinci mərtəbədə solda yerləşir. Hələlik ayağınız yer tutur... Əməliyyatdan sonra işçilərə tapşıraram, naharınızı palataya gətirərlər. Nə sözünüz, çatışmazlığınız, hətta, şikayətiniz olsa, bizə deyə bilərsiz. Nişanə "şikayət" sözünü eşitcək qımmıldandı:

— Nə şikayət, xanım? Kimdən kimə şikayət? Gəmidə oturub, gəmiçiylə dava eləməkmi?

Tibb bacısı gülərək əliylə Nişanənin kürəyinə vurdu: — Ölərəm, şirin dilin üçün, — deyib içəridən çıxanda qapı ağzında ayaq saxladı: — Özünüzü darıxdırmayın, Nişanə xanım. İşlərimi qaydaya salıb, gələcəyəm.

— Buyurun xanım, gəlişinizə sevinərəm.

Tibb bacısı getdi. Nişanə şkaflara, yuyunma otağına baxdı.

Duru sabunla əllərini yumağa başladı. O, özündə deyildi. Gah Bakıda qoyub getdiyi əzizlərini xatırlayır, gah tək-tənha hoteldə qalan polkovniki barədə düşünür, gah da əməliyyatın nəylə nəticələnə biləcəyini ehtimal eləyirdi. Özlüyündə bunların hamısı ona nigarançılıq, təklik, həyəcan, qorxu, təlaş təlqin eləyirdi. — Doğrudan da, insan öz taleyini bəzən özü həll eləmir, — deyə acı-acı pıçıldadı. O, sonra pəncərənin qarşısında dayandı. Xaqanları, fatehləri qoynuna alıb böyüdən, onların gözlərini dünyaya açan şəhərə tamaşa elədi. İnsan zəkası, insan əlləriylə yaradılmış abidələrə baxdıqca heyrətləndi. Nəhayət, o, çarpayısına tərəf getdi. Kostyumunu soyunub asılqandan asdı və çarpayısına uzandı. Neçə gündə mənən yorulub əldən düşən Nişanə xanımı o saat yuxu apardı, ancaq tez də oyandı. Əvvəl çaşdı, harda olduğunu bilmədi. Tez özünə gəldi: — Lənət sənə, şeytan, — dedi, sonra da başını buladı: — Əşi, burda şeytanlıq nə iş var? Onun günahı nədi? Şeytanın özü nə olan şeydi? Gör dünyada nə qədər adam var. Çox demirəm, günda onun yarısı şeytana bir-iki dəfə lənət oxuyursa, bu lənətlərin sayı neçə milyard eləyir, amma o nə ölür, nə dirilir. Dünya durduqca durur. Yadıma düşəli təkcə bu gün şeytana üç dəfə tüpürmüşəm, lənət oxumuşam. Bu hara gedir?.. Əşi, vallah-billah, şeytan da özümüzük, ona nifrət eləyən də, lənətlər yağdıran da...

Elə bu vaxt tibb bacısı deyinə-deyinə içəri girdi. Əsəblərini cilovlaya bilməyib şeytana lənət oxudu və dərindən nəfəs aldı:

— Əhli-kefdilər bu cavan qızlar, nə elədiklərini bilmirlər, adama nə qədər demək olar, ehtiyatlı olun, xəstələri narazı salmayın, onsuz da onlar əziyyətdədilər. Kimə deyirsən? Dediyin dediyin yerdə qalır... İndi həkimin yanından gəlirəm. Professorla sənin yanına təşrif buyuracaqlar. Nədən şikayətin varsa, utanıb çəkinmə, aç de. Onların da vəzifəsi xəstələrə xidmət eləməkdi. Professor da, həkim də, bəxtindən çox yaxşı adamdılar. İxtisaslarını da əla bilirlər. İşlərinin zərgəridilər. İncə və həlimdilər. Kimsəni incitməzlər. Başdansovduluğun, yalanın düşmənidilər. Sanki bir bulaqdan su içiblər.





Nişanə əvvəl başını qaldırıb-endirdi. Sonra da: — Oldu, — dedi. Tibb bacısı getdi. Nişanə pəncərəni açdı. Havanı dəyişmək istədi. Professor Səfa və həkim Çiçək yanlarında iki tibb bacısı otağa girdilər. Salamlaşdılar. Professor dedi:

— Hə... Necədi? Darıxmırsan?

Nişanə:

— Darıxsam da... İndi gəlmişəm.

— Soyuqlamamısan?

— Xeyr.

— Gətir dərmanlarına baxım.

Nişanə dərmanları stolun üstə düzdü. Professor onlardan birini saxlayıb, ikisini tibb bacısına dəyişdirtdi və astadan dedi:

— Özünü soyuqdan qoru. Deyilənlərə əməl elə. Hər şey yaxşı olacaq.

— Çox sağ olun, professor.

— Xəstə sağalmaq istəyirsə, gərək həkimin dediklərinə əməl eləsin.

Professor sonra üzünü həkimə tutdu:

— Çiçək xanım, Nişanə qonaqdı. Buna özün...

Çiçək xanım dərhal: — Oldu, professor.

Nişanə təşəkkürünü bildirdi. Professor qabaqda, qalanlar da onun ardınca palatanı tərk etdilər. Professorun gəlişi Nişanənin əhval-ruhiyyəsini xeyli qaldırdı, öz-özünə dedi:

— Nə qədər sadə, diqqətli adamdı. Odur ki, Allah da ona ağıl verib. O da xəstələrə şəfqət bəxş eləyir. Belə adam çörək yeyəcək. O, hər cür hörmətə, izzətə layiqdi.

Xəstəxanada iş vaxtının sonu idi. Xidmətçilər, tibb bacıları növbələrini dəyişirdilər. Tibb bacısı qapını aralayıb Nişanəyə: — Səhərə qədər, — deyib gülə-gülə qapını örtdü. Az keçdi. Qapı təzədən aralandı. Bu dəfə Rəşidin başı içəri girdi. Nişanə:

— Gəl, arvadının yanına oğurluq niyə girirsən, polkovnik? — deyə zarafat elədi. Rəşid içəri keçib dilləndi: — Gözlərimin odunu almısan, ona görə, — deyib hal-əhval elədi. Nişanə: — Bilməzsən, evdəkilərə əməliyyata hazırlandığımı deyərsən, uşaqların bağırları çatlar, — deyib qalxdı. — Gedim, sənə bir stəkan çay gətirim...

— Əşi, otur aşağı, bura çay içməyə gəlməmişəm. De görüm, sənə nə lazımdı? Çaydan, stəkan-nəlbəki, qaşıq, boşqab...

— Polkovnik mənə sən lazımsan. Ailəm lazımdı. Qalanları burda verirlər.

— Onsuz da xəstəxanada sənə qulluq eləməyə imkanım yoxdu, — deyə arvadı ərinin üzünə baxdı. Polkovnikin sərt üzündə bir qədər kəskinlik duyulurdu. Ancaq gözlərinin dərinliyində bir nigarançılıq, ümidsizlik, bəzən də donuqluq, durğunluq hiss olunurdu. Səsində titrəklik, danışığında kövrəklik sezilirdi. Rəşid, başı çox bəlalar çəksə də, vurha-vurlara düçar olsa da, heç vaxt indiki qədər aciz görünməmişdi. Əlbəttə, bu, onun acizliyi, zəifliyi deyildi. Bu, onun Nişanəyə sevgisindən, ailəcanlılığından irəli gəlirdi.

Rəşid arvadına ürək-dirək verib ayağa qalxdı:

— Hər gün yanına gələcəm. Əyri-əskik nə olsa, mənə telefon aç.

— Narahat olma, polkovnik. Nigarançılıq, yorğunluq, əsəb səni yordu. Get, dincəl. Ancaq...

— Nə ancaq?

— Məni alanda, arxamca sürünəndə bilməliydin ki, belə günlərin də ola bilər.

— Zarafatından qalmırsan, — deyib Rəşid palatadan çıxdı.





## Səmimi söhbət

Elxan Azəriylə Rəşid xəstəxananın həyətində qarşılaşdılar. Yüngül səhər yelinin təsiriylə həyətdə dalğalanan, göz oxşayan al-əlvan güllərin, çiçəklərin yaratdığı ecazkar mənzərə adamı riqqətə gətirir, ətri ciyərlərinə axırdı. Yaşca böyük olsa da, Rəşid onun üstünə atıldı. Öpüşüb-görüşdülər. Elxan Azəri: — Xəstənin vəziyyətindən xəbərdaram, narahat olma, nəzarətimdədi, — dedi, sonra da Rəşidin qoluna girdi: — Bu gün növbətçiyəm, gedək kabinetə. Azərbaycandan gələnləri görəndə bir-birinə daban-dabana zidd iki hiss məni bürüyür: birincisi, onları görəndə sevinirəm; ikincisi, qüssələnirəm...

Rəşidin üzündə xoşhallıqla yanaşı bir bozartı yarandı. O, çox incə və ruhu sakitlik təlqin eləyən həssaslıqla dedi:

— Birincini başa düşdüm, ancaq ikincini yox. Qüssələnmənizin səbəbini öyrənmək istərdim. Əfəndim, axı, biz sənə başaşağılığı gətirəcək elə bir iş görmürük, söz danışmırıq... Sizə təşəkkür edirəm ki, bizi həkimlə, professorla tanış elədiniz. Ömürgün yoldaşım Nişanənin xəstəliyi və ona göstərilən qayğı və diqqətlə maraqlanırsınız.

Elxan Azəri Rəşidin sözlərinin rəng izlərini sezdi. Bir an səsinə ara verdi. Sonra astadan dedi:

— Deyəsən, biz dalğaları qarışdırdıq. Mən sizə toxunacaq elə bir söz demədim. Vaxtım var, kabinetdə sakitlikdi. Təkrar eləyirəm, gedək kabinetə, orda söhbətə aydınlıq gətirərik... Həm də doğma el-obamdan, həmvətənlərimdən də xəbər tutum.

Rəşid etinasız halda cavab verdi:

— Məndə nə xəbər var ki, Elxan əfəndi?

— Xocam, deyəsən, sənin qəlbin olduqca incə və kövrəkdi. Söz tez toxunur.

— Mən hərbçiyəm. Özü də vicdanlı hərbçi. Atdığım hər addımda ləyaqətimi gözləmişəm. Məsuliyyətimi hiss eləmişəm. Nə olsun ki, indi istefadayam. Ancaq sözə münasibətim, xarakterim dəyişməyib. Hamısı öz yerindədi.

Elxan Azəri Rəşidin gözlərinin içinə baxdı. Onun gözlərinin dərinliyində güclə seziləcək məyusluq duydu:

— Görürəm, xocam, yerişin də, duruşun da, hətta, səsin və danışığın da ilk baxışdan hərbçi olduğundan xəbər verir.

Rəşid bu tərifdən qürrələnərək:

— Heç dəyişməyəcək də, — dedi. — Mən başqaları kimi azğın deyiləm. Hərbçi də dolayısıyla dövlət adımıdı. Hərbçi gərək özünə dəyər versin. Xalqın, millətin, dövlətin gözləri ağır anlarda, vətən təhlükəyə düşəndə ona dikilir. Elələri var, rütbələri bir pillə qalxanda şiri-aslana, enəndə, ya istefaya göndəriləndə sudan ölümcül çıxan pişiyə dönürlər...

— Hiss eləyirəm, eloğlu, — deyib, Elxan Azəri gülə-gülə Rəşidin üzünə baxdı. Sonra çayniki yan otaqda doldurub elektrik cərəyanına qoşdu. Yenidən gəlib Rəşidlə üz-üzə oturdu. Astadan dedi:

— Əzizim, bayaq dediyim "qüssələnirəm" sözü, deyəsən, sənin xoşuna gəlmədi. Nəsə, ağlıma gətirə bilmədiyim şey barədə düşündün, hiss elədim ki, məndən də bir az incik qaldın. Səbəbəini bilmirəm. İstərdim, sən özün açıqlama verəsən.

— İncimədim... Etiraf eləyim ki, dediklərin bir balaca mənə toxundu. Görünür, kimlərdənsə, nə vaxtsa ağzınız yanıb. Belə nadürüstlər hər yerdə, hər bir millətdə var... Etiraf eləyim ki, neçə gündə mənə göstərdiyin xoş münasibətinlə qəlbimi ovsunlamısan, halımı dəyişmisən. İnciklik də ötdü. İnşallah, çayımız hala gəlsin, içək. Hər şey unudular...

Hər ikisinin üzündə işıq, dodaqlarında təbəssüm duyuldu.

— Rəşid əfəndi, mən on ilə yaxındı ki, sərasər bu xəstəxanada həkim işləyirəm. Xeyli təcrübə toplamışam. Həkimlikdən





əvvəl gərək psixoloq olasan. Söz çox böyük şeydi. Ehtiyatsızlıqdan yerində deyilməyən söz bəzən adamın özünü kəsir. Əksi olanda sahibinə xətir, hörmət, nüfuz gətirir. Mən də həmişə çalışmışam ki, danışanda ehtiyatlı olum, kiminsə qəlbinə toxunacaq söz deməyim, həddimi aşmayım. Nəzakətli söz demək vərdişimə sədaqətli olsam, yəqin ki, sərhədimi də kimsə ayaqlamaz.

— Tamamilə doğrudur.

— Biz hələ düz-əməlli tanış deyilik. Təkcə adınızı, bir də Azərbaycandan olmanızı bilirəm. Həyat ilk baxışdan göz qamaşdırıcıdı. Ətraf rəngdən-rəngə çalır. Baxırsan, məəttəl qalmaya bilmirsən. Sağın al-əlvan, solun alabəzək, qarşın çəhrayı, arxan bozumtul, yuxarın göz işlədikcə uzanan, mahiyyəti tam duyulmayan səmavi ənginlik... Səni özünə elə bağlayır ki, ona heyranlığını gizlədə bilmirsən. Elə ki, dərininə can atırsan, üfunəti burnunu göynədir. Az qalır zəhrini çatlada. Həyatın qəribəlikləri burdadı. Gərək onu duyasan, dərk eləyəsən. Mən cərraham, Qalperin bıçağını götürüb hər hansı insan bədənində cərrahiyə əməliyyatı aparanda qat-qat açılan şırımlardan qıpqırmızı qan sızır. Bilmək istəsən, eloğlum, mənim qəlbim də elə şırım-şırımdı. O şırımlardan içimə daim qan sızır. Mənim içim lap uşaqlıqdan doğram-doğram olub. Ruhum heç vaxt açılmayıb. Donuq qalıb. Üzüm arabir işıqlansa da, içim qaranlıq zülmətə qərq olub. Bəzən nə elədiyimi, nə üçün yaşadığımı bilmirəm. Çox tez-tez yuxularımı qarışdırıram. Ürəyim elə döyünür ki, bütün vücudumu vəlvələyə salır. Əzalarım titrəyir. Zədələnmiş toxumalarım sanki məhv olur. Bədənim çəkdiyim əzablara tab gətirmir, vahimədən qan-tər məni basır. Bəzən gecələr doğmalarımdan xəbərsiz oturub çarpayımın ortasında, balıncımı bərk-bərk qucaqlayaraq hönkür-hönkür ağlayıram. Belə vəziyyətdə keçirdiyim həyəcanı, sarsıntını anlayırsanmı?.. Hər gün insan yarıram. Hər gün əlimdə qalperin bıçağıyla, iynə sehrinə düşdüyüm göz qa-

maşdırıcı həyata, üzü üzlər görən çox üzlü dünyada canımda, ruhumda varlığını gəzdirdiyim insana inamım məni daim qabağa — lap uzaqlara baxmağa vadar eləyir. Axı həkiməm. Axı mənə də inamla yanaşanlar var. Onların taleləri mənim əlimdədi. Ata-anaların, uşaqların sellənən göz yaşlarını mən silməliyəm. Onların üzlərində təbəssümü mən yaratmalıyam. Xocam, heç kəs heç kəsin içində yaranan tufandan xəbər tuta bilmir. Təsəvvür elə, əməliyyatdayam. Xəstə narkozdadı. Həyatı tam mənim ixtiyarımdadı. Mənə inanıb və etibar eləyib. Diqqətimi toplayıb kəsirəm. Təsəvvür elə, birdən ağlıma kənar təsir olur. Yaralarımdan qan sızır. Şeytan "mənəm, mənəm" eləyir. Özümü itirirəm. Hissə qapılıram, səhvə yol verirəm, heç nədən şəfası uğrunda can-başla mübarizə apardığım bir həyat sönür. Xocam, bəlkə də üzdən işıqlı görünürəm. Əslində belə deyil. Eloğlum, sənin üzünə baxa-baxa keçmişimi xatırlayıram. Uşaqlıqda gördüklərim yenidən gözlərim önünə gəlir. Acı, yanğı törədən hisslərimlə bir anlığa yaşayıram.

— Dərdli olduğunu, nədənsə yanıb-yaxıldığını gözlərindən, gedib-gələn nəfəsindən, səs titrəmələrindən duyuram. Ancaq...

— Bir çay içək, sonra...

Elxan Azəri yan otağa keçib iki stəkan çay gətirdi. Yenə Rəşidlə üzbəüz oturdu və söhbətinə davam elədi:

— Dərdli deyingən olar, — deyiblər. Ürəyim doludu... Bəlkə də məni ürəyində boşboğaz adlandıracaqsan. Nə adlandırırsan, adlandır. Yeganə adamsan ki, ürəyimi sənə açmaq istəyirəm. Bəlkə də Allahım səni mənimlə buna görə qarşılaşdırıb. Böyüklüyünə şükür, Allahım. İnan mənə, hiss eləyirəm, Allahım da məni sevir... Həyatımın ən çətin anlarında o mənə dayaq durur. Mən də ona arxalanıram... İnsan həddən artıq istiqanlılıq eləyəndə, daha doğrusu, ürəyi axmaqcasına çılğınlıq keçirəndə, öz ağrılı-acılı duyğuları içərisində başını itirəndə, çaşıb qalanda nə danışdığını bilmir, özünə yaxın həmdəm axtarır. Ürəyini boşaltmağa can atır, boşalda bilirsə, qəm yükünü yerə atmağa imkan tapırsa, bir anlığa da olsa yüngülləşir, dərd-sərdən qurtulur, sərbəst nəfəs alır. Qəm yükündən azad olaraq səadətinə qovuşur. Qəm məngənəsində çabalayanda ağzına gələn, gözlərinə görünən cəfəng şeylər danışır. Mən çərənçi deyiləm, evim, ailəm, param var. Çoxlarının diqqətindəyəm. Mənə hörmət eləyirlər. Xatirələrim çözələnəndə çılğınlığımdanmı, baş verən hadisələrin ağlagəlməzliyindənmi, keçirdiyim anlaşılmaz hisslərdənmi, qorxub, vahimələnməkdənmi, yaxud o anda kimlərinsə xeyirxahlığındanmı, səmimi qəlbə vurğunluqlarındanmı, ya sadəlövhlüklərindənmi... bilmirəm, içimdəkiləri açıb tökürəm... duyğularım sarsılır, donur, iradəsiz, aciz adama dönürəm desəm, bəlkə də daha dəqiq olar.

Rəşid göz qırpmadan iti nəzərlərlə Elxan Azərinin gözlərinin içinə baxırdı. Ürəyində ona əvvəl deyingən, söz fırladan, macərapərəst, özünü qabardan, bir az da gülməli, səfeh... adam dəyəri verirdi. Handan-hana dedi:

— Adamlar eyni cür yaşamırlar. Hamı əziyyət çəkir: kimisi az, kimisi çox, buna da şükür.

Elxan Azəri fikrə daldı. Sonra:

— Mən razı, — dedi. — Ancaq istərdim biləsən, mənim həyat hekayəm — hamınınkından demirəm, tam olmasa da, çoxlarınınkından fərqlidir. Mən əzəldən nə vasvası, nə tələbkar, nə də təkəbbürlü olmuşam. Həmişə indikindən sarsıntılı halda yaşamışam. Kasıb olmuşam. Bir loxma çörəyin həsrətini çəkdiyim anlar olub...

Rəşidə bir an elə gəldi ki, söhbəti uzadmaqda Elxan Azərinin məqsədi ondan pul istəməkdi. O özlüyündə fikirləşdi ki, bu həkim yəqin azərbaycanlılardan, bura üz tutan bütün həmyerlilərindən nəsə qoparmağa öyrəncəlidi. İndi də növbə onundu. O öz-özünə: — Tələsmə, Rəşid, qoy boxçasında nə varsa, açsın, töksün, onda heç nəyin fərqinə varmadan deyərsən ki, nəyə de-

yirsən, ona and içim, ürəyimin doluluğuna, sadəlövh danışıqlarıma baxma, cibim boşdu. Bədxərclik eləsəm, çox güman, hotelə də borclu qalaram... Qoy görüm, eloğlumun söhbətinin sonu hara gedib çıxacaq?..

Elxan Azəri çaydan bir qurtum içib sözünə davam elədi:

— Ömrüm boyu şıltaqlıq nədi, ağlıma gətirməmişəm. Lovğalıq, ərköyünlük, mənəm-mənəmlik təbiətimə yaddı. Şəxsiyyətimə xələl gətirəcək şeyləri özümə sığışdırmamışam. Çox haqlı sual qoya bilərsən, xocam: qarnı ac, gözləri bir tikəyə həsrət qalan adamda o hisslər haradan doğa bilər?

Rəşid sakitcə: — Doğrudu, — dedi. — O da çaydan bir qurtum içdi. Cibindən dəsmalını çıxarıb ağız-burnunu sildi: — Üzr istəyirəm.

Elxan Azəri: — Buyurun, — dedi və sözünün ardına keçdi:

— İndi şükürlər olsun ki, keçmişimdən yaxşıyam. Bir tikə çörək qəhri çəkmirəm. Geyməyə paltarım — çox bahalı olmasa — da var. Bir sözlə, eloğlu, ortababam. Böyük olmasa da, başımı altına salmağa kafi təmirli damım var. Allahın böyüklüyünə şükür, bu da olmaya bilərdi. Utancaq, abır-həyasına sığınan, arnamusunu özündə saxlamağa çalışan, hər cür alçaqlığı özünə rəva görməyən bir adamam... qaçqınlar, köçkünlər kimi gedib onun-bunun küncündə qalmaqdan yenə bu yaxşıdı.

— Hamımızın uşaqlığımız acınacaqlı olub, əfəndim. Həyatımızda kasıb, kimsəsiz uşaqların həyatına bir oxşarlıq, bənzərlik var desəm, yanılmaram. Niyə? Çünki kasadlıq, zəhmət, zülm, məşəqqət hamımızın qisməti olub. Kimimizdə az, kimimizdə çox.

— Xocam, keçmişimlə bu günümü müqayisə eləyəndə, bircə şeyə yanıb-yaxılıram. Keçmişdə uşaq idim, müəyyən şeyləri başa düşmədiyimdən fərqinə o qədər də varmırdım. Hər şey gözlərimdə parlaq və əlvan görünürdü. Hər şeyin, xüsusiylə güzəranımın yaxşı olacağına ümidliydim. Yeniyetməlikdə çox şeyi





anlamasam da, çox şeyi özümə sığışdırmasam da, qıçlarımda taqət, qolumda güc vardı. Elə bilirdim, dünya mənimdi. Həmişə də mənim olacaq. Gücümə, qüdrətimə arxalansam, maraqlı həyat, təmtəraqlı ömür qazana bilərəm.

— Elxan əfəndi, görürsüz, bütün kasıb uşaqlar, xüsusiylə də qaçqınlar üçün xarakterik bir tale.

— Xocam, incimə, fələk deyir, sən saydığını say, gör mən nə sayıram... Həyatın gərdişlərinə sinə gərdim. Zaman məni ağuşuna alıb belədən-belə çalxaladı. Hara gəldi atdı. Onda ümidsizləşdim. Arzularımın üstə sanki solğun pərdə çəkildi. Mənəvi gücüm, qüdrətim qərar tutduğu zirvəsindən üzü aşağı dığırlanmağa başladı. Qara buludlar başıma çökdü... Özüylə lil, çirkab dolu rəngli (qaramı, qırmızımı...) yağışlar yağmağa başladı... Dünyaya baxışım yavaş-yavaş dəyişdi. İçim tədricən incələşmədi, nazildi. İndi hərdən xəyalən uşaqlıq, yeniyetməlik illərinə qayıdıram. Nə qədər acı olsa da, keçirdiyim o hissləri bir də yaşamaq istəyirəm.

— Elxan əfəndi, uşaqlıq, yeniyetməlik xatirələri çox şirin və bir çoxunun da izləri pozulmaz olur. Sözünüzə şərikəm ki, insan daim o duyğularla yaşamaq istəyir. Bilirsiz niyə? O göz yaşları kimi təmizdi. Ana südü tək məlhəmdi. Ağdı-ağ, qaradı-qara. Sonadək yaşayır adamda.

— Xocam, indiki yaş zirvəsindən bəzən keçdiyim ömür yoluna nəzər salıram. Doğrudur, bir çox izlər tamam itib. Niskilli anlarım unudulub. Bir çoxlarının üstünü toz, duman alıb. Bir çoxları da boz-bulanlıq, alatoran halda gözlərim önünə gəlir.

— Doğrudu... Yaş ötdükcə, çox şey bəzən əlvan görünür. Qəribədi, onda yaddaş da adama xəyanət eləyir, desəm, məncə, səhv eləmərəm.

Elxan Azəri xəyala getdi. Sifətində duyğusuzluq yarandı. Handan-hana üzü işıqlandı. Sonra dedi:

— Eləsi də var ki, necə baş veribdisə, eləcə xatirimdə yaşa-

yır. Keçmişim nə qədər acı olsa da, ona heyfsilənmirəm. Çünki o mənimdi. Ömrümün bir parçasıdı. Hərdən öz-özümə düşünüb qəmlənirəm, qüssələnirəm, kədərlənirəm... Ancaq acısı da, şirini də mənə əzizdi, doğmadı.

Rəşid hərdənbir replikalar versə də daha çox Elxan Azərini diqqətlə dinləməyə səy göstərirdi. Ancaq söhbətin hara istiqamət alacağını, hansı nöqtələr üzərinə yönələcəyini hələ də aydın təsəvvür eləyə bilmirdi. Ona görə də Rəşid bəzən bir qədər çətin duruma düşürdü. Bunu Elxan Azəri də anlayırdı.

— Deyəsən, səni yoruram, Rəşid əfəndi?

— Yox... Nə danışırsız? Fikrinizi o qədər şirin, yerbə-yerində ifadə eləyirsiz, az qala, özümü də unuduram, Elxan əfəndi.

Elxan Azəri dərindən köksünü ötürdü. Keçmiş hadisələri olduğu kimi xatırlamaq üçün bir anlığa gözlərini yumub-açdı. Gözləri pəncərənin o tayındakı açıq səmada sakit-sakit, təmkinlə axan ala-tala boz buludlara, onların yarğanlarından görünən mavi səmaya dikildi. Handan-hana özünə gəlib dedi:

— Acısı da, şirini də mənə əzizdi. Doğma olan keçmişimin yaxşıları pislərinin, şirinləri acılarının üstünə pərdə çəkir, onları kölgələrində saxlamağa, daha doğrusu, kəsərindən salmağa çalışır... Qəribədi, məni çaş-baş salan bəzək o qara nöqtələrə də özlüyündə işıqlı nəzərlərlə baxmağımdı. Təsəvvürümdə onların obrazlarını, tərtəmiz, cazibədar, əlvan yaratmağa çalışıram... Mən fanatik deyiləm... İstəməzdim, məni xəyalpərəst sanalar.

— Nə danışırsız, Elxan əfəndi. Mənə etibar eləyə, məni özünüzünki sana bilərsiz. Mən onu da anlayıram ki, hələlik dəqiq deməsəniz də, ürəyinizi kövrəldən, bəzən qəhərləndirən, hisslərinizi nazildən nəsə ciddi əsas var... Mən o əsası olduğu kimi tutmaq, dərk eləmək istəyirəm. Təkrar eləyirəm. Çəkinməyin, mənə etibar eləyin, qəlbinizdəkilərin hamısını mənə açın. Sizə həmdəm, dərdinizə şərikəm. Çəkinməyin... İçinizi mənə açsanız...





— Yox... Çəkinmirəm. Başıma gələnlərdə günahkar deyiləm. Sanıram, o da bir qəzavü-qədərdi. İndi mənə nə uşaq, nə də cavan demək olar. Xeyli yaşım var. Təcrübəm var. Həyatın od-alovlarından keçmişəm. Atdığım düz addımlar nəticəsində şükürlər olsun ki, bu yaşa, bu mövqeyə gəlmişəm. Məni dost, qardaş, əmi, dayı, oğul gözüylə görənlər də çoxdu. O adamların hər biri mənimlə nə qədər yaxın olsalar da, olub-keçənləri teztez içimdə vurnuxdursam da, kədərli duyğularımı kimsəyə aça bilməmişəm. Yaş üstə yaş gəlir. Vaxt ötür. O əzablardan məni illər ayırır... Üzərində doğulduğum torpağı, içdiyim suyu, udduğum havanın niskilini çəkirəm. Uşaqlıq dostlarımla bir də təmasda olmaq istəyirəm. Mən biləndə ki, vətənimdən gəlmisən...

— Saxlama, Elxan əfəndi, istəyirəm ürəyindəkiləri açıb tökəsən. İçinə yığılan dərd-sərləri boşaldasan. Boşalanda adam sakitləşir.

— Sizi görəndə, nədənsə, özümdə sizə qarşı bir doğmalıq duydum. Yaxınlıq hiss elədim. Eloğlu, düşünürəm, bu da hardasa taleyin qismətidi. Onda fikirləşdim ki, mübhəm duyğularımı, düşüncələrimi sənə aça bilərəm.

— Təşəkkür eləyirəm. Ürəyinin yumşaldığını, hisslərinin nazildiyini duyuram.

Rəşid əvvəl keçirdiyi yersiz hisslərinə, düşüncələrinə, tələskənliyinə görə özlüyündə deməsə də, sıxıntı keçirdi. Yanaqları bir az da qızardı. Keçirdiyi hissləri pərdələməyə başladı:

— Elxan əfəndi, sənin eloğlum olduğunu biləndə mən də çox sevindim. İstanbul xəstəxanasında cərrah olduğunuzu eşidəndə fərəhləndim. Bizə olan qayğınız görünür, elə-belə deyil. Bu, hisslərin yaxınlığıdı. Görünür, torpaq, vətən hissi çəkir. Adam bu hisslərin əzəmətini, möhtəşəmliyini vətəndan uzaqlarda dərk eləyir...

Elxan Azəri yenə xəyala getdi. Handan-hana:

— Deyəsən, çox çərənləyirəm. Sinirlərinizi qıcıqlandırıram. Sizi bezikdirirəm, yoruram.

— Yoox... Yoox... Qətiyyən... Elxan Əfəndi.

— Xocam, əslində həyat belədi: sorğu-suallar; söz-söhbətlər; dedi-qodular, dava-dalaşlar... Nələr... Nələr. Cavanlığımda öyrənməyə çox çalışırdım. Vaxtımın xeyli hissəsini toz basmış kitablar, jurnallar arasında keçirirdim. İndi isə elə həvəsim yoxdu. Gözlərimin nuru zəifləyib. Səbrim tutmur. Hər şeydə məntiq axtarıram. Onu da tapa bilməyəndə yoruluram. Vaxtımın hədərə getdiyini düşünüb heyfslənirəm. Təkcə içimdə möhtəşəm bir istək var. O da vətən, xalq, millət istəyi... Həmişə onlarla ola bilmədiyimi düşünüb heyfslənirəm. Qurub-qoşduqlarımı, dişimlə-dırnağımla tikdiklərimi atıb birdəfəlik gedə bilmirəm. Buna təəssüflənirəm. Sonra da özümə ürək-dirək verirəm: elə bura da vətəndi.

— Xocam, biz əzəldən türk övladıyıq. Azərbaycan da, Türkiyə də vətənimizdi. Xanimanımızdı. Sənin dediklərini eşidəndə bilirsən nə qədər fərəhlənirəm?.. Siz çox xiffət çəkirsiz, Elxan əfəndi, belə olmaz. Axı, siz həkimsiz. Yaxşı bilirsiz ki, xiffət ömrü gödəldəndi. O halı açığını deyim, sizdə görmək istəməzdim. Nədən inciksiz? Nədən narahatsız?

— İnsanın qəribəliyi dərk olunmazlığındandı, xocam. Vətən hissi, xalq, millət duyğuları onun mənindədi. Kökündədi. O, insanla birlikdə doğulur, birlikdə ölür. Söhbət həqiqi insandan gedir.

Rəşid güldü, sonra astadan dedi:

— Bu hisslər mənə də yad deyil. Elə düşünürsüzsə, təəssüflənirəm, Elxan əfəndi.

— Yoox... Xocam, mən sizə münasibətimdə hərdən — həmişə yox — ərkdən doğan ehtiyatsızlıq, bəlkə də etinasızlıq eləyirəm. Xahiş eləyirəm, mənim sözlərimi səmimi qəbul eləyəsiz. Acı və zarafat kimi dəyərləndirməyəsiz. Sizin yaşınızı nəzərə alıram. Hisslərinizi, sözlərinizi dəyərləndirirəm. Əsl kişi mövqeyiniz məni sevindirir. Hər sözünüzə, hərəkətinizə rəğbətlə yanaşıram. Başqa cür düşünməyə cəsarət eləmirəm. Əks halda, bu, mənim sizə diqqətsizliyim və ədəbsizliyim olardı. O hissiyyatsızlıq və nəzakətsizlik ədəb-ərkana sığmaz.





— Sən nə danışırsan, əfəndim. Sənin səmimiyyətin məni çox zaman utandırır, çəkindirir. Onun əvəzini verənmədiyim üçün...

— Yaxşı... Yaxşı... Tərifə ehtiyac yoxdu... Onu bilirəm ki, beyində kök salan hər hansı cücərti insanı istənilən səmtə çəkə bilər. Bədxahlaşdırar. Bədxah insansa daim təqib və nifrətlərə məruz qalar...

Elə bu vaxt qapı açıldı. Tibb bacısı başını içəri saldı: — Həkim, xəstənin vəziyyəti kritik həddə çatıb, ona yardım gərəkdi...

Elxan Azəri dərhal ayağa qalxdı: — Bu saat, gəlirəm — deyib, Rəşidin üzünə baxdı. — Xocam, üzürlü hesab edin, söhbətimiz yarımçıq qaldı. Görüşərik, danışarıq.

Rəşid qabaqda, Elxan Azəri isə onun ardınca kabinetdən çıxdılar.

## Səfehlərin səfehliyi

Arvadı xəstəxanaya düşəndən mənəvi işgəncə təsiri bağışlayan həyatı, elə bil, Rəşid üçün qaranlıq zülmətə dönmüşdü. Həkimlər nə qədər ona təskinlək versələr də, —“Xanımında qorxulu heç nə yoxdu, özünə əzab vermə”, — desələr də, o, bir yerdə qərar tuta bilmirdi. Səhər yatağından qalxır, bir-iki loxma kəsir, sonra bütün günü şəhəri ələk-fələk eləyirdi. Tez-tez özünə suallar verirdi:

— Nişanənin başına bir iş gəlsə, ailənin taleyi necə olacaq? Uşaqlara nə cavab verəcəm? Uşaqlara atadan çox ana lazımdı...

Eh... Mən də qəribə adamam... Nə oldu, fikirləşirəm. Bəyəm, əməliyyat olunan təkcə mənim Nişanəmdimi? O qədər xəstə var, hərəsinin də bir dərdi. Qəribədi, həkimlər deyirlər, yüngüldü, mən fikirləşirəm, bəlkə ağırdı... Mənimki şələni yerə qoy, gəl vuruşaqdı.

Rəşid beləcə gəzə-gəzə xəstəxanaya gəldi. Tibb bacısını palatada görəndə istədi içəri girməsin, koridorda gözləsin. Ərini görən Nişanə: — Geri qayıtma, içəri gəl, polkovnik, — dedi. — Bu xanım Şimali Azərbaycandandır. Ünvanlarımızı da bir-birimizə vermişik. Adı Lətafətdi. Çox səmimi, istiqanlıdı.

Lətafət:

— Çox şadam, — dedim və astadan, üzünə baxmadan soruşdum:

— Yəqin Elxan Azərini də tanıyırsız? Sizin kimi o da həmvətənimizdi...

— Tanıyırsız nədi? Mənim bura gəlişimdə onun xidmətləri çoxdu... İnsan adamdı. Bəridən baxanda, az qala, adamın o üzünü görür. Düzdü, özünün xəbəri yoxdu. İşçilər ona əla ləqəb də qoyublar: "Rentgen Elxan Azəri..."

Hamı güldü. Rəşid dilləndi:

— Siz "ləqəb qoyublar" deyəndə mən çaşdım. Ancaq yaxşı ləqəbdi. Mənası "İnsanı yaxşı tanıyan, pisi yaxşıdan ayıran, hər kəsə öz dəyərini verən, aldanmayan... adam" deməkdi. Fikrinizi düzmü tutmuşam?

— Hə...

— Bunun nəyi pisdi ki? Dünən birlikdəydik. Maraqlı söhbətləri var. Sözləri elə deyir, düşünürsən, yağdan tük çəkir. Təəssüf ki, xəstələrdən kiminsə halı kritik həddə çatdı. O, getdi, söhbətimiz yarımçıq qaldı. Söhbətçildi. Çalışacam, onunla yenidən söhbətə oturum.

Lətafət:

— Elxan Azəridə adamayovuşmazlıq da var. Çox adam nə ona, nə də o çoxlarına yaxınlaşır. Vəzifəsini yerinə yetirir. Bir az da həyatından gileylidi.

— Hə, onu mən də hiss elədim, Lətafət xanım. Görünür, bu, el-obasından ayrı düşməsiylə bağlıdı.

Nişanə:

— Çox güman ki, elədi... Belə bir xalq deyimi var. "Vətən adamın içində olur". Zeynəb qarı da bu ifadəni tez-tez işlədərdi.

Lətafət:

— Zeynəb qarı kimdi?

Nişanə:

— Böyük mütəfəkkir.

Rəşid:

— Müdrik şəxsiyyət. Belə ağıllı qadınlar az-az olur. Gör nə deyir: "Mən Vətəndən çıxdım, ancaq vətən məndən çıxmadı".

Nişanə:

— Qarı sinədəftəriydi, — dedi. Özün təhsil nədi görməyəsən, ancaq yerin altını da biləsən, üstünü də.

Lətafət astadan: — Hə... Elə adamlar çoxdu. — O, ayağa qalxdı: — Rəşid qardaş, südlü qəhvəylə aran necədi? Özüm dəmləmişəm.

— Sizə əziyyət olar.

— Nə əziyyət... Əksinə, xoşdu.

Nişanə ərinə: — İç... Hər halda, mənim düzəltdiyim horraya bənzəməyəcək, — deyib güldü.

Rəşid:

— Özünə qarşı çox tənqidi yanaşma. Ola bilər, dəmlədiyin qəhvə özünün xoşuna gəlməsin... İnan ki, mənə çox ləzzət verir.

Lətafətin üzündə xəfif təbəssüm yarandı:

— Hazırladıqları ərinin xoşuna gələn qadın xoşbəxtdi.

Lətafət üç fincan qəhvə gətirdi. Hərənin qənşərinə birini qoyub: — Afiyət olsun, — dedi. Südlü qəhvələri içdikcə Rəşid: —

Əla! Əla! Mənə çox ləzzət verdi. Görünür, qismətimdə belə dadlı qəhvə içmək də varmış, — deyib, ayağa qalxırdı ki, Lətafət dilləndi:

— Siz söhbətinizi eləyin. Bir azdan yenə gələrəm.

Nişanə:

— Narahat olma, bacım, səndən gizli elə bir söhbətimiz yoxdu.

Rəşid:

— Bizi düşündürən yeganə məsələ Nişanənin uğurlu əməliyyatıdı.

Nişanə:

— Necə fikirləşirsən, bu əməliyyat uğursuz da ola bilər?

Rəşid məntiqsiz danışdığını anladı. Səhvini düzəltməyə çalışdı:

— Mən uğursuz demədim. Sözdən söz çıxarma...

Lətafət:

— Biz xanımlar beləyik də... Baş-ayaq şərik...

— Mən elə deməzdim. — Rəşid ayağa qalxdı. — Mən gedim, sözün varmı mənə, Nişanə? — dedi.

— Yox... Uşaqlar, ya kimsə telefon açsa, əməliyyatın vaxtını sovuşdur bir gün sonraya, narahat olmasınlar.

— Sovuşduraram, ancaq anan o qədər həssasdı ki... Allah bilir, indi ya yuxuda, ya da göydə uçan quşlardan xəbər tutacaq, — deyib xudafizləşdi. O, pay-piyada hotelə getmək qərarına gəldi. Yolüstü kafeyə girdi. Bərk acmışdı. Keçib boş stullardan birində əyləşdi. Cavan oğlan ara mahnısı oxuyurdu. Rəşid yüngül yemək və meyvə şirəsi sifariş etdi. Musiqi azacıq ara verdi. Sonra tanqo musiqisi çalındı. Gənc oğlan və qızlar rəqsə başladılar. Xidmətçi sifarişi gətirdi. Rəşid bir loxma kəsmişdi ki, ara qarışdı. Gənclər atıldılar-düşdülər, qaynaşdılar, qucaqlaşdılar, çəpləşdilər, sürtüşdülər, dartışdılar, söyüşdülər, hədələşdilər, yumruqlaşdılar, təpikləşdilər... İş çıxdı kim kimi harda gəldi vurub





ölüb-öldürrəmə. Salonu hay-küy bürüdü. Dalınca da başlandı stolun üstündəki əşyaların: çəngəl-bıçaqların, qab-qaşıqların, nələrin... nələrin... atılmasına. Kimi əlinə gələni, gözünə görünəni fərq qoymadan kiməsə, harasa atır, heyfini çıxmağa çalışırdı. Atahatda yeməkxananın çilçiraqları qırıldı. İşıqlar söndü. Salon qaranlığa qərq oldu. Göz gözü görmürdü. Kimlərin başı partlayır, kimlərin üzləri parçalanır, kimlərinsə qol-qabırğaları qırılırdı. "Öldüm, Allah!" "Öldüm, ana!" "Vay!" "Uy!" səsləri bir-birilərinə qarışdı. Bunlar azmış kimi qapı ağzında tapança səsi eşidildi. Kimsə dedi: "Tərpənməyin, tərpənməyin, beyninizi sovuraram". Hamı yerində mıxlandı. Çox çəkmədi ki, yeməkxananın işıqları yandırıldı. Zülmətdən ayrılan, hələ işığa tam uyuşmayan gözlər yumulub açılırdı. Bir anlığa gördüklərindən çaşanlar özlərini yuxuda sanırdılar. Özlərinə qayıdanda dəhşətə gəlirdilər. Cavan oğlanlardan birinin başından aldığı zərbədən öldüyü, neçəsinin yaralandığı məlum oldu. Bu zırhazırdan, qəfil baş verən hadisədən yanağı partladığından, Rəşidi də əsməcə tutdu. Handan-hana qan çox axmasın, üst-başını boyamasın deyə, o, cibindən dəsmalını çıxarıb parçalanmış üzünə tutdu. Məlum oldu ki, qapı ağzında tapançadan atəş açanlar terrorçular yox, polislərmiş... Az zərər çəkənlər bir balaca sakitləşdilər: — Yaxşı qurtardıq, anamız namaz üstəymiş — deyib, özlərinə təskinlik verdilər. Oynayan sinirlərini güc-bəlayla ələ alanlar yavaş-yavaş selə-suya dönürdülər. Rəşid af-uf içərisində, çətinliklə də olsa, ayağa qalxdı. Adamlar arasında xidmətçini tapıb dedi:

— Əfəndim, bir loxma yemək üçün verdiyim sifarişin pulunu alın, özümü təcili həkimə çatdırım. Yoxsa, məni qan aparar, ölüb üstünüzdə qalaram. Olaram sizə bir yük.

Xidmətçi Rəşidi ayaqdan-başa süzdü. Sonra mızıltılı səslə:

— Xocam, mənə də o ki var, zıpladılar... İçim az qala töküldü. Həm də sənin günündəyəm. Hələ şalvarımı batırmamı demirəm... Yemədiniz, ac qaldız. Təəssüf edirəm ki, sizə layiqin-

cə xidmət eləyə bilmədim.

Rəşid kinayəylə:

— Səsə salma, əfəndim, yedim, özü də lap bəsdi deyincə. Nə qədər ki, ayaq üstəyəm, ölməmişəm, başım salamatdı, pulunuzu alın. Sonra aləm qarışar.

— Bundan da betər...

— Bu bəxt ki, məndə var...

— Aha, belə çıxır ki, bu zırhazırın səbəbkarı sənsən, xocam.

Rəşid üzünü bozartdı. Sərt halda bildirdi:

— İşin içindən qəmbərqulu çıxarma. Mən polkovnikəm, özü də ehtiyatda olan. Nə danışdığımı da, xeyrimi, şərimi də bilirəm. Dostumu, düşmənimi yaxşı tanıyanam.

"Polkovnik" sözünü eşidən xidmətçi dik atıldı. Sözün əvvəlinə, axırına fikir vermədən xıtıcılandı:

— Xocam, qonağım olun. Sizə nə qulluq eləyim?

— Adə, qonaq elədiz də. Bundan da yekəsini?.. Al pulunu, çox danışma, məni mürəxxəs elə.

— Bağışlayın, xocam, bizdə qanla oynamağı özünə peşə eləyən belə xəyalpərəst, səfeh gənclər olmur. Görünür, bu dəyyuslar Suriya qaçqınlarıdı. Ya da İŞİD-çidilər.

Rəşid əsəbiləşdi:

— Adə, söz güləşdirmə. Hər kimdilər. Axır ki, mənə olan oldu. Ta zəhləmi tökmə. Sizi yaxşı tanıyıram. Hamınız simicsiz. Gördüyünüz şeydən şey qoparmasanız, canınız dincəlməz... Yemək xərcimi ödəməyib getsəm, səhər şəklim əlinizdə mənim barəmdə İnterpol vasitəsiylə axtarış verəcəksiz...

— Nə danışırsız, xocam? Siz türk, biz türk, kökümüz bir, qanımız bir, xislətimiz bir. Bir sözlə, hər ikimiz bir şeyik.

Rəşid pulu stolun üstə atdı. Pulu görcək xidmətçinin gözləri pişik gözləri kimi parıldadı. Qalıq qaytarmadan pulu cibinə soxdu.

Rəşid tələm-tələsik yeməkxanadan çıxırdı ki, onu iki polis





nəfəri və hadisə yerinə çağırılan həkimlər saxladılar. Həkimlər Rəşidə təcili yardım göstərməli oldular. Üz-gözünün qanını yudular. Dərman-dava elədilər. Bintlə sarıdılar. İşlərini bitmiş hesab elədikdə, polislər ona dedilər:

— Xocam, sən bizimlə getməlisən.

— Niyə?

— İdarədə səbəbi sənə aydın olar.

Rəşid əsəbiləşdi:

— Allahu-Əkbər... Adə, pazın birindən qurtarmamış o birinə keçdim, — deyib səsini qaldırdı. Cənablar, nə istəyirsiz? Nə vermisiz mənə, ala bilmirsizniz? Üzümü partlatdınız. Məni alqana boyadınız. Pulumun qalığını vermədiniz. İndi də məni — ehtiyatda olan polkovniki hara sürükləyirsiniz? Ayə, mən qonağam ey. Qonaq! Başa düşürsüz? Düşmürsüz, telefon açım səfirliyə. Onlar gəlib tərcüməçilik eləsinlər... Adə, siz nə təhər adamlarsız? Bəyəm, türk də türklə tərcüməçiylə danışar?.. Bizə yağı baxsa, yazığı gələr. Allahınızdan qorxmursuz? Bəs deyirdiniz, bir millətik?

Rəşid ölən oğlanın yerə sərilmiş meyidini göstərərək: — Adə, gedin, isti-isti onun qatilini tapın... Qanaxma, dəhşətli ağrılar yaralıları tez əldən salır, sir-sifətlərinə ölüm qoxusu, vahiməsi... çökdürür.

Polis dərhal:

— O, ömrünü yaşadı. Ta heç kimə lazım deyil. Xeyirsiz oğulun vayına oturaq. Bizim işimiz salamatlarladı. Onların törədəcəkləri cinayətlərin qarşısını almaq bizim vəzifəmizdi. Ala bilmədik, deməli, ötdü. İndi də siz zərərçəkmişləri...

— Bunlar nə danışırlar, əə?.. Siz deyənlər heç Banqladeşdə də olmur. Əşi, zərər-zad çəkməmişəm. Buraxın, rədd olum.

— Çox şübhəli danışırsan, xocam. Bizi vadar eləməyin... Görürsüz, yaralıları, zərərçəkmişləri basırıq maşına, aparırıq şöbəyə...

— Hara?

— Şöbəyə!.. Eşitmədin?

Eşitdiklərindən gözləri böyüyən Rəşid polis maşınında oturmağa məcbur oldu. Maşın çox çəkmədi ki, tini burulub polis idarəsinin qarşısında dayandı. Dərhal da sorğu-sual başlandı.

Cavan müstəntiq:

— Özünüzü təqdim edin.

Rəşid narazı halda:

— Əliquliyev Rəşid Məmmədqulu oğlu. Azərbaycanlı. Ehtiyatda olan polkovnik.

Müstəntiq diqqətlə Rəşidi süzdü:

— Qulular nədi, əə, ehtiyatda olan polkovnik?..

— Bəli! Bəli! Qulular babamla atama aiddi. Mən sadəcə kəşfiyyat polkovnikiyəm. Həm də Azərbaycan əks-kəşfiyyatının sayılıb-seçilən nümayəndəsiyəm.

— Onu saxla özünə.

— Niyə?

— Onu Azərbaycanda deyərsən... Türkiyəyə niyə gəlmisən?

— Necə niyə gəlmisən? Türkük... Türkiyə də bizimdi.

— Gəlişinin səbəbin de... Harda qalırsan?

— Xanımımı əməliyyata gətirmişəm. "Turan hotel"də qalıram.

Əməliyyat sözünü eşidən müstəntiq duruxdu. Rəşidə çəpəki baxdı. Handan-hana soruşdu:

— Nə əməliyyat?

— Cərrahiyyə əməliyyatı. Yoxlatdıra da bilərsiz.

— Yeməkxanada nə gəzirdin?

— Bərk acmışdım. İstədim bir loxma yeyəm. Yediyim bir loxmanı da türk qardaşlarım lülə-lülə tökdülər burnumun deşiklərindən. Bir tikə ağzıma qoyar-qoymaz, ara qarışdı, məssəb itdi. İt yiyəsin tanımadı. İşıqlar söndü. Hansı anasının əmcəyini kəsənsə, boşqabı zıpladı qulağımın dibinə. Məni saldılar it gününə. Günahsız polkovniki az qaldılar...





— Yaxşı, bu hadisə nədən baş verdi?

— Dəqiq deyə bilmərəm, müstəntiq. Ancaq...

— Nə ancaq, gizlətmə, düzünü de. Onsuz da bütün fırıldaqlar açılacaq. Sən həqiqətən rus kəşfiyyatçısısan, yoxsa milli?..

— Milli... Allah! Allah! Kəşifiyyatın da millisi, xaricisi?

— Olmasa, soruşmaram ki? De hadisənin səbəbini...

— Dəqiq bilmirəm. Ancaq söz gəzir ki, cavanlardan kimisi eşqbazlıqdan, kimisi çılğınlıqdan, kimisi qudurğanlıqdan, kimisi harınlıqdan, kimisi gözügötürməzlikdən, kimisi qərəzdən, kimisi intiqam hissindən... bu oyunu çıxartdılar.

— Bu hadisədə təxribat, terror izi yoxdu ki?

— Məncə, yox... Hər halda, hadisənin səbəbini hüquq-mühafizə orqanları araşdırıb şərh eləyəcəklər... Onda hər şey süddən ağ olacaq, müstəntiq... Məni buraxın gedim. Xanımım xəstəxanada... Uşaqlarım Bakıda. Qayınanam nigaran... Rica edirəm, məni zibilə salmayın.

— Yox... Bu saat sizin məxvi kəşfiyyat idarəsiylə əlaqə yaradaq. Görək, həqiqətən də istefada olan polkovniksizmi?

— Əşi, qaşınmayan yerdən qan çıxarmayın. Elə eləyin, bu şəhərə bir də ayaq basan olsun.

Müstəntiq qəhqəhə çəkdi.

Rəşid öz-özünə deyinməyə başladı:

— Ayə, mənə deyən lazımdı, a köpək oğlu, o yeməkxanada sənin nə itin azmışdı? İndi gəl müstəntiqə cavab ver. Şahidlik elə. Sübut gətir... Nə görmüşəm, nə şahidlik eləyim? Arvad xəstəxanada, belə getsə, mən də olacam təcridxanada... Öl polkovnik, öl. O boyda polkovnik rütbəsinə burda iki qəpiklik dəyər verən yoxdu...

Müstəntiq Rəşidin üzünə baxdı, astadan pıçıltılı səslə dedi:

— Dur get... Səhər həkimə getməyi unutma, istefada olan polkovnik... Yaralarına mikrob düşər...

# Xorultu

Ehtiyatda olan polkovnik hotelə gələndə halı özündə deyildi. Başı qaynayırdı. O, güzgü qənşərinə keçib, üz-gözünə baxdı. Üz-gözündə qan izləri, boynunda-boğazında qan laxtaları... Bunları görcək kövrəldi. Handan-hana özünə gəlib düşdüyü vəziyyətə təəssüf hissi keçirtdi:

— Bu nə sir-sifətdi, əə? Mən gedim kimə nə deyim? Düzünü desəm, inanarlarmı? Allah bilir. Dostlar, məni istəyənlər inansalar da, məndən zəhləsi gedənlər də inanmayacaqlar. Onlar adıma, ünvanıma yüz cür şəbədə qoşmayacaqlar ki? Ən azından deyəcəklər: getdi Türkiyəyə, nə qələt elədisə, türk qardaşlarımız çeşidli nişanlar qoydular gözlərinin altına. Elə bilirdi, İstanbul da Bakı kimidi. Qanmadı ki, Türkiyə nə qədər xaqanlar, fatehlər görüb. O torpaqda gərək özünü adam balası kimi aparasan. Aparmadın, aqibətin bundan da betər olacaq...

Rəşidin yatmağa həvəsi olmadı. Hirs onu boğurdu. O, balkona çıxdı. Öz-özünə dedi: — Eh... Nə deyirlər desinlər, Nişanə belə düşünməz. O, mənə inanar. Bilir ki, qanun Rəşidəm... Qanundan kənara çıxan deyiləm... Eh... Mən də qəribə adamam. Öyrənmişəm naqqallığa. Hər nə olsa, fikirləşirəm. Hələ əsas budur ki, səhər açılsın, gedim Nişanənin hüzuruna... Birinci onu inandırım.

Rəşid danışa-danışa yataq otağına qayıtdı. Pəncərənin pərdəsini yana çəkdi. Gördü ki, havada işıqlanma var. Dan yeri sökülmək üzrədi. Fikirləşdi: başımı atım balınca, balaca gözlərimin acısını alım. Beynim sakitləşsin... O, fikirləşdiyi kimi də elədi. Üst kostyumunu soyunub çarpayıya çəpəki uzandı. Qıçlarını çarpayının qırağından aşağı salladı. Adyalın küncünü qarnının üstünə çəkdi. Başını elə balınca qoymuşdu ki, canında bərk ağrı hiss elədi. Kişi ufuldayıb ayağa qalxdı. Köynəyini, maykasını yuxarı





sıyırıb yenidən güzgü qarşısına keçdi. Sağ tərəfdəki qabırğalarının üstünün şişdiyini, qançırmalandığını gördü. Ürəyinə yüz fikir gəldi:

— Adə, birdən qabırğalarım da sınmış olar ha. Görəsən, qabırğalarımın altında içalatıma xətər-filan yetməyib ki?

Rəşid hoteldəki dəsmallardan birini götürüb islatdı, şiş və qançır olan yerə qoydu. Dərindən nəfəs alıb-verməyə başladı. Hiss elədi ki, içi salamatdı. Yəqin şişlə qançır da çəkilib gedər. Bu dava-dalaşdan mənə təkcə üzümdəki çapıq izləri qalar.

Sağ qabırğaları və sol üzü incitdiyindən ehtiyatda olan polkovnik arxası üstə yatmaq qərarına gəldi. O, çətinliklə yuxuya getdi. Başı balıncdan düşdüyündən ağzı aralandı və bərkdən xoruldamağa başladı. Dəhlizdən keçənlər xorultunu eşitcək ürəklərinə yüz fikir gəldi. Xəbər hotelin sahibinə çatdı. Xidmətçilər: — Bəlkə ölüm ayağındadı, ona yardım lazımdı, — deyə yığışıb polkovnik yatan otağın qapısı ağzına gəldilər. Həyəcan, qorxu, təlaş hissi getdikcə xidmətçilərə siraət elədi. Axır ki, əsəbləri dözməyən otel sahibi qapını döyəclədi. Çox çətinliklə özünə gələn polkovnik yataqdan qalxdı. Ayaqlarını sürüyə-sürüyə gəlib qapını açmışdı ki, hamı içəri soxuldu. Polkovnik nə baş verdiyini düz-əməlli bilmədiyindən tez geri çəkildi. Gələnlər yataq, istirahət, vanna otağına, balkona baxdılar. Təhlükənin ötüşdüyünü görüb kişinin üzünə hırıldadılar. Xidmətçi qadın təəccübləndi və soruşdu:

— Bu nə sir-sifət, nə xorultudu, polkovnik, bizi dəli eləmisən?

— Nə olacaq? Sizin qonaqpərvərliyinizdən gəlib başıma. Burda adam xoruldayar, hələ canı da çıxar. Adə, mənə təsir eləyən bilirsiz nədi?

Hamı bir ağızdan:

— Yox...

— Mən Ermənistan-Azərbaycan münaqişəsi zamanı hərbdə

işləmişəm. Neçə fəxri fərman, diplom, mükafat almışam. Hamı başıma and içirdi. Bir dəfə burnum qanamayıb. Bura gəldiyim ikicə gündü. Xanımım xəstəxanada, özüm də bu sifətdə burda. Ölümdən qurtardım. Anam namaz üstəymiş. Bunu Allah götürər?

Xidmətçilər bir-birilərinin üzlərinə baxdılar. Hotel sahibi qabağa çıxdı:

— Xocam, siz nə danışırsız? Bizim şəxsən sizin kimilərə ehtiyacımız böyükdü.

Polkovnik:

— Hə...

— Bəli!..

— Bərəkallah...

— Xorultunuz çox bərk gəldi, xocam. Qorxduq heç nədən sizə təhlükə yaranar. Ona görə də qapınızı döyməyə cəsarət elədik. Sizdən üzr istəyirik. Bura İstanbuldu, özünüzü gözləyin. Gədə-güdə çoxdu.

Polkovnik bərk acıqlandı:

— Təhlükə... Təhlükə... Gədə-güdə... Qaradan da tünd rəng? Bu üzüm... İstəyirsiz, zağarımı da açıb sizə göstərim? Utanmaz, utanmaz görün müstəntiq mənə nə deyir: təxribat... terror... Ayə, soruşuram şəxsən sizdən, azərbaycanlılardan terrorçu olar? Terrorçular odur ha, qulağınızın dibində. Əl-Qaidə, Taliban, Hizbullah... PKK. O da İŞİD. Gedin onlarla danışın da...

Xidmətçi qadın qabağa çıxdı:

— Sizdən terrorçu-merrorçu çıxmaz. Arvadbaz, oğru desələr, inanaram. Terrorçu ermənidi... Ərəbdi... Rusdu. İngilisdi... Siz yox...

— Atana rəhmət. Mən səninlə razı... Məni bu günə salmısız. Lap cavanlıqdan vid-fasonum, qamətim... Nəyim, nəyim göz qamaşdırırdı. İndi mən neyləyim? Gedib xəstəxanada əməliyyat anını gözləyən xanımıma nə deyim? Gedim, onun böyründə yatımmı? Necə deyim ki, oturduğum yerdə məni bu günə saldılar, əziztəvərlik türk qardaşlarımız. Anam namaz üstündəymiş...





Xadimə qadın:

— Hi... Hi... Hi... Ölməmisən, Allahına şükür elə.

Təcili həkimə müraciət elə. Yarana infeksiya düşər, sonra gec olar.

Başqa bir qadın:

— A kişi, heç hara getmə. İşin içindən iş çıxarma. Düşərsən polislərin əlinə... Onlara da Allah insaf versin. Başlayacaqlar qurcalamağa... Onda gəl qabağını al...

— Narahat olma, polisdən gəlmişəm. Nə qədər sorğu-sual, irəli dur-geri dur olar? Mən abırlı adamam, xanım. Bu axşamkı ağrı-acını, işgəncəni heç vaxt unutmaram.

— Ağlını başına topla... İntiqam hissiylə yaşama. Sənə yaraşmaz. Bir üzdü, bir-iki qabırğadı, lap tutalım, içalatdı zədələnib. Bizim həkimlər ABŞ-da dərs alıblar. Düzəldəcəklər. Əsası odu ki, ayaq üstəsən. Başın çiyinlərinin üstündədi, nəfəsin də gedib-gəlir.

— Deyirsən, bu da olmaya bilərdi?

— Bə nədi?.. İş adam başına gəlir, polkovnik, çör-çöp başına gəlmir ki?

Polkovnik nəsə fikirləşdi. Sonra astadan dedi:

— Gedin, gedin... İmkan verin, gözlərimin acısını alım. Ağlım başıma gəlsin...

Polkovnik qapını çəkib örtdü: — Vızqırdın, — dedi.

## Polkovnikin gileyi

Yuxusuzluqdan, əsəbdən yorulub əldən düşən polkovnik üz-gözünü qaydaya salıb pay-piyada xəstəxanaya — arvadının yanına yola düşdü. Doğrudu, gedirdi, ancaq candərdi. Bilirdi ki, o

xəstəxananın kandarına ayaq basan kimi görənlər onu davakar hesab edəcəklər. Sözünün də, özünün də dəyəri düşəcək. Halını görən Nişanənin belə ən azından sir-sifəti bozaracaq, o, başını yelləyəcək, utana-utana, çəkinə-çəkinə: — Bu, nə haldı? — deyə ondan xəbər alacaq. Yenə başlamalıdı tulu-təsvir açmağa. Beləcə xətir-hörmət düşəcək... Hətta dünən bizə südlü qəhvə dəmləyən Lətafət də peşmançılıq hissi keçirəcək. Düşünəcək: — Adə, bu nə adammış ki, o boyda zəhmət çəkib südlü qəhvə hazırladım ona.

Polkovnik yol boyu çox fikirləşdi, çox götür-qoy elədi. Çıxış yolunu bircə şeydə tapdı:

— Əşi, cəhənnəmə olsun hamısı. İçib-çəkib bu günə düşməmişəm ki? Adım narkotik alverində, oğurluqda, dələduzluqda, Allah eləməmiş kimi, zorlama hallarında çəkilmir ki? Soruşsalar, artıq-əksiksiz, artırmasız-filansız, başıma gətirilənləri deyərəm, inanarlar-inanmazlar, öz işləridi. O tək, adil Allah da, elə vicdanım da şahiddilər ki, günahsızam. Doğrudu, nə Allah, nə də vicdan gözlə görünən, ətəyindən tutulandı. Gözlə görünməyəndən, ətəyindən tutulması mümkün olmayandan haqq-hesab çəkmək, — gəlin camaatı inandırın — demək əbəsdi. Nə onlar çağrışa gələndi, nə də insaf-mürvətdən uzaq olanlar deyilənlərə məhəl qoyandılar. Görünür, düşdüyüm bu axşamkı bəlanın xəcalətindən arsızlığımla, baş verənləri vecimə almamağımla, yeri gələndə dişağartmalarımla özüm çıxmalıyam. Nə qədər fikirləşsəm də, atılıb-düşsəm də, xeyri yoxdu. Parçalanmış üz, xəsarət almış qabırğalar, bu da şübhəli içalat. Evin dağılsın, mərdimazar... Yaxşı, mən xəstəxanaya gedirəm. Birdən Elxan Azəriylə qarşılaşdım. Onda ona nə deyəcəm? Necə deyəcəm ki, eloğlu, məni kafedə bu vəziyyətə saldılar. Necə olub ki, sən bunların arasında salamat qalmısan? O da mənə gülüb deməzmi ki, a başını dağladığım polkovnik, eşitməmisən ki, ağılsız baş yiyəsinə donuz güddürər. Canın çıxmazdı ki, gedib loxmanı hoteldə kəs-





səydin...

Deyinə-deyinə, qeybət qıra-qıra xəstəxanaya necə çatdığını hiss eləməyən polkovnik başını qaldıranda qarşısında Nişanənin yatdığı xəstəxananı gördü. O, yan-yörəsinə baxmadan özünü liftə saldı. Altıncı mərtəbəyə qalxdı. Başını qaldırmadan, kimsənin üzünə baxmadan Nişanə yatan palataya girdi. Arvadı onu görcək heyrətləndi. Əvvəl danışmağa söz tapmadı. Elə başa düşdü ki, yuxu görür. Çox çəkməyəcək, bu polkovniklə yuxu dartışmaları başlanacaq. Kişi başını aşağı sallayıb gözlərini arvadının ayaqları altına dikərək utana-utana, dil-dodağı təpiyə-təpiyə, səsi titrəyə-titrəyə dedi:

— Nişanə, ölümdən qurtarmışam. Mən belə qudurmuşluq görməmişdim. Bu axşam nə yemişəm, nə içmişəm. Gah polisdə izahat vermişəm, gah da hoteldə xorultu üstə çək-çevir olmuşam.

— Danışığından heç nə anlamıram. Olmaya qadın yanına... Ayə, halına-xislətinə bələd olmadığın yerdə...

Polkovnikin sifəti dəyişdi. O, ağız-burnunu əyişdirdi:

— Sən kefdən danışırsan... Yeməkxanada...

— Yeməkxanada nə?

— Yeməyə başlayanda işığı söndürüb boşqabı sifətimə, stəkanı böyrümə necə vurdularsa...

— Nə? Nə? Günahını demədən?

— A pir olmuşun qızı. Nə günah, nə filan?! Hallıydılar. Nə üçün? Nədən ötrü? O suallara cavab da verən olmadı. Az qala, polislər də məni terrorçu elan edəcəkdilər.

— Gərək gəlməyəydin. Telefon açaydın... Anama bəyan olub. Yazıq arvad yuxudan qalxan kimi telefon açıb səni soruşdu. Mən də başına gələnlərdən xəbərsiz, basdım-bağladım... Həkim dedi ki, əməliyyat sabahdı...

— Anan başqa söz demədi?

— Yoox...

— Bağışla məni, Nişanə. Gərək belə olmayaydı. Özüm də Elxan Azəriylə görüşəcəm. Burda olacam.

— Gəlmə, get yat, dincəl. Belə şeylər olur.

— Bu da türk qardaşlarımız...

— Bir-iki dələduzu, lotu-potunu bütün türklərin ayağına yazmaq olmaz. Bu həyatdı, polkovnik, hər üzü var. Ona necə gəldi — acıq-giciklə, hirslə, qəzəblə baxmaq düz deyil. Neçə gündü bu xəstəxanada mənə elə qayğı göstərirlər, elə bilirəm, xanımların hamısı anam-bacımdı, doğmalarımdı. — Gülərək: — Burda utanıb-qızarmaqlıq nə iş var? — dedi. Hardansa bir daş atıblar, o da gəlib təsadüfən səni tutub. Kiçik məsələni şişirtmək olmaz, mənim polkovnikim.

— Vallah, varam sənin bu mühakimənə. Elə danışırsan, adamın cavab verməyə sözü olmur... Axşamdan az qalırdım intihar eləyəm. Ona da kişiliyim çatmadı.

— Bəs, məni, uşaqları kimə tapşıracaqdın?

— Nə isə... İstəyirəm, gəlmişkən Elxan Azəriylə də görüşüm, ancaq əliboşam.

— Onun bizdən təmənnası yoxdu, polkovnik. Əlbəttə, onunla görüşmək lazımdı. Lap Bakıya gəlmək istəsə, ünvanını da ver. Ürəyi qübarlı adama oxşayır.

— Hə, onu yaxşı dedin. O gün xeyli söhbət elədik. Nədənsə dərdlidi. Dərdini açmaq istəyirdi. Tibb bacısı — canı yanmış bizi gül kimi söhbətdən ayırdı, onu xəstə üstə apardı... Elxan Azərinin açıq və təmiz qəlbi, yaxşı söhbəti var. Adama yovuşandı.

— Səhər yemək yemisən?..

— Yoox...

— Nəyi gözləyirsən? Dur get. Ye... Sonra da get yat. Çox yorğun, narahat görünürsən.

Polkovnik arvadının sözünü gözləyirmiş kimi ayağa qalxdı: Səhər gələcəm, — deyib otaqdan çıxdı.





## İlkin yaxınlaşma

Rəşid qapını aralayıb başını kabinetə salanda Elxan Azərini masanın yuxarı tərəfində ağ xalatda, eynəkdə oturan gördü. İcazə istəyib kabinetə girdi. Elxan Azəri onu gülərüzlə qarşıladı. Cəld yeridən qalxıb əl verdi, sonra da polkovnikdən yaralanmasının səbəbini soruşdu: “Səni bu hala kimlər saldılar? Axı niyə?” Rəşid kövrələrək hadisəni təfərrüratıyla danışdı. Davada adam öldüyünü eşidəndə Elxan Azərinin gözləri qıyıldı: — Bu işdə hüquq-mühafizə orqanlarının işçiləri də təqsirkardılar, — dedi. Restoranlar, kafelər, yeməkxanalar hər axşam nəzarətdə saxlanılmalıdı. Bu boyda şəhərdi, burda hər cür adam var. Onlara eyni diaqnoz qoymaq, eyni resept yazmaq olmaz.... Təsadüfi cinayətlər heç vaxt əvvəlcədən planlaşdırılmır. Qəflətən baş verir, ağıla gəlməyən hadisə törəyir... Adamlar zərər çəkirlər. Bundan sonra polislər gəlirlər. Ölən geri qayıtmır. Qonaqsan, bu uzaqlıqda yol qət eləmisən, dərdini yola qoymaq üçün, bir nəticə əldə eləməmisən, indi də gəl qan ver. Bax burda “niyə?” sualı çıxır ortaya. Onun da cavabı yoxdu. Cinayəti törədəni, ya onun baisini tutmaqla, cərimələməklə iş bitmir. Görürəm, həkimlər yaxşı sarıq qoyublar. Dur gəl yan otağa. Mən də baxım.

Həkimlə Rəşid yan otağa keçdilər. Həkim su kranını açdı. Sarığı açıb yaraya baxdı. — Qorxulu bir şey yoxdu, — dedi. Ancaq zərbə çox güclü olub. Bir-iki gün də keçsin, gələrsən, yenidən açıb sarıyaram. Qorxma, yaxşı qurtarmısan...

— Gəldim, eloğlu, səninlə görüşüm, hal-əhval tutum.

— Sağ ol. Xanımın da sabah əməliyyat olunacaq. Narahat olma, bizim həkimlər qabiliyyətlidir.

Həkim yaraya maz çəkib təzədən sarıdı. Sonra da: — Bekara şeydi, — dedi. Nəzərə al ki, ağlagəlməz, arzuolunmaz çox şey ola bilərdi... Səhər bura bir meyit gətirdilər. Bəlkə də axşam o

kafedəki hadisədə canını tapşırandı. Bilirsən ki, indi insan ölümü görünməmiş, qeyri-adi hadisə deyil. Gündə nə qədər ölüm olur. Bu, başqalarına qəribə görünə bilər. Biri ölür, o birisi doğulur. Burda itirən təkcə öləndi. Bu gözəl, ecazikar dünyanı heç nədən — təsadüfi atıb gedəndi. Başqalarını deyə bilmərəm. Uşaq, cavan ölümü, doğrusu, mənə çox pis təsir eləyir.

— Hə, Elxan əfəndi, ölüm hökmdü. Heç kim əcəldən qaça bilməz. Ancaq hər şeyin vaxtı, vədəsi var.

— Polkovnik, sənin də, mənim də peşəmiz elədi ki, o müdhiş mənzərəni biz başqa sənət naiblərindən daha tez-tez görürük. İlkin vaxtlar təsirlənsək də, sonradan alışırıq, hisslərimiz kobudlaşır. Bir növ, adətkar oluruq. Bəzən barəsində yüz cür şərqi oxuduğumuz təbiət iç üzünü açır. Gah başımızdan vurur, bizi hər cür işgəncəyə atır, gah da elə zirvələr qət elətdirir ki, yatanda ağlımıza da gəlmir. Bir yanda yanğı, göz yaşları, o biri yanda romantik xəyallar aləmi. Bir yanda aclıq, şərtsiz reflekslərin hakim kəsildiyi boş mədə. O birində şərti reflekslərin təsiriylə dözümlülük nümayiş etdirən dolu mədə...

Elxan Azəri su kranını bağladı. Özü qabaqda, Rəşid də arxasınca kabinetə qayıtdılar. Hər biri keçib öz yerində əyləşdi. Elxan Azəri dedi:

— Rəşid, insan bədəni çox mürəkkəbdi. Bir yerindən zərbə alanda, ya qanı axanda bütün mühafizə hüceyrələri hərəkətə gəlir, hamısı axışır zədə yerinə. Toplaşırlar zədənin ətrafına. İçərisində məhlul olan şüşədən bədənə köçürülən mayeinin ətrafına qığılcımlar necə toplaşırsa, hüceyrələr də zərbə yerinə elə cəmləşirlər. Zərbəni öncə sinirlər qəbul eləyir. Ordan beyinə, beyin də ürəyə siqnallar verir. Bu prosesdə lap nazik, göy damarlarda axan qan mühüm rol oynayır. Həyat çox qəribədi, eloğlu. İnsanın gücü insandan hənirti almasındadı. O hənirtini verə, yaxud ala bilmiriksə, vay halımıza. Bu yaşam əllaməlikdi. Axşam təsadüfi hadisəyə düçar olmusan. Onu o qədər mənalandırırsan, o





qədər simvollaşdırırsan, az qala, özünü həlak eləyəsən. Belə olmaz.

Rəşid gülümsündü. Özü də hiss etdi ki, hadisədən aldığı zərbəni — ağrı-acını, qanqaraçılığı, polislərin, hotel xidmətçilərinin çək-çevirlərini bu qədər yaxına buraxmaq əbəsdi. O, özünə toxtaqlıq verdi. Elə bil, sinirləri birdən-birə boşaldı. Öz-özünə dedi: — Qarışqanı fil eləmək budu da, Elxan əfəndi.

Hər ikisi gülümsündü. Sonra Elxan Azəri dərindən nəfəs aldı:

— İki gündü mən də birtəhərəm, Rəşid. Naxoşlamışam. Səhər-axşam hərarətim qalxır. Günortaya yaxın, ta gün əyilincə enir. Şəkər də mənə aman vermir. Gözlərim hərdən hər şeyi boz-bulanlıq görür. Xəstələrə elə gəlir ki, həkimlər xəstələnmirlər, yaxud da onların xəstələnməyə haqqı yoxdu. Bu heç də elə deyil.

O, səsinə ara verdi. Üzünü pəncərədən çölə tutdu və sözünə davam elədi:

— Əzizim, biz təzə-təzə tanış oluruq. Kimliyimiz barədə demək olar ki, xəbərsizik. Belə olsa da, nə yaxşı ki, söhbətimiz ilk baxışdan tutur. Görünür, peşən hərbçi olsa da, auran çox yüngüldü. Müsahibinə xoş gələndi. Əslində, bu, xoşa gələn keyfiyyətdi. Adam var, üzünə baxmaq, kəlmə kəsmək istəmirsən. Səndə belə deyil. İşıqlı adamsan. Ancaq əsəbisən. İnanıram, o da peşənin bəzi cəhətlərinin xarakterinə hopmasından irəli gəlir.

— Ola bilər.

— Bu tezliklə sənə inam məndə hardan yarandı, bilmirəm. Görünür, sənin zabitəliliyindən, amirəliyindən, mənimsə insanlara inamımdan, bəlkə də, zəifliyimdən.

— Yox, həkim. Sənə zəif deməzdim. Səndə insanlara inam böyükdü. Açıq fikirlisən. Sözə, hissə, duyğuya həssassan. Müşahidələrin dərindi. Ağlının itiliyinə şübhəm-filanım yoxdu. Yaşının elə ixtiyar çağıdır ki, sağlamlığının qayğısına gərək qa-

lasan. Başa düşürəm, təcrübəli həkimə sağlamlığının qayğısına qal demək özü bir qəbahətdi.

Elxan Azəri güldü:

— Deyəsən, yerimizi və peşəmizi dəyişirik.

— Yoox, mən elə düşünmürəm. Eldən-obadan uzaq bir diyarda xətrini istədiyim bir adama — əlbəttə, peşəsindən asılı olmayaraq — ürəyimdən gələn sözləri demək, onun özünə və şəxsiyyətinə olan ehtiramımın nəticəsidi. Gərək məndən inciyib-küsməyəsən. Məni görəndə üzün gülür. Onda qarşında uşaq kimi oluram. Gülərüz adamların, adətən, qəlbi təmiz, vicdanı saf olur. Başa düşürəm, bunun özgə səbəbləri də var. Hər şeydən əvvəl bizi torpaq çəkir. Eloğluluq yaxınlaşdırır. Onlardan irəli gələnlərlə yanaşı, bizi bir-birimizə inamımız, istəyimiz cəzb eləyir. Ümid telləri bağlayır. Aramızda, həkim, xeyli yaş fərqi var. Ancaq tez bir vaxtda müəyyən eləyə bildim ki, erudisiyan güclü, qəlbin incə və zərifdi. Dərrakənin gücüylə ətrafına təsir eləyə bilirsən. Buna görə də bütün xəstələrinə rəğbətlə yanaşırsan. Etiraf eləyim ki, bu keyfiyyət hamıya nəsib olmur. Bu, məni sevindirir.

— Məni çox tərifləyirsən, Rəşid əfəndi. Az müddət ərzində məni belə yaxından necə tanıya bilərsən?

— Unutmayın ki, mən də vaxtı ilə dünyanın hər üzünü görmüşəm. Yaramaz bir mühitdə dünyaya göz açmışam. Erməni təbliğat maşınının təsiri altında tərbiyə almışam. Hərdən mənə elə gəlir ki, onların üfunəti mənim də üst-başıma hopub. Mən də insanlığımı bəzən itirirəm. Açığını deyim, mən şübhələr içərisində yaşamağa öyrəncəliyəm. Ona görə də doğmalarıma belə ayıq-sayıq gözlə baxmağa çalışıram.

— Şübhə olmadan baş işlətmək çox çətindi. Xüsusilə indiki dövrdə, Rəşid. Mən ona pis baxmıram.

— Kəşfiyyat fəaliyyəti dövründə kəşfiyyat sisteminə, onun dəlmə-deşiklərinə mükəmməl yiyələnmişəm. Odur ki, insanı





görmə, duyma, tez bir zamanda qəlbinə nüfuz etmə, gözlərindən, sözlərindən, hərəkətlərindən içini oxuma bizim peşəmizdi.

— Çox öyünmürsən ki, Rəşid?

— Yox... Mənim səndən fərqim ondadı ki, Elxan əfəndi, sən kimə olsa, inanırsan. Açıqsan... İnanıram ki, həkimliyindən irəli gəlir. İstəyirəm, bunu da deyim: xarakteri olan adamlar çox vaxt başqalarından ağıla gəlməyən zərbələr alırlar.

— Ooy, çox dərinə gedirsən, polkovnik. Dediklərini birdənbirə qəbul eləmək çətindi.

— Mən fikrimi sənə qəbul elətdirmək iddiasından çox-çox uzağam. Mənə çox haqlı olaraq yenə deyə bilərsən: öyünmə, səndə o hünər, adam tanıma keyfiyyəti varsa, axşam qarşılaşdığın hadisələrdən əvvəlcə niyə xəbərdar olmamısan? Belə bir sual tamamilə haqlı irad olardı. Açığını deyim ki, əvvəla, o təsadüfi hadisə mənim heç cür ağlıma gələ bilməzdi. İkincisi də, xanımımın əməliyyatı mənim hiss və duyğularımı, hətta ağlımı kilidlədiyindən düşünə bilmədim. İndi bəşəriyyət böhranlı, xəstə məqamlarını yaşayır. Təkcə bizim bölgə yox... Bizim cəmiyyət yox... Bütün aləm qarışıb. Bəşəriyyətin başı üstünü qara buludlar almaqdadır. Təkcə sadə adamlar yox, nəhəng dövlətlərin rəhbərləri athaatdadılar. Fırıldaqçılıq, dələduzluq həddini aşır. Böhtan, yalan, iftira... deməkdən çəkinmirlər.

Elxan Azəri səliqəylə vurulan bəyaz saçlarını barmaqlarıyla arxaya daraqladı. Sonra əliylə alnındakı qırışları ovuşdurdu və dilləndi:

— Deyəsən, xocam, siyasətlə də maraqlanırsan.

— Siyasət bizim işimiz idi. Hər gün yeni xəbər, yeni səlis, dəqiq siyasi düşüncə məhsulu axtarışındaydıq. Az danışmaq, sözdən söz çıxarmaq və bunun müqabilində az itki vermək... bizim əlahiddə işimiz idi.

— Maraqlı adamsan, Rəşid əfəndi. Elə istərdim, səninlə diz-dizə oturub söhbətlərini dinləyim. Doğrudu, səndəki məlumat-

lar xatirə üslubunda olacaq.

— Unutmayaq ki, insanın formalaşmasında xatirələr də az əhəmiyyət daşımır. Xatirələrin hər birində faktlar var, yanaşmalar var, üslublar var. Qazanılan nailiyyətlər, əldə olunan nəticələr və perspektivlər var. Ələlxüsusda, bu gün üçün zərurət doğuran yollar var. Dərslər var. Qaldı bizim oturub söhbət eləməmizə. Səni qaldığım hotelə dəvət eləyirəm.

— Nə vaxt?

— Bax da, vaxtı özün seç.

— Yaxşı...

Rəşid qaldığı hotelin ünvanını və otağın nömrəsini Elxan Azəriyə verdi: — Vaxt tapıb görüşənədək, — deyib xudahafizləşdi.

## Nigarançılıq

Səhər yuxudan erkən oyanan Nişanə təngnəfəs halda gələn ərini görcək: — Nə olub, nə xəbərsən, yatıb yuxunu alsaydın, qiyamət qopardı? — dedi. — Yəqin yenə səhər yeməyini yeməmisən. Əzizim, bu qədər narahatçılığa əsas varmı? Varsa, de, mən də bilim.

— Heç nə yoxdu — cavabını verən Rəşid keçib stulda əyləşdi. — Sənin əvəzinə mən cərrahiyyə əməliyyatına gedəsi olsaydım, evdə rahat yata bilərdinmi? — dedi və səsi titrədi.

Ərinin kövrəldiyini hiss eləyən Nişanə dedi:

— Bəsdi, sən canın, məndə nə var, özünü həlak eləyirsən? Məni qorxudursan. İnan mənə, polkovnik, özümü çox yaxşı hiss eləyirəm. Əməliyyata daxilən hazıram. Professor demişkən, qoz boyda şişdi, kəsilib atılacaq, birdəfəlik canım da qurtaracaq əziyyətdən... Oturma, qalx get, səhər-səhər mədənə bir şey at. Sən özünü ac saxlamaqla, ya özünə əzab-işgəncə verməklə mənim halımı yüngülləşdirəcəksən?..





— Həkim, professor gəliblərmi?

— Bu tezliklə? Mən əməliyyat olunacağam deyə, camaatın iş-gücü yoxdu? Şirin yuxularından olmalıdılar? Gündə neçə xəstə müayinə, müalicə eləyirlər.

— Hə, onu düz deyirsən.

— Mən nəyi əyri deyirəm, polkovnik. Sənin peşən tamam başqa xüsusiyyətlidi. Təqaüdə çıxmamışdan gecən-gündüzün yox idi. Bəzən telefon açıb səni yuxudan qaldırırdılar. — Filan yerdə filan şey olub, bizə məlumat ver, — deyirdilər. Sən də isti yorğan-döşəkdən atılaraq tələm-tələsik şalvarını əyninə çəkib gedərdin. İşin gedişindən xəbərimiz də olmazdı. İsti-soyuq bilməzdin. Bəzən bütün gecə, bəzən də bir neçə gün evə gəlməzdin. Peşən sənə qeyri-adi rejim təlqin edərdi. Rahatlıq nədi, bilməzdin. Həyatından, işindən elə məmnun idin... Əvvəl-əvvəl sənin həyatın, üzünə deməsəm də, məni incidərdi. Hər dəfə sən qapıdan çıxanda qaranca deyinər, qayıdanda sevinərdim. Hərdən sənə yazığım da gələrdi. Ağrılı-acılı da olsa, necə də alışmışdım o həyata, mənim polkovnikim. İndi həyat dəyişib. Yaş da o yaş deyil. Hər şey qaydasına düşüb. Normal həyat başlanıb. Ancaq o illərdən səndə çox izlər qalıb: dəqiqlik; qətilik; hökmlük; dönməzlik; sözübütövlük; cəldlik; çeviklik, ərinməzlik; dözümlülük; məsuliyyət; ailəcanlılıq; ərlik... nələr, nələr. Bunların hamısı insani hisslərdən doğan keyfiyyətlərdi. Axtarsam, nə qədər yadıma düşməyənlər var... Mən səndən çox razıyam, polkovnik. Məni heç vaxt incitməmisən. Mənə daim qayğıyla yanaşmısan. Sözümü yerə salmamısan. Ehtiyacda saxlamamısan. Məni xoşbəxt eləməyə çalışmısan... Həmişə Allahımа yalvarmışam. Məni səndən qabaq...

— Bəsdi... Belə getsə, məni kövrəldəcəksən. Çox tərifləmə məni. Bəyəm, sən də mənim əziyyətimi azmı çəkmisən? Başım ağrıyanda ölüb-dirilmələrin, yuxusuz gecələrin, yatmayıb keşiyimi çəkmələrin azmı olub? Hansını deyim, əzizim?..

— Bu axşam yatmayıb, hey sənin barəndə düşünmüşəm, polkovnik. Bu sözlərimi deməklə özümü sənə şirin salmaq, tanıtmaq fikrində deyiləm. Biləsən ki, ölüm haqdı. Bu, milyard illərin təcrübəsindən keçib. Ondan heç kim qaça bilməz. Gec-tez hamı o anla qarşılaşacaq. Onun şəddi-şəkərini, şərbətini dadacaq. Bəzi adamlar ona şəddi-şəkər şərbəti deyir, bəziləri də onu zəhər adlandırırlar. Hansı olur, olsun. Fərq eləməz. Dadacağıq...

Arvadının nə kimi son sözə gələcəyini hiss eləyən polkovnikin içi ağlasa da, üzündə süni şəkildə xoş təbəssüm yaratdı.

— Nə demək istəyir görən, mənim Nişanəm?..

— Heç nə. Bu neçə gündə keçirdiyin daxili sarsıntı, ağrı-acı məni kövrəltdi, qəhərləndirdi...

Nişanə birdən-birə hönkürtüylə ağladı. Rəşidin də gözləri doldu. O, stuldan qalxıb, çarpayının qırağında oturan arvadının çiyinlərini qucaqladı. Onu özünə bərk-bərk sıxdı. Gözlərinin yaşını əllərinin içiylə silib, saçlarından öpdü. Handan-hana dedi:

— Deyəsən, gəlişim sənə qorxu, təlaş təlqin elədi, əzizim. Elxan Azəri mənə düz söz deyər. Mən ona inanıram. O, mənə dönə-dönə dedi: “Qorxma, Rəşid. Xanımında qorxulu heç nə yoxdu. Professordan mən də xahiş eləmişəm”.

— Qorxmuram, Rəşid. Bu gün iki şeydən nigarançılığım var.

— Nədən?

— Biri sən, o birisi övladlarımız.

Nişanə başını ərinin çiyninə qoydu və bərk-bərk ona sığındı. Sonra da Rəşidin üzünə baxdı. Nişanənin gözlərinin dərinliklərində, elə bil, həsrət cizgiləri donmuşdu. Bu donuqluq Rəşidin ürəyini sıxdı. Sinəsinə müəmmalı sancı verdi. Ürəyindən heç vaxt şikayətlənmədiyindən, bu müəmma ona qəribə göründü. Ancaq Nişanənin halını düşünüb, sancısını büruzə verməməyə çalışdı. Ona görə də o, qəsdən söhbətin səmtini dəyişdi.

— Anan bu axşam telefon açmışdımı?





— Hə... Anama yalan dedim.

— Nə yalan?..

— Əməliyyatın vaxtını sabaha atdım.

— İnciməz ki?

— Yox... Təcrübəli, həm də olduqca həssas qadındı o. Biləcək əməliyyatın vaxtını nə üçün dəyişdiyimi.

— Biləcəkdisə, yalana ehtiyac vardımı?

— Bilmirəm.. Hər halda, bu da mənim hissiyyatımdı. Elə hissiyyat ki, Rəşid, mahiyyətində mənim sevgim, məhəbbət duyğularım mürgüləyir.

Arvadının kövrəldiyini görən Rəşid dedi:

— Sən deyən olsun.

Elə bu vaxt qapı açıldı. Professor, həkim və tibb bacısı palataya girdilər. Nişanəylə Rəşid ayağa qalxdılar. Salamlaşdılar.

Professor Nişanəyə:

— Ərindi? — deyə gülümsündü:

— Bəli, professor.

— Görünür, kişini qorxutmusan. Xanımların peşəsi əzilib-büzülməkdi. Səndə elə bir qəliz şey yoxdu. Hər gün İstanbulda yüzlərlə, minlərlə belə əməliyyat aparılır. Əməliyyatdan qurtar... Yayda Bakıya gələcəm. Söz verirəm, sənin qonağın da olacam.

Rəşid sevinə-sevinə:

— Gözümüz üstə yeriniz var, professor.

Professor üzünü həkimlə tibb bacısına tutdu:

— Hazırlayın. Saat on birdə əməliyyata başlayaq.

Həkim:

— Oldu...

Rəşid:

— Olarmı əməliyyatdan sonra xanımın yanında qalıb ona lazım olan xidməti göstərim?

Həkim:

— Siz narahat olmayın. Onu nəzərə almışıq... Tibb bacısı xəbərdar olunub.

Professor Rəşidə tərəf döndü:

— Siz gedin. Tam rahat olun...

Professor və həkim palatadan çıxdılar. Tibb bacısı Nişanənin qolundan iynə vurub getdi.

Rəşid öz-özünə: — Deməli, narkoz!!!

Çox çəkmədi ki, iki tibb bacısı və xadimə arabacıqla gəldilər. Nişanəni arabağıca qoyub qapıdan çıxartdılar. Rəşid boğula-boğula, sıxıla-sıxıla arabacığın ardınca baxdı. Sonra da əl-ayağı yerdən üzülmüş kimi dəhliz boyu getdi.

## Uğurlu əməliyyat

Nişanəni əməliyyata yola salan Rəşid özündə-sözündə deyildi. Neçə günkü nigarançılıq onu əldən salmışdı. O, hey saatına baxırdı. Dəqiqəni göstərən əqrəblər sanki öz yerlərində dayanıb irəli getmək istəmirdilər. O, ac-susuz xəstəxananın həyətində gəzir, binaların başına dolanırdı. İçindəki narahatlıqdanmı, əməliyyatın uğursuz keçmə qorxusundanmı, vasvasılığındanmı, ya nədəndi, özünə toxtaqlıq verə bilmirdi. Başında dolanan ümidsiz fikirlər getdikcə canına vəlvələ salırdı. Qəribəydi ki, Nişanəni əməliyyata yola salana qədər nisbətən sakit olan, öz-özünə təskinlik verən polkovnik indi aciz, iradəsiz bir məxluqa çevrilmişdi. Bütün ətraf ruhu qidalandıran əlvan güllər, çiçəklər, göz oxşayan yaşıllıqlar ona solğun və rəngsiz görünürdü. Yanından ötüb keçən adamları elə bil görmürdü. İndi onun beynində, düşüncəsində təkcə xəstə, əməliyyat olunan Nişanə, bir də Fərid və Fəridə gəzirdi. O, öz aləmindəydi. Nə düşünürdü, nə axtarırdı, heç özü də bilmirdi. Fikir zənciri tez-tez qırılan və yenə calanan polkovnik üçün dünya deyiləndə indiki halda təsəvvüründə





yalnız Nişanə canlanırdı. Hardansa yadına çox sevdiyi Mövlanə Cəlaləddin Ruminin dünya barədəki sözləri düşdü: “Dünya bəzən bər-bəzəkli gəlindi, bəzən də qara niyyətli bir qarı”.

Qəribədi. Deməli, çox şey insanın ovqatı ilə bağlıdı. Hal-əhval yaxşı olanda hər şey gözəl olur. Ürək açılır. Qəlb sevinir. Ruh yüngülləşir. Əhval korlananda isə, əksinə, ən əsrarəngiz zöqv bəxş eləyən şeylər də insanın gözünə cansız, boyasız görünür... Elə bil, həyat sönür. Doğma balaların belə məyus, miskin görkəm alır... Bu fikirlərin ağuşunda çabalayan Rəşid dözməyib xəstəxanaya gəldi. Əməliyyatın hələ qurtarmadığını öyrənəndə elə bil, içi qırıldı. O, birbaşa Elxan Azəriyə üz tutdu. Eloğlular dəhlizdə qarşılaşdılar. Rəşid təntimiş halda soruşdu:

— İki saata yaxındı Nişanə əməliyyatdadı. Bəs bir saata qurtararıq deyirdilər, həkim?

— Hə... İndi yekunlaşar, polkovnik. Səbrli ol. Hər şey özünə təmkinli yanaşma tələb eləyir. Kimsənin əməliyyat otağına girməyə ixtiyarı yoxdu. Sənə yenə deyirəm, tələsmə, eloğlu. İndiki halda nə professor, nə də əməliyyatda iştirak edənlər bizdən az həyəcan keçirmirlər, az məsuliyyət daşımırlar. Ona görə də yolumuz səbrdən keçir.

Elə bu vaxt qapı açıldı. Tibb bacısı Lətafət içəri girdi. Rəşidin də, Elxan Azərinin də nəzərləri Lətafətə dikildi.

— Hər ikinizi təbrik eləyirəm, əməliyyat uğurlu alındı.

Rəşid qeyri-ixtiyari Elxan Azərini qucaqlayıb bağrına basdı, Lətafətə də təşəkkür elədi. Rəşid çaşqın halda:

— İndi palatadadı? — soruşdu.

— Yox... Hələ tezdi. Reanimasiya otağındadı. Bir azdan özünə gələr.

Elxan Azəri: — Aha, belə de. Sonra dodaqaltı mızıldandı: Yəqin ki, ik-üç gün orda olar?

Lətafət:

— Yəqin ki. Hələ neçə gün qidanı sistemlə almalıdı.

Rəşid:

— Əməliyyat ağır keçdi?

Elxan Azəri:

— Hər necə keçdi, keçdi... Ağır-yüngüllüyü əməliyyatçıların işidi. Tutaq ki, dedilər ağır, yaxud yüngül keçib, neyləyəcəksən? Fakt odur ki, hər şey yaxşıdı, nəticə uğurlu alınıb. Gərək gedib professora, həkimə təşəkkür eləyək.

Lətafət qapını örtüb getdi. Rəşid çəkinə-çəkinə dedi:

— Eloğlu, bunların əməyini necə qiymətləndirim?

— Başa düşmədim.

— İstəyirəm, onlara hörmət eləyəm.

— Xəzinəyə keçirməmisən?

— Keçirmişəm. Əlavə də istəyirəm...

— Eloğlu, əvvəla, elədiklərinin haqqını qədərincə ödəmisən. İkincisi də, burda elə şey yoxdu. O sarıdan İstanbul Bakı deyil... İmkan ver, özlərinə gəlsinlər. Hər ikisi əsəbi və yorğundular. Çaydan, qəhvədən içib itirdikləri enerjini, gücü bərpa eləsinlər. Gedib birlikdə təşəkkür elərik.

— Axı...

— Nə axı? Dedim eləmə. Səni pərt eləyərlər...

— Yaxşı... Qurtardıq.

— Xanımın da, gərək dietanı gözləsin. Orqanizmini gücə salmasın. Pəhriz yeməklərini həkim özü ona başa salacaq... İndi qalx gedək, həkimlə də, professorla da görüşək. Onlara təşəkkürümüzü bildirək.

Elxan Azəriylə Rəşid kabinetdən çıxdılar. Ayrı-ayrılıqda professorla, həkimlə görüşdülər. Uğurlu əməliyyatın sevincini bölüşdülər.

Geri qayıdanda Rəşid: — Elxan həkim — dedi, sənin xəcalətindən necə çıxacam, bilmirəm.

— Nə xəcalət? Neyləmişəm?

— Vur deyənlə vuran yarıdı, — deyirlər.





— Bu gün mənim sevincimin həddi-hüdudu yoxdu. Onu səninlə bölüşmək istəyirəm, eloğlu.

— Allahın kəramətinə şükür.

## Xəyal pərisi

Bütün günü alışıb-yanan günəş üzü qüruba endikcə isti nəfəsini içinə çəkə-çəkə səpdiyi şüalarının qızılı saçacaqlarını bətninə yığa-yığa, sürünə-sürünə, yorğun-arğın, əldən düşmüş halda öz məskəninə çəkilməkdə və onun yerini axşam qaranlığından işartılar verən bəyaz tüllər almaqdaydı. Axşamla gündüzün hüdudlanmayan, başqa sözlə, sərhədlərinin ayrılması mümkün olmayan belə bir məqamda ehtiyatda olan polkovnik içinə qapanaraq tək-tənha, pəncərə qarşısında oturub haldan-hala düşən möhtəşəm İstanbulun ruh oynadan, qəlbləri riqqətə gətirən nazlı görkəminə tamaşa eləməkdəydi. Hotel otağının qapısı bir neçə dəfə aramla döyüldü. Polkovnik qapını açanda Elxan Azərini gördü: — Ey... Gör kim təşrif buyurub? — Sevincək halda onu içəri dəvət etdi: — Nə yaxşı, xocam, sənin gəlişini gözləmirdim. Çox vaxtında gəlmisən. Özüm də bərk darıxırdım. Hara gedəcəyimi, kimlə ünsiyyət tapacağımı bilmirdim. Təklik nə yaman şeymiş...

Elxan Azəri: — Görürsən də, telepatiya, öncədəngörmə, duyma budu, — deyib balkona keçdi. Polkovnik də onun ardınca. Elxan Azəri dedi: — Şəhərin panoramasına söz ola bilməz... Bu otağa düşməkdə də bəxtin gətirib.

— Hə... Mən həmişə bəxtigir olmuşam, xocam. Görünür, Allahın istəklilərindənəm.

Gülüşdülər. Polkovnik sözünə davam elədi:

— Bircə sağ-salamat Nişanə xəstəxanadan çıxsaydı, inan ki, heç bir sıxıntım-filanım olmazdı.

— Allahı olan nagüman qalmaz, polkovnik.

Şəhəri xeyli seyr eləyib balkondan otağa keçdilər.

Elxan Azəri yumşaq kresloda əyləşdi:

— Bu gün xəstə çox olub. Bərk yorulmuşam, polkovnik.

— Burda oturmayaq. Qalxaq restorana. Orda həm toqqanın altını bərkidək, həm də dincələk.

— Yox... Qəhvədən, çaydan olsaydı, içərdik. Sonra da şəhər gəzintisinə çıxardıq. Şamı da bir tərəfdə eləyərdik.

— Oldu, — deyib polkovnik dəstəyi götürdü. Xidmətçi qıza qəhvə sifariş verdi. Sonra da üzünü Elxan Azəriyə tutdu:

— İstanbul türk xalqlarının ürəyidi desəm, bəlkə də səhv eləmərəm. Tarixlər şahidi bu şəhər elə bir üslubda qurulub ki, insan heyrətlənməyə bilmir.

— Ona görə də tez-tez düşmənlərinin gözlərinə girir. Bu şəhərin qorunması, inkişafı üçün çox qanlar tökülüb. Canlar fəda olub. Bura misilsiz xaqanlar, fatehlər məskənidi... Nə gizlədək, dünyanın gözü burdadı... Xəyanət xəyanət dalınca baş verir. Yadellilər yüz bəhanəylə, hiyləylə nə qədər günahsız adamların ölümünə bais olurlar. Ölkənin dinc həyatını pozmağa, insanlar arasına nifaq salmağa çalışırlar. Nə yaxşı ki, bu xalqda vətənpərvərlik hissi güclüdü. Onun vətənə, millətə inamını qıra bilmirlər. Sən mənə kimsən, nəçisən sualını vermirsən, məni tanımağa təşəbbüs göstərmirsən, mən də ağzıma su alıb durmuşam.

Polkovnik əvvəl duruxdu. Utandı. Hiss olundu ki, yanaqlarında yüngül qızartı yarandı. Handan-hana dedi:

— Doğrusu, buna cəsarət eləmirəm, xocam. Fikirləşdim ki, soruşsam, çox haqlı olaraq deyə bilərsiz ki, nə fərqi var, hardanam, axır ki, azərbaycanlıyam, Azərbaycandanam.

— Səni də anlayıram, polkovnik. Sənə onu qüsur tutmuram, söhbətimiz daha anlaşıqlı olsun deyə o sözü dedim. Əslində sən haqlısan. Ancaq qərib elin də, qəriblikdə yaşamağın da öz xüsusiyyətləri var... Yadındadısa, bir dəfə də sənə demişəm. Mən





əslən Qərbi Azərbaycandanam. Türkiyədə bir zaman konsul işləyən dayım İsfəndiyarın dediyinə görə, 1940-cı ildə şəhərdə yox, "X" adlı dağ kəndində doğulmuşam. Çoxuşaqlı ailədə tərbiyə almışam. Düşünürəm ki... Bəlkə də belə düşünməkdə səhv eləyirəm. Ömrümün ən sakit, səssiz-səmirsiz, mənalı, xoşbəxt çağları o kənddə keçib. Ailəmiz kasıb idi. Atam ailəmizin gündəlik çörəyini güc-bəlayla qazanırdı. O, həyat-baca, məişət işləriylə məşğul olurdu. Anamsa uşaqlarına baxırdı. Onlara qulluq eləyirdi: yedirib-içirirdi, paltarlarını yuyub-təmizləyirdi; ütüləyirdi; onları çimizdirirdi; tərbiyələndirməyə çalışırdı... Bir sözlə, fikri-zikri ərinin və uşaqlarının qayğılarını çəkmək idi. Hələ uşaqkən hiss eləyirdim ki, anam atamı da bizim qədər istəyir. Bu, məni çox sevindirirdi. Mən çox dəcəl idim: tez-tez tay-tuşlarımla futbol oynayırdım; çöldə, meşədə gəzirdim, qoyun-quzu otarırdım; at-eşşək minirdim; quşların yuvalarını axtarıb tapır, yumurtalarını baş-başa vururdum. Xoruzları döyüşdürürdüm; itləri boğuşdururdum; çayda, kanalda çimir, dağı arana, aranı dağa qatırdım; odun çapırdım; ot çalırdım; sözüm düz gətirməyənlərlə dalaşırdım; həyətdə sözümə söz verənin ağız-burnunun qanını tökməkdən çəkinmirdim; sözə baxmazdım; nadincliyimə görə atam tərəfindən tez-tez məzəmmətlənirdim; hərdənbir qonşuları da özümdən narazı salırdım; anamı heç nədən acıqlandırırdım... Anamsa tez-tez məni qarşısında oturdur, öyüd-nəsihətlər verirdi. Atamla anama bir də dəcəllik eləməyəcəyim üçün söz verər, aradan bir az keçər, verdiyim sözlərimi unudar, adətimi təkrarlayardım. Belə hallarda onlar daha da əsəbiləşərdilər. Məndən inciyər, mənə xoş münasibətlərini kəsərdilər... Azca keçərdi, barışardıq. İsti-soyuq nədi, bilməzdim. Yayın qızmarında kəndarası tozlu yolları gəzər, üz-gözüm istidən qarsıyar, üst-başımı toz alardı. Kol-kosluqda uşaqlarla gəzər, böyürtkən yeyərdik. Tikanlar əl-ayağımıza batar, paltarlarımızı cırardı. Hər gün evdə söz-söhbət qopardı. Danlaqları vecimə almayanda

anam deyərdi:

— Balacalar səndən nə nümunə götürəcəklər? Axırın xeyirə calansın, oğlum...

Elxan Azəri dərindən ah çəkdi. Sinəsi qalxıb-endi. Polkovnik səssiz-səmirsiz onu dinləyirdi. Handan-hana Elxan dedi:

— Səni yormadım ki? Bu olub keçənlərin məndən savayı kimə nə dəxli var, polkovnik?

— Yoox... Mən elə deməzdim. Sənin dediklərini çox qiymətlidi. Örnək təcrübədi. Baxır ondan kim nə götürəcək... Danış...

— Cəfəng sözlərdən çox qorxuram, polkovnik. Ömür gəyişiksiz-filansız keçir. O vaxtlardan da məni xeyli zaman ayırır. Zaman böyük şeydi. Güclüdü, qüdrətlidi... İstəyirəm, içimdəkiləri məni başa düşən bir şəxsə açım. Onları özümlə aparmayım.

— Buyur, sənin dediklərin mənim üçün çox dəyərlidi, həkim.

Elə bu vaxt xidmətçi bir çaynik, iki fincan, bir qənddanla içəri girdi. Gətirdiklərini stolun üstə qoyub: — Afiyət olsun, — dedi. Elxan Azəriylə polkovnik ona eyni anda təşəkkürlərini bildirdilər. Polkovnik fincanlara qəhvə süzdü. Qəhvənin ətri otağı bürüdü. Elxan Azəri dedi:

— Heç yadımdan çıxmaz. Doğulduğum yerin havası, suyu təmiz, mənzərəsi cazibədar idi. Ola bilər ki, xəyalımdakıları da, təsəvvür elədiklərimi də qatıb qarışdırıram reallıqda gördüklərimə. Nə isə... Düşünürəm ki, o torpaqlarda rəngbərəng, əlvan çiçəklər açır, otların ətri bir-birinə qovuşurdu. Löyünbəlöyün, xoş meyvələri adama can verirdi. Doğulduğum kənd-kəsək mənə dünyanın ən cazibədar guşəsindən əziz, şirin, cəlbedici və doğma idi. Onun bir qarışını da heç nəyə — lap dünyanın özünə dəyişmərəm. Doğulduğum o yerlərdə böyüyüb axıracan yaşa dolsaydım, özümü xoşbəxtlərin xoşbəxti sanardım... Oynadığımız güllü-çiçəkli bağ-bağçalar, sərin su içdiyimiz sızqa bulaqlar, laləli-nərgizli... düzlər, quzuqulağı, salmanca, nələr, nələr yığdığımız arxların yamacları, qoyun-quzularımız otlayan dağların yoxuşları, uşaqların hay-küyləri, göy gurultuları, şimşək çaxmaları, gur yağışlar, səs-küyü dağları, dərələri başına götürən vahiməli sel-sular, çadrlarda qurulan toy-büsat... Hamısı dumana, çənə bürünmüş halda hərdən ağlıma gəlir... Onda da yanıb-yaxılıram. Həyat çoxüzlüdü, polkovnik. Elə bil, "üzü üzlər görmüş" ifadəsi də onun siqlətinə yapışıb... "Sən saydığını say, gör fələk nə sayır" kəlamı da bizimçün yaranıb... Ancaq inanıram ki, "xoşbəxtlik" sözü də bizim üçün deyilib. Dünya çalxalananda, yer-göy mehvərindən çıxıb qarışanda bizim kimilər ya milçək kimi qırılaraq torpağa qarışır, ya da xırda çınqıllar kimi harasa tullanır. Mən indi anlayıram ki, doğma məskənimin sakinlərinin öz el-obalarını məcburi tərki (deqradasiyası) heç bir bədbəxtliklə müqayisə olunmaz.





Elxan Azərinin gözləri doldu. Kövrəldi. Rəşid dərhal:

— Özünü ələ al, Elxan əfəndi. Tale hərəyə bir cürə biçilir. Onu ləyaqətlə yaşamağın özü də bir kişilikdi.

Elxan Azəri, başını aşağı-yuxarı eləyib sözünə davam elədi:

— Yadımdadır. Konsul işləyən dayım İsvəndiyar xanımıyla bizə gəlmişdilər. Gecədən xeyli keçmişə qədər atamla, anamla söhbət elədilər. Olub-keçənlərdən danışdılar. İstanbuldan, onun sakinlərindən xeyli söhbət açdılar. Mənim yuxum gəlməyə başladı. Onlara — Gecəniz xeyirə qalsın, — deyib, yan otağa keçdim. Çarpayıma uzanan təki yuxuya getdim. Nə qədər yatdığımı deyə bilmərəm. Nırıltı, gurultu səsinə diksinib oyandım. Əvvəl mənə elə gəldi ki, yer-göy birləşir. Elə bu vaxt evi qışqırtı-bağırtı bürüdü. Atam dərhal vahiməli səslə dedi: "Ermənilər kəndə hücuma keçiblər. Uşaqları götürüb kənddən çıxmaq gərəkdi". Məni dayım qucağına aldı. Üz-gözümdən öpə-öpə bağrına basdı. Hamının üzündə qorxunc və dəhşətli ifadə vardı. Mən bərk qorxdum, bədənim tir-tir əsməyə başladı. Mən aravermədən

ağlayırdım. Məndən balaca bacım Minayəni və körpə qardaşım Qeysəri atam, kiçik qardaşım Seymuru anam qucaqlarına aldılar. Həmin gecə evdən çıxdıq. Mən, dayım və onun xanımı bir, atam, anam, bacım və qardaşım başqa maşına əyləşərək kənddən çıxanda atama yalvarmağa başladım:

— Ata, bacımı, qardaşımı öldürəcəklər. Qoyma. Mən evimizdən heç hara getmək istəmirəm...

Atam üstümə həyəcanla qışqırdı:

— Bacı-qardaşından qorxma. Burda qala bilmərik, it uşaqları gəlib hamımızı qıra bilərlər. Sən dayınla get. Ananla bacı-qardaşını da götürüb gəlirik ardınızca...

İndi o günləri... baş verən o hadisələri böyük qəm, qüssə, kədərlə xatırlayıram. Anam necə də için-için ağlayırdı:

— Tələsək. Ağlagəlməz hadisələr baş verə bilər. Ermənilərin Allahı yoxdu. Çanaqqala hadisəsi təkrar oluna bilər.

Bizim də taleyimiz belə gətirdi. Olan-qalanımız kənddə qaldı. Təkcə əyindəs paltarlarımızı götürüb yola çıxdıq. Biz bir də görüşmək ümidiylə ayrıldıq. Ev-eşiyimizi atıb çıxanda gecəydi. Göyün üzünü qara buludlar örtürdü. Zil qaranlıqda göz-gözü görmürdü. Hay-qışqırıq səslərindən ağız deyəni qulaq eşitmirdi. Düşüncələr elə donmuşdu, ağıl elə kilidlənmişdi ki, kim başına nəyi qalxan tutacağını, canını götürüb hara gedəcəyini təsəvvürünə gətirə bilmirdi. Qorxudan, acıqdan, hirsdən, qəzəbdən, nifrətdən sifətlər gərilirdi. Kim kiminlə nə danışacağını bilmirdi. Adamlar çaşıb qalmışdılar. Ağlıma da gəlməzdi ki, qovhaqov, qaçahaqaç, köçəköçdə atam Çingiz ürəktutmasından keçinəcək. Anam üç uşaqla birlikdə ermənilərə əsir düşəcək.

Mən həmin günün səhəri dayım və onun arvadı ilə Bakıya gəldim. İlk dəfəydi bu şəhəri görürdüm.

Elxan Azəri qəhvəsini içdi. Üz-gözündə yorğunluq və əsəbilik duyulurdu. Polkovnik fincanı qəhvəylə ikinci dəfə doldurdu və dedi:





— Hələ aclığınız yoxdu ki?

— Yoox... Xatirələr çözləndikcə insanların insafına, mürvətinə olan inamım sarsılır. O qəddarlıq yadıma düşəndə, indi də dəhşətə gəlirəm, polkovnik...

— Xocam, siz həkimsiz... Bir çox məsələlərdən xəbərsizsiniz. Mən bunu cəsarətlə deyirəm. Dünyada baş verən qırğınların törədiciləri nə xalqlar, nə də ayrı-ayrı fərdlərdi. Yalnız mənəmmənəm deyən tülkü siyasilərdi...

— Bilirəm, polkovnik... Mən Bakıya gəlincə ermənilərin hərəkətləri barəsində az-çox eşitmişdim. O vaxtlar televiziya olmasa da, kinolarda görmüşdüm. Etiraf eləyim ki, ürək sarsıdan təəssüratlardı. Həmin gün dayım hoteldə yer tutdu. Yuxusuz, yorğun-arğın olduğumuzdan, yatıb dincəlməyi qərara aldıq. Dayıdostum dedi:

— İsfəndiyar, biz dözərik. Elxan ac-susuzdu.

Elə bil, dayım yuxudaydı. Bunu eşitcək dedi:

— Hə... Başımıza gələnlər məni lap çaşdırıb.

Biz hotelin bufetinə qalxdıq. Dayıdostumla mən küncdə qoyulmuş stolun ətrafındakı stullarda əyləşdik. Dayım xidmətçiyə yaxınlaşıb, çörək, kolbasa, qatıq, bir çaynik çay sifariş verdi. Yuxusuzluq, yorğunluq bizi elə əldən salmışdı ki, hərəmiz bir-iki loxma güc-bəlayla kəsdik. Çayımızı içib otağa qayıtdıq. Başımı balınca qoyan kimi məni bərk yuxu apardı. Nə qədər yatdığımı deyə bilmərəm, başımı balıncdan qaldıranda çaşdım. Əvvəl elə güman elədim ki, evimizdəyəm. Yavaş-yavaş özümə gəldim. Ata və anamın, bacı və qardaşımın həyəcanlı, təşviş dolu sifətləri, çaşqınlıqları, bacı-qardaşımın göz yaşları, titrəmələri, atamın, anamın onların boyunlarını qucaqlamaları, dünyadan xəbərsiz Qeysərin ağlamaları gəlib durdu gözlərimin önündə. — İndi onlar hardadılar? — deyə xısın-xısın ağlamağa başladım. Tez-tez hıçqırırdım da. Dayıdostum şirin yuxudaydı. Dayım yatağında yox idi. Mən hıçqırığımı boğmağa çalışdım. Ancaq səsi-

mi tam boğa bilmədim. Yavaş-yavaş gözlərimin yaşı yanaqlarımı və ordan da axaraq başımı qoyduğum balıncımı islatdı. Düşüncələr mənim böyüklərə məxsus uşaq aləmimi qanadları üstə alıb lap uzaqlara — bir az da dərinliklərə aparırdı. Mən özümü saxlaya bilməyib, yavaş-yavaş yenidən hıçqırmağa başladım. Bu hıçqırtı getdikcə artdı. Dayıdostum səsimə oyandı. O, dərhal dedi:

— Oğlum, Elxan, niyə ağlayırsan? Şükür Allaha, salamatıq. Dayın aşağı düşdü. Görsün, nə xəbər var. İndi o da qayıdacaq... Qalx, paltarlarını geyin. Əl-üzünə su vur. Özünə gəl...

Mən ayağa qalxıb dayıdostum deyən kimi elədim. Qayıdıb balkona çıxdım. Hər şey mənim üçün yeniydi. Aşağıda maşınlar fithəfit bir-birilərinin yanlarından ötürdülər. Adamlar qaynaşırdılar. Şəhərin havası bizim yerlərin havasına bənzəmirdi. Kəskin şəkildə fərqlənirdi. Havada bir ağırlıq duyulurdu. Göyün üzü də bulanıq görünürdü. Hərdənbir tək-tək yağış damcıları gəlirdi. Ürəyim sıxılırdı. Ailəmiz üçün darıxırdım. Nigarançılıq məni boğurdu.

Hiss eləyirdim ki, dayıdostum da özündə deyil. Hərdən mənə baxanda gözləri dolurdu, hiss eləyirdim ki, mənə yazığı gəlir. Bir həftəyə qədər hoteldə qaldıq. Dayım gəlib çıxmadı. Mən heç nə anlamırdım. Onun üçün də narahatlığım və nigarançılığım getdikcə artırdı. Sözün əsl mənasında, elə bil, həbsə məhkum idim. Bütün günü işim-peşəm tez-tez çıxdığım balkon, xatırladığım ata-anam, bacı-qardaşım, kəndimiz, bir də qaldığımız hotelin gündə üç dəfə getdiyimiz yeməkxana idi. Dayıdostumunda alnının qırışları açılmır, üzü gülmürdü. Həmişəki parıltıdan əsər-əlamət yox idi. Uşaq hissiyyatımla duyurdum ki, dayıdostumun içi donub. O da oturub-durub köksünü ötürür, dərindən ah çəkir, hərdənbir ağır, kədər doğuran hissiyyatdan ayırsın deyə mənimlə məntiqsiz, o qədər də əhəmiyyət kəsb etməyən, candərdi kəlmələr kəsirdi. Yaxşı bilirdim ki, dayıdostumun





ürəkdən gəlməyən bu söz-söhbətləri məni qəm, qüssə, kədər karvanından ayırmaq üçündür. Ancaq mənim donuq qəlbim də, kilidləşən düşüncələrim də açılmırdı ki, açılmırdı. Dayıdostumun hadisədən qabaq zarafatları, qəhqəhələri qəhətə çıxmışdı. Hoteldə qaldığımızın üçüncü, ya dördüncü günü idi. İndiki kimi hər şey yadımdadı. Səhər yeməyindən sonra dəhlizə çıxdım. Holda yumşaq kreslolar, bir dənə də divan vardı. Vaxtyor işləyən iki cavan xanım və bir neçə otuz-otuz beş yaşlarında kişi oturub söhbət edirdilər. Söhbəti fırladıb mənim doğulduğum kəndin üstünə gətirdilər. Ucaboy, bığlı, cantaraq kişi dedi:

— Heyf, yaxşı təbiəti vardı. Dilbər guşəydi. Heç nədən kənd əldən çıxdı. Əhali işgəncələrə məruz qaldı. Böyük faciədir: adamları vəhşicəsinə, işgəncələrlə öldürüblər; uşaqlar, qocalar, qadınlar, cavanlar diri-diri yandırılıblar; xəstəxanalar yaralılarla doludur; talançılıq baş alıb gedir; evsiz-eşiksiz qalan adamlar hara gedəcəklərini bilmirlər; yerləşməyə yer tapmırlar... Əşi, belə də iş olar? Bu cinayətkarlıq haracan gedəcək?.. Bu törənən cinayətləri Allah görmür? Kimsəsizlərin, uşaqların, qocaların günahları nədi? Mən söhbəti dinlədikcə heyrətlənirdim. Hardansa ağlıma belə bir fikir gəldi: bəlkə ata-anamı da, bacı-qardaşımı da bizdən sonra öldürüblər; əsir alıblar; yaralayıblar; dayım da xəbər tutub, onların ardınca kəndə qayıdıb; neçə gündə hoteldən hara getməsi barədə səs-səmir yoxdu; bəlkə baş verənləri dayım bizdən gizli saxlayır... Ailəmizin ardınca gedib. Elə şey varsa, ola bilməz dayıdostuma bir sirr qaçırmasın. Bəlkə də qaçırıb, dayıdostum özü mənə bir söz demir... Düşüncələr içərisində vurnuxa-vurnuxa qaldım. Nə deyəcəyimi bilmədim. Yaddaşımda erməni hücumu nəticəsində kənddən necə çıxdığımız o gecə belə canlandı. Atamın qışqırıqları. Anamın səs-kü içərisində göz yaşları. Bacımın atamın qucağında əsim-əsim əsməsi. Qardaşımın “Ata! Ata!” deməsi, ağlaması. Dayımın, dayıdostumun çaşqınlıqları. Zil qaranlıq gecənin bağrını yara-yara ayrılıq

anları... Daha nələr... Nələr...

Mən otağa qayıdanda dayıdostum kresloda əyləşib telefonla danışırdı. Gəlişimi hiss eləyən kimi telefondakı şəxsə dedi:

— Yaxşı, narahat olma. Özüm sənə telefon açaram: hə... hə... hə... hə... Hələlik...

Ürəyim qulaqlarıma pıçıldayırdı ki, dayıdostun dayımla danışır... Mənim gəlişim ona mane oldu, söz-söhbəti tez kəsdi. Telefonun dəstəyini yerinə qoydu. Sonra məni fikrimdən yayındırmağa çalışdı:

— Hə, deyəsən, bərk darıxırsan? Gəl otur. Dayın da sabahazada gəlib çıxar. Mən də işsiz-gücsüz darıxıram, oğlum. Təyyarəyə bilet götürüb uçarıq İstanbula. İstanbul gözəl və qədim şəhərdi. Xoşuna gələcək. Sakinləri də səmimi, qonaqpərvərdilər. O şəhər qucağını həmişə biz azərbaycanlıların üzünə açır. Bizi övladı sanır.

Mən dayıdostumun dediyi sözlərin bəzilərini anlamasam da, ümumən, məqsədini başa düşürdüm. Söhbətlərinin mənim fikrimi başqa səmtə yönəltməyə xidmət etdiyini bilirdim.

Mən astadan soruşdum:

— Dayımla danışırdın?

Dayıdostum nə deyəcəyini bilmədi. Çaşdı. Əvvəl “hə” desə də, sonra sözünü dəyişdi:

— Yox, rəfiqəmlə danışırdım, — dedi. — Onunla görüşəndə necə deyə bilərdim ki, evdə yox, hoteldə qalıram. Sualına düzgün cavab vermək istəmədim. Ona görə telefonu tez qapadım.

Mən dayıdostumun gözlərinin içinə baxdım. Baxışlarım, elə bil, onda “dediklərinə inanmıram” təəssüratı yaratdı. Ancaq o da üstünü vurmadı. Dərhal dedi:

— Oğlum, bəlkə çiməsən? Yorğunluğun çıxsın. Əsəblərin sakitləşsin. Təmizlik həm də sağlamlıqdı.

Mən susdum. Heç bir söz demədim. Dayıdostum qalxıb şkafdakı qara, meşin, böyük çantanı açdı. İçərisindən ağ mələfə, təzə köynək, zolaq-zolaq tuman, corab çıxarıb çarpayımın üstünə qoydu, sonra astadan dedi:





— Çirkli paltarlarını bir kənara qoy. Sən çiməndən sonra özüm vanna otağında yır-yığış edərəm.

Dayıdostumun səsində, sözündə həmişəkindən daha çox nəvaziş, səmimiyyət duydum. İnsan qəribə məxluqdu. Nə qədər dərdli-sərli, incik, əsəbi olsa da, ağır anlarında nəvazişə, səmimiyyətə, təsəlliyə möhtacdı. Açığını deyim ki, dayıdostumun bu psixoloji yanaşması mənə təsir elədi. Məndə ailəmizlə bağlı təhlükədən doğan acı, zəhlətökən fikirlərin rişələrinin şaxələnməsini, dərinləşməsini, möhkəmlənməsini bir an boğdu elə bil. Bu ötəri hisslər tez də keçdi. Əvvəlki düşüncələrim varlığıma çox yox, bir an hakim kəsildi. Mən demək olar ki, yenə də özümü tək-tənha hiss elədim. Qəm, qüssə məni neştər kim caynağına keçirtdi. Dayıdostum məni o düşüncələrdən uzaqlaşdırmağa çalışsa da, özüm də hiss eləmədən hər an o qasırğaya yaxınlaşır, onunla can-başla təmasada olurdum. İçimdə qarşısıalınmaz küskünlük, məyusluq yaranırdı. Tez-tez hava almaq adı ilə balkona çıxır, için-için ağlayır, öz-özümlə danışırdım. Belə olanda dayıdostum məni dindirməyə cəsarət eləmir, susmağa üstünlük verirdi. Hoteldə yaşadığımız doqquzuncu günün axşamtərəfi dayım gəldi. O, çox yorğun-əzgin, sarsıntılı görünürdü. Mən gözlərimi onun təraş olunmamış üzünə, əzab-iztirab doğuran, qıyılmış, həsrət dolu nigaran gözlərinə zillədim. Üzünə baxdım. Çənəsindən çıxan tək-tək ağ tüklər yanındakı qapqara şəvə kimi tüklərdən açıq-aydın seçilir, onun əsəbi görünüşünə zəhm və sərtlik gətirirdi.

Soyuqladığındanmı, ya nədəndi, dayımın səsi qalınlaşmış təsiri bağışlayırdı. Könülsüz, ağır-ağır danışığı halsızlığını büruzə verirdi. Dayımın heç vaxt belə küskün olacağını ağlıma gətirməzdim. Ona içimdə yazığım gəldi. Dayımda hədsiz çaşqınlıq, ümidsizlik duyulurdu. Bu onu göstərirdi ki, beynindəki qarma-

qarışıq fikirlər dayımı haldan-hala salır, gedəcəyi yolun şahraqlığına mane olurdu. Qəm, qüssə, kədər dolu bulanıq düşüncələri onun sinəsinə ağır, dözülməz yüklər gətirirdi. Elə bil, o da göz yaşları içərisində boğula-boğula ağlayırdı. Tək-tənha olanda ailəmiz gözlərim önünə gəlir. Olub-keçənləri xatırlayıram. Uşaq yaddaşıma hər şey həkk olunub. Bir neçə dəfə onları sıcaq-sıcaq qucaqlardım. Yuxudan ayılanda ağzımı bərk-bərk balınca dirəyərək qəmdən, qüssədən, kədərdən bəzən göz yaşları axıdardım, bəzən də o yaşları içimdə boğmağa çalışardım. Uşaqlıq çağlarımdan fərqli olaraq indi yaddaşımın nə qədər zəiflədiyini, mənə etibarsızlığını hiss eləyirəm. Bilirəm ki, bunlar çox fikir eləməyimdən, hədsiz düşüncələrə qapılmağımdandı. Gecələr yuxuda sayıqlayardım. Bunu mənə bir otaqda yatdığım doğmalarım deyirdilər. Onda onlara bir söz deməsəm də, doğrusu, utanardım. Kədərlənərdim, qüssələnərdim. Bunu başa düşüb, dayım, dayıdostum həmişə yox, hərdənbir sözarası, kefləri yuxarı olanda məni cırnatmağa çalışardılar. Sonra da zarafat elədiklərini deyərdilər:

— Bizdən incimə, Elxan. Biz sənin xatirini çox istəyirik. Səni qəsdən sancırıq. — Zarafatı ağıllı adamlarla eləyərlər, — deyirdilər. Ağılsız kəslərlə elənən zarafatın axırı dava-dalaşdı, qırğındı, fəlakətdi... Belə-belə işlər. Acı da olsa, budur mənim həyatım, polkovnik.

Rəşid Elxan Azərinin üzünə baxdı. Kişi sanki özündə deyildi. Sifəti ağardığından ruhu da sarsıntılı təsir bağışlayırdı:

— Elxan əfəndi, bayaqdan səni səssiz-səmirsiz dinlədim. Bəzən heyrətləndim. Bəzən keçirdiyin o anları düşünüb sarsıldım. Bəzən də sevindim. Sevindim ona görə ki, keçmişimi mən də təzədən yaşadım.

Əvvəla, dərdinizə şərikəm. Ağrı-acın, zəhmətin çox olub... Sən danışdıqca xəyal məni çəkib lap uzaqlara aparırdı. İndi mən də sənə bir neçə möcüzə açmaq istəyirəm.





— Möcüzə?..

— Bəli! Bəli, möcüzə! Möcüzələri yalnız xuda yaradır. Belə olmasaydı, burda — Bakıdan çox-çox uzaqlarda — İstanbulda Allahımız bizi qarşılaşdırmazdı. Qarşılaşdırıbsa, əgər etiraz etməsən, mən də həmin möcüzəni sənə soyuq başla, hissiz, həyəcansız açaram. İndi qalxaq, bir az gəzək. Təmiz hava alaq. Hisslərimiz tağımından düşsün. Hələ xeyli vaxtımız var. Söz verirəm. Sabah bu vaxt, elə bu otaqda...

Yaz yağışından sonra buludlar dağılıb, səma açılantək müsahiblərin hər ikisinin ürəyindəki o tərəf-bu tərəfə ləngər vuran dağlar ağırlıqda yük, elə bil, yoxa çıxdı. Hər ikisinin üzündə zəif bir işıq duyuldu. Təbəssüm hiss olundu.

## Möcüzə

Reanimasiya otağında yatan Nişanəylə ayaqüstü görüşən, onun solğun sifətinə düz-əməlli baxan bilməyən, nazilmiş səsini dinləməyə, həsrətli baxışlarına tab gətirə bilməyən Rəşid xəstəxanadan necə çıxdığını bilmədi. Qapı ağzında bir an ayaq saxladı. Nəsə düşündü. Sonra öz-özünə dedi: "Nişanə əməliyyat zamanı çox qan itirib. Yeməyi-içməyi zəifləyib. Səsi halsızlaşıb. Özü deməsə də, şübhə eləmirəm ki, qorxub. Ola bilməz ki, özünə gələndən sonra da Fəridin, Fəridənin barələrində düşünməsin. Bir üzü üstə uzanıb, boz rəngli tavana baxmaq onu bezikdirməsin..." O, İstanbulun çay daşı döşənmiş, bir-birilə çarpazlaşan küçələriylə üzü yoxuşa addımlayırdı. Canında yorğunluq hiss eləyirdi. Şəhərin dolanbac küçələri onu çaşdırdığından, gedəcəyi hotelin səmtini itirdi. Mobil telefonunu çıxarıb saatına baxdı. On doqquza iyirmi dəqiqə işlədiyini gördü, düşündü ki, taksiyə əyləşməsə, Elxan Azəriylə vədələşdikləri vaxtda hoteldə olmaya bilər. Onu gözlətmək, görüş yerində vaxtında olma-

maq yaxşı deyil.

Rəşid fikirləşdiyi kimi də elədi. O, hotelə çatanda vədə vaxtıydı. Elxan Azəriylə qapı ağzında görüşdülər. Rəşidin təkidiylə restorana getdilər. Yüngül şam eləyib otağa qayıtdılar. Rəşid çay sifariş verdi. Çox çəkmədi, xidmətçi çayı otağa gətirdi. Rəşid stəkanlara çay süzmüşdü ki, onun ətri otağı bürüdü. Elxan Azəri dilləndi:

— Polkovnik, çayın ətri məni tutdu.

— Afiyət olsun, xocam. Bu neçə gündə sənə çox alışmışam. Söhbətimiz tutur. İçimdə səninlə bağlı nigarançılıq baş qaldırır. Etiraf eləyim ki, uşaqlıq xatirələrini dinlədikcə çox sıxılırdım. Hisslərim, ağlım gah kilidləşir, gah da çılğınlaşırdı. İçim hərdən sökülüb-dağılırdı. Ata-ananı, bacı-qardaşı eyni anda itirmək böyük faciədi. İztirablarına dözmək çox çətindi. Bilirəm, yanırsan. O dərd, o hisslər mənə də doğmadı desəm, inan. Bəlkə də insanın özünün ölməsi ondan yaxşıdı. Bu ağrı-acını dadmayanların sən deyənləri başa düşməsi çox müşküldü. Dayının, dayıdostunun sayəsində sənin taleyinin nisbətən ağır gedişlərdən sonra yoluna düşdüyünü dilindən eşidəndə, sevinc hissləri keçirtdim. Nə yaxşı ki, həyatda qaranlıqlar içərisində adama ümid vədə eləyən işartılar da var. Qarşımdasan, sevincdən yerə-göyə sığmıram. Sən hardan gəlmisən, nələrdən addamısan, indiki zirvəyə necə qalxmısan — təsəvvürümdə canlandırıram... Fərəhlənirəm... Deməsən də, əminəm ki, dayın, dayıdostun bu yolda səni, Zeynəb qarı demişkən, toyuq kimi güdüblər, qoruyublar. Düzmü deyirəm, Elxan əfəndi?

— Doğrudu, polkovnik. Sanki yanımda olmusan. Sən deyən kimi, elə anlar olub ki, qarnımı doyduran dayımdan da, gecə-gündüz qayğımı çəkən dayıdostumdan da kənar gəzib-dolanmağa can atmışam. Hətta onlardan yersiz inciyib, küsməyim də olub. Bəzən dediklərinin əksinə də gedirdim. Sözlərini saya salmırdım. Ərköyünlük eləyirdim. Onlarsa məni doğma övladları





sanardılar. İndi o yersiz, düşüncəsiz hərəkətlərim yadıma düşdükcə, yanıb-yaxılıram. Peşmançılıq çəkirəm.

— Deməli, həqiqətən də onlar səni doğma övladları biliblər. Nazınla oynayıblar. Elədiyin saymazlıqları ürəklərinə salmayıblar.

— Bəli! Bəli! Elə bil, polkovnik, həmişə bizi izləmisən.

— Doğrusu, bu sözləri öz məntiqimə əsaslanaraq sənə deməyə haqqım yoxdu. Səndən nə vaxtsa faydalanmağı qarşıma məqsəd qoymuram. Onu heç vaxt şəxsiyyətimə, ehtiyatda olsam da, polkovnik qüruruma sığışdırmaram da. Onu ən azı özüm üçün sədəqə sanaram. Mənə elə söz-söhbət ünvanlansa, xəcalətimdən ölüb yerə girərəm. Xocam, inan mənə, dediklərim şişirtmə deyil. Yaltaqlara nifrət eləyirəm. Üzgörənlik təbiətimə yaddı. O gün söhbətlərini axıracan dinləyib yadındadırsa, dedim: "Sənə möcüzə açacam". O vədə indi yetişib. İstərdim, məni yaxşı-yaxşı dinləyəsən. Möcüzələrdən biri odu ki, biz həmkəndliyik. Hər ikimiz bir gecədə ermənilərin ölümcül zərbəsini dadmışıq. Özü də bir yox, bir neçə.

— Nə?! Sən nə danışırsan, polkovnik.

Elxan Azərinin iti nəzərləri Rəşidin gözlərinə dikildi. O, həyəcanlandı. Handan-hana polkovnik dedi:

— Biz qohumuq!..

— Nə?!

— Bəli!.. Bəli!.. Bu ikinci möcüzədi.. Təkcə həmkəndli deyilik. Eyni zamanda bir nəsildənik. Bir kökdənik, Elxan Azəri. Biz ailəliklə anan Səbinənin atası, sənin baban Aslan kişiyə, nənən Günəş xalaya çox borcluyuq. Bu da üçüncü möcüzə. Ömrüm boyu onların verdikləri duz-çörəyi unutmarıq... Bizim ailə çoxuşaqlı olub. Əvvəl anam xərçəngdən, sonra da atam ürəktutmasından dünyalarını dəyişiblər. Heç vaxt unudulan deyil. Onda biz aclıqdan ölüm təhlükəsiylə üz-üzə qaldıq. Bizə həyan çıxacaq, havadarlıq eləyəcək elə bir yaxın adamımız olmadı. Onda

baban kimsəsiz ailəni — ac-yalavac uşaqları qanadları altına çəkdi. Bizə sözün əsl mənasında babalıq elədi. Doğma övladlarıtək ona sığındıq. O zaman başa düşmədiyimizdən, babanın bizə təmənnasız qayğısının fərqinə də varmırdıq. Elə bilirdik, Aslan babanın bu fədakarlığı təbiidi. Bu belə də olmalıdı. Bu başqa cürə də ola bilməzdi. Daha dəqiq ifadə eləməli olsam, o bizə olan borcunu ödəyir... Bir dəfə baban məni yanına çağırdı. Qarşısındakı kətili göstərdi: — Otur, sənə deyiləcək sözüm var, oğlum, — dedi. Mən kətilin üstündə əyləşdim. Ürəyimdə bir nigarançılıq, həyəcan hiss elədim. O, dedi:

— Oğlum, dünyanın öz gərdişi var. Onunla gərək hesablaşaq, Ölüm haqdı. Haqq olan şey qanundu. Sizin valideynləriniz də, bacı-qardaşlarınız da dünyalarını bivaxt dəyişdilər. Onların yetişməmiş əcəllərinə çox təəssüflənirəm. Heyfslənirəm. Neyləmək olar? Əlimdən nə gələr? Heç nə, qalan bacı-qardaşların da, elə sən də ata nəfəsindən, ana nəvazişindən uzaq düşdünüz. Hərdən onları xatırlayanda gözlərim yaşarır. Nə qədər ki, ömrüm var, sizə xidmət eləyəcəyəm... Allah hər şeyi görür. İndi sizin iki arxanız var. Biri rəhmdil və mərhəmətli Allah, o birisi onun yaratdığı Mən. Mən siz bacı-qardaşların xoşbəxtliyinizi istəyirəm. Mənə elə gəlir ki, böyük Qüdrət, oğlum, məni sizə görə yaradıb. Sizin xoşbəxtliyiniz mənim ən böyük səadətim olacaq. İçimdən dəruni bir səs gəlir. O səs məndə belə əqidə formalaşdırıb ki, nə qədər siz böyüyüb yaşa dolmamısız, ev-eşik sahibi olmamısız, xoşbəxtliyinizi əldə etməmisiz... ölməyəcəyəm. Uzun ömür mənə sizə can-başla xidmət üçün verilib, əzizlərim. Mənim ləyaqətim, şərəfim, namusum sizin gələcək xoşbəxt həyatınızın qurulmasına xidmətdədi. Allahımı sevirəm, güman eləyirəm, o da məni sevir. Axı, atdığım addımların hər biri Allahıma doğru uzanan yoldur. Qılıncını qınından çıxaran Şeytana imkan vermərəm ki, sizinlə də haqq-hesab çəksin. Mən bu sözləri deməklə, özümü kiməsə yaxşı kimi tanıtmaq niyyətində





deyiləm. Elə düşüncələr əqidəmə ziddir. Allahımın buyurduqları ilə uyuşmazdır. Mən yalan danışmaqla, kimlərisə aldatmaqla, yalnız sadəlövh insanlara hiylə, məkr işlədə bilərəm. Hər cür alçaqlığa boyun əymiş olaram. Allahım məni özümdən yaxşı tanıyır. Mənim “gözüm” onun əlindədir desəm, bəlkə də səhv eləmərəm və çoxları da mənimlə razılaşar. Yalan söyləmək, insanlara həqarətlə baxmaq, onları qapazaltı eləmək ən azından insafsızlıqdır...

Mən əvvəl-əvvəl çaşdım. Aslan babanı başa düşmədim. Gözlərindən gilə-gilə gələn yaşın yanaqlarına süzüldüyünü görəndə, elə bil, yuxudan ayıldım.

— Oldu, Aslan baba — dedim.

Aslan baba dodaqları titrəyə-titrtəyə bildirdi.

— İki qızım var. Onları yerbəyer eləmişəm. Beş nəvə sahibiyəm. Hamısının da dolanışığı var. Arvadım Günəş xalanıza da demişəm. O da razıdı. Bundan sonrakı həyatımızı sizin sağlamlığınıza, təhsilinizə və həyatda öz yerinizi tutmanıza sərf edəcəyik. Güman eləyirik ki, bu niyyəti ləyaqətlə, mərdi-mərdanə həyata keçirə bilsək, insani məsuliyyətimizi yerinə yetirsək, dünyamızı da qazanmış olarıq. Bu işdə Rəşid, sən bizim köməkçimizə çevrilməlisən.

Mən dərhal: — Nə lazımdı eləyəcəyəm, baba, — dedim.

— Sənə bir olmuş əhvalatı xatırladım. Ermənilər tez-tez uşaq ovuna çıxırlar.

— Nəyə?

— Sözümü kəsmə. Uşaq ovuna. Uşaqları oğurlayırlar. Onları aparıb xarici ölkə vətəndaşlarına satırlar. Onlar da öz ölkələrində uşaqların əzalarını — böyrəklərini, gözlərini, qol-qıçlarını, ciyərlərini, ürəklərini... baha qiymətə satırlar. Artıq mənfur ermənilərdə bu, dəb halını alıb. Yaxud qızları qaçırırlar. Onları zorakılığa məruz qoyurlar. Bədbəxt eləyirlər.

— Bu, vəhşilikdi ki, baba.

— Hər nədi, oğlum, biz uşaqları saxlamağı bacarmalıyıq. Mən Günəş nənəni də xəbərdar eləmişəm. Sən böyüksən, qanırsan. Bacı-qardaşlarını başına yığıb onları naqis əməllərdən, yaramaz işlərdən çəkindirə bilərsən. Onları başa salmalısan. Onlara yol göstərməlisən. Onlar heç vaxt səndən inciməzlər, küsməzlər. Uşaqların istəklərindən, çətinliklərindən hər gün mənə xəbər ver. Günəş xalan, sən və mən birləşsək, bacı və qardaşlarına faydamız dəyər. Ömrümün qüruba yan alması qəlbimi tez-tez kövrəldir. Uşaqların əzab-əziyyətlərini görəndə, göz yaşlarının şahidi olanda bəzən hönkürüb ağlayıram. Elə bilirəm, cəmiyyət, insanlar qarşısında arzuolunmaz günahlar işlətmişəm.

Mən dərhal soruşdum:

— Sizin Allah qarşısında nə günahınız ola bilər ki, Aslan baba?..

— Eh... Oğlum, heç kim günahını bilmir. Bilə-bilə kim qəbahət eləyər ki?

— Onu indi-indi anlayıram ki, Aslan baba olduqca müdrik adam idi, açılmamış kitab kimi. O, dərindən nəfəs alıb dedi:

— İstəyirəm biləsən, oğlum. Həyat eybəcərliklərlə doludur. Bəzi adamlar pis əməllərinə yaxşı don geyindirməyə çalışırlar.

Elxan əfəndi:

— Həqiqətən də babam müdrik adam olub. Mən belə bilməzdim. Mərhum babamın ruhuna qurban olum. İnsanlar bəzən həyata fəlsəfə sözünü də yapışdırırlar, xocam, olur: "Həyatın fəlsəfəsi". Deyən lazımdı, bəs, onda ömür nədir? Əgər bəzilərinin dedikləri kimi, həyat fəlsəfədirsə, ömür də hərdən məntiqlə uzlaşmayan, hərdən də uyuşmayan bir yanaşmadır, başlanğıcı və sonu hüdudlanan müəyyən zaman parçasıdı. "Ömür cəngəllikdir" deyənlər çox olub. O cəngəllik baş alıb getdikcə nə ucu görünür, nə bucağı. Daim məşəqqətlər içərisindən sonu görünməyən, məchul bir məkana uzanıb gedir. Aydın, dəqiq proqnozu da





yoxdu. Barəsində kim nə deyirsə, hamısı gümandır, fərziyədir. Zəndlərə söykənən yarı-yarımçıq, bəzən də heç düz olmayan, məntiqlə daban-dabana ziddiyyət təşkil eləyən sərsəm düşüncələrdi. Bu düşüncələr reallığa çevriləcək-çevrilməyəcək, onun nəticəsi yaxşımı-pismi olacaq, fikrini söyləmək hər kəsi çətinlik qarşısında qoyur. Onun barəsində aydın, dəqiq mülahizə yürütmək olmur.

Aslan baba özünəməxsus təmkinlə dedi:

— Hansı müdriksə təbiətin məhdudluq nəzəriyyəsi haqqında yaxşı deyib: balıq sudan çıxarılanda məhv olur. Üzə bilməyən insan dəryada boğulur. Quşun qanadları qırılanda yaşamaq imkanı itir. Bitki qidadan məhrum olanda quruyur. Allah verdiklərini alanda, təbiət də od-alova bürünür. Yanır. İnsan da elədi. Gərək təbiəti, həyatı anlayaq. Özümüzü təbiətin qəzəbindən qoruyaq. Cəmiyyət də, bir növ, təbiətə bənzər. Onun da öz məhdudluq nəzəriyyəsi var, desəm, bəlkə də səhv eləmərəm. Axı, insan da təbiətin bir hissəsidi. İnsansız cəmiyyət, cəmiyyətsiz insan ola bilməz.

Onda mən soruşdum:

— Sən bunları hardan bilirsən, baba?

O, cavab verdi:

— Oğlum, axı, mən uzun müddət müəllim olmuşam. İnsanların iç dünyalarını öyrənməyə çalışmışam. Yadında saxla, insan heç bir canlıya bənzəmir. Mən səndə insanlara nifrət hissi aşılamaq fikrində deyiləm. Yaxşı, müdrik insanlar da çoxdu. Təəssüf ki, yaxşıları pislərdən ayırmaq çətin olur. Yaxşılar müdrik və açıq olduqları halda, pislər qapalıdılar. Ona görə də pislər yaxşıları, təmizləri aldadırlar. Hər şeyə ayıq-sayıq olmalıyıq. Bu dediklərimlə mən sənə dərs yox, həyat barədə açar verirəm. Bu açar indi sənin əlindədi, onunla necə davranmaq öz əlindədir.

— Aydındı, baba. Arxayın ola bilərsən.

Mən Aslan babanın gözlərinin içinə baxdım. Kişi danışdıqca,

elə bil, yazıqlaşırdı... O, başını yellədi. Dərindən ah çəkdi. Sonra astadan dedi:

— Bədbəxtlik də, xoşbəxtlik də nisbidi, — deyirlər. Qəribədi, od-alov içərisindən çıxanlar keçmişdə gördükləri məşəqqətləri özlərinə dərd-sər eləmirlər. O çətinlikləri çox zaman ömürlərinin kristallaşma, stallaşma dövrü sanırlar. Yeri gələndə həmin dövrü xatırlayıb danışırlar...

— Elxan əfəndi. Sənin dediyin qaçahaqaç gecəsi adamlar bir ağaca toplaşan quşlar kimi, əyin-dəst paltarlarından savayı hər şeylərini atıb pərəm-pərəm oldular. Əzizlərini axtarmağa, onların səslərini eşitməyə macal tapmadılar. Hər kəs öz başını qorumalı oldu. Yuxudan oyanan bacı-qardaşlarım ağlaşaraq mənə sığındılar. Az qala ürəyim parçalanacaqdı. Bu dəm qapımızı döyəcləyən yeganə şəxs sənin Aslan baban, Günəş nənən oldu. Onların köməyiylə başımızı götürüb güc-bəlayla qapıdan çıxdıq.

— Yoxsa, uşaqları ermənilər qırıb-batırardılar?..

— Bəli! Bəli! Yadımda deyil, uşaqları kiminsə üstü açıq kuzovlu maşınına mindirdik. Babanla nənən də bizimləydilər. Güc-bəlayla kənd-kəsəyi atıb qorxu, ürkü, göz yaşları içərisində gecənin qaranlığında yola çıxdıq. Hara getdiyimizi bilmirdik. Baban: — “Hara gedək, kimə üz tutaq”, — deyə üzümə baxdı. Kişinin gözləri doldu. Mən çiyinlərimi çəkdim. Azərbaycan sərhədinə çatanda sürücü maşını saxladı: — Aslan kişi, hara gedəcəksiz? — dedi — Biz Xocalıda yaşayan qohumlarımızgilə sığınacağıq... İstəsəniz, birlikdə gedərik. Bir-birimizə həyan olarıq...

Aslan baba:

— Hə... Nə olar... Sür maşını, gedək, — dedi.

Beləcə, biz Xocalıya gəldik. İnsafən, bizi orda yaxşı qarşıladılar. Kimisi əyin-baş, kimisi ayaqqabı, kimisi yorğan-döşək verdi. Camaat yığışıb bizə daxma tikdi. Onda biz Aslan babanla, Günəş nənənlə birlikdə qalmalı olduq. Kişi hər gün, elə bil, əriyirdi. Bir dəfə nənən babandan soruşdu:

— A kişi, biz gəldik, oğul-uşaq, nəvələr harda qaldılar?.. Necə oldular? Bilmədik.

Kişi fikrə getdi. Handan-hana nənənə ağır-ağır, gözləri yaşla dola-dola, ah çəkə-çəkə təskinlik verdi:

— Kürəkənlər qoçaqdılar... Harda olsalar, bizdən də xəbər tutarlar.

Nə qədər çətin olsa da həyatımız yavaş-yavaş axarına düşürdü. Biz tez bir zamanda yerli adamlara uyğunlaşdıq. Hamı bizə hörmət və qayğıyla yanaşırdı. Aslan baba çalışırdı ki, adamlar arasında ayaq açıb yeriyən söz-söhbətdən, ölkədə gedən çaxnaşmalardan, erməni vandalizmindən biz xəbərsiz olaq. Dünyanın dərdi-sərini içimizə yığmayaq. Bacı-qardaşlarım bizi bürüyəcək qasırğanın hənirtisindən, ağuşuna alacaq faciənin sürətlə yaxınlaşmasından tam xəbərsiz idilər.

Elxan Azəri:

— Bəs, kütləvi informasiya vasitələrində ölkədə gedən ağır proseslər barədə məlumat vermirdilər?

— Verirdilər, hamısı da yalan, hamısı da saxta. Üstəlik, xalqın başının altına balınc qoyurdular. Yerindən duran ölkə rəhbəri, baş nazir olmaq uğrunda mübarizə aparırdı. Bacı-qardaşlarımın başları həyət uşaqlarına qarışdığından, günlərinin necə keçdiklərini bilmirdilər. Etiraf eləyim ki, mənim də təsəvvürüm çox səthi idi... Televiziya və radiodan eşitdiyim yanlış məlumatlar, böyüklərin yanımda hərdənbir yarı-yarımçıq, şayiə xarakterli dedikləri... idi. Məktəb həyatımız olduqca maraqlı keçirdi. Narazılıq etməyə haqqımız yox idi. Hər gün yenicə dostlaşdığımız uşaqlarla danışır, deyib-gülür, nağıllar, hekayələr oxuyur, şeirlər əzbərləyir, mahnılar zümzümə eləyirdik. Gülüş, qəhqəhə, mübahisə, sorğu-sual səsləri, atılıb-düşmələr... Hərəsi bir aləm təsiri bağışlayırdı. Qəlblərə sevinc, fərəh gətirirdi. Belə olanda çox şeyi unudurduq. Yeməkxanada, idman zalında, klub-

da həyatımız daha şən keçirdi. Onda bir-birimizə daha asanlıqla qaynayıb-qarışırdıq. Ürək açan, qəlb çağlayan anlarda bacı-qardaşlarıma baxıb çox sevinirdim. Var gücümlə hamının rəğbətini qazanmağa çalışırdım və demək olar ki, ona da nail olurdum. Doğrudur, uşaqlarla həmişə yox, bəzən, dava-şavalarımız da olurdu. Ancaq tez barışırdıq. Qəlbimizdə umu-kusu saxlamırdıq... Bir gün ədəbiyyat müəllimimiz Yasəmən xanım sinfimizin uşaqlarına siz böyüyəndə nəçi (kim) olacaqsız sualını verdi. Hərə ona öz istəyini bildirdi: kimisi müəllim; kimisi həkim; kimisi idmançı; kimisi aktyor.... nələr, nələr. Mən hərbçi olacağam deyəndə, o, güldü:

— Uşaqlar, Rəşidin cavabı mənim çox xoşuma gəldi. Hərbçi olmaq, xalqın, vətənin keşiyində dayanmaq, sərhədlərimizi işğalçılardan qorumaq şərəfli işdir və çox da çətin peşədi. Bunun üçün yaxşı oxumaq, idmanı sevmək, hərbin sirlərinə bələd olmaq, canı möhkəmləndirmək gərəkdi...

Doğrusu, Yasəmən müəllimənin bu sözləri mənə çox böyük təsir elədi. Bununla da mən gələcək həyatımın əsas istiqamətini müəyyənləşdirdim... Biz ata-anasız da olsaq, Aslan babaya, Günəş nənəyə ürəkdən sığınaraq həyatımızı yaşayırdıq...

Çox çəkmədi ki, Qərbi Azərbaycanda qopan fırtına, hisləri tüğyana gətirən təlatüm Qarabağda qovhaqovla, qırhaqırla müşayiət olunan qasırğaya çevrildi. Qara yellər əsməyə başladı. Getdikcə kəskinləşdi. İnsanla heyvana, həşərata fərq qoyulmadı. İnsanlar tam anladılar ki, burada böyük dövlətlərin, söz sahiblərinin iti caynaqları işləyir: yenə qaçaqaç; yenə qovhaqov; yenə qırğın; yenə qan; yenə günahsız, imkansız, əliyalın insan ölümü... Bu haqsızlığa dözməyən Aslan baba gecələrin birində bizə vida elədi. Onu heç nədən itirdik. O, bizim dayağımız, ümid yerimiz, çörək təknəmiz idi. O gündən bizim kimi Günəş nənənin qaranlıq həyatına daha qatı zülmət çökdü. Onun günü ağlamaqla, sıtqamaqla keçirdi. O, bir gün məni yanına çağırıb





dedi: — Rəşid, Aslan babanız sizi çox istəyirdi. Lap çox... Doğma övladları, nəvələri qədər. Ömür ona macal vermədi ki, sizi bir tərəfə çıxartsın. O, Allah adamı idi. Onun içində Allahın bəxş elədiyi mərhəmət xəzinəsi yatırdı... Oğlum, mən də özümə etibar eləmirəm. Hiss eləyirəm ki, sondayam... Bu dünyaya gələn getməlidi. Qalmaq da mümkün deyil. Ancaq bacı-qardaşlarından, səndən nigarançılığım var...

Günəş nənə məni kövrəltdi. Düşündüm ki, ömrünü bizə ərmağan edən nənənin xəstəliyə dözümü yoxdu. Ağlıma da gəlməzdi ki, bu, onun mənimlə son kəlməkəsməsi olacaq. Aslan baba ilə Günəş nənənin ölümü biz bacı-qardaşlara çox yanğı, fəlakət gətirdi. Qol-qanadımız qırıldı. Əlimiz hər tərəfdən üzüldü. Biz kimsəsizlər Allah ümidinə qaldıq. Qonşuların bizə yazığı gəldi. Bizə yemək-içmək, pal-paltar verdilər. Həyatımızla maraqlandılar. Açıq etiraf eləyim ki, bu qayğılar Aslan babayla Günəş nənənin istəklərini, sevgilərini əvəz eləmədi.

Artıq şəhərdə erməni xofu dolaşmağa başlamışdı. Hərə bir qorxunc fikir söyləyirdi. Şayiələr baş alıb gedirdi. Söz-söhbətlər, uydurmalar anbaan tündləşir, vəziyyət getdikcə kəskinləşirdi. Adamlara fikir verirdim. Hamı əsəbi, acıqlı, hirsli, qəzəbli idi. Mən quyuya düşən, nəfəsi təngişən vəziyyətdəydim. Az qala ürəyim çatlayacaqdı. Nə qədər çalışıb çabalasam da, düşünürdüm ki, vəziyyətdən qurtula bilməyəcəyəm. Kimə gəldi çımxırır, başımdan böyük iddialar irəli sürürdüm. Anlayırdım ki, heç zaman belə sərt hərəkətlər eləməzdim. Kimsənin qəlbinə toxunub qanını qaraltmazdım. Əgər ata-anam dursaydılar, Aslan babayla Günəş nənənin himayəsində qalsaydıq, onlar yaşasaydılar, yəqin ki, belə ağır, işgəncəli anları yaşamazdıq. Əslində valideynlərimizin də, onlardan sonra Aslan baba və Günəş nənənin də istəkləri bizi xoşbəxt görmək idi. Fikirləşdikcə mağmın günə düşürdüm. Bacı-qardaşlarımı nə sevindirə bilirdim, nə də özüm-özümə təsəlli verməyi bacarırdım. Mənəvi gücüm, taqə-

tim demək olar ki, yoxa çıxmışdı.

Elə bil, hər gün bütün uğursuzluqlar, bədbəxtliklər məni təqib edirdi. Hər şey başımda çatlayırdı. Mən zavallı bacı-qardaşlarıma artıq-əskik söz deyə bilmirdim. Elə bilirdim ki, onlar məndən küsə, inciyə bilərlər. Cansız-çəlimsiz, əllərindən iş gəlməyən bu uşaqların ordu ordundan keçirdi. Onlara baxanda ürəyim parçalanırdı. Hərdən elə düşünürdüm ki, atam, anam, Aslan baba, Günəş nənə kənarda dayanıb məni duyğusuz, qayğısız, daşürəkli adlandırırdılar. Onda məyusluq hissi məni basır, uğursuzluqlarım üçün özüm özümdən utanırdım.

Hardan, nə vaxt, necə gəldiyini bilmirəm, içimə dəhşətli qorxu və şübhələr dolurdu. Belə anlarda hirslənir, ümidsizliyə qapılırdım. Səhhətimin qayğısına qala bilmirdim. Bircə şey fikirləşirdim — bacı-qardaşlarıma gələn azar-bezar kaş məni tutaydı...

Mən çox vaxt hamıdan qaçırdım. Kimsəylə kəlmə kəsmək belə istəmirdim. Həmişə bacı-qardaşlarıma nəzarət eləməyə, onları həvəsləndirməyə, sevindirməyə, güldürməyə çalışırdım. Amma nədənsə, tez-tez ümidsizliyə qapılırdım. İnamımı itirirdim. Ən heyrətamiz şeylərə də təəccüb eləmirdim. Özümdən asılı olmadan — Ölmək belə həyatdan yaxşıdır — deyirdim. Varlığımı çulğalayanda özümə qəsd eləmək istəyirdim.

Rəşid başını qaldırıb Elxan Azərinin üzünə baxdı. Müsahibi gözlərini yumub dərin düşüncələr içərisində lap uzaqlarda — onun üçün məchul olan diyarda vurnuxurdu. O, Rəşidin susduğunu hiss eləyib özünə qayıtdı. Bu anda Rəşid: — Xocam — deyə sözünün ardına keçdi. — Bu sirlər örtülü qala bilməzdi. Allah bizi qarşılaşdırıbsa, deməli, bizə çox böyük şans verib ki, ürəyimizi bir-birimizə açaq. Keçmişin qaranlıq, məchul, naməlum nöqtələrinə işıq tutaq. Vaxtilə üstünə toz səpilən nələrin necəliyindən xəbərdar olaq. Sənin ana nənən, böyük mərhəmət sahibi olan ana baban Allahın qədrbilən bəndələridilər. Sən, xocam,





onlarla fəxr eləyə bilərsən.

Sizin ailəyə mərhəm olduğum üçün çox şeylərin şahidiyəm. İmkan tapdıqca, ürəyimdə o niskilli hissləri açmağa təpər duyduqca danışacağam.

Bir neçə gün sonra "Xocalı faciəsi" baş verdi. Gecənin bir aləmində tanklar, beteerlər nırıltıyla üstümüzə şığıdı, toplar gurladı, pulemyotlar, avtomatlar şaqqıldadı. Adama elə gəlirdi ki, yerlə göy bir-birinə qarışır. İtlər hürüşür, heyvanlar mələşir, insanların hay-qışqırığı adamın hisslərini, ağlını kirləşdirirdi. Kimsə nə eləyəcəyini, hara üz tutacağını bilmirdi... Bacı-qardaşlarım məndən xəbərsiz yoxa çıxdılar. Nə qədər çalışdım, onları tapa bilmədim. Əlacım kəsildi. Xocalıyla, Aslan babanın, Günəş nənənin qəbirləriylə xudahafizləşdim. Başımı götürüb qarda, şaxtada səmtini bilmədiyim dağ yollarıyla yıxıla-dura irəlilədim. Yol uzunu bacı-qardaşlarımın taleyiylə bağlı göz yaşları axıtdım. Axırda gəlib Ağdama çıxdım. Gözlərim çox şey gördü: öldürülən kim; yaralanan kim; qarda, şaxtada donan kim, əsir alınan kim.

Bakı... Qaynar şəhər... Yataqxana həyatı. Tanımadığım, xislətlərinə bələd olmadığım qaçqınlar...

## Yataqxana həyatı

Rəşid dedi:

— İnsan başına nələr gələcəyini əvvəlcədən yaxşı ki, bilmir. Bilsə, bəlkə də ürəyi ona tab gətirməz. Gətirsə, inanıram, özünüintihara cəhd elər... Dərd-sər adamın üstünə bəzən qalaq-qalaq gəlir və ağır zərbələr endirir. O zərbələri dadmaq çox dəhşətli olur. İnsanın mənəviyyatı zorlanır. Zorlandıqca, əsəbləri pozulur. Yaşamaq belə istəmir...

Elxan Azərinin gözləri doldu. Handan-hana təəssüf hissiylə

dedi:

— Həyat səni sındırıb, xocam.

— Mən sındırıb deməzdim. Dözürəm, yaşayıram. Bu yaşa gəlmişəm, heç kəsə əyilməmişəm. Qüvvəmi, gücümü, qüdrətimi qoruyub saxlamağa çalışmışam. Kimsədən asılılığım yoxdu... Həyatdan narazılığım, ondan gileylənməyim heç də o demək deyildir ki, xalqıma, vətənimə olan sevgimə zərrə qədər xələl gətirəcək, münasibətlərimə kölgə salacaq hal baş verib məndə. Yox... Mən təkrar eləyirəm, vətənimi sevirəm, xalqıma bağlıyam, əfəndim. Məni incik salan bəzi adamların nadanlığıdı. İnsani hisslərini itirib varlıqlarını maddiyyatda axtarmalarıdı. Müharibə, çaxnaşma olan ölkələrdə bütün dövrlərdə belə olub.

— Əfəndim, sənin sözündən belə çıxır ki, bu, təbii prosesdi.

— Mən elə demək istəmirəm, xocam. Mən onu demək istərdim ki, harda qan var, harda müharibə, çaxnaşma var, orda insan ağlına sığışmayan cinayətkarlıq da var... Çünki insani hisslər itir... Yaşamaq ümidi, inamı daralan, məhdudlaşan yerdə cinayətkarlıq tüğyan eləyər... Biz insanlar niyə belə oluruq?.. Bakıya gəldiyimiz günləri, o zaman qarşılaşdığımız hadisələri xatırlayanda dəhşətə gəlirəm. Biz qaçqınlar bütün söz-söhbətlərə, narazılıqlara, müqavimətlərə baxmayaraq, inadımızdan dönməyib beşmərtəbəli tələbə yataqxanasına hücum elədik. Yataqxana işçiləri qaçqınlara müqavimət göstərdilər. Onu da deyim ki, bütün imkanlarını itirən, doğmalarının bir çoxunun öldü-qaldısından xəbərsiz olan, canından bezən qaçqınlar maneə və qadağalara məhəl qoymadan otaqlara dolurdular. Qəribəydi, ümidləri qaralan, var-güclərini itirən və şəhər həyatına yad olan bu adamlar neyləyəcəklərini bilmirdilər. Uşaqlar, qocalar, xəstələr canlarını qoymağa yer tapmırdılar. Ölkənin heç vaxt üzləşmədiyi qaçqın, köçkün problemi getdikcə dərinləşməkdəydi. Hər gün, hər an çörəyə, suya, dərmana ciddi ehtiyac duyulurdu. Bir sözlə, ölkənin yaşam həyatı getdikcə ağırlaşırdı. Sağlam düşüncələr bulaş-bulaş olurdu. Bunlar azmış kimi, hər gün münaqişə bölgəsindən şəhərə yeni-yeni acı xəbərlər, şayiədolu informasiyalar axırdı. Hər saat da qaçqın və köçkünlərin ölkəyə axını davam eləyirdi. Bütün bunlar yataqxana sakinlərini vahiməyə salırdı. Bu işsiz-gücsüz adamlar yalnız yardımlarla dolanırdılar. Yerli adamlarla qaçqın-köçkünlər arasına təxribat salanlar da vardı.





— Sən danışdıqca mənə elə gəlir ki, məzmunu qeyri-insaniliklərlə dolu olan bir yuxu görürəm.

— Bəli, əfəndim, hələ deyiləsi, ancaq yaddan çıxan, unudulan məsələlər çoxdu.

— Bəli! Bəzən insan insana qənim kəsilirdi. Hamını ümumi dəyərlər birləşdirirdi. Hərc-mərclik ölkədə və təbii ki, yataqxanada da baş alıb gedirdi. Kimsə kimsəni eşitmək, dərdinə şərik çıxmaq belə istəmirdi. Xəstəliklərdən, qayğısızlıqdan (soyuqdan, aclıqdan, susuzluqdan, müalicəsizlikdən) adamlar dünyalarını dəyişirdilər.

— Deməli, fəlakət... Bəs, ölkə rəhbərliyi?

— Rəhbərlik başını getdikcə itirirdi. Moskva açıq-açığına onların əl-qollarını bağlayırdı. Bəli, vəziyyət dözülməz həddə çatırdı. Çox zaman uyuşma olmadığından, yerli sakinlərlə, eləcə də qaçqın, köçkünlərlə dövlət rəhbərləri arasında münasibətlər korlanır, bəzən də son həddə çatırdı. Rəhbərlərin özləri arasındakı çəkişmələr, hərc-mərclik, qanunsuzluq, kriminogen hallar ağlagəlməz pozğunluqlara aparıb çıxarırdı. Ziddiyyət beləcə getdikcə dərinləşirdi. Heç kim heç kimin sözünə qulaq açmaq, dərdini eşitmək, halına yanmaq istəmirdi... İnsani münasibətlər korlandıqca, yataqxanada məskunlaşanların maddi və mənəvi gücləri sarsılırdı. Ölüm... Qırğın... Aclıq... Səfalət...

Rəşidi dinlədikcə Elxan Azərinin gözləri doldu. Təəssüf hissiylə dedi:

— Mən nələr bilməmişəm? Ola bilməzdi ki, sənin dediklə-

rindən dayım xəbərdar olmasın...

— Olub, əfəndim. Görünür, səni o qarmaqarışıq, qan qoxulu məsələlərdən uzaqda saxlamağa çalışıb. Dayın saxlamasaydı, hər şeyi sənə danışsaydı, neyləyəcəkdin?! Heç nə! Sən də ki, bir çəlimsiz uşaq. Uzaqbaşı bir küncə sıxılıb göz yaşları axıdacaqdın...

— O anları sən yaşamısan, xocam. Səni anlayıram. O ağrı-acılar, dərd-sərlər, qəm-qüssələr hamımızın olub.

— Qarışqaların insanlara vurduğu zərbələri, bəzən ölənləri basdırmağa belə yer tapanmadığımız vaxtları, əxlaqi-mənəvi dəyərlərin tapdalanmasını düşünəndə dünyaya gəldiyinə də, mən insanam deməyinə də xəcalət çəkirsən...

— Başa düşürəm səni, xocam.

— Onu da deyim ki, yataqxana sakinləri də özlərini bəzən yaxşı aparmırdılar. Çox iddalıydılar, çox şey tələb edirdilər... Yaşadıqları yerdə belə əllərini ağdan-qaraya vurmaq istəmirdilər. Yataqxanada natəmizlik həddini aşırdı. Heç kimi saya salmırdılar. Artıq yük olmasınlar deyə yaxınlarını, doğmalarını özlərindən uzaqlaşdırırdılar... Axırda iş o yerə çatdı ki, qorxunc xəstəliklərin törəməsi və yayılması üçün əlverişli şərait yarandı.

— Bəs, səhiyyə hara baxırdı?

— Eh... Hara baxacaq? Ciblərinə!.. İnsan insan yerinə qoyulmurdu, əfəndim. Etiraf eləyim ki, yataqxana sakinləri arasında da münasibətlər ölüm-dirim həddinə çatırdı. Satqınlıq, demoqoqluq, haqsızlıq ağıllı adamları belə cana doydurmuşdu. Girəvəsinə keçənlər digərlərinə badalaq atmaqdan çəkinmirdilər. Heç yadımdan çıxmaz. Yataqxanada mən də hamı kimi bir otaq zəbt elədim. Məndən fərqli olaraq, elə adamlar vardı ki, acgözlük eləyərək oğlunun, qızının, qaçqın zonasında yaşamayan qohum-əqrəbasının (baldızının, qaynının, qayınatasının...) kimlərin, kimlərin adına da otaq tutdular. Təəssüf doğuran hal o idi ki, bəzi qaçqın və köçkünlər başlarını soxmağa, gecələməyə yer





tapmayanları görməzliyə vururdular. Onlar yağışın, qarın, şaxtanın altında qalıb zəlil hala düşürdülər. Ağlıma belə bir fikir gəldi: xudaya, özümüz öz halımıza yanmırıqsa, yıxılanımızı ayağa qaldırmırıqsa, imkansıza düşmən münasibəti bəsləyiriksə, bizə kim qayğı göstərər, havadarlıq edər? Əlbəttə, heç kim. Yeri gəlmişkən, sənə bir hekayət danışım. Yurdsuz-yuvasız adamlardan biri qadın, ikisi uşaq idi. Mən otağımı onlara vermək istədim. Amma bir az da tərəddüd etdim. Fikrimi qonşu otağı qamarlayan Əhəd kişiyə dedim. O, məni kənara çəkdi: — Sən dəli olmusan? — dedi. Onları hökumət yerləşdirəcək... Yəqin ki, şəhərdə qohumları da olar. Çöldə qalıb xəstələnərsən.

— Axı, qadının uşaqları...

— Ağlını başına yığ. Sən cavansan. İnsanları tanımırsan. Düşün: onlar sənintək hərəkət edərdilərmi?.. Yox... Bu qədər ürəyiyumuşaqlıq olmaz, Rəşid.

Mən susdum. Heç bir söz demədim. Hələ də tərəddüd içərisində qaldığımı görən Əhəd kişi söhbətin istiqamətini dəyişdi:

— Bərk susuzlamışam, gedək bizə. Zinət xalan bir çay qoysun içək. Susuzluğumuz kəssin. Bir loxma da olandan dadarıq.

Əhəd kişinin səsində və sözündə səmimiyyət duyduğumdan, həm də təcrübəsiz və sadəlövh olduğumdan onunla razılaşdım. Biz evə getdik. Onsuz da darısqal olan otaq əşyalarla dolu idi. Yan-yana düzülən zənbillər, iç-içə qoyulan vedrə və vannalar otaqda darısqallıq yaradırdı. Otağın ortasında bir köhnə stol, ətrafında da dörd stul vardı. Yan divarların yanında da iki çarpayı qoyulmuşdu. Onların da üstünə çirkli yorğan-döşək yığılmışdı. Divarların bəzi hissələrinin suvaqları qopmuş, rəngləri demək olar ki, silinmişdi. Əhəd stullardan birini çəkib oturdu, digər stulda əyləşmək üçün mənə:

— Buyur, oğlum, əyləş... Nəyimiz vardı, atdıq, gəldik, — dedi.

— Gəlmədik, Əhəd dayı, qovdular,

Əhəd üzünü arvadına tutdu:

— Çay təşkil elə, oğul balayla canımızı qızışdıraq. Allah kəssin bu həyatı. İndi də gəl itə-qurda möhtac ol... Gör, yeməyə nə var?

Zinət arvad mızıldandı:

— Nə var, nə gətirəm?

Əhəd arvadının narazılığını anlasa da sakit dayandı və dedi:

— Hər nə varsa? Allah bərəkət versin, gətir.

— Heç nə yoxdu. Kişisən, əvvəl qazan gətir, sonra istə.

Əhəd dərhal acıqlı səslə dedi:

— Donquldanma... Nə deyirəm onu da elə.

— Bura kənd deyil, ağzını açıb, gözlərini yumasan.

Söhbətin kəskinləşdiyini görüb ayağa qalxmaq istədim. Əhəd astadan arvadına:

— Təsəvvür elə, Rəşid də bizim oğlumuzdu. Ona mən olmayanda da qayğı göstər. Bunu mən sənə deyirəm. Kimsəsizdi. O da oğlumuz Cəfərin biri... — dedi.

Zinət ərinin sözünü çevirmədi və çaydanı götürüb dəhlizə çıxdı. Əhəd kişi astadan, yanıqlı-yanıqlı dedi:

— Oğlum, hamımızı pis günə saldılar. Abır-həyamız gedəcək. Adımıza çox şey qoşacaqlar. Sən cavansan. Biz yaşlılar... Qovahaqovda, qaçahaqaçda bir gülləylə biz də canımızı tapşıra bilərdik. Kimsə nə haqqımızı, nə də qanımızı tələb eləyə biləcəkdi. Öləcəkdik, uzaqbaşı adımızı qoyacaqdılar itkin. Bura gəlib çıxmışıqsa, gərək Allaha şükür eləyək. Bir-birimizin qədrini bilək. Sən ağılla hərəkət eləsən, şəhərin gədə-güdələrinə qoşulmasan, oğurluqdan, dava-dalaşdan, narkomaniyadan özünü uzaqda saxlaya bilsən, xoşbəxt olarsan.

Mən dərhal cavab verdim:

— Nə danışırsız, Əhəd dayı. Mən acından ölərəm, elə qələtləri eləmərəm.

Əhəd gülümsündü:





— Deməli, mən də adam tanıyanam, oğlum. Az-çox bilirəm xasiyyətini... Hər adama ürək qızdırmaq, etibar eləmək, səxavət göstərmək olmaz. İnsanların arasında yaxşıları da var, pisləri də. Güclülər zəifləri didib-parçalamağa hazırdılar. Nə sözün-söhbətin olsa, gəl mənə de. Hər üzünə gülənə inanma. Zinət xalandan da çəkinmə. Mən sənin atan, Zinət də anan.

Elə bu vaxt Zinət əlində çaydan otağa girdi. Stəkanlara çay süzdü. Çayın ətri otağı bürüdü. Zinət ağlamsındı:

— Bundan sonrakı həyatımız beləmi keçəcək?

Əhəd:

— Görünür, qismət beləymiş... Mən nə eləyə bilərəm, Zinət?

Mən:

— Hamımız zülmə düşdük. Əclaflar bizə sitəm elədilər.

Zinət:

— Gecə-gündüz dişinlə-dırnağınla qazan, sonra da at gəl. Əslində, kişi, bu, ölüm deməkdi.

Əhəd:

— Sən çox şey danışacaqsan, arvad. Dünyada elə dərdlər var ki, onun yanında bizimki toya getməlidi. Əsası, uşaqların salamatdı. Başını da soxmağa yerin var. Çox danışma, Gör, yeməyə nə var? Acından başım ağrıyır. Görünür, Rəşid balamız da acdı.

Mən dərhal dedim:

— Yox... Ac deyiləm.

Əhəd:

— Bir loxma kəssək, mənə də nuş olar.

Zinət dərhal:

— Ağzımızın dadı qaldı orda. Nə qədər yavan yemək olar?

Əhəd:

— Dedim donquldanma. Mən bu evin kişisiyəm, yadında saxla, havaya güllə atanlardan deyiləm. Mənim çaldığım zurnanın səsi həmişə sonralar eşidilir. Sən ki, bunu bilməmiş deyil-

sən. Bəlkə daha məni kişi hesab eləmirsən?

Elxan Azəri diqqətlə Rəşidin üzünə baxdı və özünü saxlaya bilməyib hekayətə müdaxilə elədi:

— Əhədin danışıqları nə sözdü, xocam. Nə zurna? Nə səs? Sonra niyə eşidilməlidi? Nəsə burda hiyləgərlik var? Yaramazlıq var? Hiyləgərliyə işarə eləyir?..

— Hə... Əhədin sözlərini eşidən kimi mən ayıldım, əfəndim. İstədim, qalxıb gedim.

Əhəd fikrimi duyub astadan dedi:

— Oğlum, bu söz-söhbətin səninlə heç bir əlaqəsi-filanı yoxdu, narahat olma. Zinət xalan anladı mənim nə çaldığımı. Arvad gərək öz işinə baxsın...

Əhəd üzünü mənə tərəf döndərib söhbətin səmtini dəyişdi:

— Rəşid, sən bayaq dedin: tutduğun otağı yurd-yuvasızlara vermək istəyirsən.

Mən dərhal:

— Hə, dedim.

Əhəd:

— Bəyəm, sən Allahdan çox bilirsən? Ya ondan mərhəmətlisən? Doğrusu, sənin o sözün mənim xoşuma gəlmədi. Əvvəla, sən bizimlə qonşusan. Xatirini oğlum qədər istəyirəm. Tutalım havayı-kələm verdin. O, səni bircə dəfə də öz evinə buraxarmı? İkincisi də, sözün qətidisə...

Mən:

— Yox. O söhbət qurtardı, — dedim.

Zinət ərinin hiyləsini indi anladı:

— Oğlum, elə şey eləmə. Hər kəsin öz qisməti var... Hər halda, Əhəd dayın sənə pis məsləhət verməz.

Əhəd:

— İstəsən, bizimlə birlikdə yeyib-içərsən. Oğlumla keçib sənin otağında yatarsız. Elə istərdim ki, Cəfərin dostu sən olasan. O da axmaqlardan uzaq olar... Mən də arvadla bu otaqda yataram. Onsuz da sən təksən. Nə vaxt ev alarıq, onda da ata-bala kimi ayrılarıq...

— Mən çiyinlərimi çəkdim. Bir söz demədim.

Elxan Azəri yenə hekayətə müdaxilə elədi:

— Zinətin fikri nə oldu?

— Heç nə. Zinət ərinin sözünə sığal çəkdi. Dalğaları qarışdırmaq istəmədi.

Elxan Azəri:

— Savadsız adamların hiyləgərliyi.

— Mən də elə düşündüm, əfəndim...

Həmin gün mən onlardan çıxıb, yaxınlıqdakı parka gəzməyə getdim...

Bir aya yaxın mehriban yaşadıq. Gündüzlər qul bazarında işləyir, azdan-çoxdan qazandığımı gətirib Zinət arvada verir, hazırladığından bir loxma dadırdım; gecələr də Cəfərlə mənim otağımda yatırdıq. Bir axşam işdən qayıdanda gözlərimə inanmadım. Əhəd öz otağı ilə mənim otağımın arasındakı yan divarı söküb araya qapı qoymuşdu. Bunu görəndə, əfəndim, cin başıma vurdu. Əhədin hiyləsini anladım və dedim:

— Bu nə oyundu, Əhəd kişi? Ermənilə sənin nə fərqin oldu? Mənimlə buna görəmi yaxınlıq eləyirdin?

Əhəd dərhal:

— Həddini aşma, Rəşid. Səni kimdi otaqdan çıxaran? Bir də ki, mən bu qapını elə-belə qoymamışam. Komendant məsləhət bilib.

— Aydındı...

Zinət dərhal atıldı:

— Nə aydındı? Qarşına qoyduğum çörək sənə qənim olsun...

Daha danışmağa mənim dilim olmadı. Paltarlarımı götürüb yaxınlıqdakı yarımçıq tikintiyə getdim. Gözətçisi Teymur kişi ilə qarşılaşdım. Başıma gələnləri ona danışdım. O, acı-acı gülümsündü:

— Sən ayı ilə qarşılaşmısan, Rəşid. Artıq gecdi. Tüpür Əhədə də, arvadı Zinətə də, o otağa da. Gəl, bu axşam mənim yanımda qal, sabah...

— Otağı itirməyim yox, ömrünün son çağlarını yaşayan Əhədin xəyanətilə ermənilərin qan dolu cinayətləri arasındakı oxşarlıqlar, bəzən də eyniliklər mənim mənəvi gücümü sarsıtdı...

## Nişanəylə tanışlıq

Neçə gündə bir-birilərinə isinişən iki qohum hotelin restoranına düşüb yemək sifarişi verdilər. Elxan Azərinin əhvalı yüksək olsa da, Rəşid elə bil, nədənsə, daxili sıxıntı keçirirdi. Bu, Elxan Azərinin də diqqətindən yayınmadı. O, Rəşidi depressiyadan çıxarmaq üçün gözlənilmədən xidmətçini yanına çağırıb dedi:

— Bizə bir viski də gətir...

Xidmətçi: — Oldu, — deyib getdi.

Rəşid dərhal: — Mən içən deyiləm, əfəndim — dedi. Ancaq normasında içənlərə də pis baxmıram.

— Viski nədi ki, bizi kefləndirə. Bir balaca həm xoşhallıq yaradar, həm də söhbətimizə körpü salar.

Rəşid bir an dayandı, danışmadı, sonra: — Nə fikirləşirsən, əfəndim, deyirsən, ömrü boyu tutduğum orucu indi bu hoteldə açım?

Elxan Azəri Rəşidin gözlərinin içinə diqqətlə baxdı. Elə bir dəyişiklik hiss eləmədi. Nəsə düşündü. Qədəhi götürüb bir qurtum su içdi:

— Mən həkiməm, Rəşid, insan orqanizminə nəyin yaxşı, nəyin pis təsir elədiyini bilirəm. Viski içmək qəbahət deyil. Onun dinlə də heç bir əlaqəsi-filanı yoxdu.

Elə bu vaxt xidmətçi sifarişləri stola düzdü. Onlar yeməyə





başladılar. Arada Elxan Azəri qədəhlərə viski tökdü və: — Səninlə görüşümüzün şərəfinə, — dedi. — Mən bu qaynar, odlu-alovlu İstanbulda həmişə özümü tək və tənha hiss eləmişəm. Məncə, bundan sarsıntılı, bundan fəlakətli heç nə ola bilməz... Səninlə tanış olduğum, səni tapdığım üçün sevincimin hədd-hüdudu yoxdu. Mübaliğəsiz deyirəm: dünya mənimdi... Kimsə onu da yaxşı deyib: insan itirdiyini tapanda dincəlir. İndi görüşdüyümüz bu neçə gündə düşünürəm: səni yox, özümü tapmışam...

Rəşidin gözləri doldu. Xəyal onu ömrünün keçən çağlarına apardı. Acılı-şirinli xatirələri gözləri önündə birər-birər canlandı. Həyatın girintili-çıxıntılı anlarının ona bəxş elədiyi izlərə düşdü. Keçirdiyi əzablı-iztirablı günlər meteor parçası kimi parlamağa başladı. Nəfəsi ağırlaşdı. Niskilli xatirələri sanki nitqini dondurdu. Onu qəfil qamarlayan, qəm-qüssə gətirən bu hal nə idi? Onu hardan tapdı? Heç özü də düz-əməlli bilmədi... Gördüyü, şahidi olduğu bu hal onda insanlara olan inamı azaldır, bəzən də lap yerlə-yeksan eləyirdi. Fikir zənciri nə böyük şeydi. Adamı haralara aparıb çıxarır! Gah qəlbini riqqətə gətirən sevincli, gah da əzablı anlarla dolu aləmlə qovuşdurur. Gah qızılgül ətirli məskənə, gah da üfunət saçan girdaba atır...

Gözlənilmədən Elxan Azəri sual verdi:

— Xocam, Nişanə xanım da doğulduğumuz bölgədəndi? Əvvəlcədən onunla qohumluğunuz vardı?

Bu sualı eşidən kimi Rəşidin ruhu bir anlığa doğma Bakının ucqarlarında yerləşən kiçik həyətli balaca, on iki kvadratmetrlik birotaqlı mənzili necə kirayə götürməsi və orada bir müddət yaşaması üzərindən qanadlanıb keçdi.

Rəşid sualı sövqi-təbii qəbul elədi. Alatoranı andıran, dumanlı üzlüklərə bürünən xatirələrin işığında içi gah nurlandı, gah da zülmətə döndü.

Handan-hana dedi:

— Yox, əfəndim. Nə qohumuq, nə də eyni bölgədənik. Onun da öz həyat tarixçəsi var... Başım daim qalmaqallarda olub. Yataqxanadan çıxıb Nişanəgilin həyətində kirayə ev tutdum. O, ayıq-sayıq, qəti sözü, aydın fikri, yalan və məddahlıqdan uzaq Firuzənin yeganə qızıdı. Arvadını tərifləyən kişilərdən zəhləm gedir. Qulaq as, sənə ikinci hekayəti danışım.

— Buyur...

— Biz ilk dəfə tanış olanda Nişanə universitetdə oxuyurdu, müəllim olmaq istəyirdi. Hamı yuxuda olanda mən "Qul bazarı"na gedər, tay-tuşlarımla əl-ələ verər, axşamacan çalışar, axırda da qazandıqlarımızı qəpiyinə qədər ortaya qoyar, ata malı kimi bölüşər və hər birimiz payımıza sahib durardıq. Sonra işdən yorğun-arğın qayıdardım. Hər gün təkrar olunan bu yeknəsək, məşəqqətli həyat etiraf eləyim ki, məni bezikdirirdi. Evdarlıq, biş-düş işlərini bacarmadığımdan çox əziyyət çəkirdim. Qaçaraq necə gəldi, əlimə nə düşdü yeyirdim. Bəzən də yediklərim öz keyfiyyətini itirmiş olurdu. Gecələr də yatağıma daş kimi düşürdüm. Deməsələr də, onu da bilirdim ki, Firuzə xanımın da qonşuların da nəzarətindəydim. Çalışırdım, davranış və hərəkətlərimi ciddi nəzarətdə saxlayım. Özümü hamıya səmimi, mehriban, soyuqqanlı, düz, əlitəmiz... tanıdım. Həyətdə məndən savayı başıpapaqlı yox idi. Bu hərəkətlərim Firuzə xalada da, Nişanədə də məmnunluq hissi oyadırdı. Hər bir hərəkətimə adi hal kimi baxırdılar. Heç ağlıma gəlməzdi ki, münasibətlərimin belə xoş, ürəyəyatımlı axarı gələcəkdə həyatımın rövnəqlənməsinə imkanlar açacaq.

Günlər, aylar bir-birini əvəzləyirdi. Mənim də Füruzə xala ilə Nişanəyə olan münasibətim get-gedə istiləşirdi. Adi günlərdən biri idi. İşdən evə həmişəkindən tez gəldim. Əhvalım da yaxşı idi. Qazançanı qaz pilətəsinin üstə qoydum. Firuzə xala şam hazırlığımı görüb dedi:

— Rəşid, oğlum, nə yaxşı tez gəldin evə?





— Bu gün işi tez qurtardıq. Fikirləşdim, gedib dincəlim.

— Əcəb eləmisən. Neçə vaxtdı bir həyətdə yaşayırıq. Bircə dəfə... İstəyirəm, bu axşam birlikdə şam eləyək...

Mən tutuldum. Heç bir bəhanə gətirə bilmədim.

— Axı... Mən... Hazır deyiləm.

— Qırıq-qırıq danışma. Neyləməlisən? Keç içəri. Nişanəylə kiçik bacım Səyyarə də otaqdadılar. Xörək də hazırdı.

Elxan Azəri özünü saxlaya bilməyib gözlərini qıyaraq Rəşidə baxdı:

— Səncə, bu dəvət təmənnalı deyildi ki?

Rəşid qəti etiraz etdi:

— Yox... Qətiyyən...

Etiraz eləməyə lüzum qalmadığından mən dedim:

— Yaxşı gəlirəm, — deyib mənzilimə getdim. Güzgüdə üzgözümə baxdım, pırpızlanmış saçlarımı daradım. Yüngül ev paltarlarımı dəyişib kostyumumu geyindim və Firuzə xalagilə getdim. İçəri girəndə gözlərimə inanmadım. Zəngin süfrə açmışdılar. Süfrəyə bir neçə cür soyuq qəlyanaltılar, meyvə, meyvə şirələri... nələr, nələr düzülmüşdü. Nişanəylə Səyyarə divanda əyləşib söhbət edirdilər. Mənə elə gəldi ki, onlar qonaq gözləyirlər. Kimlərsə gələcəklər. Əks halda, bu qədər yemək-içmək hazırlamağa nə ehtiyac vardı? Mənim gəlişimi görən kimi xanımların hər ikisinin üzündə yüngül təbəssümqarışıq işıq yarandı. Salamlaşdıq.

Nişanə dedi:

— Gəlin, süfrə başında əyləşək.

Elə bu vaxt yan otaqdan Firuzə xala da gəldi və: — Xoş gəlmisən, Rəşid, — dedi. Elə bil, öz evindi, oğlum, sən burda qonaq deyilsən... Özünü sərbəst apar. Mən də sənin anan, Səyyarə xalan, Nişanə də bacındı. Sən namuslu, halal südəmmiş oğlansan. Deyə bilərsən, hardan bilirəm? Nəzərə al ki, bu həyətə gələndən mən də, qonşular da sənə göz qoyuruq.

Otağı gülüş səsləri bürüdü. Mən əvvəl çaş-baş qaldım. Sonra qəsdən zarafat elədim:

— Deməli, məndən xəbərsiz kəşfiyyat işləyir.

— Xəbərin olsaydı, iş kəşfiyyat xarakteri daşımazdı ki? Unutma, kəşfiyyat böyük qüvvədi.

Hamı güldü. Səyyarə astadan:

— Xanımların işi-peşəsi kəşfiyyatdı, — dedi və söhbətin istiqamətini dəyişdi:

— Hardansız?

— Münaqişə bölgəsindən, — deyə cavab verdim.

— Ailəniz böyükdümü?

— Yox... Hamısı şəhid olub.

Xanımlar heyrətlə üzümə baxdılar. Mən başımı aşağı dikdim. Səyyarə təəccüblə:

— Şəhid olublar?

Otağa ağır sükut çökdü. Elə bil karıxdılar. Kimsə səsini çıxarmadı. Handan-hana Firuzə xala dedi:

— Müharibə... Adamlara böyük fəlakətlər gətirir.

Mən dərhal:

— Dünya qanla qurulub. Qanla da dağılacaq.

Səyyarə:

— Həmişə şagirdlərimə deyirəm: uşaqlar, müharibə bəşəriyyətin düşmənidi. O, bəzi siyasilər üçündü. Biz dünyanın yaranışına tarixin hansı guşəsindən baxsaq, qan sızmalarını görərik.

Nişanə:

— Nə yaxşı sən canını qurtara bilmisən, Rəşid.

Mən dərhal:

— Kaş... Həyat çox keşməkeşlidi. Kimə nə nəsib olacağı əvvəlcədən bilinmir. Ata... Ana... Necə bacı... Neçə qardaş... Elə istərdim, onların yanında yatam. Hərdən elə bilirəm, doğulduğum torpaq məni səsləyir. Nə durmusan, gəl, deyir... O gün inanıram, uzaqda deyil. Mən hər axşam-səhər boğuluram. İntiqam hissiylə yanıram.





Nişanə:

— Sözündən belə çıxır ki, təzədən müharibə bölgəsinə? Səni düzmü başa düşdüm?

Mən:

— Hə, — deyə cavab verdim.

Səyyarə:

— İnsan da bu qədər vəhşi, qaniçən olarmı, İlahi?!

Nişanə:

— Mən də ağlıma sığışdıra bilmirəm.

Mən dözə bimədim:

— Gedəcəyəm. Milli əsgər formasında. Mənim gözlərimdə ölüm kiçilib, özü də çox... Kimsəsizlər üçün həyat çox çətindi. Ürəyimi açmağa adam tapa bilmirəm. Məni kimsə başa düşmür.

Firuzə xala söhbətin səmtini dəyişdi:

— Nişanənin doğum günüdü. Qazan qaynatdım, süfrə açdım, sevincimizi bölmək istədim, səni də dəvət elədim. Sağ ol ki, etiraz eləmədin.

Mən doğum günü ifadəsini eşitcək duruxdum, sonra: — Bəs, bunu mənə əvvəlcədən niyə bildirmədiniz, Firuzə xala — dedim. — Bilsəydim...

Nişanə:

— Neyləyəcəkdin? Gör, burda başqa adam varmı? Doğulduğum üçün kimdənsə hədiyyə gözləməliyəm? Anam tez-tez müxtəlif bəhanələrlə belə süfrələr açır. Adını da qoyur filankəsin doğum günü. İndi də elə. Qaldı sənin əsgərə getməyinə, düşməndən intiqamını almağına. Mən sənin vətənimizə olan məhəbbətini alqışlayıram. Mənim tələbə yoldaşım da hazırda cəbhədə vuruşur. Sorağı yaxşı gəlir. Az qalıram, hərdən mən də...

Səyyarə dik atıldı:

— Hə də, gör neyləyirsən! Kişilərimiz tır-tır elədi, qaldı qadınlarımız... Təhsil özü də bir cəbhədi. Təhsili əlindən alınan

xalq ölümə məhkumdu. Təhsilsiz xalqın nə dili, nə mədəniyyəti, nə də ruhu olar.

Nişanə:

— Mən səninlə mübahisə eləmirəm. Dediklərinlə də razıyam... Bəs vətənsiz?

Firuzə:

— Ağzınız qızışdı söhbətə, yemək yaddan çıxdı. Nəzərə alın ki, bütün günü əlləşib, sizə yemək hazırlamışam, soyutmayın.

Mən dərhal:

— Nə qədər yemək olar?

Nişanə:

— Səyyarə xalanın bişirdiyi tortdan yeməmək günahdı. Ölürəm tortdan ötrü.

Firuzə xala:

— Bu saat pürrəngi çay dəmləyib gətirirəm. Onun da dadına baxarsız, — dedi və cəld ayağa qalxıb mətbəxə keçdi. Nişanə stoldakı artıq qab-qacağı, qalan yeməkləri yığışdırdı. Səyyarə tortu süfrəyə gətirdi. Nişanəyə dedi:

— Gəl, tortu özün kəs.

Firuzə xala adama bir stəkan çay gətirdi. Nişanə kəsdiyi tortdan bir dilim boşqaba qoydu və mənə verdi.

Mən: — Bu qədər? — deyə mızıldandım.

Firüzə xala:

— Cavan oğlansan, bu nədi ki? Ye, Səyyarə xalana da nuş olsun.

Biz tortu həvəslə yeyirdik ki, Firuzə xala söhbətin səmtini dəyişdi.

— Rəşid, əməyini dəyərləndirirəm. Zəhmətsiz həyat zindandı. İnsanı əmək, alın təri ucaldır. Əslində, bu mənim sözüm deyil. Tarixi təcrübədir. Ancaq onu da fikirləşirəm ki, "Qul bazarı" səni üzər. Gündəlik iş... Sürüşüb yıxılmaq da, heç nədən xəstələnmək də var.





Mən cavab verdim:

— Neyləyim, Firuzə xala? İş yoxdu. Adamları tanımıram. Gedim kimə nə deyim? Bir də ki, "Qul bazarı"na təpik döyən tək mən deyiləm... Pul olmasa, yemək-içmək, geyim-keçim, dava-dərman da yoxdu. Gedib kimə əl aça bilərəm? Küçələri ölçməkdənsə, oğurluq eləməkdənsə, adamların qarşısını kəsməkdənsə, yenə "Qul bazarı"... Qazancıyla yaşayanın gözləri qıpıq olmaz. qazancsız adam ələbaxımlı olar. Belələrinin də axırı türmədi.

Səyyarə diqqətlə mənim üzümə baxdı. Sonra dedi.

— Ağıllı oğlansan. Gələcəyin var. Çalış tutduğun yolun damarını buraxma.

Söhbət uzanır, hərlənib-fırlanıb mənim həyatım, ailəm, arzularım üzərinə gəlirdi. Mən başımı qaldırıb, çaq-çuqla işləyən divar saatına baxdım. Əqrəblərin onu göstərdiyini görəndə təşəkkür eləyib ayağa qalxdım. Ev sahibləri də məni yola salmaq üçün durdular. Qapıdan çıxanda Nişanə tərəfə döndüm və: — Borclu borclunun sağlığını istər, — dedim. Nişanə söz altda qalmadı:

— Əvəzmi vermək istəyirsən?..

Hamı gülümsündü...

Rəşid bu hekayəti danışdıqca, Elxan Azəri diqqətini, demək olar ki, ondan nəinki yayındırırdı, əksinə, gözünü qırpmadan, çıqqırığını çıxarmadan onun üzünə baxırdı və hərdənbir üzündəki cizgilər gərilir, başını aşağı-yuxarı qaldırmaqla dediklərimə bəzən sifətinin gərilməsiylə, bəzən gülümsəməklə münasibətini bildirirdi.

Gözlənilmədən Elxan Azəri sakit tərzdə dedi:

— Xocam, bunlar hər bir insanın gündəlik həyatında qarşılaşa biləcəyi hekayətlərdi. Onu da bilirəm ki, istər kişi olsun, istər qadın, fərq eləməz, hamı həyatda can rahatlığı axtarır. Ona görə də hər kəs həyatını istədiyi kimi qura, istədiyi kimi yaşaya bilər.

Hamı buna təbii baxmalıdı. İncimə məndən, hekayətlərinə hərdənbir müdaxilə etmək və suallar verməklə səni — həyatımızın dibindən səs-sədası gələn yeganə qan qohumumu öyrənmək istəyirdim. Sən də çalış məni öyrən. Mən heç vaxt öyrənməni şəxsi həyatıma müdaxilə kimi dəyərləndirmərəm. Bu cəhətdən də mənim verdiyim suallara rica eləyirəm, müəmma kimi baxmayasan... Mənim Aliəylə ailə qurmağımın kökündə dünyalar qədər istədiyim, ruhunu daim başım üzərində təsəvvür elədiyim doğmaca dayımın zəmanəti dayanır. Bunun üçün dayımdan da, həyatımdan da çox razıyam... Xoşbəxtəm... Öyrənmək istəyirəm, səni Nişanəylə ailə qurmağa vadar eləyən nədi?

— Qarşılıqlı sevgimiz, diqqətimiz, təmənnasızlığımız. Bir-birimizi anlamağımız. Düşüncələrimizin eyniləşməsi. Ruhi yaxınlığımız. Bir çox nöqtələrimizin üst-üstə düşməsi, baxışlarımızdakı paralelliklər. Eyni cığırda səmtləşən istək və arzularımız... Onun gözəlliyi... Hərçənd ki, mən gözəllik deyəndə zahiri yox, batili gözəlliyi nəzərdə tuturam... Yenə deyim, əfəndim?..

— Yoox... Kifayət edər. İndi verəcəyim suala bu və ya digər cəhətdən cavab vermisən. Bu yaşda sizi bir-birinizə bağlayan tellər nədi?

— Sədaqətimiz. İki ruhun bir bədəndə əriyib qarışması.

— Sevinirəm... Sən xoşbəxtlərin xoşbəxtisən, Rəşid. Səninlə, sənin ailənlə fəxr eləyirəm. Bircə niskilim var, o da doğulduğum torpağı görmək, üstündə qürurla, vüqarla addımlamaq.

— İnşallah, o da sizə və bizə nəsib olar, əfəndim.





# Ruh

— Kim nə deyir-desin, kim nə düşünür-düşünsün... Əqidəm budu ki, Elxan abi, yuxu da bir həyatdı. Doğrudur, onu hamı eyni cürə qəbul eləmir. Kimisi yuxunu yalan sanır. Kimisi fantastika, kimisi də lap mənim kimi möcüzə bilir. Onu da anlamışam ki, nə qədər yuxulara inansan, o da sənə tərəf çox addımlayar. Əlqərəz, yuxular əhvali-ruhiyyəylə bağlıdır, ayıq-sayıq vaxtlar nə fikirləşsən, nələrə meyl eləsən, nələr səni özünə məşğul eləsə, yatanda da onların bu və ya digər əlaqələrini — ya kökünü, ya indiki anlarını, ya da gələcəkdə baş verə biləcək işartılarını, eyham vuracaq cizgilərini görürsən... Etiraf eləyim ki, onlar da var, abi. Zeynəb qarı "Aşıq gördüyünü çağırar" — deyərdi... Mən yuxuları da həyat sanıram. Onlar nəyinsə davamıdı. Nələrinsə köküdü, nələrinsə olacağını xəbərləyən instinkt hadisələrdi. Onların hər biri ayrılıqda insanı düşündürür. Nəyisə xatırladır. Nəyəsə rəvac verir. Kimisə ilhamlandırır... Güldürür... Fərəhləndirir... Kimdəsə xoş əhval yaradır... Bəli! Bəzən bunun əksi də olur. Kiminsə əhvalın pozur... Küskünləşdirir... Acıqlandırır... Ağrı-acı gətirir... Ağladır... Həyatda hər şey mümkündü... Abi, yuxuların yaranma mexanizmi barədə həkim yanında danışmaq bilirəm ki, mənimçün ən azından böyük qəbahətdi. İddialı fikir söyləməkdi. Sən bildiklərini saxla, mən danışıram, mən çox şeydən xəbərdaram deməkdi?

— Yox... Niyə ki? Hər kəs fikrində sərbəstdi. Elə bilmə ki, danışıqlarını candərdi dinləyirəm. Qətiyyən elə deyil. Yuxular barədə mənim də təsəvvürlərim dumanlıdı. Daha doğrusu, sıfra yaxındı... Mən, olsa-olsa, onun fizioloji cəhətləri barədə fikir söyləyə bilərəm. Məzmunu, nələri diqtə etməsi, nələrdən işartılar verməsi barədə söz deməyə acizəm. Hələ yuxuların nələrdən yaranmasını, məzmunu, istiqamətini, şiddət dərəcəsini öl-

çən elə bir cihaz kəşf olunmayıb. Doğrudur, bəzi kitablar yazılıb. Bəzi mülahizələr söylənilir. Düzünü deyim ki, onlar da mübahisəlidi. Eksperimentə əsaslanmayan mülahizələr əndirəbadi sözlər yığımıdı, həqiqətdən uzaqdı. Odur ki, yuxu ilə bağlı mənim fikirlərim boş və mənasız, uydurma və cəfəng söz-söhbətlərdən başqa bir şey deyil. Yuxuların məntiqi olmur. Məntiqsiz hadisənin ölçü-biçisindən də, meyarından da söz açmaq çətindi. Qəribəliyi ordadı ki, o heçdən yaranır, heçdən yoxa çıxır. Sahibi ilə hesablaşmır: Necə gəlir, necə gedir? Ağ-qaradı, ya əlvandı... Sarsıdıcıdı, ya xoş əhval təlqin edəndi... Deyəsən, xocam, mən də ölçüsüz-biçisiz danışıram, axı...

— Yox... Sözümün canı budur ki, mən uşaqlıq illərimdə tez-tez adi məişətlə bağlı bəzən fantastik yuxular görərdim. Səhər başımı yastıqdan qaldıran kimi də böyük həvəs və çaşqınlıqla anama danışardım... Elə ki, yaşadığımız el-obada azğın düşmən ara vermədən çaxnaşmalar saldı, ata-anamı öldürdülər, deməyə dilim də gəlmir, əlimdən aldılar, onda yuxularımın da səmti, istiqaməti dəyişdi. Başımı yastığa qoyanda müharibə, atışma, qaçdı-qovdular, ölümlər görməyə başladım. Qulaq batırıcı, qan dondurucu hay-qışqırıqlar, heyrətlər, həyəcanlar içərisində ata-anam göz yaşları axıda-axıda gəlib dururdular gözlərimin önündə. Deyəsən, düz demədim. Təkcə durmurdular, məni, bacı-qardaşlarımı od-alovlar, qasırğalar içərisindən çıxarmağa çalışırdılar. Səhər yerdən qalxıb yuxularımı gah bacı-qardaşlarıma, gah da Aslan babaya, Günəş nənəyə danışardım. Günəş nənə də mənə deyərdi: yuxunu harda, kimə gəldi danışmazlar. Yuxu görəndə suya söylə. Su təmizdi, su aydınlıqdı, su həyatdı... Əlqərəz qaçqın, köçkün həyatı yuxularıma da güclü təsir eləyib. Gah məni keçmişimə aparır, gah da gələcəyimi mənə diqtə eləyir. Sanki özüm də, yuxularım da kim tərəfindənsə idarə obyektinə çevrilmişik.

— Başa düşmədim, xocam.





— Nişanənin ad günündən yarım ilə yaxın bir vaxt keçmişdi. Gündəlik həyatım yenə əvvəlki kimi əzab-iztirab içərisində keçirdi. Özgə fikir ağlıma da gəlmirdi. Bir gecə əcaib yuxu gördüm. Nişanə gəlinlik, mənsə bəylik paltarındaydıq. Mən onun qoluna girdim. Ətrafımızda tanıdığım və tanıyanmadığım adamlar. Qara zurna çalınır. Əl çalan kimi, rəqs eləyən kim. Səyyarə xanım başımızdan ovuc-ovuc şirniyyat səpirdi. Göyərçinlər başımız üzərində həvəslə uçurdular.. Yaşlı qadınlar: — Oğullu-qızlı olsunlar, Allah xoşbəxt eləsin, — deyə-deyə bizi on iki kvadratmetrlik kirayənişin otağımıza qədər müşayət etdilər... Həyəcan, qan-tər içərisində oyandım. Başımı balıncdan qaldırdım. Handan-hana özümə gəldim. — Bu nə yuxudu — deyə düşündüm.

Elxan Azəri dərhal soruşdu:

— Rəşid, sən zarafat eləyirsən?

— Yoox... Nə zarafat, əfəndim.

— Sənin yuxun qarabasmaya oxşayır.

— Nəyə oxşadığını deyə bilmərəm. Həmin vaxtdan mən Nişanə barədə düşünməyə başladım. Hiss elədim ki, o da mənə laqeyd deyil... Aramızdakı məsafə getdikcə qısalmağa başladı... Oğrun hisslər... Xəlvəti pıçıltılar... Mülayim münasibətlər... Nələr... Nələr... Bir gün başa düşdüm ki, Firuzə xala nəsə anlayıb, mənə söz deməsə də, sən demə, qızıyla dönə-dönə ciddi söhbətlərə oturub da...

— Ağlını başına yığ, qız. Sənin ərə gedəsi vaxtın deyil, — deyibmiş də. O, səni başdan çıxarıb. Sabah atıb qaça bilər... İşsiz-gücsüz adamdı.

Nişanənin də ona cavabı belə olub:

— Yox, ana! Rəşid elə adam deyil. Mən ona inanıram. O təmizdi... Əxlaqlıdı... Ondan yaxşı ər, namuslu ailə başçısı olar...

— Özünü yığışdır. Dünya dağıla, səni ona verməyəcəm... Yazığım gəldi, bir dəfə onu evə buraxdım. Gör o neylədi? Zey-

nəb qarı burda deyib də: — Yetim, kimə təpik atarsan? Çörək verənə.

— Xeyr, sən düz demirsən. O heç kimin çörəyini yemir. Vaxtlı-vaxtında kirayə haqqını ödəyir... Məni ondan ayırmağa çalışsan, mən də bu evdən birdəfəlik gedəcəm...

Bu söhbət Firuzə xalanın inadlarına son qoydu. Onun mənə münasibəti mülayimləşməyə başladı. Mən də getdikcə onlara isinişdim. Bir gün Nişanəni qızıl mağazasına apardım və ona nişan üzüyü aldım. Bir müddət sonra Firuzə xalanın yaxın adamlarının iştirakı ilə kiçik ziyafət məclisi keçirdik və bununla da Nişanəylə ailə həyatımız başlandı. O, mənim ruhuma, varlığıma döndü...

## Əsgəri xidmət, yoxsa əks-kəşfiyyat

Bazar günü idi. İstanbul öz gündəlik axarında idi. Mən balkona çıxıb təmiz hava alırdım. Şəhərin qəribə, ağlagəlməz görkəmini müşahidə eləmək, onunla təmasda olmaq üçün zənnimcə iki göz bəs eləmir. Mobil telefonumu çıxarıb diqqətimi çəkən binaların, məscidlərin şəklini çəkirdim. Elə bu vaxt qapı döyüldü. Gedib açdım. Gələn Elxan Azəri idi. Doğrusu, onun gəlişini gözləmirdim. O, gözlərimin içinə baxıb gülümsündü. Mən onu otağa dəvət eləyib dedim:

— Əla... Gəlişin məni çox sevindirdi, əfəndim. Fikirləşirdim, bu günü tək-tənha necə başa vuracam. Şükür...

— Xocam, səninlə görüşümüz, söhbətlərimiz məni çox dəyişdirdi. Ürəyimi doğulduğum torpaq çəkir. Neçə illərdi o torpağın bircə ovucuna da həsrətəm. Atamın, anamın, bacı-qardaşlarımın ətri burnuma gəlir. İndi “tək-tənha” dedin. Elə bilmə ki, burda mən özümü tək-tənha sanmıram... Bir tərəfim yoxdu. Hərdən fikirləşəndə yalqızlaşıram. Özümü bədbəxt sanıram. Qaranquşlar hara uçsalar, haralarda qanad açsalar, axırda öz yuvalarına qayıdırlar. Yuvalarında rahatlanırlar. Qərib ölkə nə qədər yaxşı olsa da, insanın ürəyində vətən adlı bir məskən yaşayır. Gəldim ki, çıxaq “Gəzinti” parkına. Danışaq, içimizi boşaldaq.





— Hə, bu saat, — deyib Rəşid paltarlarını geyindi. Onlar sakit addımlarla aranı dağa, dağı arana qata-qata küçəylə üzüaşağı düşüb “Gəzinti” parkına gəldilər. Xeyli aşağı-yuxarı gəzdilər. Əlvan güllər, çiçəklər adamın gözlərini oxşayırdı. Böyüklərlə (nənə-babaları, ata-anaları, bacı-qardaşları ilə) təbiət seyrinə çıxan uşaqların səs-küyləri aləmi başına götürmüşdü. Gəzməkdən yorulanda Rəşid dedi:

— Sən cavansan, əfəndim. Mən yoruldum. Ayaqlarım sözümə baxmır... Bəlkə oturub adama bir stəkan çay içək? Özümüzə gələk?

Elxan Azəri:

— Sən məni qabaqladın. Boğazım susuzluqdan quruyur.

Onlar çayxanaya gəldilər. Küncdəki bir stola yaxınlaşıb, stullarda əyləşdilər, çay sifariş verdilər. Elxan Azəri gözlənilmədən Rəşiddən soruşdu:

— Xocam, sən əsgəri xidmətdə olmusanmı?

— Hə, ailə qurandan altı ay sonra. Əks-kəşfiyyatda qulluq eləmişəm.

— Səni ora necə götürüblər?

— Çox sadə. Uşaqlığım erməni uşaqları ilə birlikdə keçib. Neçə illər bir həyətdə yaşamışıq. Eyni məktəbdə oxumuşuq. Bir-birimizin ailəsində olmuşuq. Çörəyini yemişik. Can deyib, can eşitmişik. Bir-birimizin dilini, adət-ənənələrini, xislətlərini mənimsəmişik... Sonra nə oldu? Bizi vətənimizdən — evimizdən vurub çıxartdılar.

— Hə... O, erməni xislətidi. Əlacı kəsiləndə, zəifliyini hiss eləyəndə qulun olur, dırnağı ovcuna batanda ağalıq iddiasına düşür. İddiası da onu gec-tez məhvə düçar eləyir... Nə isə...

— Erməni dili bildiyimə və o yerlərə yaxşı bələd olduğuma görə məni əks-kəşfiyyata qəbul elədilər. Biz bu qrupda bir neçə nəfəriydik. Bizi təlimatlandırdılar. Onu da xatırladım ki, əfəndim, əks-kəşfiyyatçının hər anı ölümlə üz-üzə, göz-gözə durmaqdı. Bunu bilən bilir, bilməyən də bilsə yaxşıdı. Bu sözlərimlə heç də öyünmürəm. Sadəcə olaraq, vəziyyəti açıqlayıram. Nə qədər çətin olsa da adam alışır... Hər axşam növbəylə iki nəfəri kəşfiyyata yola salırdılar. Bəzən elə olurdu ki, dostlarımız geri qayıtmırdılar. Ya əsir alınırdılar, ya da gülləyə tuş gəlirdilər. Hamısı da cavan oğlan. Ailəli iki nəfər idik.

Biz əks-kəşfiyyatçılar düşmən hərbçilərinin bütün fəaliyyətini daim nəzarətdə saxlayır, yerdəyişmələrini izləyir, taktiki gedişlərini, silah anbarlarının yerini müəyyənləşdirir, düşmən əsgərlərinin sayını, silahların növünü, planlarını, hücumlarının vaxtını öyrənir və digər məxfi tapşırıqları yerinə yetirirdik.

— Çox çətin, mürəkkəb və təhlükəli işdi.

— Möhkəm yaddaş, dönməzlik, sarsılmazlıq tələb eləyir. Kiçicik səhv həyati təhlükədi...

— Bu məsələdə düşmənə nifrət də başlıca şərtdi.

— Bəli! Düşmən bizdə elə nifrət oyadıb ki, əks-kəşfiyyatda ölümü də xoşhallıqla qəbul eləyirik. Bu, qələbənin başlıca cəhətidi. Şəxsən xalqıma, ailəmə vurulan zərbələr məndə gün-gündən düşmən qanına hərislik yaradırdı. Düşünürdük ki, hər kiçik cəhdimiz itirdiklərimizin qisasıdır. Qisas yerdə qalmamalıdı. Biz təhlükə törətməsək, düşmən törədəcək. Qan almasaq, qan verməli olacağıq. Hansı təhlükəylə qarşılaşağacını əvvəlcədən görə bilməyən, düşmənin hiyləsini, məkrini duymayan əsgər can verər. Təkləndiyini təsəvvür eləyib əsir düşər. El-obaya inamını itirər. Kəşfiyyatçılar anlamalıdılar ki, tək deyillər. Kəşfiyyatçıların simasında dövlətin, millətin görən gözləri, eşidən qulaqları, düşünən beyinləri var. Himayəçiləri, mühafizəçiləri var... Biz əks-kəşfiyyatçılar, əfəndim, ayıq-sayıqlığımız nəticəsində neçə hücumun qarşısını almışıq. Düşməni tutduğu mövqedən geri oturtmuşuq. Neçə əsirimizi azad eləmişik. Biz əməliyyata — Vətən, xalq — deyə atılmışıq. Nailiyyətlərimiz hər dəfə bizə qol-qanad verirdi... Kəşfiyyatda ağlagəlməz hadisələr çox olur. Heç yadımdan çıxmaz, gecə üç-dörd radələri olardı. Əməliyyatı həyata keçirib sevinə-sevinə qayıdırdıq, həmkarım Əfsərlə. Necə oldusa, qəflətən yaxınlıqda mina partladı. Qulaqbatırıcı gurultu qopdu. Toz dumana büründü. Əfsərin tükürpərdici səsi aləmi bürüdü. — Öldüm, ana! — deyə iki dəfə qışqırdı. Özümdə elə bir ağrı, yara, sızıltı hiss eləmədim. — Əfsər, Əfsər, — deyə onu çağırdım. Handan-hana iniltilərini, ufultularını eşitdim. Dərhal anladım ki, Əfsər yaralıdı. Ayağa qalxıb ona köməyə getmək istəyirdim ki, avtomatdan, pulemyotdan açılan güllələr ətrafıma səpələndi. Əvvəl uzanıb başımı tutdum. Yan-yörəmdən mis rəngli güllələr şığıyıb keçirdi. Bir an qanım coşdu. Harda olduğumu unutdum. — Niyə yaşayırıq, ölmək ölməkdi, xırıldamaq nə deməkdi? — deyib Əfsərə tərəf atıldım. Onun qolundan tutmaq istədim. Qışqırdı: mənə toxunma, ölürəm; imkan olsa, bizimkilərə çatdırarsan, məni gözləməsinlər; heyf nişanlımdan, onu da bədbəxt elədim... Əfsərin dedikləri ürəyimi parçaladı. Mən onun başını qaldırıb üzündən öpdüm. — Tələsmə, qardaş, — deyib dalıma aldım. Əfsəri sürünə-sürünə atəş altından çıxarmağa çalışdım. Səhər ara verəndə istəyimə nail oldum. Bizi görən dostlarımız dəhşətə gəldilər. Əfsəri məndən alıb hospitala göndərdilər. Lap sonralar eşitdim ki, əziz həmkarım Əfsər elə hospitaldaca dünyasını dəyişib. O, cavan olsa da, hər şeyi anlayan, gözəl insan, sağlam vətənpərvər idi... Müharibədə bir idimi, iki idimi? Adi ov tüfəngiylə vuruşan cavanlarda bu qədər döyüşkən ruh hardan idi, bilmirəm.

Elxan Azəri dərindən nəfəs aldı. Gözləri doldu. Astadan dedi:

— Hardan olacaq, xocam? Milli qeyrətdən! Vətənə, xalqa

sevgidən! Bu, insanlara, xalqa xoşbəxtlik gətirən gücdü. Gərək o gücü özümüzdə saxlamağı bacaraq. Hər bir insanın idealı xalqdı, qüdrəti vətəndi. Gücü, qüdrəti, müqaviməti olmayan xalq özünü qoruya bilməz. Özünü tarixdən silər. Belə xalqlar, millətlər bəşər tarixində çox olub, xocam. Mübariz insan, döyüşkən xalq özünü də, elə tarixini də qoruyub saxlar.

— Biz çox qurbanlar vermişik, xocam.

— Qurbansız vətən, vətənsiz şəhid yoxdu. Vətən namusdu, qeyrətdi. Necə deyib şair: "Vətənsiz də insan olan, insan kimi yaşayarmı?".

— Nə yaxşı ki, indiki cavanlar bunu başa düşürlər, xocam. Bütün şəhərlərimizdə, kəndlərimizdə "Şəhidlər qəbiristanlığı" salınıb. O torpaqlarda qəhrəman oğul və qızlarımız əbədiyyətə qovuşublar. Onların hər biri cavanlarımıza örnəkdi. Ancaq məni yandıran tülki siyasilərin dələduzluğudu. Bizim başımıza açılan müsibətlər ölkənin azadlığına, müstəqilliyinə qəsddi.

O hadisədən bir müddət keçdi. Komandir əks-kəşfiyyatçı Həşim Balayevlə məni kabinetinə çağırtdırdı. Biz gəlib eyni anda ayağımızı cütləyib sağ əlimizi qulağımızın dibinə apararaq: — Tapşırığınıza hazırıq, — işarəsini verdik və qarşısında müntəzir dayandıq. Komandir bizi ayaqdan başa süzdü. Sonra astadan: — Əyləşin, — dedi. — Mühüm tapşırıq almışıq. Düşmən yaxın zamanda hücuma hazırlaşır. Biz də bu hücuma qarşı ciddi fəaliyyət göstərməliyik. Silah anbarlarının yeri, hücumun vaxtı və istiqamətləri barədə əlimizdə operativ məlumat olmalıdı...

Komandir böyük dəmir seyfi açdı. Stolun üstünə iki tapança, dörd qumbara, iki partlayıcı qoydu və əmr etdi:

— Götürün... Gedin dincəlin. Gecə yarı əks tərəfin sərhəd postuna yaxınlaşıb gözətçiləri sakitcə aradan götürsəniz, qarşınızda düşmənin hərbi hissəsinə gedən yol açılmış olacaq. Ehtiyatı əldən verməyin. Sizə uğurlar olsun...

Həşim Balayev müharibə bölgəsinə bələd olsa da, erməni dilini mükəmməl bilsə də, kəşfiyyat işində naşı idi. O, heç vaxt kəşfiyyatda olmamışdı. Davranışlarından da sezilirdi ki, qorxur, ciddi həyəcan keçirir. Mən ona ürək-dirək verməyə başladım: — Qorxma, Həşim, mən belə kəşfiyyatlarda olmuşam. Çox çəh-çöhrə düşmüşəm. Müharibədə belə tapşırıqlar olur. Çalışaq, vəzifəmizin öhdəsindən layiqincə gələk. Əks halda, həm torpaq itirərik, həm də əsgərləri qırğına verərik. Sonra bunu özümüzə bağışlaya bilmərik...

Həmin gün biz çadıra çəkildik. Tapşırığın çətinliyindən xəbərsiz Həşim yatıb dincəldi. Məni yuxu heç cürə aparmırdı, hey başımda planlar cızdırım. Öz arqumentlərimə qarşı düşmənin də əks arqumentlərini qoyurdum. Onu da özlüyümdə götür-qoy eləyirdim ki, düşmən də yatmayıb. Onlar da fəaliyyətdədilər. Düşmən postuna yaxınlaşmağın hər anı ölümdü... Uğursuz kəşfiyyatdı. Bu isə torpaqlarımızın işğalı üçün böyük təhlükədi... Deyəsən, səni yordum, əfəndim.

— Yox. Qətiyyən... Mənim üçün də maraqlıdı. Sənin başın nələr çəkməyib, xocam?!

— Təkcə mənim başım yox... Ölkə... Xalq... Doğma el-obamız...

— Sənin danışdıqların mənə möcüzə kimi gəlir, xocam. Necə olub ki, dəhşət doğuran bu hadisələrdən xəbərsiz olmuşam. Xalqımın, vətənimin, doğmalarımın çəkdikləri əzabları lazımınca duymamışam. Yuxulu olmuşam.

— Sən onları əvvəla, uzaqdan-uzağa duya da bilməzdin. İkincisi də, sən uşaq olmusan. Əzabları duymaq üçün gərək onun içində olasan. Onunla təmasa girəsən. Qəribə hal idi ki, cəbhədə baş verən hadisələr ictimaiyyətdən çox vaxt gizlədilirdi. Həqiqət əvəzinə uydurulmuş hadisələr şərh edilirdi. Yalançı şərhləri, çaşdırıcı və sapdırıcı yalanları niyə verirsiz deyə soruşduqda, min bir bəhanə gətirir, hətta, dövlət sirri kimi qələmə verirdilər... Əlqərəz, gecə yola çıxdıq. Qaranlıqda göz-gözü gör-

mürdü. Özününəzarətdəydik. Təsadüfi addım atmırdıq. Yüz ölçüb, bir biçirdik. Biz posta çatdıq. Postda hərbçilər çox idi. Onların çoxluğunu görəndə hiss etdim ki, Həşimin həyəcanı daha da artdı. O, mənə xısıldadı:

— Qumbara atmaq olarmı?

— Yox... Əvvəla, onlarla aramızdakı məsafə çoxdu. İkincisi də, çoxdular. Bir-ikisini zərərsizləşdirsək də, özümüz xilas ola bilmərik. Avtomat güllələri ilə deşik-deşik eləyərlər bizi.

— Bəs neyləyək? Qərarın nədi?

— Postu dağıtmaq, gözətçiləri aradan götürmək, hərbi hissəyə gedən yolu açmaq... Başlıca işimiz hərbi hissədəki məlumatları toplamaqdı. Əsası qeyri-əsasa qurban verə bilmərik. Bir yol qalır. O da postdan yan keçmək. Salamat qayıdarıqsa, istəyimizə nail olarıqsa, qayıdanda post əməliyyatını da həyata keçirərik.

Elxan Azəri özünü saxlaya bilməyib soruşdu:

— Xocam, sən kəşfiyyat məktəbində oxumusan?

— Yox...

— Bəs, bunları hardan bilirsən?

— Təcrübədən. Yaranmış vəziyyətə şüurlu və məntiqi münasibətdən...

— Mən deyərdim, sən əsl kəşfiyyatçısan...

— Az-çox bacarığım olmasaydı, məni kəşfiyyat qrupuna daxil etməzdilər ki...

— Davam elə söhbətinə, xocam.

Biz hərbi postdan yan keçdik. Maneəsiz-filansız addımladıq. Zəruri faktları topladıq. Geri qayıdanda təhlükə hiss eləyib çığırımızı dəyişdik. Sərhədimizə çatırdıq ki, gözlənilmədən atəş altına düşdük. Sürünə-sürünə su kanalına tərəf getdik. Payızın son ayları olduğundan su buz kimi soyuq idi. Biz özümüzü suya atdıq. Suyun axarına üzməyə başladıq. Xeyli uzaqlaşdıq. Soyuq su az qala, bizi donduracaqdı. Atəş səsləri bir azdan ara verdi. Biz sudan çıxanda Həşim tir-tir əsirdi. Dili söz tutmurdu. Qızınmağa da yer yox idi. Məcbur olub soyunduq. Paltarlarımızın suyunu sıxdıq. Onda Həşim dedi:





— Rəşid, yaş paltarları geyinsək, daha çox üşüyəcəyik. Necə fikirləşirsən, bəlkə qaçaq? Onda isinə bilərik. Əks halda, sətəlcəm olacağıq.

Həşimin sözləri ağlıma batdı. Qaçmağa başladıq. Səhər açılanda öz hərbi hissəmizə çatdıq. Bizə dərhal isti paltar geyindirdilər. Həkim müayinəsindən keçdik...

Dinməz-söyləməz söhbəti dinləyən Elxan Azəri heyrət içərisində Rəşidə baxırdı. Rəşid dərhal:

— Bəli, əfəndim, belə-belə işlər. Görmədiyim çətinliklər yoxdu. Mən lap uşaqlıqdan qar-şaxta, od-alov içərisində doğulmuşam, ərimişəm, xarakterim dəyişib, kristallaşıb.

— Səni başa düşürəm, xocam. Ağır, cəfa gətirən hadisələr səni daim çalxalayıb. Həyat belədi, kimisinə şəkki-şəkər yedirir, kimisinə də incimə məndən, zəhər. Nə olsun ki, mən İstanbuldayam, işləyirəm, ömür sürürəm, axı, mənim nəslim-köküm məhv olub. Bizə nəsib olan həyat kimə gərəkdi? Neçə gündü sənin söhbətlərini dinləyirəm. Danışmasam da, münasibət bildirməsəm də, için-için qırılıram, dağılıram... Özünü üzmə, Rəşid, balalarımız varsa, deməli, həyat davam edir. Nəslimizin kökü üzülməyib. Bizi qarşılaşdıran, görüşdürən Allahımıza şükür eləyək...

## Gizir, yoxsa polkovnik

Bəzən adam gözləmədiyi, ağlına sığışdıranmadığı müəmma doğuran hadisələrlə qarşılaşır. Adam keçdiyi yola qanrılıb baxır və özü də öz hərəkətlərinə mat-məəttəl qalır. Oturub-durub fikirləşirsən, bu nə idi? Bu niyə belə oldu? Bu yaradanımın mənə bəxşişidi, yoxsa cəzası? Qismətimə düşənlər mənə Allahımın sevgisindən yaranır, yoxsa nifrətindən?

Axşamdan tapşırıq almışdıq. Gecə əməliyyat keçirməli idik. Günortadan sonra yatıb dincəlmək istədim. Çarpayıya uzansam da, yuxum ərşə çəkildi. Sanki yatağıma qor tökülmüşdü. Elə bil, nəsə məni didirdi. Hey o tərəf-bu tərəfə çevrilirdim. Çevrildikcə də əsəbiləşirdim. Birdən elə bil, məni hal apardı. Gözləri yaşlı, ikicanlı Nişanə gəlib gözlərimin önündə dayandı. O, mənə məyus-məyus baxırdı. Dərhal həyəcan içərisində ayıldım. — Bu, nə yuxudu? — deyə düşündüm: — Yenə möcüzəli yuxu... Nişanə nədən məyusdu?.. O, doğrudan da, ikicanlıdımı?.. Yataqdan qalxıb çarpayının içində oturdum. Ara vermədən sabahkı səfərimiz barədə düşündüm.

Səhər yataqdan qalxanda gözlərimə inanmadım. Neçə gün idi ki, gecə-gündüz üst-üstə qalaqlanan qar bəxtimizdən kəsmişdi. Ancaq hər tərəf ağ xalatı andırırdı. Ayaq basan kimi adam dizəcən qara batırdı. Ağacların nazik budaqları utancaq, nədənsə xəcalətli, şıltaq uşaqlar kimi başını aşağı dikmişdi. Balaca, yem axtaran sərçələr şilvərlərin üstə qonub tüklərini pırpızaqladaraq çivildəşirdilər. Elələri də vardı ki, damların girəcəklərində, eyvanlarda yem axtarırdılar... Üfüqdən boylanan günəşin zərif və ılıq nəfəsi qarları əridir, damcılara çevirir, onlar da şarap-şurupla öz ahəngini pozmadan yerə tökülürdü. Mənə elə gəldi ki, gündüzün bu aldadıcı havası gecənin şaxtalı olacağını vəd eləyirdi. Şaxtalı, boranlı gecə kəşfiyyatı bizim üçün həm yaxş idi, həm də pis. Yaxşı idi ona görə ki, düşmənin soyuqdan titrəyən əsgəri donmaqdan, xəstələnməkdən qorxub "cəhənnəmə olsun hər şey" deyə məsuliyyətini unudaraq başını isti yerə soxmağa, canını qızdırmağa çalışacaqdı. Pisi o idi ki, şaxta, boran bizi təntidəcək, ayağımızı hara götürüb-qoyduğumuzu bilməyəcəkdik... Nəticədə özümüzü itirəcəkdik... nə elədiyimizin fərqinə varsaq da, varmasaq da zərbə altına düşəcəkdik. Bəli, ehtimallar çox... Dəqiq mülahizə çıxarmaq müəmma... Nə isə... Əfəndim, bəlkə də bu dediklərim lüzumsuzdu. Fikirləşə bilərsən ki, o söhbətləri





dinləməyimə vaxt sərf etməyə dəyərmi?

— Nə danışırsan, xocam. Sənin dediyin hər söz, hər kəlmə mənə əzizdi. Ona görə yox ki, onlar sənin dilinlə ifadə olunur, ona görə ki, o tale mənim vətənimindi, xalqımındı, el-obamındı, doğmalarımındı. Onlar həm mənim, həm də sənin qan yaddaşımızdı. Xahiş eləyirəm, xocam, çalış hər şeyi mənə təfərrüratıyla danış... O iztirabları, niskilli hissləri, duyğuları mən də yaşamaq istəyirəm. Yalvarıram, bildiklərini əsirgəmə məndən.

Rəşid dərin fikrə getdi. Hiss olunurdu ki, o, beynində nələrisə götür-qoy eləyir... Boğazını arıtlayıb dedi:

— Həmin gecə Rahiblə yola çıxdıq. Tapşırığı yerinə yetirdik. Qayıdanbaş ac canavar sürüsü ilə qarşılaşdıq. Dəhşətli mənzərə yarandı. Onların hər birinin gözləri parıldayırdı. Biz çömbəlib oturduq. Canavarlar bizdən bir az aralıda dayandılar. Rahib dedi:

— Biz nə ilə qarşılaşdıq, Rəşid. Bunlar heç nəyə baxmayacaq, bizi didib-dağıdacaqlar... Ac yalquzaq hər şeyə gedir.

— Ehtiyatlı ol, Rahib. Onlara atəş açsaq, düşmən güllələri başımıza yağdıracaq. Hər şey alt-üst olacaq.

— Canavarın dişində ölməkdənsə, gülləylə...

— Yox... Ağıllı ol. Çıxmayan cana ümid çoxdu.

Elə bu zaman canavarlardan biri uladı. Rahib dərhal: — Əclaf həmkarlarını köməyə çağırır, — dedi: — Həyatımızın son anlarını yaşayırıq.

Çox çəkmədi ki, bir neçə canavar da gəldi. Rahib tamam özünü itirdi. Hiss elədim ki, nə qədər "səbrli ol", "döz" desəm də fikrindən dönməyəcək. Canavarlar sağdan-soldan bizə hücuma keçir, qarşımızı kəsirdilər. Hiss olunurdu ki, bir yerə toplaşan canavarlar qəflətən bizi yaxalayacaqdılar. Gözlənilmədən Rahib mənə: — Yat aşağı! — əmrini verdi və əlindəki qumbaranı yalquzaqların topasına atdı. Bir göz qırpımında mənzərə tamam dəyişdi. Başımı qaldıranda canavarları görmədim. Mən Rahibə yaxınlaşmaq istəyirdim ki, avtomatların, pulemyotların şaqqıltısı

qulaqlarımda gurladı. Mən yerə yatdım. "Rahib, Rahib" — deyə çağırdım. Rahibin səs-səmiri çıxmadı. Məni dəhşət bürüdü. Qar işığında hər tərəf apaydın görünürdü. Məndən az aralı Rahibin meyidi, ondan da on-on beş metrlikdə dörd canavarın cəsədi yerə sərili qalmışdı. Bir də hiss elədim ki, sağ qıçımın baldır hissəsini isti bürüyür. Anladım ki, yaralanmışam. Birtəhər Rahibin meyidinə yaxınlaşdım. Onun soyumaqda olan üz-gözündən öpdüm. Öldüyünü qətiləşdirdim. Nişangah olsun deyə, qarla Rahibin üstünü basdırdım. Sonra yanındakı yulğun topasının başına da corabımı bağladım. Əlacsız qalıb, qalın qarın üstündə sərhədə tərəf süründüm. Nə qədər gəldiyimi deyə bilmərəm. Gözlərimi açanda özümü hospitalda gördüm. Ağ xalatlı cavan oğlanı — Vahid həkimi gördüm. Onun ilk sözü bu oldu:

— Yaxşı qurtarmısan, gizir. Qorxma, həyat davam edir.

Tibb bacısı Aytənin bəbəklərində yaş gilələnmişdi... Onda anladım ki, üç qəlpə sağ qıçımın bud nahiyyəsinə, bir qəlpə də kürəyimə giribmiş. Bud nahiyyəsindəkiləri həkimlər çıxarsalar da, kürək nahiyyəsindəki qəlpəyə toxuna bilməmişdilər. O qəlpə indi də mənimlə birlikdə öz ömrünü yaşamaqdadı.

— Nə danışırsan?

— Bəli!

— Günü sabahdan onu da...

— Yox... O qədər də əziyyət vermir... O da mənim qismətimdi. O müdhiş gecənin şahididi. Şahidi aradan götürmək, məncə, insafsızlıqdı. Hospitala düşdüyüm günün axşamı Firuzə xala, Səyyarə xanım və Nişanə məni yoluxmağa gəldilər. Yaxşı yadımdadı, o zaman hərarətim olduqca yüksək idi. Heç vaxt məni xəstə görməyən gülərüz Nişanə indi göz yaşlarını saxlaya bilmirdi. Mən dedim:

— Nişanə... Əzizim, ikicanlı olduğunu hiss eləmişəm. Axı, sən müharibə nə olduğunu bilirsən? Müharibədə tum çırtlamırlar. O idman yarışı da deyil. Axı, mən gizirəm.





— Sən gizir yox... Mənim üçün polkovniksən, — dedi və hönkür-hönkür ağladı. Firuzə xala ilə Səyyarə xanım dözməyib palatadan çıxdılar. Nişanə göz yaşlarını axıda-axıda üz-gözümdən öpdü və dönə-dönə: — Mənim polkovnikim, — dedi. O vaxtdan adım polkovnik kimi qaldı...

Elxan Azəri qəhqəhə çəkdi:

— Xocam, sən doğrudan polkovnik deyilsən?

— Yox. Gizirəm.

— Adə... Mən də Aliəyə basıb-bağlayıram ki, xocam ehtiyatda olan polkovnikdi.

— Əfəndim, gizir də, polkovnik də adamdı. Hər ikisi hərbi rütbədi. Şəhid olan gizir də, polkovnik də bir torpağa tapşırılır... Aldığım yaralara və kürəyimdəki qəlpəyə görə mən ordudan tərxis olundum. İndi mənim üçün fərq eləməz: gizirəm, yoxsa polkovnik.

## Palataya qayıdış

Cəmi-cümlətanı üç dəfə xanımı ilə reanimasiya otağında görüşüb bir neçə kəlmə kəsən Rəşid səhər sübhdən bazara gedib təzə, tər, əlvan gül dəstəsi bağlatdı və xəstəxanaya gəldi. Onun gözündən sevinc, xoşbəxtlik duyğuları yağırdı: Öz-özünə: — Allahın mənə, balalarıma yazığı gəldi, — dedi.

Aradan xeyli keçdi. Qapı ağzında ayağının birini götürüb o birisini qoyurdu. Xəstəxana işçiləri növbələrini dəyişirdilər. O, özünü saxlaya bilməyib yanından ötməkdə olan tanımadığı tibb bacısından soruşdu: — Nişanəni reanimasiya otağından palataya nə vaxt köçürəcəklər, bilmirsiz, xanım?

— Həkimi gəlsin, ondan soruşun, o bilər.

Rəşid: — Hə, — deyib, geri çəkildi. Həkimin gəlməsini gözləməli oldu. Edə bu vaxt Çiçək reanimasiya otağına yaxınlaşdı. Rəşid onu qabaqladı. Tibb bacısına verdiyi sualı ona da verdi.

Həkim dərhal:

— Yoxlayaq, vəziyyətini öyrənək, sonra.

— Bu gün keçirilməyə bilər?

— Deyə bilmərəm.

Rəşidin hövsələsi daralırdı. Aradan xeyli keçdi... Nişanə günortaya yaxın palataya köçürüləndə ərinin gül dəstəsiylə qapının ağzında dayandığını gördü və solmuş sifətində ani bir işıq yarandı. Qadının çuxura düşmüş gözlərinin dərinliyində sevinc duyuldu. Onu palataya yerləşdirdilər. Həkim: — Biz fikirləşdiyimizdən də yaxşıdı. Bir neçə gün də nəzarətimizdə qalsın, möhkəmlənib özünə gəlsin, sonra gedərsiz, Rəşid bəy, — dedi. — Ürək döyüntüləri, qan təzyiqi normaldı. Ancaq bir müddət dieta saxlamalıdı. Hələlik orqanizmi gücə salmaq fəsadlara gətirib çıxara bilər. Tibb bacıları neyləmək lazım olduğunu bilirlər. Onlarla razılaşmaq, tövsiyələrinə əməl eləmək gərəkdi. Özüm də hər gün əlaqə saxlayacam. Professorun da diqqətindədi. Xəstələrin hamısı bizə əzizdi. Qonaq olduğunuz üçün siz...

Ər-arvad hər ikisi eyni vaxtda: — Oldu, — deyib, həkimlə razılaşdılar.

Həkimlə tibb bacısı palatadan çıxdılar. Otaqda kimsənin olmamasından istifadə eləyən Rəşid: — Nişanə, bu neçə gündə vallah, dəfələrlə, — sayın da itirmişəm — ölüb-dirilmişəm, — dedi.

Nişanə ərinin kövrəldiyini duyub zarafat elədi:

— Yaxşı... Yaxşı... Az kövrəl. Belə getsə...

— Əşi, arvadın xəstələnməyindənsə, kişi...

— Ağzın isti yerdədi... Af-ufun dünyanı götürərdi... Yaxşı, uşaqlardan, anamdan nə xəbər?

— Telefon ara vermir ki? Gah anan, gah Fəridə, gah da Fərid hey soruşurlar: vəziyyət necədi; reanimasiya otağından nə vaxt çıxır; halı zəifləməyib ki; nə vaxt gəlirsiz?..

Nişanə astadan, zarıltılı səslə: — Qurban olaram onlara. Onlarsız kiməm ki?





— Hə... Məktəbdən, rəfiqələrindən hər gün telefon açırlar, narahat olduqlarını bildirirlər.

— Sağ olsunlar... Yaxşı, bayaqdan məndən danışırsan. İndi özündən de. Mənsiz necə dolanırdın?

— Necə dolanacam? Sən tək — reanimasiyada, mən də çöldə. Sən zülmətdə, mən işıqda. Döz dözə bildikcə... Sağlıq olsun, sağal xəstəxanadan çıx, danışarıq. Elxan Azəriylə söhbətimiz tutdu. O, məni tək qoymadı.

— Sağ olsun...

— Başımıza gələnlərdə oxşarlıq çoxdu. Hər ikimiz Qərbi Azərbaycandanıq. Hətta eyni kənddə doğulmuşuq. Onun babası Aslan kişinin, nənəsi Günəş qarının himayəsi ilə yaşamışıq.

— Sən nə danışırsan? Belə təsadüfi qarşılaşma, tanışlıq olar?

— Bilmirəm. Burda, doğrudan da nəsə sirr var, Nişanə.

Nişanə ani fikrə getdi və onun üzündə zəif işıq yarandı. O, başını balınca qoydu və üzünü ərinə tərəf döndərdi:

— Bir az da yaxınlaşsanız, qohum çıxacaqsız.

— O da var, hələlik demək istəmirdim.

— Zarafat eləmə.

— Nə zarafat? Danışdıqlarım nə qurama, nə də uydurmadı, əzizim. Çox güman ki, Elxan Azəri də hələ ogünkü tanışlığın təsiri altındadı.

Araya dərin sükut çökdü. Yorğunluqdanmı, halsızlıqdanmı, dərmanların təsirindənmi Nişanə yuxuya daldı. Yersiz müharibəni, çaxnaşmaları, ölüm, qan düşərgəsini, bütün uşaqları bacı-qardaşlarının timsalında görən Rəşid ürəyi sıxıldığından ayağa qalxdı, barmaqlarının ucunda pəncərəyə tərəf getdi. O, pəncərədən baxanda çox şey gözlərində düşündüklərindən fərqli göründü. Hər şey solğun, hər şey miskin, hər şey eybəcər, ölgün...

Handan-hana Rəşid qayıdıb kresloda əyləşdi. Başını qolları arasına aldı. Ürəyində göynərti, başının dərisində keyimə hiss

elədi. O, uzun, neştərə bənzər barmaqları ilə saçlarını yoluşdurmağa başladı, bundan sonra bir az sakitləşdi, özünə gəldi... Hiss olunurdu ki, Elxan Azəriylə aralarında gedən dağdan ağır söhbətlər onu çalxalayırdı. Çalxaladıqca da söhbətin ağır anları sinirlərinə toxunurdu. Səssiz-səmirsiz götür-qoylar, erməni fitnəkarlarına nifrət və qəzəb az qalırdı içini dağıtsın... O, düşünə-düşünə başını kreslonun arxa söykənəcəyinə söykədi və uşaqlıq xatirələrindən uzaqlaşmasın, baş verən hadisələrlə, törədilən cinayətlərlə yenidən təmasda olsun deyə, gözlərini əvvəl tavandakı bir nöqtəyə zillədi, sonra yavaş-yavaş göz qapaqları örtülməyə başladı... Nəhayət, onu da yuxu apardı. Çox çəkmədi ki, yüngül xorultusu eşidildi. Nişanə xorultu səsinə oyandı və astadan öz-özüylə danışırmış kimi mızıldandı:

— Əsəblərini korlamışam... Barəmdə çox fikirləşirsən. Bilirəm, Elxan əfəndiylə də danışıb o dözülməz, unudulmaz keçmişini xatırlamısan... Sənə yazığım gəlir, polkovnik. Sən burda dincələ bilməyəcəksən... Bəlkə hotelə gedəsən? Orda yatıb özünə gələsən... Sənə necə deyim ki, keçmişini unut... Bəyəm, mən deməklə o unudularmı? Yaddan çıxarmı? Lap tutalım dedim. Barəmdə nə düşünərsən, deməzsənmi ki, sən nə əcaib-qaraib adamsan?.. O keçmişdə mənim əzizlərim, onların ruhu məskən salıb... Onların da hər birinin yaşam istəyi, yaşam arzuları vardı. Desəm, polkovnik qırılar məndən...

Elə bu vaxt kimsə qapını açdı və şaqqıltıyla örtdü. Onda Rəşid diksindi və yerindən atıldı:

— Buyurun... Buyurun...

Nişanə dərhal:

— Yəqin tibb bacısıdı... Yatmış gördüyündən səni narahat eləmək istəməyib, — dedi.

— Deyəsən, səni də mən oyatdım. Yatmağa qoymadım, Nişanə.

— Yox... Bir az var oyandığım. Lap qaz kimiyəm, gözümə





yuxu gedər-getməz oyanıram. Görünür, o da əməliyyatın, narkozun, dərman-davanın təsirindəndi.

İcazəsiz-filansız tibb bacısı palataya girdi. Salam verib Nişanənin halını xəbər aldı. Sonra üzünü Rəşidə tutdu:

— Xanımınızı çox istəyirsiz, əfəndim? Sevgi belədi də.

Nişanəylə Rəşid bir-birilərinin üzlərinə baxıb gülümsündülər. Rəşid çiyinlərini çəkdi. Nişanə dərhal cavab verdi:

— Sevgisiz nə həyat, xanım? Sevginin hədiyyəsi gözəllikdi. Bir də yaşantılı həyat.

Tibb bacısı:

— Ooy... Xoşbəxtsiz, — deyib, üzünü Rəşidə tutdu:

— Sizə çay, yoxsa qəhvə gətirim?

— Yox, xanım. İçmirəm.

— Gərək ki, bir dəfə də sizə xatırlatmışam, xərcini xəzinəyə ödəmisiz.

— Nəfsim çəkmir.

Tibb bacısı Nişanəyə göz-qaş oynadaraq:

— Xanım, deyəsən, ərinizi də özünüzə oxşatmısız?

Söz altında qalmayan Nişanə üzüntülü səslə dedi:

— Ər-arvad — torpağımız bir çüxürdan götürülüb.

— Necə? Necə? Torpağınız bir çuxurdan?.. Düzmü anladım.

— Hə... Elə olmasa, ərlə arvadın birgəyaşayışı baş tutmaz, xanım.

Tibb bacısı çiyinlərini çəkib getdi. Nişanə:

— Özümün də zəhləm gedən vasvasılıq mənim ən pis xüsusiyyətimdi, polkovnik.

— Vasvasılıq kimdə yoxdu ki?

— Hərdən bu xasiyyətimi mənə xatırladanlarla razılaşmasam da, onu gizlətməyə, büruzə verməməyə çalışsam da, bilirəm ki, o məndə var. Özüm də onu axmaqcasına, ciddi-cəhdlə dəbbələməyə çalışıram. Söhbətin məzmununu, istiqamətini dəyişib özümdən qəribə macəralar uydururam. Bir sözlə, hamının diq-

qətini əcaib hərəkətlərimdən, zəhlətökən sözlərimdən uzaqlaşdırmağa səy göstərirəm.

— Hamı sənin kimidi. Fikir eləyib özünü çarmıxa çəkmə, əzizim.

— Doğrusu, ona nə dərəcədə nail oluram, deyə bilmərəm, polkovnik.

— Sənə tam məsuliyyətlə deyirəm, elə mübarizələr hamının məğlubiyyətiylə nəticələnir.

— Rəşid, birgə yaşayışımız dövründə mən var gücümlə çalışıram ki, sənə əzab-işgəncə verən uşaqlıq çağlarından, acı, zəhlətökən hisslərdən mümkün qədər uzaq olasan. Elxan Azəriylə görüşün hiss eləyirəm ki, qaysaqlanmış yaralarının üstünü qoparıb. Qan sızan yerlərinə də, Allah bilir, duz səpib. Bir sözlə, özü də bilmədən mənim çalışmalarımın əksinə gedib Elxan Azəri. Biz insanıq. Yaşam üçün ətrafımızda, lap elə ailəmizdə, şəxsi həyatımızda baş verən şeylərə bəzən biganə olmalıyıq. Biz gələcək həyatımızın müqəddəratını özümüz həll eləmək iqtidarındayıq. Bir tərəfdən alan Allah o biri tərəfdən bizə çox şey verib. Ölənlərlə ölmək olmur. Xatirələrdən də bacardığımız qədər yan keçməyi bacarmalıyıq. Mən sənə dərs vermək, pedaqoji mühazirə oxumaq fikrindən çox-çox uzağam. Sən də, mən də balalarımız üçün yaşamalıyıq.

— Sən deyəndəri mən də düşünürəm, Nişanə, götür-qoy eləyirəm. Həyata, insanlara biganəlik, hər şeyin böyründən dinməz-söyləməz keçib getmək, gördüyünü görməzliyə vurmaq... o qədər də asan deyil... Axı, biz insanıq. Fiziki olmaqdan başqa həm də mənəviyik. Bəsirət gözlərimiz var. Hisslərimiz, duyğularımız ağlımıza təsir eləyir, onu qidalandırır, şaxələndirir, ona güc verir. Mən necə deyə bilərəm ki, xatirələrimin mənə dəxli yoxdu. Valideynlərimin, bacı-qardaşlarımın, mənə həyat verən Aslan babanın, Günəş nənənin ruhundan nə qədər uzaqda dayansam, onlara nə qədər biganə kəsilsəm, sağlam olaram, həyatımı yağ içində böyrək kimi təmin eləyərəm, altmış il əvəzinə yüz il ömür sürərəm. Uzun-uzun təsəlli, ağıl verənlərin çürük fəlsəfələrini həm oxumuşam, həm də eşitmişəm. Deyilənlər, yazılanlar heç vaxt mənə təsir eləməyib və eləməyəcək də. Mənim halım, davranışlarım, cəmiyyət içərisindəki mövqeyimə, bir sözlə, insanlara baxışlarıma heç nə ilə ləkə gətirə bilməz. Neçə illərdi bir yastığa baş qoyuruq, gərək mənim xislətimə yaxşı bələd olaydın. Yadda saxla, əzizim, özümə heyvani ömür, tale arzulamamışam. Bundan sonra da arzulamayacağam. O mənim nəslimə, kökümə, vüqarıma, mənliyimə ziddi.

— Polkovnik, sənin xatirələrin özünəqəsddi desəm, bəlkə də səhv etmərəm. Sən gecələr yuxuda da keçmişinlə çarpışırsan. Özünü həlak eləyirsən. Sən varsansa, sənin Fəridin də, Fəridən də var. Elə mən də. Sən yoxsansa, ailənin gələcəyi də sual altındadı. Sənin həyatının bu günü, gələcəyi üçün məsuliyyət daşıyıram, mənim polkovnikim.

— Səni anlayıram. Təmiz hisslərini duyuram... — Gülərək — əlavə etdi: — Gülüm, palatada, özü də sənin ağır xəstə yatdığın bir məqamda bu söz-söhbətlərin yeridi?.. Gəl belə danışma. Sakitləşərsən. Sağlamlığın tam təmin olunar. Gedərik Bakıya. Zeynəb qarı demişkən, orda “tiyanı qızdırarıq...” Mənim burda olmağım dincliyinə, sakitliyinə mane olur. Hələlik.

— Allah amanında.

## Tarixin dönəmi: yoxsa, açılan gizlinlər

Elxan Azəriylə Rəşid görüşəndə günəş qüruba çəkilməkdəydi. Onlar gəzə-gəzə Gəzinti parkına gəlib çıxdılar. Skamyada əyləşdilər. Rəşid dedi:

— Əfəndim, biz neçə vaxtdı görüşürük, söhbət eləyirik. Keçmişimizi xatırlayırıq. Hər dəfə də keçmiş bizə bir şey diqtə

eləyir, ağlagəlməz dərslər verir. Həm də bizi incələşdirir, yonqarlayır, bişirir. Xatirələr gələcək həyatımızın məhək daşına çevrilir.

Elxan Azəri dərhal fikrə getdi. Handan-hana üzündə işıqlı ifadə yarandı. Boğazını arıtladı:

— Xocam, xasiyyətim çox ağırdı. Etiraf eləyim ki, qüsur tutulası cəhətlərim var... Bunlar nədən irəli gəlir? Hər şeydən əvvəl qorxu və inamsızlıqdan. Bu yaşımda o qədər adamla qarşılaşmışam, gəl görəsən. Demirəm, saf, sağlam düşüncəli şəxs yoxdu. Onda belə çıxar ki, yeganə normal ədəb-ərkan, əqidə sahibi mənəm. Yox, xocam. Elə düşünmək heç kəsə şərəf gətirməz. Bir çox adamlar heç də bizim kimi düşünmürlər. Elə naxələflər var ki, onları özümüzə yaxın buraxan kimi zərbələrini dadırıq. Gözlərim qorxub. Hamıdan çəkinirəm. İnsana inam yaxşı olduğu qədər də, ola bilsin bir az da pisdi. Ondan ancaq bəla görə bilərsən... Xətagün adamlara ürçah olmaq məni çox yandırıb. Bəzən həftələrlə, aylarla əsəblərim pozulub. Ağır sarsıntı keçirmişəm. Hələ də əzabını çəkirəm. Niyə? Çünki — Qurunun oduna yaş da yanır, — deyiblər. Həyat eşqi adama köləlik də verir, bəxtiyarlıq da bəxş eləyir, desəm, bəlkə də haqlı olaram. Ona görə də hər şeyi vaxtından qabaq açıb tökməyi xoşlamıram. Belə qənaətə gəlmişəm ki, dünyada çox şey adamın başına ağzıboşluğundan, hərcayı-hərcayı, cəfəng danışıqlarından gəlir. Dilimizi cilovlaya bilməsək, vay halımıza.

— Bu qədər özününəzarətdə saxlamaq sizə əzab-işgəncə gətirmir ki, Elxan əfəndi?

— Gətirir, polkovnik, niyə gətirmir? İnanın mənə, ilk tanışlığımızdan neçə gün keçir. Vaxt-bivaxt barənizdə düşünürəm. Sizinlə görüşməyə, dərdimi bölüşməyə özümdə mənəvi tələbat duyuram. Çox öyrəşdim sənə, abi.

— Elə mən də, əfəndim. Məndə getdikcə qəribə hisslər yaranır. Hərdən düşünürəm və üzümü Allahıma tuturam: bəxş elə-





diyin görünüşü bizdən bir də əsirgəmə.

Rəşid tutuldu, sonra gülümsündü:

— Bəli! Qan yaddaşı, qan qohumu.

— Biz-bir-birimizə hələ çox az bələdik. Halımızı-xislətimizi düz-əməlli bilmirik. Hər gün bir-birimizə nəzəriyyədən danışırıq. Neçə gündə sözündən belə anladım ki, doğulduğumuz mühütlə sən daha yaxşı tanışsan. Aslan baba, Günəş nənə mənim ailəm, atam-anam, bacım-qardaşım və digər qohum-əqrəbam barədə sənə çox söz demiş olar.

— Deyiblər. Özü də çox... Sıxıla-sıxıla. Acı göz yaşlarıyla. Ağlamaq-sıtqamaqla.

— Məni hələlik, əsasən, zahirimə görə tanıyırsan. Fərq eləməz, elə mən də səni... Ancaq hər birimizin daxili aləmimiz bir sirli-soraqlı kainatdı. Orda ən qiymətli daş-qaş da, dəyərsiz zir-zibil də var. İnsanlara yaxınlaşırsan, sonra da peşmançılıq çəkib onlardan sürətlə uzaqlaşırsan.

— Tamamilə doğrudu. Sözünüzün qüvvəti, insanlar niyə belə olurlar? “Ədəb-ərkan qaydaları”, “etik normalar” yalnız sözdədi... Hələ bunlar harasıdı, Elxan əfəndi. Elə ki, ən yaxın adamlarında belə xoş təəssürat yarada bilmədin, sənə bir şəbədə qoşacaqlar, gəl görəsən, özün də eşidib məəttəl qalacaqsan. Qulağın eşidə-eşidə səndən sənə elə “qəzəllər” oxuyacaqlar ki, varlığına şübhəylə yanaşacaqsan. Ara söhbətləri, pıçapıçlar çox xətalı şeylərdi. Əvvəl-əvvəl adam eşidəndə əti cimildəşir. Xəcalətindən canını qoymağa yer tapmır. Peşmançılıq son həddə çatır... Sonra öz-özünə sual verir: bu böhranlı məqamda özümü saxlaya bildimmi? Davranışlarım cəmiyyətin qoyduğu qayda-qanunlardan, ədəb-ərkan normalarından kənara çıxmayıb ki? İnsanlıq çərçivəsini vurub dağıtmamışam ki? Kimlərinsə həqarətli baxışları məni izləmir ki? Kimlərdənsə gözüqıpıqlığım, çəkinəcəkliyim yoxdur ki? Bundan sonra necə? Həyatımı istədiyim kimi yaşaya biləcəyəmmi? Adamların gözlərinin içinə cəsarətlə

dik baxa biləcəyəmmi?..

Elxan Azəri güldü və başını yellədi:

— Xocam, elə mənim dediyim də budur da. Hər kəs öz sadə həyatını yaşayır. Nə kasıbsan, nə də varlı-hallı... Kimsədən asılılığın da yoxdur. Kimsə sənə ayağın yandı, geri çək, demir. Sözünü deməyə qədərincə azadlığın var. Hara gedib-gələcəyində, hansı işləri görəcəyində sərbəstsən. Bu azadlıq və sərbəstlik insan üçün çox böyük bəxtiyarlıqdı. İnsan öyrənib ömrü boyu səadətin içində səadətini axtarmağa. Unuduruq ki, səadət sadə göz qamaşdıran qızıl külçə deyil, yol gedəndə onu ayaqlar altında tapasan. Yetişmiş meyvə deyil, budağından dərib bir dişdəm götürəsən. Pardaxlanan qızılgül deyil, budağından dərib qoxlayasan. Qonşuda bişən ətirli plov deyil, dadına baxasan. Səadət insanın özünün özünə bəxş elədiyi mənalı həyatdı. Hər kəs onu özü qura bilər. Öz səadətini özü təmin edə bilər. Səadət, xoşbəxtlik adama başqalarından ötürülmür. O kimsədən alınmır. O böyük fədakarlıqla qazanılır. Bu, filosofluq eləmək deyil. Doğrudur, elə adamlar da ola bilər ki, deyilənlərə fəlsəfə damğası yapışdırsınlar. Onlara qarşı çıxmaq da, çox güman ki, düz olmaz. Hər kəsin öz düşüncə tərzi, həyat baxışı var. Hər kəs fikir söyləməkdə sərbəstdi, azaddı.

Yaxşı danışmaq, parlaq fikir söyləmək, natiq olmaq hələ ədəbli olmaq deyil. Olsa-olsa, bəlkə də nəzəriyyəçidi. Ədəb insani məsuliyyətdi. Belə insanların əhatəsində yaşamağın özünü səadətə, xoşbəxtliyə açılan qapı sanmaq olar. Səadət yuxuda əldə olunmur. O, əta yoluyla da verilmir. Düşünənlər də tapılır ki, səadətdən, o fəlsəfi, məchul fikirdən uzun-uzadı danışmaq ayıbdı. Ondan çox danışana baş ucalığı gətirmir. Bir neçə dəfə o mövzuda mühazirə dinləyən belə qənaətə gələ bilər ki, mühazirəçi ən yüngülü əcəb ya fanatikdi, ya da romantik. Öz-özünü aldadan cəfəngdi. Bu onların düşüncəsidi. Onların həyata baxışıdı. Elə fikir sahiblərinə üstən aşağı baxmağa, fikirlərinə həqa-





rətli yanaşmağa da dəyməz... Deyəsən, polkovnik, uzun-uzadı bu söhbətimlə yoruram səni.

— Yox... Yox... Nə danışırsız. Xoşdu.

— Dayım evlənəndən sonra övladı olmayıb. Ona səbəb dayıdostum olub. Dayım ailəsini dağıtmamaq üçün xanımına deyib: “Gəl kimsəsizlər evindən uşaq götürək”. Onda xanımı deyib: “Kimsəsizlər evindən niyə? Bacının oğlunu götürmüşük də. Saxlayaq, tərbiyə eləyək, təhsil verək”. Dayım da xanımının sözünü çevirməyib. Ata-anamla razılaşıblar. Məni övladlığa götürüblər. Rəsmiləşdiriblər. Erməni təcavüzü baş verməsəydi də, dayımla xanımı özlərinin dediklərinə görə, məni İstanbula gətirəcəkdilər... Mən İstanbula belə gəlib çıxmışam. Orta təhsilimi litseydə, ali təhsilimi isə İsveçdə almışam. Bir müddət Ankarada həkim işləmişəm. Sonra da İstanbula dayımla dayıdostumun yanına gəlmişəm. O vaxtdan da bu xəstəxanada işləyirəm. On ildi Aliə Qılınclı ilə ailə qurmuşam. Biz bir-birimizi sevirik. O, hazırda kollecdə müəllim işləyir. İki oğlum, bir qızım var... Böyük oğlumun adı Fuad, kiçiyiniki Əhməd, qızımınkı isə Nigardı. Onlar da vaxtı ilə mənim oxuduğum litseydə təhsil alırlar. Üç il əvvələ kimi dayım və onun xanımı ilə birlikdə yaşayırdıq. Dolanışığımız pis deyildi. Beşindən aşağı, beşindən yuxarı dolanırdıq. Dayımın əli gətirirdi. Onların bizə ehtiyacı yox idi. Çox zaman uşaqlara da görüm-baxım eləyirdilər. Etiraf eləyim ki, bizi gözü götürməyənlər onda da vardı, indi də var. Özü də çox. Cəfəng dedi-qodular, yalan-yanlış çək-çevirlər, heç nədən yaranan qeybətlər...

— Dayınla, onun xanımı ilə əlaqən varmı? Onların taleyi barədə bir söz demədin?

— Deyəcəm, xocam. Onların taleyi mənim ən yaralı yerimdi. Gecə-gündüz dayımla bağlı müəmmalı hadisə barədə fikirləşirəm. Nə özüm bir qərara gələ bilirəm, nə də güc nazirliklərinin axtarışları nəticə verir. Nə qədər sarsıntı, nigarançılıq içərisində

yaşamaq olar?! Düz üç il əvvəlin hadisəsidi. Günlərin birində gecə-gecədən keçmişdi, hamımız yuxuda idik. Gözlənilmədən qapımız döyüldü. Yuxudan hövlnak qalxdıq. Mən gedib qapını açdım. Bunu gözləyirmiş kimi evimizə qara paltarlı, maskalı, silahlı adamlar soxuldular. Otaqlarımızda axtarış apardılar. Dayımın min bir əzabla topladığı pulları, xanımının qızıllarını, evdə gözlərinə dəyən bahalı şeyləri götürdülər. Hətta Aliə xanımın cehizlərindən həcmcə kiçik, qiymətcə ağırlarını çırpışdırdılar. Dayımla mən müqavimət göstərəndə maskalılardan biri onun alnına tapançadan atəş açdı. Dayım bir göz qırpımında döşəməyə yıxıldı. Mən dözməyib atəş açanın üstə atıldım. Kimsə məni boynumun ardından küt alətlə vurdu. Gözlərimi açanda özümü xəstəxanada gördüm. Sən demə, dayıdostumu da yaralayıblarmış. O da çox qan itirdiyindən xəstəxanada keçindi... Aliə ilə uşaqlarıma toxunmayıblar. Hal-hazırda həyatımın çox acınacaqlı, sarsıntılı günlərimi yaşayıram. Onun əksinə getməyi ağlıma gətirə bilmirəm. Şübhə eləmirəm ki, həyatın axarından çıxsam, onun əksinə hərəkət eləsəm, çox ağır məğlubiyyətlərə düçar olaram. Həyatda əks yol tutan məğlublar çox olublar. Tarixi təcrübədən az-çox xəbərdar olan bir kəs, məncə, o yola düşməz. Düşsə, düşmənləri də, inanıram ki, onu "dəli" adlandıracaqlar. Onu o ki var qınıyacaqlar. İndi söz sənindi, xocam. Keçmişim, xüsusiylə ata-anamın, bacı-qardaşımın həsrəti çürüdür məni, desəm, inan...

Gözləri dolan Rəşid dərindən köksünü ötürdü. Baş verənlər onu möhkəm tutduğundan, beynində qurub-düzdüyü fikir zənciri qırıq-qırıq oldu, topdan açılan güllənin qəlpələritək ətrafa səpələndi. Nədən, necə başlayacağını bir an unutdu. Handan-hana özünə gəlib ağır-ağır söhbətə başladı:

— Əfəndim, neçə günlük tanışlığımız və söhbətlərimiz biləsən ki, mənə də yandırıcı, əzab-əziyyət gətirici işgəncələr verir. Hiss eləyirəm, həyatımız, bizə bəxş olunan ömür çox müəmmalıdır. Gərək belə olmayaydı... Tanrımdan "Belə taleyi nəsib edəcəkdinsə, məni niyə yaradırdın?" deyə şikayətlənirəm. Bu da var ki, o əzab-əziyyətə düçar olan təkcə biz deyilik. Zeynəb qarı deyərdi: "Ellə gələn qada-bala toy-bayramdı". Bəlkə də biz ona görə hələ yaşayırıq. Buna da şükür. Bir anlığa dünyada baş verənləri gözlərimiz önünə gətirək. Heç uzağa getməyək: 1915-1918-ci illərdə havadarlarına arxalanan erməni qəsbkarlarının Çanaqqalada, Diyarbəkirdə, Bakıda, Lənkəranda, Qubada, Gəncədə xalqımızın başına açdıqları vəhşilikləri, 1948-ci ildə törədilən cinayətləri, xəyali də olsa, gözlərimiz önünə gətirək. 1988-1993-cü illərdəki fəlakətləri xatırlayaq. İran-İraq müharibəsini yada salaq. ABŞ-ın İraqı yerlə-yeksan eləməsi, Liviyada, Suriyada, Yəməndə tökülən qanları, minilliklərin arxasından boylanan tarixi abidələrin dağıdılmasını, milyonlarla qaçqının taleyini götür-qoy eləyək. İŞİD-in fəlakətləri... Bu nədi? Onu kimlər yaratdı? Niyə yaratdı? Hələ mən uzağa getmirəm. Dünya belə gəlib, belə də gedəcək... Heyfslənsək də, heyfslənməsək də... Qayıdaq özümüzə. Aslan babayla Günəş nənə barədə sənə demişəm. İstəyirəm onu da biləsən, sənin Aslan baban mənim nənəm Səltənətin doğmaca qardaşıdı. Böyük bir nəslin sahibidi. Ağsaqqaldı. Əslində, sənin bilavasitə, mənimsə bilvasitə babamızdı... Çox xırdalığa getmək istəmirəm... Çünki artıq bir çox şeydən xəbərdarsan. Mən Allahıma minnətdaram ki, bizi — iki qan qohumunu, təkrar eləyirəm, qarşılaşdırdı, qovuşdurdu... İnanıram ki, indi Aslan babanın, Günəş nənənin, valideynlərimizin, elə İsfəndiyar dayının, onun xanımının da ruhları sevinir... "Bir tərəfdən bağlayan Allah, o biri tərəfdən açır deyiblər".

Mən məktəbi başa vurub əsgəri xidmətə getdim. Xidmətimi başa vurduqdan sonra ərizə yazıb yenidən orduya qayıtdım. Bacarığımı nəzərə alıb məni Bakıdakı hərbi hissələrdən birinə dəvət etdilər. Orda çalışdım. Aılə, uşaq sahibi oldum. Hazırda qarşındayam. Köməkləşib bir çox qaranlıq mətləbələrə işıq salı-

rıq. Tarixi hadisəni araşdırırıq.

Xanımımın xəstələnməsi bizi çəkib İstanbula gətirdi. Səninlə görüşü Allah mənə qismət elədi. Bunun üçün Elxan əfəndi çox sevinirəm. Səninlə qarşılaşdığım ilk gündən içimdə sənə rəğbət hiss doğdu. Səndə özümə yaxınlıq duydum. Sən də mənə və xanımıma çox qayğıyla yanaşdın. Professor və həkimdən xahişimizi elədin. Sonra əməliyyatın gedişiylə maraqlandın. Qayğınızı duyduq.

— Yox... Mən sizə elə bir iş görməmişəm. Bu kiçik qayğımı isə istəməzdim ki, bu qədər çox şişirdəsən, xocam. Həyatda əzab-əziyyətlərimizin, çalışıb-çabalamalarımızın hamısı özümüz üçündü... Ancaq onu da etiraf eləyim ki, ilk görüşümüzdə sizdə bir yaxınlıq, doğmalıq hiss elədim. Ola bilsin ki, siz düşünən səmimiyyət, istək bağları bayaq xatırlatdığınız qandan irəli gəlir.

Qarşılaşdığın insanı tanımasan da, halına-xislətinə bələd olmasan da, bəzən qançəkmə işini görür, doğmalıq yaradır, ürəkdən ürəyə, ruhdan ruha məhəbbət şüaları səpir, daxili ilişkilər yaradır. Bizi qarşılaşdırdığı üçün, polkovnik, mən də Allahımdan razıyam. Şənini alqışlayıram... Siz mənimçün hər cür hörmət və ehtirama layiqsiz. Mənim üçün dəyəri heç nəylə müqayisə olunmayan duyğularınızın müqabilində sizin yaxşılığınızdan necə çıxacağam, ağlıma gətirə bilmirəm. Ancaq onu bilirəm ki, sən mənə yeni nəfəs, yeni həyat verdin. Allahın hökmünün, mərhəmətinin hədsizliyi qarşısında diz çökürəm. Özümü polkovnik, sənə borclu sanıram. Qarşında sıxılıram. Çox zaman adamlardan qaçaraq tənhalığa qapanıb keçmişimi xatırlayıram. Kimsəsizliyimi düşünüb qəmlənirəm, qüssələnirəm. Mənim həyatıma, düşüncələrimə bələd olmayanlar çox şey deyə bilərlər. Fəqət bu neçə on illiklərdə şəxsi həyatımda baş verənləri sənə təfərrüatıyla açası olsam, dəhşətə gələrsən. Şəxsi gizlinlərimin bəzi anlarını sənə açdım. Elə şeylər var ki, o yalnız mənə





məxsusdu. Onları faş eləmək, məni bir başqa cürə kədərləndirər...

Elxan Azəri arxaya söykənib gözlərini yumdu. Xəyal onu çəkib çox uzaqlara apardı. Bakıda hoteldə qaldığı vaxtları, ata-anasından, ana babası Aslanın əllərindən tutaraq gəzdikləri bağbağcanı, ana nənəsi Günəşin üzündən tez-tez öpmələrini, ata-anasından, bacı və qardaşından ayrılığını, dayısının qucağında müdhiş gecədə kənddən necə çıxmalarını... nələri, nələri dumana, çənə bürünmüş, boz-bulanıq halda, təkrarən gözləri önünə gətirdi. Handan-hana gözlərini açıb acı-acı gülümsündü:

— Mən sirr dağarcığıyam, Rəşid. Hardan gəlib hara getdiyimi bilmirəm. Bilirsən, abi, bu nə deməkdi? Nə işlə məşğulam? Kimlərlə, necə münasibətdəyəm, heç özümə də məlum deyil. Bircə onu hiss eləyirəm ki, daim vurnuxuram, qayğılıyam. Hərdən düşünürəm, insanın hərəkətlərində nə qədər ürkəklik, davranışlarında nə qədər ehtiyatlılıq olar? Tanışlarım çoxdu. Axşamlar hər yaşdan insanların mənə acdıqları telefon zəngləri ara vermir. Evim qonaqlı-qaralıdı. Son zamanlar hiss eləyirəm ki, əsəblərim zəifləyir. Hansı vəziyyətdə olmağımdan asılı olmayaraq, qürurumu və vüqarımı qoruyub saxlamağa çalışıram.

Rəşidin sifəti xoş görkəm aldı:

— Görürəm, əfəndim. Məndən yaşca xeyli kiçik olsan da, bütün davranışlarında və danışığında ədəb-ərkanı gözləməni duyuram və bunu olduqca dəyərləndirirəm. Əslində, qürur və vüqar insanın geniylə yanaşı, yaşadığı mühitlə, aldığı tərbiyə və təhsillə bağlıdı.

— O da var. Yaltaqlıq və mədhiyyəni də insanlarda yaradan həm də sən deyənlərdi... O adamı gözdən salan zəhirmardı.

Elxan Azəri sözünə azacıq ara verdi. Sonra gülə-gülə davam etdi:

— Bəzi adamlar mədhiyyəni, yaltaqlığı elə gözdən salıblar ki...

Hər ikisi güldü. Elxan Azəri yenə sözünə davam elədi:

— Dünyada ən zəhləm gedən şey zəifləri bir bəhanəylə məzəmmətləməkdən ləzzət alan, özünü adamlara havadar, humanist kimi göstərməyə çalışanlardı. Bu ən böyük və qorxunc xəstəlikdi. Onu özünə sığışdıran adamdan nə desən gözləmək olar.

— Gərək elələrini ətrafdakılar tərbiyə eləsinlər.

— Yox, polkovnik. Yaltaqlıq, məddahlıq xarakterlə bağlıdı. Bədənin xəstə hissələrini qalperin bıçağıyla kəsib atırıq. Əzələni əzələyə calayırıq. Xəstə xarakterin isə müalicəsi yoxdur. Onu sağaldacaq nə dərman, nə də cihaz ixtira olunub. O, qurd kimi içəridən adamı yeyir, didir, dağıdır. Fərqinə varmayanlar o xəstəliyə çox tez yoluxurlar. Doğrudur, əclaflığın, o cümlədən yaltaqlıq və məddahlığın virusları hamının içində var. Kimisində az, kimisində çox. Elə adamlar var, işi düşənlərə, elələri də var, kimə gəldi. Kimə gəldilər öyrəncəlilərdilər. Belələri saatlarla baş sındırırlar. Axtarıb döşə yatan ən yağlı sözlər tapırlar. Əvvəl-əvvəl çəkinə-çəkinə, qulaqlarının dibinə qədər qızara-qızara deyirlər. Getdikcə öyrəşirlər. Utancaqlıq aradan qalxır. Deyəndə ki, a bala, bu qədər olmaz. Hissolunmaz dərəcədə büzüşürlər. Sonra da başlayırlar özlərinə bəraət qazandırmağa. Belələrindən əl həzər. Doğrudur, burda milli mentalitet də var... Adını deməyəcəm, üz vurma, xocam.

— Buyurun, əfəndim.

— Bir tanışım var. Ondan soruşdum: "Yaltaqlıq, məddahlıq səndə hardan gələn, nədən törəyən xəstəlikdi. Ehtiyatlı ol, bunu adamlara yoluxdura bilərsən. Ondansa get sadə, sakit bir həyat yaşa". O mənə nə desə yaxşıdı: "Yaltaqlıq, məddahlıq, oğraşlıq... nələr, nələr... hamısı işini keçirmək üçündü. İşini keçirə bilməyəcəksənsə, nə vəzifə, nə pul, nə xətir, nə nüfuz... Elə başa düşmə ki, biz yaxşını pisdən ayıra bilmirik. Bir də ki, xəstəlik törədən bu hüceyrə ata-anadan gəlmədi".

Əvvəl mənə elə gəldi ki, bu tanışımın ağlı yetərində deyil.





Ya uşaq vaxtı başından aldığı zərbədən onda dərin iz qalıb, ya da psixi xəstəxanada yatıb... Daha ona söz deməyə cürət eləmədim. Bu zavallının xislət tarixçəsiylə yaxından tanış olanda çaşıb qaldım. Sən demə, o nadan müxtəlif bəhanələrlə adamlara girişir; yersiz əzilib-büzülmələr eləyir; başında ağalıq edənlərin qarşısında dombalır, ayaqqabılarını silir; aftavalarını tutur; kimi desələr şərləyir... Nəyi desələr yuyur. Hansını deyəsən... Elxan Azərinin bu sözlərindən sonra beynimdə özümə də gülməli görünən fikirlər dolaşmağa başladı:

— Belələri, əfəndim, bizdə lap çoxdu. Onlara "anasının əmcəyini kəsənlər" deyirlər.

## Palatada görüş

Əməliyyatdan sonra Nişanənin bədəni xeyli möhkəmlənmişdi, kimsədən kömək gözləmədən palatada və dəhlizdə sərbəst gəzirdi. Özündə ağrı-acı, narahatlıq hiss eləmirdi. Onun günügündən yaxşılaşdığını görən Rəşidin qanadları olsaydı, sevincindən uçardı. O, bir anlığa dərd-sərlərini unutdu və arvadına yaxınlaşıb dedi:

— Əla! Əla! Bilirsən, bu gün əhvalını yaxşı görüb nə qədər sevindim? Ayağını yerə bərk basmağın, qamətini düz saxlamağın məndə tam əminlik yaradır ki, sən sağalmısan. "Tu", "Tu", "Tu", heç elə bil əməliyyat olunan Nişanə deyilsən.

Nişanə gülümsünüb başını aşağı-yuxarı tərpətməklə ona "özündənrazılıq" işarəsi verdi. Sonra da zəif səslə dedi:

— Ucadan danışma. Səsini dəhlizdə eşitməyən qalmadı... Polkovnik, geci-tezi var, ürəyimə damıb. Mənim öncəgörməmi ki, sən bilirsən.

— Bilirəm... Hə... Yoxsa, fikirləşirsən ki, sənə mənim gözüm dəyər... Məndən qorxma...

Hər ikisi güldü və palataya getdilər. Nişanə çarpayısının qırağında, Rəşidsə yumşaq kresloda əyləşdilər. Nişanə dedi:

— Ay Rəşid, adamın öz yurdu-öz yuvası. Bu axşam Fəridəni yuxuda görmüşəm. Görürəm, uşaq elə həsrətlə, nigaraçılıqla baxır mənə... Yuxuda ürəyim az qaldı susa. Görünür, anamın yenə belinin ağrısı tutub. Yazıq arvad...

— Sən niyə elə düşünürsən... Bir də ki, yuxulara çox inanırsan, əzizim. İnsan narahat olanda deyirlər: "Beyin hüceyrələrinin bir çoxu oyaq qalır". Yuxu da onda yaranır. Yuxunun yüngül, şən, yaxud ağrılı, sarsıntılı olması da, əhval-ruhiyyədən asılıdı.

— Şübhə eləmirəm ki, səndən yaxşı nervopotoloq olardı.

Elə bu vaxt qapı döyüldü. Ər-arvad bir-birilərinin üzlərinə baxdılar. Rəşid qalxıb qapını açdı. Gözlərinə inanmadı. Elxan Azərinin yanında kəsilmiş sarışın saçları çiyinlərinə tökülən, gülərüz, uzun sifət, göy gözlü bir qadın çəkinə-çəkinə, utana-utana dayanıb Rəşidin üzünə baxırdı. Rəşid dərhal anladı ki, bu, Elxan Azərinin xanımıdı. O, Elxan Azəriylə Aliə xanımı: — Buyurun, buyurun, əziyyət çəkmisiz, — deyə palataya dəvət etdi. Elxan Azəri gözlənilməz vəziyyəti anladı və dedi:

— Xocam, Nişanə xanım, bu mənim ömür-gün yoldaşım Aliədi. Belə qərara gəldi ki, sizinlə tanış olsun.

Nişanə dərhal cavab verdi:

— Çox böyük zəhmət çəkmisiz... Bizi utandırdınız.

Aliə: — Nə danışırsız, nə zəhmət, nə utandırmaq — dedi. — Mən eşidəndə ki, Elxanla yerlisiniz, qohumsunuz, sizin ziyarətinizə gəlməyi özümə borc bildim. Gəlməməyi isə özümə bağışlamazdım.

Nişanə "yerlisiniz", "qohumsunuz" sözlərini eşidəndə təəccüblə ərinin üzünə baxdı. Rəşid:

— Üzümə elə təəccüblə baxırsan ki, utanıram. Qohum olduğumuzu bir neçə gün əvvəl söhbət əsnasında müəyyən eləmişik.





O vaxtdan da səni danışdırmaq, nəyisə izah eləmək imkanım olubmu? Bu gün Elxan əfəndi, Aliə xanım məni qabaqladılar. — Rəşid üzünü qonaqlara tutub: — Bunun üçün əzizlərimiz, sizə təşəkkür edirəm, — dedi.

Palatanı xoş gülüş səsləri bürüdü. Aliə xanım təmkinlə dedi:

— Rəşid xocam, Nişanə xanımın xəstəxanadan sağalıb çıxmasını gözləməyə məcburuq. Elxan da, elə mən də həkimlə əlaqə saxlayacağıq. İnşallah, burdan xudahafizləşib birbaşa bizə gedəcəyik. Həm evimizlə, güzəranımızla, həm uşaqlarla tanış olarsız, həm də bir neçə gün bizdə dincələrsiz.

Rəşid:

— Əşi, nə zəhmət...

Elxan Azəri:

— Necə fikirləşirsən, xocam, bizim yerimizdə siz olsaydız, belə eləməzdiniz?

— Şübhəsiz ki...

— Onda sözü çevirməyin...

— O, Nişanə xanımın vəziyyətindən asılı olacaq.

Aliə:

— Nişanə xanım, qohumunun həkim olduğunu unutma. Özü də yaxşı həkim...

Nişanə:

— Sizinlə qarşılaşmamız, tanışlığımız üçün çox şadıq, Aliə xanım.

— Bilirsiz, xocam, tanışlığa nə qədər sevinirəm? Mən neçə illərdi Elxanın kimsəsizliyinin, arxasızlığının niskilini çəkirdim. Ona nə qədər ürək-dirək versəm də, könlünü ovundurmağa çalışsam da, sanıram içindəki uçurumu aradan qaldırmağı tam bacarmırdım. Qohumluğunuzu biləndən sonra Elxan, elə bil, tamam başqa bir adama çevrilib. Bilirsiniz bu məni nə qədər sevindirir?..

Nişanə bir an fikrə getdi. Bunu Rəşid də, Elxan və Aliə də

duydu. O, handan-hana dedi:

— Hələ özümdə tam sağalma, möhkəmlənmə duymuram... Bilirsiz ki, mən əməliyyat olunmuşam. Nə qədər sağaldığımı güman eləsəm də, narahatçılığım öz yerində qalır. Harda oturub-durduğumdan asılı olmayaraq, özümü narahat hiss eləyəcəm. Sərbəstliyimi itirəcəm. Gəlin belə danışaq. Biz xəstəxanadan çıxırıq. Bir-iki gün hoteldə dincəlirik. Sonra Bakıya uçuruq. Əlaqə saxlayırıq. Siz Bakıya gəlirsiz. Biz sizi qarşılayarıq. Sonrakı gəliş-gedişlərimiz barədə də söhbət eləyirik, vədələşirik.

Aliə:

— Nişanə xanım, hər ikimiz qadınıq. Eyni cinslilər bir-birilərini daha yaxşı anlayırlar. Siz tərəddüdlüsüz, yoxsa, mənim təklifimdən qəti imtina edirsiniz.

— Nə tərəddüd, nə imtina, Aliə xanım? Bu, indiki halda reallıqdı... Sizi qınamıram. Hardan biləcəksiz? Əslində, heç özüm də bilmirəm. Əməliyyatdan sonra içimə hədsiz bir qorxu çöküb.

Rəşid diksindi və dərhal soruşdu:

— Necə? Necə?

Nişanə:

— Dedim axı, içimə qorxu çöküb.

Aliə Elxan Azərinin üzünə baxdı və soruşdu:

— Elxan, bu nə deməkdi?

Elxan:

— Görünür, ya orqanizmində nədənsə narahatçılıq var, ya da nəsə fikirləşir.

— Yox, orqanizmimdə narahatçılıq hiss eləmirəm. Elə hey düşünürəm ki, nəsə baş verəcək.

Çaş-baş qalan Rəşid özünü saxlaya bilmədi:

— Deyəsən, bizim işimiz indi də mollalıq oldu.

Palatanı gülüş səsləri bürüdü. Nişanənin üzü allandı. Sonra o da gülməyə başladı, astadan: — İş gedib mollaya çıxdısa, deməli, batdıq, — dedi.





Aliə ərinə:

— Fikrin qarşısını alan dərman-dava varmı?

Elxan Azəri əvvəl çiyinlərini çəkdi. Sonra Nişanəylə Rəşidə təskinlik verməli oldu:

— Xəstələrdə belə hallar olur. Bir şey fikirləşərik. Gərək bu işdə özünə özünə yardımçı olasan...

— Qorxu gələndə daxili həyəcan məni boğur. Onda haldan-hala düşürəm, əhvalım dəyişir. Bəzən hirslənirəm, bəzən də lap qəzəblənirəm. Dəhlizdə gəzənlərin, mənə xidmət eləyənlərin, hətta, həkimin diqqətini cəlb eləyirəm. Özümə qayıdanda utanıram. Ruhi düşkünlük kimsəylə kəlmə kəsməyimə, dinib-danışmağıma pis təsir eləyir. Canımı qoymağa yer tap bilmirəm. Adətən, ünsiyyətçil adamam. Qəlbimdə xoş duyğu bəslədiyim doğmalarımın lap uzaq, unudulmaqda olan davranışlarını, söz-söhbətlərini yadıma salıb onlarda mənfi çalarlar axtarmağa çalışıram...

Elxan Azəri də, Aliə də, elə Rəşid də bir söz deməsələr də, özlüklərində Nişanənin dediklərində ruhi pozğunluq virusları baş qaldırdığını güman edirdilər. Ancaq heç biri nəinki onun sözünü kəsir, onun danışıqlarına mane olur, əksinə, vəziyyətin aydınlaşması üçün "hə", "hə", "hə" deyirdilər. Nişanə də getdikcə açılır, düşündüklərini tam təfərrüratıyla danışmağa çalışırdı:

— Acılığından və şirinliyindən asılı olmayaraq, xatirələr həmişə yandırıcı olur, adama əzab verir, kimsə mənim bu fikrimə nəinki şərik çıxa, hətta, zidd də gedə bilər. Buna da təbii hal kimi baxıram. Çünki hər kəsin içində bir istəyi var, ondan doğacaq və onunla səsləşə biləcək düşüncələri var...

Rəşid arvadının başında nəsə anlaşılmaz fikirlər oyandığını duydu. Özündə daxili narahatlıq və Elxan Azəriylə Aliə xanımın yanında sıxıntı hiss elədi:

— Ay Nişanə, sənin dediklərinin Elxan əfəndiylə Aliə bacıya nə dəxli var?

Aliə gülümsündü.

Nişanə:

— Olmasa, demərəm ki, — dedi və sözünə davam elədi: Hərdən mənə elə gəlir ki, bu düşüncələrimin hardan baş götürüb üzü bəri gəldiyini, nələrdən qaynaqlandığını və harda sona yetəcəyini də demək çox çətindi. Biz çayın mənbəyi, keçdiyi düz, dərə-təpə və mənsəbi barədə söz deyə bilirik. Ancaq fasiləsiz yol qət eləyən sızqaların hardan gəldiyini dəqiq demək imkanımız yoxdu. Çünki həmin sızqaların hansı damlalardan toplandığını görmürük. Ancaq fəhmlə bilirik ki, həmin sızqalar damlalardan yaranır.

Nişanənin məqsədə dəxli olmayan söz-söhbəti Rəşidi hövsələdən çıxarırdı. O, əsəbiləşir, arvadına: — Sənə nə olub, imkan ver, Elxan əfəndi ilə Aliə bacı da qəlblərindəkiləri açsınlar, axı onlar səni yoxlamağa, səninlə kəlmə kəsməyə gəliblər, — demək istəyindəydi ki, Elxan Rəşidə "danışma, sus" işarəsi verdi. Nişanə sözünün ardına keçdi:

— Yeni həyatla təmas nöqtələrinin sayı artdıqca qarşımda xeyli gizlinlər və onların mahiyyəti ilə bağlı sorğu-suallar açılır.

Aliə astadan ərinə pıçıldadı:

— Hazırlıqlıdı. Heyranam nitqinə.

— Yaxşı, dayan görək.

Nişanə:

— Universitet qurtarmışam. Coğrafiyadan dərs deyirəm. Polkovnik özü də bir məktəbdi. Açığını deyim ki, o nə tökür, mən yığışdırıram.

Polkovnik:

— Əzizim, yenə o qorxu içində var?

Nişanə:

— İndi yox, bir azdan olacaq...

— Qorxunun səmtini bilmirsən?

— Dedim axı, yox... Onun hardan peyda olduğunu deyə bil-





məsəm də, ürəyimədammaları, başıma yeni-yeni, ağlagəlməz fikirlərin, təzə təəssüratların sızıb gəldiyini hiss eləyirəm. Elə bil, ürəyim sözlə dolur. Özümdə anlaşılmaz duyğular, boz-bulanlıq təsəvvürlər yarandığını hiss eləyirəm. Onda da bərk həyəcanlanıram. Məni sıxıntılar, əzab-əziyyətlər qamarlayır. Bu qarmaqarışlıq beynimi pozur. Neylədiyimi, nə danışdığımı bilmirəm. İnanılası deyil, hərdən özümə çox böyük dəyər verirəm. Elə bilirəm, nə məndən xoşbəxt, nə məndən nüfuzlu adam var. Dediklərim gülməlidi, hə?..

Elxan Azəri:

— Yox!.. Yox!.. Siz nə danışırsız? Əksinə, hamımızın xoşuna gəlir.

Elxan Rəşidə:

— Həkiminə xəbər de, gəlsin.

Rəşid buna bənd imiş kimi palatadan çıxdı. Çox çəkmədi ki, Nişanənin müalicə həkimi tibb bacısı ilə gəldi. Elxan Azəri dərhal:

— Sakitləşdirici iynə...

Tibb bacısı getdi. Tez də əlində iynə geri qayıtdı. Elxanla Rəşid palatadan çıxdılar və çox çəkmədi ki, geri qayıtdılar. Həkim üzünü Rəşidə tutdu:

— Narahatçılığa əsas yoxdu. Yatıb dincəlməlidi. Görünür, ehtiyatsızlıq eləyib. Özünü soyuğa verib.

Həkim Nişanəyə tərəf döndü:

— Xanım, yaxşısız. Kişini qorxutmayın. Biz xanımlar əzilib-büzülməyə öyrəncəliyik... Həftə sonu xudafizləşə bilərik. Yol hazırlığınızı görün.

Nişanə:

— Zəhmətinizi halal eləyin.

Rəşid özünü saxlaya bilmədi:

— Nədənsə çox qorxur.

— Ötəri şeydi. Ailə-uşaq üçün darıxır. Bir müddət başını qat-

malıdı.

Həkimlə tibb bacısı çıxan kimi Elxan Azəri Nişanəyə dedi:

— Qonaq olmursuz bizə? Ancaq söz verirəm, mən Bakıya gələcəm. Qonağınız da olacam.

Rəşidlə Nişanə eyni anda dedilər:

— Buyurun... Bilirsiz, nə qədər sevinərik. Şəhidlərin də ruhu xoş olar.

Elxan Azəri dedi:

— Mütləq gələcəyəm.

Nişanə iynənin təsirindən mürgüləməyə başldadı. Göz qapaqları yumuldu.

Elxan Azəri dedi:

— Necə düşünürsən, Aliə xanım. Biz də gedək, hər gün əlaqə saxlarıq.

Ər-arvad ayağa qalxdılar.

Aliə Rəşidə:

— Siz narahat olmayın. Görüşənədək.

Rəşid dəhlizə qədər qonaqları müşayiət elədi. Sonra palataya qayıtdı.

## Yağışdan sonra...

Axşama qədər yatan Nişanə yuxudan səksəkə içərisində oyandı. Başını qaldırıb diqqətlə ərinin üzünə baxdı. Arvadının çuxura düşmüş gözlərindən heç nə anlamayan Rəşid özü də narahatçılıq keçirdi və dərhal dedi:

— Nə istəyirsən? Haran ağrayır? Yaran incitmir ki? Hərarətin necədi?

Nişanə sualları eşitmirmiş kimi başını yenidən balınca qoydu. Onu dərin bir yuxu apardı. Çox çəkmədi ki, mışıltısı eşidildi. Rəşidin arvadına yazığı gəldi. Oturduğu kreslodan qalxıb onun solğun, qanı qaçmış yanağından ustupca öpdü. Gözlərindən süzülən iki damcı yaş yuxulu arvadının yanaqlarını islatdı. Kişinin içi titrədi:





— Aman Allah, Nişanəmi mənə, balalarıma çox görmə. Mən, doğrudu, atayam. Onların qarınlarını doyura bilərəm. Ancaq Nişanə onların tərbiyəçisidi. Əxlaqlarının təminatçısıdı. Həyata hazırlayıcısıdı. Həkim necə dedi: “Uşaqlarından ötrü darıxır”. Anası... övladları... Eh... Nişanə... Nişanə... Özünə bir söz deməsəm də, Allah bilir, səni nə qədər istəyirəm. Ruhum mənim, canım mənim. Nişanə, sən özündə olmayıb danışanda, doğrudu, əsəbiləşdim. Elxan Azərinin, Aliənin yanında səni heç cürə o vəziyyətdə görmək istəməzdim... Əslində, xəstəlikdən heç kəs suğortalanmayıb. Mən də elə ola bilərdim. Elə Elxan Azəri də, Aliə də. Bunda nə qəbahət var?! Bağışla məni, Nişanə. Sən elə danışanda mən qorxdum. Özümü itirdim. Hövsələmi boğa bilmədim. Sənə iradlar tutdum. Onda da mənə güzəştə getdin. Mənim üzümə qayıtmadın. Sən o halında da məndən yüksəkdə dayandın... Sən mənimsən, mənim dünyamsan!

Bu fikirlər, ağır sarsıntılar içərisində vurnuxan Rəşid gəlib kresloda əyləşdi. Çox çəkmədi ki, onu da yuxu tutdu. Nə qədər yatdığını bilmədi. Nəhayət Nişanənin səsinə oyandı.

— Hələ getməmisən, Rəşid?

— Yox... Kresloda yatmaq olar. Burda nə var ki? Hərbdə olanda bəzən rütubətli torpaq, yanlarımızı əzən daşlar üzərində yuxuya dalmışıq... Sənə sudan, çaydan nə verim?

— Heç nə?

— İndi necəsən?

— Yaxşıyam.

— Darıxmırsan ki?

— Yox... Bircə Fəridəm, Fəridim yanınmda olsaydılar. Səslərini eşitsəydim...

— İstəyirsən, onlara telefon açım, danış.

— Saat necədi?

— İki otuz.

— Yox... İndi mışıl-mışıl yatırlar... Yuxularına haram qatmayım... Dünəndən beynim doluydu, Rəşid. Qara-qura şeylər fikirləşirdim. Beynim təmizləndi. Elə bil, açıq, mavi səmadı.

Dünəndən halım dəyişdi... Gecənin vahiməsi... Solğun səma, günəşin qürubu, axşamın süqutu... mənə olduqca ağır təsir elədi. Bütün günü, elə bil, dünya başıma dolandı. Ürəyim qalxırdı. Yediyimi qaytarmaq istəyirdim. Yaxşı bildiyim şeylərdə qara-quralar axtarırdım. Ağlamaq istəyirdim. Hərdən öz-özümə fikirləşirdim: nə qədər ziddiyyətli adamam?! Eyni hadisədən birbirilə tam əks qütblərdə dayanan, biri digərinə yovuşmayan iki təəssüratın təsiri altına düşmüşdüm. Keçirdiyim ziddiyyətli duyğuların axını birinci halda mənim içimdə fərəhləndirici duyğular yaradırdısa, qəlbimi sevgiylə doldururdusa, ikinci halda isə ruhumu sarsıdır, beynimə mənfi emosiyalar yaradan toxumlar səpirdi. İnan mənə, necə var, elə də deyirəm. Vicdanımın çökmüş səsinə qulaq asaraq deyirəm, mən kinsiz-küdurətsiz adamam, hamıya səmimi, mehribanam, Allahımın mərhəmətinə sığınıram. Mən səni yüksək dəyərləndirirəm. Övladlarım qədər istəyirəm, polkovnik.

— Sən, Elxan Azəriylə Aliə yanına gələndə, doğrusu, məni çox qorxutdun. Az qala məni dəli eləyəcəkdin.

— Hə... Ola bilər. Gəldikləri yadımdadı, getdikləri yox... Nə üçün danışmışam, necə danışmışam, aydın təsəvvür eləmirəm... O yadımdadı ki, mən uşaqlarla bağlı ağrılı, ürəkparçalayıcı yuxu görmüşdüm. Deyirlər, dünyada ən dəhşətli şey uşaqların iztirablarına şahid olmaqdı. Yuxuda gördüm, Fəridlə Fəridəni gözlərimin qarşısında paramparça eləyirlər. Ehtiraslarım coşub bütün vücudumu çulğaladı. Səni çağırdım, üzümə baxdın. Uşaqlara köməyə gəlmədin. Səsimə səs vermədin. Mənə ağız büzdün. Onda dəlilik həddinə çatdım... Son anda oyandım. Yanımda yatmış olsaydın belə, səni, bəlkə də, laqeyd, əclaf deyə parçalayardım. Ehtiraslar insanın alışıb-yanan həyəcanını yüz dəfələrlə qaldırmağa qadirdi.





Rəşidi dəhşət bürüdü. O, arvadına təskinlik gətirəcək, yorğun-arğın hisslərini ovudacaq heç bir söz deyə bilmədi. O, qalxıb arvadının çarpayısının qırağındaca oturdu. Nişanə başını balıncdan qaldırıb ərinin çiyninə söykədi. Gözlərini süzdürüb səmimiyyətlə dedi:

— Əzizim, beləcə sənə sığınıb yatmaq istəyirəm.

Rəşidin donuq qəlbi bir an içərisində sanki açıldı. O, başını arvadına tərəf döndərdi və səmimiyyətlə pıçıldadı:

— Əzizim, hər şey yaxşılığa doğru gedir. Bu səhər uşaqlara da telefon açmışam. Sənsizləyiblər.

— Mən də...

Rəşid atalı-analı günlərini xatırladı. Bacı-qardaşlarının iztirablı həyatları, Aslan babanın, Günəş nənənin qayğıları, elədikləri əxlaqi söhbətlər... gəlib durdu gözləri önündə. O da dərindən ah çəkdi, pıçıltılı səslə dedi:

— Eh... İncə qəlblərin iztirabları... Dünyanın məkrindən xəbərsiz uşaqlar... Göz yaşları axıdan analar... Bədheybət aləm... Ədalətsiz insanlar...

— Bəsdi, polkovnik. Yenə dərdin açıldı. Adə, dünyanın dərdi sənəmi qalıb?.. Əcəb işdi. Bir azdan dan yeri söküləcək. Günəşin al şəfəqləri pəncərədən gülümsünə-gülümsünə otağa səpələnəcək. O qızılı ziyalar səni də bürüyəcək. Ürəyin açılacaq. Arzuların qanadlanacaq, diləklərin dil açacaq. Həyat yenə əvvəlki tək öz axarına düşəcək... Biz ah-vayla, niskilli duyğularla hara gedəcəyik bu dünyada? Bir gün varıq, bir gün yoxuq... Çox qəribədi...

— Eh... Var-yoxu düşünən varmı?.. Yox!.. Olsaydı, qanlar niyə tökülürdü, əzizim. Milyard illərdi yol gəlir insan. Öz-özünü yeyə-yeyə, didə-didə, dağıda-dağıda... Nə var, nə var, kimdənsə, nəsə qoparsın. Xalqlar da, millətlər də fərdlər kimidi...

— İnsan xəstələnib başını yerə qoyanda özünə gəlir. Elədiyinin mənasızlığını anlayır. Düşünür: əcəba, bu nə həyatdı?! Bu nə zillətdi?! Axtar, ara, axırda da tulla get. Gözlərinə heç nə görünməsin... Nə isə, polkovnik, içim oyulur. Gəl söhbəti dəyişək. O gün ağzından qaçırdın ki, Elxan Azəriylə qan qohumusuz...

— Hə... İllərin ayrılığı. Erməni fitnə-fəsadı. Erməni təcavüzü. Yurd-yuvamızdan qovulduq. Hamımız pərəm-pərəm olduq. Taleyin oyununa bax... Harda, kiminlə qarşılaşdıq. Vallah, həyatı qınayırıq. Ancaq həyat möcüzələrlə doludu...

— Aliə ruha yaxın xanımdı. Onunla düz-əməlli tanış ola bilmədim. Allah kəssin xəstəliyi. Bilmirəm, onun, ya mənim bəxtimdəndi. Düz-əməlli danışa bilmədik. Ancaq qan qaraltdım.

— Keç üstündən. O barədə az düşün... Yenə gördün, ağlagəlməz bir şey çıxdı ortaya...

— Mənim onunla ilk tanışlığım çox uğursuz alındı, polkovnik. Gərək belə olmayaydı. Səncə, inciməzlər ki?

— Çalışacam, Elxan Azəriylə isti əlaqələr qurum. Qərbi Azərbaycana gedə bilməsək də, doğulduğumuz torpağı ziyarət edə bilməsək də, heç olmasa, onu Bakıya dəvət eləyim.

— İstəsələr, ev alıb Bakıda da yaşaya bilərlər.

— Ona inanmıram. Bakı Elxan əfəndinin vətənidisə, Aliənin, övladlarının da qibləgahı Türkiyədi, İstanbuldu. Gərək onlarla danışanda bunları da nəzərə alaq...

— Yaxşı, polkovnik. Bu gecə sən də qaldın yuxusuz. Üz-gözündən yorğunluq yağır. Bu da mənim sənə xeyirim.

— Biz xeyir güdürük?

— Zarafat eləyirəm... Sən get, dincəl...





## Yalquzağa bənzərlik

Elxan Azəri Rəşidlə görüşəndə onun əlini buraxmadı, gülümsünüb dedi:

— Bu axşam bizim qonağımızsan. Aliə xanım axşama tədarük görüb.

Rəşid tutuldu. Sıxıntı keçirə-keçirə dedi:

— Əziyyət...

— Qurtardıq... Mən xanımıma deyə bilmərəm ki, təklif elədim, Rəşid özü qonaq olmaq istəmədi.

Rəşid fikrə getdi. İnadın yersizliyini hiss elədi. Boynunu qısıb çiyinlərini çəkdi. Şübhəsiz, bu hərəkət razılıq əlaməti idi.

— Elxan əfəndi...

— Nədi?

— Əliboş...

— Başa düşmədim. Öz evinə də?..

Rəşid sıxıldı:

— Axı bizdə...

— Bizim-sizin yoxdu. Əyləşək taksiyə.

Rəşid nə bəhanə gətirəcəyini bilmədi. Elxan Azəri Rəşidin qoluna girib onu yol kənarında dayanan taksiyə tərəf çəkdi. Onlar arxa oturacaqda əyləşdilər. Elxan ünvanı sürücüyə bildirdi. Maşın yerindən sürət götürdü. Çox çəkmədi ki, dolanbac, əyri-üyrü yollarla gah yoxuşa qalxan, gah da enişə düşən maşın çoxmərtəbəli binanın qarşısında dayandı. Elxan sürücünün pulunu verib yola saldı. Liftə minib birbaşa altıncı mərtəbəyə qalxdılar. Elxan zəngi basmışdı ki, Aliə xanım: — Buyurun... Buyurun, xocam, — deyə gülər üzlə Rəşidlə ərini otağa dəvət elədi. Rəşid salam verərək ayaqqabılarını çıxarıb çəkələkləri geyindi. Elxan: — Fuad, Əhməd, Nərgiz, — deyə uşaqlarını səslədi. Fuad qabaqda, arxasınca da Əhmədlə Nərgiz gəldilər. Elxan:

— Görüşün. Rəşid əminizdi. O, Bakıda yaşayır. Yaxın qohumumuzdu.

Rəşid uşaqları bir-bir qucaqladı. Üz-gözlərindən öpdü. Onun gözlərinin dolması uşaqlara da təsir elədi. Elxan dərhal: — Gedin, dərslərinizlə məşğul olun, — dedi. Üzünü Rəşidə tutdu:

— Xocam, mənzilimiz beş otaqlıdı. Bura mərhum İsfəndiyar dayımın evidi. Xanımımın da ayrıca evi var. Mən səni qəsdən bu evdə qəbul eləmək istədim. Çünki indi dayımın ruhu bu evin həndəvərində var-gəl eləyir. Buradakı divarlarda, əşyalarda onun əl izləri var... Burda olduğumuz müddətdə inanıram ki, o da bizimlə birlikdə olacaq.

Rəşidin içi sıxılır, bütün vücudu lərzəyə gəlirdi. O nə danışacağını, necə hərəkət eləyəcəyini bilmirdi. Elxanla Aliə onu bütün otaqlarla tanış elədilər. Axırda qonaq otağına keçdilər. Zövqlə bəzədilmiş otaqlar, mənzilin quruluşu Rəşidin çox xoşuna gəldi. Qonaq otağı böyük idi. Boya çəkilmiş döşəmənin parketi qızılı rəngə çalırdı. Kəllə divara İsfəndiyarla onun arvadının birlikdə çəkdirdikləri böyük şəkil vurulmuş, aşağısında isə televizor qoyulmuşdu. Pəncərələrlə divarda təbiət mənzərəsi açılmışdı. Pəncərələrə vurulan tül pərdələr otağın divar kağızlarıyla həmahəng idi.

Divarın dibində divan, divanın yan tərəflərində yumşaq kreslolar, onların da qarşısında jurnal, qəzet qoyulmuş stol vardı.

Evin ortasına stol və onun da ətrafına stullar qoyulmuşdu...

Rəşidlə Elxan divanın ətrafındakı kreslolarda üz-üzə əyləşdilər. Aliə xanım onlara çay verib, yemək tədarükü üçün mətbəxə keçdi. Söhbət gah Bakıdan, gah İstanbuldan, gah da dünyada baş verən hadisələr ətrafında çövlan eləyirdi. Beynəlxalq aləmdə gedən hərəkətlər, siyasilərin dünyaya münasibəti, ikili oyunları, ən nəhayət, İŞİD-in İraqda törətdiyi vandalizm, Əl-Qaidənin, Səudiyyə Ərəbistanı və onun rəhbərliyi altında yaradılan koalisiyanın Yəməndə saldığı qırğınlar əsas mövzu idi. Rəşid





Qarabağ vuruşlarında və ön cəbhədə gördükləri haqsızlıqları dilinə gətirdi:

— Əfəndim, bəxtin onda gətirib ki, mərhum dayın səni o istibdad bataqlığından çıxarıb. Məhv olmağa imkan verməyib. Sənə həyat bəxş eləyib. Şükür ki, gözəl ailən, gül kimi övladların var.

Aliə:

— Ermənistan-Azərbaycan münaqişəsi barədə internet vasitəsiylə sosial şəbəkələrdən məlumat əldə edəndə dəhşətə gəlirəm. Hərdən Elxana da deyirəm: bizim millətimizin nədi günahı? Dünya dövlətləri niyə bu haqsızlığa göz yumurlar?

Elxan Azəri:

— Dəniz suyunun dadını bilmək üçün deyirlər bir qurtum da içmək kifayət edər. Görmüşəm, polkovnik, o bir gecənin sitəmlərini gözlərimlə görmüşəm. Yaddan çıxası deyil. Üstəlik, ata-ana üzünə həsrət qalmağım, bacı-qardaşımı itirməyim...

Rəşid:

— Mənim indi xeyli yaşım var. Hər il də  yaşım üstə yaş gəlir. Təcrübəm artır. İnsanları yaxşı tanıyıram. Yaxşıların yaxşısına, pislərinsə əclaflarına bələd oluram. Dost-tanışlarımın da, düşmənlərimin də münasibətlərini ayırd edə bilirəm. İnsanlar bir-birilərindən nə qədər fərqli olsalar da, fizioloji cəhətdən oxşardılar. Ancaq insanların ümumi cəhətləri daha çoxdur, bəlkə də səhv eləyirəm: yaltaqlıqları; məddahlıqları; bir-birilərinə kəf gəlmələri; başlarına corab toxumaları; oxumuşların qeyri-ziyalılıqları; mərdimazarlıqları; dünya malına hərislikləri; paxıllıqları; xəyanətləri; xudbinlikləri; hər şeydə özlərini görmələri; vəzifə hərislikləri; məkrlikləri; şöhrətpərəstlikləri; vicdansızlıqları; qeyrətsizlikləri; ar-namuslarını arxalarına atmaları; bir-birilərini həmləyə götürmələri; ağılsızların ağıllılara pedaqoji mühazirələr oxumaları; qaniçənlikləri... hansını deyim. Hamısı gözügötürməzlikdəndi. Bu əlamətlər paxıllığın bic balalarıdı.

Elxan Azəri:

— Əfəndim, bizə elə gəlir ki, ən keçilməz sədləri geridə qoymuşuq. Gəl özümüzü aldatmayaq. Fəlakət insanla birlikdə doğulur, birlikdə ölür. Biz istəsək də, bir çox hallarda ondan qaça bilmərik. Bir çox şeylər də var, onlara siyasi səbatsızlığımız ucbatından düçar oluruq. Bütün xalqlarda cinayət törədənlər olur. Bizdə niyə çoxdu? Bu sualın cavabını özümüz axtarmalıyıq. Qorxub, çəkinib adını çəkmədiyimiz bəzi fitnə-fəsadları cəmiyyətə özümüz ötürürük. Heç vaxt sadə adamlar kimsəyə xəyanət etmir. Torpaq, vətən satmır. Onun satıcıları məmurlardı, oliqarxlardı. Müstəsna səlahiyyəti olan şəxslərdi. Onların bir göz qırpımında satdıqlarını kasıb-kusublar canları bahasına belə geri alan bilməzlər. Qırılırlar, ölürlər... Bu zavallılar bilmirlər ki, onları bu bəlaya salanlar kimlərdi. Bax, ən böyük faciə budur.

Aliə:

— Tamamilə doğrudu.

— Rəşid xoca, eşitdiyimə görə, sizin müdrik Zeynəb qarınız olub.

— Hə, olub. Bu yaxınlara qədər yaşayırdı. O da xalqa, millətə verilən sitəmə, işgəncəyə dözmədi, dünyasını dəyişdi. Necə bəyəm?

— O deyərmiş: “Balıq başdan iylənər”.

Elxan Azəri özünü saxlaya bilməyib qəhqəhə çəkdi və dedi:

— Xanım, bəyəm, heç Zeynəb qarının yeri idi?

Aliə:

— Niyə yeri deyil? Yerində və zamanında deyilən söz qızıldan qiymətlidi.

— Bunu kim deyib?

— Kim deyəcək, elə sənin el qızın — Zeynəb qarı.

Rəşid:

— Haqq sözə nə deyəsən?.. Xəstə cəmiyyət görün insanları





nəyə məcbur eləyir? Xasiyyətini dəyişməyə. Bu mümkündürmü? Onu necə dəyişmək olar? Deməli, mən özümü bir kənara qoymalıyam? Tamam başqa adam olmalıyam: yalançı: yaltaq; ikiüzlü; fırıldaqçı; dələduz; kimlərinsə əlaltısı; bəli, baş üstə, oldu... deyəni. Doğrudu, elə adam olmaz ki, onda mənfi cizgilər olmasın. Xoşbəxt o adamdı ki, bu mənfi cizgilərin üstünə pərdə çəkməyi bacarsın. Hərdən düşüncələrim məni alıb hara gəldi aparır, varlığımı sarsıdır. Ölümcül canımı qamarlayır. Çalışıram ki, məni bu halda görən olmasın. Ancaq nə fayda. Görməsələr də, duyurlar.

— Danışdıqca hövsələn daralır, polkovnik. Allah xatirinə o əsəbiliyi, daxili sarsıntıları, kimdənsə nəsə ummağı özündən rədd elə. İnfarkt ola bilərsən, insult keçirərsən.

— Adamın içinə qapanıb öz yerində oturması hələ azdı. Xəstə cəmiyyətdə incimək, küsmək əbəsdi. İnanın, mən mərdimazarlıqdan çox-çox uzaq bir adamam. Neyləyim ki Allah məni belə yaradıb. Hər gün ən etibar elədiyim, güman bəslədiyim şəxslər ət tökən işarələrlə qazandığını ver, deyirlər. Min bir bəhanələrlə adamı incidirlər. Məcbursan alçaqların üzünə qayıtmağa. Sən də dözmürsən, söyürsən, döyürsən, qan çıxarırsan... Mən elə güman eləyirəm ki, səbəbsiz-filansız heç nə olmur. Hər şey düşünülmüş, ölçülü-biçilidi.

— Xocam, insanda ədalət axtarmaq əbəsdi. Hamının köksündə ürək döyünür. Hamının istəyi, arzusu var. Hamının könlündən firəvan həyat keçir. Əslində, bu, bütün insanların arzusudu. Biz insana haqqına sahib olmaq şəraiti yaradırıqmı? Bir az da dərinə getsək, insan ən adi dəyəri insana verirmi? Verənlər də nadir şəxslərdi. Hamı yalandan ədalətdən dəm vurur. Özümüzdə olmayan şeydən danışmağa öyrəncəliyik. Ədalət olmayan yerdə, polkovnik, vicdandan danışmaq əbəsdi. Bu, mənim sözüm deyil. Tarixlərdən gələn hikmətdi. Böyük kəlamdı. Böyük müdriklərə, zəki əqidə sahiblərinə görə vicdan olmayan şəxsdə

ləyaqət, şərəf, namus axtarmaq gülüncdür. Olsa-olsa, insan, o da ara-bir, həmişə yox, heysiyyəti barədə düşünə bilər. Guya, hərc-mərclikdən qaçıb hamı uğur uğrunda mübarizə aparır. Hansı ki, hərc-mərclik, anarxiya olmadan heç kim qazanc əldə eləyənməz.

Aliə dözənməyib ərinin sözünə müdaxilə etdi:

— Külli miqdarda pulu vəzifə sayəsində əldə eləyən məmur bircə dəfə vicdan barədə düşünməyi ağlına gətirirmi? Başının üzərində əyləşən bir dələduzun öz xalqını soyub talaması insanlığa sığandımı? Bunu deyin! O şəxslərdə hansı mənəvi dəyəri axtarırsız? Özünüzü əbəs yerə aldatmayın. Balıq tutmaq üçün gərək əvvəlcədən suyu bulandırasan, yoxsa istəyinə nail ola bilməzsən.

Rəşid astadan, sakit tərzdə bildirdi:

— Aliə xanım lap ürəyimdən dedi. Şəxsən mən hər şeyimi itirmişəm. İtiriləcək heç bir şeyim yoxdu. Bir xanımımdan, bir də oğlum və qızımdan savayı. Hərdən içimdə tufanlar qopur, belim dağlar ağırlığa yükə güc-bəlayla tab gətirir. Yeganə təsəllim ruhi sakitliyimdi. Ümidsizliyə heç zaman qapılmamağımdı. Ancaq dilim nəinki acıdı, hətta, desəm, zəhərdi, ona da inanın. Bu xasiyyətimə görə bir çoxları ətrafımda haqsız dedi-qodu yaradırlar.

Aliə dərhal:

— O da içinizdəki ədalət hissindən doğur. Ondan qorxub-çəkinməyin. O xislətiniz keyfiyyətinizdi.

— Doğrudu... Çox yanqılara düçar olmusuz. Amansız məşəqqətlərdən keçmisiz. Mübarizəsiz həyat yoxdu, deyiblər. Sınmaq, mübarizədən çəkilmək acizlik əlamətidi. Sözlərinizdə çəkinəcəklik duyuram. Həyata ümidinizin tükəndiyini hiss eləyirəm. Yox... İnciməyin məndən, bunu mən acizlik hissinə qapanma kimi dəyərləndirirəm. İstəməzdim...

Elxan Azəri:





— Bilirəm, lap uşaqlıqdan insanlardan incik düşmüsən, polkovnik. Yaşadığımız dünyada bəlkə böyük əksəriyyət sənin kimidi. Elə biri mən... Həyatımız nə qədər oxşardı? Ömrümüzün üst-üstə düşən nöqtələri çoxdu. Yanıb-yaxılmaqla, özümüzü oda-külə vurmaqla yolunu azanlardan kimləri yola gətirə bilərik? Məncə, heç kimi. Gücümüzün çatdığı kötüyü, daşı qaldırmağa girişməklə ancaq özümüz özümüzü məhv eləyə bilərik.

Rəşid:

— Elxan əfəndi, mən o qədər pessimist, aciz, əlindən iş gəlməyən adam deyiləm. Bu sözləri danışmaqla dünyada gedən prosesləri izah etməyə çalışdım. İnsanın ən böyük fədakarlığı özünün insani məsuliyyətini dərk etməsindədir. Məsuliyyətin itirilməsi hər kəsin cəmiyyət qarşısındakı böyük günahıdı.

Aliə:

— Polkovnik, siz oxuduğunuz romanların, baxdığınız kinofilmlərin, inciməyin məndən, elə bil, təsiri altındasız. Həyat başqadı. Oxuyub öyrəndiklərimiz başqadı. Diqqət yetirin, siyasilərə. Tribunadan xalqa dedikləri başqa, pərdə arxasında elədiklər şıdırğı rəqslər tamam başqa. Birincisi özlərini təbliğ, ikincisi isə xəyanət, cinayət. Avam, sadəlövh xalq isə pərdə arxasındakını heç ağlına da gətirmir. Unutma ki, fırıldaqçı siyasilərə rəvac verən cəmiyyət özü xəstədi. Xəstə cəmiyyəti sağaltmaq isə əsrlər tələb eləyir.... Tək-tək vicdan sahibləri nə qədər atılıb-düşsələr də, əlləşib-vuruşsalar da qeyri-əxlaqi düşüncə oyunçuları özlərinin elədikləri bütün qüsurları onun vicdansızlığında axtaracaqlar. Onu gəlib-gedib bezdirəcəklər. O, zavallı da deyilənləri eşidib çaş-baş qalacaq. Bəzən də başı elə çevriləcək ki, günahı özündə axtarmalı olacaq. Onda da haqlısan, ya haqsız, fərq eləməz, elədiyinə peşmançılıq çəkəcəksən. Adamı elə oynadırlar, nə elədiyinin fərqinə də varmır. Bilməyərəkdən özünü girdaba salır... Bir sözlə, adamı şirin canından bezmək həddinə çatdırırlar... Ən yaxın adamları düşdüyü vəziyyəti gö-

rüb qaçmalı olurlar. Bütün bunlar ömrü qısaldır, Allah verən həyatı cəhənnəmə döndərir.

Elxan Azəri:

— Rəşid, Azərbaycan mənim çarpan ürəyimdi, xalqsa canımdı. Çox heyf ki, mənim ölkəmin, xalqımın, millətimin ətrafında kələkbazların çox söz-söhbətləri olur. Bu da güman ki, zəngin sərvəti, bir də türk oğlu türk olmasıyla bağlıdı. Kimlərə etibar eləyirsə, onlardan da sədaqətsizlik görür. Bax, mən bunu anlamıram. Burda bizim də günahımız var. Çünki unutqanıq. Mübarizəmizdə davamsızıq. Düşmənsə, çox məkrlidi, paxıldı, xudpəsənddi, gözügötürməyəndi. Belələrindən çox şey gözləmək olar. Türkü hörmətdən, nüfuzdan salmaq istəyirlər. Düşmənlər yaxşı bilməlidilər ki, dedi-qoduyla, təqiblərlə heç nə əldə eləmək mümkün deyil. Belə vəziyyətdə qızışmaq, siyasətdən uzaq söz, fikir söyləmək ocağa neft tökməyə bənzər, polkovnik. Hər atmacadan ötrü hiddətlənmək fayda gətirməz. Burda səbr, təmkin, ağıl və düşünülmüş hərəkət və siyasi gedişlər gərəkdi. Səbr və təmkin ağlın görən gözüdü, zəkanın gücüdü... Çox kədərlənmə, polkovnik, kim nə deyir-desin, kim nə düşünür-düşünsün, dünya necə gəlib, elə də gedəcək. Gec-tez haqq öz yerini tutacaq. Hər şey öz vəziyyətinə qayıdacaq. Axı bir millət kimi varıq. Millətimiz, dövlətçiliyimiz var. Deməli, qüdrətimiz var.

Aliə:

— Elxan danışdıqca qəlbim fərəhlənir, polkovnik! Mübarizə! Mübarizə! Bunsuz öz varlığını duymaq, kimliyini tanıtmaq mümkün deyil. Mübarizəsiz həyat faciədi, ölümdü. Bu isə, heysiyyətin dəhşətli dərəcədə tapdalanmasıdı.

Rəşid dərindən nəfəs aldı. Sonra təmkinlə dedi:

— Bu ikili standart nə vaxt sona yetəcək? Mən xalqımın, vətənimin fəlakəti barədə düşünəndə, ruhən sarsılıram. Deyəsən, çox çənəyə verdim... İstəməzdim, sizi yorum.





Elxan:

— Nə yormaq? Vətən, millət haqqında danışmaq, onun qayğısına qalmaq, cani-dildən onunla yaşamaq deməkdi.

Rəşid gülümsündü:

— Söhbətimizi nikbin axardan mən çıxardım.

Aliə:

— Mənim üçün, xocam, çox maraqlı oldu. Görünür, siyasətə, cəmiyyətin içtimai həyatına meyilli adamsız.

Rəşid:

— Cəmiyyət siyasətdi. Yaşadığın cəmiyyətin üzvü olasan, onun vuran nəbzini tutanmayasan... Məncə, bu, insanın meşədə gəzib-dolaşan yalquzağa bənzəməsidi.

Aliə Rəşidi diqqətlə dinləyir, ürəyində onun dediklərini saf-çürük eləyirdi. Hərdənbir də ərinin üzünə baxır, gah başını yuxarı qaldırıb endirməklə, gah da kipriklərini qırpmaqla Rəşidin fikirlərini təsdiqləyirdi.

Elxan:

— Xocam, həyatın qəribəliyi də ondadı ki, nə baş verəcəyini əvvəlcədən bilmirik. Olub keçənlər barədə düşünəndə də gec olur. Bəzən sevgiylə, xoşhallıqla yanaşı, bizə qəm, kədər, qüssə, ağrı-acı, ağlagəlməz narahatlıqlar da qismət olur. Dünya belə dünyadı. Müdriklər deyiblər ki, gərək bir tərəfini boş buraxasan. Buraxmasan, bizdən uzaq, daha böyük fəlakətlərin tamını dadmış olarsan.

Aliə:

— Yox... Mən səninlə razılaşa bilmərəm, Elxan. Axı, dünyaya baxmağa, tamaşa eləməyə gəlməmişik. Geniş mənada götürəndə, biganəlik ölümdü. Cəmiyyətin özünün özünə qəsdidi. Cəmiyyət varsa, biz o cəmiyyətin üzvləriyiksə, ondan əlaqəsiz yaşamaq mümkün deyilsə, deməli, bizim də o cəmiyyətdə yerimiz var, rolumuz var. Onda ağlın, əxlaqın, dəyərlərin hökmüylə tələb eləmək haqqımız var, həm də onu nəsə ötürmək borcu-

muz var.

Elxan:

— Mən sizin dediklərinizin əksinə getmirəm və getməyə haqqım da yoxdu. Çünki dedikləriniz yaşam tərzimizdən gələn tam həqiqətdi, onun başlıca prinsipidir. Gəlin onu da etiraf eləyək ki, bəzən zaman, hadisələrin çözələnməsi elə sürət götürür ki, biz nə qədər onun ardınca qaçsaq da, ona çatmaq istəsək də, bir şey alınmayacaq. Bilirsiz ki, dünya nəhənglərin istəkləriylə idarə olunur. O zaman nə ayrı-ayrı adamlar, nə də xalqlar onun iradəsindən kənarda qala bilməzlər. Adi təbii məntiqdi. Çox zaman anlamaq istəmirik. Sel gələndə qarşısına çıxan hər şeyi vurub-dağıdır. Yerlə-yeksan eləyir. Cəmiyyət də belədi. Götürək elə ağrılı Qafqaz məsələsini... Böyük dövlətlər zorlamasalar, Qafqaz xalqları reallıqdan uzaq iddialar qaldırıb öz aralarında qırğın salarlarmı? Gözə görünməz əllər tətik çəkirlərsə, o fəlakətdən can qurtarmaq olarmı? Baxın, neçə illərdi Çeçenistandakı fəlakətlərə. Ermənistan-Azərbaycan münaqişələrinə. Gürcüstan-Rusiya faciəsinə. Şərqdə insanların düşdükləri bəlalara. Son illərdə Aralıq dənizinin balıqlarının mühacirlərin əti ilə qidalanmasına. Bunların arxasında kimlər dayanırlar? Əlbəttə ki, qüdrətli hərbi gücü olan dövlətlər. Onların rəhbərləri. Hər şey hüquq müstəvisində həll olunmalıdı, güc müstəvisində yox... Bir qrup azğın adam oturub kabinetlərdə baş gicəlləndirici şərablardan, uyuşdurucülardan istifadə eləyə-eləyə, əzizlərim, dünyanın siyasi, coğrafi xəritəsini təzədən cızırlar. Nə qədər istəklərinə nail olanmayıblar, fəlakətlərin birinci fazası törəmədə olacaq... İkinci frazası, əlbəttə ki, ən ağrılısı, zorun ağlın yerində qərar tutmasıdı. Şəxsən mən deyirəm. Buna şübhəniz olmasın. Güc birliklərinin, istəklərinin sona yetəcəyinə də inanmıram. Niyyətləri gözlərində qalacaq.

Aliə ikimənalı:

— Belə çıxır ki, tarixin çarxı geri dönməyəcək.





Elxan:

— Bəlkə də.

Rəşid:

— Məni bağışlayın, Elxan əfəndi, hər dəfə səninlə söhbət eləyəndə içimdə gəzdirdiyim dərd-sərimi çalxalayıb bildiklərimi, təsəvvür elədiklərimi, hətta xıltlarımı açıb tökürəm. Danışırıq, yüngülləşirəm. Sonra da peşman oluram, sənə başağrısı verdiyim üçün.

Elxan:

— Sən nə danışırsan, Rəşid. Sənin dərdin bəyəm mənim dərdim deyil? Nəsilimiz itib-batıb. Nəsilsiz, köksüz insanmı olar? Ata, ana nəfəsi burnuma gələndə dəli oluram. Hərdən torpaq məni özünə çəkir... İndi tapdığım, sənsən, qardaş. Doğma torpaqlarımızda, baba yurdlarımızın xərabəliklərində bayquşlar ulaşırlar...

Elxan danışdıqca gözləri yaşardı. Kövrəldi. Aliə heç vaxt ərini bu vəziyyətdə görmədiyindən ona yazığı gəldi. O, söhbətə qəsdən özü girişdi:

— O yaralar, xocam, hamımızındı. Deyirik, gülürük, özümüzə gələndə anlayırıq ki, içimizdə böyük bir dağ, bəzən də uzanıb gedən boş dərələr yatıb. Heç olmasa, sən danışıb içini boşalda bilirsən.

Elxan:

— Qardaş, səninlə ilk görüşüm mənə anamın laylalarını xatırlatdı. Kaş o laylalar uzun sürəydi. Kaş o laylaların sadaları altında əbədi yuxuya dala biləydim.

Rəşid bir az küskün halda:

— Açığını deyim ki, bu söz-söhbətlərimdən bəzən ətrafımdakı adamlar da qaçırlar. Onları başa düşürəm. Fikirləşirlər ki, deyinməklə iş bitmir. Donuz darıdan hızzamaqla çıxmaz. Bu missiyanı öhdələrinə götürənlər söz demək əvəzinə iş görməlidirlər.

— Bircə şeydə təsəlli tapıram: bağışlanması mümkün olmayan günahım yoxdu... Yaşımın elə vədəsidi ki, eləyəcəklərim, dilimə gətirəcəklərim barədə oturub götür-qoy eləyirəm. Ancaq nə fayda, yenə səhvə yol verirəm. Bu o deməkdir ki, hər yaşın, hər məqamın öz səhvləri var. İnsan heç zaman səhvlərdən xali ola bilməz. Qəribə olsa, onu da deyim ki, günahlarım heç vaxt məni ruhdan salmır. Mən daşürkəli, anlamaz adam deyiləm. Mən nə quzuyam, yazıq-yazıq durub baxam barəmdəki haqsızlıqlara. Nə əldən düşmüş, gücünü itirmiş qocayam — Kim nə deyir-desin, Allahı bilsin, özü bilsin — qənaətinə gələm. Nə də canavaram, yırtıb-dağıdam, acgözlük eləyəm, qana həris olam. Əsla, onlardan heç biri deyiləm.

Aliə dərhal:

— Xocam, qüsura baxmayın, dediklərinizdə ziddiyyət duyuram.

Rəşid dərhal fikrə getdi. Elxan arvadının söhbətini yumşaltmalı oldu:

— Xocamı qınama, Aliə xanım. Adam düşdüyü ekstremal vəziyyətdən çıxış yolları tapa bilməyəndə fikri bulanır.

Rəşid deyilənlərə qəti etiraz elədi:

— Yox... Mən siz deyən kimi düşünmürəm. Bir də ki, söhbət təkcə cəbhə bölgəsindəki şəraitdən yox, həm də insanlar arasındakı soyuq münasibətlərdən gedir. Nə fərqi var, cəbhədə insanlar xərc çəkib düzəltdikləri silahla öldürülür, arxada isə, biri digərini şəxsi mənafe güddüyünə, var-dövlətə, pula hərisliyinə görə didib parçalayır. İnsafa, mürvətə söykənməyən işlərə mən həmişə anormal hal kimi yanaşmışam. Ədəbsizliklə heç cürə barışmamışam. Ləyaqətim, heysiyyətim hər şeydən üstün olub. Məni tanıyanlar arasında nüfuzumu itirməkdən qorxmuşam. Nə gizlədim, elə indi də, ləyaqətini girov qoyanlar gözümün düşmənləridilər. İnsanlara güzəştə getməyə öyrəncəliyəm. Amma onun da dərəcəsi var. Məsələn: vətən, xalq, millət mənafeyi;





Azadlıq; haqsızlıq; ədalətsizlik; böhtan; şər; ağa qara demək və s. və i.a. Yaşımın üstə yaş qalaqlandıqca, nədənsə, heç səbəbini özüm də bilmədən tənhalığa meyillənirəm. Yəqin ki, belə olanda Allaha yaxınlaşıram. Onunla təmasa girə bilməyəndə kövrəlirəm, qüssələnirəm. Ürəyim yumşalıb muma dönür. Qəhərlənirəm. Gözlərim yaşarır, içimdəki xıltlar: paxıllıq, nikas, xəyanət... bir sözlə, məni nə qədər ki, cəhənnəm odunda yandıracaq şeylər var, hamısını əridə bilirəm. Yalandan, iftiradan uzaqlaşıram. Beləcə, hamının özünə arzuladığı həqiqət və ədalətə üz tutmalı oluram. Nə qədər uşaqlıq illərinə, qalsız-qadasız günlərə əl uzatsam da, o illərə yalnız xəyallarımda qovuşuram. Özümə gələndə, əldə elədiklərim yalnız və yalnız acılı-şirinli xatirələrim olur. Onda da iradəmin zəifliyini duyuram. Halım tez-tez dəyişir. Hərdən özümə qapanıram. Qəlbim qırılır. Ümidlərim sönür. Hər tərəf mənə tutqun görünür. Otururam otağımda. Elə hey fikirdəşirəm. Bu fikirlər içərisindən qırmızı xətlər keçir. Gözlərim ona dikilir. Çox istəyirəm, o xətti görməyəm. Ancaq nə fayda? Dünən, ya o biri gün gözlərimin önünə bir neçə saniyə gəlirdisə, indi bu müddət çox uzanır. Görünür, belə getsə, bu uzantı bir neçə gün sonra dəqiqələrə, nəhayət, saatlara çevriləcək. Düşünülə bilər ki, bu hoqqalı şey heç qırmızı da deyil. Bu sinimdə, bu məqamımda tam yəqinləşdirmişəm ki, o vaxtsız ölüm nişanəsidi. Bu nişanə çox şeyi təlqin eləyir: soyuqluq; durğunluq; halsızlıq; qəribsəmək; kövrəlmək; qüssələnmək; bir şeyi bəhanə eləyib, göz yaşları axıtmaq... Ən axırda ölüm kürsüsünə yaxınlaşmaq. Ürəyindən keçənləri açıb tökmək.. Və... Və... Və... Nəhayət, qırmızı xəttin hökmünə tabe olmaq...

Rəşidin səsi birdən-birə endi. Gözləri qıyıldı. Hiss olundu ki, gözləri uzaq keçmişinə dikildi. Elxan Azəri sükutu pozdu.

— Hə... Abi... Deyəsən, xəyalın çəkib səni lap uzaqlara apardı. Bir kəndinə qayıt. Bizim nəslin qisməti belə imiş.

— Necə, Elxan əfəndi?

Elxan:

— Bitki danələri tək ellərə səpələnmək. Bir də görürsən, çəməndə təsadüfən bir çiçək boy atır, qalxır. Hamını maraq bürüyür. Hamı baş sındırır və öz-özünə suallar verir: bu nə çiçəyidi? Bu çiçəyin yaşam məskəni haradı? O bura necə düşüb? Çiçəksə bu sualların fərqinə varmır. Öz ömrünü yaşayır. Toxumlayır. Bir gün yüngül meh əsir. Onun toxumlarını ətrafına səpələyir. Torpaq toxumları udur. Məhv olmaqdan, quşa-qurda yem olmaqdan qoruyur. Növbəti ilə ərmağan eləyir. Cücərdir. Boy atdırır. Mühitə öyrəşdirir, birdəfəlik bu torpaq bu yad çiçəyin məskəninə çevrilir... Deməli, biz də o çiçəklər kimiyik. Hərəmiz bir tərəfə atılmışıq. Uyğun yerdə məskən salmışıq. Nəsil artırırıq... Çox şeyi özünə dərd eləmə. Hadisələrin gedişi diqtə eləyir ki, biz salamat qalmaya da bilərdik. Ölənlərin arasında olardıq. Ancaq biz salamatıq. Nəsil yetişdiririk. Nəsli uzana-uzana gedəcəyik. Öz sözünü, kimliyini, varlığını yaranmışlar içərisində sübut edəcək. Bu da olacaq bizciyəzlərin xoşbəxtliyi.

Rəşid:

— Ona mən şübhə eləmirəm. Məni yandıran əzablarla ölən, ancaq vaxtı ilə yaşamaq eşqiylə həyata atılan günahsız uşaqlardılar. Heyf onlardan. Kim bilir, onlar gələcəkdə hansı kəşfləri eləyə bilərdilər?

Aliə:

— Görürəm, belə getsə, çox çəkməyəcək, iki qardaş baş-başa verib ağlaşacaqsız... Bir az təmkinli olun.

Aliənin dedikləri Rəşidə təsir elədi:

— Vallah, düz deyirsiz, Aliə xanım. Qocaldıqca lap nazilirəm. Gecə-gecədən keçir. Siz iş adamısız. Yatmağın vaxtıdı. Gedim hotelə. Mən də səhər Nişanəylə görüşəcəm. Görüm, xəstəxanadan nə vaxt təxliyyə olunacaq.

Aliə:

— Bura sizin öz evinizdi.





Elxan:

— Hə... Yer genişdi. Bu gecəni bizdə qal.

— Yox... Hotelə öyrənmişəm... Başqa vaxt...

Rəşid Aliə xanımla, uşaqlarla xudahafizləşdi. Elxan Azəri onu taksiyə qədər yola saldı...

## Gecə düşüncələri

Gecədən xeyli keçmiş hotelə qayıdan Rəşid qarmaqarışıq hisslər, dolaşıq fikirlər içərisində vurnuxa-vurnuxa soyunub yatağına girdi. Nə qədər çalışsa da yata bilmədi. Xəyal onu Qərbi Azərbaycanda doğulduğu torpaqlara çəkib apardı. Eyni zamanda, gah Xocalıdakı ağır, acınacaqlı həyatını, gah ömrünün Bakıdakı miskinli anlarını, gah da hərbçi kimi fəaliyyət göstərdiyi müharibə dövrünü xatırladı. Hərəsində də bir həsrət, bir ağrıacı, bir dözülməzlik, bir məşəqqət... Bakıda qoyub gəldiyi Fəridlə Fəridəni, xəstəxanadakı Nişanəni yada saldı. Hər dəfə də hadisələrdən hadisəyə təəssüf, təəccüb hissiylə, “ah” çəkmələrlə keçdi. O, öz-özünə dedi:

— Eh, vicdan! Vicdan! Sən nə qədər ki, insanın içindəsən, qərəzsizsən, təmizsən, safsan... Elə ki, qəlbdən kənara çıxdın — buna vicdanın zühuru da demək olar, — onda əlvanlaşırsan. Meyarlarını itirirsən. Bulaş-bulaş olursan. Səndən alət kimi istifadə eləməyə çalışırlar... Bəzən mən özüm də içimlə çölüm barədə düşünəndə dəhşətli vəziyyət alıram. Eybəcərləşirəm... Görəsən, bu, bütün canlılara xas olan əlamətdimi?.. Yoxsa, elə biz insanların xilqətində özünə məskən salıb? Aman Allah! İnsan özü barədə fikirləşəndə, ağlına nələr gəlmir? Cənnət qururuq. Unuduruq ki, bir az keçəcək, yaşadığımız dünyanın reallıqları ilə üz-üzə gələcəyik. Onda özümüzə qayıdacağıq. Vicdanın batili və zahiri süddən də ağ olacaq... Peşmançılıq başlana-

caq. Zahir batili dağıdacaq... Xeyli yaşım var. Həyatdan hər cür dərs almışam. Onun mahiyyətindən xəbərdaram. Başqa sözlə, dünyanın pisini də görmüşəm, yaxşısını da. Bəzən ikili mövqe tutmalı oluram. Əslində, bundan başqa yolum da yoxdur. Çünki məcburam. Pis odur ki, bu qəbahətlərimə görə sonralar peşmançılıq hissi keçirirəm və tez-tez də içimi didən suallara cavablar axtarmalı oluram: — Hərəkətlərimə görə maska taxmağıma — ikiləşməyimə ehtiyac varmı? Varsa, səbəbi nədi? İkiləşməklə nələrə nail oluram? Başqalarının nifrətini qazanmıram ki? Maskama baxıb mənə gülmürlər ki? Gülürlərsə, deməli, mən də onların sifətlərinə baxıb hırıldamalı olmuram ki? Bir növ əvəz qaytarmıram ki?.. Bu suallar qoyulursa, onlara cavablar axtarmalı oluramsa, deməli, hardasa adamlardan çəkinirəm. Çəkinməyim də səbəbsiz-filansız deyil. Ya yanlarında pis işim olub, ya gələcəkdə onlara işim düşə biləcəyini ehtimal eləyirəm, ya da nə gizlədim, cəsarətsizəm. Bilirəm, bu fikirlərimə görə mənə ağız büzənlər ola bilərlər. Ancaq etiraf eləyim ki, biz insanlar bir çox xasiyyətlərimizə görə bir-birimizə çox oxşayırıq. Hətta bəzi cəhətlərimiz eynidi. Gəlin açıq danışaq. Oxşar və ümumiliklərimiz bizi orijinallıqdan, fərdilikdən uzaqlaşdırır. Ətrafımızda baş verənlər, niyyətlər, asılılıqlar, çəkinmələr... etiraf eləyək ki, bizi insanlıq sifətindən çıxarır, eləyir heyvan... Böyük sandıqlarımızdan qorxub çəkinərək kiçiklərə hücum çəkəndə, güclülərə mədhiyyə oxuya-oxuya gücsüzləri cırıb dağıdanda əcəb nadürüst oluruq...

Ağlım söz kəsəndən əzab-əziyyət içərisində çabalamışam. Təsəvvürümə gətirə bilmədiyim qorxunc anlarla qarşılaşmışam. Bəzən "ölüm-qalım" labirintləriylə üzləşmişəm. Ancaq çalışmışam ki, kimsəyə zərər vurmayım. Ləyaqətimə, şərəfimə kölgə salmayım. Heç kəs məni əxlaqsız kimi tanımasın. Barəmdə həmişə yaxşı düşünsünlər. İnsanların xoşbəxtliyinə qənim kəsilmək nadürüst əlamətlərdi. Qəribədi, insan yeganə canlıdır ki, ya





nadan, namərd, nacins, nadürüst, ya da onların antonimlərinin şəbəkəsi altında ömrünü yaşayır. Öləndə də ya əxlaqsız, ya da əxlaqlı adam adı ilə torpağa gömülür...

Hərdən özümə qapananda deyirəm: axı sən o qədər də aciz adam deyilsən, polkovnik. Yetərincə düşüncən var. Əxlaqi dəyərlərə sığışmayan hərəkətləri, götür-qoyları özünə sığışdırmaq hissindən də çox-çox uzaqsan. Amma etiraf elə ki, çoxlarının xoşbəxtliyinə qənim kəsilən, hətta, öz yaxınlarına bədbəxtlik gətirən o qədər aldandığın adamlar var, sayı-hesabı yoxdu. Yaxud mahiyyətinə vara bilmədiyin hadisələr bəzən özünü də çaşdırır. Onda tamam başını itirirsən. Dünya böyük fəlakətlərin astanasındadı. Yaxşı pisə, pis yaxşıya qarışıb. Zeynəb qarı demişkən, it yiyəsini, bağa başını tanımır. Hamının gözləri bir-birinin cibindədir. Aldanmayan adam yoxdu... Bir sözlə, müharibə, axıdılan qanlar yaxşı nə vardısa, hamısını əlimizdən alıb apardı. Heç yadımdan çıxmaz. Kəşfiyyatda olduğumuz zaman erməniyə satılan bəzi Qərib kimi, Atabala kimi nankorlarımızın törətdikləri. Məsələ açılanda, canlarını qorxu, vahimə aldığından, and-aman eləyib özlərini müdafiə üçün yalan demələri, yüz cür bəhanə gətirmələri, ağlayıb sızlamaları, göz yaşları axıtmaları... Satqınlıqları nəticəsində vətənini, xalqını fəlakətə yuvarlamaları... Hərdən düşünürəm: anaları o canavar xilqətliləri nə adla dünyaya gətirib?! Onlar görəsən nə düşünürlər? — Mən də insanam? — sualına cavabları nə olur?.. Əlbətdə, heç nə! Belələri ilə oturub-durmağın, kəlmə kəsməyin faciəsi həmişə böyük olur... Heyf ki, yaşadığımız cəmiyyət elələrindən xali deyil. Görəsən. belə nadanlar, sarsaqlar nə düşünürlər? İmkanım olsaydı, xalqına, millətinə, vətəninə xor baxan alçaqların sifətini açıb tökər, kimliklərini hamıya bəyan edərdim...

Eh... Başımıza gəlməyən elə bir oyun qalmadı... Allah bundan betərindən saxlasın.

Fikirlər zənciri polkovniki hara gəldi çəkib aparırdı. O, hey

gah o üzü, gah da bu üzü üstə çevrilir, yuxulaya bilmədiyindən əsəbiləşirdi. Yarıyuxulu halda çarpayısından qalxıb pəncərənin ağ tül pərdəsini kənara sıyırdı. Müşahidə eləməyə başladı. Göy qübbəsini xatırladan şəhərin ecazkar görünüşü onu bir anlığa öz aləmindən qopardı. Zamanın necə axıb getdiyindən xəbərsiz olan polkovnikin diqqətini yaxınlıqdakı məscidin uca minarəsindən "Zəlim-xarə" üstündə pərdə-pərdə avazlanan, ruhunu titrədən azan səsləri cəlb etdi. O səs bir anlığa polkovnikin hisslərini dondurdu. O, handan-hana özünə gəldi: — Səhərdi, yuxum elə bil, qəhətə çəkilib, — deyib çarpayısına uzandı. Özü də bilmədən səhərin açılan vədəsində yuxuya getdi.

## Dəvət

Səhər yatağından halsız qalxan polkovnik dükandan iki dəstə təzə-tər, ətirli gül alıb arvadının müalicə olunduğu xəstəxanaya yollandı. O, qapı ağzında tibb bacısıyla qarşılaşdı. Bir güllərə baxdı, bir də tibb bacısına. İstədi, gül dəstəsinin birini ona versin. Tez də fikrindən döndü. Salamlaşdı, ancaq sir-sifəti bozardı. Öz-özünə dedi: "Kaş üç dəstə alaydım. Bədənimi xəcalət alovu bürüdü. Axı, tibb bacısının xidmətləri Nişanəyə heç də az olmayıb..." O tez də belə qərara gəldi: "Gərək əvvəlcədən düşünəydim... Keçdi... Zeynəb qarı necə deyib: "Daldan atılan daş topuğa dəyər..." Qüruruna sığışdıranmadığı bu düşünülməmiş hərəkətini özünə qəbahət sandı. Oğru, kimdənsə çəkincəkli uşaqlar təki tibb bacısının nəzərlərindən yayınmaq üçün adamların arasından tələm-tələsik sivişib Nişanənin yatdığı palataya girdi. Ona elə gəlir ki, tibb bacısı bir kənara çəkilərək arxasınca kinayəylə baxır, istehzayla gülümsəyir...

Ərinin gəlişini görən Nişanə uzandığı yerdən qalxdı. Gül dəstələrini görcək bənizində parlaq işıq yarandı. Dəstəni ərinin





əlindən alıb üzünə sıxdı. Dərindən qoxuladı. Handan-hana: — Nəfəsim əcəb genişləndi, — dedi. Polkovnik o biri əlindəki gül dəstəsini güldana qoydu: — Güldandakı sənin, əzizim — dedi.

Nişanə dərhal anladı ki, əgər əri deyirsə ki, güldandakı sənin, deməli, məndəki dəstəni də kiməsə nəzərdə tutur. Nişanə təkrarən gülləri qoxuladı. Sonra soruşdu:

— Bu gülləri kim üçün almısan?

Polkovnik dərhal dedi:

— Həkim üçün... Ancaq ciddi səhvə yol vermişəm, əzizim. Gərək tibb bacısı üçün də...

— Narahat olma... Mən özüm...

— Yox... Bu saat gəlirəm, — deyib, polkovnik qapıdan çıxmaq istəyirdi ki, Nişanə dilləndi:

— Onda iki dəstə al. Biri də professorun...

— Eh... Mən tamam başımı itirmişəm.

Nişanə ərinə zarafatla:

— Siz hərbçilər atıb-kəsməyə, hədəylə danışmağa öyrəncəlisiz. Güllərə-çiçəklərə sığal çəkməyə, onlardan hədiyyə verməyə yox... Sizi qınamağa dəyməz, polkovnik.

— Sən də öyrəncəlisən məni sancmağa.

Ər-arvad gülüşdülər. Polkovnik tələm-tələsik palatadan çıxdı. Çox çəkmədi ki, iki dəstə güllə qayıtdı. Onları stolun üstə qoyub pəncərədən çölə baxdı.

Nişanə dilləndi:

— Xeyir ola... Çöldə diqqətini yenə nə cəlb elədi?

— Heç nə. Bircə evimizə sağ-salamat gedib çıxa bilsəydik. Uşaqların üzünü görə bilsəydik...

— Polkovnik, son vaxtlar tamam dəyişmisən. Özündən xəbərin varmı?

— Necə? Başa düşmədim.

— Sentimentallaşmısan... Ürəyin yumşalıb. Tez-tez özündə olmursan...

— Görünür, yaşla, indiyə qədərki zülm və təlaş içərisində keçən həyatımla bağlıdı. Hərdən düşünürəm, necə olub ki, mən hələ də yaşayıram. Ölməmişəm. Götürək Elxan Azərini. Onun nələr çəkdiyini düşünəndə hərdən ağlım başımdan çıxır. Onu, yaxud, elə məni qara yellər hardan vurub haralara atıb? Başımıza gələnləri düşünəndə hər şeyin varlığına şübhəylə yanaşıram. İstəyirəm biləsən. Biz Elxan Azəriylə qan qohumuyuq. Biz bacı-qardaşlar onun babasının, nənəsinin himayəsində böyümüşük. Onlardan sonra bacı-qardaşlarımın da taleləri puç oldu...

Polkovnik kövrəldi. Nəsə demək istədi. Bacarmadı. Söhbətin səmtini dəyişdi:

— Elə istərdim ki, Elxan Azəri də ailəsilə Bakıya köçsün... İnan, onda ürəyimdə təpər olar. Elə bilərəm, itkin düşənlərimin hamısına qovuşmuşam.

— Elxan Azəri İstanbuldan Bakıya köçərmi?

— Məncə, yox... Ona o təklifi eləməyə də ehtiyac yoxdu. Bəlkə eləsəm də, gülünc görünər. Əsaslı dəlillərlə qarşımı kəsər: — İstanbulla Bakının nə fərqi var? Hər ikisi bizimdi, — deyər.

— İnsan hər şeyə qadirdi. Amma o, vətəni özü seçmir. İkinci cahan müharibəsindən qayıtmayan doğmaca oğlu İsgəndəri Zeynəb qarı xatırlayanda tez-tez ah çəkib deyərdi: vətən və tale... Həyat və tale... O barədə düşünəndə içimə elə bil, ağır zərbələr endirilir. Bütün istək və arzularımı, elə bil, sonsuzluğa sürükləyirlər. Tənhalıq bürüyür məni.

— Gör özün hansı ekstremal vəziyyətlərdən çıxmısan? Hansı situasiyaları yaşamısan?.. Kim bilir, bizi hələ nələr gözləyir?! Hərdən içimdə şübhələr oyanır: Mən Bakıya — anamın, övladlarımın yanına salamat gedib çıxa biləcəmmi? Bu sual, bilirsən, içimi hərdən necə dondurur? Canıma üşütmə düşür... Quş öz yuvasında özünü sərbəst hiss edir. Elxan Azərinin də isti yuvası İstanbuldadı. Harda olur-olsun, təki salamat olsun. Balalarının səsini eşitsin. Balaları da, Aliə xanım da daim onun hənirtisini duysunlar. Ailə, övlad çox şeyi sahmana salır. Adamlara rahatlıq gətirir. Onsuz da o da, sən də doğulduğunuz torpaqdan qoparılmısız.





Polkovnik dönüb arvadına tərəf baxdı. Onun gözlərindən iki gilə yaş üzüaşağı — çənəsinə sarı dığırlandı. Nişanə ərinin keçirdiyi hissləri duyub səsi titrəyə-titrəyə astadan dedi:

— Səni heç vaxt belə görməmişdim, polkovnik.

— Necə?

— Qohumcanlı.

— Qohumum var idi ki, görəydin?

Polkovnik qəsdən söhbətin yönünü dəyişdi:

— Bu axşam necə yatmısan?

— Yaxşı...

— Ağrın-acın yoxdu ki?

— Yox...

— Şükür.

Söhbətin bu yerində qapı döyüldü. Həkim, tibb bacısı və Elxan Azəri palataya daxil oldular. Polkovnik arxaya döndü. Gələnləri görcək bütün fikirləri, əvvəlki hissləri bir andaca pərəm-pərəm oldu. Salamlaşdılar. Həkim Nişanəyə:

— Hə... Necəsən, Nişanə xanım? — deyə soruşdu.

— Həkim, ağrıyıb-sızlayan yerim yoxdu. Bir az iştaham... Bir də içimdə üşütmə hiss eləyirəm. Şübhələri də başımdan qovub çıxara bilmirəm.

Elxan Azəri:

— İştahan düzələcək... Dərmanlar azaldıqca, təmiz hava aldıqca, iştah qaydasına düşəcək.

Həkim:

— Dərman verərik, beş gün atarsan, iştahasızlıq ötüşər. Qaldı içindəki üşütmələrə...

Həkim Elxan Azərinin üzünə baxdı. Azəri dərhal:

— Gərək qarmaqarışıq, qaragüruh fikirləri başından uzaqlaşdıra biləsən.

Nişanə:

— Necə?

Elxan Azəri:

— Siz darıxdıran, bezikdirən və əsəbiləşdirən o fikirləri gərək xoş əhval gətirənlərlə əvəzləməyi bacarasan. Çox şey adamın özündən asılıdı, Nişanə xanım.

Həkim söhbətin səmtini dəyişdi:

— Biz Elxan Azəriylə gəlmişik səni sevindirək. Hər şey qaydasındadı. Sabah xəstəxanadan çıxacaqsan. İstəsən, bir neçə gün İstanbulda qala da bilərsən.

Elxan Azəri:

— Sabahdan bizim qonağımız olacaqlar...

Polkovnik, Nişanənin gözlərinin içinə baxdı. Nişanə ərinin qan qohumuna "yox" deyə bilməyib çiyinlərini qısdı. Bu, əslində, Elxan Azəriyə də, elə ərinə də: — Etiraz eləmirəm, — demək idi. — Bir gün olar, polkovnik, — deyə Nişanənin gözləri güllərə dikildi. O, güllərə yaxınlaşıb dəstələrdən birini həkimə, birini də tibb bacısına verdi, üçüncüsünün isə professora çatacağını bildirdi. Elxan Azəri zarafatla dedi:

— Bəs mənim gülüm?

Nişanə zarafata zarafatla cavab verdi:

— Sənə də polkovniki hədiyyə eləyirəm, əfəndim.

Palatanı gülüş səsləri bürüdü. Sonra həkimlər palatanı tərk etdilər. Ər-arvad sevinclərindən, az qala, bir-birilərini qucaqlayacaqdılar. Handan-hana Nişanə keçib çarpayının qırağında oturdu. Ani fikrə getdi, sonra mızıltılı səslə dedi:

— Polkovnik pulumuz qalıbmı?

— Necə bəyəm?

— Heç...

— Sözünü de, saxlama.





— Elxan Azəri bizi qonaq dəvət eləyir. Ora əliboş gedə bilmərik.

— Pul var. Kəmxərclik eləməmişəm. Bir də ki, onlar bilmirlər sənin xəstəxanadan çıxdığını?

— Bilirlər, əzizim, hər şeyin əndazəsi var. İlk dəfə gedirik.

— Narahat olma, əzizim. Sabah gələrəm, yır-yığış eləyərik. Qalanını da sonra danışarıq. İndi mən gedim, görüm Bakıya bileti nə vaxta ala bilirəm.

— Hoteldən üzülüşmə, polkovnik. Gedərik, sonra da gəlib hoteldə gecələyərik.

## Gözlənilməz faciə

Səhər Rəşid əlində gül dəstəsi xəstəxananın dəhlizinə girəndə tibb bacılarının təşviş və təəccüblə ona baxdıqlarını, öz aralarında xısın, nəsə anlaşılmaz şeylər danışdıqlarını hiss elədi. O, əvvəl heç nə başa düşmədi. Yan otaqdan çıxan Aliə ilə Elxan Azərini görəndə daxilən çox sevindi. Tibb bacılarının hərəkət və münasibətlərini bir anlığa unutdu. Onların sifətlərindəki gərginliyi, gözlərindəki nigarançılığı, üzlərindəki təbəssümə təbiilikdən uzaq təbəssüm qarışdığını anlayanda, sanki ürəyi köksündən qırılıb ayaqları altına düşdü. Həyəcanlandı. Təəccüblə Elxan Azərinin gözlərinin içinə baxdı. Elxan çaşqın halda gözlərini yayındırmağa çalışsa da, içindəki təlatümü ondan gizlədə bilmədi. Polkovnik Aliə ilə Elxana əl verdi. Tibb bacılarıyla başıyla salamlaşdı. Sonra soruşdu:

— Nə hadisə baş verib?

Aliə:

— Heç, xocam...

Elxan Azəri:

— Özünü ələ al, əfəndim... Həyatda hər şey olur.

Rəşid çaşdı:

— Hər şey, nə?! Soruşuram, nə baş verib?

Elxan:

— Səbrli ol, dəqiqləşdirək.

Rəşidin üzündəki işıqdan əsər-əlamət qalmamışdı. Nəsə fikirləşib, iti addımlarla Nişanə yatan palataya tərəf bir-iki addım atmışdı ki, tibb bacısı sakit səslə dedi:

— Qapı bağlıdı, xocam.

— Niyə?

— Həkim məsləhət bilmir.

— Nişanə... Yox...

— Qapı bağlıdı, — dedim.

— Bəs Nişanə?.. Belə çıxır ki...

Tibb bacısı susdu. Onun susqunluğu sanki Rəşidin qulaqlarında çəkic kimi taqqıldadı. O, birdən bomba kimi partladı.

— Siz dəli olmusuz? Ya məni dəli sanırsız? Sizin nəzakətiniz, insanlara qayğınız budu? Heç olmasa, deyin görüm nə başa verib? Siz mənim ürəyimi çatlatmaqmı istəyirsiz?!.

Elxan Azəri ağır addımlarla polkovnikə yaxınlaşıb qolundan ustufca tutdu. Yalan danışmalı oldu:

— Polkovnik, səbr elə... Hələ bir çox məsələlər mənə də tam aydın deyil. Biləsən ki, Nişanə xanım palatada deyil.

— Bəs hardadı?

— Əməliyyat otağında...

— Niyə?

— Qoy gəlsinlər, niyəsini öyrənək.

— Axı, məndən icazəsiz?..

— Elə təcili, təxirəsalınmaz şeylər var ki, onu gözləmək, vaxt itirmək...

— Onun məndən savayı burda kimsəsi yoxdu.

— Bəs mən?!. Bəs Aliə?!

Polkovnik Elxan Azərinin sözünü çək-çevirə sala bilmədi. O,





susdu. Nə eləyəcəyini bilmədi. Handan-hana əlini dizinə vurdu:

— İndi mən neyləyim?

— Səbrlə gözlə. Təmkinini qoru. Axı sənin hərbçi gözlərin çox şey görüb, xocam.

Polkovnik dəhlizdə qoyulan kiçik zibil yeşiyinə tərəf getdi. Gül dəstəsini yeşiyə atmaq istəyirdi ki, nəsə fikirləşib hərəkətindən vaz keçdi... Məlumatsızlıqdan doğan nigarançılıq, çaşqınlıq onu elə bürümüşdü ki, nə eləyəcəyini bilmirdi. O, dəhlisin divarının dibində ayaq üstə dura bilməyib çökdü. Dəhlizdəkilərin hamısının gözləri ona dikildi. Tez-tez atıb-kəsməkdən danışan, kimsəylə hələm-hələm hesablaşmayan polkovnik indi adamların gözləri önündə özü də bilmədən aciz, zəif, iradəsiz bir insana çevrilirdi. Aliənin ona yazığı gəldi və dərhal qayıdıb ərinin üzünə baxdı: — Nə durmusan, görmürsən, nə hala düşüb, get qolundan tut, onu ayağa qaldır, — dedi. — Deyəsən, sən də çaşmısan, Elxan, sən də özündə deyilsən...

Elxan Azəri: — Qanım donub, — deyərək, dinməz-söyləməz polkovnikə yaxınlaşdı. Aşağı əyilib onun qolundan tutanda dodaqları səyridi. Gözlərində bir ümidsizlik, yazıqlıq duyuldu. Elxana elə gəldi ki, hardansa gələn nəhəng bir dalğa polkovnikin içini yuyub apardı. Polkovnik özünə nəzarəti itirməkdəydi. O çaş-baş qaldığından, nə deyəcəyini və nə edəcəyini bilmədiyindən, ayaq üstə dayanmaq imkanını itirirdi. Təkcə onu hiss edirdi ki, dalğanın təsir gücündən onun içindəki hissləri, duyğuları dağıt-duğut olur. Polkovnikin bu halı Elxan Azərinin də bədənində dəhşətli giziltilər yaratdı. Onun da bütün düşüncələri çarpazlaşdı, qarış-quruş oldu. O, polkovnikə nəsə demək istədi. Ağzını açsa da, səsi çıxmadı. Handan-hana gücünü toplayıb polkovnikin qolundan tutdu: — Qalx ayağa, əfəndim, görünür, bu da Tanrının bizə bəxş elədiyi surprizdi, — dedi və çətinliklə onu ayağa qaldırdı:

— Xudaya, belə olacaqdısa, bizi niyə qarşılaşdırdın? Biz az-

mı zülmlərə, zəhmətlərə qatlaşmışıq?! Kaş bu görüşləri, bu tapıntını, bu yaxınlığı bizə nəsib eləməyəydin?! İndi mən ona necə deyim ki, sağ-salamat gətirdiyin ömür-gün yoldaşın bu gecə ürək tutmasından dünyasını dəyişib...

Polkovnik xırıltılı səslə öz-özünə mızıldanmağa başladı:

— Deməli, Nişanəm öldü. Həyatım söndü... həyatım gözlərimdən düşdü... İndi mən övladlarıma, Nişanənin anasına nə deyim?

Aliə polkovnikə yaxınlaşdı.

— Özünə gəl, əfəndim. Səbrin olsun, özünü həlak eləmə. Görək həkimlər nə xəbərlə gəlirlər?

— Eh... Aliə xanım. Talyeimiz qaragünlüdü.

Aliə diqqətlə polkovnikin gözlərinin içinə baxdı. Onun gözlərində yaşamaq eşqindən məhrumluğunun əlamətlərini açıq-aydın hiss elədi. Aliənin başında o andaca qəribə suallar doğmağa başladı: Sürdüyü ağır, əzab-əziyyətli ömür yolunun, yetkinlik dövrünü yaşayan övladlarının bu çağında həyatın dağılması insafdandımı? Həyat adlandırılan bu dəbdəbəli mənzərədən indən belə polkovnikin qəlbində ecazikar hisslər yaranarmı?.. Eh... Həyat!.. Budurmu əzablarla yaşanan ömrün sonu?.. Budurmu ömrü boyu dalbadal zərbələr alan insana həyatın hədiyyəsi? Bu qədər haqsızlıq olarmı? Həyat da bəzən insanlar kimi, deyəsən, zülmə tab gətirəni döyəcləməkdən həzz alır. Biz də arsız-arsız deyirik: filankəs dözmədi iztirablarına. Nə qədər gülməlidi.

Elə bu vaxt tibb bacılarından biri: — Professor və Nişanəni müalicə eləyən həkim gəlirlər, — dedi. Hamı dönüb arxaya baxdı. Polkovnik ayağını sürüyə-sürüyə onlara tərəf addımladı. — Hə... Necə oldu? Ölüb? — deyə soruşdu. Professor: — İçəri gəlin, əfəndim — dedi. Elxan Azəri, Aliə və polkovnik onların ardınca içəri keçdilər. Əyləşdilər. Polkovnikə bıçaq vursaydılar, qanı yerə düşməzdi. Professor dərindən nəfəs alıb dedi:





— Başınız sağ olsun, əfəndim.

— Ölüb?

Professor ağır-ağır başını aşağı-yuxarı eləməklə polkovnikə “hə” cavabını verdi. Polkovnik təntimiş halda:

— Nişanəni bura öldürməyəmi gətirmişdim? — deyib hönkürtüylə ağlamağa başladı.

Elxan Azəri dərhal əlini polkovnikin çiyninə qoydu:

— Özünə gəl, əfəndim. Hamımızın sonu ölümdü...

Polkovnik:

— Yoox... Nişanə səhlənkarlığın, baxımsızlığın qurbanı oldu. Onu müalicə eləyə bilməyəcəkdinizsə, niyə məsuliyyəti üzərinizə götürürdüz?

Professor:

— Rəşid əfəndi, sizin xanım o xəstəlikdən dünyasını dəyişməyib.

Polkovnik:

— İndi də başqa xəstəliklə əlaqələndirəcəksiz?

Həkim:

— Əfəndim, onsuz da, meyit ekspertiza olunacaq. Hər şey aydınlaşacaq.

Elxan Azəri:

— Tələsmə. Özünə toxtaqlıq ver, polkovnik. Səbrsiz olma.

— Mən gedim kimə nə deyim, Elxan əfəndi?

Professor:

— Sizin, xanımınızın qəflətən təzyiqi qalxıb, ürək tutmasından keçinib.

Polkovnik:

— Bu diaqnoz da təzə çıxdı? Axı siz analiz götürmüsüz. Ürəkdə bir çatışmazlıq olsaydı, analizlərin cavabı göstərərdi.

Aliə:

— Ekspertizanın cavabını gözləyək.

Polkovnik:

— Gözləmək bir fayda verəcəkmi, Aliə xanım?

— Başqa yolumuz yoxdu, polkovnik.

Polkovnik:

— Onlar da yüz don geyindirəcəklər.

Həkim:

— Ekspertin dediklərinə qane olmalıyıq.

Polkovnik:

— Heç nədən öldü. Heyf Nişanəmdən. Yazıq qayınanam... Əziz övladlarım...

Professor:

— Rəşid əfəndi, ömrü verən də, alan da Allahdı. Səninlə heç kəsin düşmənçiliyi yoxdu. Bilirəm, acıqlısan... Yanırsan... Hirsini boşaltmağa adam axtarırsan... Ancaq inan, biz Nişanə xanıma çox rəğbətlə yanaşmışıq. Ona qayğı göstərmişik...

Həkim:

— Üstündə əzizimiz kimi əsmişik.

Professor:

— Bacarsaydım, dünyasını dəyişən doğmalarımdan birini geri qaytarardım, əfəndim.

Həkim:

— Əfəndim, dərdinizə şərikik... Deyirdiniz hərbçisiniz, polkovniksiz. Doğrusu, polkovniki bu qədər dözümsüz təsəvvür edə bilmirəm.

— Hərbçi olmağıma şübhə eləyirsiz, xanım?

— Yox... Polkovnik... Dözümünüz...

Polkovnik etiraz eləmək istəyirdi ki, professor ağır-ağır dedi:

— Sabah, ya da elə bir saatdan sonra mən yıxılıb ölsəm, buna bir səbəb, ya bir səbəbkar axtaracaq yaxınlarım... Polkovnik, məni məcbur eləyirsiniz, deyəcəyəm. Nişanə xanım dönə-dönə deyirdi ki, içimdə üşütmə var.

— Bəli, deyirdi.

— O elə güman edirdi ki, xərçəngdi və sağalması qeyri-





mümkündü. Ona görə də daim qorxu, vahimə içərisində idi. Mən ona çox təsir eləməyə çalışdım. Fikrindən yayındırmaq üçün ona həblər verdim. Sonralar anladım ki, xanım o həbləri atmayıb. İçində yaratdığı tufan axşam onun qan təzyiqini qaldırıb. Tab gətirmədiyindən ürəyi çatlayıb. Belə olduğu halda, mən neyləməliydim? Özü özünə qəsd eləyənə həkim nə çarə qıla bilərdi? İstəyirəm biləsən, özü özünə qayğı göstərməyən xəstəyə həkim əlac eləyə bilməz.

Həkimin dedikləri, deyəsən, polkovnikin ağlına batdı. O, əli ilə başına vurdu. Handan-hana üzünü Elxan Azəri ilə Aliə xanıma tutdu:

— İndi mən neyləyim? Elxan, kömək elə, Nişanənin cəsədini Bakıya aparım.

Elxan Azəri:

— Qoy ekspert rəy versin. Ölüm şəhadətnaməsi yazılsın.

— Şəhadətnamə?

— Hə...

— O nəyə gərəkdi?

— Sərhəddən keçmək üçün.

Polkovnik nə fikirləşdisə, qalxıb dəhlizə çıxdı. Elxan Azəri də, Aliə xanım da tələm-tələsik onun ardınca getdilər.

Həmin gün meyitə ölüm şəhadətnaməsi yazılaraq morqa göndərildi.

## Əbədiyyət

Səndələyə-səndələyə dəhlizin foyesinə özünü yetirən polkovnik hiss elədi ki, ayaqları sözünə baxmır, qıçları əsir, bədəninin ağrlığını saxlamaqda da çətinlik çəkir. Bəlkə də ona elə gəldi ki, Nişanəsinin ölümü onu da elə-belə buraxmayacaq, ömrünün son anlarını yaşayır. Çox çəkməyəcək ya qıçı qıçına dolaşıb yıxılacaq, başı yerə dəyib partlayacaq, ya da ürəyi dözməyib

çatlayacaq. O, bunu da düşündü ki, ehtiyatsızlığından, ya özündən asılı olmadan — bilməyərəkdən gücünü itirib başına bir iş gəlsə, həm özünüidarə qabiliyyətini, həm də Nişanənin ortada qalan cəsədinə sahiblik imkanını itirməli olacaq. O, fiziki və mənəvi gücünü toplayıb foyedəki divana yaxınlaşdı. Əli ilə divanın arxa söykənəcəyinə dirəndi və ağır-ağır, hər şeydən ümidini üzmüş halda əyləşdi. Əsəbləri gərilmiş polkovnik yumşaq divana sanki daş kimi düşdü. Özünü saxlaya bilməyib hönkür-hönkür ağladı. Ağladıqca da bütün bədəni əsir, çiyinləri qalxıb-enirdi. Elə bu vaxt Elxan Azəri Aliə ilə özlərini ona yetirdilər. Elxan Azəri foyedəki tibb bacısına dedi: — Toxunmayın, imkan verin, içini boşaltsın... Bir stəkan sərin su...

Tibb bacısı su gətirdi. Polkovnik fasiləsiz hıçqırırdı. Elxan Azəri üzünü tibb bacısına tutdu və yavaşdan dedi: — Suyu verin, içsin, — işarəsini elədi. Polkovnik əvvəl içmək istəmədi. Elxan Azərinin təkidindən sonra suyu içdi və bir qədər sakitləşdi. Başını qaldırıb qarşısında günahkar kimi dayanan Elxan Azəriylə Aliə xanıma baxdı:

— Bu nə işdi başıma gəldi, əfəndim.

Elxan Azəri dərhal:

— Dedim axı, ölüm haqdı. Axı siz hərbçisiz... Hər cür ölüm görmüsüz... Dərdinizə şərikik... Öz əcəliylə...

Aliə:

— Özünü həlak eləməklə, xocam, Nişanə xanımı geri qaytara biləcəksənmi? Bizim indi bir yolumuz var. Onu təmkinlə, dözümlə Bakıya yola salmaq. Ona Yaradanımızdan rəhmət diləmək. Ötmüş olsun. Ayağa qalx, xocam.

Polkovnik:

— Nişanəni görmək istəyirəm.

Elxan Azəri:

— Görəcəksən... İşləri qaydaya salsınlar. Ölüm şəhadətnaməsi yazılsın...





Aliə:

— Sən özünə gəl... Özünü toparla.

Elxan Azəri:

— Biz hazırlıq görməliyik. Meyiti qoymaq üçün tabut düzəldilməlidi. Uçuş biletləri alınmalıdı... Qalan məsələlər asandı.

Həkim onlara yaxınlaşdı:

— Polkovnik, mərhuməni ziyarət eləyə bilərsiz.

Bu sözü eşidən kimi polkovnik ayağa qalxdı. Həkimlə Elxan Azəri qabaqda, polkovnik, Aliə və tibb bacıları da arxada reanimasiya otağına getdilər. Pəncərələrə çəkilən tünd pərdələrdən otaq alatoran görünürdü. Tibb bacısı pərdələri kənara sıyırdı.

Otaq ilk anda qəbir təsiri bağışlayırdı. Üstəlik, Nişanənin üzünə çəkilən pərdə də vahimə hissi doğururdu. İlk dəfə gördüyü bu qorxunc, kədər doğuran mənzərə Aliəni çaşdırdı. O, özündən asılı olmayaraq içini çəkdi və bir addım geri durdu. Onun bu qeyri-ixtiyarı hərəkəti heç kimin diqqətindən yayınmadı. Elxan Azəri arvadına tərəf dönüb çəpəki baxdı. Aliə başını qaldırıb-endirməklə utana-utana səhvini anladığını ərinə bildirdi. Yaxşı ki, bu hal çox çəkmədi. İnsan ruhunu boğan dərin bir sükut hamının içinə kədər zərbəsi endirdi. Polkovnik çarpayıya yaxınlaşıb mərhumun üzündəki örtüyü qaldırdı. Nişanənin saralan üzünün rəngi limonu xatırladırdı. Polkovnik əyilib arvadının saralmış üzündən, saçlarından öpdü, başını qucaqlayıb hönkürtü ilə ağlamağa başladı: — Mən bu uzaqlıqda yolu səni diri gətirib, ölü aparmaq üçün gətirmişdimmi, Nişanə? İndi zavallı anana, ciyərparalarına — Fəridə, Fəridəyə necə deyim ki, Nişanə daha yoxdu, olmayacaq da...

Polkovnik deyib-ağladıqca hər kəs özünə çəkilib susur, ağır kədərdən sarsıntı keçirirdi. Elxan Azəri yaxınlaşıb pəncərəni açdı. Başını yellədi və dodaqları arasından yandırıcı pıçıltılar qopdu:

— Əcəb işdi. İllərin həsrətindən sonra ağlagəlməz təsadüf

nəticəsində tapdığını itir... Rəşid, kaş bu sarsıntılı anlarını mən görməyəydim... İniltilərini eşitməyəydim. Ağlamağının şahidi olmayaydım...

Elxan Azəri özünü saxlaya bilmədi, gözlərindən axıtdığı yaş gilə-gilə yanaqlarına süzüldü. Ərinin vəziyyətini görən Aliə ona tərəf gəldi.

— İndi də sənə təskinlik verək? Özünə gəl. Sən indi polkovnikə daha çox gərəksən. Qaldır polkovniki, qaldır. İşiniz çoxdu.

Elxan Azəri polkovniki ayağa qaldırmaq istəyəndə, o, dedi:

— Məni Nişanəylə təkbətək buraxın. Onunla birlikdə olmaq istəyirəm. Axı o, mənimdi. O, mənim həyatımdı. Balalarımın anasıdı...

Hamı bir-birinin üzünə baxdı. Sonra da razılaşıb palatanı tərk etdilər. Polkovniklə Nişanə baş-başa qaldılar. Meyitin yaratdığı sükut otağı bürüdü. Handan-hana polkovnik ayağa qalxdı. Yorğanı Nişanənin üstündən kənara sıyırdı. Əynindəki yüngül, parıltılı xalatına, ağ pambıq və bintlə, yapışqanla bağlanmış yaralarına baxdı, baxdı. Onu ayaqdan başa imsilədi. — Kaş bu əbədi yuxuya birlikdə gedərdik. Məni yalqız, özbaşına buraxmayaydın...

Polkovnik gah danışır, gah da için-için ağlayırdı. Ona elə gəldi ki, bütün ümidləri, arzuları söndü və Nişanə bu ölümü ilə hər şeyi, hər şeyi özüylə birlikdə əbədiyyətə apardı...

## Uçuş meydanında

Nişanənin ölümünün ikinci günü idi. Polkovniklə Elxan Azəri xəstəxanaya meyiti yola salmaq üçün tabut və xərək gətirdilər. O zaman Aliə də onlarla birlikdəydi. Elxan Azəri dərhal sanitarları çağırıb göstəriş verdi:

— Tez olun, ləngiməyin. Tabutu və xərəyi palataya aparın.





Meyiti tabuta qoyun.

Sanitarlar işə başladılar. Aliə dərhal:

— Ehtimallı olun. Meyitə xətər yetirə bilərsiz, — dedi.

Sanitarlardan biri:

— Narahat olmayın, xanım. Biz belə şeyi çox görmüşük.

Onlar dedikləri kimi də elədilər. Palataya birinci polkovnik, sonra Elxan Azəri daxil oldu. Onların da ardınca sanitarlar və Aliə xanım içəri girdi. Sanitarlar meyitin üstündəki yorğanı kənara çəkib xərəyi meyitə yaxınlaşdırdılar. Sonra meyitin üzündəki dəsmalı götürüb stolun üstə atdılar. Polkovnik meyitin üzünə baxdı. Onda elə bir dəyişiklik duyulmurdu. Polkovnikin dodaqları səyridi. Gözlərindən yaş gəldi. Aliə dərhal sanitarlara:

— Ehtiyatlı olun. Meyit əldən düşə bilər. Xərəyi də silkələməyin.

İkinci sanitar:

— Kiminizdi, xanım?

— Hər kimim. İşinizi görün. Əziyyət haqqınızı da məndən alacaqsız.

— Pul olmaya da bilər.

Polkovnik:

— Halallıq üçün lazımdı.

Sanitarlardan biri ayağından, digəri başından götürüb meyiti tabuta qoydular. Tibb bacısı palatadakı əşyaları: pal-paltarları, ayaqqabıları, dəsmalları, diş pastası və fırçasını, ... qara böyük meşin çantaya yığdı. Aliə götürmək istəyirdi ki, Elxan Azəri dedi:

— Ağırdı... O sənin işin deyil. Özüm götürərəm.

Polkovnik dərhal:

— Yox... Yox... Xahiş eləyirəm. Əslində...

Aliə:

— Onları burda qoymaq olmaz.

Elxan Azəri çantanı götürüb tabutu aparan sanitarların ardınca

otaqdan çıxdı. Aliə də ərinin ardınca getdi. Hamıdan axıra polkovnik qaldı. O bir də otağa məyus-məyus baxdı. Baxışları adama andırırdı ki, guya, xanımının dünyasını dəyişməsində bu və ya digər dərəcədə otaq da günahkardı. Polkovnikə bir an elə gəldi ki, bu palata ancaq xəstə qəbul eləyib meyit yola salmaq üçündür və indi də hansısa qaragünlü sakinini gözləyir. Palatadan meyit qorxusu gəlirdi.

Polkovnik palatanın qapısını çırpıb birdəfəlik çıxdı. İti addımlarla cənazə aparan sanitarlara yaxınlaşdı. Sanitarlardan çantarağı polkovnikdən soruşdu:

— Meyiti Bakıya nə vaxt aparacaqsız?

— Bu gecə.

— Köməyiniz varmı?

— Tapılar, necə bəyəm?

— Bu tək adam işi deyil. İstəsəniz...

Bu söhbəti eşidən Aliə:

— Siz narahat olmayın, — dedi. Köməkçi olacaq...

Sanitarlar tabutu binanın arxa çıxacağına apardılar. Təcili tibbi yardım maşını bayaqdan dayanıb onları gözləyirdi. Cənazənin qapıdan çıxdığını görən sürücü tələm-tələsik maşına yaxınlaşıb, arxa qapını açdı. Sanitarlar, polkovnik və Elxan Azəri tabutu maşına qoydular. Aliə xanım qabaq salonda — sürücünün yanında, polkovniklə Elxan Azəri isə cənazə qoyulan salonda əyləşdilər.

Elə bu vaxt tibb bacısı qaça-qaça özünü polkovnikə yetirdi:

— Polkovnik, balıncın altına qoyulmuş bu məktub sizə çatacaq. Buyurun. Polkovnik məktubu alıb, oradaca açdı və xətti tanıdı. Lakin onu bu dar macalda oxumağı lazım bilməyib, dörd qatladı və kostyumunun döş cibinə qoydu... Maşın İstanbul hava limanına tərəf sürət götürdü...

Bir anlığa bütün keçmişini unudan, gələcəyinə ümidlərini itirən Rəşid böyük nigarançılıqla dörd qatlayıb cibinə qoyduğu





məktubu çıxardı, cəmi cümlətanı bir neçə cümləylə ifadə olunan mətni oxudu: “Əzizim Rəşid! Qeyrətinə, ailəcanlılığına bələdəm... Ölümümdə kimsənin günahı yoxdu. Anamı, bir də övladlarımızı sənə etibar edirəm!..

*Sənin Nişanən!”*

Rəşid yazılanları oxudu, oxudu. Gözləri yaşla doldu və giləgilə yanaqlarından üzü aşağı dığırlandı. Bunu görən Elxan Azəri əlini Rəşidin dizi üstə qoydu: Səbr elə, qardaşım — dedi...

Göyün üzündə şərqdən axıb gələn qara buludlar dolaşırdı. Yağış yağa biləcəyini ağıla gətirmək olardı. Onun dolu yağdıracağını, hər tərəfi sel-suya döndərəcəyini düşünmək çətin idi. Yağış əvvəl çoban aldatma tərzində, yavaş-yavaş səpməyə başladı. Birdən göy guruldadı, şimşək çaxdı, iri yağış damcıları ara vermədən aftafa lüləyindən axan bir tərzdə töküldü. Dalınca da müxtəlif həcmli dolu dənələri səpildi. Maşın hava limanına çatanda hər tərəf sel-suya qərq olduğundan, adamlar hara, necə ayaq basacaqlarını bilmirdilər.

## Epiloq əvəzi

Həyatını, ömrünü cani-dillə etibar elədiyi polkovnikin Nişanəsi getdi. Varlığını da, ruhunu da özüylə qoparıb apardı. Ondan Rəşidə qalan iki övladı — Fərid və Fəridə, bir də məsum baxışları, mübhəm duyğuları, tükənməyən sevgisi oldu... Ağrılı-acılı uşaqlıq illəri. Çiçək açmadan solan arzuları. Tapdalanan mənəviyyatı. İtirdiyi doğmaları. Bu da canı, ruhu, Nişanəsi. Ömrügünü Aslan baba... Günəş nənə, qayınanası Firuzə xanım. Onlar Rəşidə insanlığı öyrətdilər. Cəngəllikdən sevgi dolu həyata atdılar... Elə həyata ki, orda ağ da var, qara da, sevgi də var, nifrət də, doğuluş da var, ölüm də... Hər şey qoşadı, əkizdi. Belə olmasaydı, ölüm ümmanında diriliyini, qan yaddaşının rəmzi olan

Elxan Azərini, onun xanımı Aliəni, övladları Fuadı, Əhmədi və Nərgizi tapardımı? Az da olsa, tənhalıqdan qurtuluşdu. Hər biri ona təskinlikdi. Elxan Azərinin və onun ailəsinin tapıntısı Rəşidə sanki dünyanı bəxş elədi. O, deməsə də, sevincini içində boğsa da, bundan nə qədər xoşhal, rahat, fərəhlidi. Axı o da insandı. Onu da sabaha calayan hissi, duyğusu, amalı var... Ölüm saçan, insanlara bədbəxtlik təlqin eləyən, uşaqları qəhqəhələrə həsrət qoyan müharibə! Göz yaşları... İnsan və dünya... İnsan və kainat. Nələr... Nələr...

Cinayətlər yuvası... Cinayətkarlıq məskəni... Allahla iblisin, ədalətlə ədalətsizliyin, haqla nahaqqın, yaxşı ilə pisin, olum və ölümün, gözəllik və çirkinliyin, sevgi və nifrətin qarşılaşdığı mənzərə. Kim qalib gələcək? Əlbəttə, ağıl, zəka...

— Azad yalnız Allahdır, — deyənlər heç də səhv eləmirlər. Külli ixtiyar sahibi ədalətdi, haqdı. Ədalətin, haqqın adı da Allahdı.

Nişanənin xəstəxana həyatı. İstanbul təəssüratları. O, əziz Nişanəni itirdi, əvəzində Elxanını tapdı...

Bu onu göstərir ki, həyat davam edir. Bəli, onların keşməkeşli həyatı çoxlarına örnəkdi. İstənilən adam ondan nəticə çıxara bilər. Ermənilərlə yaranan münaqişədə xalqın, millətin günahı yoxdu. O, təqsirsizdi, məkrli siyasətin qurbanıdı. Keçdiyi məşəqqətli yolun hər addımını xatırlayanda qəhər səni boğur və düşünürsən: hegemon dövlətlərin, məkrli və tülki siyasilərin bəşəriyyəti qan nəhrində çalxalamaqda məqsədləri nədi? Dünya enerjisi resurslarını qəsb etməkdən ötrüdümü? Yeraltı və yerüstü sərvətlərini talamaq üçündümü? Nə vaxtsa separatizmin yaradıcısı olduqlarını hegemon dövlət başçıları bircə dəfə etiraf edəcəklərmi? Kimdi, İslam Dövlətinin qurucuları? Kimlərdi, qan nəhrində çalxalayan qoca Şərqi? Qarabağ, Osetiya, Abxaziya "qəhrəmanları?" Hamısı bəlli! Hamısı aydın. Bütün bunlar uşaqların bir anlıq qorxu-hürküsünə, göz yaşlarına, anaların fər-





yadına dəyərmi?

Yox... Hərdən ürək çırpınır. Ağıla yüz fikir gəlir. Mərdanəliklə, qansız-qadasız, deyə-gülə... yaşamaq olmazdımı?! Suallar çox, cavablar müəmmalı! Görəsən, heyvani instinktlərlə yaşamağa dəyərmi?! Bəşər övladı buna layiqdimi?!

# Nişan üzüyü

*(Roman)*

## Qəza

Son zamanlar Ümid kişinin ürəyi tez-tez tuturdu. O, şəhərin tüstülü, cansıxıcı, ağır havasında nəfəs ala bilmirdi. Bir ay olardı ki, Bilgəhdəki bağ evinə köçdüyündən, ürək döyüntüləri də, təngnəfəsliyi də demək olar ki, o qədər olmurdu, getdikcə azalırdı. Uzun müddət fiziki iş görməyən bu adam tədricən əlinə bel, yaba, dəryaz, mişar, balta alıb bağ işləriylə məşğul olur, otalafı biçir, ağacları sulayır, arabir də tez yetişən meyvələrdən — tutdan, alçadan, gilasdan qoparıb ağzına qoyurdu. Narın qaynar qum dənələri üzərində ayaqyalın gəzir, bəzən uzanıb günəş vannası qəbul eləyirdi. Son zamanlar orqanizmindən də elə bir ciddi şikayəti-filanı yoxuydu. Təqaüdə çıxdığı il yarım ərzində bağ işlərinə elə alışmışdı ki, şəhərə getmək belə istəmirdi. Özlüyündə hər hərəkətini idman sanırdı. Bədəni möhkəmləndikcə onun yaşamağa inamı da artırdı. Yeyib-içməsinə söz ola bilməzdi. Tədricən qəbul elədiyi iynə-dərmanların da sayı azalmışdı. Hərdən özü də deyirdi:

— Məni xəstələndirən, hər gün, hər saat halımı pozan şəhərin çirkli-paslı havası, rahatlıq verməyən səs-küyüdü.

İyun ayının əvvəlləri idi. Ümid uşaqlıq dostu və sonralar uzun müddət əl-ələ verib bir yerdə işlədiyi Mürvətlə gecə yarıdan keçənədək küləfrəngidə oturub uzaq xatirələrindən, bu gün





baş verən hadisələrdən və gələcək planlarından danışırdılar. Göyün üzü aydın və cazibədar görünürdü. Parıldayan ulduzlar gecənin qaranlığında göz-göz olub qaynaşırdı. Gül-çiçəklərin ətrafa yayılan ətri köhnə dostlarda yüngül, xoş rahiyyə yaradırdı... Ümid dedi:

— Belə qəlb oynadan, əhval yüksəldən ay-ulduzlu gecədə adam heç yatmaq istəmir. Cavan olsaydım, deyərdim ki, əsl romantik gecədi.

Mürvətin üzündə təbəssüm oyandı:

— Hə... Gələn xoş sözü saxlama. Mənim də yuxum təmiz qaçıb. Elə bil, bütün gün axşamacan hərəkətdə olan adam mən deyiləm.

Ümid dərib axşamdan stolun üstə qoyduğu meyvə qabını ortaya çəkdi:

— Bizə genəşmədən ömür sona yetir, Mürvət. Cavanlıq getdi. Özüylə gücü də, dünyaya, yaşamağa olan həvəsi də çəkib apardı. Xatirələrdən bəzilərinin də üstünə pərdə çəkdi. Yaddaş korlaşdı. Dərdə bax, bəzən adamda elə xatirələr oyanır ki, ağzımıza alıb danışa bilmirik. Bizə bu yaşda qəbahət tutarlar deyə. Ye, bu meyvələrdən, Mürvət, ye, əzizim, daha bizə qalan bu romantik gecələrdən aldığımız həzlər olacaq.

Hər ikisi gülüşdü. Ümid əlavə elədi:

— Nə yaxşı ki, sən varsan, Mürvət, hərdən dərdimi bölüşə bilirəm. İş başımı çox qatır...

— Düz deyirsən, Ümid. Bəzən telefon açmağa, ürəyimi boşaltmağa adam tapa bilmirəm. Arvad-uşaqla eyni mövzuda nə qədər danışmaq olar?

Adama bir-iki ağ-qara gilasın, sapsarı əriyin dadına baxmışdılar ki, telefon zəng çaldı. Ümid dəstəyi götürdü: — Gecənin bu vədəsində kimdi, xeyir ola? — dedi. Mikrofondan qalın, korkobud, salamsız-filansız, ancaq qırıq-qırıq, həyəcan dolu kişi səsi eşidildi:

— Alo! Alo!

Ümid dərhal Mürvətin üzünə baxdı. Sonra: — Eşidirəm, — dedi.

— Mən müstəntiqəm.

— Kim?

— Müstəntiq...

— Hə... Çox yaxşı... Eşidirəm.

— Sizin Ülfət adında oğlunuz varmı?

— Bəli: Var...

— "Leksus" markalı maşını necə?

— Bəli, o da var.

— Sizin oğlunuz... Şimal istiqamətində magistral yolda ağır qəza törədib. İki nəfər ölüb. Özü də ölümcül yaralıdı. Tez gəlin. Yoxsa...

Bu məlumatı eşidəndə Ümid müstəntiqə nə hə, nə də yox... — deyə bildi. Kişi bir anlığa hərəkətsiz qaldı. Sifəti bozardı. Düşüncələri dondu. İstədi, Mürvətə nəsə desin, əvvəl alınmadı... O, Mürvətin üzünə baxdı:

— Bircə bu çatmırdı... Gecənin bu vədəsində gəl oturduğun yerdə oyuna düş — buna deyiblər də.

Ümid qeyri-ixtiyari telefonun dəstəyini yerinə qoydu. Mürvət dalbadal ona suallar verdi:

— Nə oldu sənə, Ümid? Gecənin bu vaxtı telefon açan kimdi? De, de görüm, kimdi? Nə "lo" xəbər verdi sənə?

Sualların aramsız verilməsi Ümidi axır ki, qımıldatdı:

— Müstəntiqdi, Mürvət. Ülfət... Ülfət maşını... qəzaya uğradıb.

Mürvət təntimiş halda:

— Ciddi bir şey var?

— Var...

Mürvət diksindi:

— Necə yəni... Saxlama, sözünü de.





— İki nəfər yerindəcə keçinib.

— Nə danışırsan?

— Hə...

— Özünə xətər yetməyib ki?

— Yetib... Ağır yaralıdı. — Tufana düşəsən, — buna deyərlər.

— Elə isə niyə oturmuşuq? Ayağa qalx... Özünü ələ al. Belə şeylər çox olur.

Ümidlə Mürvət kor-peşman ayağa qalxdılar. Arvad-uşaqdan xəbərsiz maşına oturdular. Çox çəkmədi ki, geniş magistral yola çıxdılar. Maşın asfalt şossedə şütüdükcə Ümidin ürəyi sanki qırılırdı. Özü də tam hərəkətsiz hala düşürdü. İçində baş qaldıran qara qüvvələr ona kəskin ağrı-acı, böyük qəm, qüssə, kədər və ümidsizlik gətirirdi.

Mürvət:

— Uşaq deyilsən Ümid... Bu qəzyə kimlərin başlarına gəlməyib?.. Özünə gəl.

— Mürvət, iki ölü, bir yaralı...

— Şeytana lənət de, Ümid.

— Min lənət...

Ümidə elə gəlirdi ki, maşının mühərriki işləsə də, o hərəkət etmir. Qeyri-şüuru olaraq:

— Surəti artır, — dedi.

— Çox tələsirsən. Bundan yüksək sürət olmaz, Ümid, yol narahatdı.

Ümid başını maşının oturağacının arxasına söykədi. Ağzını geniş açıb dərindən nəfəs aldı. Mürvət qanrılıb Ümidə baxdı. Hiss elədi ki, o özündə deyil. Dərhal dedi:

— Ümid, qardaşım, biz yaşıdıq. İncimə məndən, özünü idarə elə. Axı, biz çox şey görmüşük. Bəlkə vəziyyət heç də sənə çatan kimi deyil.

— Kaş sən deyən kimi olsun.

— Narahat olma... Gərək evdəkilərə də deyəydik.

Ümid handan-hana astadan cavab verdi.

— Hamısı yatmışdı. Eşidib qan-bağır olacaqdılar...

Mürvət Ümidin başını qatmaq niyyətilə söhbətin axarını ora-bura yönəltməyə çalışdı:

— Nə yaxşı ki, srağagün maşının yağını dəyişdim. Təhlükəsizlik hissələrinə əl gəzdirtdim. Yoxsa, yola çıxammazdıq... Ay Ümid, ağıllı adamsan, İŞİD, belə getsə, dünyanı qarışdıracaq... Dünən də İraqdan nə qədər qadın-uşaq əsir götürüb... Adə, bu it uşağı böyüyə-kiçiyə, qadına-kişiyə fərq qoymur, söküb-dağıdır girəvəsinə keçəni...

— Dünya çönüb, Mürvət. Nə insaf, nə namus? Hamısına tüpürüldü. Hər şey yerlə-yeksan oldu. Ayə, ay Mürvət, biz ölüb gedəcəyik. Vay bizdən sonrakıların halına... Bu Ülfət də məni biabır elədi. Deyəcəklər, Ümid oğlunu tərbiyə eləyə bilmədi.

— Bilmək olmaz günah kimdədi.

— Kimdə olur-olsun, ortada ki, ölüm var.

Bu vaxt Ümidin mobil telefonuna zəng gəldi. Ümid nömrəyə baxdı:

— Hə... Evdəndi.  Xəbər evə də çatdı.

— Aç telefonu, gör nə deyirlər. Çalış ürəklərin qopartma.

— Bir az tez, bir az gec, onsuz da hər şeydən xəbər tutacaqlar.

— Yox... Əsəbilik, nigarançılıq çox pis şeydi, Ümid. Baş verənləri dəqiqləşdirək, sonra... Aç, aç telefonu... Nigarançılıqlarını artırma. Onların nə günahı var?

Ümid telefonu açdı. Danışan arvadı Səfurəydi. O, bərk həyəcanlı idi. Tirtəyə-tirtəyə birbaşa mətləbə keçdi:

— Ülfətin başına gələnlərdən xəbərdarsan?

Ümid sakit, bir qədər də etinasız tərzdə dedi:

— Ucundan-qulağından...

Arvad bir qədər əsəbi halda:





— Bu nə cavabdı, Ümid?

Ümid halına heç bir təvavüt eləmədən:

— Görmədiyim, dəqiqləşdirmədiyim hadisə barədə sənə nə deyim?

— İndi hardasan?

— Yolda... Çathaçatdayam.

— Məni də götürsəydin, qiyamət qopardı?

Ümid kinayə ilə:

— Qopardı-qopmazdı, deyə bilmərəm. Belə vəziyyətdə yaralılara təcili tibbi yardım gərəkdi. Sən, mən yox... Aman ver, çatım, vəziyyəti öyrənim, səni də agah eləyim... Uşaqlara de, özlərini ələ alsınlar. İmkan vermə ki, maşınla yola çıxsınlar. Əsəbiləşib qəza törədərlər.

— Yaxşı... Gözləyəcəm zəngini...

Ümid telefonu söndürdü. O, gah Ülfəti, gah baş verən hadisənin mahiyyətini, gah qəzaya düşənlərin talelərini, gah da ailələrin ürək ağrıdıcı, qəlb sızladıcı çaxnaşmalarını xatırladı. Fikirləşdikcə, sanki sinəsinə tonlarla ağırlıqda dağ çökürdü. O, yerindəcə ölüb-dirilir, başı çiyinləri üzərində əsirdi. Xəbərin ağırlığındanmı, oğul dərdinə davamsızlıqdanmı ürəyi güp-güp gubbuldayır, vücudu titrəyirdi. Ümidə elə gəlirdi ki, baş verənlərin başlıca səbəbkarı bir ata kimi o özüdü. Qohum-əqrəba, tanış-biliş üzünə deməsə də, arxasınca onu məzəmmətləyəcəkdi. Sən harda idin ki, Ülfət özbaşına, hamıdan xəbərsiz, sənə məsləhət eləmədən uzaq yola çıxırdı. Sən necə atasan ki, oğlunun hərəkətlərindən xəbərsizsən? Axı, sən ailədə baş verənlərdən, subay oğlunun harda olmasından xəbərdar olmalı idin. O bahalıqda maşın alıb yeniyetmə oğlunu sükan arxasında oturduranda, bu həngaməni təsəvvürünə gətirməli idin. Axı, sən uşaq deyilsən, Ümid?! Kifayət qədər yaşın, təcrübən var... Dərd budu ki, bunları mənə özünə, ailəsinə gücü çatanmayanlar da deyə bilərlər. Adama faciədən sonra qüsur tutmağa nə var ki? İndi mən kimə,

necə deyə bilərəm ki, ay dadi-bidad, vallah-billah, mənim bu işdə günahım yoxdu. Mən olanların hamısından xəbərsizəm... Ülfətə maşını da anası alıb, məndən xəbərsiz. Bilirəm, üzümə deməsələr də arxamca fikirləşəcəklər ki, məsuliyyəti arvadımın üstünə atıram. Arxamca mızıldananlar çox olacaq. Dərd budu ki, indi baş verənlərə dözə bilmirəm. Ancaq neyləyim ki, baş verənləri içimdə dolandırmaq məcburiyyətindəyəm...

Ümid içində vurnuxurdu ki, Mürvət dilləndi:

— İndi Səfurə bacının da cızdağı çıxır.

— Cızdağı çıxır nədi, ölüb-dirilir...

— Sən atasan, Ümid, o ana. Nə olur-olsun, de ona vəziyyəti. Əks halda, ürəyi dözməz. O da sənə ağır dərd olar.

Ümid Mürvətin dediklərinə birbaşa münasibət bildirməsə də, əsəbiliyini, içində baş qaldıran təlatümü ümumi sözlərlə ifadə elədi:

— Eh... Mürvət... Adam hər dərdə canı çıxa-çıxa dözür. Başına gələnlərin bir çoxunun da baisi özü olur... Subay, cavan oğlan... Bir az kəmhövsələ, bir az çılğın, zəhmət nədi bilməyən, bir az da təkəbbürlü. Bir də sürətli maşın alıb altına qoymaq. Məncə, bu, qəzanın yarısıdı. Bəlkə də hamısı.

Mürvət təskinlik verməyə çalışdı:

— Bu qismətdi, qəzavü-qədəri, Ümid. Bu işdə kim isə günahkar çıxarmaq düz deyil.

— Burda mövcuzəli düyün axtarmaq axmaqlıqdı, Mürvət. Özümüz özümüzü dolaşdırırıq, sonra da əməlimizə haqq, ədalət donu geyindirmək üçün min bir oyundan çıxırıq, çərənləyirik, nəhayət, içimizə qapanıb çarə axtarırıq. Öyrənmişik, nə baş versə, özümüzlə əlaqələndirməyək, deyək, guya, bu, Allahın işidi.

— Əşi, həmişə belə olub. Əslində şeytana lənət oxumaq da özümüzə təskinlik verməkdi.

— Mürvət, gərək ciddi səhvə yol verməyəsən. Allah yaratdığını heç vaxt bəlaya salmaq istəmir. Xoşbəxtliyə, səadətə açılan qapını göstərir. Tərəzi əyilən kimi yıxırıq Allahın üstə. Guya, Allah günahkardı... Xeyr... Elədisə, adama deyərlər, bəs, sən nə işlə məşğulsan? Qardaş, günahkar biz özümüzük. Öz-özünü ağlar günə qoyanı Allah güldürə bilməz...





Mürvət susdu. Ümidin xarakteri, keçdiyi həyat yolu haqqında düşündü:

— Ümid, sən zahirən nə qədər kor-kobud görünsən də, daxilən nəzakətlisən. Doğrudur, hərdənbir sənin də sərhədi aşmaların olur. Nə yaxşı ki, səhvini tez anlayırsan. Hərəkətlərini götürqoy eləyərək dərin peşmançılıq hissi keçirirsən. Çox vaxt səhvlərini dilinə gətirirsən, etiraf eləməkdən çəkinmirsən, qorxmursan. Onu özün üçün yüksək keyfiyyət sanırsan... Açığını deyim, bu hərəkətin daim sənə baş ucalığı gətirir. Doğrudur, bu xasiyyətlərin birmənalı qarşılanmır. Bəzi ağlıdürəklər səni hiyləgər, gözə girməyə çalışan adam kimi qələmə verirlər. İnsafən, bəziləri də vicdanı ayıq, ürəyi təmiz, kinsiz-küdurətsiz kimi qiymətləndirirlər. Dostların, yaxın adamların yaxşı bilirlər ki, kimlərəsə yarınmaq, boyun əymək, kimlərdənsə mərhəmət ummaq niyyətindən çox-çox uzaqsan. Səni səhvlərini etiraf etməyə məcbur edən öz daxili istəyindi. Düzlüyə, həqiqətə, ədalətə olan mənəvi ehtiyacındı. İnsani məsuliyyətindi...

Mürvət birdən qarşıda qara div kimi köndələn uzanan körpünü gördü. — Çatırıq, — dedi və maşının sürətini yavaş-yavaş azaltdı.

Körpüyə çatanda meyitlərin maşınlara qoyulduğunu gördülər. Mürvətlə Ümid maşından düşüb iti addımlarla polisə yaxınlaşdılar. Dərd-sər içində, sıxıla-sıxıla özlərini təqdim etdilər.

Polis dedi:

— Ağsaqqallar, iki nəfərin aqibətini görürsüz. Onlar tibbi ekspertizaya göndərilirlər. Qaldı sürücü. Onu Allah saxlayıb. Maşın körpünün beton dirəyinə çırpılan kimi sürücünü səkkiz metr kənara atıb. Əvvəlcə onu da keçinmiş bildik. Sonra yavaş-

yavaş nəfəs aldığını hiss elədik. Başından, qıçlarından zərbələr alıb. Həkimlər onu qabağa saldılar, təcili tibbi yardım göstərib xəstəxanaya apardılar. Yəqin ki, oradan da mərkəzi xəstəxanalardan birinə köçürəcəklər.

Ümid polisdən üzüntülü səslə soruşdu:

— Oğlum, xəstəxanayla əlaqəyə girə bilərsənmi? Görək xəstəni mərkəzə göndəriblər, ya yox?

Xəstəxanaya telefon açan polis Ümidin üzünə baxdı.

— Sizin oğlunuzun adı Ülfətdi?

— Bəli!

— Yarım saat olar ki, tibbi yardım maşını ilə onu yola salıblar.

Ümid üzünü Mürvətə tutdu:

— Tələf olanların adamları hələ gəlib çıxmayıblar. Onları həkimlərin, polislərin yanında qoyub gedə bilmərik.

Mürvət çiyinlərini çəkdi.

Polis dedi:

— Bunlara olan olub. Siz qalıb neyləyəcəksiz? Onsuz da xəstəxanada həkimlər, sonra da polislər onlara yaxın getməyinizə imkan verməyəcəklər. Siz də olacaqsız kənardan baxan... Siz gedin, bəlkə yaralıya bir faydanız dəyə.

Mürvət dərhal:

— Mən də elə düşünnəm, Ümid.

Ümid pıçıltılı səslə:

— Lap başımı itirmişəm, — deyib, maşına tərəf addımladı. Mürvət sükan arxasına keçdi.

Onlar Ülfətlə günortaya yaxın görüşə bildilər. Ata oğlunu ağır vəziyyətdə görəndə özünü saxlaya bilməyib palatadan çıxdı.

Onun ardınca Mürvətlə həkim də çıxdılar. Ümid nə qədər özünə toxtaqlıq versə də, hiss olunurdu ki, boğulur. Gözləri heç haranı görmürdü. O, qeyri-iradi olaraq dedi:





— Kaş öləydim, Ülfət, oğlum, səni belə görməyəydim.

Mürvət:

— Özünü ələ al, Ümid. Axı, sən...

— Axı, mən nə?..

— Möhkəm adamsan...

Həkim:

— Yaralını rentgendən keçiriblər. Daxilində heç bir zədə yoxdu. Sol qıçında iki yerdən çat var. Başdan zərbə alıb. İstəyirik, başı da tomoqrafiya eləyək, görək vəziyyət necədi?

Ümid:

— Bizi də qorxuya salan elə başıdı.

Həkim:

— Sizi başa düşürəm, Ümid müəllim. Əlimizdən gələni eləyəcəyik. Əsəbləriniz gərilib, gedin, bizdə dincəlin.

Mürvət:

— Həkim, Ümidi ola bilsin yaxşı tanımırsız.

— Yox, tanıyıram. Bacım Səfayənin müdiri olub. Barəsində yaxşı danışırlar... Yenə deyirəm, əlimdən gələni...

## Çaşqınlıq

Zahirən qurğaz görünən Ümid ixtiyar çağlarını yaşayırdı. Uzun müddət dövlət qulluğunda çalışsa da, bir ildən artıq idi ki, təqaüdə çıxmışdı. O, işlədiyi müddətdə həyatın hər üzünü görmüşdü. Sayılıb-seçilən mütəxəssis idi. İstər cavan olsun, istər qoca, istər kişi olsun, istər qadın, fərqi yoxdu, adamı üzünə baxan kimi tanıyırdı. Çox az hallarda səhv eləyərdi. Bir sözlə, adam tanımaqda sərraf idi. Onun aləmində beləydi: bəşəriyyət milyon, milyard illərdi yol gəlir. Heç kim bir-birilə tam eyni olmur. Dünyada nə tam yaxşı, nə də tam pis adam var... Bu, tarixi təcrübədi. Varsa, desinlər. Olsa-olsa, hansındasa zahirən oxşar-

lıq, bənzərlik ola bilər. Bu eynilik insanın daxili aləminə də aiddi. Qlafa girməyən adam yoxdu. Hamı girir. Danışanda, oturub-duranda. Bir iş görəndə gərək ehtiyatı əldən verməyəsən. Verdinsə, ən azından qınanacaqsan. Dedi-qoduya düşəcəksən. Peşmançılıq çəkəcəksən. Özünü məzəmmətləyəcəksən. Bu, təbiidi. Adama deyərlər, özünə, sözünə nəzarət elə, sonra da bəla çəkmə. Kimsəni qınama, kimsəyə qüsur tutma. Bir də ki kimə demək olar: filankəs, sən qlafdasan. Özündə, sözündə deyilsən. Namusuna, qeyrətinə qısıl, özünə qayıt... Az sünilə̧ş. Az ikiləş. Aralıdan baxan hər şeyi anlayır. Sənə inamı itir, münasibəti dəyişir. Kimə deyirsən? Heç deməyinin də faydası olmur, olmayacaq da. Çətin məsələdi. Birdən o dediyin sözü götürə bilmədi. Yumdu gözlərini, açdı "gül" ağzını. Səndə olmayanları yaxdı sənə. Özü də artıqlaması ilə. Dediklərinə peşman olacaqsan. Eşitdiklərinə ətin töküləcək. Qaş düzəltdiyin yerdə göz çıxarmış olacaqsan. Aləm qarışacaq. Səndən əl çəkməyəcək. Zeynəb qarı demişkən: "İt əl çəkdi, motal çəkmədi". Oturub-durub böhtan, şər atacaq. Çünki naxələfdi. Naxələfin təbiəti əzəldən belədi, yəni ikilidi. Hər kəs istəsə də, istəməsə də, ciddi-cəhdlə qəbahətlərini pərdələməyə, ört-basdır eləməyə çalışır... Böyürbucaqdakıların onu acı-acı seyr etdiklərini, həqarətli baxışlarını, qınaqlarını saya da salmır...

Böyük oğlu Kənanın gəlişi Ümidi düşüncələrindən ayırdı. Dərhal dilləndi:

— Yaxşı gəldin, oğlum. Bayaqdan dünyanın dərd-səri qalaq-qalaq gəlir üstümə. Başıma nə çarə qılım, canımı hara götürüb gedim, bilmirəm.

— Səni başa düşürəm, ata. Özünü ələ al... Gərək belə olmayaydı. Görünür, qardaşımın qismətində bu fəlakətli faciə varmış...

— İctimai rəy çox ağırdı. Adamı məngənə kimi sıxır, Kənan. Günah özümüzdədi. Özü yıxılan ağlamaz, — deyiblər.





— Ay ata, sənə qurban olum. Əvvəla, Ülfət qəsdən qəza törətməyib ki? Bir gündə ölkədə nə qədər qəza baş verir. İkincisi də, olana səbəb axtarmayaq. Səbəb axtarsaq, səbəbkar da olacaq, qəlb qıran söz-söhbət də, hələ narazı qalanlar da. Heç biri də itiriləni geri qaytarmayacaq.

Ümid fikrə getdi. Sonra astadan dedi:

— Oğlum, baş verən hadisə barədə söhbət nəticə çıxarmaq üçündü. Hadisəni qabartmaq, ağıllı nəticəyə gəlmək növbəti təhlükədən sığortalanmaq deməkdi... Qaradan tünd rəng olmur. Hamı Ülfətə deyir: filankəsin oğlu. Yaxud məni göstərirlər: filankəsin atası. Dərindən düşünəndə özümə sığmıram. Əl-qolum bağlanır. Hər kəs gərək günahı özündə axtara...

— Qəbahəti özündə axtaran sənsən, ata. Səhvi olmayan yoxdu. Ancaq kimə desən, bu, elədiyin qəbahət nədi, canavara dönüb atılar üstünə. Deyər, sən hansı qəbahətdən danışırsan? Mən düz eləmişəm. Bu belə də olmalıdı...

— Oğlum, əslində, az fərqlə hər ikimiz eyni şeyi deyirik. Qardaşına çox dedim: öz əcəlinlə ölməyəcəksən... Başa düşmədi. Dedim: məni qınağa çevirib dilimi qısa eləmə. Anlamaq istəmədi. Səhlənkarlıqmı adlandırım, ehtiyatsızlıqmı deyim baş verənlərə? İki günahsız cavan oğlan dünyasını dəyişdi. Ülfət özü də ölüm yatağında. Dost da, düşmən də soruşacaq: Ümid, bu nə qəzyədi?! Dilim-dodağım təpiyir, oğlum, cavab verə bilməyəcəyəm. Adam nə qədər alçaq olmalıdı ki, eşitdiklərini qulaq ardına vursun. Nə gizlədim səndən, xəcalətimdən, ayağım var, ancaq gedə bilmirəm doğmaca oğlumun yanına.

Kənan söhbətin səmtini dəyişdi:

— Necə düşünürsən, bəlkə ölənlərin ailəsinə baş çəkməyi gecikdirməyəsən.

Ümid köksünü ötürdü:

— Mürvətə zəng eləmişəm. Yoldadı, gəlir. Ağsaqqal adamdı. O, belə şeyləri çox görüb... Sən get xəstəxanaya, oğlum, qar-

daşının yanında ol, anan qayıtsın evə...

— Baş üstə, ata.

— Hə... Kənan, şər deməsən, xeyir gəlməz. Ehtiyat igidin yaraşığıdı. Birdən kimsə səninlə açıq-giciklə danışar. Səni hövsələdən çıxarar. Nəzərə al ki, acıqlı başda ağıl olmaz. Ölü sahiblərini qınamıram. Alovludular... Yanırlar... Yaxşı olar ki, onlardan uzaq olasan... Yaxşı yadıma düşdü. Həkimə çatdır ki, Ülfətin yanına başqa adamları buraxmasın. Nə desən çıxar...

Kənan getdi. Ümid otaqda o tərəf-bu tərəfə gəzməyə başladı. Əsəbdən, hirsdən, qəzəbdən nə eləyəcəyini bilmirdi. O, divanda əyləşdi. Başına yüz cür fikir gəldi. Hamısı da qırıq-qırıq. Dolaş-bulaş... Məntiqsiz... Gicgahında ağrı hiss elədi. Qalxıb təzəcə aldığı cihazla qan təzyiqini ölçdü. Təzyiqi normada olduğundan, "Başım niyə belə ağrıyır" deyə düşündü. Tez də fikrindən döndü: "Niyə də ağrımasın, bu zıppıltıya baş dözər? Bundan ağır, bundan fəlakətli faciə olar? Ürəyim az qalır çatlaya... Eh... Öyrənmişik özümüz-özümüzlə danışmağa, it burdan gəldi, qurd ordan getdi, — deməyə. İnsan qəribə və mürəkkəb məxluqdu deyənlər nə qədər haqlıdılar. İnsanlar cürbəcürdü. Fizioloji quruluşları eyni olsa da mənləri nə qədər fərqlidi. Aləmləri kəşf olunmazdı. İndi Mürvət gələcək. Başıma gələnlərdən halidi. Bir çox şeyləri gözlərilə görüb. Ola bilməz ki, özü də əlavə xəbər tutmasın. Bu mümkün deyil. Nə məqsədlə çağırdığımı da təfərrüatı ilə bilir..."

Ümid dözməyib yenidən Mürvətə zəng çaldı. — Hə, necədi, gəlirsənmi? — deyə soruşdu. Mürvət dərhal: — Çatıram, tıxac ləngitdi məni, — cavabını verdi. Dərhal da telefonu söndürdü.

Nəfəsi təngişən Ümid qapını açıb balkona çıxdı. Hər şey gözündən elə bil, düşürdü, ona cansıxıcı görünürdü. Bir anlığa qəza baş verən yer gözləri önündə canlandı. Sonra sürətlə gələn maşının körpüyə çırpılması. Onun iki hissəyə ayrılması. Yerli sakinlər tərəfindən meyitlərin yol kənarına qoyulması. Hüquq





işçilərinin qəza yerindəki təhqiqatları... Meyitlərin götürülməsi. Oğlunun xəstəxanaya yerləşdirilməsi... Nələr... Nələr... Ümidin ürəyi sancdı. Kişi əlini ürəyinin üstə qoyub balkondan otağa keçirdi ki, qapının zəngi çalındı. Sakit addımlarla gedib qapını açdı. Gələn Mürvət idi. Şux qaməti, uca boyu, səliqəli geyimi, cazibədar səsi, ağır-ağır danışığı, səbr və təmkini vardı onun. Söhbətçilliyinə söz ola bilməzdi. Çətinlikdən qorxmurdu. Ürəyi olduqca yumşaq idi. Adamlarla dil tapmağı, onlara güzəştə getməyi bacarırdı. Ona görə də tanıyanlar ona hörmət və izzətlə yanaşırdılar... Ümidlə Mürvət qapı ağzındaca görüşdülər. Sonra keçib yumşaq kreslolarda üzbəüz əyləşdilər. Mürvət hüznlə soruşdu:

— Qəzadan təzə nə xəbər var, Ümid? O gündən sanki yuxudayam. Elə bil, hisslərim donub. Danışa bilmirəm. Sən bu vəziyyətə düşməməli idin.

Ümid köksünü ötürdü. Sonra dedi:

— Mürvət, nə hırhıradan, nə zırzıradan?.. Düşməli idim, düşməməli idim, axır ki, düşdüm. Səni axşam narahat eləmədim: hər kəs öz cəzasını almalıdı. Mənim istəyim budu: gedək ölənlərin sahiblərinin dərdlərinə şərik olaq. Ehtiyac olsa, məsləhət bilsələr, tabutların küncləridən tutaq.

— İnsafən, Ülfət də pis uşaq deyil. Xəta baş verib. Öləni geri qaytarmaq olmaycaq.

— Yenə təkrar eləyirəm: faciə böyükdü. Bilərəkdən, ya bilməyərəkdən, törədən də mənim oğlumdu. Bu faciədə mən də günahsız deyiləm. Mənim də məsuliyyətim var. Oğlumun hər hərəkətinə, davranışına cavabdehəm. Sənin yanında, Mürvət, dil-dil ötməyimə baxma. Mən gedəcəyimiz mərasimdə bilirəm nədən danışacam. Günahkar oğlun atası, yəqin ki, belə də olmalıdı...

— Ümid, özünü çox məzəmmət eləmə. Bu faciə qəsdən törədilməyib ki? Bunu ölənlərin sahibləri də bilirlər. Bu tək sə-

nin, oğlunun başına gələn iş deyil ki?

— Mürvət, qorxduğum yeganə şey haqsızlıq, şər, böhtandı. İstər, lap gözümün işığı olsun, elələrini görəndə, elə bil, başıma qaynar su tökülür.

— İnan, mən də eləyəm, Ümid. Öz-özümə deyirəm: iti görüm, qurdu görüm, elə əbləhləri görməyim. Elə zalımdansa, üfunət verən it cəsədi yaxşıdı. Bilirsən ki, nədi, uzaqlaşıb gedirsən. Xatası-balası da səndən uzaq olur və o andaca unudursan. Şəri, böhtanı sənə yapışdıran özü cəhənnəmlik olur. Ancaq yoluxdurucu mikrobları qalır. Canında iz qoyur. Hər yadına düşəndə yanıb-yaxılırsan.

— Kim nə deyir, desin. Nə düşünür, düşünsün. Şübhə eləmirəm ki, kimlərsə bir an ayaq saxlayıb fikirləşəcəklər: balam, kişi düz deyir. Elə olmasaydı, ta binadan o mənfur, üfunət doğuran cəhətləri yaratmağa ehtiyac olardımı?

İşlədiyi dövrdə adamlara daim xeyirxahlıq göstərən, əl tutan Ümid köksünü ötürdü. Gözlərində gilələnən yaş kipriklərini isladtı. Mürvət yaxşı bilirdi ki, içini açıb tökməyən Ümidin ürəyində açılması mümkün olmayan elə müəmmalı sirlər, çiyinlərində elə ağır yüklər var ki, gecə-gündüz onlardan xilas olmaq, onları özündən uzaqlaşdırmaq üçün çabalayır. Ancaq dərdinə əlac tapa bilmir. Oğlu barədə düşüncələri puç olurdu. O, Ülfəti yüksək tribunalardan, xalqının, ölkəsinin mənafeyini güdən, pozulmuş haqqını, hüququnu tələb eləyən elm nümayəndəsi, məsuliyyətli, nüfuzlu bir ictimai xadim kimi görmək istəyində idi. Arzuları Ümidə rahatlıq, can dincliyi vermirdi. Doğrudu, dosttanışları çox idi. Həm aşağıda, həm də yuxarıda. Ümidsə kimsədən təmənna ummurdu. O, fikrə daldı və öz-özünə dedi: — Yaşamaq nə qədər çətindi. Dərdini bölüşmək üçün gərək xalqın arasına düşəsən... Onda da yüz söz qoşacaqlar... Ona ehtiyac varmı? Yox!.. Həyatda hər kəs öz rolunu oynayır. Başqa cürə olsaydı, həyat çox dolaşıq, cansıxıcı görünərdi. Adamı cana doy-





durardı. Hamı mənfi xasiyyətləri — yalanı, mədhiyyəni, dələduzluğu, ikiüzlüyü... pisləyir.

Maraqlıdı, ancaq hamı o qəbahətləri can-başla təkrarlayır. Soruşan yoxdu: a qardaş, a bala, beş dəqiqə əvvəl nə danışırdın, indi nə sərəyləyirsən...

Ümid fikrə daldı. Acı-acı gülümsədi. Başını buladı və bayaq danışdıqlarının tam əksini düşünərək mızıldandı:

— Bəlkə mən səhv düşünürəm, Mürvət. Hissə qapılıram. İnsana yaramazlıqlar da lazımdı. Elə olmasaydı, insanlar elədikləri qəbahətlərin altından imza atardılarmı? Qəbahətlərini ifadə eləyən sözlər qurub-qoşardılarmı?.. Bəlkə biz bilmirik, anlamırıq, yaşam üçün doğrudan da bunlar lazımdı? Özü də hava və su kimi. Yoxsa, bu qədər cahillik, anlamazlıq olarmı? Bu sözlərimə yəqin ki, gülən də olacaq, ağız büzən də, bu kişinin başı xarab olub deyənlər də tapılacaq.

— Nə deyim, ay Ümid. Dünya elə qarışıb ki, indi ağı qaradan, yaxşını pisdən ayırmaq da çətindi... Sən cəsarətli adamsan. Sözü adamın düz gözlərinin içinə deyə bilirsən. Dediklərimi quru tərif kimi də qəbul eləmə. Axı, cəsarət hər adamda olmur. Sən bilirsənmi ki, bəzi kişilər arvadlardan da abırsız olublar? Bir zaman xalq hərəkatına qoşulanda çoxları ünvanına hər cür söz dedilər. Qeybətini qırdılar. Sən onların dediklərini saya salmadın. Sonacan getdin. Vəzifəndən, titulundan, ad-sanından qorxmadın. Həbs oluna biləcəyindən çəkinmədin. Hansı ki, sən danışdıqca, "mənəm-mənəm" deyən vəzifə sahibləri girmək üçün siçan deşiyi axtarırdılar. Bilirsən niyə, onların paxırları açılırdı. Eləsi də vardı ki, o cəsarət məndə niyə yoxdu deyə paxıllığını çəkirdi.

— Mürvət, əziz qardaşım, o sən deyənlər arxada qaldı.

— Nahaq elə fikirləşirsən, Ümid. İnsan dünyaya bir dəfə gəlir və öz ömrünü də bir dəfə başa vurur. Ağıllı adam odur ki, sözü qəti, əməli düz, ləyaqət və şərəfi şəffaf, vicdanı saf və təmiz-

di... Xalq hərəkatındakı fəaliyyətin heç vaxt unudulan deyil. Yadındadı, bizi hərəkatda baş verənlərlə bağlı əlaqədar təşkilata çağırdılar. O zaman sən heç nəyin fərqinə varmadan öz sözünü dedin. Təfəkkürünün çevikliyi, kişilik ərdəmin, heysiyyətin, hissiyyatın və nəyə qadirliyin hamıya bəlli oldu.

— Onlar mənim vicdan borcumdan, xalqa, millətə, vətənə sevgimdən irəli gəlirdi, Mürvət.

— Sənin dediklərin hər bir vətəndaşın borcudur. Bəs, niyə heç kimin səsi çıxmırdı? Arxada şirə, aslana dönənlər orda suda islanmış pişik görkəminə düşdülər.

— Hər kəs özünə cavabdehdi. Bəli, onda incidə də bilərdilər. Nədənsə o yolu seçmədilər. Görünür, qismətimdə xalqımın arasında olmaq varmış... Qaldı o sən deyənlərə. İnsan hər şeyə tüpürə, xəyanət eləyə bilər. Ancaq xalqına, vətəninə və valideynlərinə yox... Bir dəfə yaşayıram. Bu yaşamda da sevdiklərimə xidmət etməliyəm.

— Bəs, xalqın hesabına dolanan mafiozlar niyə əmcəkkəsənlik eləyirlər?

— O mənim problemim deyil, Mürvət. Hər kəs özünə cavabdehdi. Bir də ki, o sən deyənlər bütün dövrlərdə olub. İndi də var. Sabah da olacaq. Çalışaq, elələrinin sayını azaldaq.

Mürvət ucadan güldü. Sonra dedi:

— Ay pir olmuş, onların sayını bilmək olur ki, azaldasan da? Zeynəb qarı demişkən, hamısı camış balası, özü də quyruğu ağ. Ümid, səni əsəbiləşdirmək, hövsələdən çıxarmaq üçün xüsusi bir hazırlığa ehtiyac yoxdu. Bunun üçün insanların qeyri-səmimi hərəkətləri bəs eləyir. Bunları çalış özündən uzaqlaşdır. Oğlunun törətdiyi faciə, bilirəm, sənin bütün varlığına təsir eləyib. Kimsəyə bir söz deməsən də: — Bu həyatda daha yaşamağa dəyərmi? — sualı qarşısında indi sən özün də bəzən aciz qalır, kimsəsizləşir, tənhalaşırsan. El arasında deyildiyi kimi, dağlar da, qayalar da dalsız-daldasız, tənha, yalqız olmasın — qənaətinə gəlirsən və onu da açıq-aydın bilirsən ki, yaş öz sözünü deyir. Daxili götür-qoylarına, axtarışlarına cavab tapa bilməməyin səni çox əzablarla, işgəncələrlə qarşılaşdırır.





— İnsanın içi bəzən özünə tabe olmur. Ağıl bir şey deyir, Mürvət, hisslər başqa şey. Bu toqquşmada kim qalib gəldi, hökmran da odur.

— Axı, sənin iradən...

— İadə böyük şeydi. İnsanı bəzən cəngavərləşdirir. O qırılanda...

— Zaman gələcək, ömrünün ixtiyar çağında belə qarmaqarışıq, dolaşıq, bəzən də müəmmalı fikirlərlə üz-üzə dayanacağını xatırlayıb təəssüf hissi keçirəcəksən. Əsəb yıxan evi fələk də yıxmır. Sən lap gəncliyindən ayıq olmusan. Hər ictimai hadisə... sosial, iqtisadi, siyasi proses sənin sönməkdə olan hisslərini közərdir. Ümid, sözün həqiqi mənasında, xalq adamısan. Bunu tək mən demirəm. Səni tanıyanlar, xarakterinə bələd olanlar deyir.

— Mürvət, elədiklərim xalqıma olan borcumdu.

— Ona hər kəsin öz baxışı var. Kimsəyə ağıl vermək çətindi. Sən heç vaxt şəxsi mənafe nədi, bilməmisən. Sənə qüsur tutmaq üçün kimsənin əlinə elə bir fakt da verməmisən. Komitə sədri işlədiyin on il ərzində ölkədə gedən siyasi hərəkata qoşulmaqdan da bircə dəfə çəkinməmisən. Bu xarakterin qabarıq şəkildə özünü göstərməsə də, böyük xidmətlərinlə yaddaqalan işlər ortaya qoydun. Gənc nəslin cəsarətli mübarizəsinə təkan verdin. Onlara qarşı çıxanları geri çəkilməyə məcbur elədin. Dostların indi də səni, sözün həqiqi mənasında, azadlıq və demokratik dövrün tarixi carçılarından, xalq hərəkatının təmsilçilərindən, bəzən də görkəmli ideoloqlarından biri kimi dəyərləndirirlər.

— Ayə, məni utandırma... Nə təmsilçi... Nə görkəmli ideoloq...

— Elədiklərini nə tez unutdun, Ümid? Axı, bu sənin sözündü: gələcək xoşbəxt həyat cəmiyyətin dəyişməsində böyük fəallıq göstərən vətənpərvərlərin əllərilə qurulacaq.

— Məni lap dahiləşdirdin...

— Öncəgörmə səndə çox güclü idi. Deyərdin, xalqın öz müstəqil dövləti, öz konstitusiyası, bir sözlə, öz atributları olmalıdı. Bu istəyə, bu ideologiyaya, bu mübarizəyə qarşı çıxmaq xalqa, milli varlığa, onun milli düşüncələrinə, azadlığına, suverenliyinə... xəyanətdi. Təpədən dırnağa milli ideyaların, milli ruhun, milli dəyərlərin daşıyıcısı olduğundan, yaxşı anlayırdın ki, cəmiyyətdə insanların başına açılan oyunların, haqsızlıqların, ədalətsizliklərin böyük bir hissəsi satqınların kənardan meydana itələdikləri və mafioz qrupların da onlara söykənərək törətdikləri cinayətlərin məntiqi nəticəsidir. Doğrudur, o zamanlar sənin dediklərini çox az adam anlayırdı.

— Ayə, Mürvət, sən canın, məni az şişirt. O zamanlar mən də minlərdən biri idim. Ölkənin problemini hamı məndən də yaxşı bilirdi, yaxşı görürdü.

— Bilirdilər, görürdülər. Amma deməyə cəsarətləri çatmırdı...

— Yoox... Məndən də hünərliləri vardı.

— Heç yadımdan çıxmaz. Komitənin yığıncağında yuxarılardan da adamlar iştirak edirdilər. Sən tribunaya qalxdın. Üzünü mafiozlara tutub dedin:

— Ölkədə at oynadan mafioz dairələrin hoqqabazlığının başlıca niyyəti adamları soyub-talamaq, vətəndaş müharibəsi yaratmaq, milli oyanışdan istifadə edərək irəli düşmək, böyük vəzifə tutmaq olduğundan, onların fəaliyyətləri azadlıq hərəkatına ağır zərbələr endirmək cəhdləridi. İndiki tarixi şəraitdə hamı bilir ki, bu, sosial həyatda baş verən özününküləşdirmə siyasətidir. Bir qrup təmiz adam qara niyyətli şəxslərin, daha doğrusu, mafioz qüvvələrin əllərində oyuncağa çevriliblər. Xalqın saf





ruhlu qüvvələri də təəssüf ki, bir çox hallarda onların uydurduqlarına inanır, rəvac verirlər. Bəzən özləri də nə etdiklərini bilmirlər. Ölkədə "Ura!"çılıq başlanır. Bu əcaib gedişlərsə xalqın mahiyyətinə tüpürmək, işıqlı ideyalara qarşı çıxmaq, insanların başlarını pozmaq, xarakterlərini korlamaq, bir növ məzlum kütlənin sağlam düşüncəsini başlıca hədəfdən — həqiqətdən, ümumi mənafedən uzaq salmaq, başlarını dumanlandırmaq, nə varsa, yumşaq desək, əldə saxlamaqdı... Xalqda ələ baxım hissləri aşılamaqdı.

Mürvətin dediklərini Ümid başı ilə təsdiq elədi və gözləri doldu. Mürvət sözünə davam elədi:

— Bunları demək üçün insanda xalqa məhəbbət, vətənə hədsiz sevgi olmalıdı. O səndə var, Ümid. Mən mədhiyyə oxumuram. Sadəcə, gördüklərimi, hiss elədiklərimi deyirəm. O alqışları sən unuda bilməzsən, sadəcə olaraq, xalqa, millətə elədiklərini dilinə gətirmək istəmirsən. O da sənin təvazökarlığından irəli gəlir. Alqışlara səbəb olan sözlərini indi də xatırlayıram. Uzun müddət xalqın dərisindən qopmaqda bulunan bu gənələr yetişməkdə olan nəslə hələ də böyük təsir eləməyə səy göstərirlər. Nə qədər qeyri-adi görünsə də, siz bu kasıb, imkansız xalqda gör-götür yaşam tərzi formalaşdırmağa çalışmısız...

Ümid, sənin özünü zərbə altına salan bu və buna bənzər cəsarətli çıxışların açığını deyim, o dövrün sağlam düşüncə, zəki əqidə sahiblərinin, müdriklərin, ziyalıların, bir sıra ideoloqların ürəyincə oldu. Ümid, sən zəif adam deyilsən. Cəsarətlisən. Səndən çox adamın xoşu gəlmir. Ancaq görürlər ki, sənin də çəkinəcək yerin yoxdu. Təmizsən. Qüsuru adamın gözlərinin içinə deyənsən.

Ümid gülümsündü:

— Elə etməsəydim, Ümüd olmazdım.

— Çıxışın indiki kimi yadımdadı.

— Təşəkkür edirəm, Mürvət. Bu yeni içtimai quruluşu gənc

nəsil qurdu. Düzdü, onlar da uzun müddət "Süni nəfəs" kamerasında bulundular. Bir müddət cəsarətli gənclərin, söz-fikir sahiblərinin genosidi başlandı. Cinayətkarların, nadanların üz-gözlərində simasızlıq ifadəsi cövlan etsə də, sınmışların, ümidsizlərin bənizlərində, baxışlarında mənəvi işgəncələrin daha çılğın təcəssümü özünü büruzə versə də, etiraf eləyək, onların aralarında elə adamlar da vardı ki, hiss və duyğularında soyuqqanlıqdan, donuqluqdan doğan küt etinasızlıq hökm sürürdü. Bütün bunlar sadə sıradan adamlarda dərin narahatçılıq, pessimizm, bəzən də qəzəb, nifrət, aqressiya yaradırdı. Nəticədə onların gözlərində həyat sönürdü... Hakimiyyət dəyişdi. "Dostlarım" mənim də fəaliyyətimin üzərindən insafsızcasına xətt çəkdilər. Beləcə, fədailərin qara günləri başlandı. Ekstremal vəziyyət yarandı. Nə eləyəcəyimizi bilmədik. Ara qarışdı. Bizi eşidən, saya salan olmadı. Şəxsən mənim qəlbimlə idrakımın vəhdətinin pozulması həddinə çatdı. Haqsızlıq, ədalətsizlik o həddə çatdı ki, ən yaxın sandığım adamlara inamımda çatlar yarandı və bu çatlar da get-gedə genişləndi və dərinləşdi. Yuxarılar nəinki məni görmək istəmədilər, hətta, təqibə başladılar. Bezdim. Onlarla addımlaya bilməyəcəyimi düşünüb istefa ərizəmi yazdım. Peşmançılığım da yoxdu. Nə vaxt mənə ehtiyac duyulsa, canbaşla xalqımın yanındayam.

Mürvət, əzizim, indi bu sözlərin yeri deyil. Zeynəb qarı demişkən: "Söhbət dananı qurda verər". Gedək Salehgilə. Üzrxahlıq eləyək. Başsağlığımızı verək... Səncə, bizi peşman eləməzələr ki?

— Elə şey olmaz, Ümid. Nə qədər insanlığını itirməlisən ki...

Ümidlə Mürvət qapıdan çıxdılar.





# Yasda

Ümidlə Mürvət hüzr yerinə gələndə iyunun qızmar günəşi enişdəydi. Həyət qəfləti hadisəni eşidənlərlə dolu idi. Hamının üzünü qəm, qüssə, kədər buludu bürümüşdü. Hər kəs yanında dayanandan hadisə barədə nəsə öyrənməyə çalışırdı.

Mürvətlə Ümid sakitcə adamlara yaxınlaşdılar. Qarabuğdayı, qısaboylu, dolu bədənli kişidən Mürvət soruşdu:

— Qardaş, siz bu ailənin nəyisiz?

— Heç nəyi. Sadəcə, qonşusu.

— Saleh kimdi?

— Tanımırsız?

— Yox...

— Odur ha... Ağaca söykənib, qocayla söhbət eləyir.

— Axır qəmləri olsun.

Ümidlə Mürvət sakit addımlarla Salehə tərəf getdilər. Yaxınlaşıb salamlaşdılar. Mürvət dərhal:

— Axır qəminiz olsun. Adam baş verənlərə inanmır.

Salehin söhbət elədiyi adam mızıldandı:

— Uşaqları saxlamaq olmur. Böyük faciədi.

Saleh:

— Rəhmətliyi başdan çıxarıb bir narkoman... dələduz... Pul əyyaşın gözlərini elə tutub ki...

Mürvət:

— Nə narkoman?.. Nə əyyaş?.. Nə pul?.. Ülfət namaz qılan, Allaha ibadət eləyən bir oğlandı. Siz onu tanımırsız.

Qoca:

— Əşi, necə tanımırıq?.. Hər gün avtoşluq eləyən o dəyyus camaatın çırağını qaraltdı. Zinadan törəmə.

Saleh:

— Güvənib atasının puluna, şərəfsiz.

Deyilənlər Ümidi bərk tutdu. Kişinin sifəti bozardı. Bir addım geri çəkildi. Öz-özünə:

— Ooho... Bircə bu ad qalmışdı almadığımız — dedi.

Qoca Ümidgildən şübhələndi və sözünə düzəliş verməyə başladı:

— Bizə də xəbər elə çatıb. Bəlkə də yalandı. Qızışdırırlar.

Saleh:

— Qudurmasaydı, bu boyda həngamə törətməzdi.

Ümid:

— Yoxlamadan... Hər deyilən sözə...

Saleh:

— Halım özümdə deyil.

Qoca:

— Özünü ələ al, Saleh. Öləni diriltmək bilirsən ki, mümkün deyil. Camaatın qulağı bizdədi, bir az astadan...

Mürvət:

— Saleh, sən Ümidi tanıyırsan?

— Yoox...

— Bu kişi dövlət adamı olub. Ömrünü dövlətinə, xalqına sərf eləyib. Ülfət də onun oğludu. Ondan heç kəs...

Qoca birdən əsəbiləşdi və səsini qaldırdı:

— Burda nə toy eləyirik, nə də bəy tərifləyirik. O, Ümiddisə, mən də o qətlə yetirilən Bayramın ana babasıyam... Qurtarın qoz-qozu söz-söhbətləri.

Ümid xəcalətli uşaq kimi başını aşağı dikdi. Mürvət dözmədi:

— Babasan, çox yaxşı. Biz də hüzrə gəlmişik.

Qoca:

— Çox nahaq yerə.

Mürvət:

— Gəldik deyək ki, sizin uşağınızı heç kəs qətlə yetirməyib, sadəcə olaraq, qəza nəticəsində rəhmətə gedib... İkincisi də, biz





bura qoz-qozu söz-söhbətə gəlməmişik ki, kimsəni də günahkar çıxaraq. İnsan kimi gəlmişik, sizə üzrxahlıq eləməyə... Bizi təhqir niyə edirsiz?

Qoca:

— Dedim axı, çox nahaq.

Mürvət:

— Nə deyirik...

Qoca Ümidgildən uzaqlaşdı. Araya sakitlik çökdü. Saleh kənarda dayanıb söhbəti izləyən otuz-otuz beş yaşlı kişiyə: — Tahir, — deyə başı ilə “yanımıza gəl” işarəsini verdi. Tahir dərhal gəldi və: — Eşidirəm, — dedi.

— Bunları tanıyırsan?

— Yox... Nə olub ki?

— Heç...

Saleh səsinə ara verdi, sonra astadan sözünə davam elədi:

— Mənim oğlumun ölümünün səbəbkarı bu kişinin oğludu.

Mürvət:

— Səbəbkarı deməzdim, qardaş. Ümid müəllimin kimliyini bütün xalq bilir. Axı, o sizi tanımır... Sizinlə onun nə düşmənçiliyi, nə ədavəti var?

Saleh etinasız halda:

— Var-yoxdu, sonra danışarıq, Tahir. Bunları yola sal, getsinlər. Başımız qarışıqdı. Halımız yoxdu.

Ümidlə Mürvət çaş-baş qaldılar. Bir-birilərinin üzünə baxdılar. Mürvət çiyinlərini çəkdi. Ümid ona: — Gedək, — dedi.

Onlar Tahirin sözünü gözləmədən yasxanadan çıxdılar.

Ümid mızıldandı:

— Aralıdan baxan elə bilər, doğrudan da Salehin oğlunun qanı ilə alverə gəlmişəm.

Onlar maşına əyləşdilər. Ümid özünü saxlaya bilməyib soruşdu:

— Bu işdən ağlın nə kəsir, Mürvət?

— Nə kəsəcək? Saleh, Qocaya hər şeyi dedizdirdi...

— Açıqla görüm, onların sözlərindən sən nə anladın?

— Çox şey.

— Məsələn?

— İmkan ver, onlar dediklərini soyuq başla fikirləşib yadıma salım.

— Sal... Sal... Qoy sürücü indi də bizi Qara Qarayev prospektinə aparsın. İkinci bədbəxt hadisə yerinə. Onlara da dəyək, üzrxahlığımızı eləyək.

Sürücü dərhal: — Oldu, — deyib maşının istiqamətini dəyişdi.

Mürvət:

— Ümid, düşündüklərimi deyəcəm. Mənim ağlım nə Salehdən, nə də rəhmətliyin babası o qocadan bir şey kəsmədi.

Ümid ani fikrə getdi, sonra handan-hana dedi:

— Niyə?

— Onların sənəti, məşğuliyyəti nədi?

— Eşitdiyimə görə, Saleh alverçidi. Qoca isə təqaüdçü.

— Aha... Deyirəm də...

— Nə olub, nə başa düşdün, Mürvət?

— Nə olacaq? Başa düşdüyüm budu ki, bizimlə alverçi diliylə danışdılar...

— Əşi, ola bilməz, sözdən söz çıxarma. Əsəbidilər. İçləri göynəyir. Ona görə də danışıqlarında...

— Kaş, sən deyən olsun, Ümid... Bir də ki, adamları öz qəlbinlə ölçmə...

— Onlar gözlənilmədən bəlaya düşüblər. Ola bilər ki, hazırlıqları...

— Onda onu elə demirlər, Ümid. Fikri müxtəlif cür ifadə eləmək olar... Qocanın bicliyi olmasaydı, "qətlə yetirilib" əvəzinə "ölüb", "dünyasını dəyişib", "canını tapşırıb", "rəhmətə gedib", "o dünyaya köçüb" də deyə bilərdi. Doğrudu, sən də





ona cavab verdin. Qaldı ki, Salehə, o da sürüşkən danışdı. Elə bilirəm ki, onların dediklərinin məzmunu sənin nəzərindən qaçmayıb.

— Çox da dərinə getmə, Mürvət. Hadisə baş verib. Hələ düz-əməlli bilmirəm mənimkinin vəziyyəti necədi? Sonu necə olacaq?

Sürətlə gedən maşın tini burulub dar küçəyə döndu. Qara ipək parça bağlanmış qapıya çatıb dayandı. Həyətdən ağlaşma səsi gəlirdi. Ümidlə Mürvət maşından düşüb həyətə girdilər. Onları qapı ağzında mərhumun yaxın qohumu Yasəf qarşıladı. Mürvət mərhumun atasını soruşdu. Yasəf dərhal kənarda kətilin üstə əyləşən Sərxanı göstərdi. Arıq, çəlimsiz, başını tutaraq hərdənbir dən düşən saçlarını barmaqlarıyla yoluşduran Sərxan sanki özündə deyildi. Bərk sarsıldığı, həyəcan keçirdiyi üz-gözündən hiss olunurdu. Ümid astadan dedi:

— Biz Sərxanla görüşmək istəyirik.

Yasəf söz demədən onları Sərxanla görüşdürdü. Mürvət tanışlıq üçün qapı açdı:

— Sərxan qardaş, Ümid Ülfətin atası, mənsə Ümidin dostuyam. Gəldik deyək ki, dərdinizə şərikik.

Sərxan üzüntülü halda ayağa qalxdı. Onları həyətin yuxarı başında qoyulan stola dəvət etdi. Hər üçü əyləşdilər. Mürvət astadan dedi:

— Mənim adım Mürvətdi... Uzun müddət bir yerdə işləmişik. Sərxan, hamımıza ağır əzab-iztirab gətirən hadisə baş verib. Sizin oğlunuz Eyyub Ümidin oğlu Ülfətin idarə elədiyi maşında qəzaya düşüb. Allah rəhmət eləsin. Cavandılar. Hamısı da subay... Nakam...

Sərxan:

— Çox sağ olun. Gəlişiniz bizə təskinlikdi. Bu təsadüfi hadisədi. Burda qəsdən heç nə olmayıb. Görünür, taleyin qismətidi. Mənim də maşınım var. O mənim maşınımda da qəzaya uğ-

raya bilərdi. Görünür, bu sandığa qoysaq da olmalı imiş...

Ümid:

— Sən məndən yaşca görürəm çox kiçiksən. Buna baxmayaraq, üzünə baxa bilmirəm. Utanıram. Xəcalət çəkirəm.

Sərxan:

— Xəcalətli düşmənimiz olsun, Ümid müəllim. Mən kişiyəm, dözəcəm, məni sıxan Eyyubun anası Səbinənin göz yaşlarıdı, ah-naləsidi. İnanın, hadisəni eşidəndən özündə deyil, çırpınır. Acıyıram halına. Cənazə evə gələndən bir an da ürəkgetməsi dayanmır. Elə vəziyyətə düşüb ki... Tanınmaz olub. Ailə — ana, oğul, qız canlı meyitə döndülər. Mən görənləri onlar görsəydilər, çox güman ki, ürəkləri çatlardı... Belə ölüm görməmişəm Oğlumun başı bədənindən ayrılıb. Təəsəvvür eləyirsiz?

— Səni başa düşürəm, Sərxan.

Sərxanın dodaqları əsməyə, bədəni titrəməyə başladı. Gözlərindən yaş axdı. Elə bu vaxt Sərxanın atası, Eyyubun babası Soltan stola yaxınlaşdı. Əl verib görüşdülər. Soltanın səksənə yaxın yaşı olardı. Üzü təraş olunmadığından, kağız kimi ağaran tükləri xeyli uzanmışdı. Sərxan dərhal ayağa qalxıb yerini atasına verdi, sonra onu Ümid və Mürvətlə tanış elədi.

Soltan dedi:

— Mən bu yaşa gəlmişəm, belə qəza... Günümü görüb, dünyasını sürən mən... Əşi, öləsi mən... Gör Allah kimə qıydı? Gərək belə olmayaydı. Eşitdiyimə görə, uşaqların hər üçü yaxın olublar. Dost olublar... Bir-birilərini tutan olublar. Heyf onlardan... Yaxşı, sizinki necədi? Bizə çatan xəbərə görə xəstəxanadadı.

Mürvət dərhal:

— Hə... Xəstəxanadadı, Soltan kişi. Biz də gəldik sizinlə görüşək. Dərdinizdən hali olaq...

Ümid:

— Vallah, bu yaşda az qalıram...





Soltan:

— Qəsdən olmayıb ki. Hamı öləcək. Dünyanı tutub qalan olmayıb. Vaxt-bivaxt məsələsi də var. Bir də baxır kim necə?

Mürvət:

— Elə adamı yandıran da budu da.

Soltan:

— Sizi polis-molis, müstəntiq-zad incitmir ki?

Mürvət:

— Yoox...

— Bura gəlmişdilər. Dedim: qoyun hüzrümüzü yola verək. Ağlımız başımıza gəlsin. Kimə deyirsən, durub marıdırlar adamın üzünə. Ayə, bəlaya düşən də biz, yanan da biz, incidilən də biz...

Ümid:

— Onlardan da tələb eləyirlər, ağsaqqal. Polis olmasa, adamlar Tanrıya təpik atarlar.

Soltan:

— Oğluma da demişəm: bizə nə olubsa, Allahdan olub. Sizin uşaq günahsızdı. Gedin, işinizi düzün-qoşun. Ümid, oğlunu çalış ayağa qaldır. Məhkəməni də yola ver.

Mürvət:

— Atalar yaxşı deyib: böyüksüz yerdə oturma...

Soltan:

— Bizdən sizə ağrı-acı gəlməyəcək. Yaxşı. Salehgildən xəbəriniz varmı?

Ümid:

— Var... Bura gəlməmişdən əvvəl orda olduq.

Mürvət:

— Onlara söz deməyə dilimiz olmadı...

Soltan:

— Nahaq... Təkrar eləyirəm, qəsdən olmayıb ki?

Mürvət:

— Ehtiyatsız olarsız, ağsaqqal.
— Narahatçılığa əsas yoxdu. Hər şey öz qaydasındadı.

## Özü yıxılan ağlamaz

Mürvətdən — Görüşənədək — deyib ayrılan Ümid birbaşa evə gəldi. Bıçaq vursaydın, qanı çıxmazdı. Bütün düşüncələri bulaş-bulaş olub sap kələfi kimi düyünlənirdi. Ona elə gəlirdi ki, ürəyindən ağır daş asılıb... O, qəza nəticəsində həyatları ilə birdəfəlik vidalaşanlar barədə düşündü: iki nakam cavan... Ölümlərini fikirləşəndə halbahal oluram. Bayram da, Eyyub da inanıram ki, çahilliyin qurbanı oldular. Hələ sağalası olsa... Əslində, oğlum Ülfət də onlara taydı. Onun da xoşbəxtliyi əlçatmaz oldu, göyə çəkildi.

Onların başlarına gələnlərdə Allahın qismətindən söhbət gedə bilməz... Nə isə... İşə bax... İki yas yeri. Ağır dərd-sər. Sarsıntı... İki ata. İki baba. Bayramın çılğın atası Saleh. Hövsələsiz babası Qeysər. Eyyubunsa insanı başa düşən, təmkinli, səbrli atası Sərxan, babası müdrik Soltan... Qəribədi... Eyni hadisədən doğan hisslər! Təəssüratlar! Ailələri saran yanğın, təlaş, vahimə, qəm, qüssə, kədər, acıq, hirs, qəzəb... Eyyubun ailəsinin insani münasibəti. Bayramın atasının, babasının əndazəni aşmaları. Onlar da bizim günahımızın dərəcəsini nəzərə alsaydılar, qiyamət qopardımı? Mən heç, Mürvətə verdikləri dəyər nə oldu? Mən bir də o qapını döyməyə cəsarət eləyə bilərəmmi? Döyməsəm, — Adam üzünə gəldilər və bununla da işlərini bitmiş sandılar, namərdlər, — deməzlərmi? Yəqin, Saleh, onun qayınatası elə güman eləyiblər ki, şikayət eləməmələri üçün söhbətə oturmaq niyyətilə onlara təşrif buyurmuşuq... Elə olmasaydı, “İndi o söhbətin vaxtı deyil!” deməzdilər. Yaşımıza, ağlımıza baxmadan bizə “Gedin!” hökmünü verməzdilər. Bizə göstərilən qeyri-





insani münasibəti gözlərim önünə gətirəndə az qalır ətim sümüyümdən aralansın... Doğrudanmı, Salehgil bu qədər çılğındılar? Əxlaqi tutumları bu qədərdi? Yoxsa, özlərini yas yerinə toplaşan adamlara göstərirdilər?! Bəlkə, doğrudan da dəyər qaldırırdılar?!. Nə vəlvələdən, nə zəlzələdən. Hər iki halda utanc gətirəcək hərəkət elədilər. Onlar niyə anlamadılar, yaxud anlamaq istəmədilər ki, ora toplaşanların da danışıqlara münasibətləri birmənalı ola bilməz. Adamların bir qismi onlara “Kişi o boyda, o buxunda oğul itkisinə məruz qalıb” kimi açıq-açığına haqq qazandırsalar da, ikincilər münasibət bildirməsələr də, başlarını bulacayaq, üçüncülərsə “hər kimdi, nə olub-olub, qəsdən eləməyib ki, bu hadisə hamının başına gələ bilər, ondan kimsə sığortalanmayıb, qapına gələnləri ləyaqətlə yola salmaq olmazdı ki?” deyəcəklər. Eh... İnsanlar cürbəcür, xarakterlər çeşid-çeşiddi. Hər kəs içindəkini açıb tökür. Kimliyini büruzə verir. Kimə nə deyəsən... Hər an insanın üstünə bir dərd gəlir. Bu dərdsərdən eləsi var, günəş nəfəsindən özünü qoruyan qar kimi əriyir, eləsi də var, simiclərin qara yollarla topladıqları pul kimi qalaqlanır. O da sahibinin dərdi üstünə əlavə dərd gətirir... Dünyanın hər üzünü görmüşəm. Pisini də, yaxşısını da. Ləzzətini də, zülmünü də...

Bu yaşa gələn Ümid ömrünü hədər yerə xərcləyənlərdən deyildi. Hər şeydə bir əndazə, əxlaq norması axtarırdı. Tükü tükdən seçməyi bacarırdı. Haqq-ədaləti pozana, gözlərinin işığı da olsa, onun aləmində güzəşt yox idi... Ancaq Salehin və onun qayınatası Qeysərin Ümidlə Mürvətə dedikləri, ümumi əxlaqi dəyərlərə münasibətləri və məsuliyyətləri kişini bərk sarsıdır, nəfəsini təngidirdi. Ətrafında cərəyan eləyənlərdən çıxış yolları axtarırdı, təəssüf ki, tapa bilmirdi. O, stolun üstündəki qutudan bir siqaret götürüb pəncərəyə yaxınlaşdı və pəncərənin tayını açdı. Otağa dolan sərin və təmiz hava kişinin üz-gözünü yaladı. Canına sərməstlik gətirdi. Ciyər dolusu nəfəs alıb buraxdı. Son-

ra siqaretini yandırdı. Bir-iki qüllab alıb içinə çəkdi. Tüstü elə bil içində duyuldu, qırıq-qırıq öskürdü. Ümid: — Səni zəhərə qalasan, necə ki, zəhərsən, — dedi. Əvvəl həyət-bacaya, sonra lopa-lopa uçuşan, seyrək boz buludlu səmaya baxdı. Başını yellədi. Üzündəki sərt və kəskin ifadə nəinki zəifləyir, əksinə, bir qədər də artırdı. Ülfətin uşaqlıq illərini, əlindən tutub gəzdirdiyi, şirin-şirin danışıb güldüyü o illəri xatırladı... Xəyal onu çəkib lap uzaqlara aparırdı ki, qapı yavaşca aralandı. Arvadı Səfurə əlində bir stəkan çay sakit addımlarla içəri girdi. Onun qarayanız çöhrəsi bozarmışdı, üz-gözündən əsəbilik yağırdı. Ağzını açıb ərinə bircə kəlmə söz demək istəmirdi. Əslində buna heç haqqı da yox idi. Çünki Ülfətə maşın Səfurənin təkidilə alınmışdı. Qadına elə gəldi ki, içində vurnuxduğundanmı, diqqəti ətrafından yayındığındanmı, ya nədəndi, əri gəlişindən xəbər tutmadı. Ona görə də yüngülcə öskürdü. Bu öskürək də, daha doğrusu, xəbərdarlıq da kişinin halına təfavüt etəmədi. Daha dəqiqi, Ümid özünü o yerə qoymadı. Siqareti sümürməkdə davam etdi. Səfurə keçib divanda səssiz-səmirsiz oturdu. Ümid sonuncu qüllabı içinə çəkdi Ağız-burnundan tüstünü buraxa-buraxa pəncərəni bağladı. Köksünü ötürdü. Otaqda bir-iki addım atdı. İlk baxışdan adama elə gələ bilərdi ki, kişi arvadının otaqda olmasından xəbərsizdi... Əslində, o, nəinki arvadının divanda oturmasından xəbərdar idi, hətta onun gedib-gələn nəfəsini də duyurdu. Dərdi, narahatçılığı halını korladığından, bir qədər arvadına da etinasız kimi görünürdü... Ümüd başını bulayıb mızıldandı:

— İxtiyar çağımızda gör nə ilə qarşılaşdıq?! Ömrün boyu zülmlə uşaq böyüt, onun da yoluna zülmət çöksün. Arzuların, istəklərin puça çıxsın. İndi mən gedim dərdimi kimə deyim? Necə deyim ki, oğlum səhlənkarlıq ucbatından qəza törədib, nəticədə iki cavan oğlan dünyasını dəyişib, özü də xəstəxanadadı? Fikirləşəndə, içimdə nəfəsim də düyünlənir. İçim gurlayır, acıq-kicikdən, qəzəbdən ağzım açılır, vallah, səsim çıxmır. Gedim kimə nə deyim? Balam, mənə deməzlər ki: sənin dərd-sərinin kimə nə dəxli? Elə bilirsən, sənin çəkənlərindən də artığını biz çəkmirik? Əcəb məntiqdi. Lovğalığından, ədəbazlığından dərisinə sığmayan oğlunu tərbiyə eləyə bilmədin, əl-qolunu yığa bilmədin, iki cavan oğlanın ölümünə bais oldun... Sənin dərdinin kimə nə dəxli? Sən canın, get işinlə məşğul ol, kefimizə soğan doğrama... Sonra nə, nə?.. Dediklərimi hallandıracaqlar. Məni məsxərəyə qoyub hərdən güləcəklər... Allahın zülmünə bax. Salehin dediklərini, iki kişiyə münasibətini insan olan götürməzdi. Mən cəhənnəm, Mürvətin günahı nə idi ki, onların qarşısında boyun əyəydi, susaydı?.. Ürəyim ağrıyır. Bir yerdə qərar tutub dayana bilmirəm... Saleh o qədər də ağıllı adam deyil. Onun danışığından gözüm su içmədi. Bizi adam yerinə qoymadı. O qədər adamın gözü qarşısında urvatsız elədi bizi. Görünür, bu da mənim qismətimdi. Qoy nə qədər istəyirlər, qaramca söysünlər. Asıb-kəssinlər. Nə olar, olar... Zeynəb qarı demişkən, kişinin başı qalda gərək... Ayağı sürüşüb yıxılanı ayaqlayan çox olur. Qanun keşikçiləri nəyimiz varsa, bəhanə eləyib, əlimizdən almağa çalışacaqlar. Ağıllarına da gəlməyəcək ki, onların axtardıqları bizdə yoxdu. Polis, müstəntiq, məhkəmə sistemində çalışanlar yıxıb sürüdüklərinin halına bircə dəfə yanmağın nə olduğunu, onsuz da təsəvvür eləmirlər. Azacıq rəhmləri yoxdu. Elədikləri haqsızlıqlardan şərəf duyurlar. Bəli!.. Bəli!.. Onlar hər cür haqsızlığa, cinayətlərə gedirlər... Cinayətkarlar təmiz adamları asanlıqla tora sala bilirlər. Onda qalmışdı ki, qəza törədəsən. İki cavan oğlan sənin səhlənkarlığın, məsuliyyətsizliyin ucbatından dünyasını dəyişə... Onlar üçün hadisənin necə baş verməsi əsas deyil. Əsas səndən nə qədər qoparmalarıdı. Onların dəyəri puldu. Pula görə hər cür cinayətə gedirlər...

Ümidin ara vermədən qızışıb danışdıqlarını dinləyən Səfurə dilləndi:

— Bayaq, uşağın yanındaydım. Elə hey zarıyır. Ürəyim par-

çalandı... Dözə bilmədim...

— Hə... Sərxanın oğlunun başı bədənindən ayrılıb. Salehinki də xıncım-xıncım olub. Onlar torpağın altındadılar... Sən yataqdakının zarımasına dözə bilmirsən. O ölənlər isə daha həyatda yoxdular və olmayacaqlar da... Biz heç vaxt bu xəcalətdən yaxa qurtara bilməyəcəyik.

Səfurə əvvəl ağzını büzüşdürdü, sonra istehza ilə dedi:

— Gözümüz aydın. De ki, bundan sonra nə gecəmiz olacaq, nə də gündüzümüz. Nə yatdığımızı biləcəyik, nə də durduğumuzu... Qurtar sən canın. Tüpür hər şeyə. Özünü az did, az dağıt. Ölkədə hər gün baş verən hadisədi... Ağızlarını yum, getsin...

— Necə? Necə? Baş verənlərə tüpürmək olar?

— Başqaları necə tüpürürlər?

— Bilmirəm.

— Eşitməmisən?

— Nəyi?

— Pulunu ver, işini gör.

— Mənim pulum var? Lap tutalım ki, milyonum var. Mən pulla qan batıracam?

— Onda oğlun dama girəcək?

— Cinayət törədibsə, hə!!!

— Danışdın da.

Səfurə başını yellədi, sonra da istehza ilə dedi:

— Mən də belə bədbəxtəm... O boyda oğul böyüt... Sonra da qurban ver təsadüflərə.

Ümid tərs-tərs Səfurəyə baxdı. İçindəki tufanı səbr və təmkinlə boğdu:

— Axı, mən elə adam deyiləm. Bir yastığa baş qoyduğumuz bu neçə ildə məni hələ tanımamısan? Qüruruma sığışdırmadığımı özümə yük eləyə bilmərəm.

— Eh... Qürur... Qürur... Qürura tüpürməyən var ki? Sən də





ol onlardan biri.

— Necə? Necə? Nə dedin, Səfurə?

— Kişi, gəl qırmayaq bir-birimizi. Ağzıma daşlar... Bəlkə, bizimki də... Bəlkə, deyinməyə heç ehtiyac qalmayacaq?

— Sən anasan... Mənim başım iş-gücə qarışdı. Uşaqlar səhər-axşam nəzarətində qaldılar. Hər gün onlara yeni-yeni güzəştlər elədin. Vədlər verdin. Neçə dəfə sənə dedim: uşaqlara yersiz güzəştə getmə. Hər dəfə bildirirdin: mənim övladlarım imkan var ikən nəyə görə korluq çəkməlidilər? O bahalıqda maşını da qırta-qırta sən aldın ona... Güzəştlərin mənə də, sənə də hələ çox əzab verəcək.

— Qurtar, Ümid. Bu hadisə baş verəndən sənin söz-söhbətin mənə elə təsir eləyir ki... Sənin həddini aşan narahatçılığın, giley-güzarların qorxuram bütün ailəmizə sirayət eləyə, bizə fəlakət gətirə.

— Xeyr, mən ondan qorxmuram. Qorxduğum odur ki, bu xasiyyətin ərdə olan qızına da keçə. Sənin ləpirinə ləpirin qoya. Vay o günə.

Səfurə əsəblərini cilovlaya bilmədi:

— Vallah, belə getsə, sən dəli olacaqsan. Uşaqları da odaalova salacaqsan. Buna şübhən-filanın olmasın.

— Danışmadığın söz yoxdu. Belə getsə, məni də çərlədəcəksən.

— Əşi, mən də əsəbiyəm. Niyə başa düşmək istəmirsən ki, anayam. Odlanıram. Yanıram. Cızdağım çıxır. Hansı ana övladının pis gününə, bədbəxtliyinə razı olar?

— Ağ deyirdim, qara deyirdin. Səfurə anlamırdın ki, bütün dünyanı çalxalayan, insanları öldürən, intihara aparan sözdü. Mən sözdən yumşaq, sözdən kəsərli silah tanımıram. Bir sözün arxasında bəzən bir dağ dayanır. Söz var zəlzələ yaradır, söz də var, məlhəm olur. İndi gör nə günə düşmüşük? Al qabağın, görüm, necə alırsan. Vaxtında sözünün gücü olsaydı, indi özümüzə

ölüm arzulamazdıq.

— A kişi, səbrin olsun, tavaxıl elə. Şeytana lənət de. Bir yandan bağlayan Allah, bir yandan açar.

— Allah qapı bağlamır. Qapını bağlayan şeytanla oturub-duran insandı. Özü özünə eləyənə dünya yığıla çarə qıla bilməz. Neçə dəfə sənə demişəm, Səfurə, mən əsəbiləşəndə sözümün qabağında söz demə. Elə vəziyyətə gəlmişəm ki, özümə də nifrət eləyirəm.

— Kişi, həyat təkcə dələduzlardan ibarət deyil. Yaxşı adamlar da var.

Ümid diqqətlə arvadının üzünə baxdı. Sonra əsəblərini cilovlamağa çalışdı:

— Mən dedim ki, həyatdakı bütün adamlar pisdi? Bəlkə məni şantaj da eləyəsən?

Səfurə acı-acı gülümsədi və səsinə toxtaqlıq verməyə çalışdı:

— İncimə məndən, Ümid, yeri gəlib, deyəcəm. Son vaxtlar adamlara qara eynək arxasından baxmağı özünə peşə eləmisən. Hərədə bir çatışmazlıq axtarırsan. Hamıya, hətta, mənə də şübhəylə yanaşırsan. Sonra da səhv nəticələrə gəlirsən. Bilirsən niyə? Çünki bəzən sənin də niyyətin saf olmur. Mən uşaqlarımıza ona görə güzəştə gedirdim, tələblərini həyata keçirməyə şərait yaradırdım ki, bizim çəkdiyimiz zülmləri, zidgirlikləri onlar görməsinlər. Sən də elə güman eləmisən ki, mən onların dediklərinə rəvac verməklə, səpdikləri toxumları göyərtməklə onları öz tərəfimə çəkmək, səndən uzaqlaşdırmaqla məşğul olmuşam.

Ümid özündən çıxdı:

— Bu hardan çıxdı?

— Təəssüf ki, dediklərim düzdü, Ümid. Baxışlarında qaragüruhluq var. Sənin içində mənə qarşı şübhə var. Sübut elə görüm, hansı ağlı başında olan ana övladının pisini istər.

Ümid arvadına çəp-çəp baxdı. Səfurə çəkindi. Ərini süzərək





gülümsündü və istehza ilə sözünə davam elədi:

— Bəlkə yalan deyirəm? Sən özündəkiləri bilmirsən, ay yazıq. Hərəkətlərini, sözlərini götür-qoy eləmədən qənşərinə çıxanları təqsirkar eləməyə çalışırsan. Belə olmaz... Bu söz-söhbətə ehtiyac vardımı? Oğlun dardadı. Onun arxasınca sürünmək, dadına yetmək hər ikimizin borcudu...

— Baxır necə?! Hara qədər?!.

— Qəddar ata!

— Burnunun ucundan uzağı görməyən, qadın!

## Müstəntiqin xəstəxanaya gəlişi

Bir neçə gün idi ki, xəstəxanada müalicə olunan Ülfət özünə gəlirdi. Hərdənbir yeyib-içir, adamlarla söhbət edir, qəza ilə bağlı adda-budda şeyləri xatırlayırdı. Suallara doğru-dürüst cavab verirdi. Böyük qardaşı Kənan da, anası Səfurə də yanına gəlib-gedənlərə göz qoyur, tanımadıqları adamın palataya daxil olmasına imkan vermirdilər. Elə bu vaxt həkim qabaqda, ardınca da çiyninə ağ xalat atmış, qırx beş yaşı ola-olmaya, dolu bədənli, dazbaş bir kişi, qoltuğunda qara portfel içəri girdilər. Səfurə kişini tanımadığından səksəkə içərisində həkimin üzünə baxdı. Həkim ayıq-sayıq adam idi. Dərhal dedi:

— Tanış olun. Bu şəxs müstəntiqdi... Gəlib ki, Ülfətlə bir-iki məsələyə aydınlıq gətirsinlər.

Kənan dərhal:

— Yaxşı olardı, Ülfət bir az da özünə gələndən sonra...

Müstəntiq soyuqqanlıqla:

— Şükür, xəstənin halı yaxşıdı. Ancaq sorğu-sualı da gecikdirmək olmaz.

— Niyə?

— Niyəsini soruşma, onu biz bilərik, cavan oğlan.

— Səlahiyyət sahibisiz.

— Onu mən bilirəm. Artıq söz-söhbətə də ehtiyac yoxdu. Ana-bala otağı tərk edin.

Səfurə:

— Müstəntiq, görürəm, başlayan kimi təzyiq göstərirsiniz.

Müstəntiq:

— Xanım, "təzyiq" sözünün mənasını bilirsiz? Sorğu-suala mane olmayın. Deyilənə əməl eləyin. Məcbur eləməyin...

— Polis çağıracaqsız?

— Çağırmaq niyə? Qapının arxasındadılar.

Həkim:

— Səfurə xanım, Kənan bəy, biz çıxaq. Arxayın olun, Ülfət tam ayıqdı. İstintaq gecikir. Yuxarıdan ciddi-cəhdlə tələb eləyirlər. Mane olmayaq. Hüquq-mühafizə orqanları istintaqa başlamalıdılar. Onsuz da gec-tez sorğu-sual getməlidi.

Əlacları kəsilən ana-oğul palatanı tərk etdilər. Həkim də onların ardınca çıxdı. Müstəntiq diktofonu işə saldı:

— Özünü təqdim elə.

— Qurbanov Ülfət Ümid oğlu.

— Buyur, Ülfət, yadına sal, hadisə barədə təəssüratlarını. Unutma ki, biz orda olmuşuq. Hər şey ölçülüb-biçilib. Şəkillər çəkilib. Şahidlərdən ifadələr alınıb. Yalan danışsan, vəziyyətini ağırlaşdıra bilərsən. Çalış hər şeyi olduğu kimi de. Onsuz da ortada iki ölüm var.

— Nə? Bayramla Eyyub ölüblər?

— Hə...

— Onda məni neçə gündü aldadırlar?.. Bəs, deyirlər onlar da yaralıdılar, müalicə olunurlar?

— Görünür, səni həyəcanlandırmaq istəməyiblər.

Ülfət əvvəl kövrəldi, sonra yorğanı başına çəkib hönkürməyə başladı.

Müstəntiq soyuqqanlıqla:





— Hönkürtünü saxla mən gedəndən sonraya.

Handan-hana Ülfət hönkürtüsünü kəsib yorğanı üzündən araladı. Bir an gözlərini tavana zillədi. Köksünü ötürdü:

— İki nəfər ölübsə, gizli saxlamalı elə bir şey yoxdu...

Sonra pıçıltılı səslə əlavə elədi:

— Deməli, həyatım qaraldı. Hər şey bitdi. Ən yaxın dostlarımı itirdim...

Ülfət təzədən bir də kövrəldi. Müstəntiq astadan dedi:

— Kiri. Hər şey arxada qaldı. İndi özün barədə düşün.

— Axşam idi. Biz istirahətdən qayıdırdıq. Özümüz də bərk yorğun və yuxusuz idik. Bayram qabaq oturacaqda başını arxaya söykəyib gözlərini yummuşdu. Eyyub isə arxa oturacaqda uzanıb yatmışdı. Mən də mürgüləyirdim. Özüm də bilmədən maşının sürəti artıb. Bir də hiss elədim ki, asfalt yoldan çıxıb, çınqıllıqla gedirəm. O anda gözüm sayğaca sataşdı. Sürət iki yüz otuzu göstərirdi. Mən bərk qorxdum. Tez maşını asfalt yola qaytarmaq istədim. Sürət böyük olduğundan sükanı yığışdıra bilmədim. Maşın körpünün dirəyinə çırpıldı. Sonradan nə baş verdiyini bilmirəm. Gözlərimi açanda özümü xəstəxanada gördüm.

— Saleh, Bayramın ana babası, anası Fatma şikayət eləyirlər. Deyirlər sən o qəzanı qəsdən törətmisən. Maşını dirəyə elə çırpmısan ki, onlar ölüblər, sən salamat qalmısan. Buna nə deyirsən?

— Cənab müstəntiq, şahidlərin dediklərinə görə, maşın ortadan iki hissəyə bölünüb. Elədisə, mən maşından salamat qurtara biləcəyimi əvvəlcədən necə müəyyənləşdirə bilərdim?

— O sualı özünə ver, mənə yox.

Ülfət dayandı. Müstəntiqin gözlərinin içinə baxdı. Handan-hana dedi:

— Sualı sizə yox, özümə verirəm. Dedikləriniz cəfəngiyyatdı. Ona inananlara mən axmaq, səfeh adamlar kimi baxıram.

— Deyirsən, sən bu qəzanı qəsdən törətməmisən?

— Bunu məndən soruşmayın, müstəntiq, araşdırmalarınızı yerli-yataqlı aparsaydınız, onda vəziyyət sizə aydın olardı.

— Salehin dediyinə görə, atanla qardaşın tez-tez gedib Eyyubun ailəsini hədələyir və təhqir eləyirlər.

— Necə yəni onları hədələyir və təhqir edirlər? Günahkar mənəm. Hədə gələn, təhqir edən mənim atam, qardaşım?

— Mənim üçün də maraqlıdı. Güya, atan Ümid deyib ki, Saleh hara şikayət eləyir, eləsin. O, mənim qarşıma general çıxarsa, mən onun qarşısına generalissimus çıxararam.

— Əvvəla, yaxşı olar ki, Saleh özündən, öz ailəsindən danışsın. Eyyubgil vəkil seçməyib. İkincisi də, narahat olmayın, törətdiym cinayətin cəzasını can-başla çəkəcəyəm.

Ülfət gülümsündü, sonra sözünə davam elədi:

— Cənab müstəntiq, inciməyin, görünür, nə siz, nə də Saleh mənim atamı tanımırsız. Tanısaydınız, o sözü, inanıram, ağzınıza almazdınız.

— Yaxşı, tutaq ki, atan elə söz deməyib. Bəs, qardaşın Kənan? Kənan ki gedib onları söyüb, öldürməklə hədələyib.

— Kənan nə onların, nə də sizin düşündüyünüz qədər ağılsız deyil. Neçə gündü bir yerdəyik, onun Bayramın, Eyyubun da onunla qəzaya düşməsinə necə heyfsləndiyinin şahidiyəm. Atamın, qardaşımın barəsində deyilənlər böhtandı, şərdi. Sizin dedikləriniz araqızışdıranların, bizim faciəmizdən istifadə eləmək istəyənlərin sözüdü. Buna şübhəniz olmasın.

Müstəntiq diqqətlə Ülfətin üzünə baxdı. Handan-hana astadan dedi:

— Bəlkə məni də araqızışdıranların, faydalanmaq istəyənlərin sırasına daxil eləyirsən?

— Bunu siz özünüz deyirsiniz, mən yox... Zeynəb qarı adında bir qonşumuz vardı. O, tez-tez deyərdi: “Sözü at, sahibi götürəcək”.

Müstəntiq Ülfətin bu ikibaşlı sözündən özünə düşənini seçib





götürsə də açıb ağartmadı: — Yastığın yüngül olsun, sağal qalx, səninlə yenə görüşəcəyik, — dedi və getmək üçün ayağa qalxırdı ki, Ümid tələm-tələsik, icazəsiz-filansız içəri girdi. Ülfət dərhal: — Hə, atam da söhbətin üstə gəldi, — dedi və yatağından bir balaca qalxmaq istədi.

Müstəntiq dedi:

— Atanızın gəlişinə çox şadam. Doğrudu, şəxsi tanışlığımız yoxdu, ancaq barəsində çox eşitmişəm.

Ümid:

— Xoş sözləriniz üçün təşəkkür eləyirəm.

Müstəntiq:

— Onsuz da sizinlə görüşəcəkdim. Saleh sizdən həm çox gileyli, həm də çox şikayətçidi.

— Böyük zərər çəkib Saleh də, ailəsi də. Nə desələr, haqları var. Özlərinə gəlmələri üçün hələ xeyli vaxt lazımdı.

— Sərxangil də donquldanırlar.

Ümid görüb-götürmüş adam idi. O, dərhal müstəntiqin hiyləsini anladı. Çox təmkinlə dedi:

— Cənab müstəntiq, yazıqlar o boyda zərbə alıblar, indi durum onlara qüsur tutum ki, niyə dinib-danışırlar? Haqqa, ədalətə qarşı, bəyəm, çıxmaq olar? Sözünü deyəni “donquldamaq” kimi dəyərləndirmək, məncə, günahdı.

Müstəntiq dərhal sözünə düzəliş verdi:

— “Donquldamaq” sözünü mən dedim. Onlar sadəcə olaraq, gileyləndilər. Acığı gələnlər, haqq-hesab çəkmək, fayda güdmək istəyənlər hələ çox “pişik boğuşduracaqlar”.

— Onlara ancaq səfehlər, söz oğruları, sözgəzdirən çərənçilər inana bilərlər.

— Hə, bunu düz deyirsiniz. Adamlar birtəhərdilər.

— Elə-belə deməyiblər ki, yemək, içmək insanın insanlığına dəlalət eləmir. Bütün canlılar qidalanırlar. İnsan yalquzaq deyil ki, həyatda tək yaşamağa meyil etsin, ya da dünya malına. İnsan

daim ünsiyyətdə olacağı insanı axtarır. Ünsiyyətsiz insan, təsəvvür elə ki, meyitdi. Hamı xoş sözə, həlim münasibətə ehtiyac duyur. O nə vaxt cəmiyyətə arxa çevirirsə, deməli, özünü məhv eləyir. Atanın, ananın ən çox dayağı, ünsiyyətdə olmaq istədiyi övladıdı. Dünyaya uşaq gətir, boya-başa çatdır, sonra bir təsadüf nəticəsində əlindən birdəfəlik ver... Necə olar? Özümüz də o zavallıya gileylənməyi qüsur tutaq?

— Qüsur tutmuram, Ümid kişi. Sadəcə sizə xatırladıram.

— Bu xatırlatmada qəlbqırma, münasibət korlama elementləri var.

Müstəntiqin rəngi bozardı:

— Sizin bu təhliliniz mənim üçün heç bir əhəmiyyət kəsb eləmir. Mən sadəcə, deyilənləri dedim.

— Münasibətlə oynamaq, qeybət qırmaq kişi işi deyil. Bunu Allah da götürməz. Unutmayaq ki, ömrü qüruba çəkilən şəxs yeddi-səkkiz yaşlı uşaqla dostluğa, oturub-durmağa ehtiyac duyur və daim onunla ünsiyyətə cəhd göstərir. Özünü ona sevdirməyə çalışır. Gələcək həyatı üçün onu özünə dayaq sanır. Onda qalmış da ki cavan oğlanlar ola. Bütün ağrı-acılarını, umu-küsülərini yaddaşında oyatmaq üçün çalışırlar ki, həmdəm tapsın, incidilmiş ruhlarına azacıq da olsa məlhəm qoya bilsinlər... O cümlədən Saleh də, Sərxan da belə. Onlar əzizlərini, doğmalarını itiriblər. Alışıb yanırlar. Dərd onları silkələyir. İndi mənim onlara təsəlli verməkdən savayı yolum varmı? Qətiyyən yox... Sən narahat olma, müstəntiq.

— Mən narahat deyiləm, Ümid. Qara fikirlərini başından qov getsin.

— Mən nə dediyimi yaxşı bilirəm. Bizdən Salehə, Sərxana, onlardan bizə az acıq-gicik apar-gətir.

— Baho... İşə düşmədik. A kişi, bəlkə deyəsən: sizi bu faciəyə də mən salmışam...

— Söz oynatma. Araya nifaq salma. “İt hürər, karvan keçər”





— deyiblər. Oğlumdu, qəza törədib, cəzasını da çəkəcək. Əlacı kəsilən, ağır zərbələr alan hər kəsin gücü göz yaşlarına çatır. Yandıqca içi müma dönür, sökülür, qətrə-qətrə əriyir. Dələduzlara yazıqlaşan, yaşamaqdan imtina eləməyə hazır olan, hissə qapılan adamlar bəzən inanırlar. Özlərini unudaraq deyilməsi böyük qəbahət doğuran ən mübhəm duyğularını açıb tökürlər. Namərdlər nəticədə qarşı tərəfin qəlbinin ən mühbəm guşələrini gəzişməli olurlar. Ən nəcib, ən incə, ən kövrək xatirələrini hərəkətə gətirərək insani düyğularını oyadırlar... Ona görə də hər deyilən sözə inanmazlar, adam oynadan fitvalı sözlərin başına çatı salmazlar, dingildəməzlər... Pişik boğuşduranlara lənət... Dünya yaranandan belələri olub, olacaq da...

— Ayə, Ümid, sən dava-davasanmış... Nə yaxşı ki, indiyəcən səni tanımırammış. Səsimi çıxarmasam, elə axşamacan danışacaqsan... Ayə, sən oğlunun qeydinə qalmaqdansa, yalvarıb-yaxarıb başına çarə qılmaqdansa, yüz dərənin suyunu bir yerə axıdırsan. Filosofluq eləyirsən. Filosofluq elə bilirsən asandı?

— Mənə dərs verirsən?

— Qətiyyən... İndi başa düşdüm...

— Nəyi?

— Hamı mənə deyəndə ki, Ümidlə danışanda ehtiyatlı ol, inanmırdım.

— İndi inandın?.. Gəl, qanımızı qaraltmayaq. Heç sən də az aşın duzu deyilsən. Sönən ocağa, deyəsən, benzin tökməyə adət eləmisən. Təkrar eləyirəm, biz günahkarıq. Təqsirimizi boynumuza alırıq. O iki ailəni bilərəkdən, ya bilməyərəkdən faciəyə sürükləmişik. Cəzamızı da almalıyıq. Güman eləyirəm, nə demək istədiklərimi anladın.

Ülfət astadan dedi:

— Ata, məni bağışla. Qarşında səhvlərim çoxdu. Anlamazlıqlarım olub... Sənin uzun dilini qısaltdığım, başını aşağı dikməyə vadar elədiyim, dostlarımın həyatına zəhər qatdığım üçün

heç vaxt özümü bağışlamayacağam.

Müstəntiq Ümidə xoş getsin deyə astadan dedi:

— Mən də Salehə yox, Sərxana, təqribən, elə siz deyənləri dedim. İnsafən, o, bu işdə o qədər də aqressiv deyil.

Ümüd səsinə ara verə-verə:

— O, kifayət qədər dərrakəlidi. Az danışandı, sağlam düşüncəlidi. Elə-belə söz deyənə oxşamır. Dediyini də yüz ölçüb-biçəndi. Kimsənin sözü ilə oynayana oxşamır. Mülayimdi. Cəsarətli və qətiyyətli adamdı. Sözünün ağasıdı. Hər bir işində özünə əminlik var. İkiüzlülük, hiyləgərlik eləmir... Belə adamlar barədə yersiz söz demək, onlara qara yaxmaq ağlı başında olan adama yaraşmaz...

Müstəntiq:

— Əşi, mən işsiz-gücsüz adam deyiləm. O ki, qaldı Sərxana verdiyin xarakteristikaya, mənim ona da ehtiyacım yoxdu. Yaxşı olar, Sərxanın özünə deyəsən. Özü də yazılı. Bəlkə onun ağzını yuma bildin. Ancaq sənin yazdığın bu xarakteristika Salehdən keçməyəcək.

Ümid:

— Bilirəm.

Ülfət:

— Gəlin qurtaraq bu söhbəti. Hərə öz fikrində qalsın.

Müstəntiq yavaş-yavaş yumşaldı:

— Hörmətli Ümid müəllim! Görürəm, insanlara inamınız böyükdü. Əlbəttə, bu sizin ürəyinizin təmizliyindən irəli gəlir... Ancaq onu da nəzərə alın ki, hamı sizin kimi deyil. Böyük əksəriyyət dələduzlaşıb, ata-atdadı. Salehlə görüşün. O, alverçidi, əli pulla oynayır. Sərxan oğlunuzdan şikayətçi olmayacaq. Saleh isə pul qoparmasa, əl çəkməyəcək. Nəyin bahasına olur-olsun, onun səsini kəsin. Elə olarsa, Ülfətə də kömək eləmək mümkündü. Hətta azadlığa buraxmaq olar.

Ümid Ülfətin imdad diləyən gözlərinin içinə baxdı, yalvarış-





larını duydu. Bir anlığa evdə yaman gün üçün topladığı pulları xatırladı... Ancaq o anda nə müstəntiqə, nə də oğluna bir söz deyə bildi. İçində xarakterinə uyğun olmayan götür-qoy başlandı.
— Fikirləşərik, — deyib, ayağa qalxdı. Gələcək söhbətlərinin, daha doğrusu, "fikirləşərik"in nə ilə qurtaracağını müəyyənləşdirə bilməyən müstəntiq ata-oğula: — Xudahafiz, — deyib, qapıdan çıxdı.

## Donuzu hızzamasan...

Müstəntiqin dediklərini dönə-dönə götür-qoy eləyən Ümid çaş-baş qalmışdı. Bir tərəfdən oğlu Ülfətin yalvarıcı baxışları, o biri tərəfdən xarakteri ilə heç cürə uyuşmayan addımları, pulunun olmaması kişinin əl-qolunu bağlayırdı. Çox fikirləşdi. Axır nəticəyə gələ bilmədi. Son vaxtlar kipriklərini qırpmaması da onu əldən salırdı. Yaşlı adam. Ağır yük. Arvadının dedi-qodusu...

Hər dəfə də arvadının: — Bilmirəm, hardan tapırsan tap, Ülfəti qurtar əjdahanın ağzından, — deməsi cana doydururdu kişini. O, əlacsız qalıb Mürvətlə danışmaq qərarına gəldi. Fikirləşdi ki, Mürvət ona düz yol göstərər. — Mən kişiyəm, — deyib tutduğun yoldan ayaq geri qoymamaq, quru-quru şellənmək də kişilikdən deyil. Bu fikirlə Ümid dəstəyi götürüb Mürvətə telefon açdı və "axşam bir bizə gəl, görüşək", — dedi. Onlar razılaşdılar. Dedikləri kimi də elədilər. Hal-əhvaldan sonra Ümid Mürvətə dedi:

— Lap başımı itirmişəm. Həyat heç də mənim təsəvvür elədiyim kimi deyil. Adamlar niyə belə olurlar?

— Necə bəyəm?

— Etibarsız... Haqqı nahaqqa boğduran. Bir sözlə, dünya dəyişib. Hər şey məhvərindən çıxıb. Vurhavur, çaxnaşmalar baş

alıb gedir. Adamlar addımbaşı cinayətə yuvarlanırlar və səni də arxaları ilə çəkirlər... İnam hissi itir. Getdikcə insanla iblis arasında olan hədd aradan qalxır. İnsanın bütün əxlaqi düşüncələri bulaşır. Belələrindən nə gözləyəsən? Heç nə!

— Bu nə gileydi, Ümid? Səni adam arxasınca qeybət eləyən görməmişdim. Bu, qorxalıqdandı, yoxsa, xarakterində son zamanlar yaranan dəyişiklikdən?

— Canın üçün, Mürvət, neçə gündü dəli kimi olmuşam. Müstəntiq deyir ki, Saleh səndən gileylidi, özü də şikayət ərizəsi yazıb. Düzdü, yoxsa, yalandı, deyə bilmərəm... Özü də alver adamıdı, niyyəti bizdən pul qoparmaqdı. Onun Allahı puldu.

— Bəs, o gün Salehin düzəltdiyi oyundan bir şey anlamadın?

— Ayə, nə anlamalı idim?

— "İndi o söhbətin vaxtı deyil" deməsi də, bizi qapıdan qovması da məzənnə qaldırmağa xidmət edirdi.

— Ooy... Ayə, bu dəyyus, oğlunun qanını satır? Bəs, onun vicdanı? Gecələr oğlu yuxusuna girsə, üzünə necə baxar?

Mürvət fikrə getdi. Handan-hana dedi:

— Ümid, bir söz desəm, inciməzsən?

— Yoox... Səndən nə incimək?

— Elə isə, hər gün deyirsən, Ülfət qəzaya yol verib, cinayət törədib. Cəzasını çəkməlidi. İndi biləsən ki, sənə ölü sahiblərinin də, müstəntiqin də, həkimin də, prokurorla məhkəmənin də gözləri dikilib. Sən onların gözlərini yığa bilməyəcəksənsə, oğlunu azad elətdirə bilməyəcəksənsə, deməli, sən də Salehin bir tayısan. O, ölü oğlunu pula satır, sən də diri oğlunu. Kişi, məni başa sal görüm, ondan fərqin var? Varsa, nədi o?

— Ayə, a Mürvət, deyirsən, mən kimlərəsə rüşvət verim?

— Kimlərəsə yox. Doğmaca oğlunun taleyi ilə oynayanlara.

— Ayə, iki cavan oğlanın ruhuna xəyanət eləyimmi?

— Yoox... Burda daha xəyanət söhbəti yoxdur. İkisi getdi. Üçüncüsünü də sənmi sıradan çıxaracaqsan? Ölənlə ölmək ol-





mur. Ülfət türməyə girsə, aç qulağını, eşit, o, sənin olmayacaq. Bu yaşda öz həyatın da pozulacaq.

— Necə?

— Necəsi budu ki, yaxınlar da, uzaqlar da, hətta, doğmaların da üzünə vurmasalar belə, qaranca deyəcəklər: kaftar, gorbagor doğmaca oğlunu pula satdı. Bilirəm, az da olsa, varındı. Öləndə onu özünlə aparacaqsan? Yox, Ümid, sən də birtərəfli fikirləşirsən. Heç olmasa, arvad-uşağın qınağından qorx... Kənana da pis təsir eləyər.

— Necə?

— Düşünər ki, atam məni də pula satar.

— Booy...

— Bəli! Bəli!..

— Onun Ülfətdən nəyi artıqdı?

— Deyəsən, başım xarab olur.

— Çatışmamazlığın olsa, mən də sənə əl tutaram. Nə vaxt imkanın çatar...

— Mürvət, müstəntiqin, prokurorun, məhkəmənin ağızlarını məndə, səndə olanla bağlaya bilmərik.

— Bilmirəm, fikirləş.

Bu vaxt qapı açıldı. Səfurə məcməyidə iki sətkan çay, mürəbbə və qənddanla otağa daxil oldu. Qadın olduqca halsız və üzüntülü görünürdü. Mürvət çay üçün Səfurəyə təşəkkürünü bildirib dedi:

— Xanım, özünüzü üzməyin. Bu iş təkcə sizin başınıza gəlməyib ki? Televizora baxırsız. Hər gün kriminalla bağlı verilişlərdə göstərilənlərdən xəbərdarsız... Neyləmək olar?.. Dözüm... Dözüm...

— Nə qədər? Gündə Salehgildən bir qaramat xəbər gəlir.

Ümid iti nəzərlərlə arvadının üzünə baxdı.

— Nə xəbər?

— Deyirmiş ki, Ümid elə düşünməsin mənim oğlum öləcək,

onunku yaşayacaq. Mən torpağa tapşıracam, Ümid daram-duramla toy eləyib evinə gəlin gətirəcək?

Mürvət:

— Hər deyiləni ipə-sapa düzsək... Hələ ki, yanır, ağzı odludu. Onu da qınamaq olmaz.

Ümid:

— Mənə elə gəlir ki, Saleh dəyyus təkcə məndən nə qədərsə qoparmaq barədə düşünmür, onda həm də güclü intiqam hissi var. O hisslər də getdikcə güclənir.

Səfurə:

— Əşi, pul cəhənnəmə olsun. Mənə oğlumun salamatlığı gərəkdi.

Mürvət:

— Elə danışmayın, Səfurə xanım. Bu da gedib Salehgilin qulağına çatsa, qərəzlənib duracaqlar quyruqları üstə. İki daşın arasında bu sizə lazımdımı? Onların dediklərinə reaksiya verməyin. Heç kimə etibar yoxdu. Adamlar öyrəniblər ucuz alıb, baha satmağa.

Ümid:

— Baha satmaq dedin, yadıma düşdü. Mənim bu işdə təcrübəm yoxdu. Bir də ki, bunu kimdən soruşmaq olar? Bu işə zənnincə nə qədər xərc gedə bilər?

Mürvət ağzını büzüb çiyinlərini çəkdi... Ani fikrə getdi. Səfurənin gözləri Mürvətin ağzına dikildi. Mürvət handan-hana dedi:

— O baxır işin arasına girəcək adama. Əgər zərərçəkənlər şikayətçi olmazlarsa, daha doğrusu, onları razı sala biləriksə, hərəsindən "şikayətçi, davaçı deyilik" kağızı alarıqsa, — əlbəttə, bunlar da xərcsiz-xəsarətsiz olmayacaq — onda müstəntiq buna ucuz əmma qılar. İstintaq işini məhkəməyə göndərməyə ehtiyac qalmaz. Problem aşağıda həll olunar.

Ümid:





— Qanunlardakı boşluqlara bax ey.

— Bəs nə bilmisən, Ümid?

— Quzğunlar... Özləri üçün əcəb yemək yeri yaradıblar.

— Əgər, mən deyən kimi işi qura bilsək, xərc də az olar. Yox, ölü yiyələri həşir-hüşür salsalar, yerlə-göylə əlləşsələr, şikayətçi olsalar, onda, məsələ gedib çıxacaq məhkəməyə. Onlar da yüz dillə danışacaqlar. Bizi salacaqlar burulğana. Bu gün get, sabah gəl. Aşağı belə dedi, yuxarı razılaşmır... Biz də tökə-tökə getməli olacağıq. Sonunu da Allah bilir...

Səfurə:

— Oooy... Ülfəti tutacaqlar... Ürəyim partlayacaq. Özümü öldürəcəm...

Ümid arvadına əsəbiləşdi:

— Əşi, qoy oturaq. Başımızı xarab eləyib bizi cana doydurma... Yüz dəfə demişəm, kiri... Danışma.

O, sonra üzünü Mürvətə tutdu:

— Bu çox qəliz məsələdi. O qədər pul hardadı?

— Vallah, mən sənə gücüm çatan qədər — beş, uzaqbaşı on min kömək eləyə bilərəm.

— Ayə, bilirəm, pul məndə yoxsa, səndə hardan olacaq? Sən mənim yanımda işləməmisən? Gəlir, çıxarını da yaxşı bilirəm.

Səfurə dərhal dilləndi:

— Bacın uşaqlarına, qardaşlarına de, onlar yardım eləsinlər sənə, Ümid. Azmı onlara dayaq durmusan? Başları ağrıyanda yanlarında yatıb qalmısan. Bacı, qardaş deyəndə dilin-dodaqların təpiyirdi. Bütün bədənin əsirdi. Qiyamət qopar hərəsi bir az yardım eləsə?.. Zeynəb qarı demişkən: "Donuzun burnu sovuşsun, sonra biz də baxarıq".

— Arvad, söz-söhbəti yığışdır. Eləliyə qalsa, mənim qazandığımın yarıdan çoxu sənin bacı-qardaşındadı. Qohum-əqrəbandadı...

— Mənimkiləri nə tez gözün gördü? Mən dişimlə, dırnağımla oğul böyütmüşəm, razı olammaram ki, o da gedib türmədə çürüsün.

— Gücümüz çatmasa, onda necə?

— Çatar... Mürvət qardaşın yanında məni danışdırma...

— Yoxsa, mənə hədə gəlirsən?

— Mən o tərbiyənin sahibi deyiləm.

— Bəs, bu danışdıqların nədi?

— Nə olacaq? Evi qoy zaloq, kredit götür.

Ər-arvad arasında söhbətin dərinləşdiyini görən Mürvət qəsddən boğazını arıtladı və bununla da Ümidə "dərinə getmə" işarəsini verdi. Ümid susdu.

Mürvət:

— Hələ ortada konkret danışıq yoxdu. Tələsməyin. Bəlkə Salehlə Sərxan özləri bir ağıllı fikrə gələcəklər. Allah kərimdi.

Ümid:

— Əşi, Sərxan yazıq bizə nə deyir? Hər dəfə təkid eləyir, gedin işinizi görün.

Səfurə:

— Allah elə qapı açandısa, türmələr niyə doludu dustaqla.

Ümid:

— Bircə Allaha sataşmamışdın, Səfurə... Biz çox pis yerdə axşamlamışıq. Saleh çalışacaq ki, bizi xərcə salsın. Əlimizdəki getsin. Sonra da bizdən intiqam alsın. Salehin atmacaları nədənsə xəbər verir. Biz hazır olmasaq, çox şey itirə bilərik.

Səfurə əsəbiləşdi:

— Qələt eləyir, Saleh. Yolunu azar, boğazını dişimlə üzərəm.

Mürvət:

— Əsəb, yersiz danışmaq, hədə gəlmək, ataram, kəsərəm deməyin sonu peşmançılıq olar.

Ümid:





— Adətən, çox danışan adam bir iş görmür. Gec-tez çərənçi kimi tanınır. Yığışdır bu söz-söhbəti.

Artıq Ümid anlayırdı ki, istəsə də, istəməsə də, həyatın arzuolunmaz səmtə dönüşü, yaşamağa olan ehtiraslı meylin birdən-birə qaralması, işıqlı qəlbinə təsadüfən çökən kölgənin düşməsi dövrü başlanırdı. Bunları düşündükcə, kişinin halı anbaan çevrilirdi. İçi sökülürdü. Onda həyata, yaşadığı mühitə və insanlara tədricən biganəlik hissləri baş qaldırırdı. Bu hisslər də getdikcə davamlı hala çevrilir, güclənir və öz yerini möhkəmləndirirdi. Məsələ bununla qurtarsaydı, nə vardı ki; hərdənbir özü də anlayırdı ki, əqidəsində yüngül seziləcək təlatümlər baş verirdi. Qəlbindəki Allaha sevgi, mərhəmət hissi getdikcə arxaya keçir, əriyir, tədricən yox olurdu. İnsafən, Ümid içində belə qədirsiz mübarizəyə yol açılacağını heç vaxt özünə rəva görməzdi. İndi də bunu istəmirdi. Yaxşı bilirdi ki, ixtiyar çağında onun içində bu mübarizənin at oynatmasının sonu fəlakətlə qurtaracaq. Gec-tez, istəmədən özü də mələkdən iblisə dönəcəkdi. Adamların etibarsızlığı, hər gün bir qılafa girmələri, insani dəyərləri addımbaşı ayaqlar altına atıb tapdalamaları nəticədə onun kiməsə inamının ölməsinə, qəlbinə qara, xəyanət, qorxu, nifrət təlqin eləyən duyğuların soxulmasına gətirib çıxarırdı. Ümidin gözlərində hər şey baş-ayaq görünürdü. O, bunları düşündükcə, hərdən özündə gedən dəyişmələrə, tündləşmələrə məəttəl qalırdı. Maraqlı idi ki, onda baş verən keyfiyyət dəyişmələri, xarakterinin sərtləşməsi kənardan da aydın sezilirdi.

Ümid üzünü Mürvətə tutaraq inamsız halda dedi:

— İşi düz gətirəndə, istəyinə çatanda insanın qəlbi çağlayır, rövnəqlənir. İçində mərhəmət hissi, xeyirxahlıq, rəhmdillik, ədalət, sevgi, məhəbbət... baş qaldırır... İnan, indi elə bilirəm ki, bu deyilənlər boş, cəfəng şeylərdi... Oturduğum yerdə aqressiya içimi zəbt eləyir. Məni aciz, iradəsiz bir əşyaya çevirir.

Mürvət:

— Hər şeyi ürəyinə çox salırsan, Ümid.

Səfurə:

— Mən səni tanıyandan beləsən. Deyiləni eşitmək istəmirsən. Eşitmirsən, eşitmə. Heç olmasa, özün canına bax... Ürəyi nə qədər gücə salmaq olar?

Ümid:

— Ağılsız ürək... Ürəksiz qəlb. Onları bir-birindən ayrı təsəvvür eləmək mümkündümü? Məncə, yox... Olsa-olsa, müəyyən şəraitdə, situasiyada hansınınsa təsir gücü artıq ola bilər...

O, sözünə ara verdi. Fikir onu haralarasa apardı... Təzədən sözünə davam elədi:

— Ağıl qəlbə hakim kəsiləndə hiss və duyğular boğulur. Qəlb cilovlanır. Beləcə beyin ürəkdən ayrılır. İnsan, insanı insan eləyən amillərdən birini itirir. Nəticədə cılızlaşır. Cılız insanın nə cəsarəti, nə hünəri, nə düz-əməlli istək və arzuları, nə də dizlərinin taqəti olar...

Səfurə:

— İndiki halımda eləyəm desəm, mənə gülməyin. Elə bil həyat deyilən şeyin canlılığı, ecazkarlığı, oynaqlığı mənim üçün sönüb.

Ümid:

— İstəyim, arzularım boğulur. Ölmək istəyirəm. O dünya ilə bu dünya arasında o qədər də təfavüt görmürəm.

Səfurə dözəmməyib ərinə cavab verdi:

— Oy... Oy... Sən danışanda az qalır ürəyim çatlasın. Özümü lap itirirəm.

Mürvət:

— Hadisə hər adama bir cürə təsir eləyir. Ümid baş verənləri, duyduqlarını özünə çox yaxın buraxır.

Ümid:

— Fikirləşdikcə, ağrı-acı gətirən, ürək sıxan hisslər məni elə qamarlayır ki, düşdüyüm acınacaqlı vəziyyətdə nə həyatın cövhərinin, nə ləzzətinin, nə də zövqünün təsiri var mənə.





Mürvət gülümsündü və astadan dedi:

— Hansı ki, insanın əzəməti, qüdrəti hissilə ağlının, qəlbilə idrakının qovuşmasındadı.

Səfurə:

— Ağılla qəlbi nə qədər ayırsaq da onlar bir bədəndədi. Onları ya birləşdir, ya ayır. Nəticədə fərq eləməz.

Mürvət:

— Ağılla qəlb arasına sədd çəkmək o qədər də düz olmaz. Hisslər, duyğular da ağılı qidalandıran mənbələrdi.

— Ehtiraslar ağılın hərəkətverici qüvvəsidir, — deyiblər.

Səfurə:

— Elə qəliz-qəliz danışır ki, bu Ümid. Dediklərinin çoxunu başa düşmürəm. Sonra deyir: “Mən deyənləri başa düşmədin”. Ay Allah evini tiksin, mən səni hardan başa düşüm? Ər-arvada uyğun söhbət apar, mən də anlayım.

Otağı gülüş səsləri bürüdü. Səfurə sözünün ardını dedi:

— Çay soyudu. Gətirdim, içmədiniz. Bəlkə dəyişim?

Mürvət:

— Həvəsim yoxdu.

Ümid:

— Adamda həvəs qalar?

Mürvət:

— Ümid, icazə ver, mən gedim. Bir-iki işim var. Bir az da düşünüm. Şənbəyə iki gün qalıb. Gəlim, gedək Salehlə danışaq. Danışıqda Səfurə də iştirak eləsə, pis olmaz. Donuzu hızzamasan, öz xoşu ilə darıdan çıxmaz...

## Salehin mərəzi

Qərarlaşdırdıqları kimi, Ümidlə Mürvət Səfurəni də götürüb Salehgilə getdilər. Onları qapı ağzında Salehin arvadı Fatimə qarşıladı. Doğrudu, Fatimənin də halı özündə deyildi. Oğlunun ölümü bir yandan, əri Salehin də ipə-sapa gəlməyən, ağzıbaşına danışıqları, yöndəmsiz hərəkətləri də o biri yandan onu alışdırıb-tutuşdurub yandırırdı. Öz sözlərilə desək, sinəsinə çalın-çarpaz dağlar çəkirdi.

Səfurə salam verib: — İçəri keçmək olarmı? — deyə Fatimədən izn istədi.

Fatimə dərhal: — Buyurun xanım, biz-birimizi tanımırıqmı, o nə sözdü, keçin içəri, hardasa Saleh də indi gələr, — dedi.

Ümidgil içəri keçdilər.

Fatimə yan otağa adlayanda Mürvət Ümidlə Səfurənin üzünə baxdı. Gülümsünüb kipriklərini qırpdı. Yan otaqda Fatimə eşitməsin deyə pıçıldadı:

— Xoş qəbul elədilər. Görünür, danışıblar, Saleh də fikrini dəyişib. Yoxsa, Fatimə bizi heç içəri buraxmazdı.

Ümid çiyinlərini çəkdi. Səfurə dirsəyi ilə ərinin böyrünə vurub özündən razı halda fısıldadı:

— Ayağım yunguldu, — deyə qürrələndi. — Sidq ürəklə bir iş dalınca gedəm ha, düzəlməməsi mümkün deyil. Düzdü, bir az bərk-boşu, irəli-gerisi olur, axır ki, düzəlir. Ürəyim çox sakitdi.

Mürvət ayıq adamı idi. İstədi desin, hələ tələsmə, Saleh gəlsin, onun sifətini gör, köntöy danışığını eşit, sonra qürrələn. Ancaq Səfurənin qəlbinə toxuna biləcəyini düşünüb fikrindən vaz keçdi. Ümid özünü saxlaya bilmədi:

— Kiri, arvad. Səsinizi Fatimə bacı eşidər, o da gəlib Salehdən betər od vurar atamızın goruna. Gəldiyimizə peşman olarıq.

Mürvət:





— Qaş qayırdığımız yerdə göz çıxararıq. Bu dəfə də burdan əli ətəyindən uzun çıxsaq, gərək evə getməyək.

Söhbətin bu yerində Fatimə podnosda hərəyə bir stəkan çay gətirib stolun üstə qoydu və sonra da payladı. Özü də keçib Səfurəylə üzbəüz əyləşdi. Araya sükut çökdü. Kimsə, nədənsə, söhbət açmağa cəsarət eləmədi. Fatimə dilləndi:

— Çayınızı için. Yol gəlmisiz... Ümid qardaş, mən sizi yaxşı tanıyıram. Qonşu idarələrdə işləmişik. Sizdən narazı olan adama rast gəlməmişəm.

Ümid:

— Necə? Necə? Qonşu idarələrdə?

— Hə... Mən quraşdırma müəssisəsində mühasib işləmişəm. İş elə gətirdi ki, uşaqlarımız da bir universitetdə oxuyası oldular. Həftədə üç dəfə də idmana gedirdilər. Dostlaşdılar. Ülfət tez-tez bizə gələr, Bayramı da götürüb idmana gedərdi. Onların dostluğuna elə sevinərdim, gəl görəsən.

Fatimə dərindən ah çəkdi və gözləri doldu.

Səfurə də kövrəldi:

— Sən saydığını say, gör fələk nə sayır. Görünür, xanım, qismətimiz belə imiş...

Mürvət:

— Hə... Tale nə yazıb, onu da görürük.

Fatimə:

— Hər şeyi taleyin üstə atmayaq. Əcəl-mayallaq da var...

Ümid:

— İnsan qəribə məxluqdu. Həyatdan çox şey qazanıb, çox şey də bilir. Bilmədiyi şeylər də var. Beş dəqiqə sonra, ya sabah baş verəcək bir çox hadisələrdən xəbərsiz oluruq. Məsələn, adam gec-tez öləcəyini bilir. Ancaq nə vaxt, necə öləcəyini bilmir. Hansı nöqtəyə, nə məqsədlə gedəcəyini ovcunun içi kimi qanır, ancaq yolun müəyyən hissəsində ayağı büdrəyib yıxılacağından xəbərizdi.

Mürvət:

— Həyat fəlsəfəsi deyilən şey budu da.

Ümid:

— Yıxılan ölürsə, elə Fatimə bacı deyən əcəl-mayallaqdı da... Adam bilsə ki, başına nə gələcək... Heç evdən çölə çıxmaz. İnanın, o hadisə baş verəndən Səfurənin gözlərinin yaşı qurumayıb. Hadisənin səhəri günü mənə bir stəkan çay verdi. Dalısınca dedi: kaş bizimki də...

Ümidin dodaqları səyridi. Fatimə dedi:

— Yoox, əşi. Qəsdən törədilmiş hadisə deyil ki, oturub-durub düşmən axtaraq. Bir maşın qəzaya uğrayır, ikisi dünyasını dəyişir, biri yaralanır. O da...

Səfurənin dili yavaş-yavaş açılmağa başladı:

— Vallah, Fatimə xanım, bura gələnə qədər təsəvvür elə ki, yüz dəfə ölüb-dirilmişik. Açığını deyim, bizi belə xoş qarşılayacağınızı, evinizə buraxacağınızı ağlımıza da gətirmirdik. Hadisə baş verən gün Saleh qardaş çox sərt danışıb... Ümidlə Mürvət də görüblər Saleh qardaş, deyəsən, çox əsəbidi, söhbətə ara veriblər. İndi gəldik yenə sizə üzrxahlıq eləyək.

Mürvət:

— Bizim xalq böyükdü. Zəngin ənənəsi var. Bağışlayandı.

Fatimə:

— Böyük Allah da bağışlayandı. İçin çayınızı, soyutmayın...

Fatimə Bayramın divardan asılan şəklini göstərərək:

— O getdi... Bir də geri qayıtmayacaq. Surəti gözlərimdə, istəyi, arzusu ürəyində qaldı. Nə qədər biz varıq, adı da bu evdə yaşayacaq. Anayam. Kədərinə də dözəcəm. Gərək Allah qıymayaydı... Eyyuba da yanıram. Onun da ata-anası var... Başımız qarışdı Bayramın yasına. Ülfətdən xəbər tuta bilmədik... Yasdan sonra hamı çəkilib gedir iş-gücünə. İşdən də çıxmışam. Qalıram otaqda tək. Dörd divar, bir də mən. Güc verirəm göz yaşlarıma. Ağla ağlaya bildikcə...





Ümid:

— Hamımızın dərdidi... Eyyub da, Bayram da... Neyləyim? Əlimdən nə gəlir? Xəcalət...

Fatimə:

— Xəcalət itirdiyimizi qaytaracaqmı? Yoox... Hərdən Ümid qardaş, vallah, sizi də yormaq istəmirəm, intihar nə qədər çətinmiş...

Mürvət:

— İntihar, özünü həlakeləmə dərdə çarə qılacaqmı? Yox... Bircə çarə var. Yaşamaq. Əlindən qoparılanın ruhunu əzizləmək. Sevgisini, məhəbbətini canında qoruyub yaşatmaq.

Qapı aramsız döyüldü. Hamı bir-birinin üzünə baxdı. Fatimə divarda taq-tuqla işləyən saata nəzər yetirdi. — Bacım Fəxriyyədi, — deyib cəld ayağa qalxdı. İti addımlarla gedib qapını açdı. — Gəl, qonaqlarımız var, — dedi, özü qabaqda, Fəxriyyə də onun ardınca qonaqlar əyləşən otağa gəldilər.

Fatimə dedi:

— Tanış ol. Ülfətin adamlarıdı.

Fəxriyyə bir söz deməyib əyləşdi, sonra ayağa qalxdı:

— Bəlkə söhbətinizi eləyəsiz, mən sonra gələrəm, bacı, — dedi.

— Səndən nə gizlin? Əyləş.

— Qonaqların gəlişindən Saleh xəbərdardımı?

— Yoox...

— Özü hardadı?

— Dedi, aşağı düşüb gəlirəm. Harda olsa, gələr.

Elə bu vaxt həyət qapısı açıldı. Saleh içəri girdi:

— Kim var evdə? Səsin niyə çıxmır?

Fəxriyyə Fatiməyə:

— Dur gör nə deyir? Səsini çıxar. Yoxsa, gül ağzını açacaq...

Fatimə tələm-tələsik dəhlizə çıxdı. Ümidlə Mürvət bir-birilərinin üzlərinə baxdılar. Səfurənin sifəti bozardı. Fəxriyyə ba-

şını yellədi:

— Neçə illərdi yazıq bacımın günü qaradı.

Hamı susdu. Saleh içəri girdi. Onun yanaqları qızarmışdı. Gözləri də bir balaca kiçilmişdi. Üz-gözündən vurub-çəkdiyi hiss olunurdu. O, Ümidgili görcək təəccübləndi:

— Aha... Gözün aydın, Saleh... Arvad səni evdən çıxarıb, qonaq qəbul eləyir.

Fəxriyyə dərhal:

— Ayə, otur aşağı. Yekə kişisən. Sənin tayların ölkə idarə eləyir. Özünə qiymət verə bilmirsən, heç olmasa, başqalarını dəyərləndir...

Saleh:

— Nə dəyər-məyər salmısan? Məni bəhanəylə evdən çıxarıb, Bayramın qan alverini eləyirsiz?

Fəxriyyə:

— Saleh, özünü yığışdır. Baxmaram yeznəsən-meznəsən, nəsən? Canın üçün sənə bir toy tutaram, adını da yadından çıxarарsan. Mən sənə Fatimə deyiləm. Aç gözlərini, mənə yaxşı-yaxşı bax...

— Xox... Qorxdum ha... Oğlumun sözünü deyib-danışmağa haqqım yoxdu?

— Sənə kim nə deyir? Gəl otur, dinlə, gör nə danışırlar. Uşaq deyilsən ki, atılıb-düşürsən. Sənin başın xarabdı...

— Niyə?

— Deyərəm ikilikdə...

— Yoox, indi de.

— Yeri deyil, qan...

— İndi deyəcəksən. Deməsən...

— Dedim axı, başın xarabdı...

— Niyə? Axı, niyə

— Nə hır qanırsan, nə zır. Kor tutduğunu buraxmayan kimi...





— Mən kişiyəm.

— İçib-çəkəndə, eləmi?

— Bəli! Ən kəsərli sözü...

Fatimə:

— Başıma kaş daş düşəydi, sənə ürcah olduğum yerdə... Mən niyə yaşayıram?

Saleh:

— Küçə adamlarını, tində-bucaqda dayananları...

Mürvət özünü saxlaya bilmədi:

— Adə, yekə kişisən.

Saleh:

— Kişiyəm də... Sübut istəyirsən?

Ümid:

— Mürvət, getməyin vaxtıdı...

Səfurə ərinə:

— Əşi, bir dayan görək. Qızan dəmirin soyuması da var.

Ümid:

— Evdə soyuyan məhkəmədə qızar...

Saleh qəflətən qışqırdı:

— Fahişələr!.. Oğlumu öldürənlər! Qan alveriylə məşğul olanlar! Geci-tezi var, Ümid, Bayramın qanını səndən də, oğlanlarından da alacam!.. Qana-qan eləyəcəm! Onda bilərsiz, analar necə oğul doğub!

O, sonra üzünü arvadına tutaraq bağırdı:

— Ay qeyrətsiz, ana da oğul qanı satar?! Xala da bacıoğlunun ölümündən faydalanmağa çalışar?! Sizi gecə ikən evinizdə yandıraram, Fəxriyyə. Vallah, Fatimə səni doğrayaram. Fırıldağını, dələduz hərəkətlərini yığışdır...

Fatimə ərinə:

— A qanmaz, evə gələn qonağı ləyaqətlə qarşılayarlar, sənin kimi yox! Ümid abırlı adamdı, onu sən tanımırsan, mən tanıyıram.

Fəxriyyə:

— Ağız bəsdi, baş-qulağımızı apardı...

O, sonra üzünü Salehə tutaraq:

— Bacım sənin tayın deyil, Saleh, — dedi.

Saleh:

— Mənim tayım deyilsə, niyə mənə ərə gəlirdi? Yaxşı idi, gedəydi Ümidə də...

Səfurə:

— Salehsən-nəsən, ağzını yum. Bir də belə qələt eləsən...

Mürvət:

— Yamanca yerdə axşamladıq. İndi gəl bunu başa sal: a kişi, bizi bura ləyaqətimiz gətirib. Get deyirsən, gedərik.

Ümid:

— Nə bilirsən, get iki qaba çək. Sənə demirik şikayət eləmə. Eləməyənin də lap atasına lənət...

Saleh:

— Fəxriyyə, sən də ondansan...

Fəxriyyə qəflətən Salehin başına qənddanla zərbə endirdi. Salehin başı hərlənib yıxıldı, huşunu itirdi... Qonaqlar kor-peşman evdən çıxdılar...

## Ərdən oğurluq

Salehin dava-dalaşından, çığır-bağırından canını güc-bəla ilə qurtaran Ümid özündə-sözündə deyildi. Bir yaramazla qarşılaşdığını düşündükcə, başındakı qarmaqarışıq fikirlər daha da pırtlaşır, Mürvətlə müəyyənləşdirdikləri variantlardan əlverişlisini seçə bilmirdi. O, öz-özünə düşündü:

— Ayə, bu Saleh haranın əbləhidi? Nə qadın qanır, nə kişi. Onun üçün yaşın da təfavütü yoxdu. Arvad, baldız da havayı şeydi. Bu əcəb heyvandı. Nə ədəb qanır, nə ərkan. Donquldanmadığı, təhqir eləmədiyi adam yoxdu. Ona cavab qaytarmağı da adam özünə sığışdırmır. Ətrafın qınağından qorxur. Yoxsa, Saleh kimdi?..





Ümid fikir burulğanında idi ki, Səfurə otağa girdi. Keçib divanda əyləşdi. Pultu götürüb televizoru söndürdü. Ümid arvadının üzünə baxdı:

— Sən neylədin? Mən xəbərləri eşitmək istəyirdim.

— Əşi, nə xəbər-ətər? Ən böyük, ən sızıltılı xəbər bizimkidi. Nə adamlara yovuşa, nə də televizora baxa bilirəm. Şou-biznes nümayəndələri də lap ağını çıxardıblar. Bu qədər atılıb-düşmək, vurhavur, zırhazır olar. Hisslərim elə korlanıb ki, heç nə eşitmək istəmirəm.

— O gün gördün də Salehin çıxardığı hoqqaları? Zalım oğlu donquldanmadığı, təhqir eləmədiyi adam qalmadı. Biz səbrimizi basdıq. Dinmədik. Dözdük.

— Yaxşı elədik. O səviyyəyə enməyəcəydik ki? Özü ağılda birilə qarşılaşacaq. O da Salehin dişin çıxarıb vuracaq başına. Ya dilini kəsəcək, ya da bıçağı qabırğasının arasından keçirəcək. Yazığım arvadı Fatiməyə gəlir... Fəxriyyənin də abrını aldı... Ayə, ay Ümid, o gün Saleh Fəxriyyəyə dedi: “Siz də ondansız”. Bu nə deməkdi? Başa düşmədim.

— Başa düşməsən yaxşıdı.

— Necə yəni?

— Zibili yadıma salma. Qurtar.

— Əşi, sən dura-dura adi sözün mənasını da gedib qonşudan, ya yoldan ötəndənmi soruşum?

Ümid hiss elədi ki, arvadı “ondan” sözünün izinə düşübsə, geci-tezi var, gedib kimdənsə mənasını soruşacaq. Hətta sözün harda, hansı şəraitdə, necə deyilməsini də böyük kəşf kimi açıb söyləyəcək. Allah bilir, soruşduğu adam da nə düşünəcək, sözə bir az da eybəcər məna verəcək. Yaxşısı budu, özüm açım. Arvad dağa-daşa düşməsin. O, astadan dedi:

— Səfurə “ondan” sözünün mənasını soruşursan deyim, ancaq daha kimsədən gedib soruşma ayıbdı.

— Əşi, dəli eləmə məni. Sözünü de...

— Qulaq as. “Ondan” sözü çoxmənalıdı: “Bu kitabı ona ver”, “Bu işi ona tapşır”, “Ondan bizə xəbər gətir”, “Bu məktub ondandı” və s. və ilaxır. “Ondan” sözü bu kontekstdə uşağın da, böyüyün də, arvadın da, kişinin də... işlətdiyi müstəqim mənadadı. Ancaq...

Ümid yan-yörəsinə baxdı. Sonra Səfurədən soruşdu:

— Qapı arxasında-zadda uşaq-muşaq yoxdu ki?

— Yox... Necə bəyəm?..

— Eşidərlər... Yaxşı deyil.

— Yəni elə...

— Tələsmə...

— De, ürəyimi çatlatma.

— Məcbur eləyirsən, deyirəm ha...

— De...

— Ondan sözü “fahişə”yə, “yanğınsöndürən”ə, “tində duran”a işarədi. Daha doğrusu, sadaladıqlarımın rəmzi mənasıdı. Qandın, arvad?

— Qanmağına qandım. Amma bir şeyi... Kişi də arvadına, baldızına elə rütbələr verərmi?

— Səfurə, indiki zəmanədə “kişi” sözü də nisbi “məfhumdu”mu deyim, “anlayışdı”mı deyim... O da kəsərini itirib. O barədə də baş sındırmağa dəyməz... İkincisi də, diqqətlə fikir versəydin, “ondan” sözünü tək arvadı ilə baldızına şamil eləmədi.

— Eh... Bədənim cimmildəşdi. Tüklərim biz-biz oldu... Elə kişinin başına daş... Dili kəsilməli imiş...

— Əslində, Saleh o sözü bizə də dedi. Yəni mənə, sənə və Mürvətə. Biz açıb-ağartmağı o kişilik deyilən şeyə sığışdırmadıq. Allah atasına rəhmət eləsin Fəxriyyənin. O, bizim vəzifəmizi icra elədi. Özü də lap dədəsinin qızı kimi.





— Ay sənin başına daş düşsün, Saleh. Mən də elə bilirəm fərli söz deyib. Ay Ümid, son vaxtlar adamlar gözlərimdə yamanca cılızlaşıblar. Bir qism kişi deyilənlər gəda, qadın adlananlar şortu səviyyəsinə eniblər. Buna sən necə baxırsan?

Ümid Səfurənin üzünə heyrətlə baxdı. Ancaq suala cavab verməyə məcbur oldu.

— Əvvəla, de görüm, gədalaşanların içində mən varam, yoxam? Həqiqi sözümdü, açıq de.

— Qorxu-hürkülük bir şey yoxdu, Ümid.

— Bəs özün? Meyillənirsən, yoxsa...

— Qandığım budur ki, getdikcə qərarsızlaşıram.

— Hiss eləyirəm, Səfurə.

— Nəyi, Ümid?

— Qərarsızlığını. Civə kimisən... Son vaxtlar çox donquldanırsan. Günahsızları belə təhqir edirsən. Ağlagəlməyən şeylər uydurursan. Hamını özündən narazı salırsan...

Səfurə dərhal yerindən atıldı və ərinin sözünü kəsdi:

— Ümid... Eləliyə qalsa, bilirsən, səndə nələr yaranır? Məsələn, əlindən bir iş gəlmir, ancaq höt-hötülünü də yerə qoymursan. Özünü aqressiv aparırsan. Yalanlara başlamısan. Simicləşirsən. “Burda mənəm, Bağdadda kor xəlifə” prinsipilə yaşayırsan.

Son vaxtlar gülüşü qəhətə çıxan Ümid bərkdən güldü:

— Yaxşı, bu Mürvət necə adamdı?

— Necə olacaq? Miyana. Nə ətdi, nə balıq. Nə gədadı, nə kişi. Sən deyəndən. Civədi, civə. İrəli çəkiləndə qürrələnəndi. Nə şarpdandı, nə şurpdan...

— Səfurə, o gün Salehi gördün. Danışığını da eşitdin... Deyə bilərsənmi, o nə olan şeydi...

— Ay evin tikilsin. Adını çəkdin, ürəyim qalxdı. Özün damğasını vurdun da. Arvadı ilə baldızı o gün xarakteristikasını verdilər: Fitvaya gedən, puldan ötrü ar-namusunu satan; kobud;

hoqqabaz; heç nədən acıq-gicik yaradan; şıltaq; qeyri-ciddi; zırramalığa meyilli; içki düşkünü; narkoman... Qalanını da özün nə yazırsan, yaz adına, Ümid.

Ümid arvadının üzünə matdım-matdım baxdı. İstədi soruşsun: bu qədər məlumatları sən hardan, necə toplamısan? Qapı döyüldü. Səfurə gedib qapını açdı. Gələn yenicə ailə quran qızı Əzizə ilə kürəkəni Cəlal idi. Onlar qapı ağzında Səfurə ilə öpüşüb-görüşdülər. Səfurə onlara dedi:

— Keçin evə, kişi ilə də görüşün.

Əzizə ilə Cəlal bir-birilərinin üzlərinə baxdılar. Cəlal çiyinlərini çəkdi. Səfurə təkid elədi. Hər ikisi Ümidin olduğu otağa keçdilər. Əl verib görüşdülər. Ümid:

— Nə yaxşı gəlmisiz?.. Niyə əyləşmirsiz?

Əzizə:

— Yox... Gedirik.

Ümid:

— Hara?

Cəlal:

— Belə qənaətə gəldik ki, bal ayıdı, gedək görmədiyimiz şəhərlərdə gəzək. Havamızı dəyişək.

Əzizə:

— Cəlal çox yorulub, ata. Ona istirahət lazımdı. Sinirləri pozulub.

Ümid:

— Cəlal nədən yorulub? Bir işi vardı. Ondan da dörd aydı çıxarıblar.

Əzizə:

— Mən nə bilim ey... Özü belə deyir.

Səfurə qızına:

— Yaxşı, kişi ilə görüşdünüz, gəlin gedin.

Ümid:

— Ülfətlə də görüşün.





Əzizə:

— İndi gecdi. Anamdan qardaşımın hal-əhvalını xəbər almışam, ata.

Ümid daha sözü çevirmədi. Başını qaldırıb pəncərədən çölə baxdı. Əzizəgil: — Hələlik, — deyib otaqdan çıxdılar. Ümid özözünə:

— Səni andıra qalasan, dünya. Gör nə günə qalmışıq. Doğma bacı doğma xəstə qardaşla xudahafizləşmədən ərinin sinirlərini müalicəyə aparır.

Ümidin halı dəyişdi. Əslində, qızının atasına, xəstə qardaşına olan etinasızlığı Səfurənin də diqqətindən yayınmadı. Ancaq o, qızının hərəkətlərinin üstə pərdə çəkməyə başladı:

— Əzizəni uşaqkən atdıq ər evinə. Vaxtlı-vaxtında halından da xəbər tuta bilmirik. Necə dolandığından da xəbərimiz yoxdu. Son zamanlar uşağın halı özündə deyil. Qayınana, baldız yanında...

— Qızın ərinin istirahətini təşkil eləyir. Xəstə, doğma qardaşının vəziyyətini soruşmağa vaxt tapmır.

— Heç nədən gör məxlətə qopara bilərsənmi? Yekə kişisən. Onların mehribanlığına, səmimiyyətinə sevinməkdənsə... Yol üstədilər. Gör, sən nə danışırsan?

— Deyirsən düz danışmıram? Yaxşı, anasan, niyə ağzından qıfılı götürmədin? Niyə demədin, sən gələnə qədər xəstə qardaşının halı dəyişər. Ya onu həbs eləyərlər.

— Qaşınmayan yerdən qan çıxarma, Ümid.

— Bayaq...

— Ay aman, ata olasan, doğma qızın barədə bu qədər... Eşidən olar, Ümid, sənə lənət oxuyar.

— Mən Saleh deyiləm.

— Mən də heç Fatimə deyiləm.

— Özünü yuyub yarpız üstə qoyma.

— Nə deyirəm... Ata olasan, qızına bu qədər?..

— Mən pis ata olmamışam. Bundan sonra da dığın-dığın eləyib uşaqları mənə qarşı qoyma.

— Sən oğul dərdi çəkən olsaydın, Saleh kimi itin-qurdun qapısına getməzdik.

— Neyləməliydim?

— Pulunu verib ağzını yummalıydın.

— Olan-qalanımı sənə vermişəm. Yaxşı dedin, dur gətir, onları sayaq, görək nəyimiz var, nəyimiz yox... İstənəndə əl-ayağa düşməyək.

— Nə? Məndə pul var? Başın xarab olub, nədi? Beş-üç manat vermişdin. O da getdi qızın cehizinə.

— Sən nə danışırsan? Nə cehiz? Toydan sonra sənə əlli min pul vermədimmi? Demədimmi, bunu da saxla yaman günün yarağı. Kənanın, Ülfətin xeyir işində bizə lazım olar?

— Nə sənin o qədər pulun olub, nə də onu mənə vermisən? Sən yuxu görürsən, Ümid. Səsini də başına atma.

— Səfurə, sən nə elədiyini, nə danışdığını bilirsən?

— Mən hər şeyi bilirəm. Atasan, get pul tap, uşağı türmədən qurtar.

— Aha... Deməli, hökm. Belə de. Deməli, mənə xəyanət eləmisən?

— Bu nə deməkdi?

— Ərdən oğurluq ən böyük xəyanətdi, Səfurə. Bir qadın ki, ərindən pul oğurlayır, onun əlindən hər şey gələr. Buna heç bir şübhə-zad eləmirəm.

— Bu ailənin sahibi ikimizik, Ümid.

— Xəyanətə qədər elə idi. De görüm, pullar hardadı, kimə vermisən?

— Özünü cırıb dağıtma, kişi. Pulu verdim qızına. Dedim, gedin ev alın.

— Onu mənə deyib eləyəmməzdin?

— Əvvəla, xasiyyətinə bələdəm, razılaşmayacaqdın. İkincisi də, mənimlə dilxoşluq eləmə, qızı atam evindən gətirməmişəm. Qız da sənindi.





— Pul yoxdu. Pulun dalına keçmisən, özün də mənə deyirsən Ülfəti türmədən qurtar. Axı, pul da, uşaq da ikimizin idi.

— Söz güləşdirmə, kişi. Pula nə var? O gün də dedim, bankdan kredit götür.

— Nə ilə?

— Evi girov qoyaq.

— Sənə zəmanət verən varmı? Kredit aldığımız pulla bu dəfə qızınla kürəkənini Parisə, Pekinə, İstanbula səyahətə göndərməyəcəksən ki? Məni dəhşətə gətirən qızımın nadanlığıdı. O, sənə dedimi, istəmirəm atamın min bir əzabla qazandıqlarını? Qoy mənə verəcəyin pulları atam xəstə yatan qardaşıma, onun yemək-içməyinə məsrəf eləsin. Eh, qızım... Qızım... Bu da sənin atana mərhəmətin... Mən neyləyim, indi səni polisəmi verim, bu yaşda özümü qınağamı çevirim? Sən neylədiyini bilirsən? Mən ikilikdə həmişə sənə demişəm. Sən alçaq qadınsan... Sən bu hərəkətinlə Əzizəyə, Kənana, Ülfətə qarşı çevrilmisən. Birincisi, Əzizəni də özün kimi lovğa, təkəbbürlü, hissiz, duyğusuz tərbiyə eləmisən. Necə ki, xəstə qardaşı ilə görüşüb getmək istəmədi. O, sənin tökdüklərini bircə-bircə yığışdırıb. Sən ərinə, balalarına göstərdiyin münasibəti o da ərinə, balalarına göstərəcək. Qorxuram o, evindən, ərindən, qayınanasından, baldızından oğurluq eləyib tezliklə üstümüzə qayıda... İkincisi də, Kənanla Ülfət də nə vaxtsa həmin hərəkətləri eləyəcəklər. İnan mənə.

— Niyə?

— Səbəbini onda bilərsən.

— Boş-boş danışma.

— Sən cinayətkarsan. Buna təsadüfi səhv, adi şıltaqlıq, hegemonluq demək olmaz. Sənin bu nalayiq hərəkətlərin geci-tezi var, bütün ailəmizi çalxalayacaq. Hamımızı narazı salacaq. Qo-

humlar, qonşular, bizi tanıyanlar arasında ciddi söz-söhbətlər olacaq. Hətta vay o günə ki, oğlanlarımızla qızımızın münasibətləri arasında ciddi uçurum yaransın. Hər iki tərəf səni məzəmmətləyəcək. Evinə, ailəsinə xor baxan qadına eşidən-bilən lənət yağdıracaq... Hamı səndən qaçacaq. Onda oturub-durub, özün-özündən gileylənəcəksən, ətrafından yalnız və yalnız "iblis" sözünü eşidəcəksən. Səndən soruşacaqlar:

— Yaxşı, ərin, uşaqların sənə qarşı nə pislik eləmişdilər ki, bu boyda xəyanətə əl atdın? Yeməyə çörəyin, içməyə suyun, geyməyə paltarın yox idi ki, belə bir cinayətə əl atırdın? Belə bir hörmətsizliyə səni vadar eləyən nə idi? Qızdı, vermisən ərə, ər də zəhmət çəksin, arvadını saxlasın. Sənin mənə bu xəyanətin yalnız nifrətdən doğub. O nifrət nədəndi?

— Şişirtmə, Ümid. Mən də bu ailənin başçısıyam. Sən çöldən qazanıb gətirmisənsə, mən də evdə mühafizə eləyib saxlamışam.

— Hanı saxladıqların?

— Şəxsi işimə qarışmağa sənə ixtiyar vermirəm...

— Əvvəla, onları özün dediyin kimi, mən qazanmışam. İkincisi də, hüququ baxımdan sənin şəxsi dediklərinin yarısı mənimdir. Mənim də haqqıma sahib durmaq ixtiyarım var. Bəlkə yalan deyirəm?.. Həyat sənin düşündüyün qədər də sadə deyil.

— Bəyəm, sən içini başqalarına necə gəldi açıb tökürsən? Hər kəsin içindəkilər özünə məxsusdu, Ümid.

— Bəli!.. Mən də sənin dediklərinin tərəfində... Ancaq ər-arvad arasında elə şeylər var ki, onun şəxsi hüquqla heç bir əlaqəsi-filanı yoxdu. Məsələn, ərə xəyanət. Sənin elədiyin xəyanət bu günün, dünənin işi deyil. Məni narahat eləyən odur ki, həmişə sənə bir ər kimi hörmət və izzətlə yanaşmışam. Başın ağrıyanda az qalmışam canımı da sənə peşkəş eləyəm. Yaxşı olar ki, mənə olan xəyanətlərinin, hamısını demirəm, heç olmasa, ucundan-qulağından bir-ikisini açasan. Mən də bu yaşda, gec





də olsa, səndən çəkinəm, uzaqlaşam.

— Məni danışdırma, neylədiyini özün hamıdan yaxşı bilirsən, Ümid.

Ümid danışır, danışdıqca qızışır, qızışdıqca heyrətlənirdi. Səfurə saymazyana dedi:

— Allah bilir ki, mən səndən heç vaxt ər kimi yarımamışam.

— Alçaq qadın. Sən iblissən. Sözündən belə çıxır ki, Allah da mənimlə oyun oynayıb? Mən nə vaxt Allahımın istəyinin əksinə hərkət eləmişəm ki, o da mənim istəyimin əksinə hərəkət eləyə? Ağlın bu imiş, Səfurə?.. Allahına inanırsansa, ondan qorx... Onu da yadında saxla, Allahsız cəmiyyətdə sənin kimilərinə yer yoxdu. Cavan olsaydım, sənin kimiləri günün günorta çağı qanına qəltan eləyərdim. İzini-tozunu silərdim. Bilirsən niyə? Kimsə çaşıb sənin yolunu tutacağına görə. İnanıram, kim günahkarsa, həyat ondan intiqamını layiqincə alacaq.

## Hiylə aşkarlandı

Səhər yuxudan erkən oyansa da, Ümid canı ağrıdığından, hələ də yataqdan qalxa bilmirdi. Üç gün əvvəlki dedi-qodulardan sonra Səfurə ilə arasında yaranan incikliyi, soyuqluğu, heç cürə isidə bilmirdi. Nə qədər arvadı o üz-bu üzünə keçsə də kişinin içi onunla nəinki düzəlirdi, əksinə, aldığı xəyanət zərbəsinin göynərtiləri qəlbində getdikcə kəskinləşirdi. O, oturub-durub, hey fikirləşirdi: evdən oğurluq nə deməkdi? Bu ər-arvad çərçivəsinə sığandımı? Səfurə bunu hansı zərurətdən elədi? Belə ədəb-ərkandan uzaq hərəkətə ehtiyac vardımı? O, elədiklərinin zərəri barədə bircə dəfə düşünübmü? Bir zaman bacım mənə necə dedi? Qardaş, nə qədər qazanıb gətirsən də, nə binin olacaq, nə də bərəkətin. Doğmaca oğlumuz Kənan da bir gün mənim yanımda qəribə tərzdə Səfurəyə dedi: Ay ana, atama niyə

yazığın gəlmir? O, bütün günü işləyir, yatandan-yatana ev üzü görür. Niyə onun gətirdiklərini kül eləyirsən? Niyə dağıdırsan? Niyə itə-qurda paylayırsan?.. Bəyəm, bu sənin ailən deyil? İnanmıram ki, ağlı başında olan bir kəs sənin elədiklərini eləyə.

Çox qəribədi. Bir dəfə də böyük məbləğdə pul evdən yoxa çıxanda Səfurə ilə yüngül söhbətimiz oldu. Ancaq bir müddətdən sonra uşaqlarımız ata-anasız böyüməsinlər deyə, mən ona güzəştə getdim. Əgər iki dəfə oğurluğunun üstü açılıbsa, şübhə eləmirəm ki, belə şey çox olub. Zeynəb qarı söhbət əsnasında necə dedi: arvad oğrudusa, ərinə yalan danışırsa, onu saxlamağın mənası yoxdu. Bu gün pul oğurlayan arvad sabah namus satar. Bu gün ərinə xəyanət eləyən, sabah o zavallının ölümünə də fitva verər. Allah sənə qəni-qəni rəhmət eləsin, qarı. Neçə ildi ölüb getmisən, kəlamların yaşayır. Özü də necə? İnanıram, sabah da, o biri gün də yaşayacaq. Heç yadımdan çıxmaz, bir dəfə də necə dedin?

— Qadının əməlisalehi başa tac, bədəsili iblisdi. Onun qəlbinin necəliyini, niyyətinin saf və çürüklüyünü ölçəcək elə bir cihaz olsaydı, zavallı kişilər necə addım atacaqları barədə əvvəlcədən düşünərdilər. Oğru, xəyanətkar qadınlar da özlərini yığışdırardılar. Yığışdırmayanlar da sonradan öz günlərinə acıyıb ağlamalı olardılar.

İndi Ümidin arvadına olan inamı anbaan itirdi, o, hər şeydən şübhələnirdi. Tərəddüd onu üzürdü. Bunu Səfurə də anlayırdı. Ancaq anladığını büruzə verməməyə çalışırdı. Hələ üstəlik, üzündə bəzən şıltaqlıq duyğuları, bəzən təbəssüm, bəzən xoş ifadə, bəzən də təkəbbür doğuran cizgilər bulunurdu. Səfurənin bu və buna bənzər hərəkətləri ərini daxilən ikiləşməyə vadar eləyirdi. Ümid düşündü: Azad yalnız Allahdır. İxtiyarı özündə olmayan şəxs heç vaxt azad ola bilməz, o, kiminsə kölәsi olacaq. İnsanın cismani ölümü fəlakət deyil. Fəlakət — bu yaşda can-ciyəri bildiyin, yaşam məsuliyyətini çiyinlərində daşıdığın





adama inamının qırılmasıdı. Xəyanət olan yerdə... sədaqətsizlik var, təcavüz var, cinayət var. Həyasızcasına təhqir var. Üzqaralıq var. Zor var. Təəssüflənmə var... Həmişə yox, hərdənbir peşmançılıq var. Ümid başını qaldırıb pəncərədən çölə baxdı. Günəş ala-tala bulud topalarının arxalarından yavaş-yavaş, gülümsəyə-gülümsəyə gah özünü göstərir, gah da qüsurundan xəcalətlənən uşaqlar kimi qaçıb ağ layların altında gizlənirdi. Ümidə elə gəlirdi ki, onun içilə təbiət arasında bir həmahənglik hökm sürür. Təbiət necə haldan-hala düşürsə, necə bulanırsa, onun da içi elə haldan-hala düşür, bulanır. Bir sözlə, hər ikisi sanki eyni qanunlara tabedir. Görünür, təbiət qanunlarıyla cəmiyyət qanunları arasında oxşarlıqla yanaşı, eyniyyət də var. Hər ikisi eyni mərkəzdən, eyni nöqtədən tam idarə olunmasa da, onun bütün hökmlərinə təbiri caizsə, tabedirlər... İnsan da elə...

Həmişə ərinə: — Vaxt keçir, acsan, dur yeməyini ye, özünə gəl, — deyən Səfurə indi yan otaqda hikkəylə, acıqla o tərəf-bu tərəfə gedə-gedə, ayaqlarını döşəməyə döyə-döyə, qab-qacağı döyüşdürə-döyüşdürə səs-küy salırdı. O, çıxış yolunu ərinə acıq verməkdə, onu cəzalandırmaqda görürdü. Bu qadın anlamırdı ki, azğınlıqdan doğan hərəkətləri Ümidin halına o qədər də təfavüt eləmir... Kişi yorğanı üstündən atıb ayağa qalxdı. Paltarlarını geyinib əl-üz yuyulan otağa keçdi. Yuyundu, qurulandı. Güzgüyə baxanda az qala, gözlərinə inanmadı. Kişinin üz-gözü tuluqlanmış təsiri bağışladı. Elə bil, gözləri kiçilərək çuxura düşür, getdikcə parıltısı azalırdı. Bir sözlə, arvadının növbəti xəyanətinin üstü açıldıqdan sonra Ümid sanki hər gün qocalırdı.

Ümid xəyanətin faş olmasından sonra Ülfətin, Kənanın, Əzizənin, bir dəfə də olsa, adını dilinə gətirə bilmirdi. Bu, Səfurənin də nəzərindən qaçmırdı. Səfurə onu da bilirdi ki, Ümid evdə nə qədər şən, deyib-gülən, zarafatçıl olsa da, bəzən onun xarakterinin kəskin, sərt tərəfləri də var. O, yeri gəlsə, şəxsiyyətini, qürurunu qorumaq naminə arvadını, hətta, uşaqlarını

"uf" demədən tapdalayıb keçə bilər. Mülayimlik və sərtlik onun qəlbinin bir-birinə qarşı əks olan iki barışmaz qütbləri idi.

Ümid mətbəxə getdi. Səfurə heç bir söz demədən onun yeməyini süfrəyə qoydu və yan otağa keçdi. Ümid çay içirdi ki, qapı döyüldü. Gələnin Mürvət olduğunu görəndə xoşhal oldu.

— Keç içəri, qapıda dayanma, — dedi.

Ümid qabaqda, Mürvət də onun ardınca mətbəxə keçdilər.

Ümid:

— Bir loxma da sən kəs.

— Yox... Mən indi yeyib-içmişəm... İnan, bu axşam gecə gecədən keçincəyədək yata bilmədim. Elə bil, yatağıma qor töküləb. İstədim, gecə yarı gələm sizə... Sonra da düşündüm ki, sizi narahat etməyim. Axşamla sabahın nə fərqi var...

— Nə baş verib ki, Mürvət, belə tələsmisən?

— Nə baş verməsi budu ki, təzə, mühüm iki xəbər var. Onlar məni səhərəcən yataqda çalxalayıb.

— De görək, o nədi?

— Birincisi, budu ki, Saleh narkotika alverçisidi. Polislərə işləyir. Ticarət Mərkəzində satmadığı adam qalmayıb.

— Aha... Bəs deyirdi, iş adamıyam. Biznesmenəm.

— Dedikləri düzdü. Amma onun biznesi narkotika ilə məhdudlaşır. Deməyəcək ki, ay filankəs, ay dadi-bidad, mən narkotika alverçisiyəm. Narkobizneslə məşğulam.

— Bunun Ülfətin məsələsinə bir dəxli var?

— Var, Ümid, var. Bu etibar olunası, söz deyiləsi adam deyil. Ona nə etibar eləmək, nə də onun sözündən sədaqət gözləmək olar. Özünü onunla bir sıraya qoyma... Sən düz adamsan. Düzlər əyrilərin işinin mahiyyətindən çox zaman xəbərsiz olurlar. Salehi susdurmağın yeganə yolu budur ki, biz polisi görək, onlara istədiklərini verək, Salehlə məşğul olsunlar.

Ümid bir qurtum çay içib fikrə getdi. Handan-hana astadan bildirdi:





— Mürvət, sən məni tanımırsan?

— Tanıyıram... Tərbiyənə qısılacaqsan, tədbir görməyəcəksən deyə, bir narkoman səni müc eləməlidi?

— O Salehin tərbiyəsidi, Mürvət.

— Hər kəsin öz dili var, Ümid. Gərək biz bunu nəzərə alaq, qardaş.

— Əvvəla, belə oyuna girmək kişi işi deyil. Biz də olarıq Salehin tayı. İkincisi də, mənim polisə verməyə pulum yoxdu.

— Polis elə çox pul tələb eləməz.

— Canın üçün, Mürvət, mənim pulum, növbəti təqaüdə qədər ancaq çatar. Bilirsən ki, həkimlər də gözlərini dikiblər bizə. Güman eləyirlər ki, torlarına qızıl balıq düşüb. Bilmirlər ki, heç... Hələ iynə-dərmanı demirəm...

— Axı, o gün dedin pulum var, azdı.

— İndi o az da yoxdu.

Mürvət fikrə getdi. Sonra növbəti sualı verdi:

— Əsəbi görünürsən...

— Üstümdə o boyda dağ var. Ülfət xəstəxanada. Vəziyyəti alt-üst. Pul yox... Əsəbi olaram da... Yaxşı, birinci xəbər belə. Bəs ikinci xəbər?

Mürvət başını yellədi:

— Bu Saleh it oğlu hər gün dalğaları qarışdırır. Onun yaxın adamı var, sözarası mənə dedi ki, sənə çatdırım: Salehin başdan xarab bacısı oğlu var, adına Viloş deyirlər. O, üç dəfə dəlixanada yatıb.

Elə bu vaxt Səfurə içəri keçib Mürvətin qənşərinə bir stəkan çay qoydu. Mürvət: — Sağ ol, — deyib söhbətin ardına keçdi.

— Saleh Viloşa xüsusi tapşırıqlar verib.

— O nə tapşırıqlardı?

— Nə olacaq, Ülfətin qətlini! Deyib ki, sən Ülfəti öldürürsən, mən də məhkəməyə pul verib səni azad elətdirirəm. Bununla da qisasımızı almış oluruq.

Bu sözü eşidən Səfurə dik atıldı:

— Salehi də, bacıoğlusunu da əllərimlə benzin töküb odlayaram. Onları görən gözlərindən eləyərəm.

Ümid:

— Kəs səsini. Qarğa məndə qoz var eləmə. Sən başqa şeyi bacararsan.

— Nəyi?

— Məni cəzalandırmağı, onları yox...

Mürvət:

— Əşi, mən demədim ki, əlinizə ağ yaylıq alıb, sirri faş eləyəsiz. Gəldim ki, sizi agah eləyim, təhlükədən qoruna biləsiz. Bir sözdü, demişəm, deməmiş olum.

Ümid:

— Növrağımız dönüb, Mürvət. Allah bizə qənim olub. Səbəbkarı da özümüzük. Bu işdən çətin ki, salamat çıxaq.

Səfurə:

— Hə, danışdı da. Kölgəsindən qorxur. Belə kişiyə nə deyəsən?

— Elədiyini elədin. Daha nə deməlisən?..

Ümid sonra üzünü Mürvətə tutaraq astadan dedi:

— Xəbər üçün çox sağ ol. Mənə qardaş münasibətini unutmaram. Can yanmasa, gözdən yaş çıxmaz, — deyiblər... Gör adamlar hansı yolları seçirlər? Belə düşünmək vəhşilik əlamətidi, Mürvət. Deməli, cinayətkarlar daha ağır cinayətə gedirlər. Sonra da bir yolla özlərini psixatiriya xəstəxanasına pərçimləyirlər. Belə çıxır ki, bu cinayətin törədilməsində başqa cinayətkarların da iştirakı olacaq.

— Şübhəsiz, ən azından şahidlərin, hüquq keşikçilərinin azğın nümayəndələrinin...

— Qəribədi. Sözündən belə çıxır ki, bir qrup cinayətkar insanların taleləri ilə oynayırlar. Onlarla yanaşı, polis, müstəntiq, prokuror, hakim və həkimlər də fəal iştirak edirlər. Pul üçün gör





kimlər nələrə gedirlər? Qəribədi... Özü də çox... Düşüncəmə görə, meymundan insan düzəltmək çox çətindi. Ancaq insanı meymun eləmək olduqca asandı. Bir şərtlə ki, arada pul ola.

— Həkimlər "dəlilər"ə elə diaqnoz qoyurlar ki, adamın ayaqları yerdən üzülür. Ağlı başında olanlar ağıllarını elə itirirlər ki, onlar xəstəxanada da, ordan çıxandan sonra da meymunluq eləyirlər. Haqq-hesab üçün tanımadıqları şəxslərin məhvinə çalışırlar. Bax, buna deyərlər millətin öz-özünü genosidi. Düşmən çox vaxt süfrənin qırağında olur, kənarda yox. Mahiyyətdən xəbərsizlər də bu əcaib hərəkəti "dəlinin" ayağına yazırlar.

Ümid dərindən ah çəkdi:

— Cəmiyyətə təsir gücü olan şərəfsizlərin allı-güllü əməllərinə bax. Bu, cinayətkarlığa qarşı mübarizəyə atılanların ağlagəlməz pərdəarxası cinayətləridi. İndi sual olunur: bu xəstəliyin viruslarının yayıcısı kimlərdi?

— Əlbəttə ki, "başbilənlər".

Ümid istehzayla, acı-acı gülümsədi:

— Bax budur, yaşadığımız həyatın iç üzü.

Mürvət gülümsündü:

— Hələ harasıdı, bəziləri mahiyyəti aydın dərk etsələr də özlərini görməzliyə vururlar. Başqa sözlə, məndən ötdü, qardaşıma dəydi, elə bildim, saman çuvalına dəydi.

Ümidin gözləri pəncərədən çölə dikildi. Handan-hana dedi:
— Pul... Pul... Heyf ki, min bir zülmlə qazandığımız, yaman günün yarağı dediyimiz pulumuz da özümüzə düşmən çıxır, əlimizdəcə yanır. Nə özümüzə məsrəf olur, nə də doğma övladımıza... Arvad da deyir kreditə girək... Nə deyirəm, girək!.. Acı, zəhlətökən əməlindən kim qazanar, kim tapar...

## Sübhan-ən nəzin

Ramazan bayramı münasibətilə adamlar ölülərinə namaz qıldırmaq, ruhlarının şadlanması naminə nəzir-niyaz vermək üçün məscidə yığışırdılar. İki-bir-üç-bir olan adamlar gündəlik məişət problemlərindən danışırdılar. Kimisi bazarlardakı bahalıqdan, kimisi yollardakı tıxacdan, kimisi pulun infliyasiyasından, kimisi də qoca dünyanın əxlaqsızlıq pərdəsinə bürünməsindən... Nədən, nədən... Bəzən də danışıqlar uzanıb gedir, əlaqəsiz-filansız söz-söhbətlər quş kimi qanadlanırdı. Hamısını da ortaya yığsan, deyilənlər ümumilikdə iki qəpiyə dəyməyən, heç kimə lazım olmayan cümlələr yığını alınar. Necə olmuşdusa, Mürvət də gəlib çıxmışdı bura. Danışıqlara diqqət yetirdi, söhbətin nədən, kimdən getdiyini heç cürə anlaya bilmədi. Sonra da düşündü: əşi, işsiz-gücsüz, məqsədsiz-filansız adamların danışığı bundan artıq nə olar ki? Oturub bir kənarda xumus-zəkatını vermək üçün Molla Abbası gözləməli oldu. Xeyli gözlədi. Səbri tükəndi. Yanında əyləşən tanımadığı adamdan soruşdu:

— Siz kimi gözləyirsiz?

Həmin adam suala sualla, ancaq çox qısa cavab verdi:

— Məsciddə kimi gözləyərlər?

— Mollanı.

— Hə...

Bununla da Mürvətlə həmin adamın söhbəti qurtardı.

Mürvətə elə gəldi ki, bura yığışanlar ya fanatiklərdi, ya da vaxt öldürməyə gələnlərdi. Hamısı da içlərini açıb tökürlər. Bəlkə də bunların çoxu anasının əmcəyini kəsən quldurlar, dələduzlardı. Hətta aralarında cibgirlər, kimə gəldi atanlar da var. Beləcə, yığışanlardan ağlı bir şey kəsmədi. İstədi durub getsin. Yolda-izdə Molla Abbası görəndə nəzir-niyazını, xumus-zəkatını da verər. Sonra da fikirləşdi ki, əşi, gəlmişəm, onsuz da vaxt





itirmişəm, evdə gedib neyləyəcəm, yaxşısı budur gözləyim və beləcə oturub gözləməli oldu. Ancaq Mürvətin ürəyinə nəsə dammışdı. Kişi səksəkə içində idi. Üstəlik, məsciddə istilik olmadığından, əsim-əsim əsirdi. Çənəsi az qalırdı şaqqıldasın. Bu vaxt içəri ucaboy, qara, yumrubaş, donbagöz, qalındodaq, qarabığ, yekəağız, uzun sifət, yastıçənə bir kişi girdi. Baş əyib hamı ilə salamlaşdı. Sonra keçib yuxarı başda əyləşdi. Mənasız söz-söhbət kəsildi. Mürvət fikirləşdi ki, məscidin böyüyü gəldi. Burda nizamsız söz-söhbət, dolaşıq fikir, məsuliyyətsiz hərəkət eləyən olmaz. Bir az keçdi, yenə ara qarışdı. Birdən həmin adam başını buladı, sifəti sərt görkəm aldı, düşünüb-eləmədən səsini qaldırdı və ötkəm səslə dedi:

— Ayə, bura haradı, hər gələn özünü göstərə? Yoxsa, düşünürsünüz ki, bizim dilimiz-ağzımız yoxdu, cavabınızı verməyə... Ayıbdı. Yığışdırın özünüzü. Mənə Lotu Qalib deyərlər.

Mürvət əvvəl çaşdı, sonra öz-özünə mızıldandı:

— Hə, düzəldi işimiz. Məscid hara, lotu-potu hara? Deyəsən, burda lotu-potu ilə çənə döyməli olacağam...

Hamı bir-birinin üzünə baxdı. Mürvətin başına əvvəlkinə zidd tamam başqa bir fikir gəldi: “Bu kişi birdən yerin sahibi olar. Sahibsiz yerdə ot da bitməz”...

Elə bu vaxt sağ tərəfdə əyləşən nataraz, enlikürək, qırmızısifət kişi çaşqın, bir az da incik halda dilləndi:

— Ayə, mənə də Qurd Əkbər deyərlər... Şəxsən mən səni başa düşmədim. Nə demək istiyirsən? İstiyirsən Allahın evindən çıxıb gedək?

— Gedərsən-getməzsən, özün bilərsən... Deyiləni başa düşmürsən, bura niyə gəlirsən?

Qurd Əkbər üz-gözünü turşuddu:

— Hə, işə düşmədik? Əşi, hələ də anlamırsan içtimai yerdə, Allahın evində olduğunu? Bu özgənin işinə burun soxmaqdı, ya yox?.. Ən azından əndazəsizlikdi.

— Məni təhqir eləyirsən?

Təhqir eləmirəm, görüb şahidi olduqlarımı deyirəm.

— Əvvəla, adamları intizama dəvət eləmək nə vaxtdan təhqir sayılır, Qurd Əkbər? İkincisi də, hər kəsin öz dəyəri var.

— Hə... İndi gəl başa sal bunu. Ayə, bizim də hər birimiz bir məhəllənin kişisiyik ey. Yadında saxla, sən Lotusansa, mən də Qurdam.

Bayaqdan sol tərəfdə oturub söhbəti dinləyən Qoçu Hətəm axır ki, dözməyib sinəsini qabartdı və qəflətən atıldı:

— Əşi, qurtarın bu acı-acı, zəhlətökən söz-söhbəti. İş-gücümüzü atıb gəlmişik. Başımızı ağrıdıb bizi heç nədən qarın ağrısına salmayın. Bura nə çəkişmə, nə də bərkişmə yeridi. Hərənin öz ad-sanı var, dərdi də özünə yükdü. Cəfəng danışıb camaatı çərlətməyin. Gəlmişik, dərdimizə əlac qılaq. Gəlməmişik, sizin hay-küyünüzlə qarın dolduraq. Kimlərisə çərlədək.

Lotu Qalib:

— Bu kimdi, əə?

Qoçu Hətəm:

— Danışarıq... Tanıdaram özümü sənə.

Lotu Qalib:

— Necə? Necə?

Qoçu Hətəm:

— Dəli dəlini görməsə, çomağını böyrünə sıxıb qaçmaz.

Hamı gülüşdü.

Qoçu Əkbər Lotu Qalibi ələ saldı:

— Nə dedin, dilinə qurban!

Lotu Qalib pərt oldu. Başını yellədi, ancaq ona cavab vermək istəmədi.

Qoçu Hətəm Lotu Qalibə:

— Hə... Nə oldu, dilin çıxmır?.. Əvvəlki bilsə ki sonrakı nə deyəcək, qaxılıb oturar yerində.

Lotu Qalib:





— İt hürər, karvan keçər...

Qurd Əkbər:

— Danışığa bax ey... Kişilər, bu, dava-davadı. Elə deyir, şələni qoy yerə, gəl vuruşaq...

Tufan Muxtar:

— Bayaqdan atışırsız... Şəxsən mən başa düşə bilmədim ki, acıq-kiçiyiniz nədəndi? Ay canım, söz-söhbətin məzmunu olar. "İt burdan gəldi, qurd ordan getdi" olmaz. Zeynəb qarı demişkən: "Hər qaraltıya güllə atmazlar. Hədəfə tuşlanmayan şeyin veci olmaz, atəş boşa çıxar". Açın azarınızı tökün ortaya, biz də biləк... Bəlkə sizə bir çarə qıldıq.

Zordanlı Qaçay deyilənlərdən bezib axır ki, dilə gəldi:

— Hə... Gəl bu cəfəng, ünvansız-filansız çərənləmələrdən baş çıxar görüm, necə çıxarırsan? Şəxsən mən gic toyuğa döndüm. Təzyiqim qalxdı. Gedib evimə çata bilsəm, böyük işdi.

Qoçu Hətəm:

— Arxa çatmamış tullanma. O gün də bir yığıncaqdaydıq. Lotu Qalibə oxşarı...

Zordanlı Qaçay:

— Ağılda, yoxsa, sir-sifətdə?

Qoçu Hətəm:

— Əlbəttə, ağılda.

Zordanlı Qaçay:

— Hə... Sözünə davam elə.

Qoçu Hətəm:

— Verdi çəniyə, özünün də abrını tökdü, bizim də. Hamı qulaqlarını tıxamaq əvəzinə başını tutdu. Axırda belə qənaətə gəldilər: "Allah dəlinə ağıl ver. Ağılsız baş yiyəsinə donuz güddürər...". Hamı kor-peşiman yerindən qalxıb basabasla qapıdan çıxdı. Adamlar düz-əməlli hələ özlərinə gəlməyiblər. İndi də bu zırhazıra düşüblər. Ay camaat, sizdən soruşuram: bu haqsızlığı Allah götürərmi?!

Lotu Qalib əsəbiləşdi:

— Ayə, ağzını yerə tut danış. Hər biriniz gedib min hoqqadan çıxırsız, sonra da Allaha yalvarırsınız. Qurban olduğumu da fırıldağınıza şərik eləməyə çalışırsınız... Əşi, adam olun, kişi olun... Sizi and verirəm valideynlərinizin goruna, narahat eləməyin o kişini. Bəlkə yalan deyirəm, Mürvət?

Mürvət dik atıldı. Nə deyəcəyini bilmədi. Sonra astadan dedi:

— Mən bu mərəkədə təzəyəm. Ona görə də qəti söz deyə bilmərəm.

Qurd Əkbər:

— Ayə, o Mürvətdi, kimdi, onu bura qatma. Gedib orda-burda şeşələnər.

Sonra da üzünü adamlara tutdu:

— Bu Lotu Qaliblə nə danışasan?.. Ağzını açdı, gərək ağzından vurasan, ya da ağzına pambıq tıxayasan. Qoymayasan səsi çıxa. Çıxsa, o söz...

Lotu Qalib:

— Hansı söz?

Tufan Muxtar:

— Ay yaramaz, gərək, mənə sandığı açdırıb pambığı tökdürəsən?

Lotu qalib Tufan Muxtara kinayə ilə dedi:

— Ayə, sən də belə? Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış...

Getdikcə ara qızışır, qarhaqur artır, ağızdan çıxan sözü yaxşıdı, ya pisdi, başa düşmək olmurdu. Hisslər getdikcə qızışır, mahiyyətsiz söz-söhbət uzanıb səmtsiz-filansız hara gəldi gedirdi. Pəncərənin qarşısında dinməz-söyləməz oturub danışanların ağzına baxan, hərdənbir təəccüblənərək çiyinlərini çəkən, heç kimin tanımadığı kök, gödək adamın səbri tükəndi. Əlindəki qalın qara kitabı bir kənara atıb öz-özünə pıçıltılı səslə donquldanmağa başladı:





— Sizin hamınız bir bezin qıraqlarısız. Nə olsun ki, oxumusuz, az-çox savadınız var, diplomlusuz. Diplomunuza tüpürüm. Görünür, elə belə — evdə oturub halloyu təhsil almısınız. Bunlar hamısı öz yerində. Görürəm, ədəb-ərkan cəhəddən çox kasadsınız. Qonaq-qara tanımırsınız. Qarğasayağı qırıldayırsınız, hay-küyünüz qulaq batırır. Açığını deyim ki, sizə təhlükə özünüzdəndir. O çox da uzaqda deyil. Bir azdan it yiyəsini, yiyəsi də itini tanımayacaq. Ara qarışıb məssəb itəcək. Belə çox uzağa gedə bilməzsiz.

Qurd Əkbər dilləndi:

— Sən hardan çıxdın, əə?

— Hi... Hi... Hi... Sən çıxan yerdən.

— Tanımaza-bilməzə özünü atırsan ortaya. Səninki özbaşınalıqdı. Bu ərz elədiklərini sənə kimsə bağışlamaz. Qandığıma görə sən də sərsəmlərdənsən. Düzmü qanmışam?.. Qonaqsan, qaxıl otur yerində. Halımıza-xislətimizə bələd ol, gör qazanda nə bişiririk, sonra kişnə...

Zordanlı Qaçay Qurd Əkbərin sözün kəsdi:

— Biz hamımız bir qazanda qaynamışıq. Zeynəb qarı demişkən: "Ətlə dırnağın arasına girən iylənib çıxar..." Yaxşı ağlıma gəldi. Hərçənd mən də düz-əməlli ağıl sahibi deyiləm. Sən Zeynəb qarını tanıyırsan?

— Yoox... O kimdi?

— Hə... Onda pazlama. Dilini sox... Ancaq, deyilənləri eşitsən, sənə kifayət edər.

Lap əvvəldən küncdə oturub çəkişmələri, didişmələri dinləyən, artıq-əskik söz deməyən Viloş qeyri-ixtiyari dilləndi:

— Ayə, biz hardayıq? Niyə qanmırsınız ki, biz hamımız ailə-uşaq sahibiyik. Ağır oturub, batman gəlməliyik.

Lotu Qalib:

— Adə, kişilənmə. Köhnə bazara təzə nırx qoya bilməzsən.

Bizim öz nırxımız var... Özün də tullanıb-düşmə. Yoxsa, sənə kimliyimi qandıraram.

Viloş dilxor oldu. Danışmağa söz tapa bilmədi. Dərindən köksünü ötürdü. Hamının gözləri təəccüblə ona dikildi. Birdən Viloş bu baxışlardan nəsə, şübhələndi. Hiyləgər və istehzalı bir şey sezdi:

— Siz hansı simə vurursunuz, bilmirəm. Özünüzə gəlin. Ayağınızı yorğanınıza görə uzadın. Başınızı salın aşağı. Deyilənləri sırğa eləyib qulaqlarınızdan asın ki, qulaqlarınız dinc, başınız salamat olsun.

Qoçu Hətəm:

— Deyəsən, sən də ağıl gubbuldadanlardansan. Eşitmisən də...

Viloş:

— Nəyi?

— Camaata ağıl verib molla ilə pıçhapıçla gedənləri?

— Yəqin sən də eşitməmiş olmazsan?

— Nəyi?

— Dəli olan camaatın mollanın yanına qaçmasını. Bəs, molla dəli olanda hara qaçmalıdı.

— Cəhənnəmə!..

Viloş xeyli fikrə getdi. Sifəti bozardı. Əvvəl üst dişlərilə alt, sonra da alt dişlərilə üst dodaqlarını sıxdı. Gözlərindən açıq-açığına hiss olundu ki, fikirləri onu qanadları üstə alıb yırğalaya-yırğalaya harasa, lap uzaqlara uçurur. Ani cövlan eləyən fikirləri sonra da onu öz yuvasına qaytarır. O, handan-hana dedi:

— Özünüzə güvənib çox da uzağa qanadlanmayın. Hara uçsanız, yenə xarabanıza — yurd-yuvanıza qayıdacaqsınız. Zor zor gətirir. Özünüzü yırtmayın! Yazıqsınız! Elə danışın, sizi anlayan olsun. "Cəhənnəmə" axırıncı sözdü. O sözə qədər küllü miqdarda sözlər var işlədiləsi. Bir də ki, söz oynatmayın. Bizim zəmanədə söz oynadanın atasını yandırırlar. Çəkilin, yığışın, qorxun əməllərinizdən... Hi... Hi... Hi...





Hamı bir-birinin üzünə baxdı. Təəccübləndi, şübhələndi. Ancaq heç kəs söz deməyə cəsarət eləmədi. Elə bu vaxt Molla Abbas içəri daxil oldu. Salam verdi. Adamlar ayağa qalxıb salamı aldılar. Molla Abbasa yol verib böyük izzətlə yuxarı başa keçirtdilər. Molla Abbas yerini rahatlayıb sağ gözünü qıyaraq adamları diqqətlə sezməyə başladı. Sonra dərindən nəfəs aldı və astadan boğazını arıtladı. Ağır və üzüntülü halda dedi:

— Camaat yəqin ki, xəbəriniz var.

Hamı bir ağızdan:

— Nədən?

— Sosial şəbəkələrdən.

Hamı Molla Abbasın üzünə baxdı. Zordanlı Qaçay soruşdu:

— Nə baş verib, Molla Abbas?

— Da nə baş verməlidi ki? Sosial şəbəkələrdə yazırlar, televizorlarda deyirlər, radiolarda bağırırlar. Qəzetlər də özlərini cırıb dağıdırlar. Rusiyada Boris Nemtsovu güllələdilər. İŞİD Şərqi doğrayıb tökür. Türkiyədə də PPK-nın İŞİD-lə əl-ələ verib törətdikləri terror o söz. Dünyada neftin qiyməti düşdü. Bizdə də pulun devalvasiyası başladı. Dollarla avro özünün pik həddinə çatdı...

Adamlar arasında pıçhapıç başladı. Hərə bir söz atdı: "Yoox, xəbərsizik", "Boris Nemtsov yox, pulun devalvasiyası ürəyimizə dammışdı", "Əşi, onsuz da pul urvatdan düşmüşdü", "Urvatdan düşən pul bizim adımıza-sanımıza yaraşmır", "Belə getsə..." Gözlənilmədən Viloş "Boris Nemtsovla pulun devalvasiyası arasında əlaqə ola bilərmi?" sualını tolazladı. Molla Abbas:

— Boris Nemtsovla manatın çökməsi arasında əlaqəni ağlıma gətirə bilmirəm, ancaq Qarabağda Ermənistan ordusunun hər gün atəşkəsi pozması, gecə-gündüz Azərbaycan ordusu ilə şarap-şurupu, parta-partı arasındakı mübarizədə rusların iştirakına şübhə eləmirəm, — dedi.

Sözünü yekunlaşdıran Molla Abbas girdirmə sual verən Viloşdan şübhələndi və dərhal soruşdu:

— Mən səni tanımadım, cavan oğlan.

Viloş özünü təqdim eləmək istəmədiyindən yalan danışdı:

— Həqiqi adım Vilyamdı. Əslən Mingəçevirdənəm. Tanış-bilişlər məni "Viloş" deyə çağırırlar.

— Tanış-bilişlər deyəndə kimləri nəzərdə tutursan.

— Lotuları... Atıb-tutanları. Ölüb-öldürərəm deyənləri.

Hamı yerbəyerdən bir-birinə xısıldadı:

— Hə... Bu, o Viloşdu?

"Viloş" sözü Molla Abbası şübhələndirdi. O, Viloşa diqqətlə baxdı, əvvəl bir şey anlaya bilmədi, sonra çətinliklə özünü ələ alıb növbəti sualı verdi:

— Sən metis deyilsən ki?

— Necə bəyəm?

— "Viloş" adı bizim üçün o qədər də xarakterik, ağıla gələn, dilə yatan deyil. Yaxşı olardı ki, sənə Vəliməmməd, Qazıməmməd, Əliməmməd deyəydilər.

— Əşi, sən dilinə yatan, ağlına batan kimi de.

— Ruslarla, ingilislərlə qohumluq əlaqə-filanın yoxdu ki?

— Ruslarla var, ingilislərlə yox.

— Bizim əziz qardaşımız Vladimir Putinlə necə? O, çox cəsarətli adamdı.

— Sən onu hardan tanıyırsan?

— Biz onunla Almaniyada eyni idman klubunda məşq eləmişik.

— Hə, belə de...

— O, çox vurub-tutan idi. Səsini çıxaranın anasını ağlatdırırdı lotulara...

Viloş Molla Abbasın Vladimir Putindən çəkindiyini hiss elədi və dərhal da dedi:

— Əşi, əslən Mingəçevirli olasan, Putinlə də əlaqələrin-filanın olmaya? "Yox" desəm, bu, lap ağ olar ki? Anam deyərdi: Vladimir Putinin ana nənəsiylə mənim ana nənəm xalaqızı olublar".





— Hə... Belə de... Çanın üçün, Viloş, inanıram ki, o, Rusiyanı tezliklə görünməyən abıra mindirəcək.

— Mən də elə düşünürəm, Molla Abbas.

— Viloş, bala, atanın adı, familiyası nədi?

Viloş Molla Abbası dolamağa başladı:

— Semyonoviç Qazavoy Quşbazov. Uzun müddət ikinci Nikolayın baş müşaviri olub.

Molla Abbas üzünü adamlara tutdu:

— Bu nadir tapıntı hardan düşüb içinizə?

Adamlar bir-birilərinin üzlərinə baxdılar. Sonra da ağızlarını büzüb çiyinlərini çəkdilər. Molla Abbas nə fikirləşdisə, taktikanı dəyişdi:

— İrqindən, millətindən asılı olmayaraq, hamı insandı, hamını Allah yaradıb. Qurban olduğunuz "Ol!" deyib, siz də olmusuz, "Öl!" deyəndə də hamınız öləcəksiniz. Molla Abbas sonra üzünü Viloşa tutdu və sözünə davam elədi:

— Viloş, bala, bir ət ki, girdi qazana, oldu yeməli. Sənə bir sirr də acacağam.

— Buyur!..

— Allahın yanında metislər daha böyük nüfuz sahibidirlər. Siz metislərdə iki millətin nişanəsi var. Hər iki millətin ağlı siz metislərdə cəmləşib. Ona görə də siz bizlərdən daha ağıllısınız.

— Hə... Ağıllılarıq... Ona mən də şübhə eləmirəm. Ancaq şəxsən mənim bircə nöqsanım var.

— Nədi o?

— Ağzımda söz durmur. Kim kimin qeybətini qırdı, dərhal çatdırıram sahibinə.

— Yoox... Bu, olmadı.

— Hərdən mən də qalıram iki daşın arasında. Fikirləşirəm,

bu sözü çatdırım, ya çatdırmayım?

— Hansı sözü?

— Məsələn, elə biri sənin Vladimir Putin barədə dediklərini... Çatdırmasam, ruslar adımı xəyanətkar qoyacaqlar, çatdırsam, siz də "oğraş" deyəcəksiniz mənə. Mən də qalmışam xəyanətkarla "oğraşın" arasında, bilmirəm neyləyim?

— Viloş, oğraş rütbəsi daşımaq çox ağırdı. Budu deyirəm: bizimkilər bilsələr ki, oğraşsan, gecə-gündüzə salıb axırına çıxacaqlar. Qaldı xəyanətə... Bu söz ruslarda mənasını itirib, dəbdən düşüb. Elə bizdə də. Xəyanətkar ol, təki oğraş olma... Xoşuma gəlirsən, dur gəl otur yanımda.

Viloş gəlib Molla Abbasın yanında bardaş qurdu. Molla Abbas adamlara üzünü tutdu:

— Camaat, babalım olsun atanızın, ananızın boynuna, bundan sonra mənə elədiyiniz qayğıdan yüz dəfələrlə artığını Viloşa eləməsəniz...

Hamı bir ağızdan:

— Oldu... Baş üstə.

— Bundan sonra Viloş da olur mənim oğlum. Sizin də qardaşınız.

Adamlar arasına pıçhapıç düşdü. Bəziləri "Oldu", bəziləri də "Qəmbərqulu hökmdü" — deyə bildirdilər. Molla Abbas sonuncu "etirazsayağı" təklifi nəzərə almadan başını Viloşa tərəf döndərdi:

— Viloş, oğlum, bundan sonra mənim arxamda sən namaza durarsan. Çalışıb səni əsl müsəlman eləyəcəyəm.

— Ola bilməz ki, yarıxristian, yarımüsəlman olam?

Molla Abbas sualı cavabsız buraxdı, pəncərədən günəşə baxdı. Tez də dedi:

— Qalxın, dəstəmazınızı alın. Söhbət dananı qurda verər. Namazın vaxtıdı. Gecikməyək.

Adamlar tələm-tələsik ayağa qalxdılar. Dəstəmaz alıb Molla





Abbasa: — Başlaya bilərik, — işarəsini verdilər. Sıralandılar. Molla Abbasın arxasında Viloş dayandı. Molla Abbas əyilir, oturur, qalxır, Viloş da onu yamsılayırdı. Proses bir neçə dəfə təkrarlandı. Birdən Zordanlı Qaçayın ağlını cini-şeytanlar çaşdırdı. Onu namaz üstə gülmək tutdu. Molla Abbas ucadan: — Allahu Əkbər! — kəlamını dedi. Viloşu yaxşı tanıyan Zordanlı Qaçay böyür-başına baxdı. Viloş cənamaza enəndə ikiəlli onun paçasının arasını yığışdırdı. Xayalarından bərk-bərk tutub əzişdirməyə, burub dartışdırmağa başladı. Güc-bəlayla səsini boğan Viloş — Yəqin belə olmalıdı — deyə düşünüb o da Molla Abbasın paçasının arasına cumdu. Vəziyyətin çıxılmazlığını anlayan Molla Abbas dedi: "Sübhan-ənnəzin". Viloş dərhal eyni tövr ilə cavab verdi: "Əzməsin əzməyim". Əzişdirmə, dartışdırma xeyli davam elədi. Viloşla Molla Abbas hərəkətsiz hala düşdülər. Hər ikisi döşəməyə sərildi. Hərəkətsiz halda qaldılar.

Onların ölə biləcəyini özlüyündə güman eləyən Zordanlı Qaçay dalına baxmadan məsciddən çıxıb qaçdı. Xəta-bəladan, cinayətdən özlərini uzaqda saxlamağa çalışan Lotu Qalib və Qurd Əkbər Qoçu Hətəmlə razılığa gəlib təcili tibbi yardıma telefon açdılar.

## Viloş xəstəxanada

Təcili tibbi yardım maşını ilə xəstəxanaya gətirilən Molla Abbasla Viloş həkimlər, şəfqət bacıları, xidmətçilər arasında şok vəziyyəti yaratdı. Hamını təqribən eyni suallar düşündürdü: Molla Abbasla Viloş arasında nə əlaqə?

Molla Abbasla Viloşun nıqqıltısı palatalardan avazlanıb aşağıdan yuxarıya, yuxarıdan aşağıya qədər əks-səda verirdi. Xəstələr də əcaib səs-küyü, "Öldüm, Allah", "Ah, ay ana" ah-nalələrini eşidib heyrətlənirdilər. İşin mahiyyətindən xəbərdar olan-

lardan bəziləri gülür, bəziləri də sadəcə, başlarını yelləyə-yelləyə baxırdılar. Zərərçəkənlər ayrı-ayrı reanimasiya otaqlarında yerləşdirildilər.

Əri Viloşun biabırçı günə düşdüyünü eşidən Firəngiz tələm-tələsik, göz yaşları axıda-axıda özünü xəstəxanaya çatdırdı. Qadın tir-tir əsirdi. O, Rəsmiyyə həkimlə görüşdü. Dolubədənli, bəstəboy Rəsmiyyənin qırx yaşı ancaq olardı. Gülərüz, zarafatçıl yəhər-yüyənsiz at oynadan bu xanım çatana çatır, çatmadığına bir daş atırdı.

Firəngiz utana-utana Rəsmiyyədən soruşdu:

— Həkim, bu gün sizə təzə xəstə gətiriblər?

Rəsmiyyə dərhal dilləndi:

— Ağız, Molla Abbası deyirsən, yoxsa Viloşu?

— Viloşu, həkim, Viloşu. Anası ölmüşün vəziyyəti necədi?

— Çox pis.

— Aaa... Dəli eləmə məni, həkim. Hər şeydən ötrü...

— O hər şeydi, xanım?

— Deyirsən, öləcək?

— Demədim, öləcək.

— Pis — ölməkdə olana deyərlər, həkim.

— Xeyr... O da bir variantdı. Viloşun özü sağ-salamat qalacaq, ancaq.

— Nə ancaq?

Firəngizin matı-mutu qurudu. Zavallı dizləri üstə çökdü. Gözlərindən süzülən yaş yanaqlarından üzüaşağı dığırlanmağa başladı. Handan-hana dedi:

— Bəs, Molla Abbasın halı necədi?

— Necə olacaq, Viloşdan betər. Onu o günə sənin ərin salıb.

— Bəs Viloşu?..

— Onu da Zordanlı Qaçay.

— O kimdi?

— O suala istintaq cavab verər.





— Mən bu işdən keçməyəcəyəm, həkim. Neyləyirsən elə, Viloşu ayağa qaldır.

— Xanım, Viloş qalxacaq. Amma... Mən bu cür xəstə görməmişəm... Ondan canını birdəfəlik qurtarsan, yaxşıdı.

— Həkim, zarafat eləyirsən?

— Acı da olsa, Firəngiz xanım, mən həqiqəti deyirəm. Öz işindi. İstəsən, yanında oyuq kimi saxlaya da, saxlamaya da bilərsən. Onsuz da fakt budur ki, gec-tez mən deyənə gələcəksən. Kişi o demək deyil ki, gəlib-gedib yedirəsən, içirəsən, üst-başını qaydaya salıb görkəminə tamaşa eləyəsən. Sinəni də qabağa verib fəxrlə deyəsən: ərim var. Elə əri çayaşağı axıdım, çayyuxarı axtarım. Ağız eləsindən iki ər də mənim olub. Naxışım gətirdi, gecə yatdıq, səhər durdum gördüm ki, təzəcə yumurtadan çıxmış göyərçin balası kimi ömrünü tapşırıb mənə. Mən də ərsiz qaldım. Hərə bir söz dedi, bezdim. Gedib birini də axtardım mən canıyanmış, başımı qatım deyə. Düşündüm ki, həm azdan-çoxdan uşaqlara baxar, həm də görən deyər, Rəsmiyyənin də əri var. Şəhəri araq-vərəq elədim, axır ki, birinin üstə əl qoydum. Gətirdim evə. Elə bildim, hamı mənə bəxtəvərlik verəcək. Sərasər bir ay bacı-qardaş kimi yaşadıq bir evdə. Hər gün xaşıldan-maşıldan, quymaqdan-muymaqdan, kətədən-mətədən mən bişirdim, o, yedi. Mənə hey yağlı vədlər verirdi. Axır cana doyub dilə gəldim: “Ay evin yıxılsın, bir dilə gəl də”. Başladı üzümə hırıldamağa. Kimə nə deyirsən, dediklərim halına təfavüt eləmədi. Əlacsız qalıb gecənin bir yarısında dalına salqarlı bir təpik vurdum. Korkəsməzin özü getdi, ancaq adı üstümdə qaldı... Səni ayıq-sayıq salıram, bax işinə. Viloşun da hər nəyi vardı — dağıt-duğut olub.

Firəngiz tərs-tərs həkimin üzünə baxdı. Nə deyəcəyini bilmədi. Handan-hana nagüman halda dilləndi:

— Deyirsən, ələ gələsi, ümid doğurası bir şeyi yoxdu?

— Bircə şəkli qalıb. O da quru-quru baxmaq üçün.

— Sən lap adamı dəli eləyərsən.

— Soruşdun, mən də vəziyyəti dedim, bax işinə. Xeyirsiz oğulun vayına oturum, onda qalmışda ki, ər ola. Gözəl qadınsan, maşallah, yeriyəndə əsməyən, titrəməyən əzan qalmır. Sənin kimi xanımın müştərisi başının üstündədi. Özləri sənə yalvaracaqlar... Özü də biri-ikisi yox ey, yüzü. Seçim çox olanda...

Firəngiz dalın-dalın geri çəkildi. Ayaq üstə dayana bilməyib divarın dibində düzülən stullardan birində oturdu. Dərindən nəfəs aldı. Bir balaca ağlını başına topladı. Sonra iniltili səslə dedi:

— Xanım, sən həkimsən?..

— Bəli! Həkiməm... Bəyəm oxşamıram?

— Oxşayırsan. Mənə düz və qəti söz de. Onun əlini mənim əlimə verə biləcəksənmi?

— Molla Abbasın, yoxsa Viloşun?

Firəngiz əsəbiləşib həkimə çımxırdı:

— Əşi, Molla Abbası saxla özünə. Mənə Viloş gərəkdi.

— Neynəyirsən Viloşu, a başıxarab? Bayaqdan ağzımda bir quranlıq söz danışıram.

— Xanım, Viloşu aparacam evimə, diriyəcəyəm otağın küncünə, gəlib-gedib baxacam üzünə. Uşaqları da görsünlər ki, ataları gözlərinin qabağındadı. Anaları əlləm-qəlləm qadın deyil. İndi, xanım, mən ərimlə görüşmək istəyirəm. Dönə-dönə xahiş eləyirəm, görüş üçün mənə şərait yarat.

Həkim mızıldandı:

— Mən bildiyimi sənə çatdırdım. Qalanı sənin öz işindi. Həkim tibb bacısını yanına çağırıb dedi:

— Bu qadın xəstə Viloşun övrətidi. Əri ilə görüşüb hal-əhval tutmaq istəyir. Apar görüşsünlər. Ancaq içəridə çox qalmasın. Emosional şərait yaransa, xəstənin halı ağırlaşa bilər...

— Oldu.

Firəngizlə tibb bacısı qapıdan çıxdılar. Dəhliz boyu gedib reanimasiya otağına girdilər. Ərinin çarpayıda inildədiyini görən





Firəngizin ürəyi atlandı, istədi qaçıb ərini qucaqlasın. Tibb bacısı dərhal onun qolundan tutdu: — Əşi, bir tavaxıl elə, həkim deyəni eşitmədin, ehtiyatlı ol, işin içərisindən iş çıxararsan, — dedi.

Firəngiz yaxınlaşıb ərinin yanında dayandı. Ərinin iniltilərinə cavab olaraq tez-tez "Can!", "Can!" deməyə başladı: — Günahsız adamı da bu hala salardılarmı, ay insafsız?! Bəyəm, tutmağa yer qəhət idi? Mən bu işi boş buraxmayacağam, Viloş, sən sağal, ayağa qalx. Sən burda yatırsan. Arxayın ol, səni bu hala salanı mən dama saldıracağam...

Arvadının səsinə Viloş oyandı və zarıya-zarıya cavab verdi:

— Ölməsəm, qalxsam, yaşasam, qisasımı özüm alacağam, qadası... Sancı məni öldürür. Dözə bilmirəm.

Ərini təsəvvür elədiyindən yaxşı görən Firəngiz xeyli sevindi və zarafatla təskinlik verməyə başladı:

— A başına dönüm, mən sənə ürcah olandan beləsən də. Barmağına tikan batanda ufultun aləmi bürüyür. Ayə, səndə nə var axı?..

— Sancı!.. Sancı... Firəngiz, sancı...

— Gəl gör arvad olaydın, onda neylərdin?

— Məmnuniyyətlə doğardım...

— Doğuş sancısına tab gətirmək elə bilirsən asandı?

— Bundan o yaxşı olar, Firəngiz.

Tibb bacısı bunu eşidəndə gülməkdən uğundu. Handan-hana uğunmağını saxlayıb söhbətə qoşuldu:

— Görəcək danışma, Viloş. Doğmaq çətindi.

Viloş:

— Kişi olanda nə olar? Elə bilirsən... Doğuzdurmurlar bizi?

Tibb bacısı:

— Başa düşmədim.

— Burda başa düşülməyəcək nə var ki? Bizi də... özü də hər gün... Bəzən gündə bir neçə dəfə...

Firəngiz ərinin sərəklədiyini görüb tibb bacısına dedi:

— Ərim çox zarafatçıldı. Sancıları da onu çaşdırıb. Qayınanamın dediyinə görə, Viloşun lap uşaqlıqdan qarabasmaları, sayıqlamaları çox olub. Gərək dediklərinə fikir verməyəsən. Sözlərini sapa düzməyəsən. Viloş çox sayıq, sağlam, düşüncəli, həssas, nəzakətli və iradəli kişidi.

Tibb bacısı məzıldandı:

— Bunda kişilikdən əsər-əlamət qalmayıb, bacı.

Firəngiz yüngülcə əsəbiləşdi.

— Kişi necə olar ki? Gör nə hala salıblar, yataqda doğuşdan, sancıdan danışır.

Tibb bacısı ağzını büzüb otaqdan çıxdı. Firəngiz dərhal ərindən soruşdu:

— Axı, bu nə əhvalatdı? Xəcalətdən dinib-danışmağa da adamın dili gəlmir. Aç danış görüm, bu nə qəmbərquludu? Molla Abbas hara, sən hara?

— Əşi, soruşma. Məni axmaq, gicbəsər Zordanlı Qaçay elədi, mən də yazıq Molla Abbası. Şikayət-mikayət lazım deyil. Bu zəncirin bir həlqəsi də mənəm. Polis çək-çevirə girişsə, cinayət işi açılası olsa, mənim də başım ağrıyacaq. Onun doğuşu bununkundan betər olacaq. Sən uşaqlara bax... İnşallah, burdan çıxım, hər şeyi sənə mufəssəl danışaram. Bu da təcrübədi. Allahın qismətidi. Yuxuma da girməzdi ki, sağ-salamat adamı it gününə salıb arvada möhtac eləyərlər.

— Sənin başın xarab olub, Viloş. Nə arvada möhtac?..

— Ağız, sözdü, ağzımdan çıxdı da.

— Söz ağızdan çıxar da... Da hardan çıxmalıdı?

— Düz deyirsən, bağışla məni.

— Viloş, mənə düzünü de. Burdan çıxandan sonra səndən düz-əməlli kişi olacaq?

— O sualın nəyə işarədi, Firəngiz?

— Gərək açıq deyəm? Hər şeyə...





Viloş fikrə getdi. Handan-hana astadan pıçıltılı səslə dedi:

— Mənə elə gəlir ki, faydalı iş əmsalı aşağı düşəcək. Da nə qədər, onu deyə bilmərəm...

— Aha... Deməli, belə.

Viloş nə düşündüsə, birdən qalxıb çarpayının ortasında oturdu. Acıqlı tərzdə:

— Yoxsa, qulağına nəsə pıçıldayan var? Atanıza lənət, söz gəzdirənlər!.. Ayağı büdrəyəni elə günə salırlar ki, adam özünə də şübhə ilə yanaşır... Lənət şeytana... Zeynəb qarı düz deyib: “Şeytan ölmur ki, hara getsən, nə iş görsən, yanındadı. Barmağı da o söz...”

Viloş səsinə ara verdi. Udqundu. Yenidən sözə başladı:

— Əzizim, adama çox söz deyərlər. Yaranmış vəziyyətdən istifadə eləməyə çalışanlar adıma yüz yamaq vuracaqlar. Gərək səbrli, təmkinli olaq. İşin axırını gözləyək. Qarı oturub-durub deyərdi: “Tələsən köpək, süpürülmüş yerə...”.

Firəngizin fikri bulaş-bulaş oldu. Elə bil, zavallının ürəyindən daş asıldı.

Gözlənilmədən şaqqıltıyla qapı açıldı. Saleh içəri girdi. O, özündə deyildi. Ağzını açıb danışdıqca halbahal olurdu. Səsi titrəyir, nəfəsi təngiyirdi. İlk baxışdan adama elə gəlirdi ki, kişi ya qaça-qaça gəlib, ya da pilləkənləri atıla-atıla, ikibir, üçbir qalxıb.

Saleh tövşüyə-tövşüyə, salamsız-filansız soruşdu:

— Sən bura necə düşmüsən? Molla Abbasla sənin nə əlaqə-səlaqən? — O nitqinə ara verib dərindən köksünü ötürdü. Onun əsəbdən, daxili gərginlikdən sifəti gah bozarır, gah da yanaqları qızarırdı. Gözləri də hədəqəsindən çıxırdı. Özündən gileyləndi: — Kül mənim ağlıma, gör o boyda işi kimə etibar eləyirəm, öz-özünü saxlaya bilməyən adam mənə nə iş görəcəkdi ki? — dedi, sonra da Yaradanına inamsızlığını ifadə elədi: — Dedim get məscidə, Allahından imdad dilə, demədim ki, Molla Abbası da,

özünü də kişilikdən sal. Allahın bizə qəzəbi tutub. Hara əl atırıqsa, fıs çıxır. Belə ekstremal vəziyyətdə qurban olduğuma da adamın inamında çatlar yaranır... Ayə, sən öl, adam yaşamaq istəmir.

Saleh hirsdən, qəzəbdən boğulurdu. O, Viloş yatan çarpayının qırağındaca oturdu. Başını yellədi, əlini dizinə vurdu. Viloş hiss elədi ki, dayısını danışdıran bacıoğlusunun bu hala düşməsi yox, Ümiddən qoparacağı pulun fiş çıxmasıdı. Viloş dayısını ayaqdan başa süzdü. Kişi, necə oldusa, bir andaca gözündən düşdü, çirkablı bir əskiyə döndü.

Saleh özünə qapanmışdı:

— Neyləyim? İndi özümə qəsd edim? Niyyətim baş tutmadı. Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış... Özünə qəsd çıxış yoludumu? Bu yolla nə əldə eləyə bilərəm? Heç nə! Əziz oğlun da getsin, əlinə çürük qoz da keçməsin? Neçə vaxtdı arpa yemiş at kimi kişnəyirəm. Guya, iş görəcəm. Gördüm... hay... hay... hay.. Gərək nə verirlər, alıb oturaydım.

Saleh bu fikirlər içərisində vurnuxurdu ki, Viloş dilləndi:

— Ayə, dayısan-mayısan, nəsən? Ağıllı dayı olsaydın, bacıoğluna fitva verməzdin. Məni Allahın evinə göndərib Yaradanımla qarşı-qarşıya qoymazdın. Gördün Allah neylədi? Ümid sənə neyləmişdi? Oğlunu qəsdən qəzaya uğratmayıb ki... Deyirsən, gedim mən də onun oğlu Ülfəti öldürüm, qana-qan eləyim? Allah götürmədi. Gördü axmaq fikirdi, özü saldı məni bu günə. Sənə də, mənə də körk elədi.

Saleh dik atıldı:

— Yavaş, əə, qışqırıb tumanını başına atma. Qeyrətsiz. Görk... Görk... Allahın başqa işi-gücü yoxdu.

— Kimdi qeyrətsiz, sən, yoxsa, mən? Gəlib halımı soruşmaqdansa, yanıb tökülürsən ki, mən niyə cinayət eləmədim? Mənə arvad-uşaq saxlayansan, a namərd? Tüpürüm sənin puluna da, narkotikana da.





— Adə, yaxşı. Adam oğlusan... Hamının lakatrları bura çevrilib.

— Alçaqsan!.. Narkomansan!.. Nəsən... Nəsən... Yenə deyim?..

Bayaqdan söhbətə qulaq asan Firəngizin gözləri bərəldi. Əvvəl ona elə gəldi ki, yuxu görür. Handan-hana dedi:

— Saleh, mən bunu belə qoymayacağam. Səni polisə verəcəyəm. Sənə cinayət işi açdıracağam. Bu fitva ilə Viloşu, doğma bacın oğlunu, onun ailəsini hara sürükləyirsən, alçaq? Dur... Dur... Rədd ol burdan, səni gözüm görməsin.

Saleh yavaş addımlarla suyu süzülmüş pişik kimi qapıdan çıxdı. Firəngiz Viloşa tərəf döndü:

— Sənə elədiyi təhrikləri aç, danış.

— Mən Ümidin oğlu Ülfəti bıçaqla öldürməli idim. O da əvəzində mənə yüz min verməli idi. Bir də türmədən mən çıxana kimi o, sizə görüm-baxım eləməli idi....

— Ayə, a başını dağlayım. Salehin pulu var? Saleh sənə yüz mini hardan verəcəkdi? Yüz min pul deyirsən, onun heç beş dənə biti-birəsi də yoxdu. Səni dama qoydurandan sonra o mənə sahib duracaqdı? Gör nə gündəsən, yağı baxsa, sənə yazığı gələr.

Firəngizin ağzı elə qızışmışdı ki, həkim Rəsmiyyə haray-həşirlə içəri girdi:

— Hə... Necədi işlər, Viloş? Qorxma, ağır günün arxada qaldı. Allah üstündə olsun. Arvadına yazığın gəlsin.

Firəngiz söhbəti Viloşdan yayındırmaq xatirinə təkrarən həkimdən soruşdu:

— Həkim, Molla Abbas necədi? O da Viloş kimi...

— Xanım, incimə məndən, ərin lap insafsızmış...

— Niyə?

— Necə niyə? Sən buruq təkə görmüsən?

— Görməmişəm, ancaq haqqında...

— Burulduqdan sonra təkənin vəzifəsi sürünün qabağında yox arxasında getməkdi. Molla Abbas da elədi. O ki qaldı Viloşa, baş həkimlə danışmışam. Konsesium üçün həkimləri bir yerə toplayacaq. Birlikdə müayinə edib axırda bir qərar verəcəyik.

Viloş dərhal atıldı:

— Nə qərar? İşiniz, peşəniz yoxdu? Məni biabır eləməyin. Ailəm, uşaqlarım var... Elə hey gəlib deyirsiz yorğanı qaldır... Mən it oğlu ölsəydim, bundan yaxşıydı.

Həkim:

— Viloş, sənin ağlın var, ya yoxdu? Düzünü de.

— Kim özünə ağılsız deyər?

— Atana rəhmət. Adə, biz də sənin üçün çalışırq da. Aldığın zərbə ölümcüldü. Şərt o deyil ki, nəfəsin getsin gəlməsin. Sağaltmasaq, bərpa eləməsək, arxayın ol, heç özünə də gərək olmayacaqsan.

Viloş utana-utana Firəngizin üzünə baxdı:

— Bu nə deyir, aaz? Sən canın bunun cibinə bir iyirmilik bas. Yoxsa, barəmdə alçaldıcı, öldürücü nə olsa deyəcək? Onda da gəl xəstəxanadan çıx görüm, necə çıxırsan...

Firəngiz çantasının ağzını açdı. Həkim çantadan pulu özü götürdü və sonra dedi:

— Hə... Bu, başqa məsələ. Narahat olma, Viloş, səni tezliklə ayağa qaldırarıq, — deyib, Firəngizə göz vurdu və tələm-tələsik qapıdan çıxdı.

Firəngiz başını yellədi və dodaqaltı pıçıldadı:

— İt qızı, az qala, məni yoldan çıxaracaqdı.





## Bu da Viloş!

Xəstə ərinin yastığının yanından qalxan Firəngiz birbaşa Molla Abbası yoluxmağa getdi. Kişi hey ufuldayırdı. O, Firəngizi görən kimi səsini xırp kəsdi. Xanımı diqqətlə təpədən dırnağa süzdü. Beynini nə qədər qurdaladısa da onu nə vaxt, harda gördüyünü yadına sala bilmədi. Fikirləşdi ki, yəqin palatanı dəyişik salıb, səhv gəlib. Bu dəm Firəngiz salam verdi:

— Xoş gördük, Molla Abbas, azar olmasın. Viloşun yanına gəlmişdim...

Molla Abbas Firəngizin gəlişinin təsadüfi olmadığını anladı və dərhal, guya, tanımırmış kimi qəsdən dedi:

— Hansı Viloşun, xanım? Məni namaz üstə dərd-bəlaya salan Viloşumu deyirsən?

— Hə, o, mənim ərimdi. Vallah, o kiməsə sataşan adam deyil. Ömründə bircə toyuq başı da kəsməyib. Kəsənlərə də yaxşı baxmır...

— Ola bilsin toyuq başı kəsməyib. Ancaq... atamı yandırdı.

— Təsadüfən adam əlində adam ölə də bilər. İnan, onun ürəyi çox yumşaqdı.

— Xanım, o sənə elə gəlir. Köpəkoğlu Viloş, güvənib mərhum Boris Nemtsova, yaxın qohumlarına, bir də Vladimir Putinə. Girişdi mənə, nə girişdi.

— A kişi, Nemtsov kimdi, Putin kimdi? Zarafat eləyib sizinlə.

— Əşi, nə zarafat? Sən Semyonoviç Qazavoy Quşbekovun oğlu Viloşu demirsən?

Firəngizi gülmək tutdu:

— Molla Abbas, sən ağıllı adamsan. Onun elə qohumları hardadı? Uşaqlıqdan elə böyük-böyük danışandı.

— Xanım and olsun sizi-bizi Yaradana, Viloş daldan elə gi-

rişdi mənə. Necə ki, turpu dartıb dibindən qopararsan. Burub saldı məni bu günə. İndi özün de, eşidib-bilən mənə nə deyəcək? Mən ailəmin üzünə necə baxacağam? İt oğlu it, hər şeydən elədi məni.

— Viloş da sənin vəziyyətindədi, Molla Abbas. İş insan başına gələr, çör-çöp başına gəlməz ki?

— İş ha... Belə də iş olar? Nə qədər xərci var? Bilmirəm. Onu ödəməsəniz, lap bütün qohumları, tanışları tökülüşüb gələlər ha, xeyri yoxdu. Onu verəcəyəm cənab prokurorun cənginə. Prokurorun, məhkəmənin də xasiyyətinə bələdsiniz. Onlara ki, iş düşdü... Sağlamları da bizim günümüzə.... Viloşa de, həkimi görsün, ona bir şey boyun olsun. İşdi-şayət, həkimlə dil tapa bilməsə, pulu göndərsin mənə, özüm yoluna qoyaram.

— Əşi, sən nə danışırsan? Viloşun pulu var? Təsəvvür elə boş çüvaldı. Axşamdan yatıb günorta durur ki, qarnının aclığını bilməsin. Yeməyə çörək tapmır, sənə nə verəcək? Zeynəb qarı yaxşı deyib: “Yoluğun nəyi var, cırığa nə verə”.

— Onda özündən küssün.

Firəngizin Molla Abbasdan ağlı bir şey kəsmədi. O, sadəcə, neylək, necə bilirsən, elə də elə dedi. Fikirləşərəm ki, həyatımda nə Viloş olub, nə də səninlə o barədə söhbət eləmişəm.

— Firəngiz dabanı üstə geriyə dönüb qapıya sarı addımladı. Molla Abbas arxadan onu gözdolusu süzdü. Özünü saxlaya bilməyib: — Bu nədi, əə, — dedi. Sonra da istədi onu çağırıb: — Getmə, adam səbrli olar, dəymədüşər olmaz, — desin.

Firəngiz qapıdan çıxdı. Molla Abbas başını yellədi, kor-peşman çarpayısına uzanıb gözlərini tavana zillədi və düşüncələrə daldı:

— Ayə, deyəsən, mənim də başım xarabdı. Bu Viloş metisə oxşamır axı. Metis olsaydı, onda sarılıq, gözügöylük, burnu şişlik, ucaboyluq... əlamətləri özünü göstərərdi. Firəngiz necə dedi: “Viloşun nə qohum-əqrəbası, nə də tanışı var?..” Çox bic balasan, Viloş... Yaxşı, tutalım, mən Viloşdan şikayət elədim, hüquq işçiləri də onu domuşdurdular, əlindəkiləri aldılar, sonra da məni məcbur elədilər barışığa. Əvvəl-əvvəl o tərəf-bu tərəfə tullandım. Bir şey çıxmadı. Barışmağa məcbur oldum. Dalı nə olsun? Bəs mənim xeyrim? Heç nə? Halımı eşitməyənlər də eşidəcəklər. Məni istəməyənlər də adıma təzə ləqəb yapışdıracaqlar “Xədim Molla Abbas”. Bu əcaib ləqəb mənə lazımdımı?..





Molla Abbas dərin peşmançılıq hissi keçirirdi ki, həkim Rəsmiyyə tibb bacısı ilə palataya gəldilər. Molla Abbas əvvəl nıqqıldadı, sonra növbə ilə həkimi, tibb bacısını süzdü və dedi:

— Ağlın nə kəsir, həkim?

— Molla Abbas, kiminin əvvəli, kiminin axırı. Sənə nə var?.. Gününü görmüsən, dövranını sürmüsən. Bundan sonra...

— Deyirsən, o söz?!

Tibb bacısı dərhal:

— Molla Abbas axşam televizorda dedilər...

Molla Abbas:

— Nəyi?

— İtalyada həkimlər birinin başını o birinin bədəninə transplatasiya eləyiblər.

— Necə? Necə?

Həkim:

— Hər şey pulun başındadı.

— Onu qanıram ey. Qanmadığım odur ki, onnan bu birlikdə yola gedərlərmi?

Tibb bacısı:

— Boş-boş şeyə vaxt itirmə, Molla Abbas. Səninki ondan yüz dəfə yüngül əməliyyatdı. Qəzaya düşən adamların əzalarıyla səninkini dəyişdirəcək, sənin də canın xəcalətdən qurtaracaq. Eşitməmisən, pul açmayan qapı yoxdu. Pulunu ver, işini gör...

Molla Abbas:

— Deyirsən, xanım, pulla düzələr?

— Əşi, niyə düzəlmir? Eşitmirsən, hər axşam televizorda, radioda deyilənləri, oxumursan, qəzetlərdə, jurnallarda yazılanları? Hər gün kişilərin, yaxud qadınların öz cinslərini dəyişdirmələri barədə deyilib-yazılanları. Uzaqbaşı sən də dəyişdirərsən də.

— Bu yaşda?!

— Əşi, yaşın nə fərqi var? İşdi, necə tutsan, elə də gedəcək.

— Bəs qınaq?

— Eh... Bəsdi, sən canın. Nə qınaq? Dünyaya bir dəfə gəlirsən, onu da qınağa qurban verəcəksən?

— Hə... Hər yarağım vardı, çatmırdı təkcə saqqal darağım...

Molla Abbas üzünü həkimə tutdu və astadan yazıq-yazıq soruşdu:

— O mümkündümü, xanım?

Həkim:

— Mümkündü. Keçəl halva yeyər, puluna minnət...

Molla Abbas:

— Hə... Bu pul ki var, çox köpəkoğlu şeydi. Adamı hər yola çəkir. Üzüm ayağınızın altına, lap erkəyi dişi, dişini də erkək eləyir.

Tibb bacısı:

— Biz çox uzaqgörənik... Pul üçün min oyundan çıxırıq... Özünü satan torpağı da hərraca qoyar.

Molla Abbas:

— Xanım, məni siyasətə çəkmə. Mən din əhliyəm.

— Bu saat din də siyasətə xidmət eləyir. Siyasətsiz din əhli yoxdu. Sizin siyasətiniz, Molla Abbas, daim qlafda olur, çoxüzlü olur. Siz bir budaqda oturub min budağı silkələyirsiz...

Həkim:

— Söhbətimizi konkretləşdirsək, indi də qlafdasız.

Molla Abbas:





— He... He... He... Məni çox şişirtmirsiz?

Həkim:

— Yox... Nə şişirtmək. Uzanmısan çarpayıda, gözlərin oynaşır. Özünü elə aparırsan, guya hər şeydən uzaqdasan, heç kimə heç nə də demirsən... Əşi, texniki işçilərdən həkimlərə qədər hər saatda mənə necə şikayət, giley-güzar gəlir.

— Necə yəni?

— Deyirlər, Molla Abbas gah ateizmdən danışır, gah da siqədən dəm vurur.

Molla Abbas:

— Həkim, barəmdə deyilən bu siğə söhbəti cəfəngiyyatdır. Böhtandır. Məni hörmətdən salmağa xidmət eləyir. Bilirsiz, el-oba içərisində böyük nüfuzum var. Arvadım ciddi xəstədi. Uşaqlarım çoxdu. Dostlarım var. Məni istəyənlər də çoxdu. Mənə arvad lazım deyil. Qazandığımı iki arvada çatdıra bilmərəm. Hər tərəf dul arvaddı. İtə tök. Papaq fırlatsan, neçəsini də ərindən ayıra bilərsən. Ancaq mən...

Tibb bacısı:

— Əlbəttə, pulun olsa...

Molla Abbas:

— Xanım, düzünü deyin, siz də mənim kimi dul kimisiz? Tibb bacısı dərhal atıldı.

— Mən yox...

Həkim:

— Ağzını yerə tut danış, yekə kişisən. Sənin dul kimiliyin bundan sonra nə olacaq?

Molla Abbas:

— Məncə, adamın dulluğu pulsuzluğudu. Pul yoxsa... Şəxsən elələriylə bir yastığa baş qoymaq ədəbsizlikdi. Pul ki var, şeytana da arvad tapılar.

Rəsmiyyə dabanı üstə dönüb gedirdi ki, qapı ağzında Salehlə qarşılaşdı. Saleh: — Həkim, Molla Abbas burdamı müalicə olu-

nur? — deyə soruşdu.

— Hə... Onun yanına gəlmisən?

— Bəli!

— Nəyisən?

— Tanışı.

Keç içəri, ancaq çox dayanma. Belə getsə...

— Nə?

— Molla Abbasa qara dərd...

Saleh susdu. Həkim dərhal:

— Nə durub üzümə baxırsan?.. Qadın görməmisən...

— Görmüşəm. Necə bəyəm?

— Heç... Atı atın yanına bağlarsan, ya halın götürər, ya da huyun.

Saleh çiyinlərini çəkdi:

— Heç nə qanmadım.

— Get tanışına de ki, görüm-baxım eləməsə, burdan öküz kimi çıxacaq.

Saleh dərhal həkimin nədən acıq-gicikli danışdığını anladı.

— Belə de də...

Saleh palataya keçdi. Əl verib Molla Abbasla görüşdü, hal-əhval tutdu.

— Necədi işlər?

Molla Abbas:

— Ayə, necə olacaq? Allah bunları qırsın.

— Niyə?

— Ayə, nə hır qanırlar, nə zır. Guya, mən özümdəkindən xəbərsizəm. Elə hey deyirlər, vəziyyətin ağırdı. Çətin ki, səndən...

— Görünür, xeyirlərini...

— Ayə, məndə nə var, onları tır-mır eləyəm. Evi yıxılsın Viloşun. Sən demə, o da acmış...

Saleh dərhal:





— Molla Abbas, o mənim bacım oğludu. Kasıb-zad deyil. Varıdı. Tələb eləsən, gətirəcək. Özü də nə qədər istəsən. Cinayət törədib, sənə ölümcül xəsarət yetirib, heç bilinmir ki, xəstəxanadan nə vəziyyətdə çıxacaqsan. Çağırtdır qırışmalı, canı çıxsın, evin satsın, gətirsin...

Molla Abbas Salehin gözlərinin içinə baxdı. Nəsə anlamağa çalışdı. Salehin danışığını yerli-yataqlı anlamasa da, başa düşdü ki, dayı ilə bacıoğlu arasında münasibət o qədər də yaxşı deyil. Ona görə də dayı altdan-üstən onu doldurur. Molla Abbas dedi:

— Saleh, görürəm sən ağıllı və ədalətli adamsan. Allah rizasına danışırsan. Səncə, bacıoğlunun xariclə əlaqəsi-filanı yoxdu ki?

— Nə xaric? Nə əlaqə? Yoxsa, deyir diplomatam? — Rusiyada böyük vəzifələrdə qohumlarım var. Əşi, onda gözə kül üfürmə var. Bu da bir neçə dəfə dəlixanada yatmasından irəli gəlir.

Molla Abbas əsəbiləşdi:

— Oğraş, dəyyus elə danışır, az qalır adamın zəhri çatlaya.

— Bas belindən... Qoy canı çıxsın, bir də yalan danışmasın. Onunku dələduzluqdu. Fırıldaqdı...

— Eybi yoxdu. Baxar. Mənə də Molla Abbas deyərlər. Allahın evində gör nələrdən çıxır?

— Ona tutarlı qələm işlət, ağlı başına gəlsin...

— Yox, Saleh, elə dəyyusa qələm çətin ki, kar eləyə. Zeynəb qarı deyərdi: “Divin canı şüşədədi”. Viloşunku də polisdədi. Narahat olma. Qalanı mənim işimdi. Gəlib səni burda görən olmasın. Bir şey-mey gətirmisənsə, ver, get.

— Bir çəkimlik...

— Yaxşı. Ömrün uzun olsun.

Saleh narkotikanı Molla Abbasa verib ayaqlarını sürüyə-sürüyə otaqdan çıxdı. Dəhlizdə öz-özünə dedi: bu da Viloş!

## Naqanım olsaydı...

Gecə-gündüz özünü ora-bura vuran, əlinə bir şey keçirə bilməyən Saleh nə edəcəyini bilmirdi. Kişi elə bil, havalanırdı. Yolda-izdə öz-özünə danışır, bəzən də gülürdü. İstəyinə nail ola bilmədiyindən Viloşun hərəkətlərini "sədaqətsizlik", "qeyri-ciddilik", "dəyanətsizlik" kimi dəyərləndirən Saleh bəzən tamam çaş-baş hala düşürdü. O, əlacsız qalıb məsləhət almaq üçün ən yaxın qohumu Mübarizgilə üz tutdu. Mübariz görüb-götürmüş, qaradinməz və təvazökar adam idi. Bu adam olduqca ədalətə meyilli idi. Fırıldaqdan, dələduzluqdan uzaq idi. Yalançılardan, mərdimazarlardan, məddahlardan zəhləsi gedirdi. Dediyi sözün arxasında çalışıb duran idi. Düz-əməlli təhsil görməyən bu adam vaxtı ilə peşə-texniki məktəbdə oxuyurdu, çox vaxt dərsə girməzdi, yaşıdları ilə tində-bucaqda laqqırtı vurardı. Onu tanıyanlara elə gəlirdi ki, əlindən hər cür pis iş gələ bilər: oğurluq eləyər; alkoqollu içki içər; yoldan ötən qızlara sataşar; günahsız adamların qarşısını kəsib, heç nədən dalaşar, qan tökər, adam öldürər və sair və ilaxır. Bu ifadələrin hansını desən, ona aid etmək olardı. Bu, ilk baxışda onun zahiri görünüşündən irəli gələn əlamətlər idi. Ancaq ona yaxından bələd olanda, içinin çölü ilə tam ziddiyyətdə olduğunu görürdün. Adam öz-özünə düşünürdü: Xudaya, adamın içi ilə çölü bu qədər fərqli, kəskin və təzadlı ola bilərmi? Bəli!.. İnsanlara sevgi, rəğbət bəsləyən bu adam olduqca təvazökar və sadə idi, nəzakətli rəftarı vardı, sözü ilə əməli arasında fərq yox idi. Bu və buna bənzər keyfiyyətləri çox artırmaq olardı.

Mübarizlə Saleh qapı ağzında əl verib görüşdülər. Saleh Viloşdan gileyləndi:

— Ayə, bu Vilyoş, bacıoğlu da olsa, çox qeyrətsiz, ar-namusunu atmış adamdı.





— Niyə?

— Gündə yüz hoqqadan çıxır. Yəqin xəbərin olar? Gedib girişib məsciddə Molla Abbasa. Kişini öldürsəydi, bundan yaxşı idi. Bizi kişi ilə düşmən elədi... Nəslin iki sayılıb-seçilən adamı vardı: sən və mən. Canın üçün olduq ayaqaltı.

— Saleh, sən canın, qohum, məni ora qatma...

— Niyə?

— Mənə də bir ləqəb qoydurarsan.

— Nə ləqəb?

— Səninki narkobiznes, mənimki də olar atanşik, tutanşik, vuranşik... Da nə bilim nələr...

— Ayə, a Mübariz, onları saxla. İndi bilirsən Viloş hardadı?

Mübariz çiyinlərini çəkdi:

— Yoox... Bilmirəm.

— Yalan deyirsən, Mübariz.

— Mən Viloşu güdmürəm, Saleh... Onu da, elə səni də görmək istəmirəm. A kişi, elə təsəvvür eləyin Mübariz adında qohumunuz yerli-dibli olmayıb. Mübariz adda adam tanımırsız. Qandın. Qanmadınsa, yenə deyim?

— Ayə, a Mübariz, bilirəm, sən də acıqlısan. Acığından nə olsa, doğrayıb-tökürsən. Xasiyyətinə bələdəm. Üz çevirib getsəm, dözməyib dalımca gələcəksən.

Mübariz Salehin gözlərinin içinə baxdı:

— Niyə elə düşünürsən?

— Bilirəm ki, sadə adamsan. Lovğa deyilsən. Heç kəsə heç vaxt üstən aşağı baxan və kinli olmamısan. Dost-düşmənini tanıyansan. Sənə etibar eləmək olar.

— Yaxşı... Saxla... Səndə ki, bu dil var, ilanı yuvasından çıxararsan. Bura gəlmədim, sənin salamını almadım ki, ağzını axvayı yerə qoyasan, oturub mənə xarakteristika yazasan.

Saleh gülməyə başladı və sonra astadan sözünə davam etdi:

— Sən niyə elə düşünürsən ki, mən başqaları barədə xarak-

teristika tərtib edənəm.

— Düzünə qalsa, mən özümü heç kimdən ağıllı saymıram. Biləsən ki, başqalarında olan qüsurlar məndə də var. Bəlkə də, məndəki çatışmazlıqlar hamınınkından çoxdu. Yenə deyirəm, məni rahat burax... Elə güman eləmə ki, Saleh, səndə pis vərdişlər yoxdu? İndi də sadalaya bilərəm, başqa vaxt da.

— Sadala, saxlama.

— Məsləhət bilirsənsə, sadalayım.

— Buyur, eşidirəm.

— Sənin oğlun qəzaya düşərək dünyasını dəyişib. İçinə salıb azarı, odur ki, aləmi qarışdırırsan. Heç nədən düşmüsən günahsız Ümidin üstə. Elə bilirsən, niyyətin başa düşülmür? Düşülür, Saleh, sən oğlunun ölümündən də faydalanmaq istəyirsən. Biləsən, bu, günahdı. İnsanlıq deyil, namussuzluqdu. Vəhşilikdi. Lap tutalım, Ümiddən bir milyon aldın. Hərçənd bu, mümkün olan şey deyil. Yaşlı adamsan, sabaha ümid yoxdu. Yıxıldın öldün. Pullar necə olacaq? Ay bədbəxt, sən ailə qeydinə qalan da deyilsən. Verəcəksən narkotik maddələrə, arağa, çaxıra... İtələyəcəksən yarısını içinə. Qalanını da polisə, müstəntiqə, kimə, kimə...

— Məni alçaltma, Mübariz. Mən sən düşünən qədər də alçaq deyiləm.

— Alçaqsan, əclafsan, Saleh, özü də böyüyündən. İndi düşmüsən Viloşun üstə. Onu şirnikdirirsən ki, gedib günahsız Ülfəti öldürsün. Onun da başı səninki kimi qaynadır. Oğlana zərrə qədər xətər gəlsə, tutacaqlar boğazınızdan. Viloş da puldan ötrü özünü cırır. Bilirsən niyə?

— Yoox...

— Çünki qanınız birdi. Hər ikinizinki zəhərdi.

— Yoox... Yoox... Bu olmadı. Səninki dava-davadı. Şələni qoy yerə, vuruşaqdı. Mən bura gəlmədim ki, böhtanla, şərlə qanımı qaraldasan...





— Qulaq as, Saleh... Viloşun ailəsi zidgirliklə dolanır. Onun əlindən xəta çıxarsa, ailəsini dolandıracaqsan? Yoox...

— Ayə, ağlagəlməyən bu quramaları hardan tapırsan? Bəyəm, mən elə qeyrətsizəm? Bacım oğlunun düşməniyəm?

— Sənin əməllərindən. İki qozu atıb bir dağara yırğalamandan. Qanırsan ki, yırğaladıqca qozlar da dil açıb danışacaq... Ayə, hamı səni səndən yaxşı tanıyır.

— Necə?

— Necəsi budu ki, kobudsan... Yalançısan... Pulgirsən... Narkomansan... Ləyaqətini itirmisən.

Saleh matdım-matdım Mübarizin üzünə baxdı. Onun gözləri hirsdən, qəzəbdən, az qala, hədəqəsindən çıxacaqdı. Gözlənilmədən səsi aşağı düşdü:

— Ay yaramaz, biz qohumuq. Səndən məsləhət almağa gəldim... Sən neylədin? Abrımı aldın. Məni rüsvay elədin. Ağzını yerə tut danış, eşidən olar. Ümidin oğlunun başına bir iş gələr, mən ilişərəm. Səbəbkarı da sən olarsan...

— Əmin ola bilərsən, Saleh. Mən daha susmayacağam. Aramızdakı söz-söhbətləri də hər yerdə — kimi gördüm, deyəcəyəm.

— Deyərsən, mən də adekvat tədbir görərəm.

— Qələt eləyərsən.

— Bir naqanım olsaydı, Mübariz, elə burdaca gicgahına çaxardım.

— Hay-huy. Başıxarab Saleh.

Saleh öz-özünə dedi:

— Kül mənim başıma. Gör tullana-tullana gəlib kimlə ağızağıza verirəm...

Sonra o, üzünü Mübarizə tutdu:

— Ayə, ağlın olsaydı, cibində siçanlar oynamazdı. Pulu hansı yolla olur-olsun, gərək qazana biləsən.

— Sən gedən yolla?.. Tüpürüm sənə də, sənin qazandığın

pula da. Ayə, bir güzgü qabağına keç. Sir-sifətinə bax... Gör nə gündəsən. Məhlənin arvad-uşağı da iyrəndiklərindən sənə baxmırlar.

— Niyə?

— Qorxurlar... İçini bilirlər...

— Məni çox təhqir elədin, Mübariz.

— Olanını üzünə dedim. Hələ bir şeyə də tam əmin ola bilərsən...

— Nədi o şey?

— Sənin qara, çirkin niyyətlərini, hansı yollarla pul qazandığını, müstəntiqə də, prokurora da, hələ lazım gəlsə, Zeynəb qarının qəbri üstə də moizə edəcəyəm. Sonra demə ki, satqınlıq eləmisən.

Saleh Mübarizin dediklərindən bir qədər çəkindi. Ancaq özünü o yerə qoymadı. Güldü:

— Ay yazıq, gör məni kimlərlə qorxudursan. Hələ də qanmamısan ki, Ticarət Mərkəzində bizneslə məşğul olan adamın ayda iki dəfə prokurorla, müstəntiqlə görüşü olur. Uzaqbaşı çağıracaqlar: hi... hi... hi... turş çaxırdan gillətməli olacağıq. Bilirsənmi ki, Mübariz, turş çaxırla qan bir-birinə necə bənzəyir?..

Mübariz dönüb iti addımlarla Salehdən uzaqlaşdı və pıçıltılı səslə dedi:

— On arşın kəfəni, iki kvadratmetr torpağı Allah səndən əsirgəməsin, Saleh. Çox yaşasan, çox mərdimazarlıq eləyəcəksən.

## Sərxana təskinlik

Oğlu Eyyubun ölümündən sonra Sərxanda qəribə xüsusiyyətlər yaranmışdı. O, çox vaxt yaxın adamlarından qaçır və elə küskünləşirdi ki, kimsəyə salam vermək istəmirdi. Səliqə-sahmanına, geyiminə-kecíminə, yemək-içməyinə belə diqqət yetirmirdi. Hər kiçik şeydən, bəzən ona dəxli olmayan məsələlərdən də əsəbiləşirdi. Üzündəki əvvəlki təbəssümdən, gülüş ifadələrindən, demək olar ki, əsər-əlamət qalmamışdı. Ona yaxınlaşıb halını soruşana belə sərt cavab verməkdən çəkinmirdi. Daim fikirli, susqun, kefsiz görünürdü. Heç kəsə açmadığı və eləcə də açmağa cəsarət etmədiyi düşüncələr onu bir an da sakit buraxmırdı. Elə bil, onu nə isə təəccüb doğuracaq xəbər, ağır, sarsıdıcı hadisə gözləyirdi. Elə bir xəbər, elə bir hadisə ki, o Sərxanın özünün də, ətrafındakıların da həyatında ciddi bir dəyişiklik yarada bilərdi. Özündən vur-tut iki yaş böyük olan yeganə bacısı Şəhanə onun bu halına çox vaxt dözə bilmirdi. Oturub-durub qardaşının, qardaşı arvadı Səbinənin keçirdikləri günlərə acıyırdı. Bir neçə dəfə bacısı Şəhanə Sərxana yaxınlaşıb başını söhbətə qatmaq, içində gedən çaxnaşmalardan, onu dəyişdirən təsirlərdən uzaqlaşdırmaq istədi. Sərxansa nədənsə bacısı Şəhanənin təşəbbüslərinə, onun mərhəmətdolu qayğısına, nəvazişinə məhəl qoymaq istəmədi. Əksinə, həyəcanlanaraq dedi: mənə toxunmayın; başımı yersiz söz-söhbətlə qatmayın; mən uşaq deyiləm; mən özümü idarə eləməyi bacarıram; imkan verin, Allah verən ömrümü ürəyimcə rahat yaşayım; indi düz adam yoxdu; kimə yaxınlaşırsan, öz mənafeyini güdür; qonşu bir cürə, tanış başqa cürə, qohumlar onlardan da betər girişir adama; düşünürlər ki, oğlu ölüb, ondan nədəsə, hardasa xeyir götürə bilərik. Elə ki, götürmədilər, başlayırlar donquldanmağa: sən niyə şikayətçi olmadın; gərək sən də Saleh kimi hərəkət eləyəydin; heç olmasa, xərcini Ümiddən alaydın; qisasını yerdə qoymayaydın... Əşi, kimə nə dəxli var, mən neyləyirəm? Saleh neylədiyini özü bilər. Bəyəm, mən oğlumun ölümündən də fayda güdməliydim? Mənim xarakterim pisdi, yaxşıdı, özüm bilərəm. Necə oturub-durmam özümə məxsusdu. Niyə anlamırlar ki, kiminsə daxili işinə qarışmaq, özəl sirrinə burun soxmaq, ən azından, ədəbsizlikdi. Hər kəs özü barədə düşünsə, qiyamət qopar? Qeybət!.. Ağır, sa-

ğalması mümkün olmayan xəstəlik... Ən ağır virusların daşıyıcısı və yaradıcısı... Tutdu, adamı buraxmır. Buraxanda da öz izlərini qoyur. Cəfası çox ağırdı. Həm barəsində söhbət gedəni nüfuzdan salır, həm də qeybətçinin özünü... O vərdiş səndə aşılandısa, heç nə. Qeybət qılan da, qeybəti qırılan da ölürlər. Ancaq qeybət bir müddət yaşayır. Çünki bacı, o zəhirmar insanın ruhundadı. Daim zəhər buraxır. Nəslə-kökə xəcalət gətirir. Adama namussuzluq damğası vurur.

Şəhanə qardaşının sözlərinə müdaxilə eləmək istəmədi. Ancaq Sərxanın xeyli uzaqlara getdiyini düşünüb cavab verməli oldu:

— Sərxan, sən uşaq deyilsən. Nəyin yaxşı, nəyin pis olduğunu bilirsən. Bu ixtiyar çağında qəm, qüssə, kədər səni yaxaladı. Bacın sənə qurban, əgər oğlunu geri qaytarmaq mümkün olsaydı, mən canımı da, vallah, ondan əsirgəməzdim. Bu qədər dərd, sitəm çəkmək olmaz. Hamı sənə baxır.

Bayaqdan əri ilə baldızının söhbətini dinləyən Səbinə dərindən ah çəkdi. Sərxanın dodaqları arasından pıçıltılar qopdu. Nəinki Səbinə, heç eşitmə analizatorları mükəmməl olan, səsləri incəliklərinə qədər ayırmaq bacarığına dərindən yiyələnmiş mütəxəssislər də onun pıçıltılarını bir-birindən ayıra bilməzdilər. Onları ancaq gümanla, fəhmlə fərqləndirmək olardı. Sərxan bacısının üzünə diqqətlə baxdı, ancaq bir söz demədi. Səbinə ərinə dedi:

— Ay evin tikilsin, öyrənmisən içində danışmağa, pıçıltılarını da eşitmək, başa düşmək olmur. Bacına da danışmağa imkan vermirsən. Bəyəm, bu evdə, ailədə sənin sözünə qarşı çıxan var? Bir sözünə iki deyən olub? Neçə vaxtdı özünü itirmisən. Öz niskilli aləminlə yaşayırsan. Mən sənə mat-məəttəl qalıram. A kişi, söyürsən, adam kimi söy. Alqış eləyirsən, onu da adam kimi elə. Hamı bilsin. Mən cəhənnəm, uşaqları qırıb batırdın ki. Hamısının ürəyi qan ağlayır. Elə elə biz də bilək, dostumuz kimdi, düşmənimiz kimdi. Gileylənmək, adam sifətindən çıxmaq kimə fayda verib? Vallah-billah, heç kimə. İçini niyə söküb dağıdırsan.





Şəhanənin gözləri doldu. Dodaqları səyridi. Çətinliklə özünə gəlib dilləndi:

— Qardaş, səninki özünü vaxtsız-vədəsiz həlak eləməkdi. Ağzıma daşlar... Özünü birtəhər elədin. Bəs yerdə qalanların necə olsunlar? Nə sözün var, bir dəfə de. Nə niyyətin var, onu da həyata keçir. Hamı bilsin neyləyəcəyini? Belə olmaz axı. Arvad-uşağına zülm eləmə. Yazıqdılar...

Bu sözləri eşidən kimi Sərxanın üzündə yüngül təbəssüm yarandı. Bu təbəssümü onun üzündə, bəlkə də, indiyə qədər görən olmamışdı. O, deyilənləri başını qaldırıb-endirməklə təsdiqlədi. Şəhanə sözünə davam etdi.

— Gəlin, gəlin gedək hovuzun kənarına. Orda oturub bir az həm dincələk, həm də sözümüzü danışaq.

Səbinə dərhal dedi:

— Da nə danışacağıq? Söhbət qurtardı.

Sərxan:

— Heç nə özümdən asılı deyil. O fikirləri başımdan çıxara bilmirəm.

Şəhanə söhbətin səmtini dəyişdi:

— Yeganə həzz aldığım, əsəblərimi sakitləşdirən dumduru suya baxmağımdı.

Sərxan bir söz demədi. Onlar dinməz-söyləməz hovuza tərəf getdilər. Hovuz bağın ortasında idi. Sərxanın dediyinə görə, hovuzun altı yüz otuz kvadratmetr sahəsi vardı. İçərisinə ağ metlax və kənarlarına göy rəngli kafel vurulmuşdu. Hər gün hovuzun suyu dəyişdirilirdi. Hovuzun kənarında əkilən bəzək kollarının, rəngbərəng çiçəklərin əksi suya düşdüyündən hovuz qəribə görkəm alırdı.

Şəhanə astadan:

— Nə gözəl zövqün var, qardaş.

Sərxan:

— Ey... Daha nəyimə lazımdı bu zövq verən tikililər? Mən bunları oğlum üçün yaratmışdım. O da belə getdi.

Səbinə:

— Eh... Heç için açılmır.

Hamı susdu və hovuza baxmağa başladı. Suda tək-tək balıqlar üzürdü. Sərxangil hovuza yem qırıntıları atdı. Balıqlarda bir qaynaşma, həyəcan duyuldu. Balıqlar sürətlərini artırıb o tərəf-bu tərəfə qaçışdılar, çox çəkmədi ki, həyəcanları ötüşdü, sakitlik yarandı. Sərxangil hovuzun kənarındakı skamyada əyləşdilər. Dumduru su göz oxşayırdı. Hovuzun dibindəki yem qırıntıları apaydın görünürdü. Balıqların sakit və sərbəst hərəkətləri adamda xoş duyğu oyadırdı. Hərdənbir kefləri durulan balıqlar suyun üzündə şappıltıyla yuxarı atılır, havada mayallaq vururdular. Yerbəyerdən atılan balıqların hər biri qayıdıb suya düşərkən onların suyun üzündə yaratdığı ləpələr qəribə interferetik hadisələr yaradırdı.

Səbinə — Nə heyranedici mənzərədi? — deyib sükutu pozdu.

Şəhanə dərhal cavab verdi:

— O balıqlar bəzən mənə məhbusları xatırladırlar.

Səbinə:

— İnsanın əsir eləmədiyi bir şey varmı?

Araya sakitlik çökdü. Handan-hana Sərxan:

— Neçə vaxtdı nə bu hovuz, nə də sizin dediyiniz o gözəllik Eyyubsuz mənim gözümə görünür. İndi məndə yalnız oğlumla bağlı xatirələr yaşayır.

Səbinə ağlamsındı və ərinə təskinlik verdi:

— Sərxan, əzizim, mən anayam. Danışıram, gülürəm, elə bilmə ki, oğlum, onun acınacaqlı taleyi barədə düşünmürəm. Mən də yanıram. Ancaq özümü tuturam. Niyə? Qalan uşaqlarımızı ayağa qaldırmaq üçün. Onların da gələcək həyatı var. Həyat ziddiyyətlərlə doludu. Bəzən ağlagəlməyən hadisələr baş verir. Eyyubun ölümü də elə... O, qəza nəticəsində öldüyü üçün biz də özümüzü həlak etməliyik? Tutaq ki, elədik, bu, Eyyubu geri qaytaracaqmı?





Şəhanə, Səbinənin sözlərini təsdiqlədi:

— Təbiət məntiq üzərində qurulub. Cəmiyyətdə isə görürsünüz ki, çox zaman məntiq pozulur. Yanımda çox deyiblər, çox eşitmişəm, öləsi qalır, ölməyəsi ölür. Məncə, bu da düz deyil.

Sərxan:

— Öləsi dedikdə, yəqin ki, yaşlıları, ölməyəsi dedikdə isə cavanları nəzərdə tuturlar.

Şəhanə:

— Hə... Hə...

Sərxan:

— Düzdü-əyridi, bacım, biz onu gözlə müəyyən edə bilmərik. Cavan sağlamdısa, məntiqə görə yaşaması da təbiidi. Yox, yaşlı xəstədisə və o ölürsə, bu da məntiqin pozulması deyil. Məntiqin pozulması tamam başqa şeydi. Elə götürək Eyyubgilin başlarına gələn hadisəni... Qəzalar, gözlənilməz faciələr, bir sözlə, onların yaratdığı kəlləmayallaq ölümlər. Buna nə məntiq?! Həqiqət nöqtəsi əlimizdədi. Ancaq biz çox zaman əlimizdə olan nöqtəni itirməyə öyrəncəliyik. Sonra da əl-aman eləyib axtarmağa. İşin gedişində bəzən düz yoldan sapmağa... Hara gəldi üz tuturuq. Bu yol bizi haralara aparıb çıxaracaq, fərqinə varmırıq. Kim bilə-bilə, düşünə-düşünə yaşadığı həyatın, axarından çıxmaq istəyər? Əlbəttə, heç kim...

Çox vaxt eşitməyə, dinləməyə üstünlük verən Sərxanın içi dolu idi. O, nədənsə, səbəbini düşünüb araşdırmadan, hansı qüvvənin təsiriyləsə indi içini boşaltmaq, bir balaca yüngülləşmək istəyirdi. Ancaq nəsə buna elə bil, mane olurdu. Bunu Şəhanə də, Səbinə də özlüklərində anlayırdılar. Hər ikisi ayrı-ay-

rılıqda onu da düşünürdülər ki, bəlkə Sərxan ürəyindəkiləri açıb danışsa halı bir az yaxşılaşar.

Şahanə Sərxandan soruşdu:

— Hadisə yerində Salehlə Ümid qarşılaşdılarmı? Qarşılaşdılarsa, aralarında artıq-əksik söz-söhbət olmadı ki?

— Mən hadisə yerinə çatanda, cəsədləri götürmüşdülər. Nə Salehi, nə də Ümidi görmüşəm.

— Bir də ki, olan-olub. Çək-çevirə nə ehtiyac var? Qəza qəsdən törədilməyib ki? Mənim Ümidə yazığım gəlir.

Səbinə:

— Hadisə yerində adam çox idi?

— Hə... Mən sadəcə, özümü ələ almağa çalışdım. Ağzımdan artıq-əskik söz çıxarmaq istəmədim. Məncə, buna da nail oldum. Axı, o adamlar hadisəyə şahid idilər. Mənim dediklərimi, əvvəla, düz başa düşməzdilər. İkincisi, mənim deyəcəklərim onları maraqlandırmaya bilərdi. Üçüncüsü də, barəmdə yanlış fikrə gələrdilər. Mən mövqeyimi səbr və təmkinlə müəyyənləşdirməyə çalışdım, səndələmədim. Hamı mənə yazığıgələnliklə baxırdı. Mən salam verdim. Məmnunluqla aldılar. Polisdən vəziyyəti öyrəndim. Sonra da oğlumun cəsədinin arxasınca getdim.

Şəhanə astadan dedi:

— Ağlına qurban olum, qardaş. Söz-söhbət gəzir ki, Saleh Ümidlə düşmənçilik həddinə çatıb. Dava-dalaşdadılar. Saleh ortaya atmadığı adam qalmayıb. Deyirlər, niyyəti puldu. Qisas hissilə yaşayır.

— Bacı, Salehin niyyətində pul varsa, nə qisas?

Sərxanın dodaqları, yanaqları səyridi, gözləri doldu. Handan-hana kövrək səslə dedi:

— Alqı-satqı. Ölünü də bu dərəcədə urvatsız eləmək?!.

Səbinə:

— Allah hər cür insan yaradıb...





Sərxan:

— Adamları “yaxşılar və pislər” qrupuna ayırsaq, qarşımıza elə qürursuz, lovğa, təkəbbürlü, məsuliyyətsiz tiplər çıxacaq ki. Onlara baxanda, gözlərimiz böyüyəcək. Gərək insan ölüsünün də, dirisinin də dəyərini bilsin... Bilməsə, lənət rütbəsi alar...

## Bacı-qardaş qarşılaşması

İstəyinə nail olmayan, evdə qərar tuta bilməyən, küçə-bacada ayaq döyüb vaxt keçirən Saleh yumurtası tərs gəlmiş toyuq kimi vurnuxurdu. İçində yaratdığı qarmaqarışıq hisslər heç nədən onu atıb-tuturdu. Özü demişkən, hərdən cinayət törətmək həddinə də çatdırırdı. Gördüyü işlərin nəticəsinin niyyətilə uzlaşmadığını düşünüb daha da özündən çıxırdı. Dava-dalaşa, ağ üzdən qaranı götürməyə adam axtarırdı. Viloşa olan nifrəti onu yerindən bir qədər də oynadırdı. Eşidəndə ki, Viloş da, Molla Abbas da xəstəxanadan sağ-salamat çıxıblar, onlarda xədimliyin əsər-əlaməti yoxdu, o, bir qədər də əsəbiləşdi. Viloşla Molla Abbasın ünvanına iki-üç mərtəbəli yağlı sözlər də toqquşdurdu... Ürəyi soyumadı. Ayağa qalxıb evdə o tərəf-bu tərəfə var-gəl elədi. Sonra da ayaqqabılarını ayaqlarına taxıb, söyüş söyə-söyə Viloşgilə yollandı. Yolboyu necə getdiyini bilmədi. Onu qapı ağzında Firəngiz qarşıladı. Qadın istədi: — Viloş xəstəxanadan hələ çıxmayıb, ya harasa gedib, evdə yoxdu, — desin, sonra düşündü: bu dəyyus həyasız tiplərdəndi, icazəsiz-filansız basar girər otağa, Viloşu evdə görər, biabır olaram. Qayınanam da qardaşının tayıdı, o da oddan köynək geyər: — Sən kimsən mənim qardaşımı içəri buraxmırsan? — deyə soruşar. Onda da gəl cavab ver... Aylarla dedi-qodusuna, asaram-kəsərinə döz görüm, necə dözürsən? Sonaladıqca söz-söhbətin dalının daha uzaqlara gedib çıxacağını düşünən Firəngizin əlacı kəsildiyin-

dən qapının kənarına çəkildi, Salehin üzünə baxmadan dedi:

— Gəl içəri, qapının ağzında dayanma.

Saleh özünəməxsus əda ilə içəri keçdi. Gedib yataqda Viloşla, mətbəxdə bacısı Rübabəylə əl verib görüşdü. Sonra bacısı ilə Viloş yatan otağa qayıtdı. Stulda əyləşdi. Firəngiz süzdüyü iki stəkan çayın birini Salehin, o birini qayınanası Rübabənin qənşərinə qoydu. Saleh bir qurtum çaydan içib dedi:

— Bacı, sənin gəlinin Firəngizdən, onun qohumcanlılığından, böyük-kiçik yolu gözləməsindən çox razıyam. İnsafən, kişinin qızı halal süd əmib. O, Viloş ağılda adama hardan ürcah olub, bilmirəm. Hərdən düşünürəm, Allahın da qəribə işləri var. Elə kişiyə belə arvad, yaxud, belə arvada elə kişi ürcah eləyir, özümdə çaş-baş olub, məəttəl qalıram. Maşallah, salamat olsun, qarşına yaxşı gəlin çıxıb. Qədrini bil.

Firəngiz özünü saxlaya bilmədi:

— Az təriflə. Sabaha da yer qoy, Saleh müəllim.

"Müəllim" sözündən narazı qalan Saleh dərhal dedi:

— O söz heç mənim xoşuma gəlmədi.

Firəngiz:

— Niyə? Ondan papulyar söz?

— Əşi, o yana elə. Qırışmal Mətiyə də müəllim, mənə də?

Rübabə qardaşını sonacan dinləyib soruşdu:

— Əvvəla, Mətinin nüfuzunu qazan, sonra bəyənmə "müəllim" sözünü. İkincisi də, mənim bu oğlum sənə neyləyib, toyuğuna harda, necə daş atıb ki, ondan belə gileylisən.

— Bacı, soruşursan deyəcəyəm. Acığına getməsin. Qanmazlığı var. Qeyrəti yoxdu. Böyük-kiçik tanımır. Deyilənləri də qulaqardına vurur...

— Oyy... Ədə, qardaş, saxla, sən canın. Sözündən belə çıxır ki, bir uşağım var, onu da...

— Bilmirdin?.. Vaxtında sənə dedim ki, oğlunu əzizləyib ərköyün böyütmə. Böyütdün. Başımıza mindirmə. Mindirdin. O da vurdu çıxdı naxələf, axırı da oldu kazzab.

Bayaqdan yorğanın altından dayısını sezən Viloş axır ki, dözməyib dilləndi:

— Dayı, gedib sənin çürük sözlərinlə Ümidin oğlunu ya özünü al qana boyasaydım, ya öldürsəydim, sonra da tutulsaydım, mənim dalımca gələcəkdin? Arvad-uşağımı demirəm, ömrünün qürubunu yaşayan doğmaca bacın Rübabəni saxlayacaqdın? Toyda-yasda qapılarını açacaqdın?

— Ayə, deyirsən, dayının qeyrəti yoxdu? Dayın ləyaqətini itirib? Dayının səsinə bacıoğlu səs verməyəcəksə, o niyə yaşayır? Gərək yaşamasın, getsin bir güllə çaxsın başına. Özünü qayadan atsın, başına benzin töküb özünü yandırsın, bıçaqla doğrasın...

Eşitdiklərinə inanmaq istəməyən Rübabə Firəngizin üzünə baxdı. Gəlin qayınanasına əvvəl kiprik qırpdı, sonra da başını aşağı endirib-qaldırdı. Nəhayət, dilini işə saldı:

— Qayınana, eşitmirsən söhbət nədən gedir?

Rübabə bir an tutuldu. Sonra atıldı:

— Dayan, dayan, aaz. Torbada əcəb pişik var. Yatmışam fil qulağında, xəbərim də yoxdu. Ayə, a qırışmal, sən mənim yeganə oğlumu hara çəkirsən? Adə, sənin gic başında buynuzlar varmış!

Saleh əsəbiləşdi:

— Əşi, sən də tullanıb düşmə. Heç kəsə zor eləyən yoxdu. Kişinin prinsipi olar... Başa düşürsüz? Prinsip. Firəngizə bax ey. Bu da Firəngiz, bayaqdan kasıb itini tərifləyən kimi...

— Sağ ol səni, Saleh müəllim.

— Düz deyirəm də. Qoz boyda fitillə dəvə boyda arvadı necə də dingildətdin?

Firəngiz:

— Əşi, nə dedim ki, məni təhqir eləyirsən?

— Nə deyəcəkdin? Oyunbaza bir şırtıq da bəsdi.

Viloş:

— Əşi, mən boğuldum. Belə getsə iynə-dərmanın da canıma bir faydası olmayacaq. Qoy yorğanın altında rahat ölək də. Məni məcbur eləyirsən, ölü-diri qoymayım, hamısını yağlayım?

Rübabə oğluna tərs-tərs baxdı:

— Adə, səsini kəs. İt-qurd olsa da, öz qırışmalımdı, öz canciyərim, öz nəslim, öz kökümdü.

Bacısının dedikləri Salehi bərk tutdu. O, əvvəl özünü elə apardı ki, guya, deyilənləri başa düşmədi, ya da eşitmədi. Söhbətin kəskinləşdiyini görüb istədi istiqaməti dəyişsin. Ancaq içindəki acıq, əsəb ona imkan vermədi. Saleh dedi:

— Sizinlə danışmaq olmur. Salırsız qarhaqura. Ağız deyəni qulaq eşitmir. Yeri gəldi, gəlmədi, tolazlayırsız. Hara düşəcəyinin, kimi tutacağının da fərqinə varmırsız. Mənim dediklərimi ömrü boyu başa düşməmisiz... Düşməyəcəksiz də.

Rübabə əsəbi halda:

— Sus. Danışma. İçinin zir-zibili üz-gözündən oxunur. Özünü çoxbilmiş, məni avam sanma. Unutma ki, vaxtı ilə bir qarında yatmışıq. Qanımız da eynidi. Sənin Allahın puldu. Sənin üçün dəyər yoxdu. Sən ölməli adamsan. Allah sənin kimiləri niyə yaşadır, bilmirəm. Ayə, bir oğlun vardı, o da getdi. Onun dərdini çəkməkdənsə, qanından fayda görmək niyyətindəsən? Dur get, gününü say. Mən bacıyam, özü də doğma. Bilirəm, bu sözləri belə kəskin deməməliyəm. Ancaq məni buna vadar elədin. Hər şey gecdi. Öyrənməli vaxtın keçib. Zeynəb qarı demişkən, səksənində öyrənən gorunda çalar.

Saleh:

— Siz mənim qaraniyyətli olduğumu hardan bilirsiz? Mənim içimə girmisiz?

Viloş:

— Mənə niyyətini özün açmadın? Məni cinayətə təhrik eləmədin?





Rübabə:

— İncimə məndən, Saleh. Lap inciyirsən də inci. Gəlib, açıq deyəcəm: sən yelbeyinsən; avamsan; düşünmədən addım atansan; burnunun qabağını görəmməyənsən; əxlaqın məhduddu; qatilsən; korafəhmsən... Bu qədər axmaqlıq olmaz axı... Səninlə kimin düşmənçiliyi var? Heç kimin!.. Dünyada yaxşı adamların sayı pislərdən yüz dəfələrlə azdı. Mərdimazarlar, əclaflar yaxşıları elə tora salırlar ki, zavallı yaxşılar ömürləri boyu girdabda çabalayırlar. Ancaq düşmənlərini anlamırlar. Səfehliklərini başa düşmürlər. Sonra gec olur. Bütün səfərbərlik imkanlarını itirirlər. Qarının sözlərinə müraciət etməyə məcburam: daldan atılan daş...

Saleh qılafa girməyə məcbur oldu:

— Sən elə danışırsan, bacı, ayaqlarım yerdən üzülür. Sən uydurmaçısan? Mən heç kəsə düşmən deyiləm... Mənim barəmdə elə düşünmə... Mənim də ailəm var. İndi məni oğlumun ruhunu şad eləmək düşündürür...

Rübabə:

— Nə ilə?

— Pulla. Mən də qəbirüstü, başdaşı qoydurmaq istəyirəm oğluma.

— Əvvəla, gələrsən, o pulu mən sənə verərəm. İkincisi də, yadında saxla, qardaş, əsassız uydurma olmur. Toxumsuz bitki göyərməz... Qatil nəyə deyirsən? Gərək əlinə tüfəng, tapança alıb kimlərisə öldürəsən?. Qəflətən qayadan itələyib dərəyə uçurasan?! Bıçaq götürüb ürəyinə zərbə endirəsən?!. Xeyr.

— Qızışma, Rübabə. Mən dünyanı səndən yaxşı tanıyıram. Ağzına gələni, gözünə görünəni mənə yaxma. Adam öldürmək! Bu sözü bir az da ucadan de.

— Bəli! Başında qaragüruh ideya gəzdirirsənsə, oturub-durub kiminsə ölümünü arzulayırsansa da qatillikdi. Ən böyük cinayətkarlıqdı. Məni başa sal görüm, Ümidin oğlunun ölümün-

dən nə qazanacaqsan? Heç nə! Tam əminəm ki, cızdağın çıxa-çıxa, nə vaxtsa səhvini anlayıb peşman olacaqsan.

— Sən dediklərini yuxuda görmüsən? Ya nağıllarda oxumusan? Məndə elə hünər, bacarıq olsaydı...

Viloş:

— Sənin danışdıqların mənə gülməli gəlir. Səndən yaxşı fanatik yazıçı olardı, dayı. Sənin romanların əldən-ələ gəzərdi. Dildən-dilə tərcümə olunardı. Bilirsən, onda nə qədər qazanardın? Sən peşəni düz tapmamısan.

Saleh:

— Kinayələrin üçün, bacıoğlu, sinəndən medal asmağa dəyər. Yadında saxla, bu ağıl ki, səndə var, heç vaxt nə özünü tanıyacaqsan, nə də bu əcaib dünyadan başın çıxacaq.

Firəngiz söhbətə qoşulmağa məcbur oldu:

— Bayaqdan söhbətə qulaq asıram Saleh müəllim, mənə bir şey aydın oldu ki, sən bədbəxtlərin bədbəxtisən. Ən böyük yaramazlığın odur ki, doğmalarınla düşmənlərinə, yaxşılarla pislərə, ağla qaraya fərq qoya bilmirsən. İstəyinin naminə fikirləşmədən, götür-qoy eləmədən həddi-hüdudunu aşırsan. Bu yaşda Allahını qoyub qismətini şeytandan diləyirsən. Anlamaq istəmirsən ki, şeytanın sənə verəcəyi ancaq dərd-sər olar, acı göz yaşları olar. Necə ki, çəkirsən...

Danışmağa söz tapammayan Saleh əlini stola vurdu:

— Dayanın... Məni az qaratapdağa salın. Bizim aramızda yaş vərqi var. Heç olmasa, onu nəzərə alın...

Rübabə:

— Alırıq. Bu söhbəti eləmək üçün çox götür-qoy eləmişik və belə qənaətə gəlmişik ki, düşündüklərimizi deyək, ürəyimizdə qalmasın. Ümidin oğluna xətər yetirsən, sənə qarşı çevriləcəyik. Bəri başdan işini bil.

Saleh:

— Siz mövqeyi, prinsipi olmayan adamlarsız.





Rübabə:

— Bunun mövqeyinə, prinsipinə bax ey. Başın xarab olub. Kiməsə ölüm arzulamaq dəhşətdir. Ağlıma sığışdıra bilmirəm. Hələ fitva vermək, cavan adamları başdan çıxarmaq. Yaramaz fikir başda doğursa, o baş kəsilmirsə, budu deyirəm, gec-tez o ideyanı həyata keçirmək təşəbbüsü də olacaq. Bil ki, cinayət baş versə, kriminalistlər birinci səndən başlayacaqlar.

— Bəh.. Bəh... Ayə, mənim bacım əsl kriminalistdir ki? Xəbərim olmayıb.

— Bəli! Kriminalistəm. Ancaq səndə kişilik yoxdu...

— Mənə nə olub?

— Kişiliyin olsaydı, atıb kəsməkdən, qisas almaqdan danışmazdın.

— Ayə, mənim bacım hardan belə ağıllanıb, hə?

— Danışıqlarına görə səni o qədər çək-çevirə salacaqlar, özün çaşıb, ya da bezib həqiqəti ortaya qoyacaqsan.

— Sağ ol səni, Rübabə. Ağız, sən həqiqi mənada hüquqşünassan...

— Kinayəni yığışdır. Sənə bir gəliş gələrəm...

— Oyy... Hədəyə bax ey.

— Ay yazıq, bu yaşa gəlmisən, hələ də qanmırsan ki, bir qələt eləsən, hüquq işçiləri birinci danışdıqlarını, əməllərini tutuşduracaqlar. Gedib-gələn nəfəsini araşdıracaqlar. Qorxuram, bizi də sənə qatsınlar. Əlaqələrimizdə yaxınlıq görsünlər.

— Hə... Belə de... Bu da doğmaca bacı... Düşmən süfrənin qırağında imiş ki?

Viloş:

— Anamın dediklərinə mən də inanıram. Cinayətkar əməllərinin, yöndəmsiz düşüncələrinin peşmançılığını nə vaxtsa çəkəcəksən. Ayə, ürəyimizi çatlatma.

Rübabə dedi:

— Mən nə düşünürəm, onu da deyirəm.

— Sənin düşüncələrin quran ayəsidi?

— Bax işinə, sən ailəni zülmə salacaqsan. Onların talelərini korlayacaqsan. Arzularını ürəklərində qoyacaqsan.

— Ayə, siz nifrinsiz... Bayquşsuz. Yaxşı şeyləri qoyub, pis şeylərdən danışırsız.

— Darıxma, özünü intihar həddinə çatdıracaqsan. Bu sənə lazımdımı? Hər bir kişi qadınına sipər çəkməlidi. Qadınına hörmət eləməyən, onun sağlamlığının qayğısına qalmayan kişinin Allahından xoşbəxtlik ummağa haqqı yoxdu. Hər bir kişi ailəsinə ürək bağlamalıdı. Sən neyləyirsən? Oğlunu itirən anaya əlavə dərd-sər gətirirsən. Sən bir kişi kimi arvadını da dəyərləndirə bilmirsən. Sevginin də, məhəbbətin də ömrü var. Düşün, kim bu dünyaya ikinci dəfə gəlib? Heç kim! Mən də, sən də, o da...

Saleh:

— Mənə moizə oxuma. Mənim öz ağlım, öz düşüncəm, öz yaşam tərzim var.

Viloş:

— Hay... Hay!.. Bu yaşda adama nə deyəsən? Get yaşa. Ancaq şərini bizdən uzaq elə, dayı!

Rübabə:

— Sözümü dedim... Məni narahat eləyən ata-anamızın ruhlarıdı. Qəbirdə də olsalar, onların ruhları narahatdılar.

Rübabə danışdıqca Saleh onun gözlərinin içinə baxıb qəzəblənirdi. O, birdən ayağa qalxdı. Qapıdan çıxanda dedi:

— Əclaflar!.. Mən yumşaq danışdıqca, bu qeyrətsizlər, arsız-arsız necə də kükrəyirlər?..





## Müstəntiqlə görüş

İstintaq işini başa çatdırmayan, tez-tez səhlənkarlığına vələngliyinə görə prokurordan minnət götürən müstəntiq günün birinci yarısında Sərxanı, ikinci yarısında Salehi, işin sonunda isə Ümidi kabinetinə çağırtdırıb əvvəlcədən hazırladığı suallar əsasında əməlli-başlı sorğu aparmaq qərarına gəldi və niyyətini də prokurora açıqladı.

Prokuror müstəntiqi müəmmalı şəkildə ayaqdan başa süzdü. Onun dediklərindən ağlı bir şey kəsməyib astadan dedi:

— Ölü yiyələrini çağırtdırmaqda məqsədin nədi?

— Sizdən nə gizlədim. Onlarda ilişki axtarmaq.

— Başa düşmədim.

— Burda başa düşülməyəcək nə var ki, cənab prokuror? İstənilən adamı çağır, səsini qaldır, qəflətən sual ver. Çaşıb, hər dolaşıq şeyi acıb deyəcəklər. Bilirsiniz ki, peşəkar hüquqşünasın da vəzifəsi sözdən söz çıxarmaqdı. Çıxardığının da quyruğundan tutub daha dərinə nüfuz eləməkdi. Ola bilməz ki, bu, hüquqşünası daha əcaib cinayət sirrlərinin üstə aparıb çıxarmasın. Çıxardısa, cənab prokuror...

— Ayə, mən ölü sahiblərini deyirəm, niyə çağırırsan?

— Onların başını bir yolla xarab eləyib Ümidin üstə salacağam. Onda Ümid çəkinəcək. Özü məzənnəni qaldıracaq.

— Deyəsən, başın işləyir... Elə elə ki, zurnanın səsi aləmə yayılmasın. Qaş qayırdığın yerdə göz çıxarmayasan... Ehtiyatlı ol.

— Narahat olmayın.

Müstəntiq prokurorun kabinetindən sevincək çıxıb otağına gəldi. Qəza sənədlərini, şahidlərin izahatlarını, həkimlərin qoyduqları diaqnozları və valideynlərə verəcəyi sualları bir də nəzərdən keçirdi, nədən, necə başlayacağını götür-qoy elədi və tə-

səvvüründə sistemləşdirdi. Sonra da telefonun dəstəyini götürüb nömrələri yığmağa başladı. Danışıq alınmadı. O, dəstəyi qaytarıb yerinə qoydu... Elə bu vaxt qapı əvvəlcə döyüldü, sonra azacıq aralandı. Qapı ağzında yasdan hələ də qurtarmayan Sərxan göründü. Müstəntiq dərhal: — Hə, gəl, qapı ağzında dayanma, — dedi və ona oturmaq üçün stul göstərdi. Sərxan əyləşdi. Handan-hana, ağır-ağır soruşdu:

— Eşidirəm, müstəntiq. Məni çağırtdırmısız?

— Hə... Sərxan, sən bilirsən ki, Ümidin oğlu o boyda qəza törədib. Cinayət eləyib. Hələ də xəstəxanada yatır. Biz bilirik, onun oğlunun niyə bu qədər müddətə yatırtdırıldığını. Siz də oturmusuz evdə. Qısılmısınız abrınıza. Giley-güzar eləmirsiz. Şikayət məktubu yazmırsınız?

— Nə giley-güzar, nə şikayət, müstəntiq? Qəsdən qəza törədilməyib ki, mən də gedib yapışım Ümidin yaxasından. Deyim, düşmənimsən. Mənə olan-olub. O da cavan oğlandı. Gəldim, sizə deyim: yola verin, getsin... Bizimkilər bədbəxt oldular, heç olmasa, o...

— Nə? Ayə, sənin başın xarabdı, yoxsa, gedib utanmaz-utanmaz Ümidlə qan alverinə oturmusan? Pulu alıb, basmısan cibinə. İndi də mənim gözlərimə kül üfürürsən? Məni belə araya qoyursan? Eyyub sənin oğlun olsa da, qanmalısan, o bu ölkənin vətəndaşıdı. Vətəndaşın ölüsünün də, dirisinin də hüququ var. Biz də o hüququn qoruyucularıyıq. Qanırsan?!

— Müstəntiq, sən nə danışdığını bilirsən? Ayə, nə pul? İzah elə görüm...

— Qan haqqı!

Sərxan dayandı. Əvvəl danışmağa söz tapa bilmədi. Bütün bədəni əsdi. Sonra dedi:

— Necə fikirləşirsən, müstəntiq? Deyirsən, aldığımdan gətirib sənə də verim? O, mümkün deyil. Ağlını başına top elə. Sən dədən öləndə, anan dünyasını dəyişəndə molladan savayı kimsəyə hüquqlarının təminatı ilə bağlı bir şey-mey vermişdin?

— Məni dolamısan?

— Yox, müstəntiq. Sən özün özünü dolamısan.

— Ayə, kiminlə nə danışdığını yaxşı bil.

— Bilirəm, müstəntiq. Sən mənim qan alveri elədiyim məlumatı kimdən almısan?

— Onu deməzlər.

Sərxan səsinə ara verdi:

— Lap yaxşı. Mən də gedib yuxarılara yazacağam ki, müstəntiq ata-anasını özü qətlə yetirib. Sonra da xəlvəti dəfn elətdirib.

— Nə? Necə dedin? Ona sübut lazımdı. Yoxsa, səni böhtançı kimi...

— Həəə... Elə sən də mənim qan alverimi sübut eləməlisən, müstəntiq! Ümiddən soruşacaqlar, deyəcək: müstəntiq böhtan atır. Bununla da sən ağrımayan başına yaş dəsmal bağlamış olacaqsan. Mənim dediklərimin sübutu bir qədər çətin olacaq, müstəntiq.

— Necə?

— Çünki sənin ata-ananın goru açılmalıdı. Meyit məhkəmə ekspertizasına getməlidi. Sən də gedib həkimlərə yığdıqlarından verməlisən. Düzmü deyirəm?

Müstəntiq Sərxanın üzünə baxdı, sonra soruşdu:

— Ayə, sənətin nədi?

— Müəllim.

— Ayə, bunu bayaqdan de də. Biz müəllimlərə hörmət eləyirik. Mənim də atam-anam müəllim olublar.

— İnanıram, müstəntiq. Ancaq müəllim ailəsindən əmələ gələnə oxşamırsan... Həqiqəti öyrənmək istəsən, "De-en-te" analizi də verə bilərsən... Mən gedim... Öz işimlə məşğul olum.

Sərxan ayağa qalxıb getmək istəyirdi ki, müstəntiq arxadan qışqırdı:

— Sərxan... Sərxan... Zarafat eləyirəm.

— Amma mən zarafat eləmirəm, müstəntiq.

Sərxan kabinetdən əsəbi çıxdı. Müstəntiq öz-özünə dedi:

— Bu nədi, əə? Müəllimlərdə belə fantaziya... Nə desən olar...

Gün günortadan əyilmişdi. Müstəntiq yumşaq kreslosuna yayxandı. Salehin tüklü başı içəri soxuldu. Müstəntiq onu görən kimi dedi:

— Gəl, gəl, bayaqdan səni gözləyirəm. Otur.

Saleh əyləşdi və dərhal da donquldanmağa başladı:

— Cənab müstəntiq, əcəb paza keçmişik.

— Paz nədi, əə?

— İt oğlu ikicə dəfə bizə gəlib-gedəndi. Dilindən qıfıl götürülmür ki... Al bunu, qoy cibinə. Dalını da sonra eləyərəm. Nə qədər təzyiqi qaldırıram, qardaş canı, oğraşa heç təsir eləmir.

— Demək istəyirsən ki, ondan ala bilməmişəm, sənə də verəmməyəcəm? Boş-boş danışıb, qanımızı qaraltma, Saleh. İndi mən gedib cənab prokurora...

— Əşi, keçmədiyim dəlmə-deşik qalmadı. Hətta doğmaca bacımla, oğlu Viloşla düşmən olmuşam. İstəyirsiniz, indi də Ümid it oğlunu gedim öldürüm?

— Ayə, kəs, bizi zibilə salma... Gündə narkotika alveri eləyirsən. Onda yığdıqlarından gətir.

— Əşi, onu da keçən həftə... Nə qədər...

— Yaxşı, Saleh, deyirsən Ümidin ağzından qıfıl götürülmür... Bəlkə gedib ona özün açasan dərdini?

— Necə?

— Deyəsən, başdaşının mərmərlərinə filan qədər, sinə daşınkına filan qədər. Sement bu qədər, qoyulması bu qədər... Nə... Nə...

— Mən onun it sifətini görmüşəm, özümüzü cırsaq da, bir şey çıxmayacaq. Bircə yolu var: təpinmək...





— Eh... Xeyirsiz oğlu xeyirsiz... Məni zibilə salma...

— Bir az da gözləməkdən savayı əlacımız qalmır. Zeynəb qarı deyərdi: “Çıxmayan cana ümid çoxdu”.

— Ayə, a Saleh, bu Ümid başqa materialdandı, ey. Gəl, malı mala qatma...

— Deyirsiz, gedim özümü öldürüm?

— Düdük, kimə kəf gəlirsən? Cibinə yazıb qoyacaqsan ki, müstəntiq məni ölümə vadar elədi, sonra da başını çatının ilgəyinə keçirəcəksən? Get işinlə məşğul ol, fərasətsiz korkəsməz...

Saleh pörtmüş halda kabinetdən çıxdı. Müstəntiq isə səbirsizliklə Ümidin gələcəyi anı gözlədi. Ümid gələndə işin sonu idi. O, kabinetə girən kimi müstəntiq ayağa qalxdı, əl verib görüşdülər. Ümid diqqətlə müstəntiqin üzünə baxdı. Müstəntiq gözlərini yayındırdı:

— Ümid müəllim, oğlunuz iki ailəni vay-şüvənə salıb, o boyda həngamə qopub. Heç vecinizə də deyil.

— Neyləməliydim ki?

— Bir get yaxınlaş, ölü yiyələrinin qılıqlarına gir. Belə olmaz axı. Saleh göylə gedir. Sərxan, elə bil, ölüb. O adda adam yoxdu. Diqqətli olsan, qiyamət qopar?

— Yox, qopmaz. Mənim əvəzimə sən niyə belə narahatsan?

— Mən narahat deyiləm, Ümid. Mən cinayət işini yekunlaşdırmalıyam. Nə özün hərəkət eləyirsən, nə də sənin sözünü deyən biri var. Prokuror da məni tələsdirir.

— O nə deyir.

— O? Heç nə. Deyir, işi yekunlaşdır. Ülfət xəstəxanada. Həkimlər də nagüman.

— Həkimlər nədən nagümandılar?

— Xərclərini ödə. Onlar da bizə cavab versinlər.

— Vermirlər?

— Yoox...

— Bəlkə belə eləyək...

— Necə?

— Kameraya bir çarpayı qoyun. Həkimlər gəlib oğlumu kamerada müalicə eləsinlər... Gözünüzün qabağında olsun. Onun sağlamlığına da özünüz cavabdeh olun.

— Bu nə sözdü, Ümid?

— Mənim pulum yoxdu. Bu söz sizi qane eləyir?

— Ayə! Ayə! Oğluna on-on beş il düşür ey.

— Düşsün də. Hər kəs öz cinayətinin cəzasını çəkməlidi. O sənə də aiddi, elə mənə də.

Danışıqlarının alınmadığını görən müstəntiq durub qapı-pəncərəni açdı, içəri soyuq hava doldu.

— Yandım, ay ana, yandım. Necə atalar varmış, — dedi.

## Getməyə yeri yoxdu

Bacısının evinin soyulub-soymaclanıb aparıldığını eşidən Kənan atasına dedi:

— Ata, bəlkə polisə bu haqda məlumat verək?

— Yoox. Hələ bilmək olmaz necə giriblər evə, nə məqsədlə giriblər. Nələri aparıblar. Əvvəl gedək görək, sonra fikirləşərik. Bu ağıl ki, bizdə var, hələ çox şeylə qarşılaşacağıq.

Ümid sonra üzünü arvadına tutdu:

— Sən də qalx, Səfurə, gedək gözlərimizlə görək..

Səfurə dərhal:

— Qızına inanmırsan? Yəni, qız yalan deyə bilər?

Ümid:

— Ora-bura çırpma... Öyrənək... Polisin də sorğu-sualına düz cavab verək. Hərəmiz bir şey danışsaq, özümüz zərbə altında qalarıq. Adımızı böhtançı qoyarlar.

— Kişi, ikibaşlı danışma. Adam öz evindən də...

— Hə, arvad, o qədər olur.





Ərinin istehzasını Səfurə anladı. Ancaq sözü çevirmədi. Ər-arvad, bir də oğul tələm-tələsik evdən çıxdılar, taksiyə əyləşib birbaşa hadisə yerinə gəldilər. Ev onbirinci mərtəbədə idi. Onlar içəri girəndə qızı Əzizə, əri Cəlal, qayınatası Pənah, qayınanası Sona, qaynı Sadiq və baldızı Zöhrə evdə idilər. Hərəsinin ağzından bir avaz gəlirdi. Əzizə göz yaşlarını saxlaya bilmir, hərdənbir də hönkürürdü. Çox çəkmədi ki, söhbət mülayimləşdi. Hətərən-pətərən danışıqlar ötüşdü. Ümidlə Kənan evdən oğurluq olunması söz-söhbətinə özlüklərində inanmadılar. Ümid çox sakit və təbii halda Kənanın üzünə baxdı. Atasının baxışının mənasını duyan Kənan kipriklərini ustufca qaldırıb-endirdi. Beləcə ata və oğul eyni nöqtə üzərində tam qərarlaşdılar. Bu hadisə Səfurəyə də müəmmalı göründü. Ancaq ağzını açıb bir söz deyə bilmədi. Ümid qudalarından soruşdu:

— Qapıda, pəncərədə izlər varmı? Gələn vardısa, mütləq izləri qalmalıdı.

— Yoox, pəncərədən gələ bilməzlər. Dirənişəcək yer yoxdu.

— Qapıdan necə?

— Güman eləmirəm.

— Evdən daha nələr gedib?

Əzizə sıxıla-sıxıla dedi:

— Qəribədi, qızıl-mızıllarım yerindədi.

Kənan özünü saxlaya bilməyib:

— Bacı, onda belə çıxır ki, oğru təkcə anamın sənə verdiyi pul üçün gəlibmiş, hə? Əcəb işdi.

Qayınata atıldı:

— Bacın pulu qoyduğu yeri bilməli idi. Evə pul gətirir, onu da hamıdan gizlin saxlayır. A bala, bacın bu evin gəlinidi. Oturub-durduğunu bilməlidi. Belə olmaz. İndi hamımız ilişmişik. Zeynəb qarı demişkən: “Mal bir yana, iman min yana”. Hamı özlüyündə fikirləşir ki, yəqin, gəlin oğurluğu bizdən görür. Bəl-

kə yalan deyirəm, a Ümid?

Ümid ağır-ağır cavab verdi:

— Yox, yalan demirsən. Burda, yəni sizin aranızda pul oğurlayası adam yoxdu. Axı, kim özü özündən oğurluq eləyər? Heç kim. Mən güman eləyirəm ki, qızım pulu harasa qoyub, yerini unudub. Pul bu evdədi. Bu qapıdan çıxmayıb. Səbr eləyin. Səbr Allahın adıdı. Çıxacaq üzə. Zeynəb qarı demişkən, oğurluq qırx gün gedir. Sonra tırım-pırım olur.

Kənan Səfurəyə dedi:

— Ana, yığışın gedək. Bizim dərdimiz özümüzə yükdü.

Kürəkən sinəsini qabartdı:

— Ümid dayı, biz ölməmişik ki, müstəntiqin qabağına sən çıxasan. Darıxma... İmkan ver, paltarlarımı geyinim.

— Yox, a bala. Hər şey aydındı. Belə şeydə önəmlisi gücdü. Güc də adamdı, puldu. Tutarlı, məntiqli sözdü.

— Sözdən-adamdan qorxma. Əgər onlar sənin qabağına general çıxarsalar, mən onların qənşərinə geniralissimus itələyərəm. Bir balaca xərci olacaq.

— Hə... O zəhrimar indi məndə də yoxdu. Vardı, keçildi dalına... Budu deyirəm, pulla oyun olmaz.

Bayaqdan içində səsini boğan Sona qarpız kimi partladı:

— Ümid, qızın pulları yerinə qoymasa, onu da qoşacağam anası Səfurənin yanına.

Cəlal:

— Ana, bəsdi. Gəlinlə elə kəskin rəftar eləməzlər.

Sona:

— Bayaq falçı Fatmaxanımla görüşdüm. O, fal açdı. Dedi: "Oğru gəlininlə qudan Səfurədi".

Zöhrə:

— Ooy... Bu məhkəməlik işdi ki?

Səfurə söz-söhbətin öz üstünə gələcəyini hiss eləyib qabaqdangəlmişlik elədi:





— Bayaqdan dinmirəm, danışmıram, ağzımı açdırmayın, pul indi tapılmasa özüm polisə telefon açacağam. Hətta bura it də gətizdirib sizi bircə-bircə imsilətdirəcəyəm.

Sadiq:

— Sağ ol səni, Səfurə xala... Kor kora kor deməsə, bağrı çatlar.

Səfurə:

— Zeynəb qarının sözlərini təkrarlama. Öz sözünü de.

Pənah:

— Zeynəb qarını ortaya atıb bizi hədəfdən yayındırma... Polis gələr, açaram sandığı, tökərəm pambığı. Nə var, qoyaram ortaya.

— A bala, nə yatmışam, nə yuxu görəm. Elə atmacaları hamıya yapmaq olar...

Pənah:

— Həəə?..

Zöhrə:

— Oğurluğun əvvəli, axı, sizin evdə baş verib Səfurə xala. Çox güman ki, Ümid dayının pulları da bura gəlib. Nə yaxşı ki, özləri də inkar eləmirlər... Pul quş deyil ki, sizin evdən uça bizim evə qona. Deməli, burda bir yol var. Əvvəl Səfurə xala pulu ərindən oğurlayıb qızına verib. Saxla deyib. Görünür, indi də sizə pul lazım olub. Sən də Əzizəyə həmin pulları geri qaytartdırmısan. Pul səninlə qızındadı, Səfurə xala, Zeynəb qarı yaxşı deyib: "Anasına bax, qızını al".

Kənan Sadiqə astadan dedi:

— Biz bura dava-şava və yaxud təhqir olunmaq üçün gəlməmişik. Qaldı sizin ailəyə münasibətə, onu özünüz bilərsiniz.

Sona:

— Səfurə xanım bu ailənin işinə qarışmasa, bizim evimizdə qızına ərlik dərsi keçməsə, dünya qopar? Nə iş görürüksə, Səfurənin barmağı ordan çıxır. Qız anasısan, bacım, çəkil otur yerin-

də də. Biz acından ölürük? Biz dolanmırıq? Ərinin pulunu gətirib niyə qızına verirsən? Sonra da bizi düşmən eləyirsən?

Səfurə:

— Ağız, bəsdi. Sən danışanda ürəyim qalxır.

Cəmil:

— Sağ ol səni, qayınana...

Pənah üzünü Ümidə tutdu:

— Burda deyiblər: "Arvad yıxan evi Allah da düzəldə bilməz".

Səfurə:

— O da Zeynəb qarının sözüdü.

Ümid əsəbiləşdi:

— Əşi, hər kimindi. İmkan ver, kişi danışsın.

Səfurə:

— A kişi, bu nə danışıqdı, sən də keçdin qudalar tərəfə?

Cəlal:

— Obyektivliyinə görə bu Ümid dayını çox istəyirəm də.

Əzizə:

— Bəsdi, əə. Ətimi tökmə...

Sona üzünü Ümidə tutdu:

— Ümid qardaş, biz sevinirik ki, sizin kimi adamla qohumuq. Bizim evimizə ayaq basırsız. Bu Səfurə niyə başa düşmür ki, əlli dərənin suyunu qarışdırmaqla ər evində qız oturtmaq olmaz. Biləsiniz ki, bizdən pul oğurlanmayıb. Bu oyunu mən düzətmişəm. Sizə çatdırım ki, vəziyyət necədi. Buyurun, pulunuz şkafdadı.

Hamı məəttəl qaldı.

Ümid:

— Qoyun qalsın, Sona bacı. Səfurə qızına verib. Axı, o anadı.

Sona:

— Yox, götürün.





Ümid:

— O pul Əzizənindi. Qurtardıq.

Sona acıqlı-acıqlı Səfurəni süzdü. Bunu hamı gördü.

Səfurə:

— Bəs, deyirdin Fatmaxanıma fal açdırmısan?

Sona:

— Açdırdım, nəticəsi də səni ifşa etmək oldu. Mənim gəlinimin başını xarab eləmə. Bu gün bir, sabah iki, o da sənin yoluna ayaq qoya bilər. Bütün dünya od tutub yanır. Qitələr qarışıb bir-birilərinə. Niyə mənim gəlinim oğlumu başdan eləyib bu qitə mənim, o qitə sənin aparır. Adını da qoydurursan istirahət... turist... Budu deyirəm, sənin evindən oğurluqlar çox olub, Ümid qardaş.

Sona oturduğu stuldan qalxdı, bu dəfə şkafın aşağı gözündən pulları götürdü. Hamının gözləri böyüdü.

— Bu pullar da sənindi, Ümid qardaş.

Ümid arvadının üzünə baxdı. Səfurə susdu.

Qapıdan çıxanda Kənan anasına dedi:

— Sən hara gedirsən? Bundan sonra atamla...

Ümid:

— Dəymə, qoy gəlsin. Getməyə başqa yeri yoxdu, oğlum. Bir də ki, hər necə olsa, o, sizin ananızdı.

## Telefon zəngi

Kənan evə gələndə hava qaralırdı. Şəhərin küçə və evlərindəki elektrik lampalarının işıqları yanır, hər tərəf çıraqbana bürünürdü. Onu evdə anası Səfurə gülərüzlə qarşıladı və sonra astadan dedi:

— Gəl, otur, bir stəkan çay verim, iç. Özün də elə bil, pilləkənləri pay-piyada çıxmısan.

— Hə... Lift işləmir. Pilləkənlərlə qalxanda adam təngnəfəs olur.

— Heç işləyən günü olmasın. Dəqiqəbaşı sınır. Arvad-uşaq içində qalır. Mən, demək olar ki, daha ondan istifadə eləmirəm. Fikirləşən yoxdu ki, sakinlərdən xəstələr, ayağı yer tutmayanlar var. O gün də atan gəlib qalıb aşağıda gözləyib liftin nə vaxt düzəldiləcəyini.

— Yaxşı, atam hardadı?

— Öz otağında uzanıb. Qəribə adamdı, nə vaxt gedirsən, görürsən, bu yaşda kitab oxuyur. Kitab onun nəyinə lazımdı?

— Sataşmadığın bircə atamın kitab oxumağı qalmışdı. Axır ki, onu da dilinə gətirdin. Ülfətin törətdiyi qəza onu çox sarsıdıb. Mən deyərdim, lap belini qırıb yazıq kişinin.

— Heç vecinə də deyil. Qəlbində ata istəyi olsaydı, o da müstəntiq, polis dalınca düşərdi. Vəziyyət necədi, bizə də deyərdi.

— Ay ana, sənə nə deyəcək? Yaman gün üçün topladığı ehtiyatı heç kəslə razılaşmadan yığdın verdin qızına. Əri ilə göndərmək istədin istirahətə. Gedin, sağlamlığınızın qeydinə qalın, özünüzə baxın, — dedin. Onda heç xəstə oğluna pul lazım olacağını düşündünmü? Allaha qurban olum, Sona da açdı paxırını. Sən atama həmişə xəyanət eləmisən. Gah kənddə qohum-əqəba saxlamısan. Toylarını eləmisən, cehizlərini almısan. Qış azuqələrini təşkil eləmisən. Gah da atamın pulları ilə işə düzəltmisən. Açığı budu, atamın əvəzinə başqa kişi olsaydı, sənin başını kəsərdi. Sən xəyanət eləmisən. Oğrusan... Atam yenə güzəştə getdi sənə. Görürəm, yığışmamısan.

— Səni Ümidmi qızışdırıb?..

— Yox... Sən əməlli-başlı çaşmısan, başını itirmisən, ana. İndi də atamı məcbur eləyirsən ki, evi girov qoyub bankdan kredit götürsün. Sabah krediti ödəyə bilməsək, ev nə olacaq? Bu barədə düşünmüsənmi? Fikrin ailəni çöləmi atmaqdı? Adamları





bizəmi güldürməkdi? Sona şkafdan Əzizəyə verdiyin pulu çıxaranda, sənin evdən oğurluğunu sübut eləyəndə mən öldüm. Yer yarılmadı ki, yerə girim. Bir də sənin o günə düşdüyünü görməyim. Görürəm, hərəkətlərindən əl çəkməmisən...

— Əşi, kəs səsini... Bir qızdı... kəsikdi. Qardaş da bacıya gözdarlıq eləyər?

— Özünə haqq qazandırma. Bəs, ana evindən, ərindən oğurluq eləyər? Atam bacıma az qayğı göstərməyib. İndi neyləməlidi? Bacımın evi, ailəsi var. Zəhmət çəksin... Qaldı atam... Mən atamla fəxr eləyirəm. Anam olsan da, deyirəm, onu az çərlət. O, sənin ərindi. Həyatını sənə sərf eləyib. Elə vəziyyət yaratmısan, kişi neylədiyini bilmir.

— Kənan, mənimlə Ümidin arasına girmə. Sənə oğul deməfrəm.

— Sənə ərköyün qızın da bəs eləyər. Mən sənə imkan verməfrəm ki...

— Sadiq iş görmək istəyir, əli boşdu. Buna nə deyirsən?

— Kredit götürsün... Bəyəm, atam qızını ərə verəndə, onu maliyyələşdirəcəyini də üstünə götürüb? Axı, o, indi işləmir, təqaüddədir. Təqaüddə olan adam pulu necə ödəsin?

Səfurə əsəbiləşdi:

— Bu nə söhbətdi, Kənan, ananla eləyirsən? Hər ikiniz mənimsiniz. Acınız acım, şirininiz şirinimdi.

— Bəs atam? Axı, pulu o qazanıb. Hes olmasa, məsləhət eləyəydin?

— Nə məsləhət eləyəcəkdim? Qız onundu da, mənimdi də.

— Kor tutduğunu buraxmayan kimi yenə oğurluqlarını, xəyanətlərini, daha doğrusu, cinayətlərini boynuna almaq istəmirsən. Bu, eybecərlikdi. Mən istəmirəm, ana. Sənin kimi düşünəsi olsaydım, onda sənə deməliydim ki, qızına, kürəkəninə hədiyyə elədiyin pulda bu gün can üstə olan qardaşım Ülfətin də, mənim də payım var. Yazıq kişi pulsuzluğun ucbatından xəstəxanada

Ülfətin, həkimin, tibb bacısının üzünə görünə bilmir. Sən bütün hədləri aşmısan. İndi də atamın iki ayağını bir başmağa soxmağa çalışırsan. Yazıqdı atam. Hiss eləyirəm ki, o, cana doyub. Xəstədi. İctimai qınaq qorxusundan kimsəyə yaxınlaşa bilmir. Saleh ondan pul istəyir. Müstəntiq "Gəl", — deyir. Prokuror da o söz. Atam necə desin ki, arvadım pulumuzu oğurlayıb. Bizi pis günə qoyub. Əl-ayağımızı kəsib.

— Bayaqdan sənin dediklərinə dinib-danışmadan qulaq asıram. Əvvəl-axır mən bunu sizə bildirməliydim: atan mənimlə könülsüz ailə qurub. O, evdə mənimlə idi, çöldə isə... Hərdən aramızda narazılıqlar da olurdu. Axırda da mən — iki qardaş, bir bacı — sizin üçün ona güzəştlərə getməyə məcbur olurdum.

— Yalan deyirsən, gözlərinin içinə qədər... Atamın səndən narazılığını nə ilə sübut eləyə bilərsən?

— Evə əsəbi gəlirdi. Haralarda olduğunu demirdi. Gündəlik əlaqədə olduğu adamlar barədə ondan bircə söz eşitmirdim. Elə hey yorğun-arğınlığından şikayətlənirdi.

— Elə bu?

— Bunlar azdı?

— Atam sənə xəyanət eləyibmi?

— Kişilərə nə var?

— Sualıma düz cavab vermədin. Varsa, konkret adlarını de.

— Mən nə bilim? Sən müstəntiqsən?

— Təsəvvür elə, hə... Sənin danışdıqların gördüyün çirkablı işləri ört-basdır eləmək üçün həm kifayət eləmir, həm də bir bəhanədi... Şərdi... Böhtandı... Bunun üçün Allah qarşısında da günahkarsan... Təkrar edirəm, mən bundan sonra sənə imkan verməyəcəm ki, atamı çərlədəsən. İndi anlayıram ki, qızın Əzizəyə də ləyaqətsiz dərs vermisən. O, səndən dərs almasaydı, atamın min bir çətinliklə qazandığı pulları səndən almazdı. — Bu pullardan atam xəbərdardımı — sualını sənə verərdi. O, atasına hörmət eləməli idi. Unutma ana, Əzizə də, sən də bu hərəkətlərinizlə atam Ümidə də, qardaşım Ülfətə də, elə mənə də tüpürmüsünüz. İndi məni başa sal görüm, atamla necə üz-üzə gəlirsən? Bu evdə hansı üzlə yaşayırsan? Yeri gəlib, deyəcəyəm. Atam sənin oğurluğundan agah olandan sonra hər gün çalxalanır. O, yaşamır. Günlərini sayır. Bunu da deyəcəm: mən oğulam, sən ana! Atam hardan bilsin ki, sən ona qadın kim də xəyanət eləməmisən? Axı, sən dedin: "Atan məni sevməyib". O, səni "sevmir" kimi düşünmüsənsə, deməli, xəyanət barədə "çox götür-qoylar" eləmisən. Sən atamı inandıra bilərsənmi ki, xəyanət eləməmisən? Xeyr! Xeyr! Qızını oğurluğa, xəyanətə öyrədən qadından əməli-saleh ana olmaz.

— Dinmirəm, danışmıram, çox şeyə susuram, ayağın yer almasın, Kənan. Mənim yeganə niyyətim övladlarımı xoşbəxt eləməkdi.

— O bir çox anaların arzusudu. Ancaq bu arzu ərə, oğula tüpürmək xatirinə olacaqsa, o qadın hər cür lənətə layiqdi.

Səfurə özlüyündə oğlunun ağzını yummaq istəyirdi ki, telefon zəng çaldı. Dəstəyi Səfurə götürdü və qızının səsini dərhal tanıdı.

— Hə, eşidirəm, sözünü de.

Qız ağlamsına-ağlamsına:

— Sona o qədər danışdı, axırda evimizi həqiqətən apardılar.

— Nə vaxt?

— Biz işə gedəndən sonra.

— Elə Sonanın işi olacaq.

— Yoox. Bu söz ağızdan çıxsa, Sona məni qovub evdən çıxaracaq. Evimizi silib-süpürüb aparıblar. Qızıllarım da, paltarlarım da gedib.

Səfurə çaşdı. Nə deyəcəyini bilmədi. Qeyri-iradi olaraq:

— Deməli, hamısını?

Kənan:

— Deməli əlli min də getdi. Hələ üstəlik...

Səfurə — Vay, Allah öldüm! — deyib saçlarını yolmağa başladı. Yan otaqdan səsə Ümid çıxdı və Səfurənin təəccüblü hərəkətlərini, Kənanın susqunluğunu görüb sadəcə olaraq, onları süzdü. — Gəlirəm, danışarıq, — deyə Səfurə dəstəyi yerinə qoydu. Araya ani sükut çökdü. Handan-hana Səfurə dedi:

— Bu qədər dedi-qodudan sonra o puldan xeyir görmək olar? Elə bil, qızın əlinin üstə it hürüb. Yandı, hamısı yandı...

Ümid:

— Bu, belə də olmalıdı. Yoğurmadan-yapmadan hazırca kökə olmaz.

Kənan:

— Zeynəb qarı yaxşı deyib: "Oğrudan oğruya halaldı". Qaldı anama...

Ümid üzünü arvadına tərəf döndərdi:

— Bu, Allahın verdiyi dərsdi... Xəyanət xəyanət gətirər. Gözlərinin qorasını az tök, arvad. Hələ sənə o qora çox lazım olacaq.

## Nişan üzüyü

Ülfətin qəza törətdiyi vaxtdan Əfsanə özündə deyildi. Oturub-durub Ülfət barədə düşünürdü və onu da bilirdi ki, iki nəfərin ölümü istər-istəməz, türməsiz ötüşməyəcək. O, cəzalandırılacaq. Ən azı səkkiz-on il türmə həyatı yaşayacaq. Buna baxmayaraq, Əfsanə canı qədər sevdiyi Ülfətin nə vaxt xəstəxanadan çıxacağı günü səbrsizliklə gözləyirdi. O, hər gün xəstəxanada tibb bacısı işləyən rəfiqəsi Günəşdən Ülfət barədə məlumatlar alır, özü sözlərini də ona həmin bu qız vasitəsilə çatdırırdı. Günəş deyəndə ki, Ülfətin vəziyyəti getdikcə ağırlaşır, ağrı-acıları artır, yemək-içməyə həvəsi azalır, arıqlayıb əldən düşür, onda elə bil, Əfsanənin ürəyi qırılıb ayaqları altına düşdü...

Ülfətdə son vaxtlar yaranan yuxusuzluq, hal aparmalar, özözü ilə necə gəldi danışmalar da baş verirdi. O, hərdən Əfsanənin adını çəkir, onunla üzbəüz oturub danışırmış kimi, bəzi gözlənilməz ifadələr də işlədirdi: "Əfsanə, sən çox gözəlsən; bağışla, mən səni xoşbəxt eləyə bilmədim; mən istəməzdim sevgi tellərini qıram; əzizim, sən xoşbəxt olmağa layiqsən; sənin ümidlərini yerlə-yeksan elədim; gərək belə olmayaydı...". Ülfətin işlətdiyi bu və buna bənzər ifadələri hər gün Günəş Əfsanəyə çatdırırdı. Əfsanə Günəşi sonacan dinləyir, bəzən də göz yaşları axıdır, sarsıntılar keçirirdi. Yanıb yaxılırdı. Axır ki, qız dözə bilmədi və belə qərara gəldi ki, gedib Ülfətlə görüşsün, qəmlərini, qüssələrini, kədərlərini bölüşsün. Ülfətə çatdırsın ki, sən xəstə olanda, aldığın cəzanın ağır-yüngülündən, səhhətinə təsirindən asılı olmayaraq, gözlərimdə, ürəyimdə, ruhumda zərrə qədər dəyişiklik olmayıb. Sözümüz sözdü, məni səndən heç bir qüvvə ayıra bilməz...

Əfsanə çox düşündü, çox götür-qoy elədi və belə qərara gəldi ki, axşam adamlar çəkiləndən sonra Ülfətin yanına getsin, onunla görüşsün, hal-əhval tutsun. İstəklərini, arzularını onunla bölüşsün. O, düşündüyü kimi də elədi...

Əfsanə axşam qaş qaralanda xəstəxanaya getdi. Onu qapı ağzında Günəş qarşıladı. Üçüncü mərtəbəyə qalxıb dəhliz boyu axıra qədər getdilər. Otuz dördüncü palataya daxil oldular. Geniş və işıqlı palatada iki çarpayı qoyulsa da, orda yalnız Ülfət yatırdı. Dolabçanın üstündəki güldanın içində təzə-tər güllərin ətri otağı bürümüşdü. Ülfət Əfsanəni görən kimi başını balıncdan qaldırdı.

Günəş gülümsünə-gülümsünə dedi:

— Ülfət, gör səninlə görüşə kimi gəlib? Əziz rəfiqəm.

Ülfət özünü itirdi. Handan-hana zəif səslə dedi:

— Əfsanə...

Əfsanə salam verib irəli gəldi. Ülfət əlini sinəsinin üstündən qaldırıb Əfsanəyə sarı uzatdı:

— Xoş gəlmisən... Gəlişini gözləmirdim, Əfsanə.

— Yoox... Bağışla məni, Ülfət. Əvvəl gəlməyə cəsarət etmədim. Fikirləşdim ki, sağalıb tez ayağa qalxarsan.

— Hə... Çox yaxşı oldum. Özüm də bərk darıxırdım.

— Darıxarsan da... Həmişə gəzən, bir yerdə qərar tutammayan Ülfət çarpayıda...

Günəş:

— Tələsmə, Ülfət. Xəstəxana insanlar üçündü. Siz Əfsanə ilə söhbət eləyin. Mən kabinetdəyəm.

Əfsanə Günəşə:

— Təşəkkür eləyirəm, — dedi.

Ülfət:

— Hər anım Günəşin qayğısı altındadı.

Günəş:

— Yaxşı... Yaxşı... Mənim əməyimi az şişirt.

Günəş otaqdan çıxdı. Əfsanə Ülfətin gözlərinin içinə baxdı. Baxışlar toqquşdu. Ürəklər titrədi. Hisslər susdu... Əfsanənin gözlərində dumduru gilənənən yaş yanaqlarına süzüldü. Ülfət səsi titrəyə-titrəyə qızın göz yaşlarını sildi. Əfsanə ilk dəfə qeyri-ixtiyari olaraq oğlanın əlini əlinə aldı, sığalladı. Sonra da barmaqları ilə saçlarını daraqladı. Ülfət bu ani nəvazişdən, az qala, özünü itirirdi. Hiss eləmədən dodaqları arasından zəif pıçıltılar qopdu: Əfsanəm... Əzizim... Sənsiz, bilirsən nə qədər darıxmışdım... İndi yanımdasan, sanıram dünya mənimdi... Baş verənlərə heyfslənirəm. Hər şey bir göz qırpımındaca yuxulu-yuxulu baş verdi. Heyf... Çox heyf; dostlarımı itirdim. Az qala, səni də itirəcəkdim, əzizim. Onda necə dözəcəkdin?..

Əfsanənin gözləri doldu.

— Baş verənlər məni də sarsıtdı. Yanıb-yaxılıram. Sonra da düşünürəm, Ülfət, bunu sən qəsddən eləməmisən ki? Elə şeylər var, insanın özündən asılı olmur. Deyirlər, tale, qismət də var.

— Hə... Əzizim, dediyin bu sözlər təskinlik üçündü. Kəllə-





mayallaq da var. Özü özünə eləməyənə kimsə eləyə bilməz. Mən özümlə birlikdə dostlarımın da, elə sənin də taleyini qaraltdım. Gör neçə adamın ürəyinə dağ çəkdim. Kaş özüm öləydim, kiminsə həyatını əlindən almayaydım. Mən sənin üzünə baxa bilmirəm, Əfsanə. Bir söz deməsələr də, düşünürəm ki, hamı məni qatil sanır. Mən qarabəxtəm. Yaşamağa nə haqqım var, nə də ümidim. Həkimlər üzümə deməsələr də, canımda olanımı özüm bilirəm. Bura gəlişin də ola bilsin, sənə nə vaxtsa ağrı, sitəm gətirəcək, əzizim.

— Yox... Ülfət, mən heç nədən qorxub çəkinmirəm. Gəlmişəm, istəyirəm biləsən, sən mənimçün bir dünyasan. Həyatımı sənə həsr etməyi özümçün şərəf sanıram. Qaldı ki, dostlarının dünyalarını dəyişmələrinə... İnanıram, onların da ruhu səni bağışlar. Əslində, qəsddən törədilməyən qətl cinayət deyil. Bu, xətadı. Hər kəs gördüyü işin məsuliyyətini, cavabdehliyini canında hiss eləməlidi. Sən öz məsuliyyətini bilirsən və etiraf da eləməlisən. Sənin cinayətin — əgər, ona cinayət demək olarsa, səhlənkarlıqdan, özünün dediyin kimi, yuxusuzluqdan törəmədi. Onun üçün də cəzanı çəkməlisən. Cəzadan qaçsan, inan, onda mən də səni bağışlamaram. Üzünə də baxmaram. Səndən qaçaram... Səni sevdiyimə görə, ürəyimi məzəmmətləyərəm. Sağal, ayağa qalx, qalan məsələlər sonranın işidi...

Ülfət danışdıqca əsəbiləşir, səsi gərilir, nəfəsi təngiyirdi. Əfsanə dözməyib dilləndi:

— Ülfət, əzizim, bura gəlmədim ki, səni əsəbiləşdirəm. Olub-keçənləri sənə xatırlatdam. Elə bilmə ki, mən çox şeydən xəbərsizəm. Yox, əsla!..

— Xasiyyətinə bələdəm, Əfsanə.

— Tez-tez Günəşdən də vəziyyətini xəbər alıram.

Əfsanə əyildi. Ülfətin dodaqlarından öpdü. Qızın təmiz və təravətli nəfəsi oğlanı halbahal elədi. Sonra Əfsanə iki saat əvvəl univermaqdan aldığı nişan üzüyünü çarpayıda uzanan Ül-

fətin barmağına taxdı. Nə deyəcəyini bilməyən Ülfətin gözləri doldu. Ona elə gəldi ki, dərin yuxunun, şirin röyanın ağuşundadı. Əvvəl gülümsündü, sonra da qəhqəhə çəkdi.

Əfsanə zarafat elədi:

— Bizim kimilərin kəbinlərini göydə mələklər kəsir, Ülfət...

Əfsanə bu sözü deyib ayağa qalxdı.

— Mən gedim, yenə gələcəyəm, əzizim. Unutma ki, sənin nigarançılığını çəkən var...

Ülfət dondu. Nə "get" deyə bildi, nə də "getmə".

Əfsanə qapıdan çıxdı. O, getdi, bütün hissi, duyğusu, ətri, nəfəsi, ürəyi Ülfətin yanında qaldı.

Ülfət xeyli fikrə daldı. Xəyalları onu qanadları üstə alıb il yarım əvvəlki ilk tanışlıq anlarına apardı. Qışın oğlan çağı idi. Həyət-bacada narın-narın qar yağmaqdaydı. Ülfət auditoriyada pəncərənin qarşısında dayanıb ağ kəpənək kimi uçuşan, ulduz-ulduz qar dənələrinə tamaşa eləyən, gözəlliyinə vurulduğu Əfsanəyə tərəddüdsüz-filansız yaxınlaşdı və dərindən köksünü ötürərək dedi:

— Belə gözəl təbiət mənzərəsi ən küskün adamın qəlbini çağlatmaya bilmir. Belə havada gəzmək necə də qəlb ovsunlayan romantik duyğular oyadır.

Əfsanə geriyə çönüb təəccüblə Ülfətə baxdı və yavaş səslə dedi:

— Gəzməyi əlindən alan var? Bu da məşğələ dərsi deyil ki, bəhanə gətirib aradan çıxasan. Həvəsin var, ürəyin istəyən qədər get gəz.

Ülfət gülümsündü və özünəməxsus əda ilə:

— Tək? — dedi.

Əfsanə mənalı-mənalı onu başdan-ayağa süzdü və astadan dedi:

— Bu gözəl, insanı xoşhal eləyən fikir başına hardan gəldi?





— Heç özüm də bilmirəm, xanım. Həyatımda gözlənilməz və mahiyyəti dərk olunmaz o qədər şeydər var ki.

Əfsanə pəncərədən çölə baxmaqda davam edirdi ki, Ülfət fikrini bir başqa formada ifadə etdi:

— Həyat mahiyyəti dərk olunmayacaq dərəcədə qəlizdi. Çox vaxt açıq ürəklə, rəğbətlə yanaşdığın adam öz işıqlı tərəfini səndən məharətlə gizlədir.

Əfsanə dönüb Ülfətə baxdı. Sonra özünü saxlaya bilməyib şaqqıltıyla güldü və istehzayla dedi:

— Əcəb filosofsanmış... Müəlliminə söz ola bilməz.

— Elə sənin mənimlə ünsiyyətə olanların hamısı elə deyir.

— Bilmək olarmı, ustadın kim olub?

Əfsanə gülümsündü:

— Kim olacaq, cavan oğlan? Anam... Anamdan aldığım dərs həyatı anlamağıma, özümü dərk eləməyimə imkan yaradır.

— Eşq olsun elə analara.

Əfsanə sözünə bir balaca səmimiyyət qatdı və yavaş səslə dedi:

— Əslində, bütün analar belədi.

— Yoox... Fikirlərimizdə bir qədər fərq var, xanım.

— Fərq nədədi?

Ülfət bir qədər özündən razı halda:

— Öz hüququnu anlamayan qadından nə filosof olar, nə də ana...

Əfsanə səsinə qəsdən tündməcazlıq qatdı:

— Çox qəliz danışırsan, cavan oğlan.

— Ola bilər. Qadın həqiqətən anadırsa, deməli, həm də filosofdu.

— Yenə anlamadım.

— Burda anlaşılmayan bir şey yoxdu, xanım. Allahın nurunu vücudunda gəzdirən ana dünyaya insan gətirir və onu tərbiyələndirib bəşəriyyətə təqdim edir. Belə olan təqdirdə, o, həm də

filosofdu.

— Hə... Həzrət Məhəmməd Əleyhissalam buyurub: "Cənnət anaların ayaqları altındadır". Həzrət Əli necə deyib: "Qadın insanların anasıdır".

— Mən bu fikri də inkar etmirəm, xanım.

Dünyanın bir çox mütəfəkkirləri də bu barədə müxtəlif fikirlər, həm də maraqlı mülahizələr söyləyiblər. Hətta — Qadını kişi səviyyəsinə endirməzlər, — deyənlər də olub. Ancaq mənə elə gəlir ki, kişilərə əks olan cinsin nümayəndələrinin hamısını qadın adlandırmaq mümkündür. Ana isə anaların özlərini doğub ərsəyə çatdıranlardı. Hər qadın ana səviyyəsinə qalxa bilməz. Qalxmayandan da ana olanmaz.

Əfsanə ani fikrə getdi. Sakit addımlarla otaqda var-gəl elədi və pıçıltılı səslə dedi:

— Siz oxuduğunuz bədii ədəbiyyatdan, yaxud baxdığınız kinofilmlərdən danışırsınız, həqiqətən də müşahidə elədiyiniz qadın dühasından danışırsız?

— Həyat barədəki düşüncələrimdən. Dünyaya olan tükənməz sevgimdən. Bir sözlə, Yaradanlarıma olan məhəbbətimdən. Çünki mənə vücudu da, ağlı da, hissiyyatı da onlar bəxş eləyib.

Əfsanə Ülfətin fikirlərinə rəğbətlə yanaşsa da, büruzə verməməyə çalışdı. Sadəcə olaraq dedi:

— Ola bilər... Mən isə sadəcə olaraq, anamdan eşitdiklərimi təkrarlayıram. Anam mənim həyatımdı.

— Eşq olsun elə anaya. Mənim anam isə deyir: dəyərli sözlə həyat bir-birinin əksidir. Yəni, bəzən söz əməllə uzlaşmır. Belə olanda, söz öz yuvasında inləyir. Onu da unutmayaq ki, qadının ana səviyyəsinə qalxması kişidən asılıdır.

Əfsanə Ülfətin gözlərinin içinə baxdı. Sonra astadan dedi:

— Unutma ki, kişini kişi eləyən də anadır.

Ülfət bir an fikrə daldı. Handan-hana dedi:





— Ananın dəyəri elə ana olmasındadır. Hiss eləyirəm ki, sənin anan idrakının səsi ilə oturub-durandı. Müdrikdi.

— Tək mənim anam yox, ümumiyyətlə, bütün analar.

— Məni ananla görüşdürərsənmi, Əfsanə?

Söz Əfsanəyə toxundu. Özünü o yerə qoymayıb qəsdən ucadan güldü:

— Xeyir ola... Yoxsa, iki kəlmə sözdən havalandın?

Qızın "havalandın" deməsi Ülfəti diksindirdi. O ani fikrə daldı. Sonra təmtəraqsız-filansız eyham vurdu:

— Havalanma niyə? Bayaqdan tərifləyirsən ananı, öyrənmək istəyirəm, doğrudanmı o sənin dediyin kimidi?

— Məsələyə bu qədər çılpaqlığı ilə yanaşmağın nəyə xidmət eləyir? Gərək, onu mən biləm, sonra tanışlığa şərait yaradam. Elə hər yetənə...

— Mən hər yetənə oxşayıram?

— Yetənin buynuzu olmur. Ədəbazlığı olur. Belələri də yelbeyin təsiri bağışlayır kənardan baxana.

Ülfət incik halda:

— Əvvəla, sən məni düzgün dəyərləndirmədin, ikincisi də, yeri gəlib, deyəcəyəm, inan mənə, mən sənə təmiz qəlblə yanaşmışam. Neçə vaxtdı arxanca sürünürəm. Tam cəsarətlə deyə bilərəm: səni özümdən artıq tanıyıram. Kimsə bu sözlərimə görə məni təhqir də eləyə bilməz, mənə yelbeyin, başı xarab da deyə bilməz. Gör hardan başladıq, hara gəldik... Ehtiyatsız söz, artıq fikir...

— Ülfət, məni qınama, belə darıxdırıcı, sitəmverici, hoqqabaz həyatda yaşamaqdan bezmişəm. Yalançılıq, sədaqətsizlik, kobudluq, saymazlıq adamın ürəyini ağrıdır. Buna ehtiyac varmı? Adam düşünəndə əzab çəkir. Səbri tükənir. Özlüyündə heysiyyətinin tapdalandığını duyur.

— Əfsanə, sən bir kəlmə təsadüfi sözdən niyə belə ağır nəticələr çıxarırsan? Sən həmin sözə görə məni təhqir də eləyə

bilərsən. Kim heysiyyətinin tapdalanmasını istər ki? Aydın məsələdi, ölçülməyən suallar biçilməmiş cavablar gətirər. İnan, mən sənə toxunacaq söz demək istəməmişəm və onu özümə rəva bilmərəm...

Bu söz-söhbətdən sonra Əfsanənin üzündə xoşhallıq təlqin eləyən duyğular oyandı. O, Ülfətin düz gözlərinin içinə baxdı. Onun gözlərində məyusluqdan doğan duyğuları görəndə, daxilində peşmançılıq hissi baş qaldırdı. O, gülümsünərək: — Ülfət — dedi, qəlbin çox nazikdi. Sən də söz götürməyi bacarmırsan. Heç onu mən də sənə rəva bilmərəm. Təsəvvür eləyək ki, aramızda belə zarafatyana söz olmayıb. Bağışla...

Yataqda fikirləşdikcə, Ülfətin gözlərində gah indiki vəziyyəti, gah Əfsanəylə universitet auditoriyalarında, dəhlizlərində söhbətləri, qarşılaşmaları, oğrun-oğrun bir-birilərinə baxmaları, gah da tələbə həmkarlarının gözlərindən uzaq, sakit guşələrə çəkilərək mübhəm sirlərini dillərinə gətirmələri canlanırdı. Xəyalları onu çəkib belədən-belə aparır, dünəni ilə bugününü birləşdirir, sabahına yollar açırdı...

## Xeyirsiz adamlar

Gün günortadan xeyli əyilmişdi. Günəşin ılıq, parlaq şüaları yavaş-yavaş öz tağımından düşürdü. Palata da hiss olunacaq dərəcədə sərinləşməkdəydi. Ülfət öz-özünə düşündü: "Bu çarpayı nə vaxta qədər məni sinəsi üstə əzizləyə-əzizləyə saxlamalıdı?!. Görəsən, ayağa qalxa biləcəyəmmi? Əgər qalxsam, gərək yolumu qəbirstanlığa — Eyyubun, Bayramın səcdəsindən salam. Günahsızdılar... Cavandılar... İlahi, onların ölümlərinə mən bais oldum. Bir qarışqanı bastalamağı özünə heç vaxt rəva görməyən Ülfət, sən neylədin?"

Bu suallar Ülfəti nə qədər belədən-belə qovsa da, o, çıxış





yolları olmadığını, gedənləri geri qaytara bilməyəcəyini düşünüb dərindən köks ötürdü. Nuh aləmindən qalmış köhnə, dəmirpaslı çarpayıda nimdaş yorğan-döşəkdə o tərəf-bu tərəfə çevrildi. Nə eləyəcəyini bilmədi. Qəzadan sonra içinə düşən qara nöqtə şişirdi. Getdikcə böyüyüb qara, qorxunc bir divə çevrilməkdəydi. Hərdən özünə də elə gəlirdi ki, o, qara qüvvələrin əhatəsindədi. Gördüyü işlərin, qarşılaşdığı hadisələrin hamısı o qüvvələrin diktəsilə baş verirdi... O, düşündükcə çarpayısındaca vahimələnirdi.

Ülfət onu bürüyən ağır, əzabverici hisslərdən, qəlbini sıxan darıxmacalardan qurtulmaq üçün gözlərini yumdu. Handan-hana mürgü döyməyə başladı. Onu yüngül, qısa müddətli yuxu apardı. Az ötmüşdü ki, hənirti səsinə oyandı. Yuxulu-yuxulu göz qapaqlarını qaldırdı.

Yan-yörəsində kimsəni görmədiyindən ona elə gəldi ki, qulaqlarına hardansa səmti məlum olmayan səs gəlir. Saymazyana gözlərini bir də yumdu. Başının ağrısı qalxdı. Elə bu vaxt qapı açıldı. Gözlərini açdı. Gördü ki, gələn Günəşdir. Qız mülayim səslə dedi:

— Deyəsən, səni şirin yuxudan elədim?

— Yox, xanım... Gəlişiniz xoşdu.

— Doğrusu, mən bilməzdim ki, sən Əfsanə xanımla bu qədər yaxınsan. O, sənin xatirini çox istəyir. Gəldim deyim, nə sözün olsa, mənə etibar eləyə bilərsən.

— Sağ olun, xanım. Mən Əfsanənin üzünə baxmağa utanıram.

— Niyə?

— Necə niyə? İki adamın həyatını əlindən almışam. Ailələri bədbəxt eləmişəm. Allah yanında bundan böyük günah olarmı? Hərdən özümə qəsd eləmək istəyirəm. Başımın ağrılarına dözə bilmirəm. Həkimlər mənə nə qədər: — Qorxma, — desələr də, təskinlik versələr də, içimdə ayağa qalxacağıma gümanım yox-

du...

Ülfət dolan gözlərini yumdu və açdı. Günəş dərhal:

— Sən nə danışırsan, Ülfət. Sən kişisən. Kişi dözümlü olar.

— Mən ölümümdən qorxmuram, Günəş. Fiziki ağrılara da dözərəm. Ancaq ruhi əzablara dözə bilmirəm. Mən nə vaxta qədər ruhi əzablara qatlaşmalıyam? Tab gətirməliyəm? O gün müstəntiq gəlib mənimlə ikibaşlı danışdı. Ölən — dostlarım, yaralı — mən. Bizim bədbəxtliyimizdən faydalanmaq istəyən — müstəntiq. Kimlər... Kimlər... Çox qəribədi. Cəmiyyət, ən azından şərti də olsa, iki qrupa ayrılır. Əlbəttə, ona qrup demək mümkünsə: birincilər əlsiz-ayaqsızlar, ləyaqəti tapdalanmışlar, ailəsi ehtiyac içərisində yaşayanlar, işsizlər. İkincilər: harınlar; insan qanı sümürənlər; namus təcavüzkarları; ləyaqətə tüpürənlər; insan ətinə hərislər...

Günəş əvvəl susdu, sonra təəssüf hissilə dedi:

— Sən xəstəsən, Ülfət. Elə şeylər var ki, onların haqqında düşünməməlisən. Yıxılana dayaq duranlar da olacaq, balta çalanlar da. Tarixən belə olub, olacaq da. Hər deyiləni özümüzə dərd-sər eləsək, onda gərək yaşamayaq. Yaşamaq üçün bəzən kələfin ucunu boş buraxmağı bacarmalıyıq. Unutmayaq ki, pisinə-yaxşısına fərq qoymadan bir iş görmüşüksə, bizə gülənlər də olacaq, bizi təqdir eləyənlər də... Qınayanlar da tapılacaq, haqq qazandıranlar da. Kimin ağzını tikmək olar ki?

— Mən qınaqdan, məzəmmətdən qorxuram.

— Sənin dediklərin insanı məsuliyyətə vadar eləyən dəyərlərdi, Ülfət.

Söhbətin bu vədəsində qapı açıldı. Otuz yaşı ola-olmaya, ucaboy tibb bacısı Fərqanə içəri girdi. O, bərk həyəcanlı idı. Günəş Fərqanənin həyəcanını hiss edən kimi təəccübləndi və soruşdu:

— Həyəcanlısan, yoxsa, xatirinə dəyən olub?

— Həyəcanlı olmağıma, həyəcanlıyam. Xatirimə dəyən





yoxdu. Ancaq başıma gələnləri açıb danışsam...

Ülfət:

— Danış.

— Keçən şənbə axşamının söhbətidi. Getdim evə, gördüm işıq, qaz yoxdu. Kranı açdım, su da gəlmədi. Bərk əsəbiləşdim. İşıqda, qazda, suda işləyənlərin arxasınca o ki var danışdım.

Günəş:

— Söymədin ki?

— Yox, atam canı. Ancaq qeybətlərini elədim: pulgirlər, ədəbazlar, tənbəllər... nələr... nələr... dedim. Ərim işdən gəldi. Anladı ki, əsəbiyəm. Səbəbini soruşduqda işığa, qaza, suya işarə elədim. Dedim, bax, mən yazıq yeməyi sənə necə hazırlayım? Evə yad adam gəlsə, canımı hara qoyacam?

Ərim gülümsündü. Sonra dedi:

— Ay qız, hər kiçik şeydən ötrü əsəbiləşib səs-küy qaldırmazlar. Görünür, hardasa qəza baş verib. Bir azdan hər şey qaydaya düşər. Bizi toya dəvət eləyiblər. Geyin gedək.

Mən də donquldana-donquldanqa düşdüm ərimin yanına. Getdik şadlıq sarayına. Gəlinlə bəy taxtlarında. Yemək-içməklə dolu masalar. Musiqiçilər. Rəqs eləyənlər. Şən üzlər. Bir sözlə, ürəkaçan mənzərə. Gəl, gör, valeh ol. Məclisin qızışan vaxtı bir cantaraq kişi oynaya-oynaya bizim masaya yaxınlaşdı. Hamı əl çaldı. O, bir az da qızışdı. Atılıb düşdü. Birdən "ooo" eləyib masanın üstə yıxıldı. Hamı qorxdu. Çəkindi. Toy sahibləri bizə tərəf qaçdılar. Yıxılan kişini masanın üstündən qaldırdılar. — Bu nə hərəkətdi? —demişdilər ki, kişi köklü-budaqlı qovaq kimi bu dəfə döşəməyə çırpıldı. Üz-gözü qana boyandı. Mən dərhal anladım ki, kişinin başı süfrənin üstündəki qab-qacağa dəyib. Başını stəkanlar, qədəhlər... kəsib. Özü də bərk içkilidi. Ən azından bir-iki şüşə boşaldıb. Arsız-arsız da durub oynayır. Doğrusu, özözümə əsəbiləşdim. İstədim ərimə deyim:

— Ayə, a zalım oğlu, məni çəkə-çəkə hara gətirmisən? Bura

şadlıq evi yox, dəlixanadı. Bura bizim yerimiz deyil, qalx gelək. Burda çox qalsaq, abır-həyamız gedəcək. Ərim mızıldandı: “Ayə, bu yazıq ölüb ki”. Əvvəl dediklərini anlamadım. Adamlar yıxılanı dövrəyə aldılar. Kimsə qışqırdı: Ayə, həkim!!! Həkim çağırın! Bu ölür! Mən əlacsız qalıb yıxılana yaxınlaşdım. Qeyri-ixtiyari olaraq düşündüm: “Bu, içkidəndi”. Ona görə də acıqlı halda dedim:

— Ayə, o araq zəhrimarı az içə bilmirsən? Bu vid-fasonda səni görən barəndə nə düşünər? Özünü bu boyda məclisdə, bu qədər adam içində biabır elədin.

Günəş dərhal:

— Ay qız, ürəyimizi çatlatma. Qısa elə.

Ülfət:

— Görünür, çox vurub.

Fərqanə:

— Nə bilim... Axır ki, səsi çıxmadı. Adamların arasına çaxnaşma düşdü. Kimsə dedi: Bu ki, canını çoxdan tapşırıb. Üz-gözü əzilib. Başı partlayıb.

Mənim ona yazığım gəldi. Qaçıb başını qucaqladım. Gözləri donuq halda idi. Bunu görəndə kələfin ucunu lap itirdim. Ondan siqaret, şərab-filan iyi gəlmirdi. Anladım ki, bu adam içkidən uzaqdı... Əlimin arxasını boyun damarına sürtdüm, nəfəs alıb-almadığını, beyninə qan gedib-getmədiyini yoxladım. Öldüyünü bilib həyəcanlandım. Qorxudanmı, qəfləti hadisədənmi, ya nədənsə, başım elə qarışdı ki, ətrafıma yığışan adamları sanki görmədim. Başqa həkimlər, polislər gəldilər. Həkimlər yoxlayıb: — Keçinib, — dedilər. Polis bizi və qonşuluqdakı masalarda əyləşənləri birinci mərtəbəyə — müdiriyyətin otağına dəvət elədi. İlkin sorğu-sual başlandı. Şahidlər hərəsi bir cürə — “indi gəlmişəm”, “bilmirəm, xəbərsizəm” deməklə yaxalarını kənara çəkmək istədilər. Elələri də oldu ki, “yəqin ürəktutması varmış”, “infarkt olub”, “xəstəymiş” diaqnozunu qoydular. Hətta





iki qadın: “kişiyə göz dəydi”, “bədnəzər kəsdi” dedilər. Qonşu masadakı iki kişi, üç qadın bir qədər də qabağa getdilər: “O kişini kimsə boşqabla vurdu”. Biri də məni göstərərək at kimi durdu üzümə: “Kişiyə zaval bu qadından keçdi”. Ərim bərk əsəbiləşdi. Alma-salma məni nişan verən kişinin qulağının dibinə bir şapalaq ilişdirdi. Yalançı şahidin ağız-burnu qanadı. Aləm qarışdı. Ölən qaldı kənarda, ərim keçdi qabağa. Mən də özümü saxlaya bilmədim, düşdüm ərimin üstünə. Ağzıma ağ da gəlsə dedim, qara da. Kişi yazıq səhvini anlayıb mal kimi baxdı üzümə. Əlacımız kəsildi, cibimizdə nəyimiz vardı, böyük yalvar-yaxarla yığıb-yığışdırıb ötürdük polisə. Qalan adamlar da hadisə yerindən qaçmağa üstünlük verdilər. Öz-özümə düşündüm: qəribədi, biz bu ağılla hara gedirik? Bunun günahı kimdədi? Polisdə, yoxsa, biz sarsaqlarda?

Ülfət:

— Hamıda. Hamı oğrudu, gözüqıpıqdı. Oğru qorxaq olar. Qorxaq da məddah... Belə elədiyimizə görə polis də ayağını cütləyib atılır üstümüzə.

Günəş:

— Çox qəribədi... Heyf ölənin canından. Qalan düzələn şeydi.

Fərqanə:

— Polis əl çəkmədi ki. Başladı günahsız adamlara girişməyə. Onlar da hırıldaşa-hırıldaşa toplananın yarısını ona verdilər. Ən axırda polis toy sahibinə girişdi... Yəqin ki...

Günəş:

— Hadisə elə beləcə qurtardı?

Fərqanə:

— Qurtarsaydı, nə vardı ki? Üç gün sonra müstəntiq məni yanına dəvət elədi, izahat istədi. Mən həqiqəti yazdım. Müstəntiq mənə: — Düz danış! — deyib, həkimlərin qoyduqları “Kəllə-beyin travması” diaqnozunu qarşıma qoydu. Mən dəhşətə

gəldim. Müstəntiq dedi:

— O günkü azlıq eləyib. Ərinə de, əlini təzədən salsın cibinə. Mən onda qızışdım. Açdım gül ağzımı. Nə gəldi, tökdüm polisin üstə.

Ülfət:

— İnsanları həqiqəti deməkdən çəkindirən də elə budur.

Günəş:

— Sonra nə dedi?

Fərqanə:

— Nə deyəcək? Əvvəl ac pişik kimi marıtdı üzümə. Gördüm girişəcək. Sifətimi bir az da bozartdım. Dedi: "Dur get, lazım olsan, çağırarıq". Dedim, müstəntiq, məni qara tapdağa salma. Məni dolaşdırma. Ağzım yekə, dilim zəhərdi. Bu işdə cinayətkar yoxdu. Gör hansı yollara əl atırsan? Həkim həmkarlarıma "saxta diaqnoz" qoyduqları üçün yazığım gəlir.

Müstəntiq:

— Qışqırma... Diaqnozun necə verilməsinin sənə dəxli yoxdu.

Fərqanə:

— Hərəkətlərin çox şey deyir, müstəntiq. Yaxşı olar ki, geri çəkiləsən, baxasan hərəkətlərinə, diqqət yetirəsən suallarına. Onda bilərsən sənə veriləcək mümkün dəyərlər nədi? Mənə bir şey də aydın oldu ki, sən hər cür dona girə bilərsən... Ancaq səndən feysbukda yazacam.

Müstəntiq əsəbi halda:

— Nəyi?

— Mənə girişməyini. Namusuma təcavüz cəhdini. Taleyimlə oynamanı. Adamları fır-fır fırlatmanı. Xala-xala oyununa çağırışlarını.

— Xanım, məni şərləmə.

— Onda, ağıllı ol!

— Danışdıqlarından qan qoxusu gəlir.





— Mənim danışdıqlarımdan yox, sənin hərəkətlərindən.

Bu sözləri demişdim ki, müstəntiq düz gözlərimin içinə baxdı və astadan pıçıldadı:

— Xeyirsiz adamlar!

Günəş:

— Yaxşı müstəntiq səndən niyə əl çəkmirdi?

Fərqanə göz-qaş oynadaraq zarafatla:

— Gözəlliyimə görə.

Gülüşdülər.

## Heyf, cavanlardan

Ümidlə Səfurə arasında münasibətlər anbaan kəskinləşirdi. Arvad öz sözündən zərrəcə geri çəkilmək istəmirdi. O, hey deyirdi: "Bilmirəm, hardan tapırsan tap, oğlumu düşdüyü bəladan qurtar". Ümid nə qədər o yan-bu yan eləsə də, arvadının acıqgiciyinin əksinə sözlə getsə də, əslində, onun da başlıca istəyi oğluna yardım etmək idi. Ancaq necə? Buna istənilən tərzdə maddi imkanı vardım? Yoox...Saleh fantastik rəqəm deyir, müstəntiqsə baş kəsir... Xərci öz yerində. Arvad da hər gün iki ayağını bir çarığa dirəyirdi. Oğlu üçün get-gedə daha çox ürəyi titrəyən, müxtəlif vəziyyətlərdə oğlunu yuxularında görən, hövlnak oyanan Ümid artıq cana doyurdu. Tez-tez özünə ucuz ölüm arzulayırdı. Bəzən də birgə yaşayışları dövründə arvadını yaxşı tanımadığını, halına-xislətinə bələd olammadığını düşünüb özünü məzəmmətləyirdi. Yaşının elə həddi idi ki, geriyə də yolu yox idi. Onu da yaxşı bilirdi ki, Səfurə qaragüruhdu. Geci-tezi, olan-olmayanları özünə sərf eləyən tərzdə dilinə gətirərək, övladları ilə atanın arasına girəcək və onları ondan soyudacaq. Kişi fikirləşdi: vəziyyət elə həddə çatıb ki, indi nə acıq-gicik, nə də umu-küsü elənəsi vaxtdı. Bircə yol var — Səfurənin sifarişləri-

nə sözsüz-söhbətsiz, dedi-qodusuz əməl etmək. Ancaq necə? Maddiyyat ona imkan verirdimi? Tutalım, Salehin əl-ayağına düşüb dediklərini borc-xərc elədim. Onu susdurdum. O da mənə dedi, get işini gör... Bununla iş qurtaracaqmı? Yaxşı, müstəntiqə neyləyim? Heç nə? Deməli, onda müstəntiq istintaq işini yekunlaşdırıb məhkəməyə ötürəcək. Məhkəmə heyəti də ağzını əjdaha kimi açacaq üstümə. Onu da razı salmasam, gördüyüm bütün işlər batacaq. Ülfəti həbs eləyəcəklər. Yenə də arvadla qara günüm başlanacaq. Bu yaşımda həyatımın acı, dəhşətlər vəd eləyən səhifələri açılacaq. Gəl yaşa görüm, Ümid, necə yaşayırsan...

O, bu fikirlər içərisində başını itirib qalmışdı ki, qapı döyüldü. Ümid gedib qapını açdı. Qapının ağzında altmış yaşı olar-olmaz, çalsaqqal, qarayanız, oynaq gözlü, cantaraq bir kişi dayanıb onu ayaqdan başa süzdü və sonra qalın səslə soruşdu:

— Ümidin evidi?

Ümidin ağlı ondan bir şey kəsmədi, ancaq əlacsız qalıb cavab verməyə məcbur oldu:

— Bəli!

— Mən Ümidi görmək istəyirəm.

— Ümid mənəm.

— Gələn qonağı evə dəvət eləmirlər?

Ümid istədi desin:

— Nə qonaq, mən qonaq gözləmirdim.

Nəsə Ümid bu fikrindən daşındı və sözünə davam elədi:

— Buyurun... Keçin içəri.

Qonaq içəri keçdi. Evi gözucu nəzərdən keçirdi. Ümid onun hərəkətlərini duysa da özünü başadüzməzliyə vurdu. Qonaq keçib yumşaq kresloda əyləşdi. Sonra soruşdu:

— Deyəsən, evdə təksən?

— Hə... Hələlik təkəm. İndi gələcəklər.

— Ev-eşiyinə söz ola bilməz.





Ümid daxilən əsəbiləşdi, ancaq özünü boğdu. Gülümsünərək astadan dedi:

— Siz maklersiz, ev alqı-satqısıyla məşğul olansız?

Qonaq dərhal:

— Yox, canım. Mən din xadimiyəm. Adım da Davuddu. Gəldim ki, Salehlə sənin arandakı anlaşılmazlığı aradan qaldırım. Aranızda sülh yaradım.

— Başa düşmədim. Nə anlaşılmazlıq?

— Mən nə Salehəm, nə də sənin uşağın. Məncə, ələ salınası adama da oxşamıram.

— Əstəğfürullah...

— Kişinin oğlunu sənin oğlun qətlə yetirib. Özünüz də çəkilib durmusuz kənarda. Belə olmaz... Görürəm, sənin az yaşın yoxdu. Qanı qanla yumağa adamı vadar eləmə. Get Salehlə görüş, danış-bitiş. Onu razı sal. Yoxsa...

— Getmişdim. Söhbətimiz alınmadı... Filan qədər Salehə ver... Müstəntiqi gör... Həkimi razı sal... Ona mənim maddi gücüm yoxdu.

— Kredit götür. Evini sat. Canını qurtar.

Davud bir növ Səfurənin dediklərini təkrarlayırdı.

Ümid:

— Davud bu dili sənə kim verib?

— Deyirsən, özümün ağlım yoxdu?

— Məncə, yoxdu. Tutuquşu kimi kimlərinsə dediklərini təkrarlayırsan.

— Mən elə sözlərdən çox eşitmişəm.

Ümid çaşqın halda dayandı. Xeyli fikrə getdi. Handan-hana dedi:

— Davud, bu məsləhətləri verməyə gəlmişdin?

— Bəli!

— Bunun üçün çox sağ ol. Sən məsləhətini verdin. Ona əməl eləyib-eləməmək mənim işimdi.

— Kişinin bəy olası oğlunu qətlə yetirirsiz, sonra da yaxanızı geri çəkirsiz. Ağıllı ol, Ümid, Saleh səni o dildə-damaqda qoymaz. Niyə bunu başa düşmək istəmirsən? Bu murdarlıqdı.

— Əvvəla, mənim oğlum Salehin oğlunu qətlə yetirməyib. İstəyirəm, danışığına fikir verəsən. Rəhmətlik dünyasını qəza nəticəsində dəyişib.

— Ayə, nə fərqi var?

— Fərqi çoxdu. Bu fərqi kor da, kar da, dəli də anlayır. Sənin kimi təcrübəli din xadimi görmür, yaxud da görmək istəmir. Bu, faciədi. Səni də Saleh bu işdə çevirib əlində oyuncağa. Murdarlıq, şayiə məni təngə gətirib. Balam, mən o qədər ölüyəm ki...

— Sözlərindən hədə qorxusu gəlir, Ümüd. Sən Salehə barmaq silkələyə bilməzsən. Ürəyinə toxuna bilməzsən. O, mənim yaxın qohumumdu. Sənə imkan verməرəm ki, onun qəlbində yarğanlar açasan. Yaralarını qaysaqlanmağa qoymayasan. Amansızlıq eləyəsən.

— Sizə pul versəm, yaralarınız sağalacaq?

— Deyəsən, sən məni anlamırsan... Məni çox şeyə vadar eləmə.

— Neyləyəcəksən?

— Dilini kürəyindən çıxararam.

— Ay maşallah. Böyük ədəb sahibisən.

— Deyəsən, səninlə başqa cürə danaşmaq lazım olacaq. Neçə gündü Viloş əsəbdən dərisinə sığmır. Mən vicdanımın səsinə qulaq asıb neçə gündü səni mühafizə eləyirəm. Başa düşürsən?

— Mənə mühafizəçi-zad lazım deyil, Davud. Oğlumdu, qəza törədib, cəzasını da çəkməlidi. Mən heç vaxt heç kimin haqqını tapdalamamışam. Əgər bu həyatda qüsurum varsa, bil ki, o da ləyaqətimdən doğur. Mənim fikrimi Salehə də de. Mən ev satmayacağam.

— Ağıllı ol, Ümid. Səni hamı dürüst adam kimi tanıyır. Səndə uşaq məsumluğu var. Görürsən, mən də uşaq deyiləm. Adamları yaxşı tanıyıram. Sənin indiki əsəbin, danışıqların eqoizmindən, tərsliyindən və təmizliyindən doğur. İstəyirəm biləsən, bədgüman olma, o çox pis şeydi... Çaşma, adamlara inamsızlıq göstərmə. Qan pulunu ya mənə ver, mən çatdırım Salehə, ya da...





Ümid Davudun dediyi sözləri sanki eşitmirdi. O, yorğun, donuq gözlərini pəncərədən çölə dikdi. Dərindən ah çəkib, başını yellədi:

— Sən çox yaxşı danışırsan, Davud. Nitqinin məzmununa da, ifadə tərzinə də söz ola bilməz. Sözlərin, ifadələrin yerbəyerindədi. Düşündüyünü hisslərlə verə bilirsən. Etiraf eləyim ki, nitqin nə qədər emosional olsa da, səmimiyyətdən uzaqdı. Xatırladım ki, bura gəlişin nə din xadiminə, nə də az-çox təcrübəsi olan adama layiqdi. Sən küçə söhbətləri eləyirsən.

— Sən məni təhqir eləyirsən, Ümid. Nəzərə al ki, səni o dildə-damaqda qoymaram.

— Az hədə gəl mənə. Özü də evimdə. Bayaq Viloşun adından da mənə hədə-qorxu gəldin. Salehlə Viloş arasındakı münasibətlərdən də xəbərdaram. Sən başqaları üzərində qələbəni təmin eləmək istəyirsənsə, əvvəl öz üzərində qələbə çalmalısan. Özünü dəyərləndirməyən başqasını dəyərləndirə bilməz. Özünü dərk eləməyən özgənidərkə cəhd göstərməməlidi. Bu dediklərim nə gəlişi xoş sözlərdi, nə də romantika. Bunlar həqiqətdi. Həyat reallıqlarıdı. Reallığın dərki müdriklikdi.

— Ayə, ay Ümid, mənə qəzəl oxuma. Mən özüm qəzəl yazanlardanam. Xoşla-zor qoşadılar. Xoş işə keçməyəndə, zora əl atılar. Sən Salehi tanımırsan. O, zəlidi, zəli. Tutduğu yerdən yükünü tutmasa, qopmaz. Doğrudu, qohumdu. O elə dəyusdu ki...

— Bilirəm, Davud, bilirəm.

— Nəyi bilirsən?

— Salehin dəyyusluğunu. Bu sözlərə mən də şərikəm.

— Mənim dediyim sözləri sən mütləq təsdiq eləməli idin?

— Həqiqət olanını hə...

Ümidin nəbzini tuta bilməyən Davud əyləşdiyi kresloda qurcalandı. Yumruğunu dizinə vurdu. Təlaş, vahimə içərisində bütün bədəni titrədi. Onun gicgahında, alnında və gözlərinin altında xırda tər dənələri göründü. Ülfət Davudun fikirlərini yayındırmaq üçün onun üzünə gülümsündü və dedi:

— Davud, nə təhlükə baş verib ki, özünə bu qədər əzab verirsən? Arxayın ola bilərsən, yaşadığımız cəmiyyətdə hamı xəstədi. Adamların sadəcə, quru cəsədləri var, içləri yoxdu. Şərt o deyil ki, xəstəxanada yatalar.

— Sənin niyə elə danışdığını bilirəm. Səninki xəstəlik deyil, Ümid, dəlilikdi. Dəliliyinlə də məni heyrətləndirə bilməzsən.

— Onu da bilirəm. Səni heyrətləndirəcək yeganə şey niyyətinə nail ola bilməməyindi.

Bu sözləri eşidəndə Davud qeyri-ixtiyarı qışqırdı. Sir-sifəti ağardı. Sonra da köynəyinin üst düymələrini açmağa başladı. Kostyumunun yaxasını dartışdırdı:

— Sən məni başa düşmürsən. Mən istəmirəm ki, arada düşmənçilik yaransın. Mən də bu işi...

Ümid heyrətləndi:

— Nə fikirləşirsən, Davud, elə bilirsən, ən ağıllı adam sənsən? Səsini başına atıb bağırma. Səndən də gur səsi olanlar var. Danışdıqların boş sözlərdi. Özün də əlli dərənin suyunu bir yerə qatma. Bu, ədəbsizlikdi. Uydurmadı. Qaraguruhçuluqdu. Adamcığazları yamsılamaqdı.

— Ay maşallah... Ağlına söz ola bilməz. Sən nə öz qədrini bilirsən, nə də oğlunun... Saleh səfehdi.

— Onu bilirəm.

— Bilirsən, lap yaxşı. Səfehdən də hər cür xəta-gün əməl çıxar. O da xəstədi. Onun da normal təfəkkürü yoxdu.

Hələm-hələm hirslənməyən Ümidin gözləri az qala hədəqəsindən çıxacaqdı. O, yenə də səbrini basmağa üstünlük verdi:

— Mən nə elədiyimi yaxşı bilirəm. Hələ ki, başım da işləyir. Heç kimə də ayağın yandı, geri çək, demirəm. Oturmuşam evimdə, gəlib məni təhqir eləyirsən. Ayıbdı, Davud...

— Hoqqabazlıq eləmə... Bizi ələ salma. Övliyalara — Əli Əleyhissəlama üz tutub gəlmişəmsə, deməli, istəyimə də nail olacam.

— Həyasızlıqlamı? Sifətin necə də rəngdən-rəngə çalır: ağ, boz, qırmızı, qara...

Davud sakit dayandı. Üz cizgilərində heç bir dəyişiklik-filan olmadı. Ani sakitləşdi. Handan-hana başını yelləyib acı bir istehza ilə gülümsədi, astadan, həyəcan və sıxıntı keçirmədən dedi:

— Mən necə danışsam, Ümid, sən razı qalarsan?

— Kefdəyəm... İndi gəl buna cavab ver.

— Yenə dolaq? Yenə ələsalma? Ürəyin necə istəyir, elə də cavab ver... Ancaq doğrudan da, sən əclafsan. Danışdıqların da, hərəkətlərin də əclaflığını təsdiqləyir.

— Yıxılanı ayaqlamazlar, Davud, kömək eləyib ayağa qaldırarlar.

— Düşməni?

— Nə düşmən? Görünür, sən düşmən sözünün mənasını anlamırsan, Davud. Anlasaydın... Dalaşanda elə dalaş, barışmağa üzün olsun. Sən bayaq övliyalara — Əli Əleyihissəlama and içdin.

— İndi də mən Fatma Nisənin cəddinə and içirəm. Bilirsən də, o necə qəzəbli övliyadı.

— Əvvəla, mən Fatma Nisə adlı Seyid tanımıram. Cəddi də nə qədər kəsərlidi, bilmirəm.

— Tanış eləyərəm. Qaldı sənin sözünə, şərikəm... Ancaq burda insan həyatına qəsd var. Nə qədər hirsli olsam da, özümü boğmağa çalışıram. Onu da nəzərə al ki, mən lap uşaqlıqdan

böhtana, şərə, haqsız sözə, ədalətsiz hərəkətlərə dözmürəm.

— Bəs, özün o hərəkətləri niyə eləyirsən, Davud?

— Səhv eləyirsən, Ümid. Bayaqdan ona görə çənəyə verirəm ki, arada sülh olsun. Mərdimazarlıq, qan olmasın. Haqsız söz qarşıda dayanana — o istər kişi olsun, istər qadın, istər uşaq olsun, istər böyük — kimliyindən asılı olmayaraq —— güllə atmaq kimi bir şeydi. Şərt o deyil ki, qarşındakını öldürür, hər halda, ona sığal da çəkmir. Ən azı, yaralayır, parçalayır. — Söz güllə kimidir — ibarəsini elə-belə deməyiblər atalar. Söz insanı infarkt eləyir. Xəstələndirir... Bəyəm, haqsız sözün təsiri azdımı? Onda qalmış da ki böhtan, şər ola.

— Bəli. Bu dediklərin xoşuma gəldi, Davud. Axı, Ülfət qətl törətməyib. Qəza törədib. O qəzada mənim oğlum da dünyasını dəyişə bilərdi. Onda mən kimlərin yaxasını dartışdırmalı idim. Gedib Salehə deməli idim ki, mənim oğlumu — Ülfəti sənin oğlun Bayram, Sərxanın oğlu Eyyub başdan çıxarıb, uzaq yola aparıblar. Qəzada mənim oğlum ölüb, sizinkilər salamat qalıb. Ay camaat, gəlin görün bunlardan nə qopara bilirsiz. Qopardıqlarınızdan mənə də verin. Görün nə qədər gülünc söhbətdi. Böhtan, şər... insanın özü-özünə tüpürməsi. Özünü yaşadığı cəmiyyətdə ayaqlaması...

— Əsəbiləşmə, Ümid bundan da betər işlər çox adamın başına gəlir.

— Əsəbiləşmirəm, sözlərinə cavab verirəm. Heç yadımdan çıxmaz. İş yerində tədbir keçirilirdi. Qadınlardan biri — adını çəkmək istəmirəm — kişi əməkdaşlardan birinin üstə düşdü. Şər, böhtan dolu ibarələrlə onu nüfuzdan salmağa çalışdı. Kişi ona cavab vermədən ürəyini tutdu və gubbultu ilə yerə yıxıldı.

— Nə danışırsan, Ümid?

— Olanı deyirəm. Kişi elə o andaca canını tapşırdı. İndi mənə de görüm, o kişinin ölümünə səbəb nə idi? Sonralar qadının dedikləri yoxlanıldı. Böhtan, iftira danışdığı üzə çıxdı.





— Bu, ifritəlikdi, Ümid. O qadın cəhənnəmlikdi.

— Səndən soruşuram: o kişi güllə ilə öldü, ya şər, böhtan, iftira dolu ibarələrlə, nə fərqi var, ölüm ölümdü. Hər ikisi cinayətdi, ya yox... Hə... O kişinin qardaşı bir həftə çəkmədi ki, bu böhtançı qadını maşınla vurub öldürdü. Qardaşının intiqamını aldı. Sözün gücünə bax... Cinayət üstə cinayət gətirdi. İkinci mərhələdə də söz iki adamın bədbəxtliyinə bais oldu. Biri öldü, o birisi həbs olundu... Gərək danışanda, həddi aşmayaq, təkrar eləyirəm, barışmağa üz qoyaq. Nə qədər kəskin, sərt olsa da, lazım gələndə, sözümüzün altından özümüz imza ata bilək...

— Sənin dediklərin kişi işidi, Ümid. Sözlərin yaxşıdı, əməlini də yumşalt.

— Sözümlə əməlim eynidi, Davud, bu qədər nifrət olmaz. Nifrətin də həddi var. İnsan bağışlamağı bacarmalıdı. Əks halda, nifrət içində şişəcək, şişəcək, intiqam hissinə çevriləcək. Bu, çox qorxuludu. Onda da geci-tezi var, cinayət törətməli olacaqsan. Çətini bircə addım atmaqdı. Addımı atantək dalbadal cinayətlər başlanacaq. Sorğu-suallar. İzahatlar... Sonu uzunmüddətli və ya ömürlük həbsxana. Bilirsən, bu nə deməkdi?

— Ayə, niyə bilmirəm? Özun sual qoyursan, özün də cavab verirsən. Məni də mumlamağa məcbur eləyirsən. Bəyəm, sənin sözlərinə qulaq asmağa gəlmişəm? Mənim özgə dərd-sərim yoxdu?..

— Var... Ancaq mən də səni başa salmaq, xali eləmək istəyirəm. Qohumu, yadı yoxdu. Əksəriyyət çox simasızlaşıb. Oturduğun yerdə həbsinə fərman verməyə hazırdılar.

— İş olsun da, türməni insanlar özləri üçün yaradıblar.

— A qardaş, yaradıblar, əcəb eləyiblər, gərək türməyə düşmək üçün də günahın ola da.

— Günahlı-günahsız türməyə girdinsə, hamı səni günahkar çıxaracaq, əvvəl-əvvəl qohum, dost, tanış dediyin kəsləri arzulayacaqsan, gəlməyəcəklər. Gözlərin yolda qalacaq. İnciyəcək-

sən, küsəcəksən, sonra da hamısına tüpürəcəksən. Unudulduğunu başa düşəndə, ağlın başına gələcək. Bir kimsəyə yaramadığını hiss eləyəcəksən. Dərd onda başlayacaq. Sonra da dünyaya gəlməyinə peşman olacaqsan. Hamıya, hamıya, lap özünə də nifrət edəcəksən...

— Ayə, Davud, sən canın, mənə dolaq gəlmə. Cinayəti törədən nəticəsi barədə də düşünür. Sən deyənlər kimə aiddi? Sənə, yoxsa mənə?

— Özümə də, sənə də. Ayə, Ümid, oğluna yazığın gəlsin.

— Davud, mən oğlumun həbsi barədə də çox düşünmüşəm. Çox götür-qoy eləmişəm. Ona görə də sənə bu qəzəlləri oxuyuram.

— Ümid, istəyirəm, hər ikimiz bilək: türməyə düşdünsə, ya o həyatıla barışmalısan, ya da intihar yolunu seçməlisən. Bu yaşadığımız həyat sən düşünən qədər də sadə deyil. Oğlunu gör nələrlə qarşılaşdıra bilərsən.

— Mənə həyat dərsi verirsən? Mənim yeganə hesablaşdığım şey qanundu. Özünü ələalma, cinayətkar addımlardan çəkinmə heç də qorxaqlıq kimi dəyərləndirilməməlidir. Hamı ehtiyatlı olmalıdır. Qanun nə tələb eləyir, mən də elə davranacağam.

— Saleh ipə-sapa yatmayan adamdı. Əli də böyüklərin ətəyindədi.

— Saleh ədəbsiz, pula həris, intriqabaz adamdı. Onun kölgəsi var. O, həm də müstəntiqin sözü ilə oynayır. Bilirəm, səni də bura müstəntiq göndərib. Get ona da de. Məni məcbur eləməsin adekvat tədbir görüm.

— Müstəntiqi bu çirkin əməllərə qatma. Başın ağrıyar.

— Başımı ağrıdan hələ anasından olmayıb.

— Çox yekə-yekə danışırsan. Bu cəmiyyətdə...

— Bilirəm, cəmiyyət intriqa yaradan, adamları boğuşduran nifrətə layiq dələduzlarla doludur. Biz də bu cəmiyyətdə yaşayırıq. Özümüz də hər gün neçə-neçə cinayət törətməyə bais





olan adamların şahidiyik. Belələri cahillərdi. Ləyaqətini itirmişlərdi. Hər yanından keçən itə ağac bulasan, yaramaz adamlara ədalət, haqq lupasından baxsan, hara gedib çıxarsan?! Xeyli təcrübəm var. Səndə alçaqlara nifrət yaratmaq fikrindən də çox-çox uzağam. Şərəfsizdən ədalət, haqq gözləmək... Mərdimazar adamın qarşısına özü çıxır və qəmiş olur ki, vur, öldür məni...

— Doğrudur.

— Biz elələri ilə qoşa addımlaya bilərikmi? Əlbəttə ki, yox...

— Ümid, əlləm-qəlləm dünyanın işi də başgicəlləndirən olur. Düyünləri açılmaz olur.

— Onu yadında saxla, Davud, həmişə ləyaqətsizlik ləyaqətin, haqsızlıq haqqın, ədalətsizlik ədalətin... belini sındırır, nəfəsini kəsir. Bu tarixən belə olub, belə də olacaq...

Davud güldü, yüngülcə öksürüb yerində qurcalandı. Sonra da astadan dedi: — Dünyanın böyük mütəfəkkirləri də yaşadıqları zəmanədə haqq, ədalət axtarışında olublar, nə yazıq ki, tapa bilməyiblər.

— Bil ki, nadanlar öz ömürlərini çaqqal kimi, o böyük ürək sahibləri isə ləyaqətlə başa vurublar. Gözlərini aç, zəmanəyə əməlli bax. Ayə, ay evin tikilsin, Şərq alışıb yanır, "İŞİD" dünyanı lərzəyə salıb. "İŞİD"i yaradan, arxasında dayanıb silahlandıran kimdir? Onun məqsədi və məramı nədir? Hər gün günahsız adamların — uşaqların, qadınların, qocaların başına od yağdırır. Moldovada, Gürcüstanda, Azərbaycanda, Ukraynada... haralarda, haralarda xalqın qanı axıdılır. Hələ bu qədər batıb-qırılan mühacirləri demirəm.

— Deməli, dünyadan sən də xəbərsiz deyilsən. Bəşəriyəti tamam başqa səmtə yönəldiblər. İnan, belə mürtəce siyasilər də Saleh ağılda olanlardı. Qan axıdılırsa, cinayət var, haqqın, ədalətin, ləyaqətin tapdalanması var, Zeynəb qarı demişkən, "insanlığın ölümü" var. Mən sənə "aman günüdü, müti ol" fikrini

təlqin eləmək istəmirəm. Mütiliyə nifrət edirəm. Ümid, mənim qənaətim belədi: Saleh pazdı, o paza keçmək axmaqlıqdır, qurtar ondan.

— Əşi, sən də çox şişirtmə.

— Sən də öyrənmisən çənənin altına düşənə dərs verməyə. Mühazirə oxumağa.

— Yox... İncimə, sənin kimi, Saleh kimi düşünmək, insanın insana qarşı qəddar olmasından başqa bir şey deyil. Bunun kökündə nə dayanır? Zəifin haqqının tapdalanması, güclünün mənəmliyinin ifadəsi. Düzdümü? Haqsız işə, ya sözə dözmək, ona münasibət bildirməmək, onu yerində oturtmamaq nə dərəcədə düzgündür?

— Ayə, sən danışdıqca, Ümid, mən əsəbiləşirəm... İncimə məndən, əcəb fanatiksən.

Ümid gülümsündü. Sonra dedi:

— Sən ləyaqətinin tapdalanmasına mütiсəsinə dözürsənsə, ona qarşı mübarizə aparmırsansa, kimdi günahkar? Özün, yoxsa, ləyaqətini tapdalayan nankor? Sənin sözlərindən mütilik qoxusu gəlir, Davud. O mənim kitabımda yoxdu. Bəlkə səndə var?

— Bu nə sözdü, əə, mənə deyirsən? Bəyəm, mən o qədər ölüyəm? Biləsən, Ümid, mən müti kişilərdənsə, arvadlara üstünlük verirəm.

— Onda niyə belə eləyirsən?

— Necə?

— Üfunət dolu o qoxunun içərisində niyə gicəllənirsən? Məncə, adamın mütiliyi, özünü müdafiə eləməməsi insanlığına dələlət eləmir. Onu dilsiz-ağızsız çaqqallar aləmə sürükləyir. İnsanlar özləri özlərinin qəsdlərinə dururlar. Davud, bir ətrafına bax...

— Ayə, Ümid, dünyanı düzəltmək bizəmi qalıb? Beş günlük ömrümüz var.

— Deyirsən, onu da heyvan kimi yaşayaq? Özün də din xadimisən. Mütilik hansı səmavi kitabda təbliğ olunur? Heç birində...

— O kitabları mənə misal gətirmə.

— Davud, mənim qənaətim budur: əgər sənin ailənin namusuna təcavüz olunursa və sən buna qarşı dözüm nümayiş etdirirsənsə, için dağıla-dağıla, doğrana-doğrana üzün gülürsə, hırıldayırsansa, özünü baş verənlərdən xəbərsiz-ətərsiz kimi aparırsansa, başqa sözlə, dəyyusluq maskasını başına keçirirsənsə, bu fəlakətin törənməsində günahkar özünsən.

— Ay Ümid, dərinə getmə. Dəhrəni çox çalarsan, laxlayıb sapından çıxar.

— Ailə məsələsində yaxanı qırağamı çəkməlisən? Bərk ayaqda ailəyə münasibətin belədirsə, onda sual olunur: xalqına, millətinə, vətəninə münasibətin necə olar?! Biz öyrənmişik ki, çox vaxtı hadisə baş verəndə insanlara, lap doğmalarımıza boş-boş təskinlik verək...

— Çox çətin adamsan, Ümid. Sənin öz yaramaz fəlsəfən var. Olmaz belə. İşin düzələninə gedərlər.

— Mənim pulum yoxdu. Olacağına da əmin deyiləm. Salehə çatdır, necə bilir, elə də eləsin... Deyəsən, mənim dediklərimdən narazı qaldın? Gərək qalmayasan. Xeyli düşünmüşəm. Götür-qoy eləmişəm.

Ümid gülümsündü, sonra sözünə davam elədi:

— İstəyirəm biləsən, mənim heç kimin yanında çəkinəcək işim yoxdu. Üzüm ağdı. Nə mənə müharibə elan elə, nə də əzələ göstər.

Niyyətinə çata bilməyəcəyinə əmin olan Davud mehribanlıqla və zarafatyana dedi:

— Hər şey məlumdu.

Sonra tənbəl-tənbəl Ümidin üzünə baxdı və gözlənilmədən ayağa qalxdı. Qapıya tərəf gedib astadan dedi:

— Yoxdu, yoxdu da, özünü öldürməyəcəksən ki? Heyf, cavanlardan!..

## Hoqqabaz dünyanın oyunbazları

Günün günorta çağı idi. Günəşin şüaları az qala, adamın başını deşirdi. Bağ evinin həyətindəki küləflənqidə nagüman halda oturan Ümid ətrafında cərəyan edən hadisələrə biganəliklə baxırdı. Onun gözlərində hər şey cılız, zəhlətökən şəkildə görünürdü. Bütün düşüncələri hər gün yoluxduğu Ülfətinin taleyi, gələcək həyatı həndəvərindəydi. Onun öz-özünə verdiyi suallar da, həyatın diqtə elədiyi məntiq də, tanış-bilişlərinin, doğmalarının münasibətləri də, hamısı bir məcraya yönəlir, Ümid də onlardan ağlı kəsənləri mücrəsinə yığırdı. Mücrəsinə yığdıqlarından faydalanmayanda, onun tələbi ödənməyəndə Ümid onları da çıxarıb atırdı. Bəzən aciz, iradəsiz bir adama çevrildiyini hiss eləyirdi. Qəribəsi bu idi ki, Ümid bəzi adamlardan, onların yerli-yersiz suallarından daim qaçmağa çalışırdı. Özünə qapanıb içini o tərəf-bu tərəfə çevirir, künc-bucaqda məskən salan xırda-xuruş, unudulmaqda olan təəssüratlarını, acılı-şirinli xatirələrini çözələyirdi. İndi Ümid üçün xatirələrdən əziz, doğma hec nə yox idi. Bəzən də xəyalən xəstəxanada yatan əzizi Ülfətlə, bəzən arvadı Səfurəylə, bəzən böyük oğlu Kənanla, bəzən də yeganə qızı Əzizəylə üzbəüz oturur, başlarına gələnləri götür-qoy eləyirdi. Ümid tez-tez öz-özünə deyirdi:

— Səbəblər də aydın, törənən faciə də, ağlagəlməz nəticə də... Gəl çıxış yolları axtar, axtara bildikcə... Aman Allah, adam necə də dillemma qarşısında qalarmış?.. Doğmalarımın məyus-məyus baxışları hər gün mənə dikilir. Məndən çarə umurlar... İndi mən neyləyim? Kimə nə deyim? Kimi günahkar çıxarım? Artıq olan olub. Üç cavan oğlan. Onların əllərindən qoparılan xoşbəxtlik. Dilə gətirilməsi mümkün olmayan dəhşət. Vahimə yaradan faciə... Saleh başqa cürə düşünsə də, hər üçü mənimdi. Ölümüm də bu "acı, zəhlətökən ləkəni" məndən uzaqlaşdıra





bilməz.

İçinə qapanan Ümid düşüncələrin axarında çabalayırdı ki, həyət qapısının zəngi çalındı. Ümidin fikirləri qırıldı. Gedib qapını açdı. Gələn Mürvət idi. Onlar əl verib görüşdülər. Ümid qabaqda, Mürvət də onun ardınca küləfrəngiyə keçdilər. Ümid:

— Nə yaxşı gəldin, ay Mürvət. Bütün günü burda oturub dağı arana, aranı da dağa aparıram. Atıram, kəsirəm, doğrayıb-tökürəm. Nəticə hasil olmur ki, olmur.

— Bura gəlməkdə düz eləmisən. Gərək mənə də deyəydin. Səni burda tək-tənha qoymazdım. Adam tək olanda, sən demiş, dünyanı qatıb-qarışıdır. Fikir... Fikir... Fikir...

Ümid dərindən nəfəs aldı:

— Fikirdən danışma. Bu yaşda neyləyə bilərəm?

— Söhbət neyləməkdən getmir, Ümid. Neyləmək olar, heç nə? Gələndə yolumu Ülfətin yanından saldım. Uşaq gün-gündən geri gedir, əriyir. Açıq deyirəm: Bəlkə həkimlər...

— Nə bəlkə?.. Sənin dediklərini Kənan da mənə çatdırıb.

— O öz yerində... Ülfət başından çox şikayətlənir. Başla zarafat olmaz, Ümid.

— Əldə bir şey yoxdu... Deyəsən, arvad deyənə gələcəyəm. Evi satmaqdan savayı gümanım gələcək bir şeyim yoxdu...

— Bu yaşda kirayəyə...

— Kirayə niyə? Bağa yığışarıq. Nə yaşım qalıb ki...

— Təkcə özümüz üçün yaşamırıq axı.

— Hə... Onu düz deyirsən.

— Ay Ümid, bu adamların ağzını yığmaq olmur. Şəhərdə o qədər müxtəlif və ziddiyyətli şayiələr yayılır, gəl görəsən. Kimisi deyir, guya, Ülfət Eyyubla Bayramı öldürmək üçün qəsdən qəza törədib, özünü də bicliklə xəstəxanaya salıb. Biri deyir, maşınlarında oyunbaz qızlar olub, yeyib-içib keflləndiklərindən gözləri ayaqlarının altını görməyib. İkincisi ağzını boş qoyaraq deyir ki, narkotikadan istifadə eləyiblər. Üçüncüsü bildirir

ki, "Ülfət pozğundu", "pulgirdi", "puldan ötrü Eyyubla Bayrama qəsd eləyib". Dördüncüsü, "guya, Salehdən acığın gəldiyi üçün bu qəsdi Ülfətə sən sifariş vermisən..." deyir. Bir sözlə, hərənin ağzından bir avaz gəlir. Eşidənlər bu şayiələrin içərisində çaş-baş qalırlar.

— Görünür, hadisəylə bağlı məlumat azlığı var adamlarda. Ona görə də şayiələrə əl atırlar. Həqiqəti zərərçəkmişlər ki, bilirlər.

— Qəribədi, ay Ümid. Söz olmayanda, adamlar da qoyun kimi kövşək çalırlar.

Ümid güldü:

— Ağız vərdişdən düşməsin deyə, ay Mürvət, insanlar daim gündəmdə olmaq istəyirlər. Ona görə də şayiə yayırlar.

— Hə, bunu yaxşı dedin, Ümid.

— Maraqlıdı... Yaxşı, o şayiələri yaradan kimlərdi? Onların belə şayiə yaymaqda məqsədləri nədi?

— Mən hardan bilim? Elə sual verirsən...

Mürvət güldü. Sonra sözünə davam elədi:

— Lap təxribat xarakterli.

— Ayə, Mürvət, ürəyinə başqa söz gəlməsin. Axı, adamlar arasında sən çox olursan. Axın-axın, yığın-yığın gələn bu şayiələr adamların bizim barəmizdəki düşüncələrinə, daha doğrusu, istəklərinə uyğun gəlirmi? Səncə, bu şayiələr bizə özünü dost kimi qələmə verənlərdən gəlir, yoxsa düşmənlərdən?

Bu yaşa elə-belə, gözüyumulu gəlib çıxmamışıq, Ümid. İndi adamın üzünə baxırsan, dərhal da niyyətini anlayırsan, danışmasına ehtiyac qalmır. Ancaq bu sözü üzə deyən yoxdu. Hamı eşitdiyini danışır. O da gəlib dolayısı ilə bizə çatır. Baxanda, sözün nə məqsədlə deyildiyi məlum olmur.

— Özünü dost kimi qələmə verənlərlə düşmənlər — hər ikisi bir bezin qıraqlarıdı. Bu ifadələr kimlər tərəfindən deyilsə də, nəzərə alaq ki, xalqa transfer olunur. O da var ki, adamlar şayiələrə daha tez inanırlar. Deməli, şayiələrə nə baş aparaq, nə də





onları özümüzə artıq yük eləyək. Mənsəbi olmayan selin arxası tez kəsilər.

— Axı, şayiələr cəmiyyətə təsirsiz ötüşmür.

— Doğrudu, ötüşmür, ancaq üstünü tez toz alır. Arxasınca da həqiqət gəlir. Adamlar aldandıqlarını görəndə, həqiqətə meyillənirlər, Mürvət.

— Bu adamlar nə təhər şeydilər, əə? Biri dağa baxır, o biri arana. Çoxu da hara baxdığınının, nəyə baxdığının, nə üçün baxdığının fərqinə varmır.

— Kefini pozma, Mürvət, dünya belə gəlib belə də gedəcək.

— Məni yandıran məsələdən yarı-yarımçıq hali olanlardı. Onlar tez-tez başqalarına yaxınlaşırlar, — guya, müəmmalı sirr baş verib, — onun mahiyyətini heyrətlə öyrənməyə çalışırlar. Sanki bunlara halva dürməyi verəcəklər. Əşi, hələ bunlar yaxşıdı ağızlarına su alıb duranların yanında. Onlar ilk baxışda özlərini baş verənlərdən xəbərsiz-ətərsiz kimi aparırlar. Əslində, bu əllaməçilərin içəridə hədəfi də birdi, nişangahı da... Bunlara nə deyəsən?

— Zeynəb qarı deyərdi: "Zırramalar".

Ümid başını qaldırıb əllərilə əkdiyi, becərdiyi ağaclara, güllərə baxdı. Hər biri göz oxşayırdı. Kişi köksünü ötürüb başını yellədi. Sonra təəssüf hissilə dedi:

— Düşünürdüm ki, bu bağı iki hissəyə bölərəm. O biri tərəfini Kənana verərəm. Üstündə təzə ev tikərəm. Evləndirəndən sonra Kənan ailəsilə orda yaşayar. Bura da mənimlə Ülfətin... Deyəsən, arzum ürəyimdə qalacaq, Mürvət.

Ümid kövrəldi:

— Oğul dərdi çox ağırmış.

— Elə demə, Ümid. Gələcəyi görmək olmur.

— Bu günü ki, görmək olur. İki ölüm, bir xəstə. Məhv olan ömürlər... Mənə ən çox təsir eləyən Salehin hərəkətləridi. Mən onda insanlıqdan əlamət görmədim. Bu adamın təkcə bizimlə

deyil, inanmıram ki, başqalarıyla da ziddiyyətli, dolaşıq və düşmənçilik əlaqələri olmasın. Sabah Salehi də qətlə yetirsələr, yaqin qohum-əqrəbaları mənim yaxamdan yapışacaqlar. Nə yaxşı ki, lap əvvəldən bizim Salehlə elə ziddiyyətli əlaqələrimiz olmayıb.

— Sizi onunla üz-üzə gətirən müstəntiqdi. Onun da ideoloqu prokurordu. Bir də səni istəməyənlər, gözləri götürməyənlər. Bu oyunda sən günahsızsan, Ümid.

— Düz deyirsən, Mürvət. Burda təsadüfdən söhbət gedə bilməz. Hər şey ölçülü-biçilidi. Yaxşı, əleyhdarlarımı ara qarışdırmağa vadar edən motiv nədir?

— Pul... Paxıllıq... Gözügötürməzlik. Mərdimazarlıq...

— Saleh əsəbi, pulgir, burnundan qabağı görməyən, müstəntiq isə eynən bu qüsurlara sahib olmaqla yanaşı, həm də təkəbbürlü, nəfsigir adamdı, Mürvət. Xərcsiz-xəracsız onlarla dil tapıb, yola getmək çox çətindi.

— Ümid, eşitməmiş olmazsan.

— Nəyi?

— Hırla gələn zırla gedəri.

— Allahın nəzərindən, deyəsən, kənarda qalan şeylər də var, Mürvət.

— Əstəğfürullah. Sən əsəbisən. Gərək özünü ələ almağı bacarasan... Allahla işin olmasın, Ümid.

— Axı, bu dəyyuslar, hər sözün içərisindən bir qəmbərqulu çıxarandılar. Adamları ələ salırlar, təhqir eləyirlər. Onlara şəbədələr qoşurlar.

— Tamamilə doğrudur. Bu boyda xarabada bunların qabağına çıxan yoxdu. Hamını eləyiblər basarlı. Qorxaq... Yaltaq... Yalaq...

— Görünür, kimlərəsə arxalanırlar. Bağlıdılar. Onlara arxa çevirmək, etibar eləmək olmaz. Ağlagəlməyən yerdə kiçicik inciklik üstə adama öldürücü zərbə vurarlar.





— Bu dəyyusların canlarında kələkbazlıq və dələduzluq dərin kök salıb, Mürvət.

— Onlar əzizlərinə, lap ata-analarına, bacı-qardaşlarına, övladlarına da atırlar.

— Sonra da ədəb-ərkandan, xeyirxahlıqdan və mərhəmətdən danışırlar. Müstəntiqə güvənən Salehin kimliyini, nə ilə nəfəs aldığını, məşğuliyyətini yaxşı bilirik, Mürvət.

— O, sinəsini qabağa verib elə adamların adlarını çəkir, onlara göstərdiyi xidmətdən ağızdolusu danışır, özün də məəttəl qalırsan: filankəsi mən kişi elədim; filankəsin o vəzifəyə gəlməsində mənim xidmətlərim var; filankəsi mən həbsdən qurtarmışam; ağır xəstələnən filankəsi öz xərcimlə müalicə elətdirmişəm; icra başçısı ilə yaxınıq; nazirlə qardaş kimiyik, aramızdan su keçmir... Hansı səviyyədə kimin ehtiyacı olsa, mən ona kömək əlimi uzada bilərəm... Bunlar hamısı yuxarılara bağlılığa sezilməz, məchul işarələrdi, Mürvət. Bunu beş yaşlı uşaq da dərk eləyə bilər.

— Ha... Ha... Ha... İşə bax , oyundu ey, Ümid.

— Zavallılar da gözlərini döyə-döyə onun ağzına baxırlar. Dara düşənlər də bərk ayaqda onun yanına qaçır, gümanı gələn pullarını verib imdad diləyirlər. Onlar da həmin adamların başına gecədən qaranlıq oyunlar açırlar. O zavallıları o qədər fırladırlar ki, onlar bezir, əllərilə verdiklərindən imtina edir və verdiklərinə də birdəfəlik tüpürürlər.

— Özlərindən uzaqlaşmayanlara neyləyirlər, Mürvət?

— Elə dolaşıq işlərdən bilirsən ki, xəbərsizəm, Ümid.

Ümid gülür.

— Ha... ha... ha... Onlara da min cür hədə gəlirlər: səni tutduraram, məhv elətdirəm, öldürtdürərəm... deyirlər. Direşənləri get-gələ salır, axırda şərləyirlər: sən oğrusan; cibgirsən; evlərə basqın eləyənsən; sənin verdiklərin saxta çıxdı... Səni verərəm polisə, dərini boğazından çıxararlar...

— Bu boyda dələduzluğu görən yoxdu?

— Hər şey görünür, Mürvət. Görünməyən tək Allahdı.

— Yaşlandıqca insanlara inamım itir.

— O inam axıra qədər kimdə qalır ki?

— Düz deyirsən, o inam qalsaydı, valideynlə övlad arasında ixtişaş olardımı? Ata-ananı qocalar evlərinə atmazdılar. Umukūsü saxlamazdılar.

— Dostum, dünya çox hoqqabazların əlində oyuncağa dönüb. Adamlar da bu saxta dünyanın min sifətli oyunçularıdı. Ona görə də deyirlər: bu dünyaya, insanlara etibar eləmək çox çətindi. Elə ağlagəlməz yerdə, elə mötəbər adamdan elə hoqqabazlıq görürsən, özün də az qala, ayaq üstə quruyursan. Oturub ağlına gətirəmmədiyin bu əcaib hərəkət barəsində hey düşünürsən. Bu hoqqa ona yaraşandımı? Mən necə? O, alçağın elədiklərinə layiqəmmi? Fikirləşə-fikirləşə qalırsan. Mən neyləyim, gedim onu vurub öldürüm? Lap tutalım öldürdüm. Qatil, cani olmaq necə? Bu yaşda gedib türməyəmi düşməliyəm? Bu, mənə yaraşarmı? Bəs, el-oba mənim barəmdə nə düşünər? Ailə necə olsun? Fikirləşdikcə, gedib dalı çıxır boz yovşanlığa. Axırda əlacın kəsilir. Öz-özünə deyirsən: səni Allaha tapşırıram. Seyid Fatmanisə belini qırsın. Onların da səbri çox...

— Axı, o Fatmanisə kimdi?

— Ayə, kim olacaq? Bizim regionun din sahibi. İşi-gücü qələm çalmaqdı. Deyirlər, cəddi çox kəsərlidi. Üzünə baxanda içini oxuyur... Axı, bayaq onu deyirdim. Allah da, bu region övliyası da səbr elədikcə, ağır yük qalır üstündə. Yana-yana, cızdağın çıxa-çıxa partlayırsan... Həqiqəti üzə çıxarmaq çox çətindi.

— Lap tutaq ki, güc-bəla ilə həqiqəti çıxartdın üzə. Nə olsun? Sübut eləyə biləcəksənmi, Ümid?

— Yoox...

— Heç ona təşəbbüs də göstərmə. Heç nə alınmayacaq. Üstəlik, sənə dərd-sər olacaq.





— Zeynəb qarı deyərdi: Həqiqətin rəngi, görkəmi o qədər də üzə çıxmır. Pərdə arxasında qalır. Yalana nə var? Rəngi parlaq, dadı şirin. Özü də cəlbedici. Lap aralıdan baxanda adama gəl-gəl deyir. Çılpaq həqiqəti heç kim görmək istəmir. Çox zaman da adamın ondan zəhləsi gedir. Qarının qənaəti budur ki, həqiqəti gözə soxmaq, üzə çıxarmaq üçün gərək onun böyrünə şirin, parlaq yalan qatasan. Onda onu əldə eləmək üçün acını şirindən, ağı qaradan ayıra bilərsən. Özgə cür çox çətindi.

— Qarının sözündə, Ümid, böyük həqiqət var. Bəlkə dünyanın dərk olunmaması da, möcüzəsi də elə bu deyilənlərdədi.

— Qarının izhar elədiyi məntiqi nəticələr öz şəxsi baxışlarını əks etdirir. Kaş belə olaydı. Əziyyəti hədər getməyəydi. Onda bu, mənə daxili sakitlik gətirərdi. Cəsarətlənərdim. Dünyaya və insanlara baxışım dəyişərdi, Mürvət.

— Ümid, insan çətin varlıqdı. Doğrudu, şüuru var. Məncə, o şüur bütün canlılarda var. Ancaq davamsızdı. İnsan onlardan əsaslı şəkildə fərqlənir. İnsan ən çox keçmişilə yaşayır, onunla öyünür. Özündəki zəhlətökən xisləti — pula hərisliyi, qeybəti, paxıllığı, mərdimazarlığı... hansını deyim, — unudur. Bütün bunlar bizim canımıza, ruhumuza hopub. Saleh də, müstəntiq də, elə bayaq barələrində danışdığımız iftiraçılar da o qəbildəndilər. Kimin qüsurunu ağzına alırsansa, üzünə çırpırsansa, kimi müalicə eləmək istəyirsənsə o, sənin düşündüklərinin əksinə olaraq, rəzilləşir, həqarətlə sənə baxır — təkcə baxsa, nə var ki — səni didib parçalamağa da hazır olur... Yaşadığımız həyat çox çətindi. Çox şeydən baş çıxarmaq olmur. Ələlxüsus da insanların xislətindən.

— Az yaşım yoxdu, Mürvət. Dünyanı ələyib xəlbirdən keçirmişəm. Nəyin yaxşı, nəyin pis olduğunu bilirəm. Hələ ağlımı itirməmişəm. Yaddaşım da öz yerindədi. Məntiqim də qaydasındadı. Belə qənaətə gəlmişəm ki, xoşbəxtlik özü də insan üçün çox qorxuludu. Başa bəla açandı. O, insanda sağalması

mümkün olmayan lovğalıq, təkəbbür, özündənrazılıq, başqalarını saymazlıq, ayaqlamaq, alçaltmaq, əzmək kimi, hansını deyim, — əcaib xəstəliklər törədir.

— Biz çox naqqallıq elədik. Amma belə söz-söhbət gəzir ki, — bəlkə də uydurmadı, — guya, sən Salehin ölümü barədə sifariş vermisən.

— Nə sifariş?.. Kimə?.. Onu deyənlər çoxdu. Hər deyilənə fikir vermə.

Ümid güldü, sonra sözünə davam elədi:

— Mən səfehi öldürtdürənəm? Ona inanırsan? İkincisi də, mənim elə adamım, ya pulum hanı? Sifarişi Mürvət, pulla verirlər. Gərək ki, mənim nəyim var, nəyim yoxdu, sənə məlumdu.

Ümid sözünə ara verdi. Fikrə getdi. Sonra sakit səslə dedi:

— Bəlkə də sifariş pərdəsinin arxasında düşünülmüş hiylələr yatır.

— Səncə, o pərdənin arxasında kimlər dayanar, Ümid?

— Deyə bilmərəm. Bəlkə qəsddən məni gözə soxurlar. Sonra bildiklərini eləsinər. Saleh səfeh, özünü itirmiş adamdı. Məncə, bu səmti, hara atılması bilinməyən daşdı. Bəlkə də, o, Salehi qorxutmaq üçün hesablanmış şayiədi?.. Məddahlıq, eqo, rəhmsizlik, yalan, şər, şantaj... Bunların hamısı bu və ya digər dərəcədə insana qəsddi. İnsan çox sirli, möcüzəli məxluqdu. Ondan nə desən, gözləmək olar... Bu yaşda işimiz qalıb Allaha. Həmişə demişəm, indi də təkrarlayıram. Salehin arxasında müstəntiq dayanıb. Onların hər ikisinin başı boşdu. Ancaq müstəntiqin ədası çox yüksəkdi. Hamını özündən çəkindirir.

— Hamını yox... Axmaqları. Özü özündən hürkən səfehləri.

— O özünü çox ciddi, sərt göstərməyə çalışır. Əlbəttə, ciddiyyət də, sərtlik də onun ədasından doğur. Özümə söz vermişəm ki, onlarla danışmayım, kəlmə kəsməyim. Onlarla üz-üzə gəlmək mənim üçün ağırdı. Onları görəndə, ya onlarla kəlmə kəsəndə, elə bilirəm sinəmdən daş asılır, ürək yox...





## Satqınlığın nəticəsi

Ülfətin vəziyyətinin getdikcə ağırlaşdığını hiss eləyən Səfurə içini didib-dağıdırdı. Nə edəcəyini bilmirdi. Gümanı təkcə həkimlərə qalırdı. Özü də gəlib-gedib həkimlərə yalvarırdı:

— Rəhminiz gəlsin, mənim balama; nə sözünüz var, nədən çatışmazlığınız var, mənə deyin, çəkinməyin; pul istəyirsiz, pul verək... Hərdənbir də əsəbdənmi, ya nədənsə həkimlərə — gücünüz çatmırsa, deyin, cavan oğlanı gözümüz baxa-baxa əlimizdən verməyəcəyik ki, bəlkə başqa həkimə müraciət eləyək, — deyirdi. Dedikləri də həkimlərə xoş gəlmirdi. Bəzən də onları narazı salırdı. Çox çəkmirdi ki, Səfurə dediklərinə ciddi peşman olur, üzr istəməsə də, həkimlərin böyür-başına dolanır, onların qəlblərini xoş sözlərlə almağa çalışırdı. Bunu həkimlər də, tibb bacıları da duyurdular. Hətta tibb bacısı Günəş bir dəfə Ülfətə çatdırdı: "Anana de, həkimlərə toxunan, qəlbqırıcı söz deməsin... Onlar narazı qalsalar, birbaşa zərərini sən dadacaqsan... Qorxuram... Hər gün səninlə görüşə bilməsə də, Əfsanə vəziyyətini məndən soruşur. Bəzən də səndən ötrü göz yaşları axıdır".

Günəşin dedikləri Ülfəti halbahal elədi. Oğlanın üzü ağardı, yanaqlarının əti əsdi, dodaqları titrədi. Astadan pıçıldadı:

— Əfsanə... Əfsanə... Mənim həyatım... Səni xoşbəxt eləyə bilməyəcəm. Sən ki, bunu bilə-bilə hansı cəsarətlə barmağıma üzük taxdın? Bu azmış kimi, "kəbinimizi göydə mələklər kəsib" dedin. Sən çox cəsarətlisən. Açıqsan... Ürəyi təmizsən...

Bu sözləri deyə-deyə Ülfət gözlərini yumdu. Sifəti bir qədər də ağardı. Lap ağ kağızı xatırlatdı. Elə ağardı ki, hətta sərt və donuq hal aldı. Üst dişləriylə alt dodağını bərk-bərk sıxdı. Alnında, burnunun üstündə xırdaca qırışlar yarandı. Qalın qaşları çatıldı, üzünün sərt ifadəsi bir qədər də müəmmalaşdı. Günəş

sakitcə onun çarpayısına yanaşdı. Əlini alnında, üzündə gəzdirdi. Nəbzini yoxladı. Sonra da qan təzyiqini ölçdü. Hər şeyin qaydasında olduğunu gördü. Buna baxmayaraq, soruşdu:

— Ülfət, sənə nə oldu? Özünü pis hiss eləyirsənsə, de, həkim çağırım.

— Yox... Narahat olma, Günəş. Yaxşıyam. Xəyalım məni bir anlığa sağlam, özümü xoşbəxt sandığım çağlara qaytardı. Yaşamaq, sağlamlıq necə də gözəldi?!. Kaş mən sükan arxasına oturmayaydım. Onda nə dostlarımı, nə də özümü tufana salardım. Biz dostlar özümüz barədə nə qədər yüksək fikirdə olmuşuq. Heç ağlımıza da gəlməzdi ki, taleyimizə belə bir müsibət yazılıb... Nə isə...

Günəşin gözləri doldu. Kiprikləri ağırlaşdı. Gözlərində gilələnən yaş yanaqlarına süzüldü. O, göz yaşını əlinin içi ilə sildi. Elə bu vaxt palatanın qapısı açıldı. Ümidlə Səfurə içəri girdilər. Ümidin əlində kiçik solofan torba vardı. O, torbanı dolabın üstə qoydu. Ər-arvad hərəsi çarpayının bir tərəfindən Ülfətə yaxınlaşdı. Ana da, ata da növbə ilə Ülfətin üzündən öpdülər. Səfurə əllərini oğlunun sinəsində, alnında gəzdirdi. Hərarəti olmadığını görüb dedi:

— Ağrın-acın yoxdu ki, oğlum?

— Belə də...

Ümid oğluna təskinlik verdi:

— O boyda qəzadan çıxıb, təhlükədən xilas olub... Ağrı-acı olacaq da.

Səfurə:

— Narahat olma. Həkimlər deyirlər, qorxu-hürkü geridə qaldı. İnanıram, hər şey yaxşı olacaq. Bir də ki, biz kimə neyləmişik? Allah da bizi cəzalandıra. Bilirəm düşündüklərini. Hər şey yaxşı olacaq. İndi həkim də gələcək. Müalicə düz gedir. Dava-dərmanlar da var. Biz nə qədər sənə təskinlik versək də, narahatçılığın xəstəxanadan çıxıncayadək olacaq. Neyləmək olar?





Bu iş tək bizim başımıza gəlməyib ki? Xəstəlikdən heç kəs sığortalanmayıb.

Elə bu vaxt Ümidin gözləri Ülfətin barmağındakı nişan üzüyünə sataşdı. İstədi, üstünü vurmasın. Bu barədəki söhbəti sonraya saxlasın. Üzük Səfurənin də gözlərindən yayınmadı, dərhal soruşdu:

— Ədə, bu nədi? Bizi dəli eləmisən, oram ağrıyır, buram ağrıyır deməkdən. Özün də çöp altında dəyirman tikirsən. Üzüyü barmağına bizdən xəbərsiz taxırsan?

Ümid:

— Saqqalın ağarsın. Sözün var, aç bizə də de. Bəyəm, biz sənə mane olacağıq?

Ülfət:

— Xəstəxanadan çıxanda danışarıq. İndi o söhbətin yeri, vaxtı deyil, ata.

Ümid divardan asılan saata baxdı. Axşama yaxınlaşırdı. O, sakit və yavaş addımlarla dəhlizə çıxdı. Qəhərini boğub geri qayıtdı. Səfurə çarpayının qırağında oturub Ülfətin saçlarını sığallayırdı. Ümid gəlib stulda əyləşdi və dedi:

— Ömür hər iki tərəfi hüdudlanmış zaman çərçivəsidi. Ölçülü zaman bitəndə, ömür qapanır. Səadət də əbədi deyil, müvəqqətidi. Dahilərin sözüdü: səadət, xoşbəxtlik odur ki, insan yaşayır. Kim özünü bədbəxt sanırsa, deməli, xoşbəxtliyini dərk eləmir... Fikir fikir gətirir. Hər kəs fikirləşməlidir ki, o, yaşayır, yaşayırsa, xoşbəxtdir.

Səfurə:

— Yüz dəfə sənə demişəm, elə danış, mən də başa düşüm. Heç hənanın yeridi? Bura xəstəxanadı, fəlsəfədən mühazirə oxumaq yeri deyil.

Ülfət gülümsündü:

— Ana, atam dedikləri cəfəngiyyat deyil, elmdi. Həyatın özüdü. Gərək atamı başa düşəsən.

Səfurə:

— Mən cəfəngiyyat demədim, oğlum, fəlsəfə dedim.

Ümid:

— Danışmaq mənim hüququmdu. Vicdan və düşüncəsə haqqımdı.

Səfurə:

— Bu danışığındı ki, hamı səndən istifadəyə can atır. Özün isə özünə yamaq sala bilmirsən. Həmişə də adamlarla ixtilafdasan. Bir Salehi yola gətirə bilmirsən, dilin də olub bir arşın.

Ülfət:

— Ana, atamla elə danışmağı neçə dəfə sənə qadağan eləmişəm.

Səfurə:

— Mən kim üçün danışıram?

— Hər kim üçün.

Ümid gülümsündü:

— İxtilaf... Bir azdan deyəcəksən ki, guya, Salehlə mən qan düşməniyəm. Yekə adamsan, qurama söz-söhbəti qurtar. Səfurə, sən çox şeyi bilmirsən. Saleh müstəntiqlə əlaqəyə girib qan-qan deyir. Özü də puldan ötrü. Onunla danışmaq, onu yola gətirmək müşkül məsələdi. Onunla söhbətə otursam, ya mən onu öldürməliyəm, ya da o məni.

Ülfət:

— Ata, yalvarıram sənə, məndən ötrü heç kəsə ağız açma. Öldürmüşəm dostlarımı. Onlar torpaqda çürüyürlər. Mən də sağalası olsam, cəzamı çəkməliyəm. Özü də sözsüz-söhbətsiz.

Səfurə ərinə əsəbiləşdi:

— Görəsən, sən ağılda adam bu yaşa necə gəlib çıxıb, ölməyib?

Ülfət:

— Ana...

Ümid:





— Məni təhqir eləyirsən.

Səfurə:

— Səni təhqir eləyənin lap atasına lənət.

Ümid:

— Oğlum, bir əhvalat düşdü yadıma. Bir gün Qaçaq Nəzər evdə oturubmuş. Dostları ona deyirlər ki, səni Fırtına Həsən təcili axtarır. Qaçaq Nəzər onlara inanmır. Hələ üstəlik, deyir:

— Lazımamsa, özü yanıma gəlsin, mən ondan əskik kişinin oğlu deyiləm. Mənim atam da, özüm də Fırtına Həsəndən artığam. Lotular bu söhbəti yerli-yataqlı Fırtına Həsənə çatdırırlar. Fırtına Həsən təəccüblənir. Söz ona bərk təsir eləyir. Aradan xeyli keçir. Bir gün Fırtına Həsən Qaçaq Nəzəri yanına çağırıb deyir:

— Mənim bir öküzüm var, o yaman xəstələnib, gedək sən də ona bax.

Onlar bir-birilərinə qoşulub gedirlər tövləyə. Qaçaq Nəzər tövlədə öküzü görməyəndə Fırtına Həsənin barəsində danışdıqları yadına düşür. O, deyir:

— Həsən, camaat, bu yaşadığımız el-oba sənə “Fırtına”, mənə də “Qaçaq” ləqəbi qoyublar. Gəlsənə məni buraxasan gedim balalarımın yanına. Yazığam, sənin özün özümdən, atan da atamdan artıqdı.

Fırtına Həsən bığaltı gülümsəyib deyir:

— Yox, Qaçaq Nəzər, səni öldürməyəcəm. Arxayın ol.

— Bəs neyləyəcəksən?

— Qulağını kəsəcəyəm.

Qaçaq Nəzər xeyli fikirləşir. Əvvəl Fırtına Həsənin sözünə inanmır. Fırtına Həsən bıçağı cibindən çıxaranda Qaçaq Nəzər ağlayır:

— Fırtına Həsən, küçüyün qulağını kəsməklə tula olmaz. O yenə böyüyüb it olacaq.

— Yox... Məni tovlaya bilməzsən, Qaçaq Nəzər. Qulağını

kəsəcəyəm, bütün itlər biləcək ki, görünüşünüz tulaya oxşasa da, sən də onlardansan, xislətiniz birdi. İndi Səfurə, sən məni niyə məcbur eləyirsən? Salehi Qaçaq Nəzərin yolu ilə göndərsəm, məndən razı qalarsanmı? İmkan ver, özümüzə gələk. Uşağın yanında hər şeyi danışma. Saleh həyasız, qabiliyyətsiz və cəfəng adamdı.

## Prinsipə sadiqlik

Mürvət Ümiddən xəbərsiz Salehlə görüşmək, onunla söhbət eləmək qərarına gəldi. Düşündü ki, hər bir insan nə qədər əclafdısa, ola bilməz ki, onun da deyiləni başa düşmək, anlamaq cəhəti olmasın. Ucdantutma hamıya pis, yaxud yaxşı damğası vurmaq da düz deyil. O, Salehin yaşadığı ünvanı bir daha dəqiqləşdirdi. Nədən danışmaq, necə danışmaq barədə də əməllicə-başlıca düşündü. Özü üçün bir yaddaş planı da hazırladı...

Bazar günü idi. Axşama az qalırdı. Hava da küləkli idi. Mürvət maşına oturub Salehgilə getdi. Qapını döydü. Çox çəkmədi ki, qapı içəridən açıldı. Qarşısında pijamalı, çalsaqqal bir kişi dayandı. Nədənsə əvvəl Mürvət onu tanımadı. Salam verib sonra da: — Salehin evidi? — deyə soruşdu. O, dərhal: — Bəli, Salehin evidi, — cavabını verdi.

Mürvət:

— Saleh sizsiniz?

— Bəli...

— Sizinlə söhbətim var. İcazənizlə otağa keçə bilərəmmi?

— Axı, siz kimsiniz? Mən hər küçədən keçəni evimə buraxa bilmərəm ki?

Mürvət duruxdu, əvvəl istədi: — Bağışlayın, — deyib geri qayıtsın, sonra da düşündü ki, balam, kişi düz buyurur, mən onun üçün kiməm, adi bir adam. O, hardan bilsin ki, mən nə ağılın sahibiyəm, niyyətim nədi? Ona görə də o, Salehin cavabına məntiqə əsaslanaraq haqq qazandırmalı oldu. Dərhal da dedi:





— Saleh qardaş, mən sizin müsibətinizlə — oğlunuzun qəzası ilə bağlı gəlmişəm. Gəlişim də biləsiz ki, xoşməramlıdı.

Saleh bir an dayandı. Sonra dedi:

— Mütləq evdə danışmalıyıq?

— Evdə danışmaq, məncə, pis olmaz.

— Yox... Siz düşün aşağı, yolun o biri üzündə — bizim binaya əks tərəfdəki parkda əyləşin, mən də paltarımı dəyişib gəlirəm.

Əlacsız qalan Mürvət Salehin dediyi parka getmək üçün döndü ki, arxadan pilləkənlə gələn yaşlı qadının səsi eşidildi:

— Aaa... Sən Mürvət deyilsən? Sən hara, bura hara?

— Mürvətəm, Nülufər. Sən də bu binada yaşayırsan?

— Yoox... Salehgildən hal-əhval tutmağa gəlmişəm. Saleh mənim əmioğlumdu. Saleh, qonağı içəri niyə dəvət eləmirsən?

Saleh sualdan çaşdı. Əvvəl nə deyəcəyini bilmədi. Tez də özünə düzəliş verdi:

— Məxfi söhbətimiz var.

— Evdə eləyin də.

— Yox, qonaq darıxır. Getməlidi.

Söhbəti uzatmağa lüzum görməyən Mürvət Nülufərlə xudahafizləşdi. Pilləkənləri ağır-ağır enib parka getdi. Uca şam ağaclarının altındakı skamyada əyləşib Salehin gəlişini gözlədi. O, öz-özünə dedi:

— Ayə, bu Saleh nə kobud, qanmaz adamdı? Gərək gəlməyəydim. Ümid ağıllı adamdı. Görünür, bunun barəsində məlumatı var. Yoxsa, danışmağa özü niyə gəlmir ki? İndi qayıdıb getməyim də kişilikdən deyil. Gəl, adamlığı çatmasa da, qapısını döy, danışmaq üçün yer seç, sonra da gözləmə get. Buna deyərlər nadanlıq. Ən azı Salehin səviyyəsinə düşmək.

Mürvət düşüncələrə dalmışdı ki, bir də gördü Saleh qoltu-

ğunda kiçik kağız bağlaması gəlir. Mürvət onu görən kimi adətinə uyğun olaraq ayağa qalxdı. Bir də salamlaşdılar. Saleh Mürvətə dedi: — Gəldim görüm, sən nəkarəsən, nə məqsədlə Bayramın qəsdi ilə maraqlanırsan?

Mürvət dönüb Salehin üzünə baxdı. İstədi desin, ayə, yekə kişisən, bu nə danışıqdı? Ədəb-ərkanın olsun. Sonra nə fikirləşdisə, səbrini basmağa üstünlük verdi və söhbətin səmtini qəsdən Nülufərlə tanışlığının üstə gətirdi.

— Biz Nülufərlə bir məktəbdə oxumuşuq. Yaxşı tərbiyə almış, nəzakətli qız idi.

Mürvət başını qaldırıb parkda gəzişənləri, əyləşib söhbət eləyənləri süzdü, sonra dərindən ah çəkdi və sözünə davam elədi:

— Dərs əlaçısı idi... Qaraşın, qurğaz müəlliməmiz Vüsalə xanım həmişə çalışqanlığına, rəftarına görə bizə nümunə göstərərdi, Nülufəri. Nülufər ailəlidir?

— Yox... Nülufər korkəsməz ərə getdi. Sonra da ayıldı.

Bu sözlər Salehə maraqsız göründü. Gözlənilmədən dedi:

— Uşaqlıq dünyası. O dünyada hamı yaxşı olur. Böyüdükcə adamların zibili çıxır. Keçmişi xatırlayıb özünə zülm eləmə.

Mürvət bu sözdən çaşdı. Bir an dayanıb dedi:

— Nə?.. Axmaqlıq?.. Dünyanın işi oyundu da... Başqa sözlə, gülüş doğuracaq xatırlama... Saleh, mən necə adamam?

— Adi... hamı kimi.

— Necə yəni, hamı kimi?

— Əşi, tutaq ki, ciddi, sərt... Yaxud, deyən-gülən, zarafatçıl və s. və i.a. Məni dolama da. Mal istəyirsən, qədərini de, üstümdə var. Başqa sözün var, onu da de. Yoxsa, düşmüsən üstümə ki, mən necə adamam? Adə, mən ekspert-zadam?

— Ancaq Saleh sən çətin adamsan. Sözü necə gəldi, qarşındakını dəyərləndirmədən tulazlayırsan. Doğrusu, düşünürdüm ki, sən də əmiqızının tərbiyə aldığı gözəl və sağlam ailə mühi-





tindən çıxmısan. Deməsəydin, ağlıma gətirə bilməzdim ki, sən o nəzakətli xanımın yaxın qohumusan.

— Necə yəni?

— Əzazil, kobud, amansız, ziyanxor adamsan.

Saleh tutuldu. Sonra əsəbi halda dedi:

— Mənə bunları deməyə gəlmişdin?

— Əsla yox...

Saleh yenə duruxdu. Boğazını arıtladı. Sonra aramla dedi:

— Mən Nülufəri çox istəyirəm. Elə o da məni. Mən həyatımı ona qurban verərəm. Onun bir kəsili dırnağını dünyaya dəyişmərəm. Ancaq bu o demək deyil ki, mən əmiqızının əsiriyəm. Onun dediklərinin hamısı mənim üçün qanundu. Əsla yox...

— Çox ziddiyyətli, incimə, bir az da dolaşıq adamsan. Müdriklər yaxşı deyiblər: — Dənizin dadını bilmək üçün bütün dəryanı içməyə ehtiyac yoxdu, bir damla da bəs edər... Siz başqa-başqa adamlarsız. Əxlaqınız, həyata, insanlara münasibətləriniz tam fərqlidi.

— Yaxşı kişilər qadınlar barədə pafoslu fikirlər söyləməzlər. Eşidən naxələflər ağlagəlməz biədəb fikrə düşərlər. Bir sözlə, məni oğraş, səni dəyyus adlandırarlar.

Mürvət diksindi. Nə deyəcəyini bilmədi. Astadan pıçıldadı:

— Bəli, yersiz xəta diş sındırar.

Saleh dedi:

— Məni yorma, keç mətləbə. Vaxtım azdı. Söhbətimizin yarımçıq qalmasını istəmirəm. Sözünü de, cavabını da al.

Mürvət əsəbdən səsi titrəyə-titrəyə, bədəni əsə-əsə dedi:

— Ümidə, onun ailəsinə yaxın adamam. Rəhmətlik Bayramın hüzründə də sizinlə görüşmüşəm. Dərdinizə yenə deyirəm: şərikəm... Bilirəm, çox yanıqlısız. Yaralarınız sızlayır. Qaysaqlanması üçün uzun vaxt lazımdı. Cavan oğul itirmək çox çətindi.

— Çıxara yol vermə. Çalış yeni söz, yeni fikir söylə. Sənin

dediklərini hamı bilir. Qısa, konkret, maraq doğuran.

— Hə...

— Oxuyanlar yaxşı bilirlər, mən də yaxşı qəzəllər yazıram, Mürvət. Qəzəldə artıq sözə, hecaya, səsə gərək yol verməyəsən. Verdinsə, tulla getsin. O dediklərin söz yığını olacaq.

— Hə...

— Hə... Mənə ağıl verməyə gəlmisən? Ümid kişi olsaydı, indiyə qədər gəlib dərdini özü deyərdi. Dostundu, qardaşındı, bilmirəm. Mən Ümidi o dildə-damaqda qoymayacam. Mən ondan oğlumun qisasını alacağam. Oğlumu min bir əziyyətlə böyütmüşəm. Axmağın birisi, narkoman, əyyaş gəlib əlimdən aldı onu. Ümid niyə qanmır ki, bu işdə namərdlik eləmək olmaz. Hər kəsin balası öz gözündə dağdı.

— Axı, mən bilən, o, səninlə, müstəntiqlə bir neçə dəfə söhbət eləyib.

— Ayə, quru-quru nə söhbət? Mən elə dəyyusu tanımıram, tanımaq da istəmirəm. O, alçaqdı. Mənim düşmənimdi. Düşmənlə nə söhbətə oturmaq? Nə qədər nəfəsim gedir-gəlir, onunla varam. Yüz Ümid kimilər bir Viloşun qolunu qatlaya bilməz.

— Viloşu mən də tanıyıram.

— Bilirsən, nə oğlandı o?

— Bilirəm, Saleh, bilirəm.

— O, on dəfələrlə məndən icazə istəyib.

— Niyə?

— Ülfətlə, onun ailəsilə haqq-hesab çürütmək üçün.

— Saleh, mən gəlmişdim səninlə söhbətə oturam. Hadisədən də xeyli vaxt keçib. Hər iki tərəfin əsəbləri az da olsa boşalıb. Ancaq Ümidin ailəsi olduqca nigarandı. Ülfətin də getdikcə vəziyyəti ağırlaşır. Uşağın ayağa qalxmasına da onun inamı yoxdu. Sən də mənəm-mənəm deyirsən. Sən ağsaqqalsan... Bir ayağın burda — o birisi gorda. Dediyin sözlər sənə yaraşmır...





— Ümidə çatdır. Ölüncə onunla varam...

— Yaxşı, Ümid sənə nə qədər görüm-baxım eləsə, bu düşmənçilik aradan qalxar, barışarsız?

— Mən puldan ötrü eləmirəm. Adamda vicdan lazımdı, bilirsən, vicdan. Kişiliyi çatsaydı, vaxtında gələrdi, ürəyini mənə açmazdı, nə dil bilərdi, nə də diş. Acığına getməsin, Mürvət, Ümid çox yalançı adamdı. O, hər cür alçaqlığı dahiyanə şəkildə əməl səviyyəsinə qaldıran dəyyusdu. Pisi yaxşıdan fərqləndirməyi bacarmayandı. Bir sözlə, ağla qara onun üçün eynidir.

— Saleh, sənin ağlına şəxsən mən şübhə eləyirəm. Sən Ümidi tanıyırsan? Onun insanlığına bələdsən? Yoox... Ağzıbaşına niyə danışırsan? Məni sənin yanına Ümid göndərməyib. Mənim gəlişimdən şəxsən onun xəbəri yoxdu. Gəldim, sizi yaxınlaşdırım. Aranızda sülh yaradım. Sən uçurumun kənarındasan. Vicdan əzabı çəksəydin, oğlun barədə düşünsəydin, belə əttökən sözlər danışmazdın. İstəyinə nail ola bilməyib əsəbiləşirsən. Haldan-hala düşürsən. Səndə ciddi psixi pozğunluq var. Nə qədər gec deyil, həkimə, yaxud psixoloqa müraciət elə.

— Ümid kimi alçaqlar oturduğu yerdə adamı dəli eləyirlər də. Az qalıram, cinayət törədəm, ziyanxorluq eləyəm. Adam öldürəm. Belə yaşamaqdansa...

Mürvət qəsddən:

— Yoox, Saleh, sən ciddi xəstəsən. Psixoloq da sənin karına gələ bilməz. Yaxşı olar ki, psixiatrik xəstəxanaya müraciət eləyəsən.

— Nə xəstə?.. Nə həkim?.. Nə psixoloq?.. Cinayət eləmisən, a dəyyus, gəl heç olmasa xərcinə şərik ol. Ayə, itə də borcluyam.

— A qardaş, yüz dəfə mıs-mıs eləyincə, bir dəfə Mustafa de. Onlar da bilsin işlərini. Xərci nədi, de gedim, alım, gətirim?

— O verəcək?

— Verməz, özümdən gətirərəm.

— Yüz?

— Yüz nə?

— Yüz min dollar...

— Səsimizi kəsirsən, yoxsa?..

— Arvadla belə qərara gəlmişik.

— Yalan danışma. Arvadla yox, müstəntiqlə. Sarsaqlama, Saleh. Şəxsən mənim o müstəntiqdən gözlərim sü içmir.

— Əşi, müstəntiqi bura qatma... Lap onu özümə istəyirəm. Əziyyət çəkib oğul böyütmüşəm... Məni başa sal görüm: qanadı olmayan quş uça bilər? Toxumu olmayan yumurtadan bala çıxar?.. Qarnında qida olmayan adam yaşaya bilər... Doğrudu, nə hır-hıradan, nə zır-zıradan. Oğlum öldü. Bilirəm, günahsızdı. Onun üçün də yeri behiştdi. Bəs qalan?.. Niyə anlamırsız ki, pul qanaddı, pud toxumdu, pul qidadı...

— Ayə, a Saleh, məni başa sal görüm, bu ideyanı da sənin başına müstəntiq yeridib?

— Mürvət, söhbəti çox uzatma, zibili çıxar. Əlacım kəsilib. Bircə çarəm qalıb. Kəsici, deşici, yaxud küt alətlə gedib qisasımı alım Ümiddən, Ülfətdən. Onda da düşünnəm ki, məni salacaqlar içəri. Vallah-billah, ilan Ümiddən yaxşıdı. Onun başı əzilməlidi.

— Niyə?

— Hi... Hi... Hi... Necə niyə? İlan niyə-miyə qanmır. Kefi qalxanda, adamı çalır. Adam da fikirləşir: təqsir özümdədi. Canım çıxaydı, ayaqlarımın altına baxaydım. Mürvət, mən uşaq deyiləm. Barəmdə danışılan hər şeydən xəbərdaram. Mənə narkoman, alkaş, dəyyus rütbəsi qoyublar. Təzəlikcən Ümid də birini verib: Yaramaz... Nə olar? O da onun fikridi. Mən sənə deyirəm və sözüm də qətidi: Yaramaz ləqəbimi doğruldacağam.

— Doğrultmusan, Saleh. Allahından qorxmursan?

— Allahdan qorxmazlar, Allahı sevərlər. Ona inanarlar. Hamı bir-birinə istədiyi rütbəni verə bilər. O rütbəni cəmiyyət qəbul eləmirsə... O rütbə də söz olaraq qalar. Ağıllılıqla ağılsızlıq nisbidi. Əclaflıq da elədi.





— Saleh, bu dünyada yaşamaq çox çətindi. Pislə yaxşı, ağla qara bir-biriləri ilə elə qaynayıb-qarışıblar ki, onları fərqləndirmək çətindi. Söz casusları, fikir oğruları məhdud düşüncəli valideynlərlə övladlar arasına nifaq salırlar. Maraqlıdı ki, söz casusları hər iki tərəfdən hörmət və nəzakətlə qarşılanırlar...

— Söz casuzu, fikir oğruları deyəndə kimləri nəzərdə tutursan...

— Müəllimlərini...

— Yığışdır özünü, başın bədəninə ağırlıq eləməsin. Mənə də Saleh deyərlər.

— Sənə Saleh yox, səfeh deyirlər. Çünki sözə dingildiyənsən. Düşmən öz işini görür, onun üçün nə valideyn, nə də övlad gərəkdi. Bir yolla aradan çıxır. Yadında saxla, sənin tək insan da materialdır. Nisbilik nəzəriyyəsi eşitmisən də, Saleh. Məncə, əclafla əclafa, ağıllı ilə ağıllıya, oğraşla oğraşa o nəzəriyyəni tətbiq etmək mümkündü. Əclafı yaxşıya, oğraşı ağıllıya çevirmək müşkül məsələdi. O cür formalaşan adamlara Naxçıvan duzunu nə qədər sürtsən xeyri yoxdu. İnsan daim özündən mücərrəd şeylər uydurmaqdadı. Adını da qoyur fəlsəfə. Adını nə qoyur-qoysunlar, fərq eləməz, öyrənmişik qürurla başa baxmaq əvəzinə arsız-arsız ayağa səcdə eləməyə. Gülməli deyilmi? Kənardan baxanlar belələrini keçi adlandırırlar. Keçidən ağıl, ya əclaflıq gözləməyə dəyərmi?

— Sən mənim başımı xarab elədin, Mürvət. Əşyaya çevrildim. Bumudur bizim mahiyyətimiz?

— Sənə bir ad qoyaram. Qəbirdə də onu özündən uzaqlaşdıra bilməzsən. Saleh, sən elə nüsxəsən...

— Ümidlə oturan-duran sənin tək olar, Mürvət...

— Ağılla ağılsızlıq insanın taleyini müəyyənləşdirir. Ağıl toxunulmazlıqdı. Ağılsızlığın iki qoşması var. Bilərəkdən ağıl-

sızlıq eləyən xalis oğraşdı. Onun başının gülləsi əskikdi. Yox, bilməyərəkdən oğraşlıq eləyirsə, o, bədbəxtdi. Ona baş qoşmağa dəyməz. İncimə məndən, Saleh, sənin oğraşlığın hansındandı? Bəlkə bu suala özün cavab verəsən?

— Aha... Mürvət, görürəm çənəgirsən, ancaq ağıllı deyilsən. Belə olduğu halda, güman eləmək olar ki, sən də oğraşlar tipindənsən. Ancaq tamam özünəməxsus tərzdə. Barışdırıcılıq missiyasını üzərinə niyə götürmüsən, bilmirəm. Hər halda, hərənin bir prinsipi var. Ağıllının da, əclafın, oğraşın da. Biləsən ki, mən prinsipimə sadiqəm. Xudahafiz.

## Sövdələşmə

Viloş eşidəndə ki, Molla Abbasın təzəlikcə arvadı ölüb, qəlbində o günkü hərəkətlərinə görə peşmançılıq hissi oyandı. O, ayağa qalxıb bazara yollandı. Bir az mer-meyvə, qoz, fındıq, badam ləpəsi aldı. Sonra da Molla Abbası yoluxmağa getdi.

Onu qapı ağzında yaşlı qadın qarşıladı.

Molla Abbasın ikiotaqlı mənzili vardı. Viloş otağa keçdi. Otağın geniş, işıqlı pəncərələri, diqqəti cəlb edirdi, hündür tavanı bir neçə yerdən çat vermişdi. Hiss olunurdu ki, bu çatlar dərin deyil, yalnız çəkilmiş üzlüklərdədi. Ata-babadan qalma mebellərin rəngi köhnəldiyindən solğun görünürdü. Otağın ortasında qoyulan stol və onun ətrafına düzülən stullar da köhnə idi. Stolun üstündəki qənddanda bir neçə konfet vardı. Divarın dibində qoyulmuş divanın ortası çökmüşdü. Pəncərədən asılan pərdələr bir neçə yerdən deşilmişdi. Ancaq evdə yenicə qadın əli gəzdiyindən səliqə-sahman hiss olunurdu. Viloş əlindəki zənbili qapının ağzına qoydu. Çarpayıya yaxınlaşıb iki əlli Molla Abbasla görüşdü. Xəstə olduğu üçün bu neçə vaxtda ayağa qalxmayan, çarpayıya möhtac olan və havaya çıxmayan Molla Abbasın sifətindən yorğunluq yağırdı. Danışığında halsızlıq, baxışlarında narahatçılıq və nigarançılıq duyulurdu. Çox güman ki, evdə qapalı şəraitdə çox qalması onu sıxırdı, bezikdirirdi. O, çətinliklə qalxıb çarpayının ortasındaca oturdu. Soyuqdan qorunmaq üçün kürəyini, çiyinlərini, dizlərinin üstünü yorğanla örtməyə çalışdı. Ancaq onun sinəsi, mədəsinin üstü açıq qaldı. O, ağır-ağır dilləndi:





— Adə, sən o cüvallağı Viloşsan? Atan Semyonoviç Qazovoy Quşbekovdu, adın da Vilyamdı, Viloş deyirlər deyən? Bəs, deyirdin Vladimir Putinin, öldürülən Boris Nemtsovun... kimlərin... kimlərin nəyisən?

Viloş ucadan güldü. Sonra dedi:

— Əşi, içəri girməmiş o qədər adamın arasında mənə elə sözlərdən sığal çəkdin, sözünü təsdiqləməkdən savayı çarəm qalmadı.

Bu söz Molla Abbasa xoş gəlsə də neçə vaxtkı mənəvi əzab-əziyyətləri gəldi durdu gözlərinin qabağında. İstədi desin, dur rədd ol burdan, səni gözlərim görməsin, səsini eşitməyim. Birdən Molla Abbasın gözləri qapı ağzındakı torbaya sataşdı. Kişi sözünü tez dəyişməli oldu:

— Bağışla, Viloş, belə zəif, halsız görkəmdə, səliqə-sahmansız vəziyyətdə səninlə söhbətə oturmaq istəməzdim. Deyəsən, məni belə xəstəhal gördün, kefin korlandı.

Viloş dərhal cavab verdi:

— Narahat olma. Mən çağırılmamış qonağam. Xəbərsiz-ətərsiz evə gələn adamın belə mənzərə ilə qarşılaşması təbiidi. Üstəlik də, soyuqlamış, xəstəhal bir adamın evinə.

Molla Abbas köksünü ötürdü:

— Üstəlik, tək-tənha, dul, təqaüdə möhtac qalan kişinin yanına. Kişi iki halda yazıqlaşır, Viloş. Bir əli aşağı olanda, bir də dəymədüşər, naz-qəmzəli, hikkəli arvadı dünyasını dəyişəndə.

Viloş sonalamadan dedi:

— Üçüncüsünü də gəl ora. Bildin də nəyə işarə eləyirəm. Hər ikisi güldülər. Viloş sözünə davam elədi.

— Ay bic bala, — dedi. Sən deyən hal kişinin o dünyaya yaxınlaşmasının işartısıdı.

Molla Abbas nəsə düşündü. Sonra əvvəlki fikrinin əksinə dedi:

— Yoox... Viloş, mən Əzrayılı bu tezliklə yaxına buraxanlardan deyiləm. Nə qədər istəyir evin künc-bucağında gəzişsin. Onun qarşısını kəsməyin bir yolu da var.

— Necə?

— Təzə, şux arvad almaq.

— Gec deyil?

— Yoox... Sənin dayının adı Salehdi də?

— Bəli...

— Ayə, gərək onun bir dul əmisi qızı da var?

— Var hə... Mənim xalamdı. Adı da Nülufər.

— Aha... Bəlkə onun elçiliyini Salehdən sən eləyəsən mənə? Gəlsin yesin-içsin, geyinsin, yatsın böyrümdə. Dediklərinə də müzayiqə eləmərəm. Rüstəm bəy demişkən, canı da rahatlanar!

— Molla Abbas, canın üçün mən eləyərəm, qorxuram alınmaya. Özü də çox farmazondu. Bunun bir yolu var. Saleh dayımı gör, əlini cibinə sal. O, pula bənddi. Bir də gördün, özündən nəsə uydurub gecə gətirdi yanına.

— Ayə, necə yəni uydurub? Xalan da uydurmaçılarla oturub durur? Ya əlaqə-sələqəsi var?

— Onun yox... Saleh dayım Allahsız adamdı. Budu gördün xalamın çayına nəsə qatdı, uyuyan kimi də dalına alıb gətirdi yanına. İş-işdən keçəndən sonra başına-dizinə nə qədər vurur, vursun. Onun da əlacı kəsilib oturacaq dizinin dibində.

— Hə...

— Bə nədi?





— Ayə, canın üçün neçə vaxtdı öz-özümü için-için didib dağıdıram. Dərddən-sərdən düşmüşəm yatağa. İnsanın insana münasibəti nə qədər soyuyub...

— Soyuyub, yoxsa ölüb?

— Hər iki proses gedir. İnsanların danışdıqları: hay-küy, yalan, uydurma; özünü güdmə; haqqı nahaqqa boğdurma... Belə getsə, düşəcəyik dördayaqlıların gününə. Heyvandan fərqlənməyəcəyik. İnkişaf budu? Hər şey ucuzlaşıb. Hətta ölüm də. Əzrayıl da harda tutdu, orda işimizi bitirir.

— Viloş, qohumlaşsaq, ziyanın olmaz.

— Mən razı. Qalanını Salehlə danış.

— O, pula razı olar?

— A kişi, dayı mənimdi, halına-xislətinə bələdəm. Övladını satan, əmisiqızını satmaz?

— Satar.

— İşin açarı dayımın cibindədi. Ancaq mənim adım olmasın.

— Zeynəb qarı bunda deyib: “Yaxşı oğul dayısına oxşar”.

— Deyirsən, münasibətlər ölür hə?..

Gülüşdülər. Molla Abbas dedi:

— Özümə qoca deməzdim. Doğrudu, xeyli yaşım var. Zehnim yerində. Açıb ağartmasam da, yuxum o söz. Özümdəkini yaxşı bilirəm, hələ mənim səfərdən qalan vaxtım deyil. Yadda saxla, can olanda... Əzrayılın də başlıca tələbləri var.

— Nə?

— Mən yeni dünya kəşf eləmirəm, Viloş. Əzrayılın tələbidi, mən ona prinsip deyirəm. Dünyaya gərək açıq gözlə baxasan; dünyadan gözlərini yığasan, əllərini üzəsən; mənəm-mənəm deməyəsən; qal yaratmağa cəhdlər göstərməyəsən; içini təmizləyəsən; artıq söz-söhbətlərə yer qoymayasan; nəfs yandırmayasan; əli yanıb, ağzına təpənə dayaq durasan... Nülufəri mən tərəfə itələsən... İstəyirəm, hər şey ürək xoşluğu ilə olsun. Zor kimə fayda verib ki? Yazıqdı, Nülufərin də işini düzəldin. Qo-

yun o da bir gün görsün. Tutub evdə saxlamayın, ağzına qıfıl vurmayın, günahdı, vallah.

— Onu dayım bilər. Ancaq deyə bilmərəm, o, nə fikirləşəcək.

— Niyə?

— Əşi, mən, bəyəm, münəcciməm? Falçıyam?

Molla Abbas dayandı. Sözünə bir az ara verdi. Gözləri otaqda elə bil, nəsə axtardı. Birdən soruşdu:

— O zənbildə, əziyyət çəkib, gətirdiyin nədi?

— Mer-meyvədi. Bir az da qoz, fındıq, badam ləpəsi. Düşündüm ki, indiki halında sənə lazım olar.

Molla Abbasın gözləri güldü:

— Bir az narahat adamsan. Ancaq qanansan. Kişinin gücü, təpəri, taqəti olar. Müstəqil addımları olar. Bunlar kişinin azadlığıdı. Azad olmayan kişi yalançı, riyakar, onun-bunun sözlərini çeynəyən olar. Azad olmaq üçün gərək Allahına güvənəsən. Əks halda, civə kimi onun-bunun qarşısında "rəqs" etməli olarsan. Gör nə vəziyyətə gəlmişik ki, azadlığımızı insanlarda axtarırıq. Müxtəlif adlar altında irəli atılan ideyaları xatırla. Törədilən cinayətləri... O Şərq... Bu Qərb... Afrika və qoca Avropa... Terrorist qruplar. Tökülən qanlar. Ac-yalavac xalqlar... Aralıq dənizində boğulan mühacirlər. Üç-beş yaşlarında ölən suriyalı uşaqlar. Bəyəm qərblilər-avropalılar buna özləri dözərlərmi? Günahsız qanlara hərisliklər. Minilliklərin arxasından boylanan mədəniyyət abidələrinin yerlə yeksan olunması... Nəyə xidmətdən doğur törətdikləri? Bunların hamısı Allaha qəsddi. Qızışdırıb, silahlandırıb ortaya atılanlar bəşər övladı sandığımız ağıldankəmlərin düşüncə məhsulu deyilmi? Bu yolla nə azadlıq əldə eləmək olar, nə də insanlıq.

— Sözündən belə çıxır ki, yazıq günə qalmışıq. Düzmü başa düşdüm?

— Bu çarpayıda yata-yata belə qənaətə gəlmişəm ki, yaradılmışların hamısı bədbəxtdi. Bir iddiasız bədbəxtin aqibətini o biri iddialı bədbəxt həll eləyir. Baxırıq. Görürük. Düşünürük. Yeni faciələrə əl atırıq. Tariximizi dağıdırıq. Ancaq fikirləşmirik ki, hər yaranışın arxasında neçə istək, neçə arzu yatır. Gurultulu çağırış var: bizim deyilsə, bizə xidmət eləmirsə, gəlin dağıdaq, viran qoyaq!

— Molla Abbas, vallah-billah, sən dəryasan. Bunları hardan bilirsən?

— Mən bu dünyada yaşamıram, Viloş? Yaxşı, ya pis olsun, hər ideya uğrunda can qoyanların arxasında dayananlar heç vaxt adlarını gizlin saxlaya bilməyəcəklər. Hər şey açılıb töküləcək. İndi təkcə böyüklər deyil, uşaqlar da vahimə içərisində yaşayırlar. Gündə Aralıq dənizində bir gəmi batır. Onun balıqlarının, digər heyvanat aləminin qidası insan ətidi... Hər gün silahlar kimlərə tuşlanır? Kimlərə təxribat törədilir? Günahsızlara! Kimsəsizlərə! Gücsüzlərə! Zəiflərə! Harda? Allahın evində... İbadətdə!.. Bunları düşünəndə dəli oluram. Fikirləşirəm, hər şeyi atıb çəkilim meşələrə. Dağlara, səhralara. İnsan deyilən şeydən uzaq olum.

— Şeydən?

— Bəli, şeydən. Viloş, çox adam başa düşmür, insan insanlıq səviyyəsindən nə qədər aşağı düşüb.

— Molla Abbas, mən çox təəssüf eləyirəm ki, səni indiyə qədər tanımamışam. Səndən çox şey öyrənə bilərdim.

— İndi də gec deyil, Viloş. Salehə de, işə düzəliş versin. Sən də tez-tez gələrsən, söhbətlərimi dinlərsən.

— Saleh dayımın dini-imanı yoxdu. Dedim axı, onun Allahı puldu. İndi də düşüb Ümidin üstünə. Deyir, pulumu ver, oğlumun qanını sənə halal eləyim. Verməsən, qan tökəcəyəm.

— Vay! Vay! Vay! Bəlkə Ümidin heç pulu yoxdu?

— Elə şey qanan deyil, mənim Saleh dayım. Balaca görümbaxım eləsən, keçi qiymətinə əmisiqızını satacaq sənə...

— Aha... Belə de...

— Yaxşı, Molla Abbas, mən gedim. Gəldim həm səni görüm, həm də səndən üzrxahlıq eləyim. İt oğlu məni arxadan yığışdırmasaydı, mən də ona toxunmazdım. Elə bildim...

— Saxla, arxasını demə. Olan oldu. Olanı çox çək-çevir eləsən, yaxşı çıxmaz. Bir də ki, güman eləyirəm, onun üstünü toz aldı. Adamlar danışdılar, güldülər, hırıldaşdılar. Bir az da sözü atıb oynatsaq, beyinlərə həkk olacaq. O da düşəcək Zeynəb qarının dilinə. Onun da dilinə düşdüsə, əsrlərcə yaşayacaq. Bəlkə də o zurnanın səsi min il çəkəcək.

— Oldu...

— Ayə, heç səndən ayrıla bilmirəm. Get xalana çatdır, mən də görüm, Salehlə dil tapa bilirəmmi?

— Oldu... Hələlik.

## Böyük dərd

İki günüydü ki, Ümidin ürəyi tez-tez sancırdı. Kişinin üstünə arvadı həkim briqadası çağırtdırdı. Həkimlər gəlib onu müayinə elədilər, qan təzyiqini ölçdülər, ürəyinin kardioqrammasını çəkdilər. Axırda da: — Hamısı stressdəndi, özünəqapılmadandı, — dedilər. Gedəndə də ürəksakitləşdirici dərman verdilər — hidraksilin yazdılar: — Özünü pis hiss eləyəndə, birini dilinin altına qoy, ötüb keçəcək — dedilər. Səfurə dedi:

— Beləliyinə baxmayın, huş-huşudu. Lap uşaq təki.

Tibb bacısı güldü:

— Göz qaytarırsan? Kişi dəf kimidi.

Ümid bir söz deməsə də başını yellədi. Briqada qapıdan çıxırdı ki, qonşu Fərmail müəllimlə yaxınlıqdakı binada yaşayan fəlsəfə professoru Cəbi Cəbiyev Səfurə ilə üzləşdilər. Fərmail Səfurədən soruşdu:

— Kimdi xəstə? Olmaya Ümid nasazlayıb?





— Hə, bir balaca... Həkim baxdı, dedi elə ciddi şey yoxdu. Əsəbiləşib.

— Yaxşı, bizi Ümidlə...

— Buyurun, buyurun otağa.

Qonşular otağa keçdilər. Əl verib Ümidlə görüşdülər. Cəbiyev dərhal:

— Ay Ümid, uşaq qəza törədib. Burdan-bura xəbərimiz yoxdu. A kişi, nə böyük şeydi, telefon açıb bizə demək?

Səfurə:

— Cəbi müəllim, baş qarışanda məssəb itir. Vallah, neçə müddətdi yemək-içməyin vaxtını da yadırğamışıq. Gün necə çıxır, necə batır, xəbərimiz olmur.

Cəbi:

— Mənə də indi Fərmail dedi. Dərhal üz tutduq sizə. Gəldik, toxtaqlıq verək. Səbrli ol, Ümid. Əsəbiləşən özünə eləyər. Allah özü yol açacaq.

Fərmail:

— Səfurə xanım, gərək kişiyə diqqəti artırasan. Onu tək qoymayasan. Xoş sözlər deyəsən. Bu yaşda kişiyə arvad, arvada kişi gərəkdi. Biri getdisə, o birisi də onun dalınca...

Cəbi:

— Hə... Yaxşı kəlamların, təmtəraqlı sözlərin həvəsindəsən. Fərmail, axı, sən həm də yazarsan.

Fərmail:

— Hə... Görünür, bu, mənim sözə, ədəbiyyata, daha doğrusu, incəsənətə bağlılığımdan irəli gəlir.

Ümid:

— Söz böyük şeydi. Tikmək də, dağıtmaq da ona məxsusdu.

Cəbi:

— Söz həm qəlblərə məlhəm olur, həm də qəlbləri parçalayır. İnsan ömrünün uşaqlıq və cavanlıq çağlarını yalnız öyrənməyə həsr eləyir. Sözlə özünə xarakter biçir. Yaşa dolduqca,

müdrikləşdikcə topladığı xəzinə üstündə əlləşir. Sözə sığal çəkir.

Səfurə məcməyidə üç stəkan çay, qənddan gətirib süfrəyə qoydu. Hərə birini qənşərinə çəkdi.

Ümid astadan dedi:

— Sözdən ağılla istifadə böyük istedaddı.

Cəbi:

— İstedad olan yerdə insanın bəsirət gözləri açılır. Onda sağlam düşüncəyə də açıq gözlə baxmaq olur.

Fərmail dərhal söhbətə qoşuldu:

— Əşi, söz Allah vergisidi. Adamı nurlandırır.

Cəbi:

— Sirləri açmaq, ona vaqif olmaq hər adama nəsib olmur.

Ümid:

— Əgər, o mümkün olsaydı, hamı alimlik rütbəsinə sahib olardı.

Cəbi:

— Dahilər adilərdən çox-çox fərqlənirlər. Onların həyata, insanlara, gələcəyə baxışları tamam fərqlidir. Elə götürək özümüzü. Bizim niyyətimizin və fəaliyyətimizin başlıca leytmotivi, qayəsi, etiraf eləyək, özümüzü görməkdisə, dühalarınkının önündə vətən, bəşəriyyət, gələcək nəsl dayanır, desəm, bəlkə də səhv eləmərəm. Şimali Amerikanın böyük dühalarından biri haqqında hardasa oxumuşam. O, deyir: Mən öləndən sonra varidatımı fabriklərə və elmə, skletimi tədqiqat üçün akademiyaya, dərimi isə, gecə-gündüz Amerikanın himni çalınacaq təbilə çəkilmək üçün verin.

Amerikalı milyarderin əqli ucalığı ilə dünya xalqlarının əqlini müqaisə edərkən, fərqli düşüncələrə və nəticələrə gəlirsən. Məsələn, Avropa mütəfəkkirləri bu məsələyə, inanıram ki, tərəddüdlə baxardılar. Onların düşüncələri civə kimi oynayardı. Rusiya mütəfəkkirini o sual düşündürsəydi, hamı ona liberal deyərdi. Onun dərisini soyub yandırardılar. Skletinin akademiyaya verilməsi lap gülüş doğurardı. Azərbaycanda isə haray-həşir salar, televiziya kanalları vasitəsiylə "Bizim mütəfəkkir dəli olub" elanını verərdilər. Bir az da dərinə getsək, ona Viloş adını qoyardılar. Qərblilərin baxış bucağında Avropa və Asiyanın şərqində məskunlaşan xalqların baxış bucağı daha müəmmalı görünərdi. Niyə? Çünki onlar ta qədimdən şeir yazır, gözəlləri vəsf eləyirlər. Biz şeirə, gözəlliyin vəsfinə qarşı çıxmırıq. İstəyirik, o məsələyə bir qədər başqa yöndən yanaşaq. Həmin şərqlilərin bəziləri üçün mal-mülkü, varidatı oğul-uşağa, qəbir daşlarına yox, sənayeyə, elmin inkişafına yönəltmək daha gülünc təsir bağışlardı, nəinki skletin akademiyaya, dərilərinin dövlətlərinin himnini çalmağa xidmət edən alətə. Şərqlilər üçün bir gözəlin vəsfi bəlkə də dünyanın özü qədər dəyərlidi. Əl-qərəz, dinib-danışmasalar da, qəsdən münasibət bildirməsələr də öz-özlüklərində bu vəsfi qərblilər adi hal, əyləncə, ruhu müvəqqəti qidalandırma təsiri kimi dəyərləndirirlər. Bu münasibətləri açıqlamaqda məqsədim heç də bütün millətlərin, xalqların nə üçün müxtəlif düşüncələrə sahib olmalarını çatdırmaq, özümü sizə dünyada baş verənlərdən xəbərdar adam kimi təqdim etmək deyil. Əslində, bu, tarixən mümkün olmayan bir işdi. Məqsədim Yer adlı planetdə yaşayan bütün insanlara əqlin zirvəsinə qalxaraq azadlıq, azad düşüncə, azad ifadə arzulamaqdı. İnsanlar azad olsalar, "mən", "sən", "o" mənafelərindən çıxış etməsələr, bəşəriyyət sülh, əmin-amanlıq içərisində yaşayar. Əlbəttə, mənim də bu dediklərim xülyadı. Diqqət yetirsəm, bir az da zarafatdı. Hər halda, etiraf eləyək ki, dünya məhvərindən qopub. Hər gün burnumuza gələn qan iyi çoxalır və dözülməz olur.

Fərmail:

— Bu, bizim yox, gələcək nəsillərin faciəsidi. Onlara nəyi miras qoyub gedəcəyik? Səudiyyə Ərəbistanı koalisiya yaradıb Yəməni qan nəhrində boğursa, dini mərasimdə şeytana atılan

daşların alverini eləyirsə, kəsilən qurbanların hesabatını verə bilmirsə, hansısa şeytan günahı ucbatından minlərlə hacını daş-qalaq eləyərək onları buldozerlərlə qəbirlərə soxursa, onda, hansı dəyərdən danışmaq olar. Bəs hər gün diz çöküb yalvardıqları Allahlarını niyə görmürlər? Bəs bunlara kim cavab verməlidi?.. Əlbəttə, indi qaba görünənlər gözlərimizin işığını əlimizdən alır, bizi maymaq, məhdud düşüncəli varlığa çevirir. Bir anlığa İŞİD probleminə baxın. Kimin tərəfindən yaradılması artıq təxmin edilən bu terrorist qrupun minilliklərin arxasından boylanan qəvvasların qurduqları və nəsillərdən-nəsillərə ötürdükləri tarixi abidələri, məqbərələri dağıtmalarını nə adlandırmaq olar? Qoca Şərqin elm-mədəniyyət xəzinələrinin yerlə-yeksan olunması insani hisslərə uyğun gəlirmi? Kiçik xalqların, dövlətlərin var-dövlətinə böyük güc, qüdrət sahibi olanların hərisliyi hansı dəyərlərlə hesablanıb? Müxtəlif qondarma bəhanələrlə onların enerji resurslarına hücumlarına hansı beynəlxalq qanunlarla haqq qazandırmaq olar? Bu yolda axıdılan qanlara göz yummaq olarmı?! Böyük tribunalardan sülh, qardaşlıq, əmin-amanlıq şüarları ilə bağırmaqla törədilən cinayətləri ört-basdır eləmək, pərdələmək mümkündürmü? Ballistik, pilotsuz təyyarələr, nüvə silahları yaradıb bəşəriyyəti qorxu-hürkü içərisində yaşatmaq ixtiyarını böyük dövlət rəhbərlərinə Allahmı verib?.. Axı, Allah hamınındı...

Cəbi başını yellədi:

— Dünyanı gözəlliyiylə özünə heyran qoyan Parisi dağıtmağı özlərinə necə qıydılar? Tarixlər şahidi olan bu şəhər dağıdılmağa layiqiydimi? Layiqiydi, layiq deyildi, bilmirəm. Bəs bu gözəlliyə kimiydi qəsd eləyən? İnkişaf etmiş ərköyün dövlətlərdə yaradılan terror şəbəkələrimi? Bəs səbəbi nəydi? Səbəb siyasi düşüncələrindəki, gedişlərindəki boşluqlarıydı. Burda İŞİD-in əlinin olmasına mən inanmıram. Niyə? Olsa-olsa İŞİD bu işdə icraçı ola bilər. O terrorun beyni güc mərkəzləri tərəfinin idarəçiliyindədi. İndi də hədə hədə dalınca gəlir. Əşi, hərənin bir canı var. Gəlsinlər, biz də canımızı verək. Təki uşaqlar salamat olsunlar.





Fərmail:

— Eh... Sən nədən danışırsan?.. Afrikada can verənləri vaxt-bivaxt göstərirlər televiziyada. Elə vəziyyətə salınıblar ki, uşaqların başları bədənlərindən böyük görünür. Hamısının üzlərindən həsrət, yazıqlıq, aclıq yağır. Hər birinin gözlərindəki parıltını, yaşamaq eşqini duyanda dəhşətə gəlirsən. Hərbiyə trilyonlar ayıran ölkələr onlara qorxu dolusu humanitar yardım niyə eləmirlər? Silah verirlər ki, özləri özlərini qırsın. Həyat, insanlıq budumu?

Səbi acı-acı gülümsünərək:

— Qəsbkarlıq, işğalçılıq olan yerdə nə insanlıq? Mənə elə gəlir ki, atılan silahlar, partladılan bombalar, belə getsə, indi sahiblərinə qayıdacaq. ABŞ-da on bir sentyabr... İstanbul terroru... Parisdə on üç noyabr... Arxasınca da İŞİD nə deyir: “Rusiya küçələrində su əvəzinə qan axacaq”. “Nə əkərsən, onu da biçərsən”. Qəribədi, cinayəti törədirlər. Sonra da yıxırlar müsəlmanların üstə. Adını da qoyurlar: “İslamaxobiya”... Bəli, başlanıb dünyanın fəlakəti...

Ümid heyrətamiz halda dilləndi:

— Bütün bunları düşünəndə, adam özünə də, yaranışına da nifrət eləyir. Bumudur haqqında min bir şərqilər qoşduğumuz, həvəslə oxuduğumuz insan?! Bumudur çöp altında dəyirman qurmağa yönələn çürük ideyalarını dərk eləmədən taleyimizi tapşırdığımız insan? Canı dillə özümüzə başbilən sanıb, sonra əlindən qurtaranmadığımız riyakarlar budurmu?

Hər gün bağırırlar: insan azadlığı; söz, ifadə azadlığı; sağlam, möhtəşəm düşüncə azadlığı... Xalqların birgəyaşamı... Nələr... Nələr... Nə dayanır bu çürük, qondarma ideologiyanın arxasında? Faciələr... Fəlakətlər... Qan tökmələr... Ölüm... Ölüm

saçan silahların istehsalı...

Budurmu içərisində yaşadığımız cəmiyyətin narkomanik, taksomanik tör-töküntülərinin sifəti? Nə deyəsən, dünyanın məkrindən, hiyləsindən uzaq, min bir arzularla yaşayan günahsız uşaqların qanlarını axıdan baislərə? Budur, insan adlı varlığın sözü ilə əməli arasındakı əcaib fərqlər? Bunları düşünəndə, insan quru canını hara qoyacağını bilmir. Günahsız tökülən göz yaşları bir uşaq təbəssümünü əvəzləyə bilərmi? İtən inamları, ölən canları bir də geri qaytarmaq mümkündümü?!

Cəbi:

— Biz bayaq amerikalı milyarderin vəsiyyətindən, Avropada, o cümlədən Rusiyada ona münasibətdən, eləcə də Avropayla Asiyanın qovşağında məskunlaşan Şərq gözəllərinə xidməti əməllərdən danışdıq. Mən o amerikalının vəsiyyətinə də inanıram, digər böyük dühaların cəsarətli və obyektiv fikirlərinə də. Eyni zamanda, ona qarşı olan sərt münasibətlərini də alqışlayıram, Şərq gözəllərinin vəsfinə həsr olunan və böyük sənətkarlıqla qələmə alınan poeziya nümunələrinə də ehtiram bəsləyirəm. Hər xalq yerləşdiyi əraziyə, yaşam tərzinə, milli düşüncəsinə, əxlaq və mənəviyyatına, dünyaya verdiyi və verəcəyi töhfəyə görə bəşəriyyət qarşısında məsuliyyət daşıyır. Mən də görkəmli şəxsiyyətlərin tarixlərin sınağından çıxan ideyalarına inanıram. Ancaq unutmayaq ki, bəşəriyyətə təqdim olunan bu sağlam ruhlu ideyalarla yanaşı, şəxsiyyəti çürük qoza dəyməyən və ikiləşən ideya sahibləri də var. Bu, tarix boyu olub, olacaq da. Fantaziyaya əsaslanan nadürüst və nacins ideyalar şarlatanların, kələkbazların, təlxəklərin uydurmalarıdır. Belə kələkbazlar... heç vaxt bəşəriyyətə məxsus deyil və ola da bilməz. Bizimsə əlimizdən gələn mükafat budur: "mən"lərə nifrət!

Ümid:

— Siz çox açıq, özü də pafoslu danışırsınız, Fərmail. Bilirsinizmi ki, pafos açıq sözü, onun təsir gücünü nə qədər artırır.





Özünə qarşı çevrilənlərin, həqarətlə baxanların sayını çoxaldır... Sən də bədii düşüncə adamısan. Bədii düşüncə sahibləri tarixçilərdən, siyasətçilərdən emosionallığına görə bir qədər fərqlənirlər.

Cəbi:

— Fərmail qızışdısa, üzünü görmə.

Fərmail:

— Bədii düşüncə deyəndə... Mən bədii yaradıcılıqla məşğul olmuram. Tək bircə şeirim çap olunub qəzetdə. Sonra bir çox qəzet və jurnallar öz səhifələrində təmtəraqla ona yer ayırdılar. Üzdəniraq tənqidçilər düşdülər şeirin üstünə. Söz-söz, misra-misra başladılar söküb dağıtmağa, ağlıma gəlməyən, yatanda yuxuma belə girməyən quyruqlar qoymağa. Tənqidçilər səngimişdilər ki, həyatını guya, böyük siyasətə həsr eləyənlər töküşdülər üstümə. Az qaldılar məni xalq düşməni eləyələr. Axırda da bu şeirin zərbəsindən iş yerimi itirdim. Məni arvadımın aldığı məvacibə möhtac qoydular. Bax, budur yaşadığımız cəmiyyətin iç üzü. Tarixə gəldikdə, artıq məndə o elmin bəzi nümayəndələrinə qarşı allergiya yaranıb.

Ümid:

— Niyə?

Fərmail:

— Necə niyə? Oxuduqları mədhiyyə. Yazdıqları yalan. Başdan-ayağa təhrif. Çıxarılan nəticə qondarma! Səksən yaşlı tarixçi televizorda arsız-arısz deyir: "İndiyə qədərki tariximizi yalan yazmışıq. Gərək bundan sonra düzünü yazaq". Bu da səksən yaşlı tarixçi. Nəyə inanasan? Nəyin və kimin ardınca gedəsən? Sonra da oturub-durub amerikalıdan, avropalıdan, asiyalıdan şərqi deyəsən... Adam riyakarlıqlar içərisində boğulur. Yaşamaq istəmir. Hətta özünə nifrət eləyir. Doğulduğu günə az qala, lənətlər yağdırsın...

Cəbi gözlənilmədən söhbətin səmtini dəyişdi. Üzünü Ümidə

tutdu:

— Söhbəti hardan başladıq, hara gəlib çıxdıq... Ümid, sənə cavanlıqdan bələdəm, çox həssassan. Hər kiçik şeyi özünə yük eləyənsən. Qalmışda ki, bu boyda hadisə ola. Az dağıt içini. Sənə ciddi istirahət lazımdı. Hadisələrin burulğanından uzaq ol.

Ümid:

— Bu düşüncə ki, məndədi... Bu xarakter ki, məndədi... Bu dilacılıq ki, məndədi... xeyri yoxdu. Hara getsəm, bu ağlı da, düşüncəni də özümlə çəkib aparacam. Ona görə də dünyanın hər nöqtəsi mənim üçün birdi. Sənin düşüncələrində də boşluq var ha...

Fərmail:

— Necə?

Cəbi:

— Faktları aydın və dəqiq təsvir eləyirsən. Ancaq mühakimələrində ciddi çatışmazlıqlar var. O da səni hərdən unutqanlığa, əsəbiliyə, fikrin yayınmasına, nitqin pozulmasına aparıb çıxarır. Bax, mən bunu istəməzdim.

## Ağac bulamazlar

Ümid yorğun-arğın, gəzə-gəzə parkın aşağı tərəfindəki skamyada gəlib əyləşdi. Xeyli fikrə daldı. Başını qaldıranda, Salehin qarşısında dayanıb acıqla, kin-küdurətlə ona baxdığını gördü. Ümid heç bir şey olmamış kimi ona başı ilə salam verdi. Salamı ağızucu alan Saleh ayaqlarını sürüyə-sürüyə ona yaxınlaşdı:

— Biz düşmənik, Ümid. Düşmənin buynuzu olmur. Mən mərdanəyəm. Qisasımı səndən alacağam. Arxamca da çox şey danışırsan. Qaramca az deyin. Yekə kişisən.

Ümid Salehi başdan-ayağa süzdü:





— Saleh, o adam xoşbəxtdi ki, düşməni mərddi. Mən sənin nə söhbətini eləyirəm, nə də barəndə düşünürəm. Məndən uzaq ol. Get nə bilirsən, elə. Vuran oğul atasına genəşməz.

— Sən özünü çox yekəxana aparırsan. Hiyləgərlik, məkr ruhuna hopub. Ədəbsiz adamsan, Ümid.

— Məni təhqir eləmə. Oğlun qəzaya düşüb. Allah rəhmət eləsin. Hökumət var, qanun var. Mən də qanuna tabe olan adamam. Söz məhkəmənin olacaq. Oğlum da cəzasını alacaq. Özünə hörmət qoymayan adama başqaları da hörmət qoymaz.

— Heç nə başa düşmədim?

— Mənə qarşı riyakarlıqların hardan irəli gəlir, Saleh. Hadisədi, baş verib. Orda nə sənin günahın var, nə də mənim. Kim istəyərdi ki, övladı xəta törətsin? İstəyən varsa, barmağını qatla. Bu yaşa gəlmişəm, bircə dəfə bir adamın toyuğuna daş atmışammı? Yatarına “ho” demişəmmi? Bircə dəfə arxanca danışmışammı? Qeybətini eləmişəmmi?

— Qeybət arvad işidi, Ümid.

— Arxayın ol, elə zəmanədə yaşayırıq ki, kişilərin çoxu arvadsifət olub. Yuxarı təşkilatlara neçə dəfə anonim məktublar yazdırmısan. Müstəntiqə güvənib mənə niyə sataşırsan? Əşi, bizim dərdimiz bəndəlik deyil.

— Düz danışmırsan, Ümid. Sənin arvadsifət kişi olub-olmadığını mən bilmirəm. Çox güman ki, o da sənin quramandı. Hər kəs öz cibindəkini xərcləyər, içindən dəm vurar. Bəli, mən yuxarı təşkilatlara ərizə yazmışam. Oğlumun qanının batırılmamasını tələb eləmişəm.

— O sənin haqqındı.

— Sözümü kəsmə, o ki, qaldı müstəntiqə, bax, qeybət budu. Kişi oturub evində, sən də onun babalını yuyursan. Özün də yerdə bəndələrlə, göydə Allahla əlləşirsən.

— Sağ ol səni, Saleh.

Saleh getdikcə həddini aşırdı. O, bilirdi ki, Ümid heç vaxt

onunla dava-dalaşa, əlbəyaxa vuruşa, dartma, yaxam cırıldıya çıxmayacaq. Uzaqbaşı durub başını yelləyə-yelləyə yanından uzaqlaşacaq. Ona görə də hər dəfə ayağını pillədən pilləyə qoyur, səsinə güc verirdi. Ümid isə müsahibinin niyyətini anlayaraq özünü güc-bəla ilə saxlayırdı. Əsəbini boğmağa çalışırdı:

— Bəsdi, Saleh, mən sənə salam vermədim ki, ayağın yer ala. Mənə min bir bəhanə ilə olmazın iftiralarını atasan. Ayıbdı sənə. Səsimizi eşidənlər söyərlər bizi.

— Mənim oğlumu qəsddən öldürtmüsən.

— Şahidlərin var? Varsa, çağır gəlsinlər, mənim üzümə dursunlar.

— Şahidlər faktlardı, Ümid, adamlar deyil... Özün də, Mürvətdi-nədi, onu da götürüb, düşmüsən ardımca.

— Polisə, prokurora, nazirə yazdığın saxta, yalan, böhtan dolu məktubları necə uydurmusan? Hamı bilir ki, sən uydurmaçısan. Hər gün içirsən, çəkirsən. Məni özünə tay eləmə. Elədiklərin insanlığa, yaşına yaraşan hərəkətdimi? Ailən yazıqdı. Onları urvatsız eləmə.

— Sən çox ədəb-ərkandan, kişilikdən dəm vurursan, Ümid. Qazandığım bir damcı məvaciblə özümü, ailəmi dolandıra bilmirəm. Özümü hər gün çırpıram dağa-daşa. O ki qalmışdakı qəbrin üstünün götürülməsi, başdaşının qoyulması ola.

Ümid bu sözləri eşidəndə halbahal oldu. Salehə bir anlığa yazığı da gəldi. Səsi boğula-boğula dedi:

— Saleh, onları mən özüm düzəltdirəcəyəm. İmkan ver, oğlum ayağa qalxsın. Hər gün xəstəxanaya təpik döyürəm...

— Lazım deyil, Ümid. Mən ağlayan, gözü kimsənin əlində, cibində olan kişi deyiləm. Birtəhər onun da öhdəsindən gələcəyəm. Artıq bezmişəm yaşamaqdan. Cinayət törətmək həddindəyəm, eşidirsən, cinayət törətmək... Ailəm acdırsa, qarnı doyunca çörək görmürsə, bu tərəfdən də sənin oğlun oturduğum yerdə başıma daş salırsa, mən neyləməliyəm? Atalar deyib: ac özünü qılınca çapar. Mən canavar, ayı deyiləm, şikarımı axtarıb tapam, parçalayam, özümün, ailəmin qarnını doyduram. Mən insanam.





Ümidin ürəyi yumşaldı:

— Sözünü de, Saleh. Mən də insanam. Mənim də ürəyim var. Başımıza gələnlər məni də yandırır.

Saleh kövrəldi. Dodaqları əsdi. Çətinliklə özünə toxtaqlıq verdi:

— Ətrafıma göz gəzdirirəm, sənə, sənin kimilərinə baxıram, hardan, kimdən nə qopara bilirəmsə, ona da girişirəm.

Eşitdiklərindən çaş-baş qalan Ümid dilləndi:

— Saleh, belə getsə, sən özünü lap itirəcəksən. Özünü alçaltma. Sən ac adam deyilsən. Mənə dediklərini istəməzdim ki, kimlərinsə yanında da danışasan. Özünü ələ al. Yenə deyirəm: oğul mənimdi, qəza törədib, sağalıb ayağa qalxan kimi cəzasını çəkəcək.

Ümidin pul üstə gəlmədiyini görən Saleh başını yellədi və öz-özünə dedi: “Ayə, bu ki, ayıdı. Qanmazdı. Burda deyiblər də: Karın qulaqlarının ardında balta saplasan, deyər, bu taqqıltı nədi?”

Saleh həmişə oxutduğu plastinkanı yenidən hərəkətə gətirdi:

— Bayaqdan məni məzəmmətləyirsən. Danlayırsan. Mən ona layiqəmmi?

Ümid əsəbiləşdi:

— Sən özündən xəbərsizsən. Harda olduğunu, kiminlə danışdığını bilmirsən. Görürəm, çəkmisən... Mən də bayaqdan səninlə çənə döyürəm.

— Bu nə sözdü, Ümid? Danışdıqlarını bişmiş toyuq eşitsə gülər. Sən hansı ədəb-ərkandan danışırsan? Özünü elə aparırsan, guya, artıq adamsan. Kənardan baxanlar da desinlər, Ümid çesni adamdı. O, özü ilə başqasına fərq qoyan deyil... Özünü

aldatma, Ümid. Zeynəb qarının bir sözü var: "Dəvə girdi pambığa, gözlərini yumdu, elə bildi daha onu görən yoxdu". Səninki o dəvənin hərəkətidi. Deməli, mənim bir yolum var.

— Nə yoldu o? Deyə bilərsənmi, Saleh?

— Deyərəm. Mənim sözüm mərdi-mərdanədi. Özü də üzüzə, göz-gözə... Səni və oğlunu öldürmək. Gedib türməyə girmək. Hamı görər ki, məndə də qeyrət, hünər... var. Qanı qanla yumuşam. Sonrası Allaha təvəkkül.

Ümid matdım-matdım Salehin üzünə baxdı. Onun içində ötəri üşütmə yarandı. Ancaq özünü o yerə qoymadı:

— Sən axmaqsan... Gicsən... Saleh, nə danışdığını bilirsən, nə də addımını hara atdığını?

— Bəli axmağam, gicəm. Çünki sənin tək vicdanı kor, ağlı məhdud adamla oturub-danışıram. Sən gələcək karyeran barədə düşün, Ümid, — deyib nə fikirləşdisə, əyləşdiyi skamyadan qalxdı və əsəbi halda yola düzəldi.

Ümidin özü də hiss eləmədən, beynindən şübhə dolu fikirlər keçdi: "Özümdən qorxmuram, görəsən, bu dəyyus, Ülfətə xətər yetirməz ki? Bu ideyanı onun başına müstəntiq yeritməyib ki? Bəlkə məni əsəbiləşdirib əlimdən xəta çıxarmaq həddinə gətirir? Bəlkə məni qorxudub iradəmi qırmaq istəyir?.. Hər nədi. Əsəbləşməmək. Deyilənləri soyuqqanlıqla qarşılamaq. Dünya korkəsməzlərlə, başı xarablarla, hiyləgərlərlə doludur... Hər hürən itə ağac bulamazlar.

## Sarsıntı

Neçə gün idi ki, otağına qapanan, fikirdən-zikirdən iştahası pozulan Ümid duyğularının qabalığına, ehtimallarının düz çıxmamasına, arzularının sönməsinə bərk heyfslənirdi. Ən kiçik hadisələrə, ətrafında baş verən dəyişmələrə belə dözə bilmirdi. Sinirləri o qədər gərilmişdi ki, öz məziyyətlərinin bəzi cəhətlərini də düzgün dəyərləndirə bilmirdi. Bütün günü çənəsinə güc verib danışır, özünə dəxli olmayan məsələləri qabardır, hər şeydə özünü günahkar çıxarmağa çalışırdı. Sözünə qarşı söz deyənlərə, xüsusilə ona təskinlik verənlərə və yaxud, onunla razılaşmayanlara pis üz göstərirdi. Bir çox məsələləri ondan gizli saxlamasını, Ülfətin hərəkətləri barədə ona doğru-dürüst məlumatlar verməməsini heç cürə arvadına bağışlaya bilmirdi. Tez-tez də başında haqlı-haqsız, tərəddüd dolu fikirlər yaranırdı. Bəzən özü də bu tərəddüdlərdən nə qədər azad olmağa çalışsa da, heç cürə onlardan yaxa qurtara bilmirdi. Özü dediyi kimi, qaragüruh fikirləri nə qədər qapıdan qovsa da, pəncərədən üstünə axın edirdilər.

Bir sözlə, kişi özündə-sözündə deyildi. Niyəsini heç özü də bilmirdi. Təkcə onu anlayırdı ki, həlli imkanından uzaq, dağ ağırlığında çətinlikləri heç bir vəclə aradan qaldıra bilməyəcək. Ona görə də arvadının donqultuları, mənasız, məntiqsiz danışıqları hər dəfə Ümidi hövsələdən çıxarır, onda inciklik yaradırdı. Səfurə nə hüququnu, nə də vəzifələrini başa düşürdü. Hərəkətlərində ölçü-biçisizlik açıq-aydın hiss olunurdu. Arvadının yeganə istəyi oğlunun nəyin bahasına olur-olsun, həbsə düşməsinin qarşısını almaq idi. O, tez-tez qaşqabağını tökür, inciklik, sıxıntı, səbrsizlik nümayiş etdirirdi. Onda bundan savayı heç nə - istək, arzu və gələcək idealının rüşeymləri hiss olunmurdu.

Səfurə divanda uzanıb televizora baxan ərinin oğlu barədə danışmasını gözləyirdi. Deyəsən, Ümid də bunu başa düşürdü. Bircə kəlmə də ağzından çıxarmırdı. Axır ki, Səfurə dözməyib dilləndi:

— Sən nə vaxta qədər belə dinməzcə oturacaqsan?

— Oturmamışam, görürsən ki, uzanmışam. Özü də divanda. Mənim hərəkətə gəlməyə bilirsən ki, imkanım yoxdu.

— Bəlkə bir adama ağız açasan?

— Kimə?.. Heç olmasa, adını de.

— Deyirsən, Ülfət sahibsiz qalacaq?

— Sahibləri ölməyiblər ki: sən, mən.

— Məni dolayırsan?

— Vəziyyətini öyrənəcəyəm. Halını soruşacağam. Sevgimi, istəyimi əsirgəmiyəcəm.

— Quru-quru?

— Mən imkanımdan çıxış eləyib öz sözümü dedim.

— Qəti?

— Bəli!.. Qəti!..

— Ağlını başına top elə, Ümid. Mən atam evindən uşaq gətirməmişəm. Sənin üçün o boyda, o buxunda uşaq böyütmüşəm...

— Bəs, mən neyləmişəm?

— Gəl söz güləşdirmə. Ağrımayan başına yaş dəsmal bağlama. Uşaq həbs olunsa, sən dözməyəcəksən. İnfarkt olacaqsan.

— Mən ondan da qorxmuram. Belə yaşamaqdansa, infarkt olmaq yaxşıdı.

— Səndə kişi xisləti var?.. İmkanım olsaydı, cəsarətini nəzərə alıb yaxandan orden-medal asardım.

— Böyük səxavət sahibi olduğunu çoxdan anlamışam. Buna heç bir şübhəm-filanım yoxdu.

— İnsanlara güzəştə getməyi bacarmaq lazımdı.

— Hə... Düz deyirsən. Mən murdaram. Bunu etiraf eləyirəm. Xəbisəm, yalançıyam, xəyanətkaram... Xarakterim yaramazlıqlarla, içim çirkinliklərlə doludu. Daim onları ort-basdır eləməyə çalışıram...

Səfurə qəhqəhə çəkdi:

— Özünü şişirtmə... Diplomatlıq da eləmə. Gözlərimə baxmaqla məni öyrənməyə çalışma. Sifətində yaranan qeyri-adi cizgiləri, səsinin titrəmələrini, sözlərinin bulanıqlığını, bir sözlə, hər şeyi mənə diqtə eləməyə ehtiyac yoxdu. Ağzını açan kimi qarşısındakının niyyətini anlamayan yalnız sərxoşlardı.





Ümid əvvəl çiyinlərin çəkdi. Sonra astadan dedi:

— Qismən mən səninlə razı. Əgər həmişə hər yerdə elədisə, niyə addımbaşı aldanırıq?

— Aldananlar özləri günahkardılar. Ayıq-sayıqlığını itirən adamın həmişə başı ağrıyar. Ümid, qismət nədi, onu da görəcəyik. Ancaq bir kişi kimi, əfəlliyini boynuna al...

— Bəli, əfələm, Səfurə xanım, özü də çox... Nə əcəb sən mənim bu əfəlliyimi, bacarıqsızlığımı əvvəldən duymamısan? İndiyəcən də tab gətirmisən.

— Dar günündə doğmaca oğluna dayaq durmayan kişidən bundan artıq nə gözləmək olar? Mən qır-qızıllarımı satıram. Sən də evi sat. Gedək şəhərətrafı yaşayış məntəqələrindən ucuz bir ev alaq, orda yaşayaq. Qalan pulla da Ülfəti türmədən çıxaraq.

Ümid əsəbi halda arvadına baxdı:

— Çox qır-qızıl deyirsən. Əslində, onlar da mənim pullarımla alınıb... Oyunlarından əl çəkməyəcəksən? Mən nə qədər sənin hikkələrinə dözməliyəm?

— Nə hikkə? Çıxış yolumuz budu. Sən desən, Kənan da bizimlə razılaşar.

Ümid kinayə ilə:

— Onda Kənanla özün danış.

— Kənanla mənim söhbətim alınmır.

— Niyə?

— Sənə görə.

— Bu da təzə çıxdı?

— Yox... Kənan sən tökənləri yığır, Ümid.

— Məni sevindirirsən, Səfurə...

— Çox təəssüf ki, elədi... Yadda saxla, Ümid, Ülfət həbs olunsa, mən bu evə od vurub yandıracağam.

Ümid kinayəli tərzdə güldü:

— Məni qorxudursan? Özün çöldə qalacaqsan.

— Yox, niyə ki, nə düşünürəmsə, onu da deyirəm. Siz har-

da...

— Bəlkə, sarsaq, hikkəli qadın, məni öldürəsən. Mənim canım səndən, səninki də məndən qurtara. Allah yaratdığına çarə qılandı. O da Ülfətə əncam çəkər.

Səfurə oturduğu yerdəcə hönkürdü. Handan-hana hıçqıra-hıçqıra, üzünə-dizlərinə vurmağa başladı:

— Ümid, sən niyə anlamırsan ki, mən anayam. Ülfət ürəyimin parçasıdı, ağzımda dilimdi, gedib-gələn nəfəsimdi. Mən yanıram. Ürəyim çatlayır, dözə bilmirəm.

— Elə isə, bəs Ülfət, Kənan, Əzizə mənim nəyimdilər? Düşmənlərim?! Saxlama, onları da de... Axmaq qadın. Oğurladıqlarınla, barəmdə yersiz danışdıqlarınla, düşük hərəkətlərinlə daim məni qonşular, tanış-bilişlər arasında nüfuzdan salmağa çalışmısan. Sənin hərəkətlərin bu ailəyə yaraşandımı? Əlbəttə, yox... Sona səni ifşa eləyəndə mən ölüb-dirilirdim. Dilin necə gəldi deməyə, mənim, guya, qudalar tərəfə keçdiyimi? Mən həqiqətin ağzına daş basa bilərdimmi? Həqiqəti necə dəbbələmək olar?.. Barəndə deyilənlər sübutlu-dəlilli olduğundan, Kənan başını qaldırmağa utanırdı. Nə idi oğlumuzun günahı, Səfurə? Oğru, xəyanətkar ananın qızı özünü xoşbəxt sana bilərmi? Yox... Sən təkcə məni yox, hərəkətlərinlə övladlarını da sındırdın.

— Qəbahətlərimi anlayıram, Ümid. Onu da xatırladım ki, elədiyim səhvlərin hər biri övladlarıma sevgidən, məhəbbətdən doğub. O əməlləri eləyəndə, nəticəsi haqqında düşünməmişəm. Etiraf eləyim ki, onların bəziləri də sənə qarşı olan aqressivliyimdən irəli gəlib. Sən evə gec gələndə evdən tez gedəndə, kefin olmayanda, elə bilmişəm ki, hardasa məşuqən var. Mən qadınam. Qadın özünə xəyanət hiss eləyəndə yaralı pələngə, aslana, şirə dönür, söz sığalı görəndə isə dovşana. Qadının qulaqları hər gün ərindən xoş söz, pıçıltı eşitmək istəyir. O pıçıltıları eşitməyəndə, dəli olur. Öz-özünə sığmır. Qisas, intiqam hissilə





yaşayır.

— Səfurə, bizim neçə yaşımız var? Özümüz boyda, özümüz buxunda üç övladımız var. Nənə, baba olası vaxtımızda, bəyəm, hoqqalardan çıxmalıyıq? Camaatı özümüzə güldürməliyik?

— Ümid, səsini başına atma. Xoş sözə, təsəlliyə yaşın nə dəxli var?.. Sıçovulun da sığala ehtiyacı var.

— Hə... Belə de. Bunları mən bilmirdim.

— Bilmirdin, indi bil.

Elə bu vaxt Kənan böyük nigarançılıqla qapıdan girdi. Anası ilə atasını əsəbi görüb duruxdu. O, dərhal:

— Yenə əsəbisiz?.. Nə baş verib? — dedi.

Ümid:

— Əsəbi olmayan vaxtımız varmı?..

Səfurə:

— Canımdan bezmişəm. Başımı götürüb qaçmağa yer axtarıram, onu da tapa bilmirəm.

Kənan gülümsündü, sonra kinayə ilə:

— Ay ana, Allah hərəyə bir yer qismət eləyib. Adamlar da qismətilə barışmaq əvəzinə gündə bir iddiaya düşürlər.

Ümid:

— Oğlum, pis budur ki, qismətinə qane olan yoxdur.

Kənan:

— Ata, sizə necə deyim, bilmirəm. Mən Ülfətdən çox nigaranam. Onun vəziyyəti ağırdı. Həkimilə də danışdım. O da nagümandı. Ülfətin sağalıb ayağa qalxacağı barədə çox ümidsiz danışdı... Hə, onu da bildirdi ki, mən atana həqiqəti deməyə cəsarət eləmirəm.

Ümid tutuldu. Səfurə həyəcanlandı:

— Sən nə danışdığını bilirsən, Kənan?

— Dediklərim həkimin sözləridi, ana, mənim yox.

Ümid:

— Həkimin son sözü nədi?

Kənan:
— Ülfətin başı əməliyyat olunmalıdı.
Ümid sarsıntılı halda:
— Əməliyyatdan sonra...
Kənan:
— Danışığından hiss olundu ki, ümidsizdi...
Səfurə göz yaşları axıdaraq:
— Ümidsizdisə — dedi.
Kənan:
— Ata, həkimlə özün də söhbət elə...
Ümid pıçıltılı səslə arvadına:
— Sən evin satılması elanını ver, mən gedim həkimlə vəziyyəti dəqiqləşdirim, — deyib ayağa qalxdı.

Ata-oğul xəstəxanaya getdilər. Həkimin otağına çatanda Ümid taqətsiz hala düşdü. Yumaq kimi yumuldu. Onun danışmağa nə dili, nə də halı vardı. Kənan qapını döydü. Sonra araladı. Həkim qapı ağzında Ümidi görəndə dərhal: — Buyurun, ağsaqqal, — dedi.

Ata-oğul içəri keçdilər. Həkim Ümidi gözucu süzdü. Ümid olduqca əsəbi görünürdü. O, dedi:
— Həkim, Ülfətə çox qayğı göstərmisiniz.
— Borcumuzdu, ağsaqqal.
— Sözüm qurtarıb, danışa da bilmirəm. Əslində, nə danışım... Ancaq Kənan Ülfət barədəki ismarıclarınızı mənə çatdırdı. Dediklərinizi eşidəndə, elə bildim bədənimdə qanım dondu. Hərəkətsiz hala düşdüm. Birtəhər özümdə güc toplayıb sizinlə danışmaq qərarına gəldim.
— Əcəb eləmisiz, ağsaqqal. Bilirdim gələcəyinizi. İnanın, Ülfətə kömək eləyə bilmədiyim üçün mən də utanıram... Travmatik əzik getdikcə ağlagəlməz fəsadlar yaradır. Düşünürdüm ki, qan laxtalarının hissəciklərini dava-dərmanla, xüsusi tibbi yanaşmalarla götürə bilərik. Rentgenin son nəticələri bizdə şübhələr doğurdu. Həkimləri, təcrübəli mütəxəssisləri yığıb konsesium keçirdik. Vəziyyəti dəqiqliyi ilə təhlil elədik. Məlum oldu ki, hissəciklərdə damarların divarlarında kirəşləşmə gedir. Onlar sürətlə kristallaşır. O da dəqiqləşdi ki, zəhrimarlar təhlükə zonasında qorxulu həddədi. Nə vaxt hərəkətə gəlsə... Kirəclər yuyulmasa, kristallar götürülməsə, hər dəqiqə xəstənin halı ağırlaşar. Ona görə də mütəxəssislər qərar verdilər: xəstənin ciddi əməliyyat olunması zəruridir.

Ümid fikrə getdi. Kənanın sifəti bozardı. Sonra da o, həyəcan içərisində atasının üzünə baxdı və hiss elədi ki, atasının da sir-sifəti gərginləşdi. Həkim astadan dedi:
— Baxın!..
Ümid:
— Siz vəziyyətin düzələcəyinə zəmanət verirsizmi?
— Təqribən doxsan beş-doxsan altı faiz yox.
Ümid titrək səslə soruşdu:
— Onda, nəyə əsasən əməliyyata qərar verirsiz?
— Allah ümidinə... Çıxmayan cana ümid çoxdu... Əslində, o qərar sizindi. Xəstə onsuz da...
— Tutar qatıq, tutmaz ayran... Eləmi?..
— Bir növ, hə...
— Axı, siz həkimsiz...
— Mən vəziyyəti açıqladım. Telefon açıb xəstə ilə maraqlanan çoxdu.
Kənan təəccüblə:
— Kimlər?
— Prokurorluqdan... Adi adamlar... Dost-tanışları.
— Deməli, təsirlər...
— Elə deməzdim.
Ümid:
— Müstəntiq sizin son qərarınızı bilirmi?
Həkim:

— Tam yox, ucundan-qulağından.
Ümid:
— Aha... Yenə qərarsızlıq. Ümidsizlik.
Ümid dərindən ah çəkdi və sonra sözünə davam elədi:
— Hissim hər gün mənə bunu pıçıldayırdı... Neyləmək olar? Bu da bizim qismətimizdi. Həkim, fikirləşmək gərəkdi. Tək mənim sözüm... Başqa doğmaları da var...
Həkim:
— Şübhəsiz.
Ümid Kənanın üzünə baxdı. Sakit və təmkinlə dedi:
— Gedək fikirləşək... Götür-qoy eləyək. Qərarımızı həkimə deyərik...
Ata-oğul həkimlə xudahafizləşib qapıdan çıxdılar, dəhliz boyu getdilər. Ümid hiss elədi ki, ayaqları bədənini saxlamır. Tez astadan dedi:
— Kənan, tut məndən, oğlum. Hələ çox şeylə qarşılaşmalı olacağıq...

## Yalan həqiqəti pərdələyir

Ülfətin əməliyyatdan salamat çıxacağına gümanını itirən, ancaq kimsəyə bu barədə söz deməyən Ümid hirsindən boğulurdu. Danışmağa, içini boşaltmağa, başındakı qarmaqarışıq düşüncələri dağıtmağa yer, onu anlayacaq adam axtarırdı. O, dəstəyi götürüb professor Cəbiyə zəng elədi. Professor onu səsindən tanıdı və dərhal da dedi:
— Ümid, dur gəl bizə. Balaca soyuqlamışam. Arvad da əla əriştə bişirir. Ölü yesə, dirilər... Fərmail də bizdədi...
— Hə, gəlirəm.
— Gözləyirəm.
Ümid dəstəyi yerinə qoydu. Səssiz-səmirsiz otaqdan çıxırdı ki, Mürvətlə qarşılaşdı. Gülümsündü. Sonra dedi:





— A Mürvət, səni qayınanan çox istəyir.
— Başa düşmədim... Mən həmişə qayınanamdan qorxmuşam. Neçə illərdi dünyasını dəyişib. Adı çəkiləndə elə bilirəm, məni də yanına aparacaq...
— Ayə, qorxma. Onun səninlə nə əlaqə-səlaqəsi. Filosof Cəbidən təklif almışam. Yaxşı əriştə bişirtdirib. Gedək...
— Ondan mənə nə, Ümid? Mən də gedərəm, əriştə azlıq eləyər, pərt olarlar.
— Yoox... Gedək.
Onlar Cəbigilə getdilər. Görüşdülər. Bu gözlənilməz yığışma hamının ürəyincə oldu. Cəbi dərhal:
— Ülfətin vəziyyəti necədi?
— Nə deyə bilərəm? İş qalıb Allaha...
Fərmail:
— Allahı olan nagüman qalmaz.
Mürvət:
— Ağıllı oğlandı. Oturduğu yerdə...
Ümid:
— Nə isə... Gecə-gündüz... Özümüzü aldada-aldada neylədiyimizi də bilmirik. Ayə, bu yalan nə möhtəşəm şeymiş... Böyüyü-kiçiyi, aşağısı-yuxarısı yoxdu, canınız üçün hamı guppuldadır. Özü də utanıb qızarmadan.
Cəbi:
— Kütlə yalanlar qoynunda mürgüləyir. Müti varislər yetişdiririk.
Mürvət:
— Professor, siz deyənləri anlamaq üçün gərək mən də filosof olam.
Hamı gülüşdü. Ümid:
— Professor, hələ soyuqlamısan, belə danışırsan, soyuqlamasan, neylərdin?..
— Əşi, bu Fərmaillə o qədər gəzirəm, oturub-dururam, yenə

sözlərini anlaya bilmirəm.

Mürvət:

— Yaxşı şagird müəlliminə çəkər.

Otağı gülüş səsləri bürüdü.

Fərmail:

— Heç kəsin ağlına gəlməyən əməl və fikirlərin qeyri-adi nəticələri olur. Belə olan təqdirdə qalmaqallı, xırda-xuruş, lətifəsayağı şayiələrin dedi-qodusu başlanar. Bu günlərdə eşitdim, deyirlər, Saleh psixatirik xəstəxanada yatıb. Ondan nə gözləyirsiz?

Mürvət:

— Bu təzə xəbər deyil.

Cəbi gülərək:

— O, çox ciddi simadı... Mən də deyirəm, nə atılıb-düşür?

Mürvət:

— İctimai fikir ən müdrik adamları bəzən çaşdırır... İnanmıram... yalan olar... və s...

Ümid:

— Onsuz da hazırkı cəmiyyətdə həqiqətə dəyər verənlər azdı. Belə getsə, heç olmaya da bilər... Gərək cəmiyyət ağıllı ilə dəli arasında fərq qoya. Həqiqət ətrini, parlaqlığını itirən, ömrünü başa vuran gülə bənzəyir. Elə vəziyyət yaranıb ki, cəmiyyət onu nostalji hisslərlə xatırlayır. Bir qondarmaçının danışdığı yalanı, uydurduğu, düzüb-qoşduğu şayiəni yüz fırıldaqçı eyni anda təsdiqləyir. Hələ bu azmış kimi sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində təbliğ olunur.

Fərmail:

— Bəlkə cəmiyyətə bu lazımdı? Bu günümüzün siması, düşdüyümüz vəziyyət, mənəvi kasadlıq onu tələb eləyir. Əgər belədisə...

Mürvət istehza ilə:

— Bu doğrudan da belədisə, yalan cəmiyyəti irəli aparmağa





qadirdisə, biz ondan niyə imtina eləməliyik, əksinə, onu daha da inkişaf etdirməliyik, — deyib gülümsündü. Sonra da astadan fikrini davam etdirdi:

— Əzizlərim, görünür, biz həyatı yalançılar qədər anlamırıq. Bəlkə, doğrudan da dünya “yalanlar dövrünə” qədəm qoyub, biz ondan xəbərsizik. Etiraf eləyək: yalnız masanın üstündəkiləri görür, altındakı gizlinlərdən isə xəbərsizik.

Fərmail:

— Belə çıxır ki, kimlər daha böyük yalan dənizi qurub-yarada bilirsə, o dənizin səlahiyyətli nümayəndəsi də odur. İstəyər orada üzər, istəyər balıq ovlayar, istəyər sahilində oturub istirahət eləyər.

Cəbi:

— Bu da ağıllı fikirdi. Kaş, həqiqətə oxşamayaydı, oxşasa, heç nə, deyilən sözün faydası olmayacaq, — dedi və xısın-xısın gülməyə başladı.

Fərmail astadan dedi:

— Yalançılar sizi məhkəməyə verə bilərlər, belə dolaşıq fikirlər adama çox zaman başağrısı gətirir. — O, dərindən nəfəs aldı, sonra fikrini davam etdirdi: — Ağrımayan başa yaş dəsmal bağlamağa çalışmasanız yaxşıdı.

Ümid:

— Qarnımıza ağrı verən vaxtilə yediyimiz çiy xəmirdi, gərək bunu hər birimiz anlayaydıq, — deyib növbə ilə hamının üzünə baxdı, qəti və amiranə şəkildə sözünün ardına keçdi:

— Sarımsaq yeməmisinizsə, içiniz niyə göynəyir? Hər kəs öz elədiyi qələtin bəlasını çəkir. Bu bizdə dədə-babadan qalma xasiyyətdi, ya ənənədi, — dedi:

— Kökənimizdə, qanımızda olmasaydı, bu yola belə aludəliklə can atmazdıq və tarixdən gələn bu ənənəni “indiki ləyaqətlə” davam etdirməzdik. Biz kökənimizə bağlı adamlarıq. Görgötür zəmanəsidi. Vaxt gələcək, bizim addımlarımızı əziz-tə-

vərrik varislərimiz də öz nəsillərinə beləcə ərməğan edəcəklər.

Elə bu vaxt professorun xanımı əlində məcməyi qapıdan girdi. Süfrənin üstünü qaydaya saldı. Stəkan-nəlbəkiləri yığdı. Tez də geri qayıtdı. Çox çəkmədi ki, süfrəyə əriştə, sirkə... gətirdi. Yeməyin ətri, buğu otağı bürüdü. Xanım kasaları süfrə başındakılara ötürdü, sonra ərinə dedi:

— Belə işin vardı, mənə əvvəlcədən qandıraydın. Əməllibaşlı xörək hazırlayaydım.

Fərmail dərhal:

— Bundan yaxşı yemək? Professorun suyu da, duzu da bəsdi bizə.

Ümid Mürvətin üzünə qımışdı. Mürvət dilləndi:

— Nə olub, Ümid?

— Yaxşı qurtardıq. Elə bildim Fərmail deyəcək: "Professorun yalı da bəsdi bizə".

Hamı gülüşdü.

Cəbi:

— Ayə, sizi dəvət eləmədim ki, məni ələ salasınız. Məsxərəyə qoyasınız...

Deyə-gülə kasalar boşaldı. Xanım əriştənin arxasınca təzə çay gətirdi. Çaydan sonra süfrə yığışıldı. Cəbi dedi:

— Hə... Qayıdaq bayaqkı söhbətə. Həqiqət! Ədalət!.. Bu gün biz nə qədər miskin görünürük. Azacıq yalana sarı dönək, öz halımıza da, onun halına da baxaq. Görərik ki, biz nə qədər cılızlaşmışıq? — Gör-götür dünyasıdı, — deyiblər axı. Həqiqət dəbdən düşüb. Heç kəsə lazım deyil. Nə qədər gec deyil, qardaşlar, nümunə götürmək lazımdı... Bunu sizə mən deyirəm.

Otağı gülüş səsləri bürüdü. Professor asqırdı. O, cibindən dəsmalını çıxarıb ağzının-burnunun suyunu sildi və üzrxahlıq elədi:

— Görürsünüz, Allah da mənim doğru dediyimi təsdiq elədi. Gərək mənim dediklərimə siz də şübhə ilə yanaşmayasız. İnanıram, şübhə eləyənlər də dediklərimin həqiqət olduğunu tezliklə anlarlar. Həqiqət!.. Ədalət?! Bayaqdan bir-birimizə deyirik ki, dünyada həqiqət, ədalət... o söz. İndi isə yenə həqiqətdən dəm vururuq. Xeyir ola?! Qocalığımızı boynumuza alırıqmı? — deyib qəşş elədi.





Ümid danışırdı, gülürdü, ancaq oğlu barəsindəki düşüncələri ona böyük kədər, qəm, qüssə gətirirdi. Danışmağa olan həvəsini söndürürdü. Onun üzü gülsə də, içi ağlayırdı. O, kimsəyə bir söz deməsə də darıxırdı, bir yerdə qərar tuta bilmirdi. O, qalxıb professorun kitab rəfinə baxdı. Qalın "Neft strategiyası" kitabını götürdü. Kitab səkkiz fəsil, qırx altı paraqrafdan ibarət idi. Orda dünyanın enerji resurslarından, bu sahədə beynəlxalq aləmdə görülən işlərin əsas istiqamətlərindən... bəhs olunurdu. Kitab publisistik üslubda, hamının başa düşəcəyi, sadə bir dildə yazılmışdı. Fərmail soruşdu:

— Hə... Necədi? Kitab xoşuna gəlirmi?

Ümid:

— Dili, üslubu, yoxsa, məzmunu?

Fərmail:

— Dil-üslub forma məsələsidi. Doğrudu, forma məzmuna təsir eləyir. Deyə bilərsən ki, forma məzmundan ayrılmazdı. Hər halda, məzmunu nəzərdə tuturam.

Mürvət:

— Quru ağaca, köntöy daşa nə qədər parıltılı libas geyindirsən də, soyunduranda mahiyyət aydın görünəcək... Nəzərə al ki, beynəlxalq aləmə nə qədər ki, xoş gəlir, libası təqdir eləyəcək, əks halda, ən sağlam mövqeyə və məzmuna qəmbərqulu tapacaqlar... Ehtiyac duyulmadığı halda beynəlxalq hüquq anlayışını öncə xatırladacaq, sonra gözə soxacaqlar... Əvvəlki təntənəli münasibətlərdən əsər-əlamət qalmaycaq. Nəhənglərin sifəti budur: istəyəndə "dost" deyirlər, istəməyəndə, sadəcə, "müttəfiq". Bir az da uzağa gedəndə insan hüquqlarından, söz, ifadə

azadlığından, demokratiyadan, ən nəhayət, küçədə itlərinin haqqının tapdanmasından dəm vururlar.

Cəbi:

— Neft strategiyası ideyası dünyanın fəlakətidi. Amerika-İraq müharibələrini xatırlayın. Ərəb baharının törəməsi İŞİD-in yaranması və onun tarixə yürüşləri. İraqdan sonra Yəməndə, Tunisdə tökdükləri qanlar. Səudiyyə Ərəbistanı, İraq, Misir, Qətər, Küveyt birləşmələri nələrdən xəbər vermir? Türkiyə-İran qarşıdurması bizə nə bəxş eləyər? Rusların keçmiş SSRİ məkanındakı təkrar işğalçılıq siyasəti, dünyanı nüvə silahları ilə hədələmələri, ABŞ başda olmaqla Qərbin, Avropanın onüzlü siyasətləri... bəşəriyyətin başına açılacaq fəlakətlərin başlanğıcı deyilmi? Bu gün böyük həvəslə neft strategiyasından bəhs eləyənlər sabah töküləcək qanların həddi-hüdudunu görürlərmi?! Qəribədi... Bu toxumun yaradıcısı, səpicisi başqaları olsa da, onun göyərməsinə imkan açanlar bəs kimlərdi?! Neftin həyatvermə imkanı olduğu kimi, yandırıcılıq xassəsi də vardır. Hər şey, hər şey — o yağlı vədlər də, "sədaqət" görüntüsü yaradan, dırnaqarası dostluq təlqin eləyən enerji resursları da dünyanı vurub dağıtmağa bəs elər. Dünya gün-gündən qarışır. Varlığına güvəndiyimiz sərvətlərimiz başımıza bəla açmayacaq ki?

Mürvət kitabı alıb vərəqlədi, sonra örtdü: — İlahi, biz hara gedirik? — dedi.

Ümid:

— Ay pir olmuş, hələ bu harasıdı ki? — dedi, kitabı Mürvətdən aldı və qaytarıb rəfə qoydu:

— Belə kitablar çoxdu, əsəbiləşmə. Bizim sözümüzlə heç nə dəyişməyəcək. Dəyişməyəcəksə, onda gəl özümüzü cırmayaq, — deyib o, professora sarı çöndü və heyrətləndi. Bu heyrətdə hiddətqarışıq qorxu, vahimə ifadə olunurdu.

Fərmail:

— Heç kimin heç kimdən ehtiyacı yoxdur. Bir-birimizə hörmətlə yanaşa bilərik. İnsan başqalarına pislik, mərdimazarlıq eləmək üçün dünyaya gəlməyib. Ancaq xarakterlərimiz başqa-başqadı. Hər birimizin heysiyyətimiz var. Tələm-tələsik iş görməyi, kobudluğu şəxsən mən özümə heç vaxt sığışdırmaram. Təhqirlər də, nəzakət də qarşılıqlıdı. Başqa sözlə, söyən söyüləcək, vuran vurulacaq...





Mürvət:

— Tamamilə doğrudur. Sentimentallıq hamıda var. Qarşı-qarşıya dayanıb bir-birimizə çirkab atmaq ləyaqətsizlikdi, özünü hörmətdən salmaqdı. Eşidən-bilən adama nə deyər? İşləmək, tər tökmək istəmirik, ancaq geyinib-keçinməyə, yaxşı yeməyə, cibimizi doldurub ərköyün-ərköyün gəzməyə iştahlıyıq.

Ümid çaqqa-çuqla işləyən divar saatına baxdı. Birdən dedi:

— Oy aman... Necə də unutmuşam. Ülfətə dərman aparmalıyam... Siz əyləşin, söhbətinizi eləyin. Mən gedim.

Mürvət:

— Mən də səninlə gedim.

Ümid çiyinlərini çəkdi:

— Yaxşı, — dedi və Cəbiyə tərəf çöndü:

— Professor, sənə sağlamlıq diləyirəm. Sağal qalx, görüşərik.

Cəbi:

— Ülfətə də salamımızı çatdır. Uğur olsun.

## Telefon danışığı

Nigarançılıqdan bezən Ümid günorta naharından sonra evdə dincəlirdi ki, telefon zəngi otağı bürüdü. O, uzandığı divandan qalxıb telefonun dəstəyini götürdü: — Alo, alo! — elədi, səs gəlmədiyindən dəstəyi yerinə qoydu. Pəncərəyə yaxınlaşıb həyətə baxdı. Çöldə qalxan güclü külək ağacların budaqlarını bir-

birinə çırpırdı. Telefon yenə zəng çaldı. Ümid düyməni basdı.
— Alo, eşidirəm, — dedi. Mikrofondan qalın, yaşlı kişi səsi eşidildi.

— Mənəm, Tariyel.

— Kim?

— Tariyel. Yoxsa, tanımadın, Ümid müəllim, biz xeyli müddət bir yerdə işləmişik. Nə tez unudursan köhnə dostları?

— Yoox. Unutmuram. Zəngin gözlənilməz oldu. Bir də ki, axı, biz neçə illərdi telefonla danışmırıq. Açığı, səsinin ahəngi məni çaşdırdı. Səsində qəribə vurğular duydum. Nə isə... Eşidirəm səni, buyur.

— Səsim xoşuna gəlmədisə...

— Bu nə deməkdi, Tariyel? Bəyəm biz indi bir-birimizi tanıyırıq?

— Yoox... Zəng elədim ki, sənə deyim, Saleh bu səhər məni gördü, dedi ki, Ümidə çatdır: mənimlə oyun oynamasın. Dəli dəlini görməsə, çomağını böyrünə qısmaz. Özünü yığışdırsın.

— Öyrənmədin ki, niyyəti nədi? Məndən zəmanət istəyir, yoxsa yardım? Hökmdüsə, de, onu da bilim.

— Burda mənlik iş yoxdu. Doğrudu, o, mənim bibim oğludu.

Ümid dərhal Tariyelin şərəşur, nadürüst əməllərini anladı:

— Onda, sənin bu məlumatın nəyə xidmət eləyir? Məni çaşdırmağa, yoxsa, baş gicəlləndirməyə?

— Mənim zəng eləməyim səni qorxutmasın, Ümid. Sən səfeh adam deyilsən. Ağıllısan. Ən çətin şeylərdən baş çıxaransan. Yaranmış vəziyyətdən yol tapansan. Mən o dələduzun bəzi xüsusiyyətlərindən xəbərdaram və ondan hər cür alçaqlıq gözləyirəm. Dağların altından girib, üstündən çıxmaq, şah damarını qırmaq onun peşəsidi.

— Onda gərək adam özün təlxək yerinə qoymasın, Tariyel. O, mərhəmətə, xeyirxahlığa möhtacdı. Alkoqollu içkilər içməkdən sərxoşdu. Sənin qohumun içməyə, səhərdən axşamacan satqınlığa, şayiə yaymağa, mərdimazarlığa, sülənməyə öyrəncəlidi. Ona çatdır, Ümid deyir ki, dühа sahiblərini boğub öldürmək mümkündü. Ancaq hünər odur ki, insanın ürəyi xeyirxahlıq ehtirası ilə döyünsün. Müstəntiqə də, mənim digər əleyhdarlarıma da söz çatdırmaqdan əl çəksin. Bilmək istəsən, o, itaət üçün doğulub. Elə şəxsiyyətsiz adamı tərbiyələndirmək çətin məsələdi. Əmin olsun ki, axtardığını məndə tapammayacaq.

Tariyel incə istehzayla gülümsündü:

— Mən həmişə sənə küncdən-bucaqdan baxmışam.

— Baxmısan, yoxsa, güdmüsən?

— Nə fərqi var?

— Fərqi çoxdu.

— Uzatmayaq, sən yaxşı adamsan. Hamıya qarşı həssassan. Xoşniyyətsən. Amma nədənsə, çoxlarının səndən zəhləsi gedir.

— "Zəhlə" sözü ağır ittihamdı. Bəlkə deyəsən, mənə paxıllıq eləyirlər. İstəyirlər, mənim kimi olsunlar, ancaq ola bilmirlər.

— Sən böyük adamsan, Ümid. İtə ağac bulayarsan, qayıdıb üst-başını cırmaqlar, əl-ayağını tutar. O dediyini elə. Kasıb adamdı. Yüz cür dərdi var.

— Yaxşıyam-pisəm özümə. Gəl tərifi saxlayaq. Biz insanıq, kəsib-doğramaq, vurub-dağıtmaq, didib-parçalamaq üçün doğulmamışıq. Mənim üçün bir qanun var. O da insanlıq qanunu. Mən o qanunun quluyam, o qanuna itaət eləyirəm. Çünki qanunun mahiyyətində gözəl ideya var — Allah var. Ədəbsizlik, normaları aşmaq, şöhrətpərəstlik, eqo, nəfs... nifrət etdiyim şeylərdi.

— Ayə, qanunları saxla. Qanunu ən çox pozan qanun yazanlardı. Qaldı Allah qanununa. O da kasıblara dolaq üçündü. Yola ver, getsin. Onu özündən uzaq elə, Ümid.

— Əvvəlki dövrdə cinayət törətməyə cəmiyyət yaxşı bax-

mazdı. Cinayətkarla barışmazdılar və ondan uzaq qaçardılar. Qəribədi, indi cinayətə münasibət kökündən dəyişib. Hamı cinayətə də, cinayətkara da normal kimi baxır, Tariyel. Az qala, onu mənəvi borc sanırlar. Bilirsən niyə? Çünki cəmiyyətdə hamı cinayətkardı. Hamı cinayət törədir. Yeganə fərq cinayətin böyük-kiçikliyində yox, xarakterindədi. Ağ qaraya, yaxşı pisə, halal harama elə qaynayıb-qarışıb ki, onları fərqləndirmək müşkül işə çevrilib. Adamların da başları dumanlı, ürəkləri boş... Bir sözlə, hamı sərxoş...

— Axı cəmiyyətə də mənfurlar lazımdı, Ümid.

— Dünya başdan-başa yaxşı olsaydı, yaşamağa dəyərdimi? Dünyanı əlvan rəngə boyayan rəzillər, qəddarlar, qorxaqlar, eqolu adamlar deyillərmi, Tariyel?

— Sən realist, mənsə bir az fanatikəm, Ümid.

— Mən sənə fanatik yox, romantik deyərdim.

— Fanatik, romantik. Nə fərqi var? Hər iki sözün yaradıcısı bizik, Ümid.

— Sən deyən olsun. Hər deyilən sözə inanıram. Hətta düdəmələrin əfsanələrinə də. Ağlım baş verənlərdən bir şey kəsmir, Tariyel.

— Əşi, hər şey qarışıb, harda gəldi, necə gəldi, adam öldürürlər. Fərqi yoxdu, uşaqdı, ya qocadı. Qan tökülür. Çoxları da bunun səbəbkarının kimlər olduğunu, nədən törədildiyini sonalamır da. Hamı "ura!" deyib özünü cəhənnəm odunda yandırır. Neçə ölkə tüstüyə, alova bürünür, neçə dərya çalxalanır. Olmazın cinayətlər törədilir. Hamı son həddə Allahını çağırır, ondan da cavab gəlmir. Neyləyəsən, Ümid?

— Dünyanı əfsanələr dolaşır. Realistlər, cinayətkarlar, fanatiklər qan verirlər... Bütün hallarda təmizləri natəmizlər, ədalətlini ədalətsizlər, allahlıları allahsızlar... udurlar. Niyyətlər, mənafelər toqquşanda görünməyən qüvvələr kənara çəkilib oğru pişiklər kimi qıraqda dayanırlar. Günahsızları da min hiylə ilə





qırdırırlar bir-birilərinə. Hərdən qəzəb, nifrət məni boğur. Ölümcül hala düşürəm. Bunların hamısı bilirsən nədən törəyir: Allahı qoyub, şeytanın ardınca sürünməkdən. Fitvalara uymaqdan! Yersiz iddialardan!

— Əşi, o qədər verdik çənəyə. Əsas məsələni az qala, unudacaqdıq, ay Ümid.

— Əsas məsələ deyəndə, nəyi nəzərdə tutursan, ay Tariyel?

— Salehə çatdırmalı olduğunu deyirəm də.

— Ona çatdırılacaq heç nəyim yoxdu, Tariyel.

— Nə danışırsan?

— Bəli!

— Bunu mən — Tariyel deyirəm sənə.

— Çox nahaq.

— Sən də çərçivədən çıxırsan. O sənə ağır başa gələr, Ümid. Kişinin oğluna...

— Nə?

— Qəsd eləmisiz...

— Sən içib, ya çəkməmisən ki?

— Bu nə sözdü?

— Biz bir yerdə işləmişik. Sən mənimlə heç vaxt belə danışmazdın, Tariyel.

— Xeyr, mən onda da sənə diqtə eləmişəm, indi də eləyirəm, yadında saxla, sabah da eləyəcəm

— Gərək ki, sənin də yaddaşın möhkəmdi. Unutqanlığın yoxdu.

— Bəli!

— Bilirəm, kişi söhbəti deyil. Ancaq vadar eləyirsən, deyəcəm: ayaqqabım batmışdı. Sən bunu görəndə dərhal cibindən burun dəsmalını çıxarıb ayaqqabımı silməyə başlamanı. Geri çəkilib, səni danlamamı... Görünür, heç dəyişməmisən. Sən də Saleh kimi bir şeysən...

— Yekə kişisən, əə. Söz danışdın da. Cavanlıqda kim səhv

etməyib ki?

— Mən də elə düşünürdüm, Tariyel. İndi görürəm, o elədiklərin cavanlıq səhvindən yox, xarakterindən irəli gəlir.

— Ümid, Salehin düşmədiyi həbsxana, törətmədiyi cinayət yoxdu. Həmişə də sudan quru çıxır. O, birdən sənə, oğluna xəta yetirər, sonra mənə deyərsən ki, bilirdin, məni niyə xəbərdar eləmirdin?

— Ayə, Saleh qələt eləyər, başın daşa döyər. Mən ona qayğı göstərəcəkdim. Anladım ki, o, mənə sən və sənin kimi dostları vasitəsilə qəzəl oxuyur. Mənim qəzəl dinləyən vaxtımdı? Ay Tariyel, bəlkə, sənə nəsə lazımdı? Lazımdısa, utanma, de.

— Əşi, onu adama deməzlər.

— Zeynəb qarı deyərdi: "Ağlamayana əmcək yoxdu..." Ayə, a, Tariyel, utan, qızar boy-buxunundan, dediklərindən.

— Hə... Bu da mənim haqqım. Saleh gələr, özün ona cavab verərsən...

Ümid əsəbiləşib telefonun düyməsini basdı. Tariyel nə qədər telefon açdısa, Ümid cavab vermədi...

## Son görüş

Fantastik çalar. Ruhların qovuşduğu anlar. Qəlblərin riqqəti. Sonra da təsadüflərin puç eləməkdə olduğu xəyallar. Bətnlərdən doğan kədərli düşüncələr. Əl üzülən istək. Ölən sevgi, məhəbbət. Nə istəyirsən, nə qismətinə çıxır? Nə axtarırsan, nə tapırsan?.. Eh... İnsan taleyi... Qismətində nələr yoxdu. Yaralı, xəstə Ülfətin son vaxtlarda çəkdiyi ağrıların, iztirabların, əzabların, istək və arzuların donuqluğu... Bütün bunlar Əfsanəni haldan-hala salırdı. Gündə bir neçə dəfə telefonla rəfiqəsi Günəşdən, yanına gedib-gələn həmkarlarından aldığı xəbərlər, günaşırı min bir bəhanə ilə anasından icazə alıb Ülfətin yanına qaçmaları, onunla görüşləri qıza heç cürə təskinlik vermirdi. Son vaxtlar onun ürəyinə hardansa süzülən qara fikirlər, gündüzlər nigarançılıqları, gecələr yuxularının pozulması qızın rahatlığını əlindən alırdı. Onda getdikcə belə təsəvvür yaranırdı ki, ümidgahı Ülfət aldığı zərbədən ayağa qalxa bilməyəcək... İçinə dolan bu qorxu, vahimə zavallını bir an da tərk eləmirdi. O, anasından savayı kimsəyə bir söz deməsə də oturub-durub Ülfət barədə düşünürdü... Bir neçə dəfə də anası kövrələrək qızına təskinlik vermişdi. — Özünü ələ al, həyatda hər şey olur. İnşallah, sağalıb qalxar... Onda hər şeyi unudarsan...

Dolaşıq, ziddiyyətli söz-söhbətlər onu öz məhvərindən qoparırdı. O, gələn xəbərlərin bəzilərinə şişirtmə, bəzilərinə də şayiə kimi baxırdı. Ömrü boyu ailədə heç kəsdən qadağa-filan görməyən, "ayağın yandı geri çək" sözünü eşitməyən, uşaqlıqdan davranış və hərəkətlərində, danışıqlarında, hadisələrə münasibətlərində sərbəst, açıq olan Əfsanə kimsəyə bir söz demədən paltarlarını dəyişdi, tələm-tələsik evdən çıxıb, taksiyə mindi, birbaşa Ülfət yatan xəstəxanaya gəldi. Ülfətin həkimi ilə görüşüb xəstənin vəziyyətini soruşdu:

— Ülfətin nişanlısıyam. Mənim sizinlə elədiyim söhbətdən xahiş eləyirəm, kimsə xəbər tutmasın. Utanıram. O, necədi? Mən həqiqəti bilmək istəyirəm.

Əfsanə yüngül təbəssümlə həkimin üzünə baxdı, sonra da susdu. Həkim ani fikrə getdi və astadan dedi:

— Xanım, bir acı həqiqət yüz şirin yalandan yaxşıdı. Əlimizdən nə gəlirdisə, elədik. Elə şeylər var ki... Bizim imkan və iradəmizdən kənardadı.

— Deməli...

— Çətindi. İnsan ümidlə yaşayır. Görək nə olur. Biz də çalışırıq.

İstədiyi cavabı həkimdən ala bilməyən Əfsanənin ürəyindən daş kimi asılan qəm yükü onu halbahal elədi, dərdinin üstünə

dərd gətirdi. Onda ümiddən, üzündəki təbəssümdən əsər-əlamət qalmadı. Ancaq özünü olduqca sərbəst və sakit apardı. Daha heç bir söz deməyib həkimlə xudahafisləşdi.

O, hələ vaxtı ilə mərhum nənəsindən eşitmişdi ki, insan ona bəxş olunan ömrü fantaziyasının zirvəsində yaşaya bilməz. Yaşadığı cəmiyyətin sağlamlığından və xəstəliyindən asılı olmayaraq, o, təbiətin qanunları ilə hesablaşmalıdı... Sarsılmış, canını qoymağa yer tapmayan Əfsanə göz yaşları içərisində düşündü:
— Özümüzü aldatmayaq, insan təbiət və cəmiyyət qanunlarına tabe olmadıqda, daim uçuruma yuvarlanır, onun heysiyyətinin izi-tozu qalmır. Necə ki, mənim Ülfətim kimi. Çox təəssüf, Ülfət. Səni necə tapmışdımsa, deyəsən, elə də itirəcəyəm. Ancaq istərdim biləsən, ruhun ruhumdadı...

Əfsanə dəhlizə çıxdı. Səssiz-səmirsiz və dalğın halda ətrafına baxdı. Sanki o, heç kimi görmürdü. Hirsdən, qəzəbdən sarsılırdı. Daxilində qopan dəhşətli təlatüm üz-gözündən sezilirdi. Qızaran sifəti qan təzyiqinin qalxmasından, alacalanan gözləri dolu kimi yaş axacağından xəbər verirdi. O, bir çox şeyləri gizlədirdi. Hər adama ürək açmaq xarakterinə yad olduğundan, hətta yaxın rəfiqəsi Günəşi də xəbərdar eləmək istəmirdi...

Əfsanə Günəşlə palataya girdilər. Əfsanə Ülfətin balıncına söykənmiş, gözləri nəmli qadını görəndə bir qədər özünü yığışdırmağa çalışdı. Coşmaqda olan hisslərini boğdu. O, astaca Ülfətin çarpayısına yaxınlaşdı.

Titrək səslə: — Necəsən, Ülfət? — deyə soruşdu.

Ülfət göz qapaqlarını ağır-ağır qaldırdı və düz qızın gözlərinə baxdı. Handan-hana onun da kipriklərində yaş gilələndi. Oğlu ilə qızın keçirdiyi hisslər Səfurəyə də təsir elədi. Qadın qəhərləndi və Ülfətin əlini əlinə alıb titrək səslə soruşdu:

— Bu üzük səndəndirmi, qızım?

Əfsanə istədi — Yox, — desin. Bu “yox” sözünün Ülfətə pis təsir eləyəcəyini düşünüb astadan, həyəcanlı tərzdə “hə”





cavabını verdi. “Hə” sözünü eşidəndə Səfurə özünü saxlaya bilməyib hönkür-hönkür ağladı. Sonra da Günəşə üzünü tutub:

— Kömək elə mənə, qızım, dəhlizə çıxım, — dedi.

Günəş də, Əfsanə də Səfurənin fikrini anladılar və keçirdiyi hissləri başa düşdülər. Günəş Səfurənin qoluna girdi. Onlar dəhlizə çıxdılar. Əfsanə əyilib Ülfətin yanaqlarından öpdü. Barmaqları ilə onun saçlarını daraqladı. Sonra da Ülfətin gözlərinin içinə baxdı. O gözlərdə nələr yox idi, nələr? Təəssüf... Peşmançılıq... Sevgi... Yaşamaq eşqi.

Əfsanə dilləndi:

— Ülfət, məni tanıdın?

Ülfət kipriklərini qırpmaqla “hə” dedi.

Əfsanə titrək səslə:

— Sən necə olsan da, mənimsən. Ruhun ruhumdadı, Ülfət. Gəldim, gözlərinə baxım, səsini eşidim, əzizim. Axı, sən qorxaq ola bilməzsən. Sən güclüsən... Sədaqətlisən...

Elə bu vaxt Ümid palataya daxil oldu. Hiss olunurdu ki, o da özündə deyil. Çox sarsıntılıdı. Donuq gözlərindən yazıqlıq, məyusluq yağırdı. Onda həyat eşqi hiss olunmurdu...

Ümid cavan qızın oğlunun balıncı yanında oturduğunu görəndə, halının anbaan dəyişdiyini hiss eləyəndə anladı ki, Ülfətin barmağındakı nişan üzüyünün sahibi elə bu qız olacaq. O, astadan soruşdu:

— Adın nədi, qızım?!

Qız çəkinə-çəkinə dedi:

— Əfsanə.

— Xoşbəxt ol, qızım.

Əfsanə bu sözü eşitməzliyə vurdu.

Ümid hisslərini boğdu. Ülfət də, Əfsanə də bir şey başa düşməsinlər deyə, qapıdan dəhlizə çıxdı. Xeyli özünə gəlib geri qayıdanda, arvadı Səfurə ilə qarşılaşdı. Ümid dedi:

— O qız kimdi, Səfurə?

— Düşündüyümüz.
— Açıq de, başa düşmədim.
— Üzüyün...
Ər-arvad palataya girdilər. Əfsanə onlardan üzr istəyib, dəhlizə çıxdı, anasına zəng elədi:
— Ana, mən xəstəxanadayam.
— Hardasan?
— Ülfətin yanında. Gec gələcəyəm, — ola bilər ki... səhər.
— Sən dəli olmusan?
— Dəli-ağıllı... sözümü dedim.
— Axı, atan..
— Fikrimi ona da çatdır. Mən bu vəziyyətdə Ülfəti, onun ata-anasını tək qoya bilmərəm.
Əfsanə telefonu söndürdü və palataya qayıdıb öz yerində əyləşdi.
Ağrı-acılar Ülfəti əldən salırdı. Ah-ufları, qışqırıqları otağı bürüyürdü. Tez-tez də Əfsanə Ülfətin səsinə səs verir, “can”, “can” deyirdi. Bu hadisə az qala, ər-arvadın ürəyini parçalayır, onları qəhərləndirir, kövrəldir, göz yaşları axıtmağa vadar eləyirdi... Gecə yarıdan keçirdi. Ümid qolundakı saata baxdı. Əqrəblər ikini göstərirdi. Ümid üzünü Səfurəyə tutdu:
— Bizə növbə ilə yatmaq lazımdı. Bəlkə Əfsanə ilə sən gedəsən, mən qalıb keşik çəkəm.
Əfsanə:
— Yoox... Siz gedin... Bu gecəni mən qalaram.
Səfurə:
— Nə danışırsan, qızım. Onsuz da bizə olan olub. Biz gedək, səhərə az qalır.
Əfsanə ilə Səfurəni yola salan Ümid dəhlizin axırına qədər getdi. Bəzi lampalar söndürüldüyündən, hər tərəf alatoran idi. Ümid özünü saxlaya bilmədi: zavallı Əfsanə, qızım, bu hadisə sənin də taleyində iz qoydu. Mənim nakam balalarım, mənim





doğmalarım. Sizi xoşbəxt eləmək üçün əlimdən heç nə gəlmədi. Bu, taleyin hökmüdü...
Səfurə ilə Əfsanə getdilər. Ağıllarına da gəlmədi ki, bu gecə onların Ülfətlə üzbəüz son görüşləri, son təmasları olacaq.

* * * * * *

Cənazə qaldırılha-qaldır idi. Hamı cərgəyə düzülərək Ümidə yaxınlaşır, ona böyük hüznlə başsağlığı verirdi. Özündə, sözündə olmayan Ümid adamların başsağlığını qəbul eləyirdi. Birdən o, qarşısında Eyyubun valideynlərini — Sərxanla Səbinənin hədsiz qəm, qüssə, kədər içərisində dayandıqlarını gördü. Kişinin ürəyi sızladı. Sərxanın, Səbinənin üzünə baxdı. Deməyə sözü, danışmağa dili olmadı. Səbinə astadan:
— Ümid qardaş, bu hər birimizə Allahdan gələn bəla idi. Ülfət çox əziyyət çəkdi. Heyf... Çox heyf...
Sərxan dərindən ah çəkdi:
— Dərdinizə biz də şərikik.
Ümid:
— Qarşınızda günahkaram və baş əyirəm.
Adamların ziyarətini qəbul eləyən Ümid Saleh və müstəntiqlə üz-üzə dayananda fürsəti əldən vermədi:
— Saleh, daha puldan danışma. Onu Allah sənə qıymadı. Heyf, ölənin canından.
Sonra üzünü müstəntiqə tutdu:
— Pul yoxdu, müstəntiq. Sən də qismətindən küs. Bu dediklərimi prokurora da çatdır.

# Qisas

*(Roman)*

## Boz buludlar...

Görüb-götürən, təvazökar kimsənin sirrini kimsəyə ötürməyən Muxtar heç vədə heç nədə özü əndazəni aşmadığından aşanlara da yaxşı baxmazdı. Elələrinə şərəşur, yaramaz damğasını şarappadan vurardı. Bu damğanı özünə rəva görməyənlərə, inciyib-küsənlərə müxtəlif üsullarla ədəb-ərkandan yaxşıca dərs verərdi. Qəbul eləməyənlərə utanıb-çəkinmədən: — Səndən adam olmaz, — deyərdi. Onun üçün yaş, vəzifə, dost-düşmən — fərq eləməzdi. Bircə meyarı vardı: "Ədəb-ərkan!..". Bu xasiyyətinə görə çoxları ona üzünə olmasa da, arxasına "ədəb-ərkan Muxtar" deyərdilər. İnsafən, Muxtar bu deyilənlərdən inciməz, sıxıntı-filan nədi, keçirməzdi. Əksinə, ədəb-ərkan ləqəbi ilə fəxr edərdi. Hətta məclislərdə ondan acığı gələnlərə deyərdi:

— Ədəb-ərkan ləqəbini mənə qoyanların atalarına min rəhmət. Bu ləqəbə uyğun yaşamaq, ömür sürmək, məsuliyyət daşımaq böyük şərəfdi. Mən nəslimə, kökümə bağlıyam. İndiyəcən belə yaşamışam, belə də yaşayacam. Camaatın dediyi kimi, mənim meyarım ədəb-ərkandı...

Arvadı Şərqiyyə əri Muxtardan tamamiylə fərqli idi: dilini saxlaya bilmirdi; hikkəliydi; sözdən söz çıxaran iydi; davakar iydi; iftiraçı iydi; qeybətçil iydi... Nə, nə idi...

Onları tanıyanlarda belə qəti fikir yaranmaqdaydı: bu zidiy-





yətli xarakter, fikir sahibləri, necə olub ki, ailə qurublar.

Səkkiz illik ailə təcrübəsi olan Muxtarın üç iliydi bircə dərdi vardı: arvadı Şərqiyyə ilə bundan sonrakı ömrünü necə başa vuracaq? İnsafən, beş illik birgəyaşayışlarında yaxşı dolanan bu adamlar daim çalışardılar səsləri çıxmasın. Bir-birilərini necə var, elə də başa düşsünlər. Dedikləri sözlər hər ikisinin boğazından keçsin. Ancaq özləri də bilmədən yavaş-yavaş işlər korlandı. Şərqiyyə dəyişib tamam başqa adam oldu. Muxtarı dərd-sər götürdü: bu qırhaqırda yeddi yaşlı İlahənin taleyi necə olsun? Çətin məsələdi...

Hər gün də ər-arvad arasındakı münasibətlər getdikcə tündləşir, onları bağlayan tellər qırılırdı. Muxtar ağ, şirin, ağıllı... deyəndə, Şərqiyyə dərhal qara, acı, dəli deməkdən çəkinməzdi.

Şərqiyyə çox zaman gördükləri ilə yox, eşitdikləri ilə danışırdı. Hər kiçik şeyi bəhanə eləyib, evə dava-dalaş salır, Muxtarı hövsələdən çıxarırdı. Belə olan tövrdə kişi çaşbaş qalır, nə eləyəcəyini bilmirdi. İçini boşaltmağa, acıq-giciyini çıxarıb tökməyə elə bir etibarlı adamı da yoxuydu. Olsa da, ailə sirrini faş eləməyi, arvadı barədə danışmağı özünə sığışdırmırdı. Elə hey düşünürdü: Eşidən-bilən mənə nə deyər? Ən azı, — Şəxsiyyətsizdi, axmaqdı — deməzlər ki? Cəmdəyimə tüpürməzlər ki? Dərd böyükdü. Bəlkə onunla yenə danışım, onu yola gətirməyə çalışım? Ola bilməz ki, qanmasın. Başa salım ki, ay Şərqiyyə, ortada gözəl-göyçək qızımız var. Onu gözləri yaşlı qoymaq, bağrını qana döndərmək, bədbəxt eləmək bizə fayda gətirməz, əksinə, lənətlənərik. Gəl qurtaraq bu yersiz, xatalı söz-söhbəti... Şərqiyyə sözə, fitvaya çox tez gedəndi. Kim nə desə, inanandı. Hərənin də ağzından bir avaz gəlir. Qaşınmayan yerdən qan çıxaranlar aramıza daha qatı, daha tünd nifaq salacaqlar. Onda da gəl Şərqiyyə ilə dil tap. Minəcək cin atına. Mənimlə ağ üzdən qaranı götürəcək. Döy başına, döy dizinə olacaq. Kimə necə deyim ki, ay dadi-bidad, vallah-billah, mənim bu işdə günahım-filanım

yoxdu, arvad özü məni məcbur eləyir davaya. Bəhanəbazdı, deyingəndi, eşitdiklərinin böyrünə yamaq vurmağa öyrəncəlidi, şübhələrlə danışandı... Qara, tünd rəngli söz-söhbəti xoşlayandı... Hirslənəndə həddini aşır, gözləri hədəqədən çıxır. Ağzına ağ da gəlsə danışır, qara da. Nəinki dost-düşmən, heç doğmaca ata-anasını da tanımır: ər-arvad arasındakı münasibətləri tapdalamaqdan çəkinmir. A buna diplom verən... Sənə nə deyim?

Muxtar hələm-hələm hər sözdən əsəbiləşməzdi. Hər cür ekstremal vəziyyətdə hirsini boğmağı bacarırdı. İnsanlara inamı vardı. Kimsə səhv eləsəydi və sonra da gəlib Muxtardan üzr istəsəydi, güzəştə gedər, insafən, hər şeyi yoluna qoyardı.

Muxtar adamlara inamla yanaşırdı. Ancaq özü də bilirdi ki, kor-koranə inam çox pis şeydi. İnandınsa, evin yxılacaq. Dərdbəlaya düşəcəksən, ən azından aldanacaqsan. Qəribə idi, bunları bilə-bilə də deyilənlərə inanırdı. Çox çəkmirdi ki, zərərini çəkir, dərin peşmançılıq hissi keçirirdi.

Muxtarı ən çox əsəbiləşdirən arvadının böhtan və iftiraçılığıydı. İş elə gətirmişdi ki, Muxtarın zəhləsi gedən hərəkətlər arvadında geninə-boluna vardı. Çoxunu da Şərqiyyə özü qəsdən eləyirdi. Belə olanda Muxtarın kini, küdurəti, hirsi, qəzəbi kükrəyir, haldan-hala düşürdü. Onda da zavallı kişi acığını tökməyə yer axtarırdı. Arvadının əlində giriftar olan Muxtar bir şeyə adətliydi. Elə ki, o, arvadına əsəbiləşdi, da gedib onunla ağızağıza verməzdi. İçində, əlbəttə ki, ucadan yox: — İt hürər, karvan keçər, — deyib ayağa qalxar, yan otağa keçib güzgüyə baxardı. Orada özünün sərtləşən üzünə, hədəqəsindən çıxan gözlərinə, sinəsinin ağır-ağır qalxıb-enməsinə... tamaşa eləyirdi. Rejissor sayağı üzündə müxtəlif xarakterli... acıqlı, qəzəbli, mülayim, gülərüz... cizgilər yaradardı. Hansının özünə xoş gəlibgəlmədiyini müəyyənləşdirər, Şərqiyyəylə söhbəti zamanı yaranmış vəziyyətdən asılı olaraq, uyğun gələnlərini seçərdi. Onların hansının harda tətbiqi üçün əlverişli məqam axtarardı.





Arvadının səsi kəsilincəyədək məşhur aktyorlar kimi heyrətlənmədən, həyəcanlanmadan, ataram-kəsərəmi ağlına girmədən, başqa sözlə, zorsuz-filansız gözlərini bərk-bərk yumar, Zeynəb qarının turşaşirin, məzəli əhvalatlarını xatırlayardı. Etiraf eləyək ki, bütün bu işlərin yüksək səviyyədə alınmasında Muxtarın rejissorluq bilik və bacarıqları da dadına çatardı. Əlbəttə, bu cəhəti qabartmamaq həm böyük ədalətsizlik olardı, həm də işin götür-qoy olunmasında insafsızlığa dəlalət eləyərdi. Sonuncu dəfə, yəni bu səhər xeyir-şər eləmədən dava-dalaşa adət eləmiş Muxtar güzgüyə baxarkən onu tozlu, bir az da ləkəli gördü. Kişinin başındakı tüklər biz-biz oldu. Bütün bədənini vicvicə bürüdü. İstədi, yan otağa qayıdıb arvadını ikiqəpiklik eləsin. — Bu ev it günündədi, niyə təmizliklə məşğul olmursan? Bəyəm, bu xaraba sənin deyil, — desin. Dərhal da ağlına belə bir fikir gəldi: Əşi, qoy rədd olsun o yana. Bir kəlmə söz desəm, bir həftə baş-qulağım dığın-dığından gedəcək. Qonşular da səsimizi eşidəcəklər. Hərə özlüyündə bir şey uyduracaq. Onunla çənəyə verincə, güzgünün tozunu-ləkəsini özüm silsəm yaxşıdı. Əks halda, arvad göz görəti şeytanla ittifaqa girəcək. Ağzımda arvad deyirəm. Heyf, o həkimlik diplomundan. Xəstəyə şirin dil dərman-dava qədər gərəklidi... Desəm, — Göyün üzünə bulud gəlib, yağmaq təhlükəsi var, işə gedərkən unutma, çətirini götür, — qayıdıb üzümə tərs-tərs baxacaq. Ağlagəlməyən sözlə özünün də, mənim də qanımı qaraldıcıq... Yaxud, səhər işə ac getmə, təzyiqin düşər, başın hərlənər, yıxılarsan, onda da ən azından deyəcək: "Utanım sənin yerinə... Kişi kişi olar". Hansını deyim: gülürəm, bir dərd, ağlayıram, tamam başqa dərd. Hər şeydən bir qanqaralığı çıxaran arvada nə deyim axı? İşi-peşəsi özünə tumardı... Arsız-arsız nə qədər özünə tumar çəksə də, dərman iyindən yaxınına getmək olmur. Bircə dəfə ayıbına sığınmır... Onun işini də mən görməli oluram... Üç ildi pal-paltarlarımı özüm yumuram? Çayımı, xörəyimi özüm hazırlamıram? Süfrəmi özüm açıb,

özüm yığmıram? Bu da olsun onlardan biri. Nəhayətin sonu olacaq-olmayacaq, bilmirəm. Nə fayda, mənimki belə gətirdi...

Muxtar fikirləşdiyi kimi də elədi. Yumşaq əski parçası ilə güzgünün tozunu-ləkəsini silməyə başladı. Necə oldusa, amanabənəd imiş kimi güzgü döşəməyə düşüb çilik-çilik oldu. Muxtar ehtiyatsızlıq elədiyi üçün özünə bərk acıqlandı. Nifrət və qəzəblə güzgünün qırıqlarına baxdı. Sonra öz-özünə eyham və kinayə ilə:

— Bu əcaib sir-sifətimə, hədəqədən çıxan gözlərimə nəinki cansız, zərif güzgü, heç polad lövhə də tab gətirməzdi.

O bir-iki addım geri çəkildi. Çiliklənən güzgünün qırıqlarına birdən-ikiyə belə şey görməmiş kimi diqqətlə baxdı. Hər qırıqda üz-gözünün paramparça olmuş hissələrini gördü. Elə bil, Muxtarın içinə qırıq-qırıq qaya parçaları, Girdman çayın yön-yöndəmsiz daşları töküldü. O, qışqırmaq, arvadını vəziyyətdən hali eləmək istədi, ancaq qorxusundanmı, xəcalətindənmi, artıq-əskik söz-söhbət olacağındanmı... hər nədənsə cınqırını çıxarmadı. Özünü məngənədə hiss elədi. Beynindən qırmızı xətt keçdi: həyatın rəzilliyinə bax... Əşi, nə düşünürsən, nə baş verir. Ağıllı dirilərin bu dünyada yaşam haqqı yoxdu. Onlar ölülərin dünyasına nə qədər tez qovuşsalar, başları bir o qədər salamat olar. Keçmişdə də həyat belə olub, elə indi də belədir. İnanmıram, sabah da belə olmaya. Deməli, yaşam üçün zaman fərqi yoxdu. Ömrüm boyu təbliğ elədiyim, dəstəklədiyim "ədəb-ərkan"dan hoqqabazlıq, həyasızlıq əfsəldi. Bu yaşa gəlmişəm, indi-indi anlayıram ki, ədəb-ərkana sığınmaq, onun meyarlarına əsaslanmaq dözülməzlikdi. O, adamın özünün fəlakətidi. Axırı ya intihar olar, ya da kimisə qətlə yetirib cinayətkara çevrilərsən. Heyf deyil arsızlıq, qadağasızlıq?.. Bir də ədəb-ərkan təbliğ eləyənin, ona dəstək verənin öz payına, lap ata-babası belə-belə olsun. Ayə, abır-həya nə axmaq şeymiş, əə?.. Sən öl, onu itə atsan, it də yeməz. Deyilişi yağışdan sonra parlayan, göy qurşağının al-





əlvan rəngləri tək göz çıxarır. Gəl məzmununa, içi boş fındıq, çürük qoz... Lap yanına tutuzdurulacaq bircə şapalağı əskikdi...

Muxtar elə Muxtar idiki Muxtar idi. O, hər yaxşı sözün də, əməlin də şakəriydi. Ədəb-ərkandan danışmağı son vaxtlar xeyli azaltsa da, başında adətkarlığı hələ də qalırdı. Bəziləri buna sadiqlik, Muxtar özü isə xroniki xəstəlik kimi baxırdı. Belə ki, bir balaca köntöy adamların hədlərini aşdığını görən kimi yenə də ədəb-ərkandan danışmağa meyllənirdi... Arvadı ilə dalaşırdı, vuruşurdu, elə ki, arvadı "yığışıb gedirəm, mən bir də bu evə üz tutmaram, çəkilib dədəmin xarabasına rahat yaşayaram" — deyən kimi, Muxtar ədəb-ərkandan danışmağa başladı:

— Əşi, qaxıl otur yerində, dava-dalaşsız ev, ailə olmaz, gedib qayınatamı, qayınanamı cana doydurma, imkan ver, yazıqlar yaşasınlar. Arvad ər evinə gəldi, gora gəldi. Onun geriyə yolu bağlanır. Bir də ki, ay Şərqiyyə, onsuz da sən məni bədbəxt eləmisən. Sən canın, qurtar yöndəmsiz söz-söhbəti. Gedib indi kimi vay-şüvənə salacaqsan? Yazıqdı səni alacaq o zavallı... Gedib onu bədbəxt eləmə... Qoy insan kimi yaşasın, ömür sürsün.

Bunu eşidən Şərqiyə Muxtarın üzünə tərs-tərs baxdı. Başını yelləyib ağzını büzüşdürdü:

— Sözlərindən utan, Muxtar, — dedi, — Budu sənə deyirəm, ağzını açıb bir də baş-ayaq danışsan, məndən incimə. İndiyə qədər qazandığımız hər şeyi alt-üst eləyəcəyəm.

Muxtar istehza ilə:

— Eləməzsən, Şə rqiyyə, sən ağıllısan, tədbirlisən. Hər şeyin yerini də, dəyərini də bilirsən.

— Bunu sənə kim dedi? Özündən uydurma.

— Uyduranın lap atasına lənət. Soruşursan, deyim: Zeynəb qarı.

— Hə, o deyibsə, olar.

Muxtar sinəsini irəli verdi:

— Arvad, mənə də Muxtar deyərlər. And olsun nəslinə-kö-

künə, sən evdə olmasan, səsini eşitməsəm, nəfəsini duymasam, ruhi rahatlıq tapmaram.

— Nə çox arvad.

— Düzdü, küçə-baca arvadla doludu. Hamısı da əl-ayağa dolaşan nənəm-nehrə. Dərd-sərlidilər. Özlərindən müştəbehdilər... Sənin yerini verməzlər... Taleyindən şikayətlənmə.

Şərqiyyənin düşüncələri oynaşmağa başladı. Başındakı fikirlər qarış-quruş oldu. İstədi Muxtara cavab versin. Alınmadı. Çünki başındakı fikirlər civə kimi belədən-belə qaçdı. Ona tabe olmaq istəmədi. Şərqiyyəyə elə gəldi ki, yazın sonudu. Ucu-bucağı görünməyən bağda gəzir. Ayaqları altında əzilən ot-alafın turşumuş iy-qoxusu, əlvan güllərin, rəngbərəng çiçəklərin ətri ağız-burnuna dolur, ciyərlərinə qədər süzülüb gedib oradan da qan damarlarına axır, sanki bədəninin hər tərəfinə yayılırdı. O, təbiətin ecazkar təsirini bütün duyğularının köməyi ilə alırdı. Hərdənbir “ruhu elə vəcdə gəlirdi” ki, başındakı azdan-çoxdan olan fikirləri də tamam unudur, təkcə Muxtarın dediyi sözlərin təsiri altında çabalayırdı. Bəzən də sinir uclarının hissiyyatı acıq-gicikli, zəhlətökən duyğuların bolluğundan gücsüzləşir, ölgün vəziyyət alırdı. Belə olan halda arvad ərinin ağzından çıxan hər sözün “ecazkar” gücündən vəhşi bir ehtirasla “ləzzət” alırdı... O, mənalı-mənalı ərinin üzünə baxdı, sonra da astadan dedi:

— Gözlərin toxunmayan dəlmə-deşik, künc-bucaq yoxdu.

— Bu nə sözdü?

— Nə olacaq? Arxanca zurna çalırlar.

— Nə zurna, aaz? Bu də təzə çıxdı?

— Ay yazıq, dəvə başını soxur kola, elə bilir, da onu görən yoxdu.

— İkibaşlı danışma, arvad. Bütün aləm bilir mənim kim olduğumu.

— Bəli, bilirlər, Muxtarsan. Qalan nəyin var ki?

— Mən sənin ərinəm.





— Gözlərim aydın... Kaş sənə ərə gedincə...

— Məni məsxərəyə qoyma... Geci-tezə var, sənə baxıb başqaları da məni ələ salacaqlar. Da fikirləşməyəcəklər ki, mənə qəsddən ilişirsən, ya da mənimlə dilxoşluq eləyirsən.

Şərqiyyə:

— Pa... Pa... Dilxoşluğa bax ey, — dedi və gözlərində mübhəm intizar duyuldu... Nə fikirləşdisə, sifətinin ifadəsi dəyişdi. Donuq üzündə təbəssümdən, gülümsəmədən, hirslənmədən, kədərlənmədən... əsər-əlamət olmadı. Qəribə idi, elə bil, onun ürəyi də susmuşdu... Qadın bir neçə dəqiqə dinmədi. Handan-hana öz-özünə dedi: “Kül mənim başıma. Gör həyatımı kimə sərf eləmişəm. Başıma gündə yüz oyun açır. Bircə dəfə gedib, Asim qardaşıma ondan giley-güzar eləməmişəm. Vəkil adamdı. İşi-peşəsi qayda-qanunla əlləşməkdi... O, Muxtara təpinər... Muxtar da dilin soxar qarnına...”

Şərqiyyə qəflətən fikrindən döndü.

— Əşi, yox ey... Nə qardaş?! Nə vəkil?! O da ağzımı açan kimi deyəcək: — Çıx gəl, elə ər sənə lazım deyil. Otur dul bacın Məryəmin dizinin dibində. Evdən çölə çıxma... Pəncərədən bayıra baxma...

Muxtar sükutu pozdu:

— Əla qardaş obrazı uydurman var.

— Olanını deyirəm. Sən də... Yüz dəfə demişəm: öz işinə qarış. Onun-bunun qarasına...

Muxtar qəsddən:

— Asim o-bu niyə olur ki? Mənim qayınımdı.

— Baş-beynimi aparma. İndi Asimi də söydürəcəksən mənə.

— Başın xarabdı.

— Sənə elə gəlir. Gedib Asimə desəm.

— Nə olacaq? Get de də.

Şərqiyyə çaşdı. Nə danışacağını bilmədi. Əlacsız qalıb o tərəf-bu tərəfə vurdu:

— Onda iş qəlizləşəcək... Ya da ola bilsin ki, hirslənib deyəcək: "Kəs səsini... Ərdən az narazılıq elə... Sən də Məryəm deyilsən. Onun düzəltdiyi hoqqalı hay-huydan, qaçdı-qovdudan, dava-dalaşdan cana doymuşam... Dilini kəsib kürəyindən çıxararam...".

Şərqiyyə yenə fikrə getdi. Tərəddüd içində düşündü:

"Qardaş da nə qardaş... Hamı özüyçündü... Ondansa, dediqodu da olsa, ipə-sapa gəlməsə də, dilini dinc qoymasa da.... yenə Muxtar yaxşıdı. Muxtardan boşansam, hərə adımı bir cürə çağıracaq. Kimisi də üzümə deməsə, arxamca dəyyus, binamus, biqeyrət, arvadbaz Muxtarın ayağısürüşkən arvadı damğasını yapışdıracaq mənə. Muxtara nə var, kişi xeylağıdı, gedib birinin də qolundan tutub gətirəcək evə. Zalım oğlunun içində elə bil, vulkan qaynayır. İndiyəcən elədiyi oğurluqlar çıxacaq aşkara, ona da gəl döz... Çətin məsələdi. Getməyə dəyərmi? Yox!.. Yaxşısı budur, baş-başa verib yaşayaq. Dalı hara gedib çıxar, çıxar. Allah kərimdi".

Muxtar arvadının mızıltılarından, pıçıltılarından heç nə anlamadağından dedi:

— Əşi, bəsdi də. Nə qədər öz-özünlə danışmaq olar? Ürəyimi çatlatma. Ya kişi qızı ol: söyüşlərini üzümə çırp, ya da mızıltılarını qurtar. Mən bir kişi kimi mızıltıları, pıçıltıları sənə qadağan eləyirəm. Çəkinmə, aç, içini tök, mən də bilim, nədən narazısan?

— Nədən narazı olacağam? Hər gün teatrda aktirasaların arxasınca sürünürsən. Qrim otaqlarında sülənirsən. Buna nə deyirsən, bəlkə bu da uydurmadı, Muxtar?

— Teatr məbəddi, Şərqiyyə. Mən də o məbədin baş rejissoruyam. Mənim əxlaqım var. Şəxsiyyətim var. Mənəviyyatıma belə iftiralarla zəhər qatma, Şərqiyyə! Mən sənin düşündüyün qədər alçaq, şərəfsiz deyiləm. Hamı məni yaxşı tanıyır. O ki, qaldı aktrisalara, onlar da abırlı-həyalı, isməti, qeyrəti özündə





olan xanımlardı. Onlar mənim kolleqalarımdı. Anam-bacılarımdı. Dediklərin gedib onlara çatar. Üzünə bir söz deməsələr də, qınayarlar səni. İnciyərlər, küsərlər səndən.

— Bəsdi! Bəsdi! Hər yetənə don biçmə!

— Nə don? Mən həqiqəti deyirəm.

— Elə işdə nə həqiqət? Heç kim elədiyi qələti boynuna almaz. Hər gün yol göstərmək, məsləhət vermək bəhanəsilə qucaqlamadığın aktirisa qalmayıb. O gün də utanmaz-utanmaz televizorda cavan aktirisanı təbrik eləmək adı ilə qamarlayıb öpdün. Bu, ailəli kişiyə yaraşarmı? Özünü xalqa göstərirdin, yaramaz? Cəhənnəmə incisinlər, qara yola incisinlər. Başqasının kişisini əlindən almaq... namus oğrusu. Vicdan tülüsüz.

Muxtar çaşdı. Sifəti gərilmiş halda arvadının üzünə baxdı. İçərisi sanki od tutub yandı. Dərindən köksünü ötürdü. Sonra divanda əyləşib astadan dedi:

— Sağ ol səni, Şərqiyyə.

— Kəs səsini, yalaqbaz.

— Mənimlə nə cür danışırsan? Biz ailə quranacan bilmirdin, rejissoram? Bilmirdin, aktirasalarla işləyirəm və həmişə işləyəcəyəm də?.. Bu, mənim peşəmdi. İndi səni belə danışdırın nədi? Bu dediklərin mənə yaraşandımı? Bunları yan otaqda, İlahə eşitsə, onun üzünə baxmağa üzümüz olarmı? Qısqanclıqdan qurtar, çənəyə verib boş-boş söhbətlər eləməkdən əl çək. — Qısqanclıq xəstəlikdi — deyirlər. O, adama, ancaq bədbəxtlik gətirir. O, kimə fayda verib ki, sən də ondan fayda umasan? O, ailələri sarsıdan, dağıdıcı zəlzələdi, tufandı. Deyəsən, yavaş-yavaş onun viruslarına sən də tutulmusan?

Şərqiyyə səsini qaldırdı:

— Yox!.. Oturub-durub İlahənin adını çəkmə. O, sənə layiq uşaq deyil. Heyf, ondan. Geci-tezi var...

— Çox şişmisən, Şərqiyyə. Sənin şişməyinin səbəbini öyrənmək istərdim. Belə ki, başlamısan, dolanışığımız itər. Hər

günümüz qara çadraya bürünər, inanıram, belə çox getməz. Allah xeyirə calasın. Ancaq istəməzdim... Daha uşaq deyilik. Bir-birimizi başa düşürük. Belə getsə, adamlığımızı da itirəcəyik. İnsanlığın itməsi ölümdən də betərdi. Mən ailə, məişət mövzusunda çox pyes səhnəyə qoymuşam. Dağılan ailələrdən xoşbəxt olanını görməmişəm. İstər kişi olsun, istər qadın. Sonda hər ikisi səfil vəziyyətə düşüb. Uşaq da bədbəxt olub. Bilirəm, havalanmısan. Özünə gəl.

Şərqiyyə ərinin üzünə çəpəki baxdı. Sonra başını yellədi:

— Ayə, Muxtar, mənim qəlbimin də hökmü səndədi? Nə danışaram, özüm bilərəm.

Arvadının yumşaq danışığını hiss eləyən Muxtar ayağını bir pillədən də yuxarı qoydu:

— Xeyr... Elə danış, çərçivəyə sığsın.

Şərqiyyə sözünün tonunu artırdı:

— Tüpürüm o çərçivəyə.

— Yadda saxla. Sənin içinin də, çölünün də sahibi mənəm. Arvad kişiyə məxsusdu. Mən sənə güzəştə getdikcə, Tanrına təpik atırsan.

Şərqiyyə ərinin qızışdığını hiss edib səsini bir balaca qaldırdı: — Deyəsən, səninlə yumşaq danışdım, kim olduğumu unutdun, — dedi. — Gedib dediklərini vəkil qardaşıma çatdıraram, o mənim hüququmu sənə qandırar. Bilirsən, sən hara qədər...

— Xox... Qorxdum ha... Qardaşım mənə neyləyəcək? Udacaq məni? Bir də səndən hədə eşitsəm, o söz!

— Nə söz?

— Ya sən məni... Ya da mən səni...

Şərqiyyə rişxəndlə güldü:

— Hə, yadımdadı, atan Muskul Kazım da anan kisəçi Məsməni elə sözlərlə qorxudurdu... Ağıllı ol, Muxtar, nə sən atansan, nə mən anan, nə də zaman onların zamanıdı.

Muxtar bir anlığa söz tapmadı. Matdım-matdım arvadının





üzünə baxdı. Sonra çaşqın halda dilləndi:

— Sən qanacaqsız adamsan. Əvvələ, atamla anama qoyduğun ayamalardan utan. Bir zaman onların süfrəsinin başında oturmusan.

— Mən heç kimin süfrəsi başında oturmamışam. Ər evinə gəlmişdim. O süfrəni də açmağa siz borcluyduz. Sən kişi olsaydın, süfrəni başıma qaxmazdın. Hə.. Nə oldu? Səsin çıxmır, Muxtar?.. Kişinin prinsipi olar. Başa düşürsən, prinsipi?.. Prinsipi olmayan kişidən ər də çıxmaz.

— Arvadı da prinsiplə idarə eləyirlər?

— Bəs, nə bilmişdin? Həyat prinsiplər, qanun-qaydalar üzərində qurulubsa...

— Bərəkallah... Aaz, kişinin prinsipi yox ey, nüfuzu olar. Nüfuzsuz kişi iki qəpiyə də dəyməz, — deyib, Muxtar bərk acıqlandı: — Sən dəhşətsən... Hardan sənə ürcah oldum, bilmirəm. İki gündən bir ərinə uyuşmayan təzə gəlin kimi acıq eləyib, küsüb atıla-atıla anangilə qaçırsan. Məni el içində biabır eləyirsən. Camaat da elə bilir, mən arvad öhdəsindən gələ bilməyən nakişiyəm... Balam, təsəvvür elə, atan ölüb, anan da onun yanında yatıb. İndi də tutmusan vəkil Asimin quyruğundan. Əşi, gül ağzımı açdırma. Balam, Asim səni saxlayandı? İndi hansı zəmanədi? Sən nə düşünürsən? Kimi qorxurdursan?.. Cana doymuşam sənin əlindən. Qanırsan?.. Yox!.. Qanırsan?!.

Şərqiyyə nifrətlə ərinin gözlərinin içinə baxdı. İstədi, cəld yerindən qalxıb onun boğazını yığışdırsın. Barmaqları ilə boğazının yoğunlayan damarlarından, hamısını olmasa da, bir-iki kələ-kötürünü qırsın, sonra da: — Qandım, alçaq! — desin. Gözlənilmədən, bu əsəbi vaxtında hardansa onun başına belə bir fikir gəldi:

— Birdən gücüm çatmaz. Əlindən qurtula bilmərəm, məni o dəmir barmaqları ilə boğar.

Sonra əlacsız qalıb yenə Muxtara güzəştə getməli oldu və as-

ta-asta, mülayim tərzdə dedi.

— Ay Muxtar, a başına dönüm, axı, biz o vaxtı sevib-seviləndə ağız-ağıza verib dalaşacağımızı, həyatımıza zəhər qatacağımızı heç ağlımıza da gətirməzdik. Yadındadı, valideynlərimizin gözlərindən iraq, azacıq utanıb-qızarmadan, bir çimdik ayaq geri qoymadan atdı-tutdu oynamalarımız? Qucaqlaşmalarımız... Nələrimiz... Nələrimiz... Heç olmasa, onları yadına sal. Gözlərini ora-bura baxmaqdan yığ. Nəfsini boğ. Muxtar, özümdə böyük məsuliyyət hiss eləyərək bunları sənə deyirəm: — Bu arvad qırılmış şey var ha, hamısı bir bezin qırağıdı. Özünə gəl, ayağını yorğanına tən uzat. Evinə, ailənə bax... Xəyanətdən uzaq ol... Aktrisalar səni bədbəxt eləyəcəklər.

— Yenə aktirisalar?!

— Qışqırma. Deyirəm sənə, onlar səni kişilikdən salacaqlar. Bihörmət olacaqsan...

Cin Muxtarın başına vurdu:

— Mənə demədiyin, çamır atmadığın şey yoxdu. İndi də xəyanət... Bundansa bir güllə çax başıma. Güllən yoxdu, bıçaq götürüb sox qarnıma. Buna da gücün çatmır, bir çimdik zəhər qat yeməyimə. Ölüm. Nə diş bilsin, nə dodaq...

Şərqiyyə qəhqəhə çəkib güldü:

— Tələsmə... O da ola bilər.

Muxtarın son təklifi arvadının, deyəsən, ağlına batdı. Fikrə getdi. Araya dərin sükut çökdü. Muxtar dilləndi:

— Hə, necədi? Dediklərim ağlına batır?

Şərqiyyə dik atıldı. Gülümsündü. Handan-hana başını yelləyib malalama mövqeyi tutdu:

— Sənin başın, vallah-billah, xarab olub. Nə olsa, danışırsan... Bəyəm, indiki zəmanədə kişi tapmaq olur? Hər başıpapaqlıdan kişi çıxmaz.

— Düz deyirsən, çıxsaydı, bəzi-bəzi xanımlar uzağa getməyib əziz-təvərlik rəfirqələrinin ərlərini niyə əllərindən alırdılar





ki?

— Allah vursun kişiləri, hamısı atanşikdilər. Alırlar, aparıb bir az saxlayırlar, o üz-bu üzünə keçirlər, sonra da hərəsi bir bəhanə ilə qaytarırlar geri.

— Eləliyə qalsa, qadınlar da atanşikdilər də. Bəlkə də o kişilər bu işi qadınlardan əxz eləyiblər, — deyən Muxtar bir cüt asqıraq gətirdi, sonra əlavə elədi: — Hə, bu da asqırıq. İndi nə deyirsən? Onu yadında saxla, arvad, sənin tərəfi bilmirəm, mənim nəslimdə-kökümdə nə xəyanətkar olub, nə də atanşik. Əşi, vur öldür məni. Xəyanət, atanşik deyilən şeylər bizim kökə, vallah-billah, yaddı. Təkrar eləyirəm, olmayıb, olmayacaq da. Ağıllı ol, at içindəkiləri... İndi nə deyirsən?..

— İnanmıram... Kişi kişidi, Muxtar. Kişiyə inanmaq ağılsızlıqdı. İlanla bir yorğanın altına girmək, ömrünü ona ərmağan eləmək...

— Bu bənzətmə də təzə çıxdı?

— Bəli! İnansan, peşman olacaqsan... Gözlərini açıb yumarsan, bir də görərsən kişi korladı işləri. Getdi birini gətirdi, yanında da danası.

— Bu ağıl ki, səndə var... Düzələn deyilsən. Ya məndən öz xoşunla uzaqlaş, ya da dediyim kimi, məni bir yolla öldür, canın birdəfəlik şübhələrdən, qorxudan-hürküdən, qısqanclıqdan qurtarsın...

Şərqiyyə bir an düşündü. Özü də hiss eləmədən dodaqları arasından çıxdı: — O da paz!.. Bu da paz! Hansını çalasan? Dediqodusu az olanı hansıdı?..

Bu sözləri eşidəndə Muxtar atıldı:

— Nə paz, paz salmısan!.. Pazı kimə çalacaqsan, a həyasız?!

Pıçıltılarını ərinin eşitdiyini duyan arvad dik atıldı. Böyük səhv elədiyini anladı. Nə qədər fikirləşsə də sözünə düzəliş verə bilmədi. Əlacsız qalıb Muxtarın üzünə hırıldadı və Muxtarı hədəfdən yayındırmaq üçün onun "Pazı kimə çalacaqsan?" sua-

lına cavab axtardı və çevik təfəkkürü cavabı dərhal ortaya qoydu.

— Atama, anama... Nəslimə-kökümə... Qandın?..

— Onlara niyə?

— Məni sənə caladıqlarına görə...

Muxtar özünü saxlaya bilməyib qəhqəhə çəkdi. Şərqiyyə də ona qoşuldu. Handan-hana qəhqəhələrinə ara verən kimi Muxtar kinayə ilə dedi:

— Hə... Bu, başqa məsələ... Arvad, duydum ki, ciddi səhvini kişi qızı kimi başa düşürsən.

Arvad kinayə ilə dedi:

— Düşürəm, kişi, düşürəm. Bağışla məni, bir də səhvə yol verməрəm.

Muxtar dərhal belə bir nəticə çıxartdı:

— Deyirsən, işdi-şayət, bir də ərə getsən, səhv eləməzsən?

Arvad Muxtarın sözünə dərhal cavab verdi:

— Allah üzünə tüpürsün... Bircə o qalmışdı. İki ər taleyimə yazılıbsa, Allah mənə ucuz ölüm qismət eləsin... Yoruldum. Mənə imkan ver, özümə gəlim.

— Ayıbdı. Danışığına fikir ver, Şərqiyyə. Bir qızımız var. Bu sözləri eşitsə, nə deyər?

— Heç nə. Bizdən törəndiyi üçün o da bədbəxtdi. Təkcə yeməklə, içməklə, geyinməklə adam xoşbəxt olmur. Ata olub, neyləmisən ona, Muxtar?

— Mən demirəm ki, xoşbəxt eləmişəm. Gəl qurtaraq səfeh danışıqları, ət tökən əməlləri.

— Bərəkallah... Özümə nə dedin, keçirəm. Sənə güzəştə gedirəm. Yadında saxla, İlahədən ötrü yandıraram səni... Nə olsun ki, sən onun atasısan...

— Hər gün evdə zırhazırdı. Qızın da baş-beyni az qala... Bu qədər dığın-dığın olar, Şərqiyyə?

— Mən eləyirəm?





— Hə, sən eləyirsən.

— Bir gün gəlib görəcəksən, tüpürüb hər şeyə, çıxmışam bu xarabadan. Onda hamı tüpürəcək sənə, Muxtar.

— Tək mənə yox... İkimizə də.

— Qonşu kişiləri aşağıda səni gözləyirlər. Get o zavallıların başlarını xarab elə.

## Ehtimal

Arvad sarıdan bəxti gətirməyən Muxtar Şərqiyyənin ağzını necə yığacağını, qısqanclıqdan doğan uydurmalarına necə son qoyacağını da bilmirdi. Yaxşı anlayırdı ki, Şərqiyyənin tutduğu yol hələ onu çox uzaqlara aparıb çıxaracaq. Ordan geriyə qayıda da bilməyəcək. Bir sözlə, el arasında deyildiyi kimi, olacaq gedər-gəlməzlik... Bunun da axırı ağlagəlməz faciədir. Bu fikirlər içərisində o, kostyumunu geyinib həyətə düşdü. Onun gərilən sifətindən daxili sarsıntı, əzab-əziyyət çəkdiyi açıq-aydın duyulurdu. O, istədi, yaxınlıqdakı parkda bir az gəzsin, təmiz hava alsın, eynini açsın. Aşağı düşmüşdü ki, qonşu ağsaqqalların, xüsusilə təqaüdçülərin, işsiz-gücsüzlərin skamyada əyləşdiklərini, deyib-güldüklərini gördü. Muxtar onlara salam verib böyürlərindən ötürdü ki, Bəhram onu səslədi:

— A Muxtar, uzaqdan niyə gedirsən? Bayaqdan gözüm binanın çıxacağındadı: görüm Muxtar nə vaxt gələcək? A kişi, işsiz-gücsüz adamlarıq. Onu da bilirsən ki, bizim kimilərinin əlaqəsi çox yerdən qırılıb. Olmuşuq çıxar, əl-ayağa dolaşan. Gözləyirik Əzraili. O da naz eləyə-eləyə oturub. Gəlib çıxmır ki, biz də borcumuzu verək. Arvad-uşağı bezdirməyək.

Hamı güldü. Bəhram sözünə davam elədi:

— Gəl görək, səndə nə xəbər var? Canın üçün, hər gün yeni xəbər eşitməyəndə, sudan çıxarılan balığa dönürəm.

Muxtar istədi: — Məni bağışlayın, vacib iş dalınca getməli-

yəm, — desin, təqaüdçü Nəbi Bəhramın sözünə qüvvət verdi:

— Uzaq getmə... Yaxın gəl. Burdakılar sənin xətrini istəyənlərdi. Dostlarındı, sənə simpatiyası olanlardı.

Muxtar üzündə qəsdən gülüş ifadəsi yaratdı. Gəlib hamı ilə əl verib görüşdü. O da skamyada əyləşdi. Qaz ləqəbli Qəşəm Muxtardan soruşdu.

— Ayə, əsəbi görünürsən. Yenə nə olub? Fikirlə, əsəblə iş düzəlmir, a Muxtar, gərək bir tərəfin boş buraxasan... Emosiya stress yaradır. O da çox pis şeydi. Onun hardansa vurub çıxması da var. Zeynəb qarı deyərdi: "Kimin axırına çıxmaq istəyirsən, onu stress içərisində yaşat. İçində danışa-danışa öz-özünü yeyəcək, didib dağıdacaq". Odur ki, qardaş, çox şeyi özünə yük eləmə. Söz-söhbətsiz, dava-dalaşsız ailə olmaz.

Muxtar özünü o yerə qoymadı:

— Ay Qəşəm, sən də öyrəncəlisən bəzi falçılar kimi ümumi şəkildə danışmağa...

Muxtar gülümsündü, sonra sözünə davam elədi:

— Biz neçə baş ailəyik? Ər-arvad, bir də uşaq. Cəmi üç baş. Özüm də işləyirəm, arvad da. Ailədə narazılıq da maliyyə çatışmazlığı üstə düşər. O da bizdə yoxdu.

Qəşəm dərhal:

— Qardaş, mən səndən razı... Son vaxtlar özündən xəbərin var?..

— Nə olub mənə?

— Nə olacaq?.. Qarşından gələni görmürsən. Ötüb keçirsən... Bu pulunun çoxluğundandı, ya azlığından? Sənə salam da verməyə cəsarət eləmirik.

— Hə... O mümkündü. Niyəsini də deyim. O mənim peşə xəstəliyimdi. İstəyirəm, onu siz də biləsiz. Tək olanda səhnəyə qoyacağım pyeslərin obrazları ilə ünsiyyətdə oluram. Bəzən də onların daxili aləminə qapılıram... Birlikdə deyirik, danışırıq, gülürük, ağlayırıq. Hətta vuruşuruq, dalaşırıq, öldürürük... Səh-





nə... Teatr özü bütöv cəmiyyətdi... Cəmiyyətdə insanlar hamısı bir ağılda olmur axı. Onda, Qəşəm, sən deyənlər olur. Əslində, mən iki cəmiyyətdə yaşayıram. Gərək məni qınamayasız, əksinə, bağışlayasız.

Bəhram:

— Ayə, belə de... Bilirsən, gündə neçə xalası göyçək gəlib sənin qeybətini eləyir? Hətta səni gözləri götürməyib donquldananlar da var, kimisi deyir: "Xanımı ilə yola getmir". Kimisi mızıldanır: "Muxtar hərdən qudurur, adam saymır". Kimisi də deyir: "Belə getsə, Muxtar özünü həlak eləyəcək".

Muxtar gülümsündü:

— Ay pir olmuş, desinlər də. Deməli, hələ yaşayıram. Ölməmişəm. Qaldı deyhadeyə, burda qeyri-adi, qəribə iş görmürəm? Bu insan ki, var, döşünə düşməyən iş başına gəldimi, söz eşitdimi, nəinki mənim, lap ata-anasının da, övladının da, hətta Allahın da qarasına danışır. Onların da qeybətini eləyir. Belə olan tövrdə mən kiməm ki? Ancaq onu da bilməlidilər ki, rejissorluq insana qaynar həyat təlqin eləyən peşədi. Ancaq çox zaman özünün taleyi ölçüsüz-biçisiz, nizamsız olur. Daim axtarır, daim araşdırır. Tapanda sevinir, tapanmayanda... Bilirsiz ki, mənim ləqəbim — əlbəttə, onun mənə verilməsində siz qonşuların da xidmətləri az olmayıb, — "Ədəb-ərkan"dı. Belə ləqəb daşıyan adamın bilərəkdən, görərəkdən tanış-bilişlərinə, onda qalmış da, yaxın, əziz bildiyi qonşularına salam verməməsi mümkün olmayan şeydi. Bir sözünüzə tam şərikəm. Mən bəzən adamlardan, həqiqətən də, qaçıram. Onda bilin ki, mən iş başındayam, səhnə qururam. İnciməyin, budur mənim həyatım.

Bir anlığa gözlərinizin önünə gətirin. Mən sizinlə eyni zamanda yaşayıram. Üzərində işlədiyim pysedə minilliklərin dərinliklərində baş verən hadisələr cərəyan eləyir. Oradakı obrazlar, obrazların düşüncə tərzləri, intellektləri, dünyagörüşləri, bir-birilərinə münasibətləri... tamam başqa-başqadı. İndi mən

aktyor truppası ilə o dövrü yaşamalı, hər şeyi — obrazların daxili aləmini, xarakterini... dərindən öyrənməklə yaşadığımız bu günə transfer eləməliyəm və sizi inandırmalıyam ki, bəşəriyyət belə bir keşməkeşli, məşəqqətli yol gəlib... Bu yolda nələrlə üzləşib, nələrə qatlaşıb... Hələ bunlar azmış kimi, biz müasirlərimizi təsirləndirməli, onların intellektual inkişafını qidalandırmalı, gənc nəsli bəşəriyyətin sabahına hazırlamalıyıq.

Bayram kişi adamların üzünə heyrətlə baxdı. Sonra da üzünü Muxtara tutdu və əlini sinəsinə vuraraq dedi:

— Muxtar, bu canım ölsün, bu yaşa gəlmişəm, elə bilmişəm ki, teatr oyun çıxarılan, laqqırtı vurulan yerdi. Teatr nə olduğunu qandım indi... Sən o həyatı necə yaşayırsan?.. Əhsən sənə!..

Nəsir başını yellədi:

— Bu qədər əməyin, əziyyətin qabağında aldığınız məvacib nədi?

Muxtar sakit tərzdə dedi:

— Biz məvacibə işləmirik. Kimsədən də narazılığımız yoxdu. Teatrda çalışanlar hamısı fədailərdi...

Qaz Qəşəm dilləndi:

— Hərəyə bir tale nəsib olur... Hər kəs öz ömrünü yaşayır. Bu zavallılara da o həyat nəsib olub... Narazı olan Allahına üz tutsun... Günahı özündə axtarsın.

Bayram:

— Ayə, ay ədəbsiz, Muxtar dediklərindən bir şey qandın? Sinəni qabardıb xoruz kimi banlayırsan. Sən öl, duraram ayağa, səni yolaram, ətcəmətən evinə yola salaram.

Sevdimalı əsəbi halda dilləndi:

— Belə getsə, söhbətimiz dava-dalaşla sona yetəcək. Polismolislər də axışıb gələcəklər. Basıb maşına bu qədər təqaüdçünü aparacaqlar. Bizi qoyacaqlar üz-üzə, göz-gözə. Biz də bu yaşda arsız-arsız başlayacağıq bir-birimizi şərləməyə. O belə dedi, bu elə... Əvvəl, o əl atdı, sonra bu... Biabırçılıq. Geri çəkilməyə





də imkan olmayacaq. Kişiləşənlərin hərəsinə bir-iki zopa vuracaqlar. Sonra da sat şalvarını, qurtar canını olacaq... Bəlkə durub rədd olaq burdan?

Tələt mızıldandı:

— Sən öl, dəlidən doğru xəbər. Polisə də bu lazımdı. Onlar bir həngamə qoparacaqlar gəl görəsən. Olacaq "ölünü qoy, dirini ağla".

Bayram başını yellədi:

— Ayə, belə çıxır ki, yanımıza gəlməməkdə, bizə qaynayıbqarışmamaqda Muxtar düz eləyirmiş də...

O, üzünü Muxtara tutaraq sözünə davam elədi:

— A Muxtar, sizin teatrda, əlbəttə, sən istəsən, bu zırhazırı səhnəyə qoyub oynamaq olarmı?

Muxtar gülümsündü:

— Olar... Bu şərtlə ki, qonşum olmayasınız.

Sevdimalı:

— Hə... Bircə bu çatmırdı... Görün də nə var?.. Pazın yekəsi dalda imiş. Ağıllı və təmkinli Nəsir kişi dilləndi:

— Balam, Muxtar olanını deyir də. Ondan inciməyə, küsməyə gileylənməyə... dəyərmi?

Muxtar ani olaraq içinə qapıldı:

"Allah nankor arvadın, deyingən qadının... üzünü qara eləsin... Murdar məni kişilikdən salacaq. Geci-tezi var, hər şey ağ süddən də ağ olacaq. Cınqırığımı da çıxara bilməyəcəyəm. Niyə belə oldu? Şərqiyyə, sən alçaq qadınsan... Məni anlamadın. Başa düşmədin... Heç vaxt da başa düşməyəcəksən. Mənim taleyim niyə belə alındı? Günahım nədi?...".

Gözlənilmədən Yavər kişi söhbətin səmtini dəyişdi. Üzünü Muxtara tutaraq: — Sən ağıllı adamsan, bilməmiş olmazsan, — deyib əlini cibinə saldı, dəsmalını çıxarıb ağız-burnunu sildi — yaşlı adamların təcrübəsindən-filanından bu hökümət niyə istifadə eləmir? Gəlib otururuq burda, veririk çənə-çənəyə. Olmaz

ki, hamıya demirəm, ağıllılara, sağlamlara yeni iş yerləri açıb onların gücündən istifadə eləyəydi?

Bəhram deyinməyə başladı:

— Sən bəxtəvərlikdən danışırsan... Kimdi kimin kitabını oxuyan?

Qaz Qəşəm gülərək:

— Qara mal məələ gedən kimi. Gör nə qədər adam toplaşıb bura?

Nəsir kişi:

— Siz deyən olsaydı, nə vardı ki? Biz də beş manat pul qazanıb arvadın yanına üzüağ gedərdik. Demirik, bizə əl tutun. Deyirik, bizi işlədin, bekar qoymayın, gücümüzdən fayda götürün. A Muxtar, sən də sayılıb-seçilənlərdənsən. Özün də gündə televizordasan. Dünya qopar, bu təklifi sən də verəsən?

Muxtar düşündü:

— Hamınızın fikrinə hörmətlə yanaşıram. İndi mən sizdən soruşuram: hansı ölkədə təqaüdçülərin hamısı işləyir? Əşi, işləmək istəyirsən, get özünə uyğun iş tap. Həm işlə beş manatın olsun, həm vaxtın keçsin, həm də arvad yanında üzağlığın olsun.

Muxtar üzünü Qaz Qəşəmə tutdu:

— Sən nəçisən?

— İnşaatçı...

— Gücün var işləməyə?

— Var.

— Çox yaxşı, hər tərəf inşaat meydançasıdı. Orda işçi qüvvəsinə ehtiyac da böyükdü.

— Ayə, onları mən də bilirəm, ey. Bu yaşda daş atan, divara mala çəkən vaxtımdı?

— Get gözətçi işlə...

— Ay Muxtar, ağzını yerə tut danış. Mən bu yaşda gedib gözətçimi işləyim?

Muxtar gözlənilmədən Bəhramdan soruşdu:





— Sənin sənətin nədi?

— Müəllim.

— Sən neyləyə bilərsən?..

Bəhram güldü:

— Elə bu skamyada otura bilərəm.

Yavər astadan bildirdi:

— A Muxtar, bunlardan işləyən olmaz. Peşələrin də çoxdan unudublar. Söz güləşdirməyə, qeybətə adət eləyiblər...

Sevdimalı özünü saxlaya bilmədi:

— Bircə vaxt tez gəlsəydi...

Hamı gülüşdü.

Müxtar handan-hana dedi:

— Yaşlıların təcrübələri var. Onu heç kəs inkar eləyə bilməz. Bir şeyi yadda saxlayın. Kompyuter texnologiyası elə inkişaf eləyib ki, yaşlı nəsil onunla işləməkdə acizdi. Bu bir. İkincisi, hökümət sizə təqaüd verir, deyir, evin-eşiyin var, get yaşa. Cavanlara da iş düzəldir: get, sən də vicdanla işlə, həm çörəyini qazan, həm özünə yurd-yuva tik, şərait yarat, həm də dövlətə, xalqa fayda ver — deyir. Üçüncüsü də, cavanların iş əmsalı sizinkindən qat-qat yüksəkdir. İndi deyin görüm, hökümət haqlıdı, yoxsa siz?.. Hə?.. Necədi, səsiniz çıxmır...

Nəsir güldü:

— Nə səsləri çıxacaq? Bunlarınkı ver yeyim, ört üstümü, qoy yatımdı.

Muxtar:

— İcazənizlə mən gedim. Bir az gəzəcəyəm. Ayaqlarım açılsın.

Qaz Qəşəm dərhal zarafat elədi:

— Hə... Get fikirləş. Səhnəni qur... Bayaqdan danışıb bizi tır-mır elədin...

Muxtar qonşularla xudahafizləşib, ayaqlarını sürüyə-sürüyə parka tərəf üz tutdu. O, getdikcə, Şərqiyyənin dediklərini xatır-

layır, təhlil eləyir, xoşagəlməz halların baş verəcəyini düşünürdü. İndi onun aləmində tale yoluna hardansa, necəsə tonlarla ağırlıqda qara daş dığırlanmaqdaydı. Şərqiyyənin ağılsızlığı ucbatından hər şey alt-üst olacaqdı. Qara ləkədən heç vaxt canını qurtarammayacaqdı. Bu ağır, yöndəmsiz daşın tale yolundan götürülməsinə mane olan cəhət yeganə qızı balaca İlahə idi...

O, parkda qaş qaralınca gəzdi. Bir an da düşüncələrindən ayrılmadı. Yaddaşında ilişib qalan hər detala ayrı-ayrılıqda işıq salır, ona müxtəlif mövqelərdən yanaşırdı. Muxtar evə qayıdıb paltarlarını soyunmadan divana uzandı. Səhərə qədər yatağında eşələndi. Ürəyində küt ağrılar duydu. Öz-özünə:

— Belə getsə, Şərqiyyə məni öldürəcək!.. — dedi.

Muxtar belə qərara gəldi ki, Şərqiyyəyə bir qədər soyuq münasibət bəsləsin. İnciyib-küsdüyünü ona qandırsın. Qaçanı nə qədər qovmaq olar? Bəlkə soyuqluğumu görə, ağıllı başla düşünə, münasibətlərin istiləşməsinə doğru bir addım ata...

Muxtar fikirləşdiyi kimi hərəkət eləsə də, Şərqiyyə acıq-giciyini hər gün artırır, toxunacaqlı, təhqiredici söz deməkdən də çəkinmirdi. Muxtar isə hər gün rənglərin qatılaşdığını duyur, özünə təskinlik verirdi... O, hərəkətlərinə də xeyli sığal çəkir, yöndəmsiz görünən cəhətlərini, demək olar ki, kəsib atırdı. Arvadı ilə arasında gedən çirkin söz-söhbətin qonşulara da sıçradığını özlüyündə ehtimal eləyirdi...

Hər axşam həyətə düşməyə, qonşularla dərd-sərini bölüşməyə, yorğunluğunu çıxarmağa adət eləyən Muxtar kimsəyə bir söz deməsə də sıxılır, mənən ölüb-dirilirdi. Bəzən də evini satıb getmək barədə düşünürdü. İşinin çoxluğunu bəhanə gətirərək həyətə düşməyi də tərgitməyə çalışırdı. Bu hal dostlarını da narahat eləyir, onların da nigarançılığını artırırdı. Bəzən özü də darıxırdı. Hərdənbir arvadına söz deməsə də, pəncərəyə yaxınlaşır, pərdə arxasından həmsöhbət olduğu adamlara baxırdı. Sonra da Şərqiyyə ilə ailə qurduğuna görə təəssüf hissi keçirirdi.





# Uğur olsun

Bazar günü idi. Göyün üzündə seyrək, lopa-lopa boz buludlar uçuşurdu. Ancaq havada tutqunluq, ağırlıq da duyulurdu. Muxtar yüngül səhər yeməyini yeyib, üstündən də bir stəkan çay içdi. Havada rütubətin çoxluğundanmı, ər-arvad aralarındakı münasibətlərin kəskinləşməsinin təsirindənmi, ya nədənsə bərk darıxdı, nəfəsini ağır-ağır almağa başladı... Ona elə gəldi ki, çox çəkməyəcək, ürəyi qısılacaq. Ürəkdi də, lap etibarsızlıq da eləyə bilər. Bir az dayandı, halında az da olsa, yaxınlaşmağa doğru meyil duydu. Özündə təpər tapıb həyətə düşmək, yaxınlıqdakı parkda bir az gəzmək istədi və bu istəklə də evdən çıxdı. Binanın girəcəyində qapıbir qonşusu Qoşqar müəllimlə qarşılaşdı. Qoşqarın əllidən artıq yaşı vardı. Boy-buxunlu, artıq çəkisi olmayan, qarayanız, çallamış saçlarını arxaya darayan gülərüz, açıq söhbətli bu adama yaşadıqları binada hamı hörmətlə yanaşırdı. Muxtarla Qoşqar görüşdülər. Hal-əhval tutdular. Qoşqar Muxtarın gözlərinin içinə baxdı. Muxtar gözlərini ondan yayındırmağa çalışsa da bacarmadı. Qoşqar gülümsünüb dedi:

— Qonşu, məni özünə dost bilirsən, ya düşmən?

— Başa düşmədim.

— Mən necə adamam?

— Səni vicdanlı, ləyaqətli, özündə olan...

— Mən də daxilən sənə yaxınam, istəyirəm, məni olduğu kimi qəbul eləyəsən.

— Bir halda ki, məsələni özün açdın. Kişi istəyini dilinə gətirməz. Mən sənə dost deyirəm.

— Elə isə sənə bir sirr açacağam. Ancaq ayaqüstü yox... Ayaqlarımda ağrı var. Damarlarım tez-tez gizildəyir.

— Keylik varmı?

— Az.

— Ona elə-belə baxma.

— Vaxtın varsa, gedək ağacın altındakı çayxanaya. Ora söhbət üçün əlverişli yerdi. Oturub danışaq. Söhbətimizi eşidən də olmaz. Ancaq söz ver ki, danışdıqlarımız aramızda qalacaq. Əks halda, mən biabır olaram. Arvad-uşaq yanında nüfuzumu itirərəm.

Muxtar sözdən tutuldu. Onun sifətinin bozarmasını Qoşqar da hiss elədi. Ancaq Muxtar özünə toxtaqlıq verdi.

— Etiraz eləmirəm, gedək, Qoşqar.

Onlar çayxanaya yollandılar. Yol boyu Muxtarı fikir götürdü. Düşündü ki, görünür, Şərqiyyə Qoşqarın arvadı Züleyxaya məndən nəsə deyib. İndi də Qoşqar o deyilənləri deyəcək... Bu da mənə ağrı-acı gətirəcək.

Necə oldusa, Muxtar bu fikrindən tez döndü və tam əks düşüncəyə daldı: "Yox... Ola bilməz. Mən düşünən kimi olsaydı, Qoşqar bu qədər çəkinə-çəkinə, ehtiyat eləyə-eləyə mənimlə danışmazdı".

Onlar çayxanaya çatıb bir çaynik çay sifariş verdilər. Qoşqar ətrafdakı stollara göz gəzdirdi. Onlara yaxın stolların ətrafında müştəri görmədiyindən bir qədər rahatlandı. Göyün üzünə baxıb dedi:

— Hava bu gün də çox isti olacaq, Muxtar.

— İstidən danışma. Kondisioneri işə salantək xəstələnirəm, belə də nəfəsim təngiyir.

Bir stəkan çay içmişdilər ki, Qoşqar boğazını arıtladı. O, həyəcanını bildirməsə də Muxtarın sir-sifəti getdikcə bozarırdı. Eşidəcəyi yeni söz, yeni xəbər onun hövsələsini daraldırdı. Nəhayət, Qoşqar astadan, səsi titrəyə-titrəyə dedi:

— Muxtar, bizim ara divar çox nazik, səskeçirən materialla hörülüb.

— Hə... Mən onu heç bilmirdim.

— Balkona çıxanda da sizin evdə gedən söz-söhbəti, etiraf





eləyim ki, aydın eşitmək olur. Bunları deməkdə məqsədim odur ki, sənə çatdırım: Şərqiyyə xanımla sənin aranda gedən söz-söhbətdən halıyam. Sizin evdə barışmaz, düşmənçiliyə aparan dava-dalaş başlanıb. Artıq son həddi yaşayırsız. Bu hara qədər davam eləyəcək, qonşu?

— Axı...

— Sözümü kəsmə, dostum. Bayaq bir-birimizə dost dedik. Etiraf eləyim ki, sən bu işdə tam günahsızsan. Şərqiyyə tez-tez sənə xəyanət eləyir.

— Nə?! Xəyanət?!

— Hə... Qışqırma... Təəssüf ki, belədi... Səni tam başa düşürəm. Bilirəm, belə sözü birdən-birə eşitmək də çətindi.

Muxtar gözlərini yumub iki əlilə üzünü tutdu və üstən aşağı sıyırdı. Handan-hana özünə gəlib soruşdu:

— Qoşqar, mən yuxu görürəm?

— Kaş, yuxu olaydı... Ancaq istəyirəm biləsən, dediklərim həqiqətdi. Şərqiyyənin başı qatılır. Əlaqədə olduğu adamlar tərəfindən sənə xətər yetirilə bilər.

— Necə dedin? Adamlar tərəfindən?.. Deməli, bir yox, bir neçə adam?..

— Hə... Bir neçə...

— De ki, mən ölmüşəm də... Koram... Karam. Maymağam... Yoox... Bu ola bilməz, Qoşqar... Doğrudu, mənim arvadım davakardı... Deyingəndi. Qonşularla çətin yola gedəndi. Ancaq xəyanətkar deyil. Özü də bir neçəsilə... Aman Allah... Mən nə eşidirəm? Bu yalandı... Böhtandı, Qoşqar.

Qoşqar ani fikrə getdi. Sonra astadan səsi titrəyə-tirəyə dedi:

— İnanmırsan, zəhmət çək, yoxla. Yalanımı, böhtanımı mənə sübut elə, istəsən, sonra söhbət eləyərik.

Muxtar Qoşqarın iti və qətiyyətli gözlərinin içinə baxdı. Baxışları toqquşdu. Muxtar heç nə duymadığından göz qapaqlarını qapadı... Qoşqar pıçıltılı səslə dedi:

— Dostum, bu işin əlavə şahid-sübutu yoxdu. Məni Şərqiyyə ilə üzləşdirsən, sənə söylədiklərimi onun da gözlərinin içinə deyəcəyəm. Doğrudu, o, boynuna almayacaq. O da məni sənin dediyin kimi yalançı, böhtançı adlandıracaq... Xəyanətinin açıldığını bilib taktikanı dəyişəcək. Sən isə uzun müddət içini yeməli olacaqsan. Uzaqbaşı biz düşmən həddində dayanacağıq. Sənə məsləhətim budur: məqsədli müşahidəyə keç. Arvadının hərəkətlərini nəzarətə götür, onu izləmə mövqeyi seç. O yolları özün axtarmalısan... Ancaq bir şeyi də unutma: sənin ailəni dağıtmağa girişməklə mən heç nə əldə eləyə bilmərəm. Mənim orda heç bir marağım yoxdu.

— Belə söz-söhbətdən qonşular xəbərdardılarmı?

— Deyə bilmərəm. Əgər indiyəcən xəbərdar deyillərsə, sabah, o biri gün olacaqlar. Cidanı çuvalda gizlətmək mümkündürmü? Heç kəsə demək olmaz: gələn səsləri eşitmə. Ətrafında baş verənləri görmə. Bildiyini də danışma, sus.

— Deməli, mənim yurd-yuvamda görüşürlər.

— Nə fərqi var, sənin, ya qeyri-sənin. Axır ki, görüşürlər. Sənin vəzifən, mənim dediklərimə kor-koranə inanıb Şərqiyyənin iki ayağını bir çarığa dirəmək deyil. İzləyib həqiqəti üzə çıxarmaqdı. Mən dediklərimdə israrlıyam. Sözlərim qətidi: araşdır, dostum, araşdır.

— Aydındı...

— Muxtar, Şərqiyyədən sənə ailə olmayıb, olmayacaq da. İşvəkar qadın qorxulu olur. Elələri üçün dəyər yoxdu. Onlar hər an müxtəlif hisslərlə yaşayırlar.

— Aman Allah... Görəcək günlərim varmış... Mən nələr eşidirəm? Bu sözləri eşidib niyə kar olmuram? İndi Şərqiyyənin üzünə necə baxacağam?..

— Axı, sən rejissorsan, Muxtar. Belə psixoloji gedişləri göydə tutmalısan. İki sifətliliyə iki sifətliliklə cavab verməyi bacarmalısan. Əminəm ki, bacaracaqsan da. Ayıq ol... Ancaq bu işdə





özünü də qoru.

— Necə yəni?

— Məni bağışla, dostum, nə düşünürəm onu da sənə deyirəm. "Ortaqlar"ın o iblis, işvəkar qadının əlilə sənə xətər yetirə bilərlər. Şərqiyyəyə inanma. Ona etibar eləmə. Mən olanı sənə çatdırdım.

Qoşqarın işlətdiyi "ortaq" sözü Muxtarı tutdu. Onu qəzəb bürüdü. Hirsi beyninə vurdu. İstədi stolun üstündəki qənddanı, stəkanları bir-bir Qoşqarın başına çırpsın... — Məni nə sanırsan? — desin. Bir anda hirsini cilovlayıb özünü ələ almağa çalışdı. Sonra dedi:

— Qoşqar, mən hər şeyi araşdıracağam. Budur, sənə deyirəm: əgər sənin dediklərin düz çıxmasa, gələcək taleyini özüm yazacağam.

— Necə?

— Səni məhv eləyəcəm.

— Mən razı, Muxtar. Onu da nəzərə al ki, sənin evinə kimlərin ayaq açması, özlərini necə aparmaları, daha doğrusu, gələn "qonaqların" əyri-düzlüyü mənim və mənim xanımımın, uşaqlarımın gözləri qarşısında baş verir. Səslərini biz eşidirik. Mən sənə bu həngaməni başqa cürə də çatdıra bilərdim.

— Necə?

— Deyərdim ki, qonşu, ya arvadını pis yoldan çəkindir, ya da təcili yığış, köç bu evdən. Şərqiyyə qonaqlarını qəbul eləyərkən sizə polis də çağırtdırardım. Mən o cəfəng yolları seçməmək üçün səninlə danışmaq qərarına gəldim. Sən isə nəticə çıxarmaq, tədbir görmək əvəzinə mənə hədə-qorxu gəlirsən. Bunu səndən gözləməzdim. Zəhmət çək, vəziyyəti öyrən, dəqiqləşdir, yalan demiş, iftira atmış olsam, səni tam əmin eləyirəm, mən özüm-özümü cəzalandıraram. İntihar eləyərəm. Verdiyim bu söz səni təmin eləyirmi? Buna nə deyirsən?.. Təkrar eləyirəm, qonşu. Bilirəm, bu xəbər çox acıdı. Sənin üçün gözlənil-

məzdi... Mənim dediklərimi şəxsiyyətinə, qüruruna sığışdırmırsan. Bu vəziyyətə düşən hər kəs sənin kimi hərəkət eləyərdi. Bəlkə də özünü apara bilməyib çığır-bağır salardı, mənimlə davaya girişərdi. Bu zəhlətökən xəbərin təsiri altında soyuq başla düşünmək çox çətindi. Güman ki, heç mən də dözməzdim.

Müxtar iki əlilə başını tutdu. Səsini çıxara bilmədi. Qoşqar səsinə ara verdi... Sonra dilləndi:

— Şərqiyyə yalançıdı. Hər gün səni şərləyir, qonşular arasında sındırmağa çalışır. Kişilik fəaliyyətinin olmadığını qabartmaqla özgə kişilərin yanına gəlməsinə haqq qazandırır. Sənə isə deyir: aktrisalarla, kimlərlə, kimlərlə oturub-durursan. Sözlərindəki ziddiyyətə fikir ver. Həqiqətən də sən kişilikdən məhrumsansa və o, bunu bilirsə, sənə niyə deyir ki, başqa qadınlarla oturub-durursan? Ayağısürüşkənsən. Fahişələrin qapılarında sülənirsən... Sən hər gün bu sözləri ondan eşidirsən axı?

Həmişə arvadından dönə-dönə bu sözləri eşidən Muxtarın indi az qala ürəyi qısılacaqdı. Sir-sifəti ölü rənginə döndü. Qoşqar qorxdu. Tez cibindən hidroqlisin çıxarıb Muxtara: — Dilinin altına qoy, — dedi. Handan-hana özünə gələn Muxtar zəif səslə dedi:

— Sözünə davam elə, Qoşqar.

— Yox... Qardaş, məncə dediklərim kifayətdi. Arvadının sənə şər atmaqda bircə məqsədi var.

— Nədi o məqsəd?

— “Qara məni basınca, mən qaranı basım”. Səni evdən qovsun, əl-qolunu daha geniş açsın.

— Heyf, İlahədən... Onu xoşbəxt eləyə bilmədim.

Muxtar daha heç bir söz demədən çayın pulunu stolun üstə atıb ayağa durdu. Qoşqar da onunla. Birlikdə xeyli addımladılar. Birdən Muxtar ayaq saxladı: — Qoşqar, — deyə əsəbi halda bayaq verdiyi sualı bir qədər başqa tərzdə təkrar elədi: — Bundan həyətdə söhbət elədiklərimiz adamlar da səncə, xəbərdardılar-





mı?

— Bəlkə də...

— Sirr saxlaya bilirsənmi?

— Bu nə deməkdi, Muxtar. Sənin üçün hər şeyə hazıram, dostum... Ancaq səndən bir xahişim var. Heç bir hissə qapılmamaq. Artıq söz-söhbətə yol verməmək. Dava-dalaşsız ondan qurtarmaq. Sən qızın İlahəyə lazımsan. Dostlarına, qohum-əqrəbana, bu xalqa lazımsan... Başa düşürsən, Muxtar?

— Şübhələnmişdim. Neçə vaxtdı aramızda soyuqluq var. Bezmişəm... Ancaq səndən bir xahişim var: bu sirr, hələlik aramızda qalsın. Sən mənimlə bu barədə heç nə danışmamısan. Biz guya, dost deyilik. Sadəcə qonşularıq... Hətta bu söhbəti xanımın da bilməsin.

Qoşqar çaş-baş qaldı. Muxtar dərhal:

— Sən bizim evdə deyilənləri eşitmisənsə, şübhəsiz, xanımın da qulaqlarına pambıq tıxamayıb.

— Nə gizlədim, səndən... Hə... Hətta sizin evinizə gəlib-gedən adamlar barədə də o mənə məlumatlar verib. — Şərqiyyənin əlilə Muxtar qardaşa xətər yetirilə bilər, — sözünü də o mənə deyib.

— Yaxşı, söhbət belə də qalır. Növbəti nömrələri gözləyək. Tülkü özü tələyə gəlməlidi. Tələni tülkünün ardınca gəzdirməklə onu tutmaq müşkül məsələdi. Aman Allah, başıma nələr gəldi?

Muxtarla Qoşqar parkdaca ayrıldılar. Elə həmin andan Muxtar bütün cildini dəyişib mahir aktyora çevrildi. Gülür, danışır, arvadının ən əsəbi vaxtlarında onun ürəyini ələ almağa səy göstərirdi. Şərqiyyə nə desəydi, nə hökm eləsəydi, dərhal yerinə yetirməyə çalışırdı. Bütün bunlar hamısı Şərqiyyəyə əvvəl-əvvəl qəribə görünsə də, o, sonralar düşündü ki, Muxtar acıq-giciklərindən öz xoşuna əl çəkir, bütün gələcək həyatını onun istəyincə qurmağa çalışır. O, öz-özünə düşündü: “Bu başqa məsə-

lə, Muxtar. İnsan daş da, dəmir də olsa, gec-tez yumşalır. Dünyanın işinə bax... Mən Muxtara xəyanət eləyirəm, hər gün onun ləyaqətini alçaldıram, o isə mənə güzəştə gedir, qarşımda hər oyundan çıxır..."

Gözlənilmədən Şərqiyyə tutuldu. Əvvəlki fikirlərinin tam əksini düşünməyə başladı: "Bəlkə bu alçaq mənim hərəkətlərimdən, xəyanətimdən şübhələnib? İndi taktikanı dəyişir. Mənim ürəyimi ələ almaq istəyir. Məni öyrənməyə çalışır... Yoox... Bu, ola bilməz. Mən ona elə bir sapucu verməmişəm. Əsas olmayan yerdə nə şübhə?.. Əsassız şübhə sabun köpüyü kimidi. Bir neçə gün keçir, ələ bir şey düşmür, öz-özünə əriyib yox olur... Muxtar rejissordu. İşi-peşəsi aktyorlarla məşğul olmaqdı. Başqalarının gurultulu monoloqlarını dinləməkdi. Obrazlar yaratmaqdı... İndi də roldadı. Yaradıcı rollar müsbət də ola bilər, mənfi də... Yarat, obrazlarını, Muxtar, yarat. Ay yazıq, sən hardan biləsən ki, hər ikimiz oyun oynayırıq. Ancaq mənim yaratdığım obraz daha həyatidi. Daha realdı...

Bəli, hər kəs öz oyununu oynayırdı. Adi axşamlardan biri idi. Şərqiyyə Muxtardan soruşdu:

— Muxtar, sən son vaxtlar yamanca dəyişmisən.

— Başa düşmədim.

— Özünü çox şən göstərirsən. Yumşalmısan, xeyir ola?

— Mən ailəmdə necə olmalıyam ki, Şərqiyyə?

Şərqiyyə çiyinlərini çəkdi:

— Həmişə belə olmazdın?

— İnsanlar anbaan dəyişir, əzizim. Nə qədər əsəbləri gərgin vəziyyətdə saxlamaq olar?..

— Sənin bu hərəkətlərin reallıqdan çox cildini dəyişməyə bənzəyir.

Ucadan gülüb sözünə davam etdi:

— Bu tülkünün Həccə getməyinə bənzəmir ki?

— Sən necə başa düşürsənsə, elə də dəyərləndir. Mən şən





həyat keçirmək, yaşamaq istəyirəm.

— Hə... Belə de... Yaxşı rejissorsan, ancaq pis aktyor...

— Ola bilər... Ancaq...

— Nə ancaq?

— Ailədə nə rejissor, nə aktyor?.. Əzizim, onsuz da həyat səhnə, insanlarsa aktyordu... Sən öz oyununu oynayırsan, mən də öz oyunumu... Bəşəriyyət milyon, milyard illərdi beləcə yol gəlir... Şərqiyyə, istəyirəm, daha məni əsəbiləşdirməyəsən. Mən İlahəylə birlikdə olanda daha xoşbəxtəm. Rahatam... Dərd-sərdən uzağam... Yalvarıram sənə, alma o səmimiyyəti, mehribanlığı bizdən.

— Mən də xoşbəxt yaşamaq, arzuların qanadında uçmaq istəyirəm.

— Yaşa, kimdi sənə mane olan?..

Söhbət beləcə yekunlaşdı. Aradan xeyli keçdi. İlahə məktəbə, Şərqiyyə xəstəxanaya gedəndən sonra onlardan xəbərsiz Muxtar evdə çəkiliş üçün cihaz quraşdırdı. Sonra da öz yatdığı otağın qapısını bağlayıb açarı cibinə qoydu. Axşam Şərqiyyənin yanında İlahəyə dedi:

— Qızım, mənim yatdığım otağa girmə. Orada məxfi sənədlər var, toxunmaq olmaz. Bizi teatrdan on günlük Türkiyəyə qastrola göndərirlər. Bibin gələr, ona da deyərsən.

— Oldu, ata...

Şərqiyyə dərhal:

— Sənin otağından it iyi gəlir. Ora mikrob yığnağıdı.

— Arvad əli dəyməyən ev elə olar da.

— Hı... Arvad... Necə də ağızdolusu deyir. Kimin nəyinə lazımdı sənin otağına girmək?

— Əşi, yol üstəyəm, qanımı qaraltma. Hər nə yığnağıdı... Özüm bilərəm. Olsun da... Təki sənin otağın gigiyenik qaydada olsun.

Muxtar İlahəni qucağına alıb üz-gözündən öpdü:

— Türkiyədən sənə nə alım, qızım? — dedi.

— Heç nə... Hər şeyim var...

— Mən səni çox istiyirəm, qızım, gələndə sənə don da, kostyum da, ayaqqabı da, hələ kompyuter də alacağam.

— Ura!!!

— Ananın sözünə bax... Nə desə, onu da elə. Yaxşı ye. Güclü olsan, başın yaxşı işləyər, dərslərin də yadında qalar.

— Oldu...

Səhər hava işıqlanmağa başlayanda İlahə hələ mışıl-mışıl yatırdı. Muxtar onun çarpayısına yaxınlaşdı, ustufca qızının yanağından öpdü: — Ömrüm-günüm, — dedi. İlahə təmasdan oyandı. Atasının boynuna sarıldı. Muxtar qara meşin çantasını götürüb evdən çıxırdı ki, Qoşqarı qapının ağzında gördü və salam verib ötdü. Atasını, qapının ağzında İlahəni görəndə, Qoşqar ucadan dedi:

— Salam qızım, atanı hara göndərirsən?

— Mən göndərmirəm, Qoşqar əmi, Türkiyəyə ezamiyyəyə gedir, on günlük. Gələcək. Mənə kompyuter də alacaq.

— Əla! Qızım, ən çox kimi istəyirsən?

— Atamı da, anamı da.

Şərqiyyə İlahənin arxa tərəfindən söhbətə qoşuldu:

— Bu nə sualdı, bir əlcə uşağa verirsən, Qoşqar?

Qoşqar təəccübləndi:

— Nə dedim, xanım? Qəlbinə toxunmasın... Mən qəlbə toxunacaq elə söz demədim axı...

— Dediyin də kifayət edər... İlahə, keç içəri, qapını da arxadan bağla. Yad adamla çənə döyməzlər.

Qoşqar başını buladı və öz-özünə deyindi:

— Əşi, əcəb işə düşdük. Səhər-səhər qanımız qaraldı. Sözündən belə çıxır ki, şələni qoy yerə, gəl dalaşaq.

Pilləkəndə ayaq saxlayıb mübahisəni dinləyən Muxtar gözqaşla Qoşqara: — Keç içəri, ona baş qoşma, — işarəsi verdi.





Özü də üzünü çevirib iti addımlarla pilləkənləri endi.

Muxtar on günlük getdi. Qoşqara elə gəldi ki, o gün səpdiyi toxum münbit torpağa düşüb. İndi də yavaş-yavaş, səssiz-səmirsiz göyərməkdədi. Çox güman ki, Muxtar heç bir ezamiyyətəzada getmir. O, hər axşam yaşadıqları binanın həndəvərində Şərqiyyənin təqibinə yönələn kəşfiyyat axtarışlarında olacaq...
— Uğur olsun, qonşu!

## Fakt

On günlük səfərdən qayıdan Muxtar səhər çəkiliş kasetinə baxanda dəhşətə gəldi. On gün ərzində arvadının müxtəlif vaxtlarda dörd dəfə gecə yarı iki yad kişini qəbul etdiyini müşahidə eləyəndə bir anlığa nitqi qurudu. Bütün bədəni əsdi. Kimə nə deyəcəyini bilmədi. İstədi, uzun tiyəli çörək bıçağını götürüb arvadının ardınca getsin, harda qarşılaşsalar, onu orda da yortsun. Al-qana boyasın. Elə bu vaxt qızı İlahə gözləri yaşlı gəlib durdu gözləri önündə... Muxtarın ürəyi guppuldadı. Başını qolları arasına aldı. Dəmir kimi barmaqları ilə saçlarını yolmağa başladı. Hərdən də yumruqları ilə başını döyəclədi. O, getdikcə özünü itirirdi. Düşüncələri sanki donurdu... Elə bu vaxt qapının zəngi çalındı. O elə düşündü ki, gələn İlahədi. Muxtar üzgün halda ayaqlarını sürüyə-sürüyə gedib qapını açdı. Özündən iki yaş kiçik bacısı Rəmalə idi. O, bacısının sifətində gülüş doğurmaq istəsə də, bacarmadı.

Qardaşının bir an içərisində haldan-hala düşməsi əvvəl Rəmaləni çaşdırdı. Sonra diqqətlə qardaşının gözlərinin içinə baxdı. — Onsuz da Muxtar məndən sirr saxlamır, nə baş veribsə, hamısını bir azdan açıb tökəcək, — deyə fikirləşdi. Sonra salam verib otağa keçdi. Ancaq qardaşının narahatlığı ötüb keçmədi. İçində nəsə, elə bil, qırılmaqda davam edirdi. Muxtar tələm-tə-

ləsik vanna otağına getdi. Güzgüdə üzünə baxdı. Görünüşü özünün də xoşuna gəlmədi. O, tez üzünə su vurdu. Yaş əlini sinəsində, boyun-boğazında gəzdirdi. Tarıma çəkilən sinirlərinə su sanki məlhəm qoydu. Bir balaca özünə gəldi və otaqdan çıxdı. Rəmalə qardaşını bir də süzdü. Muxtarın üzündə xəfif təbəssum yarandı. Rəmalə nəvazişkar, mehriban tərzdə dedi:

— Yatmışdın, gəldim, səni yuxudan oyatdım?

— Ezamiyyətdən gəlmişəm. Bir az yorğunam.

— Deyirəm axı, çox halsız görünürsən.

— İş çoxdu, bacı, göydən elə bil, əsəb yağışı yağır. Xeyli tapşırıq almışam. Onları yerinə yetirməsəm, inciklik olmasa da, özümü yaxşı hiss eləmərəm.

— Eh... Saqqalın ağarsın. Mən də deyirəm, nə olub? Yamanca qorxutdun məni... Hərə öz kefində...

— Söz vermə, verdinsə, yerinə yetirməyə borclusan.

— Əşi, özünə az zülm elə. Arada rahatlan. İndi öz işini görən yoxdu. Hər kəs işini başqasına gördürməyə çalışır. Elə ki, əlindən iş gəlir, başın işləyir, hamı istəyir səndən istifadə eləsin. İndi iş işləyən yoxdu, qardaş. Gündə bizə də yüz söz verirlər, bəyəm, onların hamısını yerinə yetirən varmı? Aylarla uzanıb gedir. Görüləcək işin vaxtını xatırladanda, hələ üzümüzə: — Əşi, qan düşüb, qiyamət qopmayıb, — deyə bozaranlar da olur. Sən nədən qorxursan? Təlaş keçirirsən?

— Məni qorxu, təlaş keçirməyə vadar eləyən məsuliyyətimdi, bacı. Teatr çox ciddi işdi. Kiçicik səhvi nə yetkin tamaşaçı, nə istedadlı müəllif, nə də bacarıqlı rejissor özünə rəva görər. Tamaşadan tamaşaya özünə dəyər verən rejissor yaşayır.

— Sən qoyduğun tamaşaların hamısına belə məsuliyyətlə yanaşırsan?

— Başqa cür necə olmalıdı ki? Elə bil, sən mənim qoyduğum tamaşalara baxmamısan. Mənim sevincimi hiss eləməmisən?

Rəmalə güldü.





— Səni qəsdən qıcıqlandırıram. Tamaşaların məni çox həyəcanlandırır. Hər tamaşana baxanda elə bilirəm, xoşbəxtlərin xoşbəxtiyəm. İstəyirəm, hamı səndən, sənin tamaşalarından danışsın.

— Sağ ol, bacı.

Muxtar gözlənilmədən söhbətin səmtini dəyişdi:

— Bizim cəmiyyət tamam məhvərindən çıxıb. Adamlara ürək qızdırmaq, etibar eləmək çox çətindi. Yalançılar, riyakarlar, məddahlar, məsuliyyətsizlər, xəyanətkarlar... o qədər çoxdu ki, onları düzlərdən, həqiqətpərəstlərdən, dəyanətlilərdən... ayırmaq olmur. Hamısına eyni gözlə baxan aldanır. Onun inamı elə qırılır ki, hər şeyə tüpürür, özünəqəsddən savayı yolu qalmır. Neyləyəsən, dərdini kimə deyəsən, bilmirsən. Dünən ideal hesab elədiyin bu gün şeytan qiyafəsində dik-dik dingildəyir. Hələ sənə acıq da verir. Yaşamaq istəyirsənsə, elələrini görməməyə çalış, onlarla kəlmə kəsmə. Uzaq ol, o dələduzlardan...

Onları tanımaq olur ki? Bir də gözlərini açıb görürsən ki, ürəyindədilər. Axı, şeytana nə qadağa... Gələndə, nə görünür, nə duyulur, nə də anlaşılır... Gərək şeytanı tanıya biləsən ki, onunla da öz dilində danışasan... Etiraf eləyim ki, o da ləyaqət sahibindən böyük hünər və cəsarət tələb eləyir.

— Sən danışdıqca, elə bilirəm yuxu görürəm, — deyə Rəmalə güldü və kostyumunun ətəyini dartışdırdı, sonra sözünə davam elədi: — Qardaş, sanki nə sən bu anarxist cəmiyyətdə yaşayırsan, nə də mən. Sənin dediklərindən mənəm-mənəmlik, özündən müştəbehlik, ədəbazlıq duyulur...

— Hay... Hay... Mən nə dedim, sən məni yekəxanalıqda günahlandırırsan, Rəmalə, — deyib, Muxtar üzünü yana çevirdi, — Bilirsən, həyatda hər cür nanəcib adamlar var. Mən isə sadəlövhəm. Nə olsun ki, xeyli yaşım var. Cəmiyyətin fəal üzvlərindən sayılıram. Bekara şeydi...

— Xeyir ola, özündən bu qədər narazısan?

Muxtar acı-acı gülümsündü:

— Elə bildim deyəcəksən, müştəbehsən... Sənə bir sirr açmaq istəyirəm, bacı.

— Nə sirdi o?

— Neçə vaxtdı Şərqiyyə ilə aramızda heç nədən atışmalar başlayıb. Onun mənə soyuq, nifrət doğuran münasibətinin səbəblərini heç cürə anlaya bilmirdim. Dərdimi də etiraf eləyim ki, kimsəyə açmırdım. Lap sənə də. Uzun müddətli düşüncə və mülahizələrdən, qonşular arasında gedən söz-söhbətdən sonra onu izləməyə başladım. Məlum oldu ki, Şərqiyyə mənə xəyanət eləyir. Başqa kişilərlə görüşür.

Rəmalə əvvəl təəccübləndi. Sonra böyük tərəddüd içərisində qardaşının gözlərinin içinə baxdı:

— Bəlkə qonşular aranızı vurmaq üçün xəyanəti özlərindən uydururlar? Doğrudu, Şərqiyyə bir az açıq-saçıqdı. Atılan daşın onu tutmasını ehtimal etmək olar. Məsələni tam dəqiqləşdirmədən...

— Bacı, deyəsən, sözlərimə inanmadın. İnansaydın, gözlərində açıq-açığına tərəddüd ifadə olunmazdı. Aramızda gedən bu mükalimə də mən deyənləri təsdiq eləyir... Ancaq onu bil ki, mən Şərqiyyə ilə indi dost, ər-arvad yox, düşmən münasibətindəyəm. Biz başqa-başqa adamlara çevrilmişik... Əgər mən bu sözləri deyirəmsə, deməli, həqiqətən də belədi... Mən faktsız, dəlilsiz danışmıram. Heç bir kişi, əgər, o, həqiqətən kişidisə — arvadının ayağısürüşkənliyi barədə nəinki danışmağı, heç düşünməyi də qüruruna sığışdırmaz.

Rəmalə dərin fikrə daldı, onun gözləri bir anlığa yol çəkdi. Sonra əlini Muxtarın əlinin üstə qoyub titrək səslə dilləndi:

— Qardaş, mən sənə inanıram. Sənə inamsızlığıma eyham vurma... Qadınlar çox hissiyyatlı olurlar. Onların sevgisi də, nifrəti də kişilərinkindən qat-qat güclüdü. Açığını deyim ki, sənə içimi açmağa cəsarət eləməsəm də, Şərqiyənin davranışlarından, sözlərindən çox şey sezirdim. Ancaq əlimdə heç bir faktım yox idi. Elə bil, o da məni anlayırdı, mənimlə bəzən, həmişə yox, eyhamla danışırdı. Əsassız halda acı və istehzalı gülüşləri daxilən məni səndən və özündən uzaqlaşdırmağa xidmət eləyirdi. Mən isə özümü başadüşməzliyə vururdum. İndi onun sənə xəyanətindən danışırsan. Deməli, onun mənə də münasibəti əsassız deyilmiş...





— Hə... Mənim maymaqlığımdan...

— Yox, Muxtar, mən elə deməzdim. Qadın qadını tuta bilir. Kişiləri aldadan, daha doğrusu, kişiləri çaşdıran qadınlara olan sevgisidi. İstəyidi. Qadın sığalına ehtiyaclı olan kişilər pişik kimi olurlar. Qadın öz yolunu azırsa, onu tutmaq çox çətindi. Hələm-hələm kişi işi deyil. O, getdikcə gedir. Qudurğan, azğın, çılğın ehtiraslar gözlərini elə tutur ki, istəyi uğrunda mübarizədə ərini də, doğmaca valideynlərini də, hətta övladlarını da ayaqaltı eləyir. Doğrudur, bu, bütün qadınlara aid deyil.

— Bunlar hamısı öz yerində, bacı. Məni maraqlandıran bundan sonra atacağım addımlardı... Mən birgə yaşadığımız dövrdə heç vaxt ona peşmançılıq, xəcalət gətirəcək söz deməmişəm. Mən Şərqiyyəni başım üzərinə qaldırmışam. Çiyinlərimdə saxlamışam. Nə istəyib, nə arzulayıb, onu da həyata keçirmişəm. Qəlbinə toxunacaq ifadə işlətməmişəm. Şərqiyyə başa düşməli idi ki, ər-arvad arasında xəyanət bağışlanmazdı.

Muxtar acı-acı gülümsündü. Sifəti sərt görkəm aldı. Səsinə ara verdi, sonra danışığına davam elədi:

— Yadında olar, Zeynəb qarı hansı müdrikdənsə iqtibas gətirib tez-tez deyərdi: “Təsir əks təsirə bərabərdi”. Şərqiyyə elədiyi xəyanətin bəhrəsini dadacaq. Məni dəhşətə gətirən İlahənin gələcək taleyidi. Onun həyatına zəhər qatdı doğma anası. Nədi, dünyadan xəbərsiz İlahənin günahı? Bax, budur məni dəli eləyən...

— Hə... Uşağa heyfim gəlir. Nə qədər ona qayğı, nəvaziş

göstərilsə də...

— Yoox... Onu Şərqiyyənin himayəsinə verə bilmərəm. O mənim təkrar məhvim olar, bacı.

— İlahənin yaşı azdı. Özü səni istəməsə, çox güman ki, məhkəmə... Yaxşı bayaqdan ağız-ağıza verib öz mənafeyimizdən danışırıq. Əvvəlcə, de görüm, xəyanətini Şərqiyyəyə necə sübut eləyəcəksən? İstəyirəm, onu da biləsən, ayağısürüşkən qadın nə olsa, danışar. Xəyanətini bir göz qırpımında boynundan atar... Onda sübutun nə olacaq?..

Muxtar dərindən nəfəs aldı:

— Biləsən ki, on günlük ezamiyyət adı ilə evdən getmişdim. Getməzdən əvvəl evdə çəkiliş cihazı qurdurmuşdum. Özüm də istirahət zonalarından birində dincəlirdim. Bu gün səhər gəlmişəm. Kaseti açdım. On gün ərzində ayrı-ayrı vaxtlarda gecə-gecədən keçmiş evə dörd dəfə iki kişi dəvət eləyib. Yatağa giriblər. Hər bir oyunları əvvəldən axıradək kasetdə əks olunub.

— Aha... Evə adam gətirib? Özü də iki kişi?.. Belə çıxır ki?..

— İstəyirsən, kasetə bax... Gözlərinlə gör... Mən də həyətə düşüb gəlirəm..

— Yoox... Kifayətdi...

Rəmalə fikrə getdi, sonra sözünə davam elədi:

— Bu qədər alçaqlıq? Həyasızlıq? Gözlərini qanörtmə? Kaseti elə-belə özündə saxlama. Onun üzünü bir neçə nüsxə köçürtdür. O sənə hava-su kimi lazım olacaq. O çox dilləri kəsəcək... Özü çəkilişdən xəbərdardı?

— Yoox... Axşam...

— Lazım gəlsə, bir nüsxəsini də qardaşına, valideynlərinə göndərərsən... İndi mən gedim. Ehtiyatlı ol. Elə alçaqdan nə desən çıxar.





## Arvadın evdən qaçışı

Axşamı idi. Muxtar nə qədər əsəbi olsa da, özünə toxtaqlıq verməyə çalışırdı. O, pultu götürüb, hey televizorun kanallarını dəyişirdi. Şərqiyə isə telefon nömrələrini yığır, saatlarla kimlərləsə boş-bekar söhbətlər eləyirdi. Bəzən də Muxtarın sinirlərini qıcıqlandıracaq dərəcədə əndazəsiz söz və ifadələr işlədirdi. Muxtar hisslərini boğur, İlahənin yatmasını gözləyirdi. O, istəmirdi ki, Şərqiyyə ilə aralarında gedən acıq-gicikdən, yaramaz, “ədəb-ərkan”dan uzaq dedi-qoduları İlahə eşitsin... Çox şeydən xəbərsiz qızın qəlbinə toxunsun. Bir azdan İlahə mürgü döyməyə başladı. Bunu duyan Muxtar İlahənin saçlarından öpdü:

— Get, yat, qızım, daha gecdi...

İlahə bu sözü gözləyirmiş kimi ayağa qalxdı:

— Gecəniz xeyrə qalsın, — deyib öz otağına çəkildi.

Aradan xeyli keçdi. Şərqiyyə dəstəyi yerinə qoyub telefon kitabçasında yeni nömrələr axtarmağa başladı. Muxtar səsi gərilə-gərilə: — Mən səninlə açıq danışmaq istəyirəm, Şərqiyyə, — dedi və arvadının üzünə kinayə ilə baxdı: — Biz nə vaxta qədər belə yaşamalıyıq, bunun sonu olacaq, ya yox? Olacaqsa, nə vaxta qədər? Olmayacaqsa, bir-birimizin əsəblərimizlə niyə oynayaq?.. Belə olmaz...

— Məndən uzaq ol, Muxtar... Bəsdi əlindən çəkdiklərim. Gün axşamacan işləyirəm, evə yorğun- arğın gəlirəm. Sən isə, aktrisalarla, kimlərlə, kimlərlə yüz oyundan çıxırsan, axşam da rahatlığımı əlimdən alırsan. Daha mən də öz həyatımı yaşamaq istəyirəm. Bilirsən, öz həyatımı...

— Yoox... Ümumi sözlərlə danışma. Biz qəti qənaətə gəlməliyik. Son addımlarımızı qərarlaşdırmalıyıq.

— Yüz dəfə danışmışıq. Olan-olmazı çözələmək nəyə lazımdı? Söz-söhbət elədi ki, çözələndikcə çözələnəcək. Axırı da

gəlib çıxacaq davaya. Həkim adamam, cəmiyyətdə nüfuzum var... Yersiz söz-söhbət mənim ləyaqətimə, nüfuzuma xələl gətirəcək. Eşidib bilən barəmdə nə düşünər? Bu, mənə lazım deyil.

Muxtar kinayə ilə: — Danışdıqların yaxşıdı, Şərqiyyə, — dedi, sonra televizoru söndürdü:

— Bu bir həftədə yəqin ki, məni xatırlamamış olmazsan. Barəmdə çox götür-qoylar eləmisən. Yadındadı, qız vədəndə arxamca sürünmələrin, göz yaşları axıtmaların, ən nəvazişli sözlərlə mənə sığal çəkmələrin... Toyumuzdan üç il yarım sonra da guya mənimlə fəxr eləmələrin... Sonralar səndə nələr baş verdi?.. İstəyirəm, bu axşam bunları özün açasan, özün danışasan...

— Nə demək istəyirsən? Kişi də belə söz-söhbəti ağzına alar? Bəlkə yataqdakı əhvalımdan da danışasan. Utanım yerinə... Artistsən... Artist...

— Bəli, artistəm. Artistliyimlə də fəxr eləyirəm. Aktyorluğun nə qədər qüdrətli sənət olduğunu sən anlamazsan. Qaldı yataqdakı əhvalatlara... Ona da tələsmə...

— Kül mənim başıma, gör kimə ərə getmişəm! — Başını qaldırıb çılçırağa baxdı: — Heyf, taleyimdən, gör urcahıma kim çıxıb? Səninlə qarşılaşdığım yerdə qıçlarım sınaydı. Sən məni şikəst elədin, Muxtar.

— Həyatın o qədər keşməkeşləri, təbiətin o qədər al-əlvan sirləri var, gəl görəsən. Günəşin ılıq şüaları xüsusilə baharda adamın içində riqqət yaradır. Yaşamağa olan arzulara sanki meydan açır. Ümid çırağını alışdırır... Vaxt keçir. Yayda həmin şüalar qızır, adamı yandırır-yaxır. Bəzən də həddini aşanda öldürücü olur...

— A səfeh, bura evdi, səhnə deyil. Bəlkə Füzulidən də, Seyid Əzimdən də bir iki ağız deyəsən?

— O da olacaq.

— On gün fahişələrlə dincəlib əsəblərini sakitləşdirib gəlmisən. İndi də kefimə soğan doğrayırsan. Əsəblərimi korlayırsan?

— Əsəblərin korlanıb, sən ciddi xəstəsən, Şərqiyyə. Qərar verə bilmirsən. Bayaq yataq əhvalatını xatırlatdın mənə... Elə isə gəl yataq əhvalatını canlı müşahidə eləyək.

Şərqiyyə əvvəl təəccübləndi, sonra nifrət və qəzəblə Muxtarın gözlərinin içinə baxdı:

— Oyun düzəldirsən? Yoxsa, məni şantaj eləmək fikrindəsən?

— Şantaj niyə? Bir gerçək yüz yalandan üstündü. Bu gün bu kasetin üzünü bir neçə nüsxə çıxartmışam. Arxayin ol, yeri gəlsə, əlbəttə, ehtiyac olsa, onlardan birini valideynlərinə, birini də dostlarının arvadlarına təqdim eləyəcəyəm. Orijinal isə məhkəmə üçündür.

Şərqiyyənin nitqi qurudu. Heç bir söz deyə bilmədi. Muxtar kaseti DVD-yə qoydu. Ekranda Şərqiyyəylə aşnalarının yataq təsvirləri canlandı... Ər-arvad təsvirləri müşahidə eləməli oldular. Şərqiyyə dözə bilməyib stolun üstündəki stəkanı televizorun geniş ekranına çırpdı. Ekran çiliknləndi. Muxtar oturduğu yerdən cəld atılıb Şərqiyyənin boğazından tutdu. Sıxdı. Qadının gözləri bərələ qaldı. Səsi xırıldadı. Onun boğula biləcəyini düşünən Muxtar qəzəb hissilə dedi:

— Alçaq, televizorun ekranını sındırmaqla ayağısürüşkənliyinə bəraət qazandırmaqmı istəyirsən? Onu eləyə bilərsənmi? Sənin yaşamağa haqqın varmı? İnsanlığa ləkə gətirən, alçaq! Bu işləri görəndə bircə dəfə doğmaca qızın — İlahə barədə düşündünmü?! Onun mənəviyyatına, əxlaqına vurduğun zərbənin dərəcəsindən xəbərdarsanmı?! Neçə vaxtdı günahsız aktrisaları mənə tərs qılırsan. Onlara ağlagəlməz böhtanlar atırsan, iftiralar yağdırırsan. Öz nalayiq adını başqalarına qoyursan... De görüm, mənim evimə niyə yad adamlar gətirirsən? Danış!.. Nadan, danış!..

— Əşi, qurtar məndən... Gördün? Sübut elədin? Bildin kiməm? Bu evdən bir otaq mənə düşür?

— Yoox... Bu ev nə sənin, nə də mənimdi. Bu, İlahənindi. Evi sənə əxlaq dərs verənlərdən tələb elə, məndən yox...

Muxtarın beyninə hələ nə gələcəyini düşünə bilməyən Şərqiyyə yan otağa keçdi, əyin-dəst paltarlarından bir neçəsini götürüb tələm-tələsik qapıdan çıxdı. Bir anlığa çiyinləri üstən ağır yük götürüldüyünü hiss eləyən Muxtar ayağa qalxıb qapını arxadan bağladı. Sonra ayaq barmaqlarının ucunda İlahə yatan otağa keçdi. Qızının mışıl-mışıl yatdığını görəndə ürəyi dözmədi. Gözləri doldu: — Yazıq oldun, bala, — dedi.

Muxtar adyalı qızının açıq çiyinləri üstə sərdi. Sakit addımlarla geri qayıtdı. Dəstəyi götürüb Rəmaləyə zəng elədi. Baş verənləri ona danışdı. Axıra qədər qardaşını dinləyən Rəmalə: — Gəlirəm, — deyib dəstəyi yerinə qoydu.

Muxtar paltarlarını soyunmadan, işığı söndürmədən divana uzandı və fikir dəryasına qərq oldu. Rəmalə gələndə gecə-gecədən keçirdi.

Muxtar: — Bacı, dərdin birindən qurtarmamış, ikincisinə ilişirəm. Sabah İlahəyə nə deyəcəm? Bu nadan, ata-bala — ikimizə də dağ çəkdi. İndi mən gərək dayə tutam.

— İlahə ayıq-sayıq qızdı, qardaş. O, dayəni qəbul eləyəcəkmi? Sonrası da, bu tezliklə dayəni hardan tapacaqsan? Bəlkə qızı səhər özümlə aparım?

— Şərqiyyənin əlinə silah verməyək. Belə çıxacaq ki, ailənin dağılmasında sənin də əlin var.

— Əvvəla, qələt eləyər. Getsin, elədiyi hərəkətin xəcalətini çəksin. İkincisi də, lap desin... Qoy Şərqiyyənin xəcalətini ata-anası, oğraş qardaşı çəksin.

— Onların nə günahı, Rəmalə?

— Nə danışırsan? Tərbiyəsiz, əxlaqsız qızın törətdiyi fəalkətin baisi anadı.





— İlahənin taleyindən qorxuram.

— Qorxmalısan. Ancaq indi biz oturub kimdənsə mərhəmət gözləyə bilmərik.

Şərqiyyə barədə məlumat toplamalıyıq.

— Deyirsən, gedər özünə qəsd eləyər?

— Yoox... Özünəqəsd namuslu adamların işidi. İctimai rəydən qorxsaydı, o qələti eləməzdi.

Muxtar ayağa qalxıb pəncərəyə yaxınlaşdı. Sonra dedi:

— Gecənin bu vaxtında anasıgilə gedər də...

— Yox... Muxtar niyə elə düşünürsən ki, o kasetə baxandan sonra Lütüş Lütüşovla, Salman Salmanovla görüşə yox, anasıgilə gedəcək?

Rəmalənin ifadə elədiyi bu fikir Muxtarın ağlına batdı:

— Bu heç mənim ağlıma gəlmirdi.

— Belələri yerin altını da bilirlər, üstünü də. İcazə ver, mən əvvəl onun anasına telefon açım, qızının onlarda olub-olmamasını öyrənim və evə dava-şava salaraq çıxıb getməsini çatdırım. Bu, sabah söz-söhbətə oturanda bizim diluzunluğumuz olar.

— Çal...

Rəmalə nömrələri yığıb Şərqiyyənin anası Nübara telefon açdı:

— Alo! Alo!...

— Eşidirəm, kimdi danışan?

— Rəmalədi, xanım.

— Eşidirəm... Gecənin bu vədəsində xeyirdimi zəng eləməkdə?

— Şərqiyyə ilə Muxtarın arasında balaca dedi-qodu olub. Qızın da evdən çıxıb gedib. Fikirləşdik ki, bəlkə sizdədi.

— Yoox... Nə dedi-qodu? O elə-belə evindən, yurd-yuvasından çıxıb gedə bilməz.

— Deməli, Şərqiyyə sizdə yoxdu. Onda harda ola bilər?

— Ağız, mən Şərqiyyə güdürəm? Əri zəhmət çəksin...

Rəmalə telefonu qapadı, sonra üzünü qardaşına tutdu:

— O ifritə iki oynaşdan birinin yanında olacaq. Oturub yaranan vəziyyəti müzakirə eləyəcəklər. Kaset onların halını qarışdırıb. Barəndə plan hazırlayacaqlar. Ancaq faydası olmayacaq. Artıq babarçılığın üfunəti yayılır. İcazə ver, Lütüş Lütüşova da telefon açım.

— Ona ehtiyac varmı?

— Olmasa, demərəm, qardaş.

Muxtar çiyinlərini çəkdi. Rəmalə əvvəl Lütüş Lütüşovun telefon nömrəsini bir neçə dəfə yığdı. Axır ki, Lütüş cavab verdi:

— Bəli! Eşidirəm... Kimdi danışan?

Rəmalə izahsız-filansız birbaşa hədəfə vurdu:

— Yanındakını qaytar evinə. Uşağı ağlamaqdan yerə-göyə sığmır.

Lütüş çəkincəkli və sıxıntılı halda cavab verdi:

— Yanımda kim var ki?

— Çox danışma. Əgər onu geri qaytarmasan, həmin kasetin biri arvadına, digəri isə polisə təqdim olunacaq. Özü də bu gecə...

— Xa-xa-xa-nım.

— Xıxıldama. Telefonu ver Şərqiyyəyə...

— Hə... Bu saat...

Handan-hana Lütüş telefonu Şərqiyyəyə verdi. Şərqiyyə hıçqıra-hıçqıra dedi:

— Rəmalə, bizimki alınmadı. Ora gəlməyə nə ehtiyac var?

— Ehtiyac yoxdu... Mənim məqsədim gecənin bu vədəsində sənin harda, kiminlə olduğunu müəyyənləşdirmək idi.

Rəmalə telefonu qapadı. Sonra üzünü qardaşına tutdu.

— Gördün... Hər şey güman elədiyimiz kimi oldu. Salman Salmanova telefon açmağa ehtiyac qalmadı. Çox çəkməz ki, Nübar ilə Səfiqulu da gələrlər.

— Gözləyək...





# Haydı

Şərqiyyənin valideynləri və qardaşı qapının zəngini basanda gecə yarıdan ötürdü. Qapını Muxtar açdı. Çağrılmamış vaxtsız qonaqlar dəvətsiz-filansız, salamsız-kəlamsız otağa daxil oldular. Keçib stulda əyləşdilər. Üz-gözü pörtən, hirsdən, qəzəbdən dili-dodağı təpiyən Nübar:

— Bacı-qardaş əl-ələ verib, Şərqiyyəni gecənin bu zülmətində evdən bayıra atdınız? — dedi. — Rəmalə xanım, başına, əllərinə həna qoya bilərsən... Ağız, mənim qızım neyləməliydi? Qırıb-qırpıb, oğurluq-doğurluq qazanıb gətirirdi... Qardaşın da eşirdi...

Rəmalə başını buladı:

— Xanım, bir az ədəbli danışsan olmaz?.. Deyəsən, səbrin tükənib. Nə olsa atırsan...

Səfiqulu yazıq-yazıq dilləndi:

— İş ki, düşdü arvadlara... Gəl səslərini kəs...

Asimin üzünə baxaraq sözünə davam elədi:

— Atalar deyib: sülh yarat, barışıq yarat.

Muxtar astadan dedi:

— Atəşkəs dövrü keçdi, ağsaqqal, barışıqdan da, sülhdən də daha söhbət gedə bilməz.

Asim:

— Nə böyük qəbahət olub ki?.. O qazanıb gətirəndə səsin çıxmırdı... Ayə... Bu çörək adamı nə tez qudurdarmış, əə?

Səfiqulu:

— Yığışdırın söz-söhbəti. Başınızı salın aşağı. Allah bir uşaq verib sizə. Tanrınıza təpik atmayın. Camaatı özünüzə güldürməyin. Ağac bar gətirdikcə, başın aşağı dikər... Burun qaldırmaq kişi işi deyil, Muxtar.

Rəmalə gülümsündü:

— Siz müəllimsiniz də, Səfiqulu dayı.

— Sualı niyə verirsən? Bəyəm bilmirsən? Bəli! Müəlliməm! Valideynlərim də uzun müddət müəllim işləyiblər.

Rəmalə rişxəndlə:

— Aha... Deməli, təpədən dırnağadək... Mən də düşünürəm: öyrətmək, dərs vermək ruhu səndə hardandı?

Səfiqulu kinayəni başa düşüb küskün halda:

— Booy... Dərs vermək, qızım, pisdi ki?.. Əksinə, mən peşəmlə fəxr eləyirəm. Onu da bil ki, öyrətmək hər adama nəsib olmur.

Muxtar:

— O, Allah vergisidi, — səsinə ara verdi, handan-hana sözünə davam elədi: — Dediklərində rişxənd, istehza duyuram... Görünür, bu həssaslığın da müəllimliyindən irəli gəlir.

Rəmalə:

— Musiqiçilər, rəssamlar, yazıçılır, müəllimlər... çox həssas olurlar. Onlarda öncəgörmə qabiliyyəti digər sənətçilərdən daha güclüdür... Sizdə də belədi. Bu qabiliyyət ki, sizdə var, necə olub ki, qızınızın ağlını vaxtında dəyərləndirməmisiniz?

Nübar dik atıldı:

— A kişi, a başını dağlayım, bura özünütərif üçün gəlmisən? Görürsən, Rəmalə səni necə barmağına doluyur?

Asim:

— Atamı barmağına dolayanı bilirsiz neyləyərəm?

Muxtar:

— Neyləyərsən?

Nübar:

— Ayə, ay Asim, bura kimdən ötrü, niyə gəlmişik?

Asim:

— Hə... İndi qandım, ana.

Nübar:

— Ondan danışın. Muxtar Şərqiyyənin qazandıqlarını ötü-





rüb, o ki, lazımdı kef çəkib. İndi də dalına təpik vurur. Bunun sorğu-sualını aparmaq lazımdı. Yoxsa, uzunqulaq burdan gəldi, örkən ordan getdi.

Muxtar:

— Bəs, mən neyləyirdim? İşləmirdim?

Nübar:

— Sən Şərqiyyəni dəyərləndirmədin. Şərqiyyə mənim qızımdı. Səni hər cür əziyyətdən, kasadlıqdan qorudu. Ümid yerin, arxan-dayağın oldu... Sən neylədin? Zeynəb qarı burda deyib də: "İt yatıb qaya gölgəsində, elə bilir öz kölgəsidi". "Ver yeyim, ört yatım, gözlə canım çıxmasın"la iş bitməz. Gərək kişi olan kəs ailəyə də baxa...

Muxtar:

— Baxmamışam?.. Bəyəm, mən xəstə olmuşam ki, qızın məni...

— Yoox... Xəstə nədi? Sənə ərə gələli ona sevinc daddırmamısan. Əksinə, ona dərd-sər olmusan.

Nübar üzünü Rəmayəyə tutaraq: — Ağzınızı büzməyin, bəlkə mənə deyəsiz: eləməyib? Onun əməyini, qayğısını bacı-qardaş yerə vurmayın. Bu, iyrənclikdi, murdarlıqdı. Allahınızdan qorxun. Ona elədiyiniz zülmdən qorxun... Bu xasiyyətinizi eşidib-bilən sizə tupurər.

Muxtar əsəbiləşdi:

— Xanım, bizi qara tapdaq eləyirsən. Sənin dediklərinin hamısı yalandı. Əksinə, qızın başımızda qoz sındırıb, biz də dözmüşük. İlahənin xatirinə... Bayaqdan gəlmisiniz, amma soruşmursunuz ki, Şərqiyyə niyə evdən qaçıb? Televizorun ekranını kim çilik-çilik eləyib?

Asim:

— Biz nə bilək, əə? Sənin evinə biz keşik çəkməliyik, əbləh? Biz dinmirik, danışmırıq, siz ağzınızı yastı qoyub danışırsız. Bəyəm bilmirsiz ki, mən vəkiləm? Mən tükü-tükdən seçirəm.

Muxtar, yeznə, ayağını yorğanına tən uzat. Uzanan ayaq kəsilir...

Rəmalə:

— Xoox... Vəkilə bax ey... Danışığından adam ət tökür.

Muxtar:

— Asim, bizə vəkil gərək deyil. Allahınız varsa... Axı, burnundan uzağı görməyəndən, dostu ilə düşmənini fərqləndirməyəndən nə gözləmək olar? Arsızlıq... Həyasızlıq... Ləyaqətsizlik... Nanəciblik... Həyat belədi.

Rəmalə dərhal:

— Ot kökü üstə bitər. İtin altından küçük götürürlər, ceyran, cüyür balası yox... Axı siz soruşmadınız: qızınız niyə qaçıb? Televizoru niyə sındırıb?

Nübar:

— Neçə dəfə deməliyəm? Bezdirmisiz, cana doydurmusuz, eləyib. Başqası olsaydı, bura qan salardı. Hələ bilmək olmaz, nələr baş verəcək.

Muxtar qəti etiraz elədi:

— Yoox, xanım. Qızınız havalanmışdı. Bu gün havası alındı. Əvəzində də televizoru qırdı və xəcalətindən qaçdı.

Səfiqulu:

— Yaxşı, hara qaçdığını bilmirsiz?

Rəmalə:

— Bilirik... Ərinin dublyorunun — oynaşı Lütüş Lütüşovun yanına.

Asim:

— Nə oynaş?

Nübar:

— Yalandı... Nə dublyor? Ərin də dublyoru olur?.. Ağız, bu da təzə çıxdı? Booy... Lütüş Lütüşov bilirsiz kimdi? Onun müdiridi. Çox yaxşı insandı. Şərqiyyə həmişə ondan razılıq eləyirdi. Görünür, Muxtar, onların münasibəti səndə qısqanclıq yaradıb.





Zeynəb qarı deyərdi: "Qılıncı qında görmədən danışmazlar".

Rəmalə:

— Biz təkcə görməmişik. Həm də tutmuşuq, Nübar xanım. Anasan? Səndən soruşuram: Salman Salmanov kimdi? Muxtarın dublyoru Lütüş Lütüşov, onunku da Salman Salmanovdu. Sənin kimi ananın — əgər, sənə ana demək mümkünsə, — elə də qızı olar.

Səfiqulu əsəbiləşdi:

— Bu nə söhbətdi? Rəmalə, a bala, səninki ara qızışdırmaqdı. Odun üstə yağ tökməkdi. Ailə dağıtmağa rəvac verməzlər. Barışığa yol açarlar.

Asim üzünü Muxtara tutaraq:

— İşimiz düzəldi... Muxtar qonşularınızla münasibətləriniz necədi? — soruşdu.

— Onun sizə nə dəxli var?

Nübar:

— Olmasa, vəkil soruşmaz ki?

Asim:

— Var... Özü də kifayət qədər. Hadisəni yerli-yataqlı açmaq üçün gərək onun ətrafına da nəzər salasan... Bəlkə qonşular ər-arvad aranıza nifaq salırlar? Siz başa düşmürsüz. Deyilənlərə inanırsınız.

Muxtar:

— Mənə moizə oxuma, "cənab" vəkil. Nəzərə al ki, siz heç də bizdən dərin düşüncəli deyilsiniz. Cəfəng-cəfəng danışıqları, gəlin qurtaraq. Elədiyi ayağısürüşkənliyə görə mən Şərqiyyəni məzəmmət eləmirəm. Ona niyə bu yolu seçdin də demirəm. Zaman gələcək əməllərinə görə o da, siz də yanacaqsınız.

Nübar:

— Sən bizim qəhrimizi çəkmə. Yanarıq, yanmarıq, özümüz bilərik... Bir də ki, sən hansı zamandan danışırsan?

Asim başını yellədi. Sonra etinasız halda dedi:

— Zaman zamandı. Zaman içində zaman axtarmaq gülünc ideyadı.

Muxtar:

— Səhv eləyirsən. Sabah bizim heç birimiz olmayacağıq. İlahə yəqin ki, yaşayacaq. Anasının ona qoyub getdiyi ləkəli namusu necə yuyacaq? Yaxınlaşdığı adamlar ona həqarətlə baxmayacaqlar ki? O da ailə qurmalıdı. O da xoşbəxtliyini axtarmalıdı. Bax, onda köhnə zamanın — harın, qudurğan, ehtiraslı Şərqiyyənin vecsiz həyatının özünəməxsus mərhələsi başlanacaq. Yeni şərait, yeni düşüncə, yeni həyat tərzi... Onda yeganə övladım niyə bir şərəfsizə görə əzab çəkməlidi?

Səfiqulu:

— Sən elə danışırsan, Muxtar, mən çaşıb qalıram. Səndən şübhələnirəm. Düşünürəm, sən ya falçısan, ya da münəccim. Ağıllı adamlar bu günü yeyib, qarınlarını doldurub sabaha ümid bəsləmirlər. Sən isə bizə zəmanədən dəm vurursan. Sən fanatiksən... İnsan qəbahətsiz olmur. İnsanın böyüklüyü səhvi eləyəni bağışlaya bilməsindədi.

— Sən də səhv eləyirsən, Səfiqulu kişi. Tutaq ki, sən sabah öldün. Övladların sənin ardınca gedəcəklər?

Asim:

— Kişiyə qayınata dedin, yoruldun? Kişinin üstə ölüm donu biçməni yığışdır. Səfiqulunun mənim kimi oğlu var.

Rəmalə:

— Həm də Şərqiyyə kimi qızı.

Muxtar:

— Yaramaz, utanc gətirici, ləyaqətsiz... hərəkətlərinə görə valideynlərini törəmələrinin mühakimə eləməyə haqları var. Onlara tüpürə bilərlər. Bilirsən niyə? Ola bilər, böyüyəndə başına ağlagəlməz fikirlər gəlsin. Çünki o, hələ balaca ikən, dünyadan xəbərsiz ikən valideyn ona tüpürüb... Vay o günə ki, ləyaqətsiz valideyn xəstələnə: övlada möhtac ola; yataqdan qalxmaya; hərarət içində boğula; ehtiyacı ola... Onda valideyn elədiklərini qanacaq. Nəfəsi təngiyəcək. Dili ağzından çıxacaq. Bir stəkan su verəni olmayacaq. Bax, övladının sabahı haqqında düşünməyən valideyn öz aqibətini onda dərk eləyəcək.





Muxtar acı-acı gülümsədi. Sonra hirslə, qəzəblə dedi:

— Hə, buna nə deyirsiz, "cənab" vəkil? Mən indi üzümü Şərqiyyəyə tuturam. Onda işvəkar qadın günahını kimdə axtaracaqsan? Allahında?!. O səni bağışlayacaqmı? Ay vecsiz, vəhşi ehtirasını söndürmək xatirinə necə də doğma qızına qarşı çevrildin? Onu özünə övlad sandınmı?.. Nə vaxtsa itirdiyini tapa biləcəksənmi?! Nə isə... Səfiqulu kişi, "cənab" vəkil, çox "böyük dəyər" verdiyim Nübar xanım, nə qədər danışsaz da, eyni nöqtədən tərpənən halımız yoxdu. Yekun sözüm budu: qızın Şərqiyyə gəzəntidi. Onun namusu ləkələnib. Gündə bir kişi qoynuna atılıb... Məncə, bu dediklərim kifayətdir. Bu gündən mən Şərqiyyə ilə ər-arvad deyiləm.

Nübar:

— Gözəl-göyçək xanımdı. Yup-yumru. Bircə dəfə göz-qaş oynatsa... Ağırlaşmış ət deyil ki, tərəzidə qala mənim qızım. Həkim adamdı. Əlləri də qızıl. Yüzü dolanacaq başına.

Muxtar təəccübləndi:

— Bəlkə qızını bu yola sən salmısan? Elədisə, utanma, açıq de... Biz də üstünə getməyək.

Rəmalə:

— Ana çıxan ağacı...

Səfiqulu:

— Özünüzü yığışdırın... Canınız üçün... Məni tanımırsız...

Asim:

— Ayə, bu bacı-qardaşlar şərdi, çığaldı, əə. Niyə başa düşmək istəmirlər ki, burda mülk-əmlak məsələsi də var. Ağıllı ol, Muxtar. Arvad deyilən şey hamısı birdi... Elə bilirsən, biz kef çəkirik? Ayə, nə olsun vəkiləm. Hər gün qanunla oynayıram.

Şəxsən mənimki səninkindən də betərdi. Ayə, bir tərəfin boş burax. Buraxmasan...

Rəmalə Muxtarın üzünə təəccüblə baxdı. Özündən asılı olmadan qəşş elədi. Əli ilə qarnını tutdu. Handan-hana özünə gəldi:

— Adə, qardaş, bunların hamısı... Heyf...

Nübar:

— Nə heyf?

Rəmalə:

— Qorxuram, İlahənin gələcək taleyindən.

Muxtar:

— Söhbətimiz qurtardı.

Muxtar şkafın siyirməsini çəkdi. İçəridən kasetin birini götürüb dedi:

— Səfiqulu kişi, alın, bu kasetə evdə çay içə-içə baxarsız.

Rəmalə:

— Konsert kasetidi. Durun, haydı.

## Axı, o, yetimdi...

Bütün gecəni kirpiklərini qırpmayan, yatağına sanki qor tökülən Muxtarı hey İlahənin gələcək taleyi, ailədə başlanan yeni mərhələnin bundan sonra hansı səmtdə davamı düşündürürdü. Bəli, yeni həyat özü ilə yeni problemlər gətirirdi. İlahə... Həyat haqqında məhdud təsəvvürlü qız uşağı. Ona göstəriləcək qayğılar. Nəvazişlər. Yedizdirilib-içizdirilmələr. Üst-başının qaydaya salınması. Məktəb həyatı və onunla bağlı bir sıra çətinliklər. Ən əsası da tərbiyəsi... Hansını deyəsən? Bunları götür-qoy elədikcə, Muxtar başını itirirdi. Şərqiyyənin ailədə və uşağın tərbiyəsindəki yeri aydın sezildikcə, dolaşıq fikirlər, qarmaqarışıq düşüncələr onun çevik, aydın təfəkküründə ciddi böhranlar yara-





dırdı. Onda o, istər-istəməz ağıllı qadın ailənin nüvəsidi qənaətinə gəlirdi. O, öz-özünə dedi:

— Deyəsən, yeni problemlərdən qorxursan, Muxtar. O səni çox acizləşdirir. İndidən iradəni qırmağa cəhd göstərir. Kişi ol. Daha geriyə yol yoxdu. Şərqiyyə bütün körpüləri, hətta, öz yurd-yuvasını da yandırdı. Doğmaca balasını da çılğın ehtiraslarına qurban verdi... Ona ana demək olarmı?.. Qayıdacaqsan, Şərqiyyə. Peşman olacaqsan. Bilirəm, İlahəylə qovuşmağa cəhdlər də göstərəcəksən... Mənasız həyat səni çox şeyə vadar eləyəcək. Arxayin ol. Mən İlahənin xatirinə sənə güzəştə gedəcəyəm. Uşağının yanına da istəyəndə gəlib-gedə biləcəksən. Mülk-əmlak ilə bağlı iddianı da təmin eləyəcəyəm. Ancaq İlahəni sənin himayənə verməyəcəyəm. Razı olmaram ki, əxlaqı dürək, idrakı kor qadının gözlərilə mənim İlahəm həyata baxsın... Axşam atanın pedaqoji düşüncələrini, ananın dəhşət doğuran söz-söhbətlərini, qardaşının çürük mülahizələrini axıra qədər dinlədim. Sonra da özümü məzəmmət etməyə başladım. Gözlərim necə gör olub ki, səni də, doğulub-tərbiyə aldığın mühiti də dəyərləndirməmişəm. Bu yaşda anlayıram ki, doğrudan da, sevginin, məhəbbətin gözləri kordu. Emosiyalara uyub, ağılın, idrakın gözlərini qapayaraq hisslərin ağuşuna atılmaq özünü nəhayətsiz dəryada boğmaqdı. Sevgi, məhəbbət budumu? Yoox... Aramızda nə sevgi olub, nə də məhəbbət. Birtərəfli yalançı hisslər olub. Uydurulan xəyallar olub... Həyatımız alt-üst olmalı idi. Oldu da... Nə yamanmış alçaq, işvəkar qadın xəyanəti. Sevgisi-doğuluş, xəyanəti-ölüm...

Elə bu vaxt Rəmalənin yan otaqdan səsi eşidildi:

— Muxtar, qalx, qardaş, İlahə dərsə, sən isə işə getməlisən. Siz hazırlaşınca vaxt yetəcək.

— Hə, qalxıram, bacı.

Muxtar cəld yataqdan qalxdı. Vanna otağına keçərək yuyunub darandı. Mətbəxdə səhər yeməyi tədarükü görən Rəmalə

ilə salamlaşdı. Rəmalə dərhal:

— Muxtar, gəl, İlahəni yuxudan birlikdə qaldıraq. Tək mən qaldırsam...

— Hə, bu saat...

Muxtargil İlahə yatan otağa keçdilər. Baş verənlərdən xəbərsiz olan qız mışıl-mışıl yatırdı. Onun saçları üzünə tökülmüşdü. Bacı-qardaş ürək ağrısı ilə bir-birilərinə baxdılar. Hər ikisinin qəlbi yumşaldı. Muxtar özünü güc-bəla ilə saxladı. O, bir söz deməsə də, Rəmalə qardaşının keçirdiyi hissləri duydu:

— Burda sənlik bir iş yoxdu, qardaş. Allah düşüncəsiz...

— Özü bilər. Hər kəs elədiyi qələtin cəzasını almalıdı. Yazığım zavallı qıza gəlir.

Muxtar pəncərəyə tərəf getdi. Tutqun pərdəni kənara çəkdi. Otağa günəşin al şəfəqləri səpələndi. Muxtar sözünə davam elədi:

— Otaq qaranlıq. Çöldə parlaq günəş. Adamın ürəyi darıxır.

Astadan edilən söhbətin İlahəni oyatmayacağını hiss eləyən Rəmalə barmaqları ilə qızın saçlarını daraqladı. Sonra yorğanı üstündən kənara ataraq: — İlahə, İlahə, qızım, səhərdi, ayağa qalx, — dedi, sonra da çiynindən tutub yüngülcə silkələdi. İlahə yanı üstə çevrildi. Bu dəfə Muxtar:

— İlahə, qızım, qalx, məktəbə gecikirsən, — dedi. — Qalx! Qalx! Rəmalə bibin də burdadı. Qalx, bibinlə də öpüş.

İlahə səsə səksəkə içərisində oyandı. Əvvəl Rəmaləni süzdü. Tez də yataqdan qalxdı. Rəmalənin boynunu qucaqladı. Öpüşdülər. Sonra İlahə vanna otağına getdi. Yeyib-içdikdən sonra Muxtar dedi:

— Qızım, bu gün səni məktəbə mən yox, bibin aparacaq və məktəbdən də o götürəcək. Biz axşam görüşərik.

— Oldu... Ata, bəs anam...

— Anan işdədi, qızım.

— Bibi, yaxşı şeirlər öyrənmişəm. Sara müəllimə müstəqil-





lik günü yığıncaqda şeir oxumağa mənə də söz verəcək... Çalışacağam yaxşı oxuyum. Onda hamı deyəcək: İlahə Muxtarın qızıdı. Düzmü deyirəm?

Muxtar:

— Əlbəttə, düz deyirsən. Sən ağıllısan. Mən səni çox istəyirəm.

Rəmalə:

— İlahə həm də gözəldi, atası. Bu gün dərsdən çıxanda bibisi ona yaxşı kostyum da alacaq.

— Axı, sənin pulun yoxdu, bibi?

— Sən onu hardan bildin?

— Axı, sənin ərin yoxdu. Ərin pul verməyibsə...

— Pul varımdı, qızım. Axı, mən işləyirəm. Çoxlu maaş alıram. Qənaətlə xərcləyirəm. Ayın axırında qalanını da geri atıram.

— Mən də istəyirəm sənin pulun çox olsun... Bizim sinfimizdə Samir adında bir oğlan var. Onun da atasının pulu çoxdu. O, bir dəfə bizə dedi: “Atamın bir ev dolu pulu var...”. Ata, Samirin atası o qədər pulu hardan yığıb?..

Muxtar diqqətlə İlahəyə baxdı:

— Qızım, hər deyilən sözə inanmazlar. Özünə bir söz demə, Samir yalan danışır. Bir də ki, çox pul nəyə lazımdı?

Rəmalə:

— Atan düz deyir, qızım.

İlahə:

— Düz deyirsiz, Samir hər gün uşaqlarla dalaşır. Pulları çox olsa da, hamının ondan zəhləsi gedir. O gün Şamilə “yetim” dedi. Şamil ağladı. Onlar sinifdəcə vuruşdular. Hər ikisinin burunları, ağızları qanadı. Şamilin köynəyi də cırıldı. Biz onları araladıq. Sonra öyrəndik ki, həqiqətən də Şamilin atası ölüb. Anası da xəstədi. Bizim Şamilə yazığımız gəldi. O vaxtdan heç kim Samirə yaxın getmir. Hamı ona davakar oğlan kimi baxır.

Rəmalə başını yellədi:

— Görürsən, qızım, pul Samiri necə qudurdub. Günah Samirdə deyil.

İlahə:

— Bəs kimdədi, bibi?

— Samirin ata-anasında.

Muxtar:

— Mənim ağıllı qızım. Böyük qızsan. Sən elə işlər görməlisən ki, atanı sevindirəsən. Pul ardınca qaçmaq olmaz. O, adamı hörmətə mindirdiyi kimi, gözdən də salır.

— Düzdü, ata... Mənim Şamilə yazığım gəlir.

— Niyə?

— Necə niyə? Axı, o, yetimdi.

Muxtarın gözləri doldu. Heç bir söz deməyib divardan asılan saata baxdı: — Daha gecdi, mən gedim... Axşamacan...

Rəmalə ilə İlahə eyni vaxtda:

— Yaxşı yol! — dedilər.

Muxtar heç bir söz demədən portfelini götürüb otaqdan çıxdı.

İlahə çantasını açdı. Kitab dəftərlərini yoxladı. Sonra Rəmalə onun çantasını götürdü və dedi:

— Gedək məktəbə. Gecikməyək...

Dərsin sonunda İlahəni məktəbdən götürən Rəmalə:

— Gedək mağazaya, qızım, sənə verdiyim sözü gərək yerinə yetirəm, — dedi və çantanı qızın əlindən aldı. Onlar mağazaya getdilər. Mağaza uşaq geyimləri ilə dolu idi. Xeyli paltara baxdılar. Axırda İlahə birinin üstündə dayandı. Rəmalə dərhal dedi:

— Pərdənin arxasına keç, geyin, görüm sənə yaraşırmı?

İlahə bibisi dediyi kimi də elədi. Rəmalə dərhal:

— Əla! Qızım, çox yaxşı zövqün var. Kostyum səni yaxşı tutur.

Rəmalə kostyumun pulunu verdi.





— İndi də gedək ayaqqabı şöbəsinə.

— Ayaqqabım var, bibi.

— Kostyuma düşənini də alaq. Bilirsən, bunları sən geyinəndə atan nə qədər sevinəcək?

— Bilirəm, hələ anam da sevincək...

## Birlikdə olacaq

Axşam qaş qaralırdı. Muxtar binanın girəcəyində Səfiqulu, Nübar, Asimlə qarşılaşdı. Muxtar salam verib Səfiquludan soruşdu:

— Burda niyə durmusunuz?

Asim dərhal:

— Haqqımız yoxdu?

Muxtar:

— Haqqınızı soruşmuram. Səbəbini bilmək istəyirəm.

Nübar:

— Bizi dolama. Səbəbini bilirsən. Şərqiyyəni gözləyirik. Yuxarı qalxacağıq.

Asim kinayə ilə:

— Gözümüz aydın. Aldığımız nəfəsin də hesabını verməliyik.

Muxtar əsəbi halda:

— Yekə kişisən, iyli-iyli danışma, əə. İnsanların taleyi ilə oynamağa öyrəncəlisən. Danışıqların ət tökür.

Səfiqulu Asimlə Nübara acıqlandı:

— Ayə, yüz dəfə deyirəm, acıq-giciklə iş görməzlər. O yolla görülən işin də urvatı olmaz.

Muxtar mızıltılı səslə:

— Mən qalxıram yuxarı, gəlməli olsanız, gələrsiniz, — dedi və üzünü çevirib pilləkənlərlə yuxarı qalxdı. Cibindəki açarla

qapını açıb içəri keçdi. Rəmaləyə salam verib İlahə ilə qucaqlaşdı. Qızının saçlarından öpdü.

— Hə, bugünkü dərslərin necə keçdi?

— Çox yaxşı. Müəllim məni təriflədi. Dedi, belə getsə, əlaçı olacaqsan.

— Məni sevindirdin.

— Ata, hələ anam gəlməyib. Telefon açıram, cavab da vermir.

— Baban, nənən, dayın aşağıdadılar. Onlar da ananı gözləyirlər. Darıxma, qızım, yəqin ki, indi gələrlər.

Rəmalə duruxdu, nə deyəcəyini bilmədi. Sonra astadan dedi:

— Qoşun gəlir?.. Üzləri çox ağdı. Gərək şəhər merini də dəvət eləyəydilər... Xörək hazırdı, yeyirsən?

Muxtar:

— Hələ saxla görək. Onsuz da qanım qaradı.

Qapı döyüldü. Muxtar qapını açdı. Şərqiyyəgil içəri girdilər. İlahə onlara tərəf qaçdı. Asim soyuqqanlılıqla qızın böyründən ötdü. Nübar ağızucu Rəmaləyə salam verib nəvəsinin başına yüngül sığal çəkdi. İlahə anasının üstə atıldı:

— Bibim mənə kostyum, ayaqqabı aldı. Mənə çox yaraşır... Geyinim baxırsan?

— Halım yoxdu. İmkan ver, özümə gəlim. Sonra...

Muxtar İlahəyə:

— Qızım, sən keç öz otağına. Dərslərini hazırla.

— Ata...

— Görürsən, hamısı böyüklərdi. Sən yaşda uşaq yoxdu...

İlahə öz otağına çəkildi. Asim acıqlı-acıqlı dilləndi:

— Hardan  başlayaq, Muxtar?

Muxtar:

— Hardan kefin istəyir.

— Barışırsız, ya yox? Konkret...

— Yoox... Siz kasetə baxdınızmı?





Səfiqulu:

— Yox... Vaxt olmadı.

Muxtar:

— Gedin baxın, fikirləşin. Dəqiq bir qənaətə gələ bilməsəniz, mən cavab verərəm.

Asim:

— Ayə, axşam da sənə dedim: böyük-böyük danışma.

Şərqiyyə:

— Asim, mən ayrılıram. Başa düşürsən? Mən Muxtarla yaşamaq istəmirəm. Qəribə adamsınız, balam, zorla evlilik olar?

Rəmalə:

— Şərqiyyənin Lütüş Lütüşov, Salman Salmanov kimi görkəmli oynaşları var. İki kişi bəsidi. Üçüncü artıqdı. Lazım olar, təcrübəsi var...

Şərqiyyə:

— Onu özüm bilərəm.

Səfiqulu:

— Qələt eləmə, otur yerində. Mən kişiyəm. Arvad papaq deyil ki, başdan-başa qoyula.

Muxtar:

— Papaq qoyulub. Arxayın ola bilərsən.

Şərqiyyə:

— Sən alçaqsan, Muxtar. Alçaq atama, imansız anama dedim ki, gəlin o xarabaya getməyək. Namərdlə məni üzləşdirməyin.

Asim qışqırdı:

— Bu nə sözdü? Bəyəm, atan-anan sənə pislik eləyir?

Şərqiyyə:

— Əşi, sən də dayan görək. Sözdü də dedim, — səsinə ara verib — mən onları döymədim, söymədim.

Rəmalə Şərqiyəyə:

— Alçaq, imansız sözlərinin mənasını dərk eləyirsənmi? — deyib gülümsündü. — Gərək bunları ayaqlayaydın, ağız-burun-

larının qanlarını axıdaydın, qabırğalarını qıraydın... İncisən də, inciməsən də, deyəcəyəm: Sənin yaşamağa haqqın yoxdu. Sən insan deyilsən. Atanı alçaq, ananı imansız adlandıranda onların hansı hala düşdüklərini gördünmü? Əlbəttə ki, yox... Səni Lütüş Lütüşovla, Salman Salmanovla çəkdiyin keflər düşündürür, doğmaca qızının taleyi yox. Əlində sənətin var. İşin var. Gündə xəstələrdən də nə qədər çırpışdırsan...

Rəmalə bu sözləri deyib istehza ilə gülümsündü və sözünə davam elədi:

— Görünür, təkcə ar-namusun çatmır. Ədəb-ərkanın qəhətə çıxıb. Qınaq-nədi qanmırsan. İctimai rəyi saya salmırsan.

Şərqiyyə:

— Nə elədiyimi özüm bilərəm. Qardaşın gündə bir aktrisanın qoynunda dincələndə, bilmirdi ki, o da məndən əvəz alacaq?

Rəmalə:

— Alçaq qadın... Yeri gəlib, deyəcəyəm. Səfiqulu kişi deyir, kasetə baxmamışıq. Bu yalandı, inanmıram. Vəkilliyi ilə fəxr eləyən qardaşın, kişiyəm deyə öyünən atan, çəpəki baxıb, arsız-arsız gülən anan sənin Lütüş Lütüşovun, Salman Salmanovun şalvarına əl atmalarını görəndən sonra bura necə üz tutublar, bilmirəm. Bax, bu, möcüzədi!

Səfiqulu başını aşağı salıb susdu. Nübarın sifəti bozardı. Səsi titrəyə-titrəyə dedi:

— Hər evin bir qibləsi var. Şərqiyyə nə elədiyini yaxşı bilir. Elə eləməsəydi, Muxtar tanrıya təpik atardı.

Muxtar kinayə ilə:

— Ola bilər, utanma, içində nəyin var, aç tök, Nübar xanım, — deyib özünə toxtaqlıq verərək üzünü Şərqiyyəyə tutdu:

— Mənə qarşı səndə bu nifrət hardan yaranıb ki, addımbaşı iftiralar yağdırır, böhtanlar atırsan? Həmişə xatirini istəmişəm. İmkan vermişəm ki, mənə ürəyindən keçənləri deyəsən... hər şeyin həddi var. Xəyanətə dözə bilmirəm. Sən mənim yatağıma





yad kişi salanda, özün demişkən, bu vəkil qardaşını, müəllim atanı, çatana çatıb, çatmayana daş atan ananı nə hala salacağını düşündünmü? Yoxsa, fikirləşdin ki, fahişəliyinlə təkcə məni alçaldırsan? Onların başına tac qoyursan?

Muxtarı öskürək tutdu. Danışa bilmədi. Bunu görən Rəmalə mətbəxə qaçdı. Bir stəkan su ilə geri qayıtdı və qardaşına verdi. Sudan qurtum-qurtum içən Muxtar özünə gəldi, dərindən nəfəs alıb: — Hövsələdən yamanca çıxdım, həkim mənə əsəbiləşməyi, stress keçirməyi qadağan eləyib. Belə hallarda qan, az qala, beynimə vurur, — dedi.

Şərqiyyə:

— Sən ölən-itən deyilsən. Canın bərkdi... Vaxtında ölsəydin, qol-qanadım açılardı. Kişi də başqasının, xüsusilə arvadının yatağındakı davranışlarını lentə alarmı? Eşidib-bilən sənə tüpürəcək.

— Mənə, ya sənə? Çox hoqqalardan çıxdın, Şərqiyyə. Hikkən səni yedi. Bunu mən deyirəm. Səndə toyuq qədər ağıl, qeyrət yoxdu.

Asimin sifəti ciddiləşdi və səsi gərildi.

— Camaata hədə-qorxu, ağıl-mağıl vermə, Muxtar. Sən dünyanın çirkin adamısan. Heç vaxt sənin öz sözün olmayıb, olmayacaq da. Çünki sən də, aktyorlar da öyrənmisiniz başqalarının sözlərini əzbərləyib danışmağa.

Rəmalə:

— Sən başqalarına ədəb-ərkandan mühazirə oxuyursan. Ancaq özün ən çirkin işləri görürsən. Hər gün sənin də hüquqların arvadın tərəfindən tapdalansa, sən ondan da betər olarsan. Ən azından şalvarını götürüb evdən çıxarsan. Əgər çıxmasan, deməli, arvadının tayısan... Bəlkə işinizi kimdənsə keçirmək üçün Şərqiyyəni bu yolu seçməyə vadar eləmisiniz, “cənab” vəkil? Biz xəbərsizik?

Asim:

— Əşi, bir işdi olub da. Nə böyük qəbahətdi? Gəzməyən adamı şəhərdə çıraqla axtarırlar. Çıxın şəhərətrafı restoranlara, kim kimlədi, bilmir.

Rəmalə:

— Görünür, sən özün də, arvadın da elədi, hə?

— Xanım, sən, vallah, qan-qan deyirsən. Bacı mənimdi, heç vaxt o ədəbsiz yol tutmaz. Ərinə, övladına ləkə gətirməz. Mən kasetə baxdım. O, mantajdı.

— Yox, mantaj deyil. Orijinaldı.

— Bilirsiz ki, bu saat kompyuter texnologiyası elə inkişaf eləyib ki, bunun başını onun bədəninə, onun da bədənini tamam başqasının başına calaq eləyir. Zeynəb qarı demişkən: "Baş kimin, dal kimin, onu da ayırmaq olmur". Ona görə də, şükür Allaha, qan düşməyib, adam ölməyib, gəldik sizi barışdıraq. Şərqiyyə qələt eləyir...

Nübar böyük həvəslə:

— Bəli! Asim düz deyir. Sözünüzdən belə çıxır ki, gedib Lütüş Lütüşovu, Salman Salmanovu vurub öldürək? Ayə, o müdirilə bir qələt eləyibsə, a Muxtar, düşün ki, arvadının xəstəsinin bolluğuna da şərait yaradıb.

— Hə... Necə deyərlər, əl əli yuyub, əl də üzü.

Nübar:

— Olsun lap sən deyən.

Səfiqulu:

— Ayə, həmişə imam üçün ağlayan köpəkoğlu bir dəfə də yezid üçün ağlasa, qiyamət qopar?

— Kişisən də.

Asim:

— Şübhə nəyə lazım? Gərək qanan qanmazı yola verə. Tutalım ayrıldınız... Sonra nə olacaq? Başlanacaq mülk-əmlak məsələsi. Ayə, bu, sizə lazımdı?

Rəmalə Muxtara:





— Ayə, qardaş, bayaqdan fikir verirəm, bu vəkil lap oğraşın yekəsindən imiş ki.

Nübar:

— A bala, Rəmalə, sən hüquqdan nə qanırsan? Görürsən, Asim qızıl xırdalayır. Hüququn tapdalanması, pozulması və dəyərləndirilməsi məsələsindən danışır. Sənsə, onu başa düşmürsən, deyirsən, biz özümüzümü öldürək?

Muxtar astadan:

— Nübar xanım, Şərqiyyəni sən doğmusan...

Səfiqulu:

— Nə demək istəyirsən, iyli-iyli danışma. Yoox... Mən doğmuşam!.. Mən də ağıllı köpəkoğlu deyiləm ha.

Rəmalə:

— Hiss eləyirəm, Səfiqulu kişi. Görünən dağa nə bələdçi? Bu adidən də adi bir həqiqətdi. Kişi, az kitab oxumusan. Mütaliə heç zaman gec deyil.

Muxtar:

— Kitab oxumaqla iş düzəlsəydi, dünyanın yarısı alim olardı... Şəriqiyyə Lütüşü, Salmanı yatağına salmazdı.

Asim:

— Ayə, a Muxtar, deyəsən, səndə namus-qeyrətdən əsər-əlamət yoxdu. Olsaydı, Şərqiyyənin Lütüşü, Salmanı yatağına salmasını dilinə gətirməzdin. Arvadınla münasibət saxlamağı bacarmırsan, kitab da oxumursan, onda tək-tənha çəkil dağlara, meşələrə, əsəblərini sakitləşdir. Ya da şəhərdə nə çox sauna, get çim, sinirlərini yumşalt.

Nübar oğlunun sözünə qüvvət verdi:

— Yoxsa, dəli olarsan.

Şərqiyyə atıldı:

— Dəli nəyə deyirsiniz?

Rəmalə sakit tərzdə dilləndi:

— Şərqiyyə, mənim sənə yazığım gəlir. Bilirsən niyə? Çün-

ki biz uşaqlıqda rəfiqə olmuşuq. Sirlərimiz bir olub. Əvvəllər belə deyildin. İndi tamam başqalaşmısan.

— Necə?

— Həyasızlaşmısan. Sıntarmısan. Neçə illər bir yastığa baş qoyduğun ərinə dəli deyirsən. Lütüşün, Salmanın ağuşlarına atılmağını dilinə gətirmirsən. Atanın, qardaşının boynuna oğraşlıq xurcununu keçirməkdən danışırsan. Qəribədi ki, onlar da sənin keçirdiyin xurcunu məmnuniyyətlə boyunlarına alırlar. Görünür, oğraşlıq, fahişəlik qanınızdadı... O bircə balana yazığın gəlmədi.

Araya bir anlığa sükut çökdü. Sonra Asim Səfiqulu ilə Nübarın üzünə baxdı və sakit tərzdə dilləndi:

— Bir halda ki, iş çıxdı bu mərhələyə... Bunlardan ailə olmaz. Bir xəta baş verər. Bütün şəhər məni qınayar... Hamı deyər: hörmətli vəkilin...

Muxtar dərhal:

— Hə... Hə... Tamamilə doğurdu. Sayılmayan paz pis nəticə verər.

Rəmalə:

— Bərəkallah... Bu da "cənab" vəkil.

Şərqiyyə:

— Ayrılmaq nəyə deyirsiz? Burda problemli ev-əmlak məsələsidi.

Muxtar dərhal:

— Orda da ciddi problem yoxdu. Üç otağımız var. Biri sənin, biri İlahənin, biri də mənim. Başqa sözün yoxdu ki?

Rəmalə:

— Şərqiyyə, yəqin unutmamısan. Bu evə cehiz kimi yalnız bir yorğan gətirdiyini. Arxayin ol, onu da qaytaracağıq sənə. Daha nə istəyirsən? Səndən canını qurtaran Allahdan bəla görməz... Get o Lutüş, o Salman, o da sən. Kefini pozma, Lütüş də, Salman da səni atsa, anan demişkən, elələrindən şəhərdə çoxdu.





Şərqiyyə:

— İlahə də mənimlə olacaq.

Muxtar:

— Xeyr, ona hüquq müstəvisində baxılacaq.

Asim:

— İlahə kiçikdi, ona görə də anaya düşür.

— Ana pozğundusa, ona azyaşlı uşağın tərbiyəsini etibar eləmək olarmı?

— Bəlkə məhkəmədə şalvarının cırığını da açıb göstərəsən?

— Siz özünüzünkünə yamaq vura bilərsiz... Açın qulağınızı eşidin, İlahə mənimlə qalacaq... Məhkəmədə, "cənab" vəkil, görüşənədək.

Hamı stuldan qalxdı. Şərqiyyə qabaqda, qalanlar da — Səfiqulu, Nübar və Asim də onun ardınca qapıdan çıxdılar.

Bərk əsəbiləşən Muxtar otaqda gəzişməyə başladı.

Rəmalə:

— Bu xatagün ailəni mən də tanımamışam — dedi və mətbəxə keçdi. Tələm-tələsik süfrə açdı. Muxtar: — İlahə, İlahə! — deyə qızını çağırdı. İlahə yan otaqdan atasının səsinə səs verdi:

— Gəlirəm.

— Gəl, qızım, gəl. Yemək hazırdı.

İlahə:

— Mənimlə görüşmədən anam da getdi?

— Hə...

— Ata, mən sizin danışdıqlarınızın hamısını eşitdim. Sənin evimizdə olmadığın axşamlarda anam Lütüş, Salman adlı kişiləri evə gətirirdi... Mənə "get yat" deyirdi. Bağışla məni, qorxduğum üçün onları sənə deyə bilmədim.

— Qorxma, qızım, biz həmişə birlikdə olacağıq, — dedi və gözləri dolan Muxtar qızcığazın saçlarından öpdü.

Rəmalə:

— İndi yeməyinizi yeyin. Bu barədə danışmağa ata-bala çox vaxtınız olacaq, mənim qızım.

## İş yerində

Bu neçə gündə halalca ev-eşiyindən qaçaq düşən, canını qoymağa yer tapa bilməyən Şərqiyyənin sanki düşüncələri də donurdu. O, hara gedəcəyini bilmirdi. İşin sonunda baş həkim Lütüş Lütüşovun kabinetinə getdi. İçəri keçən kimi özünə toxtaqlıq verə bilməyib ağlamağa başladı. Lütüş Lütüşov oturduğu yumşaq kürsüsündən qalxdı. Şərqiyyənin çiynindən tutdu, başını sinəsinə dirədi.

— Dayan... Ağlamağı yığışdır. Kabinetə girən olar... Ayıbdı... Hərə bir şey fikirləşər.

— Cəhənnəmə ki... Mənim evim, ailəm dağıldı. Uşağım yetim qaldı.

— Xanım, özünü ələ al. Mən sənə zor eləməmişəm ki? Hər şey öz razılığınla...

— Ayə, nə hırhıradan, nə də zırzıradan. Sənə deyirəm, məni bədbəxt elədin...

— Əşi, tək mən eləmədim ki... Bəs, Salman Salmanov? Bəs, sənin ağlın?

— Bilmirəm. Sən arvadınla...

— Nə?

— Boşanmalısan...

— Sən dəli olmusan?.. Mənim adım, sanım, gözəl ailəm...

— Bəs, mən nəyəm?

— Bilmirəm.

— Lütüş, gözlərimin içinə düz bax... Canın üçün səni görən gözlərindən, şirin canından eləyərəm. Tüpürüm sənə də, o gözəl ailənə də. Qələtə qurşananda bilmirdin, güman da eləmirdin





nə baş verə bilər?..

Lütüş çəkindi. Əvvəl nə deyəcəyini bilmədi. Handan-hana dili topuq vura-vura ancaq qəsdən dedi:

— Bu sözləri Salman Salmanova da demisən?

— Yox...

— Niyə?

— Onunla cəmi bir-iki dəfə...

— Qadası, səbr elə. Görək nə baş verir?

— Bundan sonra nə baş verəcək?

— Əşi, hər şey pulun başındadı. Lap gedib çıxsın məhkəməyə, — deyib Şərqiyyəni oğrun nəzərlərlə süzdü.

— Məhkəməyə pul verib özünü qurtaracaqsan, ya mənim ağzımı yumacaqsan?..

— Şərqiyyə, səbrsizlik təhlükənin astanasıdı.

— Boş-boş danışma, Lütüş... Pul verib məni dəlixanayamı, ya türməyəmi göndərtdirəcəksən? Sənə də, puluna da...

— Yoox... Muxtarı böhtançı kimi...

— A qanmaz, Muxtarın əlində çəkiliş kasetləri var. Sayını da özü bilir. O, kaseti məhkəməyə təqdim eləsə, məhkəmə sədri canının qorxusundan səni də ayaqlayacaq, məni də... Sən məhv olacaqsan... Bütün ölkə bizə çalınan dambıltıya əl vuracaq... Güvəndiyin pulların da dalına arvadın keçəcək. — Oğraş, — deyib səni evdən atacaq. Hətta valideynlərin, oğlun-qızın, arvadın göz yaşları içərisində səni lənətləyəcəklər. Bilirsən, bu, nə deməkdi? Camaat bizə nə ad qoyacaq?..

Lütüş fikrə getdi. Sonra astadan dedi:

— Nə ad qoya bilər ki?

— Anlamırsan?..

— Yoox...

— Mənə qəhbə, sənə oğraş.

Şərqiyyə özünü saxlaya bilməyib ağladı. Yanaqlarından süzülən yaş danələri çənəsinə doğru axmağa başladı. O, çantasın-

dan kiçik dəsmal çıxarıb gözlərinin yaşını sildi və alnını döyəclədi: deməli, namusumun tapdalanmasında, səadətimin itirilməsində özüm günahkaram, — deyə, sifəti gərildi. Bir anlığa özünü unutdu. Stolun üstündəki gül qabını götürüb qəflətən Lütüş Lütüşovun başına vurdu. Lütüş güclü küləyə tab gətirməyən şah budaqlı qovaq kimi yerə çırpıldı. Başı stolun qıçına dəyib yarıldı. Üz-gözü qanla doldu. Bu anda katibə içəri girdi. Baş həkimin al qana boyandığını görüb qışqırdı və otaqdan çıxdı. Həkimlər, tibb bacıları otağa doluşdular. Lütüşü ayağa qaldırdılar. Hərə bir tərəfdən baş həkimə yarınmağa çalışırdı. Ağ saçlı, yaşlı professor Lütüş Lütüşova yaxınlaşdı:

— Bu nə gündü düşmüsən, professor. Səni kim belə it gününə saldı?

Lütüş iti nəzərlərlə Şərqiyənin gözlərinin içinə baxdı. Şərqiyə kirpiklərini qırpıb açdı. Lütüş ufultulu səslə dedi:

— Nə it günü, professor. İş adam başına gələr də. Şərqiyə xanım şahiddi. Ürəyim sancdı. Qalxdım şkafdan dərman götürəm. Başım hərləndi. Zıppıltı ilə dəydim yerə. Onda başım stolun qıçını tutdu. Düşdüm bu günə.

Şöbə müdiri Ələmdar Ələmdarov soruşdu:

— Sənin ürəyin xəstədi ki?

— Bir balaca...

— Bu balaca iş döör, lap alahısındandı.

— Ürək ki, etibarsız oldu... Qeydinə qalmayıb gücə saldın... Onda sədaqətsizlik eləyəcək.

Elə bu vaxt xadimə əlində süpürgə, xəkəndaz içəri girdi. Baş həkimi al-qan içində gördü:

— Booy... Səni hansı it qızı, köpək oğlu belə elədi, Lütüşov?

Şərqiyyə dərhal:

— Başın girməyən yerə bədənini soxma... İçəri girən soruşur: "Kim elədi? Kim elədi?". Əşi, Allah eləyib də. Onu soruşmazlar ki?





Xadimə dərhal:

— Siz kabinetdən çıxın... Mən Lütüşün paramparça başına...

Hamı gülüşdü. Professor dedi:

— Əşi, Lütüşün başı pol taxtası deyil ey, toz-torpağını qaşıyasan, zibilini süpürəsən, sonra da şvabra ilə siləsən... Sən get işinlə məşğul ol. Özümüz kişinin başına bir çarə qılarıq...

Həmin gün Şərqiyyə: — Axmaq baş yiyəsinə donuz güddürər — dedi və işdən çıxma ərizəsini katibəyə verib tələm-tələsik xəstəxanadan çıxdı...

## Uşaq valideyndən çox cəmiyyətindi...

Aradan bir neçə gün keçsə də, Şərqiyyə İlahəni görmürdü. Ancaq qızı üçün bərk darıxırdı. İlahəylə aralarındakı söhbətləri hey xatırlayırdı. Xatırladıqca da yanıb-yaxılırdı. O, öz-özünə düşündü: "Mən niyə elə elədim? Özüm Muxtara xəyanət eləyə-eləyə aktrisalarla olan münasibətini niyə ona irad tutdum? Lütüşün, Salmanın gözləri çıxsın, məni yolumdan azdırdıqları yerdə. Onda, bəs, mənim ağlım harda idi? Yoox... Öz canımda it ehtirası olmasaydı, məni heç kəs yolumdan döndərə bilməzdi? Törətdiyim mərəkə açıq-açığına göstərdi ki, Muxtar məndən çox-çox ağıllıdı. Dərrakəlidi... Tədbirlidi. Muxtar kimdən yaraşıqsızdı ki? Ailə qurduğumuzun ilk üç-dörd ili ərzində o mənə çox güvənirdi. Bir dəfə də olsun inamımı qırmağa təşəbbüs göstərməzdi. Ağzından yalan söz çıxarmazdı. Çalışardı ki, daim mənim etimadımı doğrultsun. Mən onu dəyərləndirə bilmədim. Əxlaqsız hərəkətlərimlə, xəyanətimlə özümü necə də onun gözündən saldım... O, mənə qarşı heç vaxt zor işlətmədi. Mənə, sadəcə, hörmət eləyərdi. Ləyaqətimi, dəyərsiz şəxsiyyətimi dəyərləndirərdi. Zərrə qədər nüfuzumu alçaltmazdı. Əksinə, məni dağlara qaldırmağa çalışardı. Mən çox qəbahətə yol verdim, şıl-

taqlıq elədim. İpə-sapa yatmadım. O, mənim uydurmalarıma dözdü. Mənim bütün davranış və söhbətlərimdə ədalət axtarardı. Mən ədaləti qəsddən tapdalamağa cəhdlər göstərəndə, o, mənim üzümə soyuq, donuq nəzərlərlə baxardı. Qəribə idi, onda da mən şiddət və nifrətlə düz onun gözlərinin içinə baxardım. Bəzən də o, mənə "çox çətin adamsan" deyərdi. Bu ad xoşuma gəlməsə də, vecimə də almazdım... O, düz gözlərimin içinə baxıb mənə "utan", "xəcalət çək elədiklərindən", "ictimai rəydən qorx, Şərqiyyə", "abır-həyanı gözlə, axı, sən həkimsən"... deyərdi. Mən isə nəticə çıxarmaq əvəzinə, onu günahı-filanı olmasa da, söz atəşinə tutardım. Hətta yersiz töhmətə, təhqirə itaətkarcasına dözərdi... O, heç kəsə bel bağlamırdı. İnsanların şərəşur, yaramaz, yaltaq, yalan... münasibətlərilə qarşılaşanda ümidsizliyə qapılmağı da vardı.

Qarşısına çıxan ehtimalları götür-qoy eləməyi, hər şeyə məntiqlə, təcrübəyə əsaslanmaqla cavab verməyi xoşlayardı. Onun aləmində ümidsiz, inamsız yaşamaq olmazdı.

Şərqiyyə başı üzərindəki səmaya baxdı. Ağ, topa-topa buludlar lay-lay uçuşur, dərin yarğanlar yaradırdı. O, dərindən nəfəs aldı: buludların səmada açdığı yarğan necə də qəlbimlə həmahəngdi. İlk baxışdan da zabitəli, vicdanlı adam təsiri bağışlayan Muxtar emosional duyğularının ağuşunda hər cür hərəkət eləməyi, hissə qapılmağı sevməzdi. O, ayıq başla, soyuqqanlıqla davranmağın, şüurlu fəaliyyət göstərməyin tərəfində idi. Bir sözlə, şayiələrə uymaq, hər deyilənə inanmaq onun təbiətinə yad idi. O, özünə, əqidəsinə və şəxsi inamına üstünlük verərdi. O, sözün həqiqi mənasında poetik düşüncə sahibi idi. Bədii sözün vurğunu idi. Fəlsəfəni, musiqini, rəssamlığı çox sevirdi. Bütün günü bədii əsərlər içərisində eşələnir, səhnə həlli mümkün olanların üzərində işləyirdi. O, hər bir hərəkətində özünə qarşı tələbkar idi. Hər işdə məntiq axtaran Muxtar bir qədər xəyalpərəst, daha doğrusu, romantik idi. O, daim "Nə qədər çox





danışsan, o qədər səhvə yol verərsən" prinsipinə əsaslanırdı. Çox qəribə idi. "Yüz ölçüb, bir biçmədən", qəti qənaətə gəlmədən danışmazdı. Qısa və konkret danışığı sevərdi...

Şərqiyyə daxilən özünü didib-parçalayırdı. Hara gedəcəyini, nə iş görəcəyini bilmirdi. Anlayırdı ki, ata-anasına da söz deməyin mənası yoxdu. Onlar da uzaqbaşı: — Səhv özünündü, çək cəzanı, — deyəcəkdilər. Tutalım, onlar Rəmalə ilə söhbətə oturdular. Yenə: — Şərqiyyəni bağışla, — dedilər. Onda Muxtarla Rəmalə cin atına minməyəcəklər ki? Yenə "Durun basın bayıra" tələbini qarşılarında qoymayacaqlar ki?.. Belə getsə, ağılsızlığım ucbatından Muxtar İlahəni də məndən uzaqlaşdıracaq. Qaldı Asimin münasibətinə. Başından böyük danışmağı var. Heç bir hüquqi biliyi olmadığı halda sinəsini qabardıb boş-boş öyünməyi var. Mən "vəkiləm" deyib dərisinə sığmır. Sanki böyük kəşflər eləyib. Özünü gülünc vəziyyətə salması lap ətimi tökür. Qardaşım da olsa, əcəb adamdı. Qal qaldırmaq, iş pozmaq üçün doğulub. O, "mən vəkiləm" deyəndə Muxtarı da, Rəmaləni də od götürür. Necə deyim ki, ona, aya, o əcaib sözünü yığışdır, ətimi tökmə, məni əritmə. Yox... Muxtarın qəlbini, Rəmalənin ürəyini təkcə İlahə yumşalda bilər... Yeganə qüvvə İlahədi... Onun boy-buxununa qurban olum. Gedib-gələn nəfəsim, ürəyim, canım-ciyərim, görən gözlərim, İlahəm...

Mənəvi iztirabları Şərqiyyəni hər gün yorub əldən salırdı. O, susurdu. Daha kimə gəldi doğrayıb tökmürdü. Əslində, onun nə fiziki gücü, nə mənəvi taqəti, nə də həvəsi vardı. Buna baxmayaraq, qəribə bir hal keçirirdi və onu vaxtaşırı gözlənilməz hissiyyat bürüyürdü. O, özünü məzəmmət eləməyə başladı: "Mən cinayətkaram; mənəviyyat qəssabıyam; vicdanım ləkəlidi; özüm namusuma tüpürdüm; gör nə günlərə qaldım ki, bundan sonra heç kəsin üzünə baxa, yanında əvvəlkitək dil-dil ötə bilməyəcəyəm, başqa sözlə, gözüqıpıq olacağam. Bundan doğmaca qızım da əzab çəkəcək..."

O beləcə içində danışa-danışa hiss etdi ki, İlahənin oxuduğu orta məktəbin qarşısındadı. Rəmalə isə onu kənardan diqqətlə seyr eləyir. Əlacsız qalan Şərqiyyə Rəmaləyə yaxınlaşdı:

— Sən də İlahənimi gözləyirsən?

— Hə... Hələ ki, onu atası mənə tapşırıb.

— Bilirəm...

— Sən niyə gəlmisən, Şərqiyyə?

— Balamı görmək üçün. Bəyəm, onu görə bilmərəm?

— Görə bilərsən. İlahə ilə görüşməyi sənə qadağan eləyən də yoxdu. Ancaq...

— Nə ancaq?

— Sən İlahəni mənən itirmisən.

— Düz demirsən, Şərqiyyə. O, indi kiçikdir. Çox şeyi anlamır.

— Sənin elədiklərindən xəbər tutduqca, o, əriyəcək. Gülsə də, içi daim ağlayacaq. İstər məndən inci, istər incimə, sən əclaf qadın, alçaq anasan... Sən Muxtarı da məhv elədin, özünü də.

Şərqiyyənin hissləri getdikcə çılğınlaşırdı. Sanki kürəyi qovuşurdu. Əlləri, dizləri əsirdi... Nəyə görəsə inadkarlıq eləmək istədi:

— Bu nə sözdü, mənə deyirsən, Rəmalə? — deyə qışqırdı.

Rəmalə astadan dedi:

— Bilirəm, əsəblərin pozulub. Onsuz da lap əvvəldən qışqırmağı sevirsən. Bu yaxşı hal deyil, kobudluq əlamətidi. Düşmənçilik hisslərini özündə saxla. Qızının ardınca gəlmisən, heç olmasa, onu nəzərə al.

Şərqiyyə bir az da əsəbiləşdi:

— Mız-mıza eləməyə adətlisən. Kim nə deyir-desin, mən beləyəm.

Rəmalə istehza ilə:

— Ağzını büzmə, o sənin gözəlliyinə xələl gətirir. Ədəb-ərkanın da, nəsil-nəcabətinin də, doğma qızın İlahənin də qiyməti





var. Qanırsan, mənim nə dediyimi? Bir dəfə qışqıranda əvvəl deyirlər: əsəbidi, ikincidə, başı xarabdı, üçüncüdə isə dəlixanalıqdı. Sonrası da o söz...

— Nə söz?

— Çirkabın çirkabı... Yaxşı nə varsa, Allahın, pis nə varsa, şeytanın adına yazılır. İnsan isə hər gün bir don geyinir. Ona görə də insanlara inanmaq olmur. Necə də inanasan? İndiyə qədər qazandıqlarını itirdin, Şərqiyyə. Çalış bundan sonrakı günlərinə ağlayasan. Günahı özgədə axtarma. Axtarsan, yeni-yeni bəlalara düçar olacaqsan. Təhlükə ilə üzləşəcəksən.

— Rəmalə, mənə ironiyalı söz demə. Çox təkəbbürlü görünürsən. Doğrudu, lovğalıq adamı sağlamlaşdırır. Bu şərtlə ki, ifrata varmayasan... Həddi aşmayasan.

— Onda ehtiyatı əldən vermə, Şəqiyyə. Çalış, bir də kök altına düşmə. Yenə həddini aşarsan.

— Xırdalanırsan, Rəmalə.

— Xırda zənn etdiyin təəssüratlardan həngamələr yaranır.

— Fikrini səlis ifadə eləyirsən. Görünür, müəllimin çox güclü olub, Rəmalə.

Rəmalə Şərqiyyənin nə demək istədiyini başa düşdü və qəhqəhə çəkdi:

— Aydındı. Çox ayıqsan... Demək istəyirsən ki, nitqim formaca yaxşı, ancaq məzmunca qüsurludu. Həyatda ideal adam yoxdu. Mənim də qüsurlarım çoxdu. Allahıma şükür eləyirəm ki, hamısının bağışlanması mümkündü.

— Bilirəm. Dediklərinlə məni təəccübləndirmək istəyirsən. Təəccübləndirməkdən vaz keç. Zəhmətin hədər gedəcək. Bilirsən niyə? İndiki zəmanədə gərək dələduz olasan. Xəyanət eləməyi bacarasan. Həyat şirindi, ancaq zəhəri olmaya.

— Xəyanət! Xəyanət! Bacı-qardaş ağzınızda xəyanət bitib!

— Heç xəyanət eləməmisən? Yekəxanalıqdan zəhləm gedir, çünki həyatı zəhərləyənlər yekəxanalardı!

— Sadə, ağıllı adamda nə zəhər?

— Mən baldızın kimi, sənə həmişə hörmətlə yanaşmışam. Sən istəsən, Muxtarla məni barışdıra bilərsən.

— Mənə böyük dəyər verdiyin üçün təşəkkür eləyirəm. Məni şəstlə tərifləməkdə məqsədin nədi? Məni tısbağatək qınımdan çıxarırsan. Bəlkə məni dolayırsan?

— Yaxşı, sən mənim bütün heysiyyatımı ayaqlarının altına alıb tapdalamaq fikrindəsən?

— Qardaşıma xəyanət eləyəndə bu günkü peşmançılığın barədə niyə düşünmədin? Bu mədhiyyələrinin özünü də, məni də alçaltdığını bilirsənmi?

Elə bu vaxt İlahə məktəbin qapısından çıxdı. O, arxasında çanta, yaşıdlarından ayrılaraq Rəmalə tərəfə qaçdı və bibisinə çataçatda anasını gördü. Dərhal səmtini dəyişdi, ona tərəf qaçdı.. Ana-bala qucaqlaşdılar. Rəmalə məyusluq hissi keçirməyə başladı. Bunu kənardan baxan hər adam sezə bilərdi. Şərqiyyə:

— Mənim balam... Mənim qızım. Atan alçaq məni səndən ayırdı.

İlahə:

— O gün siz babamla, nənəmlə, atamla danışanda, mən hər şeyi eşitdim. Atam düz deyirdi.

— Atan nəyi düz deyirdi?

— Gecə evə başqa kişilər gətirməyini.

— Bu nə söhbətdi. Atan yalan danışırdı. Mənə böhtan atırdı.

— Yoox... Yalan danışmırdı. O kişiləri mən də görmüşəm.

— Kəs səsini, axmaq. Atanın balasısan... Dilini yığışdır. Bir də çərənləsən, gözlərini çıxararam.

— Mən olanı deyirəm.

Şərqiyyə qızının üzünə sillə vurdu. Rəmalə dərhal Şərqiyyəyə döndü:

— Yığışdır özünü. Hami sənə baxır, həyasız. Mən sənə imkan vermərəm ki, balaca uşağa əl qaldırasan.





— Uşağımla mənim üzərimdə səni nəzarətçi qoyublar? Uşağı mən doğmuşam, nə sən, nə də Muxtar doğub.

— Səsini başını atma. Muxtarın da adını çəkmə.

— Uşaq mənimdi, özüm bilərəm.

— Xeyr, düz demirsən. Doğrudu, uşağı sən doğmusan. Ancaq İlahə səndən də, Muxtardan da çox içərisində yaşadığı cəmiyyətin övladıdı.

— Bu də təzə çıxdı?

— Yoox... Bir də əl qaldırsan İlahəyə, səni məhkəməyə verəcəyəm. Elədiyin cinayətə görə məhkəmə səni cəzalandıracaq. Onda anlarsan ki, doğduğun sənindi, yoxsa, cəmiyyətin.

Rəmalə üzünü İlahəyə tutaraq dedi:

— Qızım, indi ananla qalırsan, yoxsa, mənimlə gedirsən...

— Səninlə gedirəm, bibi. Həmişə anam məni vurur. Danlayır, söyür...

— Onda getdik.

İlahə ilə Rəmalə üz çevirib küçəni keçdilər. Şərqiyyə onların ardınca, hirslə, qəzəblə baxdı... baxdı. Sonra: — Çək cəzanı Şərqiyyə, — deyib, o da üz çevirib yoluna düzəldi.

## İşvəkarlığın köləsi

Şərqiyyə teatra gələndə keçən axşamdan gur yağmağa başlayan yağış kəsmək üzrəydi. Hərdənbir səpən xırda seyrək damcılar adamın üst-başını isladırdı. Hər tərəfdə kiçik gölməcələr vardı. Şərqiyyə ayağını hara basacağını bilmirdi. Yanından sürətlə ötən maşınlar gölməcələrin suyunu onun üstünə sıçradırdı. Bəzən dayaz təsəvvür elədiyi gölməçələrdəki çirkli, liqablı su da ayağını qoyan kimi ayaqqabısına dolurdu... Əlacsız qalıb hərdən gölməçələrin üstən tullanırdı. Onda da müvazinətini saxlaya

bilməyib bir başqasına düşürdü. Üst-başı batırdı. Əsəbiləşirdi. Gah özünü, gah da Lütüşü söyürdü. Hərdənbir də Muxtarın qarasına donquldanırdı. İnsafən, düşünürdü ki, ayağısürüşkənlikdə, evə kişi gətirməkdə bircə günahkar varsa, o da özüdü. Sadəcə olaraq, elədiyi səhvlər ağılsızlığının nəticəsidi. Düşünə-düşünə beləcə yol gələn Şərqiyyə teatrın qapısını döyəclədi. Cavan xanım içəridən qapını açdı. Şərqiyyə dərhal dilləndi:

— Xanım, mən rejissor Muxtarı görmək istəyirəm.

— Yeni tamaşaya ilkin baxış keçirilir.

— Mən onun xanımıyam.

— Hə... Belə deyin də. Keçin içəri... Zaldadılar...

— Zala gedə bilərəmmi?

— Hə... Bir halda ki, Muxtar müəllimin...

Şərqiyyə içəri keçib foyedə qoyulan güzgünün qarşısına gəldi. Üz-gözünün, paltarlarının qaydada olub-olmamasını yoxladı. Sonra ağır-ağır ikinci mərtəbəyə qalxıb zala girdi. Səhnədə Ağarəhimin "Məhəbbət və cinayət" tamaşasına baxış keçirilirdi. Yüksək səviyyədə qurulan səhnədə aktyorlar böyük sənətkarlıq göstərir, hər biri ifa elədiyi obrazın daxili aləminin xarakterini açmağa çalışır, fantaziyasını, həyata baxışlarını nümayiş etdirirdi. Şərqiyyə qabaq cərgələrdən birində əyləşib tamaşanı seyr eləməli oldu. Hadisələrin gedişi, süjetlərin mükəmməlliyi, bir epizoddan digərinə keçidlər elə qurulmuşdu ki, tamaşaçı onlara biganə qala bilmirdi. Maraqlı orasıydı ki, Şərqiyyə Tükəzlə özü, Şərbətlə Lütüş Lütüşov, Salman Salmanov, Çərkəzlə Muxtar... arasında bir oxşarlıq, eynilik duydu. Ona elə gəldi ki, əsərdə təsvir olunan Çərkəzlə Türkəz konflikti eynən Muxtarla özü arasında baş verən hadisələrdi. Qəribədi, ona elə gəldi ki, özü də, Muxtar da səhnədədilər, onların canlı obrazlarını, yaşadıqları həyatı aktyor və aktrisalar böyük vəchlə yaradırlar... Şərqiyyə ayıq idi, müqayisələr aparmağı, insani münasibətləri dəyərləndirməyi bacarırdı... Özünü Tükəzin simasında gördükdə sıxılır,





nəfəsi daralır və bəzən özünü məzəmmətləyirdi, peşmançılıq hissi keçirirdi. Qeyri-ixtiyari Şərqiyyənin dodaqları arasından pıçıltı qopdu: "Mənim eyş-işrət düşkünü, işvəkar Tükəzdən nəyim artıqdı ki? Ötəri, çılğın ehtiraslarımızı bir anlığa söndürmək xatirinə hər ikimiz ailəmizi dağıtdıq, övladımızın taleyinə qara çadradan don biçdik... Bizə "ana" demək olarmı? Yox. Elə isə mənim adım nədi? "İfritə", "İşvələr köləsi". Hər halda, onlar da yaşadığımız həyatın iç üzüdü... Səhnə işıqların təsirilə getdikcə cazibədarlaşırdı. Aktyorlar həvəslənir, obrazların keçirdiyi hissləri, həyəcanları özününküləşdirirdilər. Muxtar isə növbəti tamaşa üçün aktyorlara verəcəyi məsləhət və tövsiyələri müəyyənləşdirir, götür-qoy eləyirdi... Muxtar əvvəl-əvvəl Şərqiyyənin gəlişini görmədi. Yana çevriləndə, Şərqiyyənin yanakı oturaraq ona baxdığını hiss elədi.

Heç kəsə bir söz deməsə də bərk əsəbiləşdi. Onu qorxudan, hər şeydən əvvəl, ictimai düşüncə, ətrafdakıların ölçüyəgəlməz dərəcədə onun nüfuzuna göstərəcəyi öldürücü münasibəti idi. Azad fikirli bu adam ləyaqətini itirmiş, xəyanətkar, işvəkar bir qadının əməlləri qarşısında müc olurdu...

O, tamaşaya baxırdı. Gülürdü, danışırdı, ancaq fikri-zikri Şərqiyyənin yanında idi. Tamaşadan sonra onunla necə danışacağı barədə düşünürdü. O, daxilən götür-qoy elədi: "Şərqiyyə aktyorlar arasında qəsdən onu biabır eləməyəcək ki? Onu sındırmağa təşəbbüs göstərməyəcək ki? Elə olsa, mən nə etməliyəm? Ona tutarlı cavabmı verməliyəm? Onsuz da nəyə qadir olduğunu ona xatırlatmışam. Bəlkə onu heç qəbul etməyim? Yox... gəlibsə, o, sözünü deyəcək. Onu eşitmək istəməmək, ona cavab verməmək daha hay-qışqırıqlı, daha söz-söhbətli olar. Bircə yolum var. Onu səssiz-səmirsiz qəbul eləmək. Axıra qədər dinləmək. Sinirlərini coşdurmamaq. Onsuz da o, hər şeyini itirib. Özünə bəraət qazandırmaq istəyir. Onu da bacarmır. Bacarmayacaq da. Ədalət də, haqq da, faktlar da mənim tərəfimdədi. Etiraf eləyim

ki, mən heç də dediklərimlə qürrələnmək, fəxr eləmək istəmirəm. O fikirdə də bulunmuram. Axı, necə də buluna bilərəm? O, pis-yaxşı, qadındı. Özü də mənim qadınım. Yeganə qızım İlahənin anasıdı... Neçə illər bir yastığa baş qoymuşuq. Can deyib-can eşidən günlərimiz olub. Doğrudu, mənə əzab verdiyi günlər, aylar hədsiz olub. İllərlə məni iztirablar burulğanında boğub. Acıq, hirs, qəzəb gətirən, qəm, kədər doğuran söz-söhbətlərimiz saysız-hesabsızdı. Xəyanəti də dilə gətiriləsi, ağıza alınası deyil. Axırı necə oldusa... Aramızda kiçik təpələr yox, nəhəng dağlar var. Çaylar, kiçik göllər yox, nəhayətsiz dəryalar var... Və getdikcə bir-birimizdən uzaqlaşırıq, yadlaşırıq... Nə olur-olsun. Gəlibsə, danışmalıyıq. Hər kəs öz adına, əxlaqi-mənəvi düşünsəsinə görə..."

Fikirləşdikcə, Muxtarı kədər bürüdüyündən elə bil, o, qəribə və məşum duyğuların ağuşunda çabalayırdı. Bəzən də bilmirdi ki, başını götürüb teatr zalından hara qaçsın. Onu da anlayırdı ki, tamaşaya baxış uzandıqca, Şərqiyyə əsəbiləşir, təngə gəlir, az qalır zaldan qışqıra: qurtar bu baxışı, nədi düşük-düşük elədiyin mənasız mərəkə; sən bu hərəkətlərinlə məni bezdirirsən; belə saymazyana hərəkətlərinlə, min bir bəhanəylə fasiləni ləngitmələrini; neçə gündə məni min bir əzablara qatlaşdırmalarını. Bu əndazəsiz hərəkətlərinlə mənə acıq-gicikmi verirsən, "ədəb-ərkan" Muxtar?..

Muxtar birgə yaşadıqları illər ərzində onu da yəqin eləmişdi ki, Şərqiyyə tutduğu işlərin insanlığa nə qədər sığışmadığını və çirkinliyini görə bilmirdi. Həkim olsa da, xarakterində incəlik, xeyirxahlıq qəhətə çıxmışdı. Addımbaşı kədər doğuran uğursuzluqlarla üzləşirdi: yersiz danışıb-gülməsi, özündən müştəbehliyi; dostu ilə düşmənini tanımaması; sirrini kimə gəldi açması; paxıllığı; qeybəti; kobud, jarqon söz və ifadələr işlətməsi; səhvini boynuna alıb nəinki etiraf etməməsi, hətta özünə və sözünə yersiz haqq qazandırması; tez təsir altına düşməsi; dedi-qodu yaratması; eyhamlı danışıqları; xoşuna gələn kişilərə göz-qaş oynatması; kimə gəldi əzilib-büzülmələri... Hansını dilinə gətirəsən? Doğrudu, onun bəzi müsbət cəhətləri də vardı: əliaçıqlığı; ürəyiyumşaqlığı; qənaətcilliyi; sözü üzə deməsi; ayıqlığı, yeri gələndə adamlara güzəştə getməsi; sözə çevik münasibəti; gördüyü işlərə görə təmənnasız olması; kimdənsə təşəkkür ummaması; karyera haqqında düşünməyin ağlına da gəlməməsi; gözlənilməz hərəkətləri adamlarda hərdən özü barədə qəribə fikirlər oyadırdı...

Tamaşaya ilk baxış qurtardı. Tamaşaçılarla aktyorlar Muxtarı alqışlarla səhnəyə dəvət elədilər. Muxtarın üzü gülsə də içi göynəyirdi. O, axır ki, tamaşaçılarla xudafizləşib zala düşdü. Şərqiyyəyə adamüzünə salam verdi:

— Mənə sözün varmı?

Şərqiyyə qaşqabaqlı halda cavab verdi:

— Bəli!.. Sən olmasan, mənim burda nə itim azıb?

Muxtar kinayəni başadüşməzliyə vurdu:

— İşim çoxdu. Başımı qaşımağa macal tapmıram. Kağız-kuğuz içindəyəm, ortaya da bir şey çıxmır.

Elə bu vaxt orta yaşlı aktrisa Günel Şərqiyyəyə gülümsəyərək dedi:

— Xanım, salam.

— Salam.

— Allah sənə çox böyük bəxt qismət eləyib. Muxtarı sənə əmanət verib. Ondan muğayat ol. O, həm bir insan, həm də sənətkar kimi çox böyükdü.

Elə bu vaxt gənc aktrisa Elcanə onlara yan aldı:

— Şərqiyyə xanım, vallah, xoşbəxtsiz. Muxtar müəllimin ürəyinin genişliyi hamını...

Şərqiyyə saymazyana:

— Hə... Ona görə də...

Muxtar Şərqiyyənin nə demək istədiyini anladı. Ancaq açıb-

ağartmadı. Şərqiyyə sözünə mızıldamaqla davam elədi:

— Arsız-arsız yaxınlaşıb atmacalarla məni sancanlara bax... Görünür, hələ məni tanımırlar. Tanısalar, sərtliyimi, codluğumu... bilsələr, addımlarını götür-qoy eləyərlər. Ağızlarına gələni danışıb köhnə palan içi tökməzlər...

Muxtar yenə susmağa üstünlük vermək istədi, ancaq bacarmadı:

— Kəşfiyyata gəlmisən? Təzə söz qopartmaq fikrindəsən?

Şərqiyyə hirslə Muxtarın gözlərinin içinə baxdı. Hökmlə, ancaq astadan, kimsə eşitməyəcək bir tərzdə:

— Necə fikirləşirsən? Camaatın arasında abrını alım, yoxsa ikilikdə?

— Mənim iş yerimə ayaq basmısansa, deməli, hər ikisi mümkündü. Necə istəyirsən, elə də elə...

— Onda, gedək kabinetə.

Muxtarla Şərqiyyə kabinetə getdilər. Kabinet dar və səliqəsiz idi. Ancaq otağın tavanı hündür, içərisi işıqlı idi. Neçə gün əvvəl güldana qoyulmuş güllərin ləçəkləri solub tökülürdü. Hətta döşəməyə düşənləri də vardı.

Şərqiyyə dedi:

— Kabinetinə əl gəzdirmək üçün yüngül xərc lazımdı.

— Pul var?.. Elə bilirsən, yel əsib, qoz tökülüb?

— Həmişə ağlamısan...

— Xeyr... Düz demirsən... Uzatmayaq, mətləbə keçsək yaxşıdı.

— Muxtar, bu nə oyundu mənim başıma açdın? Məni qonşular arasında da, ailədə də biabır elədin. O gün Rəmalə də mənə moizə oxudu. Güya, İlahə mənim yox, cəmiyyətin övladıdı.

— Rəmalə düz deyib. Uşaq hində saxlanılan toyuq deyil ki, istədiyin vaxt kəsib dişlərinin altına qoyasan. Onunla razılaşmamağına səbəb idrakındakı məhdudluqdu.

— Məni az təhqir elə...





— Həqiqəti üzə demək insanı təhqir yox, islah eləməkdi.

— Mən gəldim sənə deyim: uşaq yazıqdı. O, bizim çılğın hisslərimiz arasında məhv ola bilər. Hər şey arxada qaldı. Gəl barışaq...

— Nə? Başına gələnlərdən heç nəticə çıxarmamısan?.. Xəyanətdən sonra belə üzbəüz əyləşib mənimlə danışmaq cəhdin də, istəyirəm biləsən, məni mənən zorlamağa təşəbbüsdü. Adama neçə dəfə...

— Deməli, söhbətimiz baş tutmur... Mən bu gün gedib nikahımızın pozulması barədə məhkəməyə ərizə verəcəyəm.

— Bizim nikahımız sən mənə xəyanət eləyəndə pozulub. Bundan sonrakı addımlarımız, ancaq onu rəsmiləşdirməyə xidmət eləyir. Mən də ərizə yazmağa hazırlaşıram. Mübahisəli məsələ varsa, onu məhkəmə həll eləyər.

Danışmağa lüzum görməyən Şərqiyyə qalxıb iti addımlarla kabinetdən çıxdı.

## Məhkəmənin qərarı

Tərəflərin — Əlişanova Şərqiyyə Səfiqulu qızı ilə Əlişanov Muxtar Əsəd oğlunun iddiaları ilə bağlı məhkəmə prosesi işə başladı. Məhkəmə üzvləri, iddiaçılar və vəkillər öz yerlərini tutdular. Sədr sözə başladı:

— Nəzərinizə çatdırım ki, birinci iddiaçı Əlişanova Şərqiyyə Səfiqulu qızı ərizəsində üç iddia qaldırır: birincisi, onunla bağlanan nikahın etibarsızlığının təmin olunması; ikincisi, üç otaqlı mənzildən birinin ona verilməsi; üçüncüsü isə, yeddi yaşlı qızı İlahənin onun himayəsində saxlanılması... İkinci iddiaçı Əlişanov Muxtar Əsəd oğlu nikahın qüvvədən düşməsini və uşağın onun himayəsində qalmasını iddia eləyir... Odur ki, ilk söz birinci iddiaçıya verilir.

Şərqiyyə:

— Möhtərəm hakim! Mən Əlişanova Şərqiyyə Səfiqulu qızı səkkiz ildir ki, Əlişanov Muxtar Əsəd oğlu ilə nikahdayıq. Sevərək evlənmişik. Dörd il mehriban, hörmət və izzətlə yaşadıq. Hazırda yeddi yaşlı İlahə adlı bir qızımız var. Dördüncü ilə keçəndən əvvəllər xırda-xırda narazılıqlarımız başlandı. Getdikcə bu narazılıqlar şişdi, böyüdü və nəhayət, dözülməz həddə çatdı. Mən həkiməm. Hiss eləyirəm ki, birgəyaşayışımız alınmır. Münasibətlərimiz getdikcə daha da korlanır. Belə davam eləsə, düşünürəm ki, vəziyyət arzuolunmaz həddə çata bilər. Neçə aylardı ayrıyıq. Mən ata-anamın yanında qalıram... Orda qalıb yaşamam mümkün deyil. Doğma balama həsrətəm. Ona görə də iddia qaldırmışam: nikahımızı etibarsız sanasınız, mülki yarı böləsiniz və qızım İlahəni mənim himayəmə verəsiniz...

Sədr:

— Başqa iddian yoxdu ki?

— Xeyr...

— Elə isə söz birinci iddiaçının vəkilinə verilir.

Şərqiyyənin vəkili:

— Möhtərəm hakim! Şərqiyyə xanım ağıllı, hazırlıqlı, nəzakətli... qadındı. Özünün dediyi kimi, həkimdi. Neçə-neçə xəstəyə şəfa əlini uzadıb. Olduqca humanistdi.

Sədr:

— Keç mətləbə. Məhkəmə iddiaçının ağlını dəyərləndirmir. İddiaya baxır.

Şərqiyyənin vəkili:

— Bu xanım hər gün əri tərəfindən zorakılıqlara məruz qalır. Əri onu yersiz təhqir eləyir, qısqanır. Hədələyir. Yersiz qadağalar qoyur. Uşağını əlindən alaraq evdən çıxarıb. Onu qonşular arasında nüfuzdan salmağa çalışır. Neçə vaxtdı, Şərqiyyə evindən uzaq düşüb. Əri onun hüquqlarını pozur... Onların birlikdə yaşaması mümkün deyil.





Sədr:

— Əyləşin. İndi də söz ikinci iddiaçıya — Əlişanov Muxtar Əsəd oğluna verilir. Buyurun, iddiaçı...

İkinci iddiaçının vəkili pıçıltılı səslə:

— Əsəbiləşmə. İşləri korlayarsan. Sakitcə münasibətini bildir.

Muxtar:

— Hörmətli sədr! Mən rejissoram. İş yerim teatrdı. Şərqiyyə xanımın dediklərilə əsasən razıyam. O, çıxışında o qədər də şişirtmələrə yol vermədi. Vaxtı ilə qadınım olduğuna görə ona indi də hörmətim var, böyük sayğı bəsləyirəm. Sabah da ona qayğı ilə, səmimiyyət və nəzakətlə yanaşacağam. Çünki o mənim qızım İlahənin anasıdı. Ancaq hamı şahid oldu ki, hörmətli vəkil Şərqiyyə xanımla mənim aramda heç vaxt olmayan, iftira xarakterli qaragüruh söz və ifadələr işlədir. Bu qızışdırıcı münasibət məhkəmənin gedişinə təsir göstərmək, onu tutduğu ədalət və haqq yolundan açıq-açığına sapdırmaqdı. Vəkil dediklərini sübut etməlidi.

Şərqiyyənin vəkili icazəsiz ayağa qalxaraq:

— Mən nəyi sübut eləməliyəm? Həqiqəti deməmimi? Yalan danışmamamımı?

Sədr Şərqiyyənin vəkilinə:

— İddiaçının danışığını saxlayıb onu çaşdırmağa səy göstərmə. Əyləş... İddiaçı, siz davam eləyin.

Muxtar dedi:

— Mən də nikahımızın qüvvədən düşməsini, hörmətli hakim, sizdən xahiş eləyirəm. Üç mənzilli evimiz var. Biri Şərqiyyə xanımın, ikincisi qızımız İlahənin, üçüncüsü də mənim. Burda heç bir problem yoxdu. Qaldı İlahənin Şərqiyyənin himayəsinə verilməsinə, mən ona qəti etiraz eləyirəm. Onun üçün də əlimdə tutarlı dəlillərim var.

Sədr:

— Əyləşin, iddiaçı. İndi də söz ikinci iddiaçının vəkilinə verilir.

Muxtarın vəkili ağır-ağır ayağa qalxdı:

— Şərqiyyə xanım, indiyə qədər Muxtarın sizi döyməsi, təhqir etməsi, evdən çıxarması olubmu, olubsa, hara şikayət eləmisiniz?

Şərqiyyə çaşqın halda:

— Yoox... Aramızda elə bir ciddi ixtilaf olmayıb.

Muxtarın vəkili məhkəmənin katibinə üzünü tutdu:

— Xahiş eləyirəm, cavabı qeyd eləyəsiniz.

İkinci sual:

— Bundan əvvəl də evinizi tərk eləyib getmisizmi?

Şərqiyyə:

— Xeyr.

Muxtarın vəkili:

— Xahiş eləyirəm, bunu da qeydə alasınız... Bu dəfə sizi evdən əriniz çıxarıb, yoxsa özünüz getmisiniz?

Şərqiyyə susdu.

Muxtarın vəkili:

— Danışın, xanım. Susmayın. Susmanız xatırladım ki, mənim sözümü təsdiq eləməkdi. Unutmayın ki, evdən çıxandan sonra Muxtarın bacısı, baldızın Rəmalə xanımın sənin anan Nübarla və xəstəxananın baş həkimi Lütüş Lütüşovla telefon danışıqları olub. Sən həmin axşam Lütüş Lütüşovun yanında olmusan. Düzdümü?

Şərqiyyə susdu.

Muxtarın vəkili:

— Sualıma cavab verin. Hə, yox... Unutmayın ki, telefon danışıqları əlimizdədi. Lent yazıları məhkəmə işinə daxil ediləcək.

Şərqiyyə titrəyə-tirtəyə dedi:

— Cənab vəkil, mən anayam. Ona görə də iddia qaldırmı-





şam ki, qızımı mənim himayəmə verəsiniz.

Muxtarın vəkili:

— O məhkəmənin müstəsna hüququdu. Ona vəkil müdaxilə eləyə bilməz. Vəkilin vəzifəsi həqiqəti üzə çıxarmaqdı.

Şərqiyyənin vəkili:

— İlahə azyaşlıdı, möhtərəm hakim. Onun atanın himayəsinə verilməsi mövcud qanunçuluğa ziddi. Bu, həm uşağın, həm də ananın hüquqlarını pozmaq olardı... Burda nənə-babanın da, qonşuların da fikirləri öyrənilməlidi.

Muxtarın vəkili:

— Hörmətli həmkarım, öyrənmək istəyirəm, azyaşlı uşaqları hansı müstəsna hallarda qanunçuluqla anadan alıb atanın himayəsinə vermək mümkündü? Yaxud, uşaq evlərinə göndərmək olar?

Şərqiyyə başını aşağı dikib ilan kimi qıvrıldı.

Şərqiyyənin vəkili:

— Ana əxlaqsızlıq, məişət pozğunluğu elədikdə.

Muxtarın vəkili kaseti sədrin stolunun üstə qoydu:

— Hörmətli sədr! Buyurun, kasetə baxın. Onda hər şey sizə aydın olacaq. İnanıram, Şərqiyyə də...

Sədr ayağa qalxdı:

— Məhkəmə qısa müddətli müşavirəyə gedir.

Məhkəmə və üzvlər arxa otağa keçdilər. Xeyli müddətdən sonra qayıtdılar.

Sədr:

— Məhkəmə qərara alır:

a) Əlişanova Şərqiyyə Səfiqulu qızı ilə Əlişanov Muxtar Əsəd oğlu arasında bağlanan nikah müqaviləsi qüvvədən düşmüş hesab edilsin;

b) Üç mənzildən biri Əlişanova Şərqiyyə Səfiqulu qızına verilsin.

v) Əlişanova İlahə Muxtar qızına himayəlik Əlişanova Şər-

qiyyə Səfiqulu qızından alınaraq doğma atası Əlişanov Muxtar Əsəd oğluna verilsin.

q) Gələcəkdə Əlişanova Şərqiyyə Səfiqulu qızı özünə aid olan otağı yalnız Əlişanov Muxtar Əsəd oğluna satmaq hüququna malikdir.

Məhkəmə bağlı elan olunur.

## Xətalı ana

Məhkəmə zalından əsəbi və ümidsiz çıxan Şərqiyyənin halı özündə deyildi. Acıq-giciyini kimin üstə tökəcəyini ağlına gətirə bilmirdi. Onun gözlərində hamı düşmən kimi görünürdü. Qadın canavar təsiri bağışlayırdı. O, dəhlizdə hakimin, vəkillərin, Muxtarın qarasına donquldana-donquldana, deyinə-deyinə, bəzən də təhqiramiz ifadələr işlədə-işlədə gəzirdi. Sözlərinə heç kəsin reaksiya vermədiyini gördüyündən və getdikcə nəfəsinin daraldığını hiss etdiyindən məhkəmə binasından bayıra çıxdı və dərhal da Muxtarı qapı ağzında yaxaladı, hirsi başına vurdu, halı bir qədər də kəskinləşdi və dərhal da: — Səni bu dildə-damaqda qoymaram, alçaq, — deyə Muxtara hücum çəkdi. Onun yaxasından tutub dartışdırmağa, sinəsinə, üz-gözünə sillə-yumruq vurmağa başladı. Məhkəməyə gələnlər, təsadüfən yoldan ötənlər donub qaldılar. Üz-gözü cırmaqlanan Muxtarın üzündən, ağızburnundan qan axırdı. Axır ki, dava-dalaşa, təhqirlərə dözməyən Muxtar canını Şərqiyyənin əlindən qurtarmaq üçün onu itələdi. Qadın səkinin kənarına ilişib yıxıldı. Cəld ayağa qalxdı, səsə yığılanları məzəmmətləməyə, gah da Muxtara hədə-qorxu gəlməyə başladı. Axır ki, polis ona yaxınlaşdı. — Xanım, özünüzü ictimai yerdə apara bilmirsiniz, belə getsə, barənizdə tədbir görüləcək, — dedi. — Səsini atmısan başına. Nə böyük qanırsan, nə kiçik. Nə kişiyə fərq qoyursan, nə qadına. Yığışdır





özünü...

Şərqiyyə ucadan: — Pəh... Pəh... Mənim ağıllıma bax... — dedi və polisdən bir qədər geri çəkildi. Səsə toplaşanlar öz aralarında bir-birilərinə deyirdilər: “Ayə, bu ki, zırramadı”, “Bunun başı çatmır”, “Bu, əcəb dəlixanalıqdı”, “Beləsinə baş qoşmasan, yaxışıdı...”. Elə bu vaxt bir yaşlı qadın irəli çıxdı: — Ağız, rədd ol xarabana, sənin başında bir çanaq qan var, o qandı səni hərlədən, — dedi və Şərqiyyənin qolundan tutdu, çəkə-çəkə məhkəmə binasından uzaqlaşdırdı... Az keçmiş həmin yaşlı qadın Muxtara yaxışlaşdı: — Eləsinin gərək cavabını verəsən, — dedi: — Yoxsa, adamı...

Muxtar astadan, heç kəsin eşidə bilməyəcəyi tərzdə pıçıldadı: — O mənim qızımın anasıdı... Boşanmışıq... Odludu... Görünür, içi göynəyir... Yavaş-yavaş tağımından düşəcək...

Qadının gözlərində səmimiyyət qığılcımları parladı, tez də söndü... Qadın başını yellədi:

— Bu da mədəniyyət... Elə qadından nə desən çıxar...

Yaşlı qadın üz çevirib getdi. Muxtar yanından ötən taksiyə əyləşib birbaşa evə gəldi. Rəmalə ondan soruşdu:

— Hə... Necə oldu?

— Necə olacaq? Məhkəmə iddiamızı təmin elədi.

— Qardaş, elə başa düşmə ha, mənim Şərqiyyədən zəhləm gedir. İndi də qarasına danışmaqla aranızı vururam. Əsla yox... Onunla ər-arvad kimi yaşamaq fəlakətdi. Qətiyyən əsəbiləşmə. Bu ayrılıq, boşanma sənə də, elə İlahəyə də hava-su kimi lazım idi... Bunu sənə deməliyəm. Məhkəmə başlanmamışdan öncə o, bura gəlmişdi. Evi araq-varaq elədi. Axtardığını tapdı, ya tapmadı, deyə bilmərəm. Gedərkən dedi: “— Bu evi yandıracağam, külə döndərəcəyəm. Qardaşın da baxar işinə...”. Doğrusu, mən dözə bilmədim və dərhal cavab verdim: — Mən də od vurub səni yandıraram, — dedim. — Qabağından qaçıram, ayağın yer almasın... Sən qadınsan? Sən anasan? Hərəkətlərin, danışdıqların

qadına yaraşandımı? Əməlindən xəcalət çək. Nəfəsini ud... Səsini çıxarma... O, hətta üstümə kəkələndi. Mən onu polis çağıracağımla hədələdim.

— Qəribədi, necə olub ki, bu iblisin halına, xislətinə, xəyanətinə indiyə qədər bələd olmamışam. Açığını deyim, ona olan istəyim gözlərimi kor eləyibmiş...

— Vecinə də alma. İt hürər, karvan keçər. O şeyləri birdəfəlik at kənara. Şərqiyyə yandığından çox şey danışacaq. Onsuz da o, özünü biabır elədi. Hamı onu tanıdı. Cidanı çuvalda gizlətmək olmaz. Geci-tezi var.

— Başımıza gələnlərdən hamı xəbər tutacaq. Ali təhsilli həkim olmasına baxma, bicliyi yoxdu. Bacarığı da elə. Otağın biri məhkəmənin qərarı ilə ona verildi. Nə danışsa, lap məni söysə də cavab vermə. İlahəylə əlaqəsinə mane olma... O, ağzına gələni deyə bilər. Baş qoşma. Bircə yaxşı işi var ki, ikiüzlülükdən-filandan uzaqdı. Bir az da vasvasıdı. Hər kiçik şeyi şişirdib özünə yük eləyəndi. Deyilənlərə də tez inanır. Sadəlövhdü. İnamından, sadəlövhlüyündən də özü öz başına oyunlar açdı. Əclaflar onun zəifliyindən mənə xəta yetirdilər...

— Belə şey çox adamın başına gəlir. Qardaş, anasız həyat bizə çox şey öyrədib... Ancaq Şərqiyyəyə bir otağın verilməsi, onun səninlə bir mənzildə qalması mənim heç xoşuma gəlmədi. O, sənə daim əzab verəcək, səni çərlədəcək... Bircə yolun var... O bir otağın pulunu ver, onu özündən uzaqlaşdır. Onunla razılaşmasa, çalışaq ona kənardan ikiotaqlı ev götürək. İfritədən uzaqlaş.

— Onu mən də fikirləşmişəm, Rəmalə. Ancaq o da var ki, o burda qalsa, İlahə anasızlığını hiss eləməz...

— Yoox... Bu, məni açmadı.

Muxtar başını aşağı saldı. Əvvəl susdu, sonra mızıldandı:

— Əxlaqsızlıq insanı urvatdan salır. Necə ki, Şərqiyyəni də, elə bizi də məhv elədi. Sağalmaz yara aldıq. Heyf, İlahənin taleyindən.





— Narahat olma... Hər şeyi özünə dərd eləmə.

— Adamlar sözlə şeytana papış tikməyin ustasıdılar, bu üzdən soxulub, o üzdən elə çıxırlar ki, məəttəl qalırsan... Belələri təzə söz axtarırlar, qarğa, quzğunlar təki qarıldaşmağa... Əclafları elə ki, yerlərində oturtdun, başlayırlar tüklərini pırpızlaşdırmağa. Təşvişə düşməyə...

— Axı, biz niyə belə olduq, Muxtar?

— Bunun səbəbi birdimi, ikidimi... yüzdümü? — deyib Rəmalənin üzünə iti nəzərlərlə baxdı: — Bacı, biz başqa mühitdə böyümüşük. Hiss eləyirəm, içimizdə həqiqət, ədalət yatıb. Hər şeyə o dəyərlərdən baxırıq. İnsan, həqiqətən də, insandırsa, bunun alternativ yolu yoxdu. Buna görə də etiraf eləyim ki, bizdə mühafizəkar baxışlar güclüdü.

— Mən dediklərinlə razı, qardaş. Bilirəm, yenilik cəmiyyətdə asanlıqla qəbul olunmur. Ancaq əxlaqsızlıq, həyasızlıq, əclaflıq yenilik deyil. Yenilik mədəniyyətdədir. Saf münasibətlərdədir... bu o da təhsilsiz, elmsiz mümkün deyil. Hər oxumuş da təhsilli ola bilməz. Yüksək təhsil cəmiyyətin düşüncəsini dəyişdikcə, yenilikləri təcrübəyə tətbiq elədikcə, onun nəticələrinin faydasına inandıqca yeniliklər də tədricən beyinlərə, ruhlara yol tapacaq. Ancaq yeniliyi "ura" deyib cəmiyyətə sırımağın da, pərçimləməyin də, zorlamağın da tərəfdarı deyiləm. Sel gələndə qabağında zir-zibil də gətirir... Yaxşını pisdən, pisi yaxşıdan ayırmaq bacarıqdı. Təhlükədən uzaqlaşmaqdı. Bax, bilmək istəsən, Şərqiyyə cəmiyyətdə gedən yüngül dəyişmələrin, ifrat gender söhbətlərinin, qloballaşmanın qurbanı oldu.

— Bilirəm, Şərqiyyənin hoqqabazlıqları, çılğın ehtirasları nəticəsində özünü itirməsi bizə baha başa gəldi. İstəklilərimizi təəccübləndirdi, təlxəksayağı düşmənlərimizi güldürdü. Qadın məntiqi... Qadın iddiaları... Qadın mənəm-mənəmliyi... Çox çətindi. Ancaq niyəsini dəqiq deyə bilmərəm.

Rəmalə gülümsündü:

— Oxunu atıb yayını gizlətmə. Heç olmasa, bildiklərini de...

— Qadın eşitdiklərinə inanır. Onun eşitmə analizatorlarında azacıq dəyişiklik yarananda hadisə tam təfərrüatı ilə baş-beyin qabığına bəzən səthi, qeyri-dəqiqliklə ötürülür. Hadisənin olduğu kimi təzahürü alınmır. Ona görə də çox vaxt işlər korlanır. Məntiq səlist olmur.

— Qardaş, əvvəla, qadınlara qarşı aqressiv olma. İkincisi də, dediklərinin elmi əsasları varmı? Ya öz uydurmalarındı?

— Subyektiv düşüncələrimdi... Sonrası da, dediklərim zarafatdı. İstəyirəm, əhval-ruhiyyəni qaldıram.

— Şərqiyyə elə qələt eləməyib ki, əhvalımız qalxa... Zalım qızı... Özündən o qədər müştəbehdi. Elə bilir, ondan gözəli yoxdu. Bir Molla Pənahı lazımdı onu vəsf eləyə... Qalmaqallıdı. Burnundan uzağı görmür. Bu necə təhsil alıb, bilmirəm. İnsanda nə qədər mənfi emosiya olar? Üzünə baxanda hövsələm daralır. Fiziki cəhətdən də haldan düşürəm...

Muxtar iztirab dolu baxışlarla bacısının üzünə baxdı. Sonra astadan dedi:

— Dava-dalaşsız da, səs-küysüz də ayrılmaq olardı. Onun inadkarlığı... Onu anlamaq olmur. Onun üçün dəyər deyilən şey yoxdu. Riyakarlıqlarını görəndə bəzən ayaqlarım yerdən üzülürdü... Çox hissə qapılan qadındı. Onda sevgi də güclüdü, nifrət də. Elə adamlar həmişə xatalı olurlar... Ondan İlahəni də qorumaq lazımdı. Mənim acığıma...

— Bibisi ölməyib...

## Müəmmalı talelər

Məhkəmədən sonra Muxtar qonşulardan, tanış-bilişlərdən qaçır, çalışırdı ki, evə gələndə və evdən gedəndə kimsə ilə qarşılaşmasın. Bərk sıxıntı keçirirdi. Onu da bilirdi ki, gec-tez qonşular da, iş yerində həmkarları da hər şeydən xəbərdar olacaqlar...





Adi bazar günü idi. Muxtar səhər yeməyini yeyib bərk sıxıntı keçirdiyindən həyətə düşdü. Fikir onu götürüb belədən-belə sürükləyirdi. Sürüklədikcə də əsəbiləşirdi. O, öz-özünə dedi:

— Ayə, mənim taleyim niyə belə oldu? Mən Şərqiyyəyə nə vaxt ayağın yandı, geri çək demişdim ki? Şəhvət, çılğın ehtiraslar adamı nə yaman rüsvayçı vəziyyətə salarmış, Xudaya. O, doğmaca qızının taleyini niyə düşünmədi? Uşağı da çılğın ehtiraslara qurban vermək olardımı?

Muxtar skamyaya çatıb əyləşdi. Elə bu vaxt qarşıdan Qoşqar müəllimin gəldiyini gördü. Muxtar heç bir şey olmamış kimi, gülümsündü və dedi:

— Deyəsən, Qoşqar müəllim, sən də səhər gəzintisinə çıxmısan?

— Hə... Hər gün mən bu parkda gəzirəm. Gəzməyəndə elə bilirəm bütün damarlarım tutulur. Axşama qədər qırışığım açılmır... Elə ki, yaşlandın, cavanlıqda özünə qarşı elədiyin insafsızlığın hamısı çıxır üzə. At kimi durur qarşında.

Hər ikisi güldü. Sonra Qoşqar da skamyada əyləşdi. — Muxtar, — dedi. — Səninlə görüşmək, söhbət eləmək istəyirdim. Yaxşı oldu burda — Şərqiyyənin gözlərindən uzaqda görüşdük. Muxtar, mən səni qızışdırmaq fikrindən çox-çox uzağam. Bir də ki, adam qızışdırmaq, ara vurmaq kişiyə xas olan xüsusiyyət deyil. O gün məhkəmədən sonra Şərqiyyə evə gəldi. Səsini atdı başına. İstədiyi yalanları yoğurdu-yapdı. Bütün qonşular səsinə çıxdı. Onun sözlərinə inanan da oldu, inanmayan da. Bunları sənə niyə deyirəm? Əvvəla, onun səninlə bir evdə qalmağı sənin üçün uğur gətirməyəcək. Hər gün əsəblərinlə oynayacaq. Bir mətbəxdən istəsəniz də, istəməsəniz də istifadə eləməli olacaqsız. O, səni şərləyib tutdura bilər. Səni zəhərləyə bilər. Elə qadından, inan, hər şey gözləmək olar. Qonşu, sən ciddi problem qarşısındasan. Ya evi sən ona satıb burdan uzaqlaşmalısan, ya da

pulunu verib onu özündən uzaqlaşdırmalısan.

— Qoşqar müəllim, mən də o barədə fikirləşirəm. Qarşımı kəsən İlahənin ana nəfəsindən, ana nəvazişindən uzaqda qalmasıdı. İlahəni boynubükük təsəvvür eləyəndə az qalır ayaqlarım yerdən üzülsün.

Qoşqar ani fikrə getdi. Sonra dedi:

— Yoox... Sən düz fikirləşmirsən.

— Nəyi düz fikirləşmirəm?

— Şərqiyyəni bütün qonşular yaxşı tanıyırlar. İncimə məndən, sən hələ də yuxudasan. Bir yastığa uzun müddət baş qoysanız da, sən onu çox az tanıyırsan. Ondan İlahəyə ana olmayacaq. Elə səhvlərə yol verəcək ki, uşaq da ondan çirkinəcək. Çünki o qadının ruhu tamam başqa simə köklənib. Mən istəməzdim ki, İlahənin tərbiyəsində onun cizgiləri əks olunsun. İlahə daha uşaq deyil. Bir-iki ildən sonra Şərqiyyə ilə sənin arandakı ixtilafın səbəblərini tam təfərrüatı ilə öyrənəcək. Qorxulu odu ki, İlahə də seçim qarşısında qala bilər. Nə demək istədiyimi güman eləyirəm ki, anlayırsan.

Muxtar dərhal dedi:

— Sən rəngləri tündləşdirmirsən ki?

— Bu sözü mənə bir dəfə də demisən, Muxtar. Ancaq gördün ki, dediklərimin hamısı həqiqət oldu. Dostum, sən ilişmisən. Mən sənə fraza verirəm. Fikirləş... Yüz ölç, bir biç. Düşünmədən iş görməzlər. Ancaq onu da bil ki, ehtiyatlı oğulun anası ağlamaz.

Muxtar gülümsünüb başını yellədi:

— Əcəb işdi... Oturduğum yerdə...

— Bu, çoxlarının başına gəlir. Bu, həyati təcrübədi. Bir az özünə toxtaqlıq verməlisən. Şərqiyyə çox acıqlıdı. Sənə nifrət dolu hisslərlə yaşayır. Nifrət işvəkar, özündən razı qadınları canavara döndərir. İntiqam hissilə yaşadır. O, indiki halda İlahəyə də zərər yetirə bilər.





Muxtar iti nəzərlərlə Qoşqarın üzünə baxdı:

— Sən nə danışırsan?

— Düşündüklərimi deyirəm. İnsan ağlına gələn hər şey ola bilər.

— Ay Qoşqar, inan ki, onu doğrayaram...

— Dostum, çətini hadisənin baş verməsidi. Xəta törəndisə, neyləməyinin mənası olmayacaq.

Muxtarın sir-sifəti bozardı:

— Bəlkə İlahəni Rəmalənin himayəsinə verim?

— Hüquq müstəvisində?..

— Elə-belə... Getsin hələlik qalsın bibisigildə.

— Yox... Onda Şərqiyyə sənə qarşı daha amansız olacaq. Bəlkə evlənəsən? Qadın nəzarəti ola, uşağa da, sənə də.

Muxtar güldü:

— Yoox... Bu, mümkün deyil. Mən İlahəni ögey ana... Ay Qoşqar, sən məni lap dəli elədin. İndi gedim Şərqiyyəni öldürüm?

— Yoox... Dostum, inan, sənin vəziyyətin heç mənim xoşuma gəlmir... Necə düşünürsən, düşün. Şərqiyyə xətadı. Onun nə vaxtsa zərbəsi səni tutacaq. Ehtiyatlı ol... İndi mən gedim...

Qoşqar ağır-ağır skamyadan qalxdı. Ayaqlarını sürüyə-sürüyə Muxtardan uzaqlaşdı. Muxtar fikrə getdi və öz-özünə dedi:

— Doğrudur, Qoşqara içimdəkiləri açıb-tökməsəm də, onun dediklərində böyük həqiqət var. Mən özümü də, elə İlahəni də — nə olsun ki, Şərqiyyə onun doğmaca anasıdı — ondan ciddi-cəhdlə qorumalıyam. Başqa yolum yoxdu. Qoşqar ağıllı adamdı. Hissiyyatı güclüdür. Eşitdiklərindən, gördüklərindən düzgün nəticə çıxarandı... Şərqiyyə doğrudanmı İlahəyə xətər yetirər? Onun əli doğmaca qızına qalxar?.. Aman Allah... İnsan nə qədər çətin məxluqdu. Vəhşilərin özünə rəva görmədiyini insan özünə rəva görə bilərmi?! Acı həyat... Səndə nələr yoxdu. Sən hansı təcrübəyə şahid deyilsən? Bəyəm, doğmaca övladını atan, bo-

ğan, qanına qəltan eləyən valideynlər azmı olub? Özü də birini yox, bir neçəsini... İndi mən hara gedirəmsə, zavallı İlahəni özümləmi sürüməliyəm? Bu, mümkündürmü? Yenə oğlan uşağı olsaydı... Heyf, müəmmalı taleyimizdən... Cavanlıqda nə düşünürdüm, nə ilə qarşılaşdım. Mənə görə yazıq Rəmalənin də həyatı zülmətə çevrildi... Ərsiz, övladsız qadın... O da xoşbəxtliyini əldə eləyə bilmədi. Görək İlahənin qisməti nə olacaq...

## Təşəkkür

Neçə gün idi ki, Şərqiyyə evdə nə oturduğunu, nə durduğunu bilirdi. Atası Səfiqulu, anası Nübar hey ona təskinlik verirdilər. Ancaq nə fayda? Yüz təskinlik bir həqiqəti, reallığı əvəzləyə bilərmi? Halva-halva deməklə ağız şirin olarmı? Qətiyyən. O, son vaxtlar bəzən yuxu ilə reallığı ayıra bilmirdi. Oturub-durub hamının yeyib-içdiyini zəhər eləyirdi. İllah da ki, yeganə qızı İlahə yadına düşəndə... Şərqiyyənin bu halı Səfiqulu ilə Nübarı lap təngə gətirirdi. Səfiqulu axır ki, dözməyib dilləndi:

— A bala, qiyamət qopmayıb ki? Elə təsəvvür elə ki, qız uşağısan. Heç vaxt ərdə olmamısan... Bir də ki, özün deyirdin: "Ərə getdim, ağzım bala batdı? Bilsəydim, atama lənət, o addımı atsaydım". Aaa, o vaxt özün getdin, indi də ərə tüpürüb, qayıdırsan. Qiyamət qopmayıb ki? Bir az səbrin olsun. Vacib olar... Zeynəb qarı necə deyərdi: "Baltadı, sapı sınanı təzədən saplayarlar".

Şərqiyyə atasına həqarətlə baxdı. Kişi qorxdu. Düşündü ki, qız ayağa qalxıb, boğazından yapışacaq. Muxtarın da, Lütüş Lütüşovun da, Salman Salmanovun da acıq-giciklərini ondan alacaq. Ona görə də geri çəkildi və sözlərini özlüyündə guya, yumşaltmağa çalışdı:

— Qadan alım, bala. Uşaqlığın gəlib hərdən durur gözlərim





önündə. O zaman da beləcə çılğın idin. Sənə söz demək olmurdu, elə hey çımxırırdın.

Şərqiyyə əsəbiləşdi:

— A kişi, sən kəs səsini!.. Danışma!.. Bu yaşa gəlmisən, özün də müəllimsən, hələ də danışmağı öyrənməmisən. Çımxırırdın nədi? Sonrası da düşük-düşük danışırsan. Bəyəm, mən özümü ərdən ötrü cırıb-dağıdıram? Tüpürüm ərə də, ondan tırmır olanlara da.

Nübar səsini qaldırdı:

— Ağız, bəsdi. Səsini qonşular eşitdilər. Bu saat söz-söhbət aləmi ağzına alıb gedəcək. Azarın ərdisə, niyə Muxtara xəyanət elədin?

Şərqiyyə:

— Mənim gözümdən Muxtarı sən imansız salmadınmı? Muxtara ərə getdiyimə görə məni neçə dəfə peşman elədin. Mənə qızım lazımdı, onu da Muxtar məhkəmədə məndən aldı.

Səfiqulu başını yellədi:

— A bala, çığır-bağırla, boğaz yırtmaqla məhkəmə qərarına qarşı çıxmazlar. Gözlə, Asim gəlsin. Ətraflı müzakirə eləyək. O, çıxış yolu taparsa, appelyasiya məhkəməsinə müraciət eləyərik...

Nübar:

— Əşi, appelyasiya-mappelyasiya məhkəməsi-zadı lazım deyil. Cavan xanımdı. Yup-yumuru, gözəl-göyçək. Qoyun, düşünək, bəlkə Muxtardan yaxşısın tapdıq? Nə tutmusuz Muxtarın quyruğundan?

Şərqiyyə təəccüblə:

— Ayə, dədə, siz gicsiz?

Şəfiqulu çiyinlərini çəkdi:

— Nə deyim, vallah...

Şərqiyyə anasına:

— Sən necə?

Nübar:

— Mən niyə gic oluram?

Şərqiyyə:

— Mənə İlahə lazımdı. Ondan ötrü dilim ağzımda parçalanır.

Səfiqulu üzünü arvadına tutdu:

— Elə hey deyirdin qızına: "Çıx... çıx... çıx...". Çıxartdın, dincəldin? Ver, doğduğunun cavabını.

Şərqiyyə:

— Dedim, kişi, sən kəs... Məni əsəbiləşdirmə... Mənə İlahə gərəkdi...

Nübar:

— Bəsdi, Şərqiyyə... Dost-düşməni bizə güldürmə. Gedərsən ərə... İstəsən, onun doğarsan... Qoy İlahəni Muxtar saxlasın. Yedirib-içirtsin... Geyindirib-geçindirsin. Bər-bəzəyin vursun. Xərcini çəksin... Böyüyəndə İlahə özü gələcək yanına... Ərə gedəndə məsləhəti də səndən alacaq...

Səfiqulu:

— Canına and olsun, arvad, bu, heç mənim ağlıma gəlmirdi...

Nübar ərinə:

— Ağlın var ki... gələ də?

O, sonra üzünü Şərqiyyəyə tutaraq:

— Sən yüz Muxtara dəyən əri məndən istə... — dedi.

Şərqiyyə:

— Keçəl dərman bilsəydi, əvvəlcə öz başına sürtərdi.

Elə bu vaxt qapı döyüldü. Nübar dərhal Şərqiyyəyə:

— Söhbəti dəyiş. Gələnə artıq-əskik söz demə. Qoy sirrin içində qalsın, — deyib ucadan güldü.

Sonra ərinə dedi:

— Sən get qapını aç...

Səfiqulu qapını açdı. Gələn əslən şəkili olan qapıbir qonşuları Güləndam idi.





Güləndam dedi:

— Səsiniz nə yaman bərk gəlir... Elə bildim, a bajı, dalaşırsız... Ay qız, sizin gülüşünüz də, söhbətiniz də hoqqadı...

Nübar:

— Hoqqadı nədi?

Güləndam qəsddən:

— Nə olacaq, hay-küylü? Dartma, yaxam cırıldı... Nırha-nırlı... Ağız, bircə gün səsinizi eşitməyəndə, elə bilirəm, o gün həyat dayanıb... Oba köçüb, yurdu qalıb. Nə yaxşı ki, siz varsınız. Təzə söz eşitməyəndə, inanın, elə bilirəm, ürəyim çatlayacaq...

Şərqiyyə altdan yuxarı, üstən aşağı qonşusunu süzdü. Sonra heç bir şey olmamış kimi dilləndi:

— Xanım, bu axşam yuxu görmüşdüm. Gəldim ata-anamı ziyarət eləyim. Şükür, salamatdılar... İndi anamı götürüb özümlə gedəcəm. Atam qalacaq. Bizi üzrlü hesab elə...

Şərqiyyə bu sözü deyib ayağa qalxdı. Pəncərənin pərdəsini çəkə-çəkə: — İstəsən, atamla qala bilərsən, — dedi və pəncərəni bağladı. Otağı alatoran bürüdü. Qonşu dil altında qalana oxşamırdı. O, dərhal gülümsündü:

— Eybi yoxdu, siz gedin, mənim də elə bir söz-söhbətim yoxdu. Bir az soyuqlamışam. Gəldim kürəyimə bir-iki banka qoyduram. Bilmirəm, Səfiqulu müəllim bacarar, ya bacarmaz.

Güləndamın sözlərindən Səfiqulu dik atıldı. Kişinin sifəti bozardı. O iti, gözlərilə Güləndama baxdı. Güləndam güldü:

— Səfiqulu müəllim, elə baxırsan mənə, qorxuram iti gözlərin sinəmi deşib keçə. Nədəndi bilmirəm, son vaxtlar məni görəndə sifətin tez-tez dəyişir. Səsində yumşaqlıq, qətilik və kəsərlilik artır... Bu, nəsə, məni çaş-baş salır...

Nübarla Şərqiyyə Səfiquluya baxdılar. Kişi özünü tamam itirdi. Ağlından belə bir fikir keçdi: "Görəsən, Güləndamınkı xeyirxahlıqdı, yoxsa iblislik? Eh... Nə olur-olsun.... Nə qismət-

di, onu da görəcəyəm. Qaradan tünd rəng...". Səfiqulu ürəyindən keçənləri bir başqa formada dilinə gətirdi:

— Ay Güləndam, yəqin xəbərin yoxdu, olsaydı, belə danışmazdın. Mənim bir atımlıq barıtım vardı, onu da atıb oturmuşam... Bu yaşda mənim banka qoymaq istəyimdən nə çıxar... Çalış, o işi cavanlara tapşır...

Bu sözdən sonra: — Gedim, görüm neyləyirəm? — deyib Güləndam qapıdan çıxdı. Elə bu vaxt Asim içəri girdi... Atasının yanında əyləşdi. Sonra üzünü Şərqiyyəyə tutdu... Bacısına ikimənalı dedi:

— Hə... Subaylıq-sultanlıq təzədən başlandı. Muxtardan boşandın... İlahəni də ona bağışladın. Düz eləmisən... Bəs, bu məsələyə Lütüş Lütüşovla Salman Salmanov necə baxacaqlar?

Şərqiyyə fikirləşmədən dedi:

— İkisi də oğraş çıxdı.

— Aha... Əvvəl böyük-böyük vədlər verirdilər... Bağ belə, bostan elə deyirdilər, sonra da suya düşmüş pişiyə döndülər, eləmi?..

— Pişiyə yox, siçana...

Asim ani fikrə getdi. Sonra dilləndi:

— Gəl, belə eləyək... Onlar bilməli idilər ki, mən vəkiləm, özü də yekəsindən... Kasetlərin üzlərini çıxaraq. Birini Lütüş Lütüşovun, o birini də Salman Salmanovun arvadına çatdıraq... Qoy onların da ailələri dağılsın. Onda hər ikisi təşvişə düşəcək, sənin ardınca... Sən də qalacaqsan seçim qarşısında... Hansı ürəyinə yatır...

Səfiqulu istehza ilə Nübara:

— Baş budu ha, arvad...

Nübar:

— Mən elə-belə oğul doğmamışam ha!

Asim sinəsini qabağa verdi:

— Hə... Nə deyirsən, Şərqiyyə?





Şərqiyyə:

— Deyirsən, bu, mümkündü?

Asim:

— Təsəvvür elə, səmada iki quş uçur. Biz onlara güllə atırıq. Hansına dəysə, o bizimdi...

— Oldu...

Bacı-qardaş, ər-arvad təxirə salmadan fikirdən əmələ keçdilər. Qərarlaşdırdıqları kimi də elədilər. Axşama yaxın kasetlər ünvanlara çatdırıldı. Səhər xəstəxanaya yayıldı ki, Lütüş Lütüşovu arvadı Suğra qovub evdən çıxarıb. Bu hadisədən xeyli keçdi. Şərqiyyə və onun ailəsi Salman Salmanovgildən bir neçə gün idi ki, xəbər gözləsələr də, səs-səmir çıxmadı. Əlacsız qalan Şərqiyyə Salman Salmanovun arvadı Zəmanəyə zəng edib kaseti ona xatırlatdı.

Zəmanə ağır-ağır dilləndi:

— Xanım, kaseti aldım. Bir neçə dəfə baxdım. Kişi kişidi. Mən fəxr eləyirəm ki, xoruzum kiminsə çəpərinin üstündə banlayır... Böyük zəhmətinə görə sənə də təşəkkür eləyirəm.

Yanğısını, od-alovunu söndürə bilməyən Şərqiyyənin cin başına vurdu. Heç kəsə bir söz demədən haqq-hesab kəsmək üçün Salman Salmanovun iş yerinə getdi. Qadın kabinetə girəndə Salman Salmanov özünü itirdi. Əvvəl nə deyəcəyini bilmədi. O, Şərqiyyənin üzünə çəkinə-çəkinə baxdı və qırıq səslə dedi:

— Bilirəm, niyə gəlmisən. Gəl söhbəti saxlayaq işdən sonraya. Harda istəyirsən, orda görüşək... Nə sözün var, hamısını de...

— Gözlərini bərəltmə. Mən bura gəlmişəm ki, verdiyin vədi yerinə yetirəsən.

— Nə vəd, aaz?

— Canına qara dərd. Məni alırsan, almırsan?..

— Şərqiyyə...

— Bəli! Bəs, deyirdin, Şərqiyyə, səni sevirəm. Ərindən ay-

rıl. Ayrıldım... Bu gün sizin evə birlikdə gedəcəyik. Arvadın bilirsən sənə nə deyir? “Mənim xoruzum”. Ona sübut eləyəcəm ki, sən heç cücə də deyilsən...

— Xanım, mən qəlbinə toxunmaq istəmirəm. Sənin məsələnə məhkəmə baxıb. Lütüş Lütüşovla aranızda olan mərəkədən bütün şəhər danışır. Mən də olum Lütüş Lütüşovun tayı. Çox güman ki...

— Güman ki, nə?

— Da onu deməzlər. Ağzı açıq qazana it də baş salar... Təsəvvür elə ki, mən də o itlərdən biri... Məni öldürəcəksən... Gəl...

Şərqiyyə matdım-matdım Salman Salmanovun üzünə baxdı. Handan-hana dedi:

— İt aparan olsun.

## Başı əkildi

Muxtar işdən evə tez qayıtdı. O, hərdən canında vicvicə duyurdu. Gah titrədir, gah da bədənini hərarət bürüyürdü. Aptekdən aldığı dərmanlardan içib yatağına uzandı. Yeməyə-içməyə həvəsi yox idi.

İlahə dedi:

— Ata, bəlkə Rəmalə bibini çağırım gəlsin, sənə baxsın?

— Yox, qızım. Görünür, soyuqlamışam. İndi keçib gedər. Sən dərslərinə bax...

— Axı, sən xəstəsən... Çay hazırlayımmı?

— Əziyyət çəkmə... Balaca özümə gəlim, ömrüm-günüm, qalxacağam.

İlahə öz otağına keçdi. Elə bu vaxt qapı açıldı. Şərqiyyə ilə toksimoloq həkim Zenurə içəri girdilər. Və birbaşa Şərqiyyənin otağına keçdilər. Tələm-tələsik yemək-içmək hazırlayıb süfrəyə oturdular. Şərqiyyənin yan otaqdan səsi eşidildi:





— İlahə!.. İlahə!.. Gəl yemək ye. Zenurə xalan da burdadı. O, səni çox istəyir.

— Yoox... Atam xəstədi...

— Atana heç nə olmaz... Onun canı bərkdi...

— Yoox... Siz işinizdə olun...

Xanımlar yeyib-içdilər. Sonra yanıq verirmiş kimi Şərqiyyə televizorun səsini qəsddən qaldırdı.

Zenurə rəfiqəsinin niyyətini anladı və dedi:

— Yaxşı deyil, Muxtar xəstədi. Televizorun səsini al.

— Cəhənnəmə xəstədi, qara yola xəstədi. O gərək ölə...

— Eh... Sən canın, gəl qanımızı qaraltmayaq. Kişi qalxar, acıqlı söz deyər... Yaxşı düşməz...

— Elə mən də onu istəyirəm... Onu çərlədəcəyəm. Ürəyini çatladıb öldürəcəyəm.

— Axı niyə?

— Məni biabır elədi, kasetə çəkdirdi.

— Oturduğun yerdə? Kişiyə xəyanət eləmisən... Sənin naxışın gətirdi...

— Nə naxış?

— Başqa kişi olsaydı, başını kəsərdi.

Şərqiyyə gülərək:

— İndi elə kişi var? — dedi.

— Var, Şərqiyyə, var! Televizora baxmırsan? Gündə biri arvadını öldürür.

— Ona Muxtarın kişiliyi çatmaz...

— O, İlahənin atasıdı. Heç olmasa... Görmək istəmirsən, çıx get ərə. Nə vaxta kimi yəhərsiz-yüyənsiz at kimi kişnəyəcəksən orda-burda... Mən sənin rəfiqənəm. Acığına getsə də, deməyə məcburam, üzünə bir söz deməsələr də, arxanca...

— Muxtar oğraş elədi də....

— Sən gündə bir kişinin ağuşuna atılacaqsan, o da sənə haqq qazandıracaq? Sənə şərait yaradacaq? Sən qadınsan... O yolu se-

çəndə ərini, uşağını, nəsli-nəcabətini düşünməli idin. İncimə məndən, Muxtar yaxşı kişidi. Dözümlüdü... Başqası olsaydı, indi mənim də qolumdan tutub atardı bayıra. — Get xarabana, — deyərdi... Sən nə özünə dəyər verdin, nə də ona... İndi də qalmısan yana-yana. Bilmirsən, acığını kimdən, necə çıxasan...

— Xeyr... Düz demirsən, Zenurə. Nə yanmaq?.. Nə acıq çıxmaq? Həyata bir dəfə gəlirik. Onda da istədiyim kimi yaşamayacağamsa...

Zenurə gülümsündü:

— Qorxulu adamsan, Şərqiyyə. Gör sənin bir uğursuz, düşünülməmiş hərəkətin neçəsinə fəlakət gətirdi: doğmaca qızına; halalca ərinə; yaşlı valideynlərinə; baş həkim Lütüş Lütüşova... Deməsələr də, açıb ağartmasalar da Salman Salmanovun ailəsinə çaxnaşma saldın... Daha kimlərlə əlaqə-sələqən... özün bilərsən... Onun da ağrı-acılarını çəkəcəksən. Bunu mən deyirəm sənə haqq-ədaləti əldən vermə...

Şərqiyyə:

— Qoy ədalət sənin olsun, Zenurə, — deyib gülə-gülə ayağa qalxdı. Divardan asılan saata baxdı. On ikiyə az qalırdı. Yataq yerlərini hazırlayıb mətbəxə keçdi. Muxtarın özünə kofe hazırladığını görüb geri qayıtdı. Bir anda onu fikir apardı. Tez də özünə gəlib bir həftə bundan əvvəl əldə elədiyi zəhəri — yüksək təsiri olan sionidi şakafın gözündən götürdü və yenidən mətbəxə qayıtdı. Bir yerdə olmasınlar deyə Muxtar mətbəxdən çıxdı. Şərqiyyə kofeyə bir necə sionnid kapsulası əlavə elədi. Sonra da heç bir şey olmamış kimi: — Nuş olsun, Muxtar, — deyib qapıdan çıxdı. Şərqiyyənin öz otağına çəkildiyini görən Muxtar mətbəxə qayıdıb özünə bir fincan kofe süzdü və otağına apardı. Bir az kofenin soyumasını gözlədi... Sonra qurtum-qurtum içməyə başladı və yatağına uzandı. Bir az keçmiş yataqda Muxtarın nəfəsi daraldı. Ürəyi sıxıldı. Ayağa qalxdı. Başı hərləndi. İçdiyini qaytarmaq istədi. O, divardan tuta-tuta vanna otağına gedirdi ki,





özünü saxlaya bilməyib divara qısıldı və tappıltı ilə yerə yıxıldı. Öyüməyə başladı. İçdiyini qaytardı. Səsə İlahə qalxdı. Atasını heç vaxt evdə vanna otağının qarşısında uzanıqlı görməyən İlahə özündən asılı olmayaraq, "Ata! Ata!" deyə qışqırdı. İlahənin vahiməli səsi otağı bürüdü. Səksəkə içərisində mürgü döyən Zenurə çarpayıdan dik atıldı və dəhlizə çıxdı. Muxtarın vəziyyətinin ağır olduğunu görəndə özünü onun üstünə atdı və dərhal da zəhərləndiyini anladı. Şərqiyyə də ağır-ağır, heç nə olmamış kimi Zenurənin ardınca çıxdı.

Zenurə həyəcan içərisində dedi:

— Ay dad, Muxtar zəhərlənib ki?

İlahə dərhal:

— Necə dedin, xala?

— Atan zəhərlənib.

Şərqiyyə etinasız halda:

— Ağzına gələni danışma uşağın yanında. Bəsdi... Soyuqlayıb... Ertədən gəlib yatıb.

Zenurə Şərqiyyənin gözlərinin içinə baxdı. Şərqiyyə gözlərini ondan yayındırmağa çalışdı. Ancaq bacarmadı. Əlacsız qalıb ona: — Mənim otağıma gəl, — deyə pıçıldadı:

— Deyəsən, ağlın səni idarə eləmir, nə olsa, danışırsan... Muxtarın ürəktutması var. "Zəhərlənmə" sözünü bir də ağzına alsan, deyəcəyəm ki, Muxtarı Zenurəylə birlikdə zəhərlədik. Zəhəri Zenurə gətirmişdi.

Bu sözü eşidən Zeynurə bərk qorxdu, həyəcanlandı. Bunu hiss edən Şərqiyyə: — Ağızdan möhkəm ol. Unutma ki, toksimoloqsan... O zəhər ancaq sizdə ola bilər...

Zenurə tutuldu. Bir anlığa Muxtarın zəhərlənməsini unutdu.
— Məni evinə buna görəmi dəvət eləmişdin? — dedi.

Şərqiyyə:

— O məsələ qapandı. Sən həkim, mən həkim... Muxtar ürəktutmasından öldü...

Onlar yenidən dəhlizə çıxdılar. İlahə atasını qücaqlayıb ağlayırdı. Birdən Muxtarın nəfəsi kəsildi. Şərqiyyə əyilib onun nəbzini yoxladı. Boyun damarına əlinin arxasını sürtdü. — Keçinib, — deyə ayağa qalxdı. İlahə: — Atamı kim zəhərlədi? —deyə Zenurədən soruşdu. Əlacsız qalan Zenurə yalan danışmalı oldu:

— Qızım, əvvəl mən çaşdım. Elə bildim atan zəhərlənib. Sonra anladım ki, o, ürəktütmasından keçinib. Ayağa qalx... Ölünün üz-gözünü qaydaya salaq. Yatağına aparaq...

İlahə:

— Yoox... Zəhərləyiblər.

Şərqiyyə:

— Bəsdi... Həyasız... Qulağına bir söz dəyməsin... Kor tutduğunu buraxmayan kimi... Keç otağına. Sən uşaqsan...

— Yoox... Mən heç hara getməyəcəyəm...

— Dilini kəsərəm. Atan yoxdu, mən varam. Səni özüm saxlayacağam.

Zenurə İlahəni otağına apardı. Muxtarın cəsədini qaydaya salıb yatağına qoydular. Üstünə də ağ mələfə sərdilər... Səhər açılanda da yuyulmağa göndərdilər... El arasında belə bir fikir dolaşdı:

— Muxtarın başını Şərqiyə əkdi...

## Bir gecənin oyunu

Yas yerindən ayrılan Zenurə evinə necə gəldiyini, kimə nə danışdığını bilmədi. Ürəyinin gubbultusunu eşidirdi. O, yeyibiçmədən yatağına uzandı. Ancaq qorxu-hürküdən kirpiklərini qırpa bilmədi. Hey gözləri önünə Muxtarın zəhərlənməsi, vanna otağının qarşısındakı divara söykənikli yıxılması gəlirdi. Dərdini açmağa, ürəyini boşaltmağa adam tapa bilmirdi... Bir anlığa Zenurəni yuxu apardı. Tez də diksinib oyandı... Düşündü: “Əcəb





işə düşdüm. Ayə, bu it qızı lap ifritə imiş. Bicliyə bax. Mən gici salıb yanına apardı evinə, qonaq. Mən də elə bilirəm, yanında xatirim əzizdi. Ağzımı qoydum kəlləvara. Nə ağlıma gəldi danışdım. Axırda da məni saldı oda. Özü ərini, yeganə övladının atasını zəhərlədi. Utanmaz-utanmaz mənə də hədə-qorxu gəldi... Belə ifritədən nə desən çıxar. Bərkə düşən kimi durar üzümə. Deyər, Muxtarı Zenurə zəhərlədi. Onda da gəl döy başınagözünə. Lənət sənə, Şərqiyyə. Necə olub ki, mən bu əxlaqsızı, mənəviyyat düşkününü tanımamışam. Bu öz yerində. İndi də döndüm Şərqiyyənin quluna... Açıq-açığına köləsinə. O, nə desə, eləməyə məcburam. Mən neyləyim? Gedim hüquq keşikçilərinə olanları danışımmı? Şərqiyyə şərini üstümə atası olsa, mən özümü qoruya, təmizə çıxara bilərəmmi? Çıxara bilməsəm, onda necə? Həbs olunacağam. Onda da bəs mənim ailəm. Anam, uşaqlarım necə olsunlar? Vay! Vay! Daha çətin ki, məndən adam ola. Keçirdiyim qorxu, həyəcan, vahimə, aman Allah, haracan davam eləyəcək? Yox... Mən öləcəyəm. Dərd-sərdən ürəyim çatlayacaq. Dağ ağırlıqda yükü çiyinlərimdə saxlaya bilərəmmi? Kimə necə deyim ki, bu cinayətdən mən xəbərsizəm. Lap tutalım ki, dedim. Mənə inanan olacaqmı? Heyf, mənim həyatımdan. Bəlkə də bu sirr Şərqiyyə ilə mənim aramda qala bilərdi. Əlbəttə ki, İlahə ondan xəbərsiz olsaydı. O qız hər şeyi eşitdi. Bu gün anasından qorxub deməsə də, inanıram ki, sabah o, bu sirri açacaq. Ağ süddən də ağ eləyəcək. Mən Şərqiyyə iblisi aradan götürsəm belə, yenə də kül altında od qalacaq. Nə vaxtsa o da közərəcək. Burda yeganə aradan götürülməli günahsız İlahədi. O da uşaqdı. Vicdanım düşündüyümü həyata keçirməyə imkan verərmi? Yox... İnanmıram. Zeynəb qarı burda deyib də, cinayət cinayət gətirər... Allah... Allah... Gör mən nə fikirləşirəm. Deyəsən, dəli oluram. Oturduğum yerdə cinayətkara çevrilirəm. Bunu Allah götürərmi? Yox... Mən ölsəm də, həbs olunsam da, elə qələtə girişmərəm. Deməli, mən də tür-

mənin astanasındayam. Mənə deyən gərəkdi, ay axmaq, sənin Şərqiyyə ilə nə əlaqə-səlaqən? Zeynəb qarının sözü olmasın: yoldaşını göstər, sənin də kim olduğunu deyim. Onda nə deyəcəklər? İkisi də ifritədi, ayağısürüşkəndi, lotudu, fahişədi. Allah, Allah... yandım. Bir gecənin oyununa bax. Nələr gözlənilir onun qol-qoltuğunda: şeytanlar, iblislər, ifritələr... Nələr... Nələr... Qırdı qollarımı, sındırdı belimi... Şərqiyyə. Kimə gedib söz deyə bilərəm? Doğmaca anama bu sirri açsam, ürəyi çatlamaz ki? Özümə haqq qazandıra bilərəmmi? Ömürlük bir ifritənin əsiri oldum. Öl desə, ölməliyəm, qal desə, qalmalıyam? Nə qədər ağılsız, dardüşüncəliyəmmiş, Xudaya. Doğmalarım eşitsələr, mənə tüpürməyəcəklər ki? Deməyəcəklər ki, bu, nə ağılsız hərəkətdi eləmisən? Necə olub ki, Şərqiyyə kimi pozğuna qoşulmusan... İndi də get, canın çıxsın, cəzanı çək..."

Zenurə fikir məngənəsində sıxılırdı, düşüncələri onu belədən-belə çalxalayırdı ki, telefonun səsi otağı bürüdü. O, diksindi. Nömrəyə baxdı. Zəng edənin Şərqiyyə olduğunu anladı. İstədi, telefonu açmasın. Ağlına yüz qorxunc fikir gəldi və telefonu açdı.

— Alo... Eşidirəm.

— Mənəm, Şərqiyyə.

— Bilirəm...

— Necəsən?

— Necə olacam? Ölü kimi.

— Niyə?

— Necə niyə? Qəribə danışırsan. Az qalıram özümü asam... İntihar eləyəm. Canımı bu uğursuz həyatdan qurtaram...

— Ağız, axmaq olma. O, getdi... Tonlarla yük altdadı. Deyirsən "pırt" eləyib oradan çıxar?

— O çıxa bilməz... Ancaq çıxaran çıxarar.

— Məsələn?..

— Allah...





— Allahın özgə dərd-səri yoxdu? O, razı olmasaydı, məsələ belə uğurlu həll olunardı?

— Mən öləcəyəm, Şərqiyyə. Mən daimi tufandayam.

— Gicləmə. Möhkəm ol...

— Bərk yorğunam. Yatıb dincəlmək istəyirəm.

— Yaxşı, Zenurə, danışarıq. Qara-qura fikirləri qov başından getsin.

Zenurə telefonu qapadı. Anası Məhbubə otağa daxil oldu. Həyəcanla soruşdu:

— O zəng eləyən kim idi?

— Şərqiyyə.

— Lütüşün məşuqəsimi, aaz?

— Elə deyirlər... Hər deyilənə inanmaq da...

— A bala, qapı arxasında qab düşdü, ya sındı. Eşidənə təsiri birdi. Qurtar onunla, qızım... Söhbətinizin məzmunu da heç xoşuma gəlmədi. Nə təhlükəli iş görmüsüz ki, sən yaşamaq istəmirsən?

— Ay ana, sözdü də, dedim. Hər sözün başına ip salarlarmı?

— Qızım, baxır sözə. Sənin dediklərindən qan qoxusu gəlirdi. Nə sözün var, mənə de. Axı, indiyəcən sən məndən sirr saxlamamısan.

Zenurə tutuldu. İstədi başına gələnlərin hamısını anasına açıb danışsın... Qorxu hissi istəyini üstələdi. O, əlacsız qalıb, uydurmaya keçdi:

— İş yerində yığıncaq idi. Hərə bir söz dedi. Mən də özümü saxlaya bilmədim. Qızışıb müavinin ünvanına bir-iki kəlmə danışdım. Ağlıma da gəlməzdi ki, o gedib evdə infarkt olacaq... O hərəkətimdən o qədər peşmanam ki...

— Görürsən də, qızım, uğursuz söz nə törədir? Gərək insan oturuşuna-duruşuna fikir verdiyi kimi, danışığına da məsuliyyətlə yanaşsın. Kəsərli söz izsiz qalmır. Bir az keçsin, qardaşınla gedərsən onu yoluxmağa. İstəsən, mən də apararam səni. O da

başa düşər ki, danışığından peşmansan...

— Ey... Ana, ana... İnsan taleyi çox qəribədi. Addım atır... Ancaq hara? Bilmir. Çox zaman da hər şey keçmiş olur. Peşmançılıq bəzən hər şeyi həll eləmir... Təzə xəstəm var. Zəhərlənib. Müayinə, müalicə eləmişik... Deyirlər, zəhərləyiblər.

— Nə? Vay! Vay! Zəhərləyənin yeri cəhənnəmlikdi, Zenurə. Kim eliyibsə, ondan da artığı qabağına çıxacaq. O, vəhşilikdi. Kiminin anası, kiminin övladı, doğmaları var. Zəhərlənmədə, onun gizlədilməsində az-çox kimin xidməti varsa, o da aşkar olacaq. İnsan taleyi ilə oyun oynamaq olmaz.

— Hər kəsin qisməti var, ana. Atılıb-düşməklə qismət yazılmaz.

— Kim zəhərlədiyi bilinmir?

— Bəlkə də bilinir. Ancaq açıb deməyə cəsarət eləmirlər.

— Bu çox pis.

— Nəyi pisdi? Biri ölüb, zəhərləyəni də tutacaqlar?

— Cəhənnəm, tutsunlar. Bilib deməyənlə zəhərləyən arasında Allahın yanında fərq yoxdu.

## Anadan qorxmazlar

İlahənin yaşı az olsa da, çox ayıq-sayıq idi. Ağlı yaşıdlarından qabağı vururdu. Atasının ölümündən dəhşətə gələn qız anasının cinayətlərini tam təfərrüatı ilə anlayırdı. Bu, İlahədə qorxunc hisslər yaradırdı; anam məni öldürər; məni evdən qovar; məni də atam kimi zəhərləyər; yatdığım yerdə doğrayar; məni şikəst eləyər; ac saxlayar; döyər; söyər; bibimlə danışmağa qoymaz... Bu düşüncələr ondan bir an da əl çəkmirdi. Rəmalənin İlahəyə: — Ananın sözünə bax, heç vaxt onun sözünün əksinə getmə — deməsi, onda belə fikir oyadırdı: bibim də ondan qorxur, çəkinir. Yoxsa, o, məni ayıq-sayıq olmağa, doğma anamın





əli ilə düşə biləcəyim təhlükədən qorumağa çağırmazdı. Ona görə də İlahə neyl əyəcəyini bilmir, daim anasından şübhələnir, ondan bir qədər uzaqda durmağa səy göstərirdi. Axşamlar yatdığı otağın qapısını arxadan bağlayırdı. Təhlükə baş verərsə, ehtimalına görə, özünü balkondan yerə necə atmaq barədə düşünürdü. Anasının həmləsindən qurtarmaq üçün yollar axtarırdı. Qarmaqarışıq düşüncələr onun uşaq təfəkküründə belə bir alternativ fikir də oyatdı:

— Atam yoxdu. Onu anam zəhərlədi. Onu geri qaytara bilməyəcəyəm. Əlimdən heç bir iş gəlmir. Bircə yol qalır. Bir müddət anama yaxınlaşmaq. Onunla səmimi, mehriban olmaq. Onun dedikləri ilə durub-oturmaq. Gərək bu barədə bibimlə danışım, onu xəbərdar eləyim. Axı, bibim məni çox istəyir. İstəməsə, mənimlə bu qədər mehriban olardımı? Hərdən məni özü ilə yatırdardımı? Heç yadımdan çıxmaz, bibimin dedikləri: “Qızım, atanın ətrini səndən alıram. Atan yoxdu. Sən bütün dərdsərini mənə açıb danışa bilərsən. Mənə etibar eləyə bilərsən...” Məni çox istəməsəydi, o sözləri deyərdimi? Bibi, mən sənin istəyini gözlərindən duyuram. Atam barədə düşünüb-danışanda, göz yaşları axıtdığını xatırlayanda az qalıram əl-ayağından öpəm... İstəmirəm ki, anama qarşı yumşalmamı sənə soyuqluğum kimi başa düşəsən...

Adi günlərdən biri idi. İlahə ilə Rəmalə parka gəzməyə çıxdılar. Yorulanda İlahə dedi:

— Bibi, ayaqlarım ağrıyır. Bəlkə bir az oturub dincələk?

— Ömrüm-günüm, dincələk, ancaq skamyada yox... Gedək o kafeyə. Görürsən, orda hamı oturub dincəlir.

İlahəgil kafeyə girib pəncərənin qarşısındakı stola yaxınlaşdılar. Hərəsi bir stul çəkib əyləşdi. Rəmalə çay, şirniyyat sifariş verdi.

İlahə dedi:

— Bibi, şirniyyata pulun var?

— Qızım, var... Olmasa, sifarişi verərdimmi?

İlahə boynunu qısıb gülümsündü. Şirniyyatla çay içdilər. İlahə fikrə getdi. Gözləri yol çəkdi. Rəmalə soruşdu:

— Nə fikrə getdin, İlahə?

— Heç... Bibi, sənə çoxdan bir söz demək istəyirəm. Amma qorxuram ki, inciyəsən.

— Bibindən qorxma... Nə sözün var, aç, de...

— Atam sağ olanda anamdan qorxmurdum. Bilirdim ki, atamı anam çox aldadıb. Ona görə də anam xoşuma gəlmirdi. İndisə atam yoxdu... Səndən də çox zaman ayrı oluram. İstəyirəm, anama yaxınlaşım. Buna necə baxırsan?..

— İstəsən də, istəməsən də, Şərqiyyə sənin anandı, qızım. Bir neçə dəfə sənə demişəm: ananla səmimi, mehriban ol...

— Mən səndən də uzaqlaşmaram, bibi. Yanına tez-tez gələcəyəm. Anamı tanıyırsan da...

— Bilirəm nə demək istədiyini, gülüm. Ürəyinə heç nə gətirmə. Sən mənim qardaşımın yadigarısan. Mən ölənə qədər sənin olacağam... Atanın ruhunu da unutma. Axı, sənə — Muxtarın qızı — deyirlər.

— İstəyirəm biləsən, bibi. Mən Şərqiyyəni ana kimi sevmirəm. Mən ondan qorxuram. O, məni söyəcək, döyəcək... Gözlərimi çıxaracaq... Mən atamı sevirəm, səni sevirəm.

Rəmalənin gözləri doldu. Kirpikləri islandı. O, tez əlinin içi ilə gözlərinin yaşını sildi.

— Sən nə danışırsan, İlahə... Məhkəmə səni atanın himayəsinə verib. Atan yoxdu, mən varam. Qorxma... Şərqiyyə günahsız Muxtara nifrət eləyirdi. Muxtar yoxdu. Onun əl-qolu açılıb... Mən heç kəsə imkan verməyəm ki, sənə güldən ağır söz desin. Qaldı Şərqiyyəyə.... O, yolunu azsa, bibin ölməyib.

İlahənin üzündə elə bil yaz günəşinin qızılı şuaları oyandı. Güldü, sonra astadan dedi:

— Bibi, bir dəfə mən gecə atamı yuxuda gördüm. Elə bil,





qocalmışdı. Ürəyini tutmuşdu. Yuxudan oyandım. Başladım atamdan ötrü ağlamağa. Anam oyandı. Mən yuxumu ona danışdım. Anam əsəbiləşdi. Mənim başıma vurdu. Saçlarımı yoldu. Sonra dedi: “Bir də o gorbagorun adını tutsan, sənin dilini kəsəcəyəm. Heç o barədə düşünmə də”.

Rəmalənin sifəti kağız kimi ağardı. Dərindən köksünü ötürdü. Handan-hana dilləndi:

— Eybi yoxdu, qızım. Heyf ki, sənin damarlarında Şərqiyyənin qanı axır. Canın canındandı. Elə adamın haqqı yoxdu yaşamağa. İnanıram ki, Muxtarın çörəyi onu tutucaq... Hər deyilənə cavab verməzlər. Atılıb-düşməzlər. Hələ ki, sən balacasan. Yaşa dolduqca, ağlın söz kəsdikcə, çox şeyi başa düşəcəksən. Anan, eşitdiyimə görə, doğmaca atasını da söyüb, hətta anasını da döyüb. Belə övlada nə deyəsən?.. Onda insanlıq hissi varmı?... Qızım, Şərqiyyənin oturuş-duruşu adamı utandırır. Nə deyir-desin. Vecinə da alma. Zaman gələcək, hər şey yoluna düşəcək.

— Nənəm də, babam da qorxurlar anamdan. Yazıqlar onun yanında ağızlarını açammırlar. Hərəsinə bir söz deyir. Onlar da küsüb otururlar yerlərində...

— Bilirəm, gülüm, bilirəm... Səbr elə... Hər şey düzələcək.

## “Utanmadın”

Axşamüstü idi. Məhlənin söz oynadan, ərköyün qadınları həyətdəki skamyada oturmuşdular. Hərə öz başına gələnlərdən, eşitdiklərindən, gördüklərindən danışıb laqqırtı vururdu. Tez-tez də həyətdə şahmat oynayan və onların tamaşasına yığışan oğlanlara, qızlara atmacalar atır, qəhqəhələri aləmi bürüyürdü. Ərləri olanlara ərləri, dullara isə tanış-bilişləri irad tutmurdular. Arvadlar da elədiklərindən daha da şitənir, kimlərinsə qarasına

şəbədə qoşmaqdan çəkinmirdilər. Onların laqqırtıları, şəbədələri, ələsalmaları bu cavan şahmatçıları bezdirirdi. Cavanlar arvadlara irad tutmalı olurdular. Qaçay adlı cavan oğlan yaxınlaşıb üzünü qızı İlahə yanında əyləşən Şərqiyyəyə tutdu:

— Xanım, bəlkə dəstəni çəkəsən getsin? Ya da tapşırasan, bizə rişxənd etməsinlər. Bizi lağa qoymasınlar.

Şərqiyyə dərhal:

— Qaçaysan-nəsən, sənə bir toy tutaram, bilməzsən hardan gəlib, hara getdiyini. Bir də ki, ağzından süd iyi gəlir. Sataşmağa adam tapammadın? Mənə girişirsən? Sən öləsən, ağzını cırıb qulağının dibində qoyaram.

Məhlə arvadları Şərqiyyənin sözünə mat-məəttəl qaldılar. Qırx yaşı ola-olmaya, Bəsti dillənməyə məcbur oldu:

— Ağız, Şərqiyyəsən-nəsən, Qaçay nə dedi ki, sən onun əl-ayağını qapdın... Yekə arvadlarsız, cavanlar öz işlərində, dərd-sərlərindədi. Başlamısız özünüzü göstərməyə...

Elə bu vaxt Oqtay özünü Qaçaya yetirdi və lağ eləməyə başladı:

— Ayə, Qaçay, görmürsən, bu arvadların hərəsi bir əhvalda, bir ağıldadı. Hərəsi bir yüngül-dingil kişiyə girişir. Bunlara sərt, ciddi kişi fayda verməz.

Arvadlar eşitdiklərinə inanmadılar. Gülbəyim dilləndi:

— O nə deməkdi, əə. Sən öl, kişiyə deyərəm, gəlib sənə bilərsən neylər?

— Neylər?

— Canına qara dərd eylər. Sonrası da arvad anandı...

— Arvad olmasaydınız, burda oturub kişilərə sataşmazdınız, göz-qaş oynadaraq zarafat eləməzdiniz. Sizin bu laqqırtınız kişiləri cana doydurub.

Elə bu vaxt binanın ağsaqqalı Mehman kişi əsaya dirənə-dirənə özünü bu qalmaqallı adamlara yetirdi. Kişi xeyirxah, nəzakətli və sayğılı adam olduğundan hamı özünü yığışdırdı. Ara sakitləşdi. Şərqiyyə, Mehman kişiyə dedi:

— Ay pir olmuş, bayaqdan gəl də. Bu gədə-güdələr mazqımızı az qala, korlayacaqdılar.

Oğlanlar gülüşdülər. Qaçay dilləndi:

— Bunda deyiblər də... Adımı sənə qoyum, sən də qal yana-yana.

Oqtay:

— Qadında qabaqdangəlmişliyə bax ha...

Elə bu vaxt iyirmi beş-iyirmi altı yaşlı üç qız onlara yaxınlaşdı. Ucaboylu, qarayanız Nüşabə dedi:

— Eh, biz elə bildik, yığışmısız bura, cavan qızlara kişi paylayırsız. Gəldik kabab yeyək, sən demə, burda eşşək dağlanırmış...

Oğlanlar az qala, eşitdiklərinə inanmayacaqdılar. Əvvəl bir-birilərinin üzlərinə baxıb duruxdular, sonra qımışdılar. Birdən qəhqəhə çəkdilər. Gödəkboylu, sarışın Atəş özünü saxlaya bilmədi:

— Payladılar, xanımlar, siz gecikdiniz. Bilirsiz də, gecikənlər öz kisələrindən dadarlar. Gedin, gözdə-qulaqda olun, bir də səs eşidəndə gecikməyin, tez gəlin, görək nə eləyə bilərik... Siz də, inşallah, mağmın qalmazsınız.

Hamı gülüşdü. Soltan kişi cavanların xatirinə dəyməmək üçün: — Saqqalınız ağarsın, — deyib üzünü çevirib getdi. Şərqiyyə: — Ölülər elə bilir, dirilər halva yeyir, bu xanımlar kişilərdə nə görüblər, bilmirəm, — dedi və qəhqəhə çəkdi. Söz altda qalmayan Firuzə atmacaya atmacayla cavab verdi:

— Kişilər pis olsaydı, vaxtı ilə əlində üçünü saxlamazdın...

Şərqiyyə susdu. Emin bir qədər də qabağa çıxdı, ciddi görkəm alıb üzünü xanımlara tutdu.

— Kişiyə nə olub ey... Kişi axtarırsınızsa, üçü burda var. Düzdü, bir az yaşlıdılar. Baxın işinizə, xanımlar, işinizə yarayandılarsa, gəlin götürün, olsun sizin.

Xuraman:

— Cavan oğlan, ağızlarında dişləri varmı? — deyib sinəsini qabartdı.

Atəş dərhal cavab verdi:

— Dişləri cağbacağdı. Ancaq əllərində əsaları var. Bir az da belləri bükülüb.

Şərqiyyə:

— O xalis mənim malımdı.

Bayaqdan bəri xanımların sözlərinə diqqət yetirən Zülfiyyə nənə özünü saxlaya bilmədi. Cavan üç qıza üzünü tutdu:

— Hə, xanımlar, siz elə kişilərin malısız, deyib, kürəyini divara dirəyən və bayaqdan deyilənləri həyəcanla dinləyən qocaları göstərdi: — Kişinin qocası, cavanı olmaz, — deyiblər. Yatağından özü qalxıb-dura bilirsə, kifayət elər. Başınızı itirməyin, geciksəniz...

Söhbətin qızışdığını və qocaların ikrahedici nəzərlərini gözlərindən oxuyan cavan qız — Günel gülümsündü:

— Biz xanımlar kişiləri özümüz üçün istəmirik.

Adamlar bir ağızdan:

— Bəs kimin üçün istəyirsiniz?

Günel dərhal:

— Mal-qaraya baxmaq, əkin əkdirmək, sulatmaq üçün.

Zülfiyyə:

— Hə... Belə deyin. Siz gedin, qızlar, növbəti bazar günü gələrsiz. Sizə bunlardan da yaxşıların təşkil edərik. Həm sizin, həm mal-qaranızın, həm də təsərrüfatınızın işinə yarayarlar.

Məsxərəci qızlar ayaqlarını sürüyə-sürüyə kor-peşman getdilər. Şərqiyyə ilə İlahə də evə qayıtdılar.

İlahə anasından soruşdu:

— O adamlar kim idilər?

— Bilmirəm...

— Onda niyə ağzına gələni danışırdın? Dilini saxlasaydın,





Firuzə də sənə elə cavab verməzdi, ana. Mən sənin əvəzinə utandım.

— Bəsdi! Bir əlcə boyun var. Ərkən arvadlar kimi danışma. Mənə ağıl verənə bax...

— Ana, doğrudan o qədər adamdan utanmadın?

— Orda deyilənlər zarafat idi.

— Bəs, onda sonra niyə susdun, cavab vermədin, yanaqların qızardı?..

## Hiyləgərlik

Rəmalədən söz düşəndə, ya onunla bağlı bir əhvalatı xatırlayanda Şərqiyyə ağzını əyişdirir, dodaqlarını büzür, ondan acığı gəldiyini açıq-açığına büruzə verirdi. İlahə çəkinib ona bir söz deməsə də, içində həmişə haqsız, çətin yola gedilən adam kimi baxırdı... Ataya həsrətli ömrü bu zavallı qıza o qədər də asan başa gəlməmişdi... O, həmişə öz-özünə düşünərdi: "Nə yaxşı ki, Rəmalə bibim varmış. Onsuz mən neyləyə bilərdim? Bəlkə də aclıqdan, susuzluqdan, soyuqdan-qardan çoxdan məhv olmuşdum...". Şərqiyyə ona deyəndə ki, yekə qızsan, böyümüsən, yaşa dolmusan, öz-özünü idarə eləyən vaxtında nə düşmüsən "bibi", "bibi" deyə Rəmalənin ardınca.., onda İlahə özünü saxlaya bilmədi:.

— Bu nə söhbətdi, eləyirsən? Rəmalə mənə həm ana, həm bibi, həm də ata olub. Mən ona görə yaşayıram. Bir də...

Şərqiyyə soyuqqanlıqla İlahənin hirslə dolu üzünə baxdı:

— Bu dili sənə Rəmaləmi verib? Analığı sənə o eləyibsə, on ildən artıqdı atanın öldüyü, yanımda nə xıtıcılanırsan?

— Səhv eləmə. Mən səninlə qalmıram. Öz mənzilimdə yaşayıram. Yeməyimi-içməyimi də, geyim-gecimimi də bibim verir. Bəlkə onları da öz adına çıxasan?

Şərqiyyə əsəbiləşdi:

— Üzümə düz bax, İlahə.

— Baxa bilmirəm.

Şərqiyyə təəccüblə:

— Niyə?

— Çünki sən mənə ana yox, yad olmusan. Sənin mənə elədiklərini düşmən düşmənə qıymazdı.

— Neyləmişəm, ay başı xarab?

— O sözü bir də mənə demə... Qaldı neyləməyinə...

İlahə dərindən nəfəs aldı. Sonra ağır-ağır dedi:

— Soruşmasaydın, deməyəcəkdim. Gecə-gündüz sən kefdə, mən isə gözləri yaşlı bu evdə qaldığım yadındamı?

— Bu nə sözdü, İlahə? Bəyəm mən işə getməməliydim? Mən həkiməm. Xəstələrə baxıram. Hətta gecə-gündüz bir loxma çörək üçün xəstə üstə evlərədə gedirəm.

— Yox... Onu düz demirsən. Evə kişi gətirməyini də unutmusan?.. Mən dördüncü sinifdə oxuyanda bir dəfə sən şərfini hardasa qoyub gəlmişdin. Evdə tapa bilmədin. Güya, aparıb kiməsə, satmışam deyə məni o ki var döydün. Həmin gün mənə çörək vermədin.

— Yalandı... Böhtandı... Bəlkə dediklərini yuxuda görmüsən?

— Kaş elə olaydı... Altıncı sinifdə oxuyanda, başım dərslərimə qarışdığından, qazın üstə bişən süd daşdı və döşəməyə töküldü. Onda mənim saçlarımdan tutub üz-gözümə vurdun. Məni vanna otağına aparıb başımı unitaza salmağa məcbur elədin. Sənə çox yalvardım-yaxardım. Ürəyin yumşalmaq bilmirdi. Qışqırtıma qonşu Qoşqar müəllimin xanımı da gəldi. Güc-bəla ilə məni sənin əlindən aldı. Unutmusansa, şükürlər olsun, o da yaşayır. Şahid kimi çağıra bilərəm. Buna nə deyirsən?..

— Mən səni tərbiyə eləmək, həyata hazırlamaq istəyirdim, İlahə.

İlahə istehza ilə anasının üzünə baxdı və kinayə ilə güldü: — Ha!.. Ha!.. ha!.. Sonra sözünə davam elədi:





— Elə ağlın varsa... Mən səninlə həyətə düşəndə, küçə ilə yol gedəndə, kimsə sənin qüsurlarını açıb tökəndə, mən ölüb-dirilirəm. Xüsusilə yadına sal qonşumuz Firuzənin üzünə dediyi sözləri... Bunlar azmış kimi, on dörd yaşımda ikən mənə ər tapmağını indi də xatırlayanda özümə də, sənə də qəsd eləmək istəyirəm. Bilirsən, nə elədiyini? Atam on ildən artıqdı ölüb gedib. Ondan bir yolla canını qurtardın. Hər dəfə mən atamın adını çəkəndə, sən ölüb-dirilirsən. Axı niyə? İstəyirəm, o niyəyə cavab verəsən...

— Atan məni biabır elədi. Məhkəmələrə qədər sürüyüb apardı. O, qeyrətsiz əri idi... Sən atanı tanımırdın.

— Kim kimə xəyanət elədi? Kim kimə böhtanlar atdı?.. İftiralar yağdırdı?.. Uşaq olsam da, onlar hamısı mənim gözlərimin önündə baş verib. Əlində sənətin. Evin ayrı. Sağlam canın. İndi məndən nə istəyirsən? Sən çox çalışdın ki, atamın heyfini məndən alasan. Mənə olmazın sitəmlərini elədin, məni əzab-iztirablara qatlaşdırdın... Bəs eləmədi? Rəmalədən əl çəkməyəcəksən?

— Qurtar o fahişə Rəmalədən... O itdən, sıntarmışdan, İlahə.

— Səsini başına atma. Mən indi kimsədən qorxmuram. Qaldı Rəmaləyə verdiyin titullara... Ay yazıq, onları anam olsan da, sən çiyninə götürmüsən... Öz rusvayçı adını başqalarına calaq eləmək yaxşı əlamət deyil.

— Gecələrin birində bıçağı düz kürəyinə sancaram.

— İnanıram. Çünki düşmən sandığın doğmalarını aradan götürmək təcrübən var. Özü də ustalıqla.

Şərqiyyə çaşdı. Əvvəl danışmağa söz tapa bilmədi. Udqundu. Handan-hana dilləndi:

— Başa düşmədim.

— Vaxt gələr, başa düşərsən. Özündən, sifətindən xəbərin

var? Güzgü qabağına keçib bir özünə fikir ver. Elə bil, minilliklərin arxasından gələn qartımış qarısan. Bütün vücudundan iblislik yağır. Səni görməsəydim və mənə nə vaxtsa xarakterizə eləsəydilər, çəkinmədən, böyük həvəslə deyərdim, onu məndən uzaq eləyin. O, bütün insanlıq hisslərini itirmiş qadındı. O, şeytanla oturub-durur. Hər dəfə səni görəndə elə bilirəm, hansısa yad bir qüvvə mənə yaxınlaşır, iki əli ilə ürəyimi sıxmacalayır... Boğuluram... Səni tanıyanlar məni görəndə, sən filankəsin qızısan, deyə soruşanda, tər məni basır.

— Bəsdi, axmaq qız. Nə böyük qanırsan, nə kiçik. Görürəm, indi böyümüsən. Fikirləşirsən ki, sənə gücüm çatmaz?

— Yox, çatar... Ancaq istəyirəm ehtiyatı əldən verməyəsən. Hər axşam yastığımın altına atamdan qalma xəncəri qoyuram... Elə düşünmə ki, səndən atamın qisasını alacağam. Ya mənə elədiklərinin heyfini çıxacağam... Əsla, yox!.. O xəncər özümü səndən müdafiə etmək üçündü.

— Sən dəlisən... Belə getsə, dəlixanalıq olacaqsan.

— Aha... Görünür, dəlixana barədə də düşünürsən... Ancaq o sənə çox baha başa gələr, Şərqiyyə xanım.

— Alçaq... Əclaf qız. Atan dünyasını dəyişəndən bir dəfə də mənə “ana” deməmisən.

— Bəli, deməmişəm. Onun da səbəbləri var... Sən yalançısan... Etibarsızsan... Dəyanətsizsən. Çılğın ehtiraslarını söndürmək üçün doğma balanı da ayaqaltı eləyə bilərsən. Sən günahsız atama ömrün boyu nifrət eləmisən... Xəyanət eləmisən... Sonra da gəlib onunla üzbəüz oturmusan. Gözlərinin içinə baxmısan... Necə? Bax, onu bilmirəm. Şərəfsiz, ləyaqətini itirib ərinə xəyanət eləyən qadınla itin nə fərqi var? Hər ikisi sülənir... İt — yal, qadınsa — çılğın ehtiraslarını söndürmək üçün.

— Bəsdi məni təhqir elədiyin. Mən sənin düşündüyün qədər də yaramaz deyiləm.

— Həqiqətin ağzına daş basmağa öyrəncəlisən. Sən anana,





atana da mənə olan münasibətini bəsləyirsən... Sən yuxudasan... Yuxulaya-yuxulaya da zindanın astanasına qədər gəlib çıxmısan. Onu da biləsən ki, atamın ölümündə Zenurə ilə aranızdakı mübahisədən də xəbərdaram. Gözlərimlə gördüyüm, qulaqlarımla eşitdiyim faktlar məni çox şeyə vadar eləyir, alçaq qadın.

Özünü o yerə qoymayan Şərqiyyə qorxdu və heyrətləndi. Özünü saxlaya bilməyib ağladı və hıçqıra-hıçqıra cavab verdi:

— Sənin nə danışdığını anlamıram, İlahə... Əgər, o, ürəktutmasından ölübsə, bizim burda nə günahımız? Sən çox rəhmsizsən! Rəzilsən!..

— Məni kimsəsiz sən elədin. Lap uşaqlıqdan ümidim Rəmaləyədi. Məni ondan da eləmək fikrindəsən. O mümkün deyil. Təkrar eləyirəm, mənim anam da, atam da, bibim də odur. Ondan savayı ürəyimi açamağa kimsəm yoxdu. Bilirsən, bu nə deməkdi? İçimdə qınadığım, həqarətlə baxdığım, bəzən də danışığı, gülüşü, oturuşu, duruşu... məndə qəzəb, nifrət doğuran qadın ər qatilidirsə, mən ona necə baxmalıyam?

— Düz deyirsən, atan çərləyib öldü. Ölümünü mən də istəməzdim. Ancaq zəhərlənmə... Yoox!.. Yoox!..

İlahə:

— Ailəmizdə baş verən bütün fəlakətlərin banisi sənsən, — dedi və var gücü ilə qışqırdı: — Kəbinli arvadı ərinə xəyanət eləyirsə, sonra da ona qəsd eləyirsə, doğmaca qızı da hər şeyi içinə salaraq durub baxırsa, bu dünya dağılmalıdı, ya yox?! Kim zəmanət verə bilər ki, bundan sonra rəzilliklərə yenə o qapı açılmayacaq? Belə olduğu halda ədalətdən, haqdan danışmağa dəyərmi?.. Mən sənə dəli təsiri bağışlamıram ki? Bəlkə psixiatrik xəstəxanadan həkim çağırtdırasan. Məni dəlixanaya göndərtdirəsən.

— Deyəsən, qızım, həqiqətən də başın xarab olub. Özünü itirirsən. Həyat qəlizdi. Gülmək də, ağlamaq da onun sifətidi. Ancaq aralıq mərhələ də var. Bu mərhələdə nə gülürsən, nə də

ağlayırsan, ancaq susursan. Susmaq, məncə, daha çox işə yarayandı. Elə deyilmi?

— Atasının qəsdinə də doğmaca qızı sussunmu?

— Axmaqlar danışırlar, hiyləgərlər məzmundan özlərinə lazım olanı seçirlər. Bəsdir, qonşular səsini eşidər. Elə bilərlər ki, sənin dediklərin, doğrudan da həqiqətdi.

Telefona zəng gəldi. Dəstəyi Şərqiyyə götürdü. O, qısa və konkret danışdı...

— Hə... Yox... Yaxşı... Oldu.

Sonra telefonu qapayıb üzünü İlahəyə tutdu:

— Mən gedirəm, xəstə gözləyir, — dedi və çantasını götürüb qapıdan çıxdı.

## Etiraz

O günkü söhbətdən sonra Şərqiyyənin beynini sanki qurdlar gəmirirdi. O, qızı ilə təkrar söhbətə oturmaqdan çəkinirdi. Ancaq danışmaya da bilmirdi. Onu da düşünürdü ki, İlahə çox dolaşıq, müəmmalı söz və ifadələr işlədir. Əlində az-çox əsası olmasa, bu qədər cəsarətlə danışmaz... Bazar günü idi. Şərqiyyə qızına dedi:

— Gəl otur, qızım, səninlə açıq danışmaq istəyirəm.

— Sən mənimlə heç vaxt açıq danışa bilməyəcəksən.

— Niyə?

— Özün hər şeyi bilirsən.

— Rəmalə sənin başını elə xarab eləyib ki, səninlə söz danışmağa da cəsarət eləmirəm. Damarlarından axan gorbagorun axan qanı da beynini zəhərləyib.

— Yenə atamı təhqirə keçdin... Yaxşı, danışaq. Onda suallarıma cavab ver: atamı niyə zəhərlədin?

— Mən?

— Bəli!.. Sən. O gün də sənə dedim. Atamın zəhələndiyini





görən Zenurə həqiqəti deyəndə onu otağına salıb niyə hədələdin?.. — Səsin çıxsa, artıq söz-söhbətə yol versən, səni də cinayətə şərik eləyəcəyəm, — cümləsini niyə işlətdin?

— Aaa... On ildən sonra...

— Bəli! Cinayətkar gec-tez cəzasını almalıdı. Aç tök... Əks halda...

İlahə Şərqiyyənin üz-gözündəki gərilmələri diqqətlə süzdü və gözlənilmədən soruşdu:

— Atamı sən zəhərləyib öldürdün! Düzünü de, tez elə, indi də mənim başımı əkmək istəyirsən? Vicdanın oyanıbsa, aç tök. Eşidirsən məni? Atamı sənmi öldürdün? Özü də kofeyə zəhər qataraq. O gecə hər şeydən xəbərsiz Zenurəni evə gətirməkdə məqsədin nə idi? Onu cinayətə şərik eləmək üçün? Gizlətmə... Onsuz da cinayətdən yaxa qurtarammayacaqsan.

İlahə səsinə ara verdi. Tövşüyən nəfəsi kəsilməyə başladı:

— Saxlama, de, özgə çıxış yolun yoxdu. Yoxsa, prokurorluğa telefon açacağam.

— Mən heç kimi zəhərləyib öldürməmişəm. Onu sübut eləmək lazımdı. O ki qalmışdı doğmaca qızımın atasını, illərlə bir yastığa baş qoyduğun adamı... Bu fitnə-fəsada məni qatma, qızım. Allahından qorx... Burda Zenurənin nə günahı?

— Günahı odur ki, cinayəti ört-basdır eləyib. Bilib, xəbər verməyib.

— İlahə, sən nə olsa danışırsan, qızım.

— “Qızım” sözünü az işlət. Sənin dilindən ö sözü eşidəndə, bütün bədənim lərzəyə gəlir, titrəyir... Sənin simanda “ana” sözü mənasızlaşır. Mən səni məhkəməyə verəcəyəm. O gözlənilməz xəbər cəmiyyəti silkələyəcək. Təəssürat o qədər təsirli olacaq ki, sosial şəbəkələr guppuldayacaq. Səni nəinki ölkədə, həm də xaricdə tanıyacaqlar. İctimai fikir günahsız ərin zəhərlənərək öldürülməsi səbəblərinin aşkarlanmasına yönələcək. Mənim — yəni kişinin doğma qızının məsələyə belə münasibəti

hadisələrin məna tutumuna səlislik və dəqiqlik gətirəcək, heyrət və maraq cəlb edəcək... Onda ağlarsan gününə.

— Sən həqiqətən də inanırsanmı ki, atanı mən zəhərləmişəm, yoxsa, əsəblərimlə oynayırsan?

— Həyat çox keşməkeşlidi. Elə ağlagəlməz şeylər baş verir ki, özün də ona məəttəl qalırsan.

— Məsələyə rəng qatma. Ən tünd rəng qaradı. Sənin həyatımıza qatdığın rəng ondan da tünddü.

— Allah! Allah! Hələ görəcəkli həyatım qabaqda imiş... Gör canı canımdan, qanı qanımdan olan qız nələr danışır? Səninki təlxəklikdi, İlahə... Sənin vicdanın da, şərəfin də... Bəsdi, qonşular eşidərlər.

— Günahsızsansa, qonşulardan niyə qorxursan? Qoy eşitsinlər. Həqiqət üzə çıxsın. Mən də bilim sən təmizsən, günahsızsan.

— Sentimentallıq eləmə, İlahə... Sənin həyatın hələ qabaqdadı... Sən ailə qurmalısan. Oğul-uşaq sahibi olmalısan. Mənim yol verdiyim səhvləri sən eləməməlisən. Başa düşürəm, mənə qarşı niyə bu qədər aqressivsən, qəddarsan!.. Sən məni nə qədər alçaldırsan... Hər şey geridə qalıb. Gəl əl-ələ verək, ana-bala bundan sonrakı həyatımızı yaşayaq. Biz özümüzə qarşı çevrildikcə, alçalacağıq. Niyə anlamırsan ki, mən sənin ananam. Mən atanı zəhərləyib səni necə yetim qoya bilərdim? Mənim barəmdə çox bədgümansan. Sənin dediklərini anaya ünvanlamaq olarmı?.. Yanıram... Kimisə öldürməyi kim özünə sığışdırar?

— Sən sus... Danışma... Məzəmmətlərini yığışdır. Sən başqa kişinin qoynuna sərbəst, maneəsiz atılmaq, əl-ayağına dolaşmamaq üçün atamı aradan götürdün. Ondan sonra neçələrinin ağuşuna atıldın. Sənin ehtiraslarının nökərinə dönə-dönə çevrilməyini görəndə mən dəhşətə gəlirəm. Səni bu əllərimlə boğmaq istəyirəm. Bu sirri mən hüquq işçilərinə açmışam. Məni bu hərəkətə vadar eləyən özünsən. Hərdən az qalıram, özümü də





öldürəm. Bilirsən, niyə? Fikirləşirəm, çünki mənim damarlarımda sənin qanın axır.

— Hərzə-hərzə danışma. Mən yazığam, məni el-oba içərisində abırdan salma.

— Yoox... Şərqiyyə, sən ana ola bilmədin. Bil və agah ol. Mənim sənə qanım qaynamır. Məni özünə övlad sanma. Hərdən zavallı atamı da günahlandırıram.

— Onu niyə?

— Çünki atamın sənə olan sevgisi bəsirət gözlərini yumubmuş. Səni tanımağa imkan verməyib ona. Sənin üçün çalışıb... Rahatlığın barədə düşünüb... Sən neylədin? Atamın heysiyyatını tapdaladın. Ürəyini qırdın. Heç yadımdan çıxmaz, balaca vaxtı mən xəstələnəndə, o, başımın üstündən ayrılmadı. Mənim yanımda oturdu. Halım pisləşəndə "can-can" dedi. Göz yaşları axıtdığı indi də gözlərimin önündədi. Dodaqları səyriyirdi. Sən isə səhər iş-güc adı ilə evdən çıxır, bir də axşam qayıdırdın. Onda atam əsəbi olurdu. Sənə mənim yanımda söz demək istəmirdi. Çox zaman yan otaqdan mən sizin səsinizi eşidirdim. Sənə irad tutduğunu anlayırdım. Sən də şit-şit gülərdin. Onda bizi bağlayan ana-bala tellərini özün də bilmədən qırdın. Başqa-başqa adamlara çevrildik. Sən mənimçün yoxsan!...

## Hər kəsin kasası

Ağlamaqdan qızarıb pörtən, gözləri alacalanan İlahədən qardaşının ölümünün müəmmalı səbəblərindən xəbər tutan Rəmaləni dəhşət bürüdü. Bir anlığa nitqi qurudu. Onu üşütmə tutdu. Qıçlarının bədənini saxlamağa taqəti olmadı. Nə az, nə çox, bir həftə yataqdan qalxa bilmədi. Acı xəbəri aldığı andan uzaqlaşdıqca, hadisəyə soyuq başla yanaşmağa çalışdı. İlahənin dediklərini hey götür-qoy eləməyə, inandırıcı qənaətlərə gəlməyə

səy göstərdi.

— Şərqiyyə belə bir cinayətə əl atarmı? — deyə düşünürdü. Nə qədər çək-çevir eləsə də, fikirləri bir nöqtədə cəmləşirdi: "Deməli, qardaşım zəhərlənib". Rəmalə özünə gəlib ayağa qalxdı.

Həmin gün axşam qardaşının zəhərlənməsilə bağlı Şərqiyyə ilə söhbətə yollandı. Qapını döydü. Qapını içəridən İlahə açdı. Salamlaşdılar. Rəmalə soruşdu:

— Şərqiyyə evdədimi?

— Hə... Gəlib. Öz otağındadı.

Rəmalə Şərqiyyənin qapısını döydü. Şərqiyyə hövlnak səslə dedi:

— Kimdi?

— Mənəm, Rəmalə.

— Eşidirəm.

— Yoox... Belə olmaz... Üzbəüz...

Şərqiyyə dərhal Rəmalənin səsindəki əsəbiliyi duydu. İstədi, onunla danışıqdan boyun qaçırsın, xəstəyəm, uzanmışam, indi danışmağa taqətim yoxdu, desin. Sonra da fikirləşdi: "Gəlibsə, mən nə qədər ondan qaçsam da, o, məndən əl çəkməyəcək, məcbur olub danışmalı olacağam. Yaxşısı budur məsələni əsəb, qır-qırğın müstəvisinə qaldırmayım. Sözünü desin".

O, ayağa qalxdı. Yeri ağ, güllü-güllü xalatının düymələrini bağlaya-bağlaya otaqdan çıxdı. Dəhlizdə Rəmaləyə dedi:

— Eşidirəm, xanım. Deyəsən, vaxt-bivaxt bu qapını döyməyə öyrəncəlisən. Bir qardaşın idi, o da dünyasını dəyişdi. Əl çək bu xarabadan da.

Rəmalə əvvəl çaşdı. Nifrətlə Şərqiyyənin gözlərinin içinə baxdı. Sonra əsəblərini cilovlamağa çalışdı.

— Gəl otur, sənə sözüm var... Özü də ciddi.

Rəmalə qabaqda, Şərqiyyə də onun ardınca İlahənin otağına keçdilər. Hərəsi bir stulda əyləşdilər. Rəmalə dedi:





— Şərqiyyə, Zenurə kimdi?

— Mən nə bilim?

İlahə Şərqiyyəyə:

— Nə tez unutdun? Həmkarını tanımırsan?

Şərqiyyə əsəbi halda göz-qaşlarını oynadaraq:

— Sən saxla. Başın girməyən yerə bədənini soxma.

Rəmalə:

— Deyəsən, tanıyırsan... Muxtara zəhəri hansınız içirtdiniz?

Şərqiyyənin sifəti bozardı:

— Nə zəhər? Başınız xarab olub? Mənə atılmamış təkcə bu şəriniz qalmışdı? Ölkədə necə qadın ərindən boşanır... Boşanma təkcə bizim başımıza gəlib? Sözün qurtarıb, Rəmalə? Səni yatdığın yerdə boğduraram. Oddadıb, öldürtdürərəm.

İlahə:

— Zəhər necə? Ən səssizi zəhərdi.

Şərqiyyə:

— Mənim doğma qızıma bax... Gör mənimlə nə dillə danışır. Bir ifritəni qızışdırıb salıb üstümə. Heç səni xoşbəxt olmayasan.

Rəmalə:

— Boğazını cırma. İlahənin xoşbəxtliyini əlindən sən almısan, ifritə... Mən yatmışam. Ölüyəm... Sənə deyirəm, bu qisası səndə qoymayacam, Şərqiyyə. Mənə az hədə gəl. Burdan qalxıb prokurorluğa gedəcəyəm. O hədələrinə də, qardaşımı zəhərləmənə də cavab verərsən.

Şərqiyyənin səsi azacıq endi:

— Xanım, şikayət sizin hüququnuzdu. Hara istəyirsiz, gedin... Ancaq on ilin ölüsünün ruhunu incitmək Allaha da xoş getməz.

İlahə:

— Yalan demirsənsə, səsin niyə titrəyir? Rəngin niyə qaçır?

Şərqiyyə:

— Ayıbdı... İlahə, bu danışdıqlarını eşidib-bilən heç vaxt sənin adını tutmaz. Sən bilmirsən... Sən dünyadan xəbərsizsən. Rəmalə məndən qisas almaq üçün səndən istifadə eləyir. Yadınızda saxlayın, sübut eləyə bilməsəniz, mən sizi böhtançı kimi məhkəməyə verəcəyəm. Onda ağlınız başınıza gələr.

Rəmalə:

— Bizi qorxutma. Şəxsən mən hər şeyə gedəcəyəm. Həqiqət üzə çıxmalıdı... Zenurə hər şeyi açacaq. Bilirəm, meyit də tibbi ekpsertizaya veriləcək. Ərinin qatili olmadığını onda sübut eləyərsən. Eləyə bilməsən, doğmaca qızının üzünə baxa biləcəksənmi? “Mənim övladım” sözünü dilinə gətirəcəksənmi? Ay içi üfunət verən, bədbəxt... Üzünə də tüpürən olmayacaq.

Şərqiyyə özünü itirdi. Cəld oturduğu stuldan qalxıb Rəmalənin boğazını yığışdırdı. İlahə Şərqiyyənin qolundan bərk-bərk tutdu və onu geri çəkməyə başladı. Rəmalə çətinliklə boğazını Şərqiyənin əlindən çıxartdı və onun qarnına bir neçə təpik vurdu, saçlarından yapışıb ayaqlarının altına saldı.

Şərqiyyə qışqırdı:

— Allah, öldüm. Məni öldürməyin. Yazığam. Mən günahsızam. Sizi kimsə aldadıb. Mən cinayətkar deyiləm... Məni buraxın...

Elə bu vaxt qapı döyüldü. Rəmalə Şərqiyyənin saçlarını buraxdı və İlahəyə dedi:

— Qapını aç, qızım.

İlahə qapını açdı. Qonşu Fərəh xanım içəri girdi. Rəmalə əsəblərini boğmağa çalışdı. Fərəh Şərqiyyənin üzünə baxıb başını yellədi:

— Şərqiyyə, sənə bu da azdı. Aranızdakı söhbətdən bütün qonşular halidilər. Yadında saxla: nə tökmüsən aşına, o da çıxacaq qaşığına. Qonşular səndən bezib. Onlar sənə neçə dəfə demişdilər: “Ərinə xəyanəti yığışdır. Ərin yaxşı adamdı. Onunla yola get”. Muxtarın meyitini qapıdan çıxarandan sonra da o zavallıdan əl çəkmədin. Hər gün onun ruhunu təhqir elədin... Qızını özünə övlad bilmədin. Gündə bir şeyi bəhanə eləyib cılız uşağı cəzalandırdın... Bir sözlə, Allahına bəndəlik eləmədin. Yoluna qayıtmadın... Muxtarın ruhu, İlahənin əzabları, Allahını başın üzərində görməməyin sənə çox baha başa gələcək. “Özü yıxılan ağlamaz” deyiblər.





Bu vurhavurdan sonra Rəmalə İlahəyə dedi:

— Gedək, qızım, hər kəsin kasası öz başında sınacaq...

## Eləmisən, eləyəcəklər...

Axşamüstü Rəmaləni, Şərqiyəni və İlahəni prokurorluğa apardılar. İlahə özünü nə qədər sərbəst aparmağa çalışsa da, onun həyəcanı anbaan artırdı. Şərqiyyə isə özündə deyildi. Muxtarın zəhərlənməsilə bağlı onlara bəzi suallar verdilər. Hər kəs öz mövqeyinin üstə dayandı. İlahə atasının zəhərlənməsini, Şərqiyyə isə keçmiş ərinin “ürəktutmasından” öldüyünü israr edirdilər. Arabir Zenurəni də şahid kimi göstərirdilər. Çox çəkmədi ki, Zenurə xanımı da müstəntiqin otağına gətirdilər. Müstəntiqin “Muxtarın zəhərlənməsilə bağlı sən nə deyə bilərsən?” — sualına Zenurə “sandığı açıb pambığı tökdü...”. Görüb şahidi olduqlarını əvvəl ağlamsına-ağlamsına, sonra gözlərinin qarasını tökə-tökə bircə-bircə danışdı. Hamının matı-mutu qurudu. Bir an araya sakitlik çökdü. Müstəntiq İlahəyə dedi:

— Atanın zəhərlənməsini sən də təsdiq eləyirsən?

— Bəli!

— Nə baş verdi?

— Atam yataqdan qışqırıb qalxdı. İki dəfə: — Məni zəhərlədilər, — dedi. Qarnını tutdu... Mən: — Kim zəhərlədi? — deyə soruşduqda, o, sözünün ardını gətirə bilmədi. Yeyib-içdiklərini qaytardı.

— Rəngi necə idi?

— Yaşıla çalırdı. Ancaq sonuncu dəfə qusanda ağzından qan gəldi...

— Elə isə otur, gördüklərini və eşitdiklərini olduğu kimi izahatında yaz...

İlahə bildiklərini yazdı. Müstəntiq izahatı alıb oxudu və soruşdu:

— Nə üçün on ildən sonra sən bu məsələyə qayıtdın?

— Atamın zəhərlənməsini araşdırmaq, həqiqəti öyrənmək məsələsi məndə əzəldən vardı. Ancaq bir dəfə anamın atamın portreti qarşısında dayanıb dediyi sözləri eşitdim:

Müstəntiq:

— Anan nə dedi?

— "Sən məni rüsvay elədin... Mənə güzəştə getmədin. Qisas hissi məndə dəhşətli dərəcədə baş qaldırdı, sənə qarşı güclü nifrət oyatdı. Səni zəhərlədim... Səni də, özümü də məhv elədim. İmanıma tüpürdüm, dinimi tapdaladım. Allahımı ayaqladım. Mən caniyəm... Qatiləm... O dünyamı da məndən aldın". Onda mən tam yəqinləşdirdim ki, atamın qatili anamdı. Onun zəhəri mənim də canıma hopub. Bax, budur həqiqət... O vaxtdan əsəbi olmuşam. Kimlə necə danışmaq lazım olduğunu bilmirəm. Hamını atamın ölümünün baisi sanıram. Hətta özüm də anama "ana" deyə bilmirəm. O, ana deyil, kor yapalaqdı. Bayquşdu. Ancaq düşünürəm ki, cinayəti bilib gizlətdiyim üçün mən də günahkaram, cinayət məsuliyyətinə mən də cəlb olunmalıyam. Çox fikirləşirdim: atamın qatilini məhkəmə kürsüsündə necə oturdum? Mənim əvəzimdə siz necə edərdiniz? Bilirəm, mənə ədalət mizan-tərəzisi göstərəcəksiniz, cənab müstəntiq.

Müstəntiq təəccübləndi, sonra Şərqiyyədən soruşdu:

— Səni bu cinayəti törətməyə nə vadar elədi?

— Hikkəm. Muxtara nifrətim. Bir də rəfiqəm Zenurə.

— Sən Muxtardan ayrılmışdın. Ola bilməzdi ki, ixtiyarında





olan otağı satıb başqa yerdə özünə ev alaydın? Qaldığın evdən çıxaydın?

— Olardı.

— Bəs niyə almadın?

— Zenurə mənə dedi: — Getmə. Gec-tez Muxtar özü bezib evdən gedəcək. Mən axmaq da onun sözünə baxdım.

— Zəhəri hardan əldə elədin?

— Zenurədən...

— Sənin dediklərini Zenurə boynuna alacaqmı?

— Yaramazlıq, ifritəlik eləməsə, elədiyini niyə də etiraf eləməsin?

— Gördünmü, Şərqiyyə, nahaq qan yerdə qalmır.

— Gördüm. Kaş Zenurənin sözlərinə inanıb o dəhşətli qələti eləməyəydim. İndi də cavabını verməli oluram, cənab müstəntiq.

— Otur, cinayəti necə törətdiyini yaz.

Şərqiyyə izahat yazdı. Müstəntiq onu kameraya göndərib Zenurəni otağına çağırtdırdı və sorğu-suala tutdu:

— Mərhum Muxtar ölən gecəsi sən harda idin?

— Şərqiyyəgildə.

— Deyə bilərsənmi, Muxtar nədən keçindi?

— Zəhərlənmədən.

— Onu kim zəhərlədi, xanım?

— Cənab müstəntiq, daha mən xanım deyiləm. Şərqiyyə məni ifritəyə, caniyə, cinayətkara çevirdi.

— Sualıma cavab vermədin. Təkrar eləyirəm, mərhumu kim zəhərlədi?

— Şərqiyyə.

— Şərqiyyənin Muxtarı zəhərləyəcəyindən əvvəlcədən xəbərin vardımı?

— Yoox...

— Bəs sən həmin gecə Şərqiyyəgilə niyə getmişdin?

— Kaş qıçlarım qırılaydı, müstəntiq, onlara getdiyim yerdə, Şərqiyyə məni canıyananlıq eləyib evinə qonaq apardı. Yedik-içdik. Muxtar da xəstə idi. Öz otağında yatırdı. Danışmağa əzab çəkirəm. Gərək vaxtında cinayətin üstünü açaydım...

— Niyə başqasını yox, evə səni dəvət elədi?

— Hadisə baş verəndən sonra anladım ki, məni cinayətə qoşmaq üçün aparıb.

— Axı niyə?

— Mən toksimoloqam. Muxtarın zəhərlənməsindən şübhələnən olsa, adamları hədəfdən yayındıram. Deyəm ki, mən toksimoloqam. O zəhərlənmədən yox, ürəktutmasından keçinib.

— Sən Muxtarın zəhərləndiyini nədən bildin?

— Təkrar eləyirəm, axı, mən toksimoloqam. O sahənin mütəxəssisiyəm... Cənab müstəntiq, mən zəhərlənməni dərhal aşkarladım. Bunu İlahəyə də, Şərqiyyəyə də eşitdirdim. Şərqiyyə dərhal mənə hədə-qorxu gəlməyə başladı.

— Şərqiyyə zəhəri kimdən alıb?

— Onu deyə bilmərəm.

— Deməli, zəhərlənmədən əvvəlcədən xəbəriniz olmayıb və onun iştirakçısı da deyilsiz.

— Tamamilə doğrudur.

— Sən Muxtarın zəhərlənməsini bilə-bilə niyə hüquqmühafizə orqanlarına məlumat vermədin?

— Yenə deyirəm. Məni şərləyəcəyi, cinayətinə şərik çıxaracağı ilə hədələdi. Mən də qorxdum.

— Şərqiyyə sənə nə dedi?

— Səsin çıxsa, deyəcəyəm, cinayəti ikimiz törətmişik.

— Hadisəni olduğu kimi yaz, ver mənə.

Zenurə izahatı təfərrüatı ilə yazıb müstəntiqə verdi. Müstəntiq oxudu və qovluğa qoydu, sonra astadan dedi:

— Hər bir adamın başına belə bir hadisə gələ bilər. Yuxuda da, aşkarda da. Sevincdən də, qorxudan da. Heç birimiz nə xəstəlikdən, nə də türmədən sığortalanmamışıq. Məhkəmə hər kəsin hüququnu ədalətlə dəyərləndirəcək... Gərək özümüzə düzlük aşılayaq.





Müstəntiq üzünü İlahəyə tutdu:

— Qəbrin açılaraq meyitin çıxarılmasının və ekspertizaya göndərilməsinin tərəfdarısanmı?..

— Həqiqətin üzə çıxması naminə: Bəli!

Bundan sonra müstəntiq Rəmalənin üzünə baxdı və soruşdu:

— Siz necə, Rəmalə xanım, qəbrin açılmasına razısınızmı?

— Həqiqət öz yerini tutmalıdı, cənab müstəntiq. Bu hadisə ərinə qəsd, doğma balasına zülm eləyən hər bir qadının simasında, — əgər, ona qadın demək mümkünsə, — bütün qadınlara görk olmalıdı. Allah həqiqətdi, ədalətsə... onun qanunudur. Açılsın qəbir... Hamı görsün, kim kimdi...

— Məhkəmənin qərarı ilə ərini zəhərlədiyi üçün Şərqiyyənin və cinayəti bilib ört-basdır elədiyinə görə Zenurənin barəsində üç aylıq həbs qətimkan tətbiri seçildi.

Bunu anlayan Şərqiyyə o andaca şabbıltıyla yerə yıxıldı və ürəyi dayandı. Anasının ölümündən məyusluq hissi keçirən İlahə yerindəcə donub qaldı. Bir anda qanı coşan İlahənin anasına yazığı gəldi. Tez də onun içində uşaqlıqdan özünə məskən salan nifrət doğmaqda olan davamsız mərhəməti uddu...

Bunu görən Zenurə hədsiz həyəcanlı və heyrət içərisində "Vay", "Vay" — deyə baş-gözünə döydü, üz-gözünü cırmağa başladı. Müstəntiq səs-küy salan Zenurəni mühakimə olunmaq üçün kameraya göndərdi.

# İçindəkilər

## Qasırğa

Proloq əvəzi....................................................................3
İstanbulla tanışlıq.............................................................4
Hoteldə ilk gecə..............................................................11
Xeyirxah.........................................................................19
Analizlərin vahiməsi.......................................................25
Əməliyyata hazırlıq....................................................... 29
Səmimi söhbət................................................................35
Səfehlərin səfehliyi....................................................... 45
Xorultu............................................................................54
Polkovnikin gileyi...........................................................57
İlkin yaxınlaşma............................................................. 61
Nigarançılıq....................................................................66
Uğurlu əməliyyat............................................................70
Xəyal pərisi....................................................................73
Möcüzə...........................................................................85
Yataqxana həyatı............................................................97
Nişanəylə tanışlıq......................................................... 106
Ruh................................................................................115
Əsgəri xidmət, yoxsa əks-kəşfiyyat..............................118
Gizir, yoxsa polkovnik..................................................125
Palataya qayıdış............................................................129
Tarixin dönəmi: yoxsa, açılan gizlinlər.........................135
Palatada görüş...............................................................145
Yağışdan sonra..............................................................152
Yalquzağa bənzərlik......................................................157





Gecə düşüncələri..........................................................171
Dəvət.............................................................................174
Gözlənilməz faciə.........................................................179
Əbədiyyət..................................................................... 185
Uçuş meydanında..........................................................188
Epiloq əvəzi.................................................................. 191

## Nişan üzüyü

Qəza............................................................................. 194
Çaşqınlıq.......................................................................203
Yasda.............................................................................215
Özü yıxılan ağlamaz......................................................222
Müstəntiqin xəstəxanaya gəlişi.....................................229
Donuzu hızzamasan...................................................... 237
Salehin mərəzi...............................................................246
Ərdən oğurluq............................................................... 252
Hiylə aşkarlandı............................................................261
Sübhan-ən nəzin............................................................268
Viloş xəstəxanada.........................................................279
Bu da Viloş...................................................................289
Naqanım olsaydı............................................................296
Sərxana təskinlik.......................................................... 300
Bacı-qardaş qarşılaşması..............................................307
Müstəntiqlə görüş.........................................................315
Getməyə yeri yoxdu......................................................320
Telefon zəngi................................................................325
Nişan üzüyü..................................................................330
Xeyirsiz adamlar...........................................................338
Heyf, cavanlardan.........................................................345
Hoqqabaz dünyanın oyunbazları..................................358
Satqınlığın nəticəsi...................................................... 367
Prinsipə sadiqlik........................................................... 372

Sövdələşmə....380
Böyük dərd....386
Ağac bulamazlar....394
Sarsıntı....398
Yalan həqiqəti pərdələyir....406
Telefon danışığı....413
Son görüş.... 418

## Qisas

Boz buludlar....424
Ehtimal.... 439
Uğur olsun....447
Fakt....457
Arvadın evdən qaçışı....463
Haydı....469
Axı, o, yetimdi....476
Birlikdə olacaq.... 481
İş yerində.... 490
Uşaq valideyndən çox cəmiyyətindi....493
İşvəkarlığın köləsi....499
Məhkəmənin qərarı.... 505
Xətalı ana....510
Müəmmalı talelər.... 514
Təşəkkür....518
Başı əkildi....524
Bir gecənin oyunu....528
Anadan qorxmazlar....532
"Utanmadın"....535
Hiyləgərlik....539
Etiraz....544
Hər kəsin kasası.... 547
Eləmisən eləyəcəklər....551





**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2015, 558 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 03.08.2014*
*Çapa imzalanıb: 07.09.2014*
*Həcmi: 35 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

Ağarəhim Rəhimov Əsərlər

Ağarəhim Rəhimov Əsərlər

338

*Ağarəhim Rəhimov* *Əsərlər*

339

Ağarəhim Rəhimov Əsərlər

340

Ağarəhim Rəhimov Əsərlər

341

*Ağarəhim Rəhimov* *Əsərlər*

342

*Ağarəhim Rəhimov* *Əsərlər*

343

Ağarəhim Rəhimov Əsərlər
344

*Ağarəhim Rəhimov* *Əsərlər*

345

*Ağarəhim Rəhimov* *Əsərlər*

346

*Ağarəhim Rəhimov* *Əsərlər*


347

*Ağarəhim Rəhimov* *Əsərlər*

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

*Ağarəhim Rəhimov* *Əsərlər*

350

*Ağarəhim Rəhimov* *Əsərlər*

351

*Ağarəhim Rəhimov* *Əsərlər*

352

*Ağarəhim Rəhimov* *Əsərlər*

353

*Ağarəhim Rəhimov* *Əsərlər*

354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

Ağarəhim Rəhimov Əsərlər

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

*Ağarəhim Rəhimov* *Əsərlər*

358

*Ağarəhim Rəhimov* *Əsərlər*


359

*Ağarəhim Rəhimov* *Əsərlər*

360

*Ağarəhim Rəhimov* *Əsərlər*

361

Ağarəhim Rəhimov Əsərlər

362

*Ağarəhim Rəhimov* *Əsərlər*


363